HEYDƏR ƏLİYEV

100

**Azərbaycan xalqının Ümummilli Lideri**
**Heydər Əliyevin 100 illik yubileyinə**
**ithaf olunur**



Azərbaycan xalqının Ümummilli Lideri

**Heydər Əliyev**

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

Nizami Cəfərov

# HEYDƏR ƏLİYEV:
## DİL, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

BAKI – BDU –2023

Bakı Dövlət Universiteti Elmi Şurasının 27 oktyabr 2023-cü il tarixli
iclasının qərarı ilə (pr. № 11) nəşr olunur

İdeya müəllifi: **Elçin Babayev** - Bakı Dövlət Universitetinin rektoru

Elmi redaktorlar: **Nəriman Həsənzadə,** Xalq şairi, Əməkdar incəsənət xadimi
**Əliş Ağamirzəyev**, filologiya üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Cahangir Məmmədli**, filologiya üzrə elmlər doktoru, professor
**Elçin Məmmədov**, filologiya üzrə fəlsəfə doktoru, dosent

**Nizami Cəfərov. Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət.** Bakı: BDU Nəşr Evi, 2023. — 320 səh.

Kitabda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan dili, ədəbiyyatı və incəsənətinin inkişafındakı tarixi xidmətləri barədə geniş təsəvvür yaradılır. Azərbaycan mədəniyyətinin bu sahələrinin hər birində Ulu Öndərin gördüyü işlərin, həyata keçirdiyi layihələrin xalqın ideya–mənəvi tərəqqisinə strateji təsiri əsaslandırılır. Konkret faktlara istinadən göstərilir ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda gerçəkləşdirdiyi mədəniyyət siyasəti bu gün uğurla tətbiq olunmaqla yanaşı, yeni imkanlarını, perspektivlərini də nümayiş etdirir.

ISBN:  978-9952-546-80-4

© Bakı Dövlət Universiteti, 2023
© Nizami Cəfərov, 2023

# İÇİNDƏKİLƏR

Ön söz ........ 7
Giriş ........ 11

## Birinci hissə. DİL

I fəsil. "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir" ........ 36
II fəsil. Azərbaycanın dövlət dili Azərbaycan dilidir ........ 57
III fəsil. Azərbaycan dili təliminin miqyası...
Və Dünya azərbaycanlıları ........ 86

## İkinci hissə. ƏDƏBİYYAT

I fəsil. Klassiklərin müasirliyi ........ 108
II fəsil. Azərbaycan ədəbiyyatı tarixinin Heydər Əliyev dövrü ........ 156
III fəsil. Ədəbiyyatın ümumtürk üfüqləri ........ 214

## Üçüncü hissə. İNCƏSƏNƏT

I fəsil. Musiqi ........ 246
II fəsil. Təsviri sənət ........ 278
III fəsil. Teatr, kino, televiziya ........ 296

# ÖN SÖZ

2023-cü il xalqımızın və dövlətimizin taleyinə yeni bir tarixi mərhələnin başlanğıcı kimi əbədi həkk olundu. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyi bir zamanda ölkədə baş verən ictimai-siyasi hadisələrin sürətli inkişafı, dövlətimizin qüdrətinin günbəgün artması bir xalq olaraq sevincimizi, gələcəyə inamımızı daha da artırdı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yüksəliş və Zəfər tariximizin yeni və parlaq səhifələrinin yazılması, ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması, illərlə həsrətində olduğumuz tarixi torpaqlarımızda – Xankəndi, Ağdərə, Xocalı, Əsgəran və Xocavənddə də Azərbaycan bayrağının əbədi ucaldılması yubiley ilinin möhtəşəmliyini hüdudsuz etdi.

Qarabağımızın simvolu Şuşaya həsr olunmuş ildən sonra Zəfərlərimizin memarı Ulu Öndər Heydər Əliyevə həsr olunmuş ilin qeyd olunmasının böyük rəmzi mənası, tarixi əhəmiyyəti vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında 2022-ci il 29 sentyabr tarixli Sərəncamı mühüm ictimai-siyasi mahiyyət daşıyan tarixi sənəddir. Sərəncamda əksini tapan fikirlər ötən günlərimizə nəzər salmaq, dövlətimizin bugünkü inkişaf səviyyəsinə hansı çətinliklərdən keçərək gəlib çatdığımızı bir daha aydınlaşdırmaq və eyni zamanda gələcək hədəflərimizə nail olmağımız üçün mükəmməl bir proqram, aydın bir yol xəritəsidir. Sərəncamda yer almış fikirlər tariximizin böyük bir epoxasının lakonik, eyni zamanda müdriklik və məntiqlə əksini tapmış inikasıdır: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur".

2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsini, bütün xalqımız kimi, Bakı Dövlət Universitetinin (BDU) kollektivi də yüksək əhval-ruhiyyə ilə qarşıladı. Bu tarixi ildə 104 yaşlı BDU-nun professor-müəllim heyəti və tələbələri doğma universitetimizin inkişafına və tərəqqisinə əvəzsiz töhfələr vermiş, universitetimizi "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı"

adlandıran, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək ona yüksək dəyər verən Ulu Öndərimiz, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı silsilə tədbirləri təşkil etməyi, bu tədbirlərdə ən yüksək səviyyədə təmsil olunmağı özünün ali məqsədi hesab edir. Kollektivimizin hər bir üzvü bu tarixi ilin, tarixi günlərin, tarixi anların bir hissəsi olmaq, Ulu Öndərin zəngin dövlətçilik irsinin, azərbaycançılıq ideologiyasının daha dərindən öyrənilməsi və təbliği üçün səylə çalışır, alimlərimiz dahi şəxsiyyətin mənalı ömrünü, böyük dövlətçilik fəaliyyətini əhatə edən yeni-yeni əsərlər, kitablar ərsəyə gətirirlər.

Hər zaman Ulu Öndərin zəngin irsinin təbliğini, bu irsin gənc nəslə aşılanmasını özünün ali məqsədlərindən biri hesab edən BDU kollektivi "Heydər Əliyev İli"ndə bu istiqamətdə geniş tədbirlər həyata keçirmək məqsədilə layihələr hazırlamış, Universitetin Elmi Şurasında Tədbirlər Planı qəbul olunmuşdur. Tədbirlər Planında Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin həyatı və çoxşaxəli fəaliyyəti ilə bağlı elmi-tədqiqat işlərinin aparılması, beynəlxalq konfransların, seminarların, dəyirmi masaların keçirilməsi, müsabiqələrin təşkil edilməsi, kitabların hazırlanması, xüsusi mühazirələrin və dərslərin təşkili və s. kimi mühüm məsələlər əksini tapmışdır.

Tələbə gənclər arasında Ulu Öndər Heydər Əliyev irsinin təbliği məqsədilə BDU-nun və ölkənin nüfuzlu elm adamları, ictimai xadimlər silsilə mühazirələr oxuyur, xüsusi dərslərdə, dəyirmi masalarda, görüşlərdə xalqımız və dövlətimizin ötən əsrin 70-ci illərindən başlayaraq əldə etdiyi bütün uğurlarının təməlində xalqımızı ağır sınaqlardan siyasi müdriklik və məharətlə, əzm və iradə ilə, dühasının və idrakının yenilməz gücü ilə çıxartmış, dövlət müstəqilliyinə, tərəqqiyə və dayanıqlı inkişafa qovuşdurmuş dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasətinin, nurlu əməlləri və parlaq simasının dayandığı haqqında ətraflı məlumat verilir, Heydər Əliyev irsinin öyrənilməsinə həsr olunmuş elmi-tədqiqat işlərinin nəticələri beynəlxalq və respublika səviyyəli elmi konfranslarda, elmi seminarlarda, həmçinin rayon icra hakimiyyətləri və elm, təhsil və yaradıcılıq təşkilatları ilə birgə təşkil olunan konfranslarda ictimaiyyətə təqdim edilir.

Ulu Öndər Heydər Əliyev bütün ömrünü Azərbaycanın siyasi, iqtisadi, mədəni həyatının inkişafına sərf etmiş, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması üçün əlindən gələni əsirgəməmişdir. Xüsusilə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında, ana dilimizin həm ümumxalq dili kimi geniş istifadəsində, həm dövlət dili kimi inkişafında, həm də incəsənət nümunələrimizin beynəlxalq səviyyədə tanıdılmasında Ulu Öndər Heydər Əliyev misilsiz xidmətlər göstərmişdir. Ümummilli Lider Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tutur. Onun dil siyasəti dövlət quruculuğu siyasətinin tərkib hissəsi kimi daim xüsusi əhəmiyyət kəsb edib. Ulu Öndər Azərbaycan dilinə xalqımızın milli sərvəti, qədim və zəngin tarixi, öz ənənələri olan bir irs kimi yanaşıb. Hələ sovet

hakimiyyəti illərində, Azərbaycana birinci rəhbərliyi dövründə dilimizin dövlət dili statusu alması, Azərbaycan dilçiliyinin inkişafı üçün böyük xidmətlər göstərib.

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim mədəniyyət və incəsənətin inkişafına da böyük qayğı göstərmiş, dahi şair və yazıçılarımızın, incəsənət xadimlərimizin yubileyləri dövlət səviyyəsində qeyd olunmuş, bu sahənin nümayəndələrinə fəxri adlar verilmiş, mədəniyyət müəssisələrinin bərpası və yenidən qurulması prioritet vəzifələrdən olmuşdur. Heydər Əliyev milli mədəniyyətə, ədəbiyyata xalqımızın milli-tarixi varlığının tərkib hissəsi kimi baxmış, bu dəyərlər onun Vətən sevgisinin əsas göstəricilərindən birini təşkil etmişdir.

Ümummilli Lider Heydər Əliyev mədəniyyət və incəsənətin bütün sahələrinə dərindən bələd olan nadir bir şəxsiyyət kimi Azərbaycanın mədəniyyət və incəsənətinin inkişafına xüsusi diqqət yetirmiş, milli mədəniyyət və incəsənətimizi hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyi hesab etmişdir. Onun ədəbiyyat və incəsənət xadimlərinə, dahi bəstəkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Niyazi, görkəmli rəssamlarımız Tahir Salahov, Mikayıl Abdullayev, Lətif Kərimov, şair və yazıçılarımız Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov və onlarla digər söz və sənət adamlarına göstərdiyi qayğı, Sovet hakimiyyətinin ən sərt qadağaları dövründə yaradıcı şəxsləri təqib və təzyiqlərdən qoruması, milli ədəbiyyat və mədəniyyətimizin boğulmaması üçün göstərdiyi xidmətlər haqqında hələ çox danışılacaqdır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinə, ədəbiyyatına və incəsənətinə göstərdiyi tarixi xidməti və siyasi kursu bu gün daha böyük miqyasda davam etdirilir. Dahi şəxsiyyətin ideyaları, mədəniyyət siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən böyük müvəffəqiyyətlə həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda əsasını qoyduğu mədəniyyət siyasəti bu gün uğurla tətbiq olunmaqla bərabər, həm də yeni imkanlarla, çalarlarla inkişaf etdirilir. Dövlətimizin Azərbaycan mədəniyyətinin inkişafı istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər həm ölkəmizdə, həm də beynəlxalq aləmdə böyük əks-səda doğurur.

Universitetin alimlərinin Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi, iqtisadiyyatı, hərbi qüdrəti, ədəbiyyatı, mədəniyyətinin və s. inkişafı, milli ordu quruculuğu, beynəlxalq münasibətlərin yaradılması istiqamətində misilsiz xidmətlərini elmi əsaslarla daha dərindən tədqiq edərək əldə olunan nəticələri ictimaiyyətə təqdim etməsi, gənc tədqiqatçıların, tələbə və magistrantların istifadəsinə verməsi, xüsusilə təqdirəlayiqdir. Nüfuzlu alimlərimizin hazırladığı bu kitablar gələcəkdə elmi-tədiqiqat işləri üçün mötəbər mənbə olacaq, Ulu Öndərin tarixi xidmətlərinin, azərbaycançılıq ideologiyasının gələcək nəsillərə ötürülməsinə öz töhfəsini verəcəkdir.

Bu baxımdan BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, AMEA-nın həqiqi üzvü, professor Nizami Cəfərovun ciddi elmi araşdırmalarının məhsulu olan "Heydər Əliyev: dil, ədəbiyyat, incəsənət" kitabı Ulu Öndərin ana dilimizin saflığının qorunması, inkişafı, milli ədəbiyyatımızın və incəsənətimizin çiçəklənməsi istiqamətində müqayisəyəgəlməz xidmətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

BDU-nun "Heydər Əliyev İli" ilə bağlı Tədbir Planı əsasında hazırlanmış bu kitabda, əminik ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan dili, ədəbiyyatı və incəsənətinin inkişafındakı misilsiz və tarixi xidmətlərilə daha ətraflı tanış olacaq, Azərbaycan mədəniyyətinin inkişafı istiqamətində Ulu Öndərin gördüyü işlərin xalqımızın ideya-mənəvi tərəqqisinə təsiri haqqında daha dolğun məlumat alacağıq.

**Elçin Babayev**
Bakı Dövlət Universitetinin rektoru

# Giriş

Heydər Əliyev Azərbaycanın ən qədim, etnoqrafik baxımdan zəngin, koloritli məkanlarından biri Naxçıvanda dünyaya göz açmış, ilk təhsilini burada almış, milli dil, ədəbiyyat və incəsənət barədəki ilk təsəvvürləri burada formalaşmışdır. Sonralar təhsilini Bakıda, Leninqradda davam etdirməsi, əlbəttə, 30-cu, 40-cı illərin istedadlı, intellektual (və eyni zamanda dövrün tələblərindən irəli gələn zəhmətkeş!) gəncinin dünyagörüşünə əhəmiyyətli təsir göstərsə də, tərcümeyi-halının Naxçıvan "dərslər"i nəinki unudulmamış, əksinə, ruhunun, mənəviyyatının, təbiətinin mental (və fundamental!) əsası kimi həmişə, bütün ömrü boyu onu müşayiət etmişdi. 2002-ci ilin iyun ayında Naxçıvana səfəri zamanı görüşlərin birində demişdi ki, "mən birinci gün, sevdiyim müəllim Lətif Hüseynzadə ilə görüşdüm. Elə bil ki, dünən idi. Mənim yadımdadır, o, Azərbaycan dili dərsi keçirdi. Məndən bəzən soruşurlar, axı siz təhsilinizin əsas hissəsini rus dilində almısınız, işlərinizin hamısı, demək olar ki, o dövrün tələblərinə görə rus dilində gedibdir. Bəs nə cür olubdur ki, Azərbaycan dilini bəzi azərbaycanlılar kimi unutmamısınız? Onlar heç əvvəl də bilməyiblər ki unutsunlar, o qədər bilməyiblər. Beləlləri, xüsusən Bakıda çoxdur. Burada beləlləri azdır. Burada hamısı Azərbaycan dilində yaxşı təhsil alır və Azərbaycan dilini yaxşı bilən adamlar çoxdur. Ona görə də mən onlarla yarışa girmək istəmirəm. Bilirəm ki, onlar güclüdürlər. Amma o illər Lətif müəllimin, təkcə Lətif müəllimin deyil, başqa müəllimlərimizin də bizə verdiyi dərslər, şəxsən mənə verdiyi dərslər və tövsiyələr bu günə qədər yadımdadır və bütün həyatımda həmişə mənə kömək edibdir".

Heydər Əliyevin məhz "Azərbaycanın Heydər Əliyevi" kimi formalaşmasının nəticəsi idi ki, o, sovet ideologiyasının, sosialist beynəlmiləlçiliyinin tüğyan elədiyi dövrlərdə, hətta sovet dövlətinin, kommunist rejiminin ən yüksək idarəçilik pillələrilə yüksəldiyi illərdə belə öz milli mövqeyində hər hansı tərəddüdə yol vermədi. İstər dövlət təhlükəsizlik orqanlarında çalışdığı, istər Azərbaycan SSR-ə başçılıq etdiyi, istərsə də SSRİ-nin rəhbərlərindən biri olduğu zamanlarda Heydər Əliyev bir azərbaycanlı olaraq qaldı. Və heç bir şübhə yoxdur ki, o, "Azərbaycanın Heydər Əliyevi" olmasaydı, mənsub olduğu xalq, ölkə, dövlət də "Heydər Əliyevin Azərbaycanı" olmazdı. Onun milli təəssübkeşliyi, nə qədər beynəlmiləl miqyas alsa da, milli

mövqeyi, hətta kommunist ideologiyasının kifayət qədər sərt, ictimai əxlaqa çevrilmiş prinsipləri qarşısında geri çəkilmir, bəzən ən yüksək tribunalardan da səslənirdi. Məsələn, Azərbaycan KP MK-nın 27 dekabr 1977-ci il tarixli plenumunda demişdi:

“Yaradıcılıq İttifaqları qarşısında böyük və məsul vəzifələr durur. Özlərinin bütün fəaliyyəti ilə onlar bədii yaradıcılığın daha da inkişaf etməsinə, ölkənin və respublikanın həyatında dərin dəyişikliklərin ədəbiyyat və incəsənət əsərlərində parlaq şəkildə əks olunmasına, yeni insanın mənəvi simasının, xalqın qəhrəmanlıq ənənələrinin açılıb göstərilməsinə, cəmiyyətin mənəvi sərvətlərinin artırılmasında bədii yaradıcılıqla məşğul olan ziyalıların, mədəniyyət müəssisələrinin rolunun yüksəlməsinə kömək etməlidirlər”.

Azərbaycan kommunistlərinin lideri bütün miqyası ilə görür (və tamamilə doğru nəticəyə gəlirdi) ki, repressiyaların, dünya müharibəsinin, iqtisadi çətinliklərin imtahanından çıxmış, bir-birinin ardınca heç də az olmayan psixoloji, mənəvi, ruhi təcavüzlərlə üzləşmiş cəmiyyəti, insanı hansısa siyasi qərarlar, rəsmi direktivlərlə deyil, milli ruhun dərin qatlarından gələn səmimi (və təsirli) sözün qüdrəti ilə hərəkətə gətirmək, qurub yaratmağa həvəsləndirmək, normal həyat enerjisi, ritmi ilə təmin etmək olar. Çünki kommunistlər partiyası özü barədə apardığı təbliğatın bütün ardıcıllığına, intensivliyinə rəğmən, bir neçə dəfə elə ciddi qüsurlara yol vermişdi ki, artıq, demək olar ki, tamamilə nüfuzunu itirmişdi. Və 70-ci illərdən etibarən onun özünü xilas etmək lazım idi.

Heç də təsadüfi deyil ki, 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Heydər Əliyevin ən rəsmi tədbirlərdəki çıxışlarında belə “partiyalılıq, vətəndaşlıq pafosu” ilə yanaşı “sosial-mənəvi problemlərin kəskin surətdə qaldırılması” ön plana çəkilir, təqdir olunur, eyni zamanda birincidən daha çox ikinciyə üstünlük verilir. Azərbaycan SSR-ə “Lenin” ordeni təqdim edilməsinə həsr olunmuş Azərbaycan KP MK plenumunda Heydər Əliyev demişdir:

“Sovet Azərbaycanının müasir bədii mədəniyyəti çoxcəhətlidir, onun tərbiyə imkanları zəngin, professional yüksəliş perspektivləri intəhasızdır. Ədəbiyyatşünasların, teatr, kino xadimlərinin tam bir dəstəsi üçün vətəndaş yetkinliyi olan son illərdə incəsənətin həyatın ən gur hadisələrinə cəsarətlə müdaxilə etməsi sahəsində dəyərli təcrübə, gözəl, mürəkkəb dövrümüzün bədii qavranışında təcrübə toplanmışdır. Azərbaycan ədəbiyyatının, teatr və kinosunun 70-ci illərdə yaradılmış və respublikanın hüdudlarından çox-çox uzaqlarda şöhrət qazanan ən yaxşı əsərləri yüksək partiyalılıq, vətəndaşlıq pafosu ilə, ən ümdə ictimai, sosial-mənəvi problemləri kəskin surətdə qaldırması ilə səciyyəvidir”.

Burada maraq doğuran bir də odur ki, məruzəçi cəmiyyətin mənəvi həyatında ortaya çıxmış ciddi problemlərin aşkarlanması, təbii ki, aradan qaldırılması üçün zəruri sosial-psixoloji mühitin yaradılması işini ədəbiyyata, incəsənətə həvalə edir. Və belə işlər üçün on illərlə məsuliyyət daşımış kommunist partiyası, prinsip etibarilə, kənarda qalır.

Azərbaycan xalqının, Azərbaycan cəmiyyətinin mənəvi, mədəni-intellektual səviyyəsinin yüksəldilməsinin nə qədər zəruri olduğunu dərindən dərk etməklə yanaşı, onun perspektivlərini də düzgün proqnozlaşdıran respublika rəhbəri bir sıra çıxışlarında sözünü dövrün "siyasi etiket"inə uyğun olaraq "partiya rəhbərliyinin gücləndirilməsi" ilə başlayıb "partiyanın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi" ilə başa çatdırsa da, məqsədi yazıçıları, musiqiçiləri, rəssamları, heykəltəraşları, teatr və kino xadimlərini Azərbayca cəmiyyətinin mənəvi yüksəlişi uğrunda mübarizəyə səfərbər etmək olmuşdur. Odur ki, Azərbaycan KP MK-nın 3 dekabr 1982-ci il tarixli plenumundakı nitqində demişdir:

"Azərbaycan KP MK bədii prosesə partiya rəhbərliyinin gücləndirilməsinə, yaradıcılıq ittifaqlarının və müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə, bədii yaradıcılıq üçün mədəniyyət ustalarına əlverişlı şərait yaradılmasına, onların əməyinin mənəvi stimullaşdırılmasına daim qayğı göstərir. Azərbaycan Respublikasının əsaslı şəkildə yüksəldiyi dövrdə Azərbaycan mədəniyyətində də böyük müvəffəqiyyətlər qazanılmışdır. Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, heykəltəraşlar, teatr və kino xadimləri, incəsənətin bütün janrlarının nümayəndələri respublikanın şanlı nailiyyətlərinə layiqincə kömək göstərmiş, bir çox mühüm əsərlər yaratmış, xalqımızın mənəvi xəzinəsini yeni nailiyyətlərlə zənginləşdirmişlər".

Natiq əlavə etmişdir:

"Bədii mədəniyyətin daha da inkişaf etdirilməsi, kütlələrin estetik tərbiyəsi vəzifələri incəsənət ustalarının yaradıcılıq səylərini bundan sonra da hər vasitə ilə gücləndirməyi, bədii mədəniyyətimizi inkişaf etdirməyi və təkmilləşdirməyi tələb edir. Yazıçılar, bəstəkarlar, rəssamlar, kinematoqrafçılar, arxitektorlar ittifaqları, teatr və xor cəmiyyətləri bu işdə mühüm rol oynamalı, yaradıcılıq problemlərinin həllinə, partiyanın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə öz xidmətini artırmalıdırlar".

Heydər Əliyev dövlət quruculuğuna millət quruculuğunun davamı, bir sıra hallarda, hətta onun üzvi tərkib hissəsi olmaqla yüksək mərhələsi kimi baxdığına görə millətin əsas etnokulturoloji əlamətləri olan dil, ədəbiyyat və incəsənət məsələlərini milli dövlətin prioritetləri hesab etmişdir. Sovet dövründə buna "dissidentlik" deyirdilər. Doğrudur, sonralar Ümummilli Lider bu cür "dissidentlik etmək"dən heç zaman çəkinmədiyini etiraf eləmişdi, ancaq kommunist-sosialist ideologiyası hakimiyyəti əldən verməməyə son cəhdlərini göstərirdi. Və xalqı, ölkəni idarə edən milli qüvvələrə hər hansı provakasiyalara getmədən gözləmək, millətin mütəşəkkilliyini möhkəmləndirmək, milli ruhu, mədəniyyəti canlandırmaqla gələcək dövlət müstəqilliyi üçün mənəvi əsaslar hazırlamaq lazım gəlirdi.

Sovetlər birliyi özünün artıq heç kimə gərək olmayan "möhtəşəm kommunist ideologiyası" ilə birlikdə çökəndə Heydər Əliyev hakimiyyətdən tamamilə uzaqlaşdırılmış, Moskvadan Azərbaycana qayıtmasına belə yasaq qoyulmuşdu. Və bu da azmış kimi müstəqillik ərəfəsində olan respublikada ona qarşı hər cür təbliğata

(təxribatlara) rəvac verilmişdi. Ancaq şair demiş, zülmün topu var, gülləsi var, qələsi varsa, haqqın da bükülməz beli, dönməz üzü vardır... Bir neçə illik hərc-mərclikdən, vətəndaş qarşıdurmasından, ərazi itkilərindən, ölkənin maddi sərvətlərinin talanmasından, mənəvi fəlakətlərdən sonra Azərbaycan xalqı öz Liderini – Heydər Əliyevi, tamamilə təbii olaraq, yenidən hakimiyyətə dəvət etdi. Və tarix yenidən öz təbii (tarixi!) yolu ilə addımlamağa başladı.

* * *

Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlməsi Azərbaycan üçün həm də ona görə tarixi əhəmiyyətə malik idi ki, o, bu vəzifəyə bütün keşməkeşlərə baxmayaraq (və baxaraq!) tarixin "aşağılar"ından deyil, "yuxarılar"dan (və sovet tarixinin fövqündən!) gəlmişdi. "Aşağılar"dan gələnlərin etnoqrafik özünəməxsusluqları, tədricən məlum olduğu kimi, Azərbaycanı xanlıqlara parçalayacaq qədər mənhus bir iddianın qol-qanad açmasına gətirib çıxardı... "Yuxarı"ların diqtəsi ilə gələnlər sona qədər sovet imperiyasının dirçəldilməsi xülyalarından "güc" aldılar. Heydər Əliyev isə "aşağı"dan "yuxarı"ya hansısa diktə ilə qalxmamışdı. Onun tərcümeyi-halında bioqraflarının, müasirlərinin, politoqların və onu çox sevən ədəbiyyat-incəsənət adamlarının dəfələrlə qeyd etdikləri, mənsub olduğu xalqın naminə "aşağılar"la "yuxarılar"ı birləşdirən elə bir ümummilli enerji vardı ki, bütöv bir xalqın – Azərbaycan xalqının taleyini işiqlandırmaq, nura qərq etmək gücündə idi. Və təhsilə, mədəniyyətə, elmə əsaslanırdı.

Heydər Əliyev 1993-cü ilin 21 sentyabında Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdəki çıxışında demişdi:

"Azərbaycan müstəqil dövlət kimi, heç şübhəsiz ki, öz tarixi, adət-ənənələri ilə və əsrlər boyu xalqın yaratdığı mədəniyyət əsərləri ilə fəxr edir. Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycançılıq hissini yüksəldərik. Müstəqillik dövründə torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bu, çox gərəklidir, lazımdır".

Həmin çıxışında Ümummilli Lider göstərirdi ki, "tariximizin böyük səhifələrini, İntibah dövrünü – XI-XII əsrlərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamısının yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1948-ci ildə keçirilmişdir. 1981-ci ildə biz Nizaminin ədəbi irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik.

...Təsəvvür edin, əgər biz Nizami Gəncəvini yaxşı tanıyırıqsa, yaxud da Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, muzeylərində vaxtilə onun

yaradıcılığını təhlil edən alimlər müəyyən əsərlər yazmışlarsa, Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır.

...Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir".

Nəsiminin 600, Füzulinin 500 illik yubileylərinin keçirilməsi barədə danışan (və bu yubileylərin doğurduğu böyük mənəvi-mədəni rezonansı xatırlayan) dövlət başçısı əlavə edir:

"Müstəqil dövlət olmaq üçün xalqın gərək mentalitet səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq isə bir-iki günün işi deyil. Bir çox nəsillərin işidir, bununla məşğul olmaq lazımdır. Xalqımızın böyük şəxsiyyətlərinin həm yaradıcılığını, həm də Azərbaycan xalqı qarşısındakı xidmətlərini daim tədqiq etmək, şübhəsiz ki, mühüm vəzifələrdən biridir. Məsələn, Mirzə Fətəli Axundov kimi şəxsiyyətlərin. Gələn il Abbasqulu ağa Bakıxanovun 200, bu il Abbas Mirzə Şərifzadənin 100 illiyi, Ülvi Rəcəbin 90 illiyi, Əlağa Vahidin 100 illiyi tamam olur. Bunlar Azərbaycanın böyük şəxsiyyətləridir. Mən böyük şəxsiyyətlərimizin hamısını yada salmaq fikrində deyiləm".

Heydər Əliyev çıxışında Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin sonrakı dövrə – XX əsrə mənsub üç dahi nümayəndəsi barədə də söhbət açmışdır:

"Dahi bəstəkarımız Üzeyir Hacıbəyovu götürək. O, əsrin əvvəlində Azərbaycanda klassik musiqinin yaradıcısı, opera sənətinin banisidir. Müsavat Partiyasının üzvü, Azərbaycan Demokratik Respublikası himninin müəllifi olmuşdur. Sonrakı dövrdə "Koroğlu" operası və başqa əsərlər yaradaraq sovet dövründə Azərbaycan mədəniyyətini zənginləşdirmiş bir adamdır.

...Cəfər Cabbarlını götürək. Böyük yazıçımız, böyük dramaturqumuz, Azərbaycan mədəniyyətinə böyük töhfə vermiş bir adamdır. Axı o da Müsavat Partiyasının üzvü olmuşdur. Bunu yaxşı bilirsiniz. Cəfər Cabbarlı sovet dövründə ən böyük əsərlər yazmış adamdır. Bizim nəslin əksəriyyəti onun əsərlərilə tərbiyə olunmuşdur.

...Təəssüf edirəm ki, 1981-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında Azərbaycan Kommunist Partiyasının qəbul etdiyi qərarı Azərbaycanda on il ərzində həyata keçirmədilər... İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırdılar. Ancaq onu, bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı... Hüseyn Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri qalmır".

Ulu Öndər elmi-akademik, yüksək intellektual-mədəni mühitə izah edirdi ki:

a) zəngin mədəniyyəti olan (və belə bir mədəniyyəti olduğunu dərk edən) xalqın müstəqil dövləti olmalıdır;

b) Azərbaycan xalqının həm zəngin mədəniyyəti var, həm də bu mədəniyyəti davam (və inkişaf) etdirmək əzmindədir;

c) deməli, Azərbaycan xalqı dünyanın o xalqlarındandır ki, onun müstəqil dövləti olmalıdır (və olacaqdır).

1993-cü ilin sentyabr ayının 22-də gənclərin nümayəndələri ilə görüşərkən də yeni (və milli!) dövlət quruculuğu ideallarını eyni məntiqlə (və mənəvi enerji ilə) təqdim etmişdi:

"Hesab edirəm ki, müstəqil Azərbaycan Respublikası marksizm-leninizm ideyasına bir daha qayıtmamalıdır. Ancaq eyni zamanda biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. İndiki ideyamız isə milli tarixi ənənələrimiz, millətimizin keçdiyi tarixi yol, ulu babalarımızın yaratdığı ümumbəşəri dəyərlər əsasında – Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşmalı və inkişaf etdirilməlidir".

Natiq onu da əlavə etmişdi ki, "əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyim şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdir".

Ümummilli Lider ölkə daxilində başladığı millət (və dövlət) quruculuğu işləri barədə türk dünyasını da xəbərdar etmiş, Türkiyə Böyük Millət Məclisindəki 9 fevral 1994-cü il tarixli çıxışında demişdi:

"...XX əsrdə Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər. Bununla yanaşı, həmin dövrdə Azərbaycan Respublikasının, Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri də bundan ibarətdir ki, onun bilik səviyyəsi yüksəlmiş, Azərbaycanda savadsızlıq ləğv edilmişdir".

Natiq onu da əlavə etmişdi ki, "bizə uyğun olmayan və indi rədd etdiyimiz sosialist, kommunist quruluşu şəraitində də Azərbaycan xalqı öz tarixinə, öz milli ruhuna, öz milli ənənələrinə sadiq qalmış və bu duyğuları, bu hissləri qəlbində qoruyub saxlamışdır. Xalqımız həmin dövrdə qazandığı nailiyyətlərdən indi, müstəqilliyə nail olduğu dövrdə geniş istifadə etmək imkanlarına malikdir".

Türkiyə Böyük Millət Məslisində Azərbaycanın sovet dövrü mədəniyyəti barədə bu sözlərin deyilməsi böyük tarixi əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl ona görə ki, bir sıra dairələrdə yanlış olaraq belə bir fikir yayılmışdı ki, guya sovet dövründə Azərbaycan xalqı öz ana dilindən, ədəbiyyatından, mənəviyyatından bütünlüklə məhrum edilmiş, sovet-kommunist cəmiyyəti içərisində əriyib getmişdi. Azərbaycanın özündən də bəzi avantürist qüvvələr müəyyən konyuktur məqsədlərlə bu fikirləri

yayırdılar. Heydər Əliyev yalnız dövlət rəhbəri olaraq deyil, həm də dünyada məşhur ictimai-siyasi xadim kimi əsl həqiqəti deməkdən çəkinməmiş, kimlərinsə onun mövqeyini ittiham edəcəyindən narahat olub sözün doğrusunu söyləməkdən imtina etməmişdi.

Xüsusilə o illər üçün türk dünyasının birliyi naminə son dərəcə mühüm əhəmiyyət kəsb edən bir faktı Türkiyə ictimaiyyətinə xatırladan (qeyd edək ki, həmin fakt çox az adama məlum idi) Azərbaycan Prezidenti demişdi:

"Burada mən Mustafa Kamal Atatürkün çox dəyərli bir fikrini yadınıza salmaq istəyirəm, çünki onun bu fikri Türkiyənin üzərinə düşən vəzifələrin çox böyük olduğuna və Mustafa Kamal Atatürkün çox uzaqgörən bir şəxsiyyət olduğuna dəlalət edir. O, Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında demişdir: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. O, nəniki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər, bu gün əslində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır..."

Heydər Əliyev Bilkənd Universiteti İdarə Heyətinin sədri İhsan Doğramacı ilə 9 fevral 1994-cü il tarixi görüşünəki çıxışında isə Atatürkün həmin vəsiyyətinin özünü nə qədər doğrultduğunu təsdiq edəcək mülahizələrini söyləmişdir:

"Əgər xalqlarımız əsrlər boyu yaşayıblarsa, mübarizə apararaq öz mənliyini qoruya biliblərsə, öz milli xüsusiyyətlərini itirməyiblərsə, böyük mərhələlərdən keçərək indi müstəqil xalq kimi, dövlət kimi yaşayırlarsa, bütün bunlara görə xalqlarımız öz içərisindən çıxan mütəfəkkirlərə, yazıçı və şairlərə, bəstəkarlara, rəssamlara, memarlara, alimlərə minnətdardırlar. Bu zənginlik xalqlarımızda milli ruhu, milliliyi, milli ənənələri yaşadıb, nəsildən-nəsilə keçirib bu günə gətirib çıxarmışdır".

Azərbaycan Prezidenti çıxışında, həqiqətən, qürurverici bir məqama toxunaraq demişdir ki, "Azərbaycan xalqı bütün türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə malikdir. Bu gün burada məmnunluqla qeyd edirəm ki, Azərbaycanın incəsənət ustaları, alimləri, bəstəkarları, mədəniyyət xadimləri Türkiyənin bir çox elm və mədəniyyət ocaqlarında, o cümlədən də İhsan bəyin himayədarlığı ilə fəaliyyət göstərirlər. Onlar bu gün burada da Azərbaycan musiqisinin kiçik bir parçası ilə bizi sevindirdilər".

Bu fikir bir daha göstərir ki, sovet dövrü Azərbaycan xalqının tarixində yalnız milli dövlətçilik düşüncəsinin məhdudlaşdırılması, türkçülük ideologiyasının boğulması, milli ziyalılığın repressiyası ilə deyil, həm də kütləvi savadlanma, geniş ali təhsil imkanları, ədəbiyyatın, incəsənətin, elmin inkişafı ilə qalmışdır.

Prezident həmin görüşdə Azərbaycan və Türkiyə mədəniyyətlərinin bir-biri ilə sıx bağlılığının dərin tarixi kökləri olduğunu yada salmışdır:

“Tarix böyükdür. Biz öz tariximizlə fəxr edirik. O, bizim birgə tariximizdir, xalqlarımızın vahid tarixidir. Nizami də, Füzuli də, Mirzə Fətəli Axundov da, Vaqif də, Yunus Əmrə də, bu gün burada şeiri səslənən Səməd Vurğun da, Türkiyə torpağında, İstanbulda təhsil almış, böyük əsərlər qoyub getmiş Hüseyn Cavid də, sözlərinə mahnı, şərqi bəstələnmiş şeirin müəllifi Əhməd Cavad da və bizim aramızda olan böyük mədəniyyət xadimləri – Arif Məlikov da, Bəxtiyar Vahabzadə də, habelə digər mədəniyyət xadimləri də bizim zəngin mədəni sərvətimizdir”.

Tarixin bizə miras qoyduğu “sovet dövrü”nün bir faciəsi də bu idi ki, Azərbaycanla Türkiyə arasındakı əlaqələr tədricən kəsilmişdi, ancaq tarixdən gələn mənəvi-ruhi birliyi sındırmaq mümkün olmamışdı:

“Biz uzun illər ərzində, 70 il bir-birimizdən ayrı düşmüşdük. Əvvəllər də birliyimizə maneçilik törədən amillər olmuşdur. Lakin elm, mədəniyyət, ədəbiyyat adamlarımız bizim həmişə birgə olmağımızı təmin etmişlər... Xalqlarımızın mütəfəkkirləri milliyyətimizi, milli ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymayıblar və heç vaxt da unutmamışıq”.

Sovetlər Birliyi süqut etdikdən sonra bütün türk, o cümlədən də Azərbaycan və Türkiyə xalqları arasında mədəni, ictimai, siyasi əlaqələrin yenidən genişlənməsinə diqqəti çəkən Azərbaycan Prezidenti özünəməxsus səmimiyyətilə söyləmişdir ki, “burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir, heç ayırmaq da lazım deyildir. Biz bir-birimizlə qaynayıb-qarışmışıq və bu proses davam edəcəkdir”.

Heydər Əliyev türkiyəli qardaşların nəzərinə çatdırır ki, ən müxtəlif tarixi şəraitlərdə də bizim xalqlarımızın mədəni-mənəvi xarakteri dəyişə bilməz, “bunların hamısı yenə də bizim köklərimizlə bağlıdır, hamısı milli mədəniyyətimizin, milli təfəkkürümüzün, dilimizin nə qədər sarsılmaz olduğuna dəlalət edir. Heç bir rejim heç bir vaxt bizi bunlardan məhrum edə bilməz... Bizim Azərbaycan dili, ana dilimiz cari əsrdə çox zənginləşmiş, çox inkişaf etmişdir. Türk ləhcəsi ilə Azərbaycan ləhcəsi arasında bəzi fərqlər var. Bu fərqləri siz bilirsiniz. Bir tərəfdən, siz öz dilinizi modernləşdirmisiniz, digər tərəfdən isə, bizim dilimiz müəyyən dərəcədə təkmilləşmişdir. Fərqlər də buradan irəli gəlir. Ola bilsin ki, 60-70 il öncə bu fərqlər az idi. Lakin elə indi də türk xalqlarından heç birinin dili Azərbaycan və türk dilləri qədər bir-birinə yaxın deyildir”.

Heydər Əliyev Azərbaycanın İstiqlal bayramına – Respublika Gününə həsr olunmuş təntənəli yığıncaqdakı (27 may 1994-cü il) nitqində Azərbaycanın müstəqilliyinin milli mənəvi əsasları kimi ədəbiyyatın, mədəniyyətin danılmaz rolundan bəhs edərək göstərmişdir ki, Azərbaycan xalqı sovet dövründə “mövcud şəraitə uyğunlaşsa da, eyni zamanda onun qəlbində tam müstəqillik, milli azadlıq hissləri yaşamışdır. Keçmişdə olduğu kimi, bu dövrdə də həmin hisslər xalqımızı heç

vaxt tərk etməmişdir. Orta əsrlərdə Azərbaycan xalqı Nizami, Xaqani, Nəsimi, Füzuli kimi dahilər yetirmiş və onlar da azadlıq hissləri ilə yaşayıb-yaratmışlar. Sonrakı dövrlərdə, Azərbaycan çar Rusiyasının tərkibində, onun əsarəti altında olarkən də ölkənin mütəfəkkir adamları, qabaqcıl siyasi xadimləri, yazıçı və şairləri olmuşdur. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Seyid Əzim Şirvani, Üzeyir Hacıbəyov kimi şəxsiyyətlərin yaradıcılığında da milli azadlıq hissləri öz əksini tapmışdır. Yəni siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır".

Təbiidir ki, istiqlala can atan bir xalqı tarixin heç bir mərhələsində susdurmaq olmaz. Müəyyən məqamlarda elə görünə bilər ki, tarix onun xeyrinə işləmir... Ancaq elə hallar azmı olmuşdur ki, tarix xalqa yox, xalq tarixə qalib gəlmişdir... Bununla belə tarixin xalqın xeyrinə işləmədiyi, başqa sözlə, taleyin ixtiyarına buraxılmış illər tarixə xalqın heç zaman unuda bilməyəcəyi məhrumiyyətlər də yazmışdır... Azərbaycan Prezidenti əminliklə söyləyir ki, "yetmiş illik sosializm rejimi dövründə də bu hisslər xalqın qəlbindən çıxmamışdır. Bəli, Nəriman Nərimanov da Azərbaycan xalqının müstəqilliyi uğrunda çalışmışdır. Cəfər Cabbarlı hələ 1918-20-ci illərdə böyük əsərlər yaradaraq, həm də sosialist sistemi dövründə onu tərənnüm edərək, məhz Azərbaycanın milli azadlığı uğrunda çalışmış və xalqımızın azadlıq hisslərini ifadə etmişdir. Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və o dövrdə yaşamış başqa sənətkarlar da öz əsərlərində xalqımızın milli azadlıq fikirlərini əks etdirmişlər".

Bu sözlərin deyilməsində məqsəd keçən əsrin 90-cı illərinin əvvəllərində ölkədə meydana çıxmış tamamilə əsassız bölücülük iddiaları idi ki, guya kim sovet hakimiyyətinin tərəfində olmuşdursa, kim kommunist partiyasını tərənnüm etmişdirsə, Azərbaycan xalqının düşməni olmuşdur... Halbuki "Səməd Vurğun, Rəsul Rza, Azərbaycanın ilk Elmlər Akademiyasının birinci prezidenti Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov da bu dövrdə yaşamış, Azərbaycan xalqına bu dövrdə xidmət göstərmişlər. Onlar öz əsərləri, elmi fəaliyyətləri ilə Azərbaycan xalqının elm və mədəniyyətinin yüksəlməsinə çalışmış və beləliklə də, xalqı gələcəyə, milli azadlığa, müstəqilliyə doğru aparmışlar".

Odur ki, dövlət (və millət) başçısı, eyni zamanda Epoxanın Baş İdeoloqu mənsub olduğu xalqa izah edirdi ki, heç bir əsas olmadan öz böyük ziyalılarını hansısa konyuktur prinsiplə özünə düşmən saymasın. Və bu, yalnız ölkənin ərazi bütövlüyünün pozulduğu, qaçqın-köçkünün artdığı, iqtisadi vəziyyətin son dərəcə çətinləşdiyi dövrün fövqəladə tələblərindən irəli gəlmirdi, bütün dövrlər və zamanlar üçün idi. Həmin sözlər bu gün də müasir səslənir, heç şübhə yoxdur ki, sabah da öz müasirliyini qoruyub saxlayacaqdır.

Prezident Respublika Günü münasibətilə təntənəli yığıncaqdakı (26 may 1996-cı il, Respublika Sarayı) geniş nitqində əvvəl Azərbaycan Demokratik Cümhuriyyətinin Azərbaycan xalqının milli azadlıq, müstəqillik tarixindəki yerindən bəhs etmiş, sonra isə 20-ci, 30-cu illərin hadisələrindən danışaraq demişdir ki, həmin illərdə

"Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni və mənəvi irsə böyük zərbələr vurulmuşdur. O illərin qurbanları minlərlə, on minlərlə, bəlkə, yüz minlərlə olmuşdur. Onların arasında Azərbaycanın görkəmli şəxsləri – Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz və başqa dəyərli insanlar olmuşdur. Eyni zamanda o dövrdə Azərbaycan xalqının içindən respublikamızın mədəniyyətini, elmini inkişaf etdirən görkəmli simalar çıxmış, yaşamış və yaratmışlar".

Azərbaycan tarixinin sovet dövrü, xüsusilə 30-cu illər bizim tarixşünaslığımızda, haqlı olaraq, millətə, onun mədəniyyətinə, mənəviyyatına düşmən təcavüzü illəri hesab olunaraq qınanılmışdır. Və həmin təcavüz barədə bəhs edərkən Ümummilli Lider "üzü keçmişə doğru" hər hansı şəkildə emosiyaya qapılmağın doğru olmadığını, həm keçmişə, həm də gələcəyə ayıq nəzərlərlə baxmaq lazım gəldiyini göstərmişdir:

"O illərin ağırlıqları, çətinlikləri ilə yanaşı, böyük nailiyyətləri də olmuşdur. Ən böyük nailiyyət bundan ibarət olmuşdur ki, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir".

30-cu illərdə repressiyaya məruz qalmış Azərbaycan ziyalıları haqqında, xüsusilə keçən əsrin 70-ci, 80-ci illərindən başlayaraq bir sıra elmi tədqiqat işləri aparılmışdır ki, akademik Ziya Bünyadovun "Qırmızı terror" kitabı bunun ilk qiymətli nümunələrindən biridir. Həmin araşdırmalar göstərir ki, Azərbaycan ziyalılarını sovet hakimiyyətinin düşməni hesab edərək güllələməyə, yaxud sürgünə məhrum eləyərkən əsas olaraq onların pantürkist ideyalara xidməti səbəb gətirilir. Və belə bir absurd mövqedən çıxış edilir ki, gərək türk – o zaman "azərbaycanlı" anlayışı xalqın şüurunda "Azərbaycan" anlayışı qədər möhkəm yer tutmamışdı – özünün türk olduğunu dərk etməyəydi.

Azərbaycan Prezidenti təntənəli yığıncaqda "absurd tarix"in məntiqi (daha doğrusu, məntiqsizliyi!) üzərində əhəmiyyətsiz mühakimələrə qapılıb vaxt itirməkdənsə qaranlıqdan işığa çıxmağı, gələcəyə nikbin nəzərlərlə baxıb, hazırkı çətin vəziyyəti tezliklə arxada qoyaraq, xalqın yenicə əldə etdiyi azadlığın, müstəqilliyin verdiyi imkanlardan layiqincə istifadə etməyi məsləhət bilir. Bunun üçünsə tarixin ən keşməkeşli dövrlərində belə nümunə götürmək, istinad etmək üçün ciddi nailiyyətlər kifayət qədərdir:

"Bəli, o illərdə böyük itkilərimiz olubdur. Qeyd etdiyim kimi, eyni zamanda o illər mədəniyyətimizdə, ədəbiyyatımızda, elmimizdə böyük şəxsiyyətlər yetişdiribdir. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev kimi dahi bəstəkarlarımız yeni əsərlər yaratmışlar. Cəfər Cabbarlı kimi dahi yazıçımız Azərbaycan xalqına böyük ədəbi töhfələr vermişdir. Ədəbiyyatımızda Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Süleyman Rəhimov kimi böyük şəxsiyyətlər yetişmişdir. Alimlərimiz – Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mirzə İbrahimov, bir çox böyük alimlər 1945-ci ildə ilk dəfə Azərbaycanın böyük elmini

bir yerə yığıb Elmlər Akademiyası yaratmışlar. Bunların hamısı o çətin, ağır illərin, eyni zamanda, böyük nailiyyətləridir”.

Yeni Azərbaycan Respublikasının qurucusu son dərəcə böyük müdrikliklə göstərir ki, “1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intellektual, həm də mədəni potensialını yaradır. Biz bu gün, bu milli bayramı – Respublika gününü qeyd edərkən XX əsrdə xalqımızı irəliyə aparmış, elmimizi, mədəniyyətimizi iqtisadiyyatımızı inkişaf etdirmiş insanların hamısını böyük hörmət və ehtiram hissi ilə, minnətdarlıqla yad edirik”.

Heydər Əliyev heç zaman Azərbaycanın dövlətçiliyi tarixinin hər hansı dövrünə, mərhələsinə nihilist, inkarçı münasibətin tərəfdarı olmamış, əksinə, bu fikrə düşənləri həmişə kəskin tənqid etmişdir. Dahi siyasət adamı olaraq, o, çox yaxşı bilirdi ki, heç bir dövlət öz-özünə, yaxud kiminsə sifarişi ilə qurulmadığı kimi, qorunub-saxlanması da taleyin ümidinə buraxmaqla mümkün olmur. Bunun üçün xalqın siyasi istedadına, iradəsinə, yüksək ziyalılığına, zəngin mədəniyyətinə əsaslanan ardıcıl bir tarixi varislik tələb edilir. Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdəki (27 may 1998-ci il, Respublika sarayı) nitqində göstərmişdir ki, “Azərbaycanda o dövrdə böyük bir ziyalı dəstəsi meydana gəlmişdi. Onların əksəriyyəti Moskvada, Peterburqda, Avropanın bir çox şəhərlərində yüksək təhsil almış, Avropa mədəniyyəti, dünya mədəniyyəti ilə yaxından tanış olan və bunları mənimsəmiş insanlar idilər”. Və onu da əlavə etmişdir ki, “onlar öz intellektual potensialı, öz xalqına, millətinə olan qayğısı, sədaqəti ilə Azərbaycanda XX əsrin əvvəlində gedən proseslərdə iştirak etmiş və birləşib Azərbaycan Xalq Cümhuriyyətini yaratmışlar. Biz o dövrdə Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, ictimai fikrinin inkişafında böyük xidmət göstərmiş insanları da nəzərə almalıyıq və onların – Azərbaycanın görkəmli mədəniyyət, incəsənət, ictimai xadimlərinin xidmətlərini də bu münasibətlə qeyd etməliyik.

Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov və digərləri o illər yaratdıqları əsərlərlə xalqımızda milli şüurun oyanmasına, inkişaf etməsinə, milliliyin yüksəlməsinə böyük təsir göstərmişlər və böyük xidmətlər etmişlər”.

Göründüyü kimi, Ümummilli Lider yeni demokratik Azərbaycan dövlətçiliyinin fundamentini təşkil edən intellektual-mədəni enerjinin güclü, çoxçeşidli, milli olduğu qədər də beynəlmiləl, ümumbəşəri xarakteri daşıdığını ortaya çıxarır. Və eyni zamanda onun məhz görkəmli Azərbaycan ziyalılarının dühasından süzülüb gəldiyini qeyd edir. Belə bir aydın qənaət yaranır ki, ilk Azərbaycan Respublikası elan olunmamışdan neçə illər əvvəl böyük bir siyasi-mədəni “layihə” (metafora!) olaraq XX əsrin əvvəlləri Azərbaycan ziyalılarının – M.Ə.Sabirin, Ə.Hüseynzadənin, C.Məmmədquluzadənin,

Ə.Ağaoğlunun, Ü.Hacıbəylinin, Ə.Topçubaşovun, M.Ə.Rəsulzadənin və onlarla milli vətənpərvərin təsəvvürlərində hazır imiş. Bu isə o deməkdir ki, Azərbaycan tarixində ilk müstəqil respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, az yaşasa da, hər hansı təsadüfi hadisə deyildi, Azərbaycan xalqının, onun ziyalılarının, ədəbiyyat, elm, mədəniyyət xadimlərinin iradəsinin məhsulu idi.

* * *

Milli demokratik dövlət – Respublika quruculuğu təcrübəsi göstərir ki, din, hər nə qədər dövlət işlərinə bilavasitə müdaxilədən kənarlaşdırılsa da, cəmiyyətin həyatında fəal iştirak etməklə onun (dövlətin) maraq dairəsini heç də tamamilə tərk eləmir. İslam dini mənəvi-mədəni dəyər kimi Azərbaycan xalqının (və dövlətçiliyinin) elə bir tarixi sərvətinə çevrilmişdir ki, Azərbaycanın ən görkəmli ziyalıları bu barədə düşünmüş, öz elmi, ədəbi, incəsənət əsərlərində sözügedən olduqca mürəkkəb fenomenin mahiyyətinə varmağa, cəmiyyət həyatında onun fəaliyyətini müxtəlif üsullarla idarə etməyə çalışmışlar.

Müstəqil Azərbaycan dövlətinin qurucusu dinə, o cümlədən islam dininə millətin dünyagörüşünün, xarakterinin, etnokulturoloji təbiətinin ayrılmaz bir əlaməti kimi baxmışdır. Onu hər hansı bir ideologiya, siyasi təsisat ilə eyniləşdirməyin, xüsusilə ondan hər hansı antihumanist, irticaçı məqsədlərlə istifadə etməyə imkan verilməsinin əleyhinə olmuşdur.

Azərbaycan Prezidenti 1998-ci ilin dekabr ayının 9-da Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusundakı beynəlxalq simpoziumun açılışında geniş nitq söyləmiş, bir sıra aktual olduğu qədər də mürəkkəb məsələlərə aydınlıq gətirmişdir. Məsələn, o demişdir:

"Məlumdur ki, Qafqazda yaşayan xalqlar islam dinini qəbul edənə qədər də böyük mədəniyyətə, tarixə və özlərinə məxsus adət-ənənələrə malik olmuşlar. İslamın dini-mənəvi dəyərləri Qafqaz xalqlarının qədimdən yaranmış və inkişaf etmiş mənəvi dəyərlərilə birlikdə xalqların yüksək milli-mənəvi dəyərlərini təşkil edibdir".

Azərbaycan xalqı, məlum olduğu (və qədim eposumuz "Dədə Qorqud"da aydın göstərildiyi) kimi, təşəkkül ərəfəsində öz ümumtürk əcdadının dininə inanmışdır ki, bu din tanrıçılıqdır. Azərbaycan-türk tanrıçılığının bir dini dünaygörüşü olmaq etibarı ilə çox mükəmməl sistemi mövcuddur. Mənbələr göstərir ki, ərəb-islam missionerləri türklər arasında öz dinlərini yayarkən tanrıçılığın min illərlə mövcud olmuş həmin mükəmməl sistemində yeni dini – islamı xatırladan bir sıra anlayışlar, elementlər ilə rastlaşmışlar.

Azərbaycan Prezidenti beynəlxalq simpozium iştirakçılarının nəzərinə çatdırmışdır:

"Azərbaycanda islam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir. Bu

gün iftixar hissi ilə deyirik ki, Azərbaycanın islam mədəniyyəti, islam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və islam mədəniyyətini zənginləşdirmişlər. Biz bunlarla fəxr edirik.

Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik... Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik".

Türk-islam (və onun üzvi tərkib hissəsi olan Azərbaycan-islam) mədəniyyəti, Ümummilli Liderin söylədiyi kimi, orta əsrlərdə, eləcə də yeni dövrdə böyük dühalar yetirmişdir ki, onlarsız xalqın elm, ədəbiyyat, incəsənət tarixini təsəvvür etmək, sadəcə olaraq, mümkün deyil. Eləcə də bütün etnoqrafik dərinlikləri, etnokulturoloji zənginlikləri ilə bir yerdə Azərbaycan şifahi xalq ədəbiyyatı islam dininin ruhunu, mənəvi xarakterini, davranış stereotiplərini, əxlaqi prinsiplərini geniş əks etdirməkdədir. Həmçinin Azərbaycan dilinin leksik-terminoloji sistemində ərəb sözləri, islam terminologiyası xüsusi yer tutur.

Sovet dövründə uzun illər aparılmış ateizm təbliğatına toxunan Prezident əlavə etmişdir ki, "qısa bir zamanda məlum oldu ki, əgər Azərbaycanda kommunist ideologiyası 70 il yox, 170 il də hökm sürmüş olsaydı, insanları islam dinindən ayırmaq mümkün olmayacaqdı.

...Bilirsiniz ki, o vaxtlar mən böyük dövlət işlərilə məşğul idim. Bəzən düşünürdüm – din dindir, nə üçün bir dinə müəyyən qədər loyal münasibət bəslənilir, o birisi dinə isə həddindən artıq düşmən münasibəti göstərilir? Bu, həqiqətdir".

Doğrudan da, sovet dövründə islam dininə qarşı mübarizə, bir tərəfdən, sovet kommunist ideologiyasının apardığı ateizm təbliğatının nəticəsi, digər tərəfdən, xristianlığın başqa dinlərə qarşı mübarizəsinin tarixi relikti idi.

Azərbaycan Prezidenti simpozium iştirakçılarına məlumat vermişdir ki, Azərbaycan çoxdandır ki, Şərq-islam dəyərlərini, adət-ənənələrini qoruyub saxlamaqla yanaşı, ümumbəşəri səciyyə daşıyan Qərb dəyərlərini mənimsəməkdən də imtina etmir. Və bunun nəticəsində ölkəmizdə sivilizasiya Şərqlə Qərbin dialoquna əsaslanaraq inkişaf edir:

"Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk.

Bu, Azərbaycan üçün yeni bir hadisə deyildir. Məmnuniyyət hissi ilə demək olar ki, Azərbaycan hələ XVIII-XIX əsrlərdə və XX əsrin əvvəllərindən elə bu istiqamətdə inkişaf edirdi.

...Biz Nizami, Füzuli, Nəsimi kimi böyük şəxsiyyətlərlə fəxr etdiyimiz kimi, eyni zamanda Mirzə Fətəli Axundov kimi böyük şəxsiyyətlə də fəxr edirik... O, Azərbaycanın milli-mənəvi dəyərlərini, islam dəyərlərini ümumbəşəri, Avropa

dəyərlərilə zənginləşdirərək dahiyanə və xalqımızın inkişafına çox böyük təsir göstərmiş əsərlər yaratmışdır".

İstər Molla Pənah Vaqifin, istərsə də Qasım bəy Zakirin yaradıcılığı göstərir ki, bu şair-mütəfəkkirlər islam dininin normativlərini inkar etmədən həyata gerçəkçi, realist baxış nümayiş etdirməklə hər cür tərki-dünyalığın, mövhumatın əleyhinə olmuşlar. Və həmin düşüncə mədəniyyəti, əslində, XVIII-XIX əsrlərdə daha qabarıq görünsə də daha əvvəlki dövrün bədii-fəlsəfi fikir dühaları – Xaqani, Nizami, Nəsimi üçün də qeyri-təbii, qeyri-adi hesab edilmir. Təsadüfi deyil ki, Azərbaycanda Qərb həyat tərzinin tərəfdarı kimi ilk dəfə açıq çıxış edən Mirzə Fətəli dahi Şərq sələflərindən Nizamini, Rumini də təqdir edir.

Sovet dövründə digər dinlərlə müqayisədə kommunist ideologiyasının islama qarşı daha çox çıxması, xüsusilə müsəlman xalqları içərisindən islamşünasların yetişməsinə qadağa qoyulması kimi həqiqətləri şərh edən dövlət başçısı əlavə eləmişdi ki, "məsələn, Quranın Azərbaycan dilinə çevrilməsi respublikamız müstəqillik əldə edəndən sonra, yaxud həmin ərəfədə mümkün oldu.

...Hesab edirdilər ki, Quran rus dilinə tərcümə olunubdur və guya xristianlar tərəfindən islam dinini öyrənmək üçün lazımdır. Amma Quran Azərbaycan dilinə tərcümə olunsa, bu, azərbaycanlıların islam dininə meylini artıracaqdır. İş burasında idi.

...Bax buna görə də mən hesab edirəm ki, Azərbaycanda islamşünaslıq sahəsində XX əsr, demək olar ki, tamam itirilibdir".

Sovet dövlətinin, sosialist ideologiyasının xarakterik əlaməti idi ki, öz "tarixi uğurlar"ını, başqalarına, dünyaya, rəqib ideologiyalara müəyyən nümunələr göstərməkdən daha çox nələrisə qadağan etmək hesabına qazanmışdı. Bəzi sovet sosialist ideoloqları sadəlövhcəsinə inanır, bəziləri də "sadəlövhcəsinə" ikiüzlülük edirdilər ki, guya sərhədləri bağlayaraq, dünyadan təcrid olunaraq "ayrıca bir ölkədə kommunizm qurmaq",  elə bir insan yetişdirmək mümkündür ki, hər hansı dinə deyil, məhz "kommunizmin nurlu sabahına" iman gətirəcəkdir. İnsanlığın (və dinin) tarixinə bu cür laqeyd münasibətin nəticəsi o oldu ki, əsrin sonlarına doğru kommunist ideologiyası tarix səhnəsini biabırcasına tərk etdi.

Bir neçə gün sonra – dekabrın 11-də beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə Prezident saraynda görüşən dövlət başçısı demişdir:

"Azərbaycan Qafqazda bütün dinlərin bir-biri ilə mehriban əlaqələrdə yaşadığı bir ölkədir. Biz bunula fəxr edirik. Məsələn, Qafqazda olan Ermənistandan əgər bütün başqa millətlər, dinlər qovulub çıxarılıbsa, - təkcə müsəlmanlar yox, artıq orada yəhudilər də yoxdur, erməni millətindən başqa və xristianlığın erməniyə mənsub olan qolundan savayı başqa bir millət, din yoxdur, - erməni şovinizmi, erməni ekstremizmi buna illər, əsrlər boyu nail olmağa çalışıbdır".

Ümummilli Liderin dinə münasibətdə Azərbaycanla Ermənistanı müqayisə etməsi, heç şübhəsiz, yalnız siyasi yox, həm də ideya-metodoloji məzmun daşıyır.

Və Azərbaycan xalqının əsrlər boyu qazandığı tolerantlıq təcrübəsi, ermənilərin, hətta xristianlıq daxilində apardığı özünütəcrid siyasətinə rəğmən, ölkəmizin dünya birliyinə inteqrasiyasını təmin etməkdədir ki, bunu Azərbaycana gələn hər kəs müşahidə edir:

"Siz Azərbaycanda olduğunuz günlərdə hiss etdiniz – Azərbaycan islam mədəniyyətinin, islam milli-mənəvi ənənələrinin ümumbəşəri mənəvi dəyərlərlə vəhdətindən doğulmuş bugünkü Azərbaycandır. Bunu siz gördünüz. Azərbaycan gələcəyə də bu yolla gedəcəkdir. Biz dünyanın tərəqqisindən kənarda qala bilmərik. Dünya xalqlarının tərəqqi yolu ilə müsəlmanlar da getməlidirlər, o cümlədən azərbaycanlılar da getməlidirlər".

Əlbəttə, bu fikirlər ona görə strateji əhəmiyyətə malikdir ki, din, o cümlədən islam dini Azərbaycana orta əsrlər geriliyinin, yaxud müasir terrorizmin deyil, məhz sülh, əmin-amanlıq, tərəqqi, bir sözlə, mədəniyyət amili kimi təqdir (və təqdim) olunur.

* * *

Ümummilli Liderin milli dil, ədəbiyyat və mədəniyyət təəssübkeşliyində jurnalistika, mətbuat, media həmişə ona görə önəmli yer tutmuşdur ki, o, buna ictimai fəaliyyətin sıradan bir hadisəsi yox, milli əqidə kimi baxırdı. Azərbaycanda ilk qəzet və jurnalları yaradan böyük şəxsiyyətlər də publisistik sözü "vicdanın səsi" hesab etmişdilər.

Azərbaycan Prezidenti 2002-ci ilin iyul ayının 22-də "Günay" restoranında Mətbuat günü münasibəti ilə keçirilən mərasimdəki nitqində demişdir:

"Həsən bəy Zərdabi vaxtilə Azərbaycanda azad, demokratik mətbuatın əsasını qoyubdur. O nəinki bu mətbuatın əsasını qoydu, həm də çox çalışdı, fəaliyyət göstərdi və öz missiyasını sona qədər yerinə yetirdi. Məhz ondan sonra, XX əsrin əvvəllərində Azərbaycanda bizim çox böyük jurnalistlər dəstəsi yarandı. Amma onlar da peşəkar jurnalistlər deyildilər, müxtəlif sahələrdə xidmət edirdilər. Ancaq mətbuata, jurnalistikaya çox böyük qayğı göstərirdilər və Həsən bəy Zərdabi kimi, Azərbaycanda sərbəst, azad, müstəqil mətbuatın inkişaf etməsində böyük işlər görmüşdülər".

Prezident həmin nitqində XX əsrin əvvəlləri Azərbaycan jurnalistikasının ən görkəmli simaları haqqında danışmışdı:

"Biz mütləq Cəlil Məmmədquluzadəni, Üzeyir Hacıbəyovu və digər belə şəxsiyyətləri yada salmalıyıq. Cəlil Məmmədquluzadənin jurnalist kimi, publisist kimi "Molla Nəsrəddin" jurnalı vasitəsilə və ondan daha geniş dairədə Azərbaycan xalqına göstərdiyi xidmətlər əvəzsizdir".

Jurnalistikanın milli mədəniyyətin ayrılmaz tərkib hissəsi olduğu xüsusi qeyd edilmişdir:

“Bizim mədəniyyətimizin müxtəlif sahələrində olan istedadlı insanlar kimi jurnalistlər də istedadlı olmalıdırlar.

Çünki bu da bizim mədəniyyətimizin bir hissəsidir. İkincisi də, bizim jurnalistlərimiz gərək gördüklərini, eşitdiklərini olduğu kimi yazsınlar, ağa ağ, qaraya qara desinlər”.

Çox mühüm məsələlərdən biri də ondan ibarət idi ki, qəzetlər, jurnallar, radiolar, televiziyalar, bunların ardınca gələn sosial media cəmiyyət həyatının müxtəlif sahələrində son dərəcə təsirli rəy formalaşdırmaqla yanaşı, dilin, ədəbiyyatın, mədəniyyətin səviyyəsinə də birbaşa təsir göstərirdi. Heç də təsadüfi deyil ki, bu gün ədəbi dilin inkişafı özünü ən çox publisistik üslubda göstərdiyi kimi, ədəbiyyatın inkişafı da daha çox publisistikada təzahür edir.

* * *

Ulu Öndər Heydər Əliyevin keçən ilin, əsrin və minilliyin son günlərində Azərbaycan xalqına müraciəti mükəmməl analitik ümumiləşdirmənin məhsulu olub azərbaycanşünaslığın əsas məsələlərinin izahı üçün aydın metodoloji göstərişlər verir – həmin göstərişlərin müəyyən hissəsi Azərbaycan xalqının dilinə, ədəbiyyatına və incəsənətinə aiddir. Heydər Əlyev Azərbaycan rəhbərliyinə gəldiyi ilk illərdən başlayaraq Azərbaycan mədəniyyətinin inkişafı sahəsində o zamana qədərki heç bir dövlət rəhbəri ilə müqayisə edilməsi mümkün olmayan bir enerji, professionallıq və uzaqgörənliklə fəaliyyət göstərmişdir. Onun Azərbaycan yazıçılarının qurultayındakı, böyük ədəbiyyat və incəsənət xadimlərinin yubileylərindəki, müxtəlif ədəbi yığıncaqlardakı, müzakirələrdəki məzmunlu nitq, çıxış və söhbətləri, müsahibələri yalnız müdrik bir dövlət rəhbərinin xalqın dilinə, ədəbiyyatına, incəsənətinə qayğısının parlaq ifadəsi deyil, həmin sahələrin hər birinin inkişafı üçün professional strateji göstəriş, mükəmməl proqramdır. Və ona görə də “Müraciət”ə biz böyük mütəfəkkirin təxminən yarım əsrlik müşahidələrinin, araşdırmalarının, müxtəlif istiqamətdə təhlillərinin nəticəsi kimi baxırıq.

Heydər Əliyev hər hansı məsələnin, o cümlədən dil, ədəbiyyat, incəsənət məsələsinin şərhində tarixiliyə xüsusi diqqət yetirir – ümumiyyətlə, güclü tarixilik hissi Prezidentin siyasi, ideoloji, elmi təfəkkürünü səciyyələndirən əsas əlamətlərdəndir.

“Müraciət”də Azərbaycan dili, ədəbiyyatı və incəsənətinin biri digərinin tarixi davamı olan əsas üç dövründən söhbət gedir. Birincisi, formalaşma dövrüdür ki, bir neçə min illik uzun bir zamanı əhatə edir. “Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasından tapılmış azıxantrop Azərbaycanın qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri,

kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur".

Azərbaycanın tarixəqədərki mədəniyyətinin beynəlmiləl xarakteri tarixəqədərki dövrdən sonrakı (tarixi!) mədəniyyətin xarakterinə də təsir göstərmişdir. Belə ki, "eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəllərində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasında müxtəlif mərhələlərdə həm zərdüştlük, yəhudi, xristian, həm də İslam mədəniyyətlərinin təsiri olmuşdur".

Azərbaycan Prezidenti tamamilə doğru olaraq göstərir ki, Azərbaycan mədəniyyətinin tarixi özünəməxsus (milli!) əlamətlərlə ümumbəşəri əlamətlərin dialektikasını, qarşılıqlı əlaqəsini nümayiş etdirir. Və Azərbaycan xalqının mədəniyyəti göstərir ki, o, içinə qapılmış, özünü dünyadan təcrid etmiş bir xalqın mədəniyyəti deyildir – Azərbaycan mədəniyyəti həmişə dünyaya açıq bir xalqın mədəniyyəti olmuşdur... Məsələnin məhz belə olduğuna bir daha inanmaq üçün "Kitabi-Dədə Qorqud"u, Qətran Təbrizinin, Əfzələddin Xaqaninin divanlarını, Nizami Gəncəvinin "Xəmsə"sini vərəqləmək kifayətdir. Onların yaradıcılığı "ümumbəşəri ideyaların tərənnümünə. Haqqın, ədalətin. humanist ideyaların bərqərar olmasına xidmət etmişdir".

Eramızın ilk əsrlərindən başlayaraq Azərbaycanda etnokulturoloji proseslərə nəzarət edən hun-qıpçaq türkləri beynəlmiləlçi dünyagörüşünün, ümumbəşəri ideyaların, dini plüralizmin genişlənməsində, heç şübhəsiz, həlledici rol oynamışlar. Onların qoyduqları ənənəni eramızın I minilliyinin sonu, II minilliyinin əvvəllərində Türküstandan Azərbaycana axın edən oğuz türkləri davam etdirmişlər. Və yerli qıpçaqlarla gəlmə oğuzların Azərbaycandakı münaqişələri "Dədə Qorqud" eposunun yazıya alındığı yüzillərə düşür.

Heydər Əliyevin "Müraciət"ində Azərbaycan dili, ədəbiyyatı və incəsənəti tarixinin ikinci dövrü onun birinci dövrünün bilavasitə davamı kimi təhlil edilir. Bununla belə, göstərilir ki, "Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi".

Milli şüurun formalaşması!.. Azərbaycan dili, ədəbiyyatı və incəsənəti tarixinin ikinci dövrünü səciyyələndirən əsas əlamət, heç şübhəsiz, bundan ibarət olmuşdur. "Müraciət"də milli şüurun formalaşmasına təsir göstərən hadisələr qeyd edilir – bunlar XIX əsrin əvvəllərində maarifçilik ideyalarının çiçəklənməsindən, həmin əsrin ortalarında M.F.Axundov kimi müasir düşüncəli mütəfəkkirin yetişməsindən,

“Əkinçi”nin meydana çıxmasından XIX əsrin sonu, XX əsrin əvvəllərində müxtəlif ideya-estetik məktəblərin genişlənməsindən və s. ibarətdir. Və “Müracət”də deyildiyi kimi, “maarifçilik hərəkatının genişlənməsi Azərbaycandan xarici ölkələrə ali təhsil almağa gedənlərin sayının get-gedə artmasına gətirib çıxardı. Xaricdə ali təhsil aldıqdan sonra vətənə qayıdan ziyalılar Azərbaycanda maariflənmə meyllərini dəstəkləyən qüvvələri öz ətrafında birləşdirdilər, milli mətbuat və milli teatrın yaranması üçün zəmin yaratdılar”. Və Prezident tamamilə doğru olaraq qeyd edir ki, “yeni dövrün ədəbiyyatının formalaşmasında Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Süleyman Sani Axundovun, Üzeyir bəy Hacıbəyovun, Nəriman Nərimanovun, Haşım bəy Vəzirovun, Cəlil Məmmədquluzadənin, Abbas Səhhətin, Məhəmməd Hadinin, Abdulla Şaiqin, Əli bəy Hüzeynzadənin, Əhməd Ağaoğlunun, Əhməd Cavadın, Hüseyn Cavidin və başqalarının əvəzsiz xidmətləri var idi”.

Buraya “sovet dövrü” də daxildir... Sovet dövrünü Azərbaycan xalqının tarixindən sıxışdırıb çıxarmağa çalışanlar səhv edirlər – xalqımız bu dövrü bütün mürəkkəbliyi, uğurları, qüsurları ilə birlikdə yaşamışdır. Biz heç də, bəzilərinin düşündüyü kimi, milli müstəqillik dövrünə birbaşa XX əsrin əvvəllərindən – Azərbaycan Demokratik Cümhuriyyəti dövründən gəlməmişik. Sovet dövrü Azərbaycana minlərlə orta, onlarla ali məktəb, teatrlar, muzeylər, sərgi salonları vermişdir. Sovet dövründə Azərbaycan dili, ədəbiyyatı, incəsənəti böyük sürətlə inkişaf etmişdir. Bununla belə, yüksəlişdə olan milli hisslər, ideyalar boğulmuş, repressiya illərində Azərbaycanın 50 mindən artıq övladı güllələnmiş, 100 mindən çox insan Qazaxıstana, Sibirə sürgün edilmişdir. Hüseyn Cavid, Mikayıl Müşfiq, Salman Mümtaz kimi böyük ədəbiyyat, mədəniyyət xadimləri məhz həmin illərdə sovet kommunist ideologiyasının qəzəbinə tuş gəlmişlər.

Ümumiyyətlə, “Müraciət” Azərbaycan tarixinin sovet dövrünə obyektiv metodlarla yanaşmağın gözəl təcrübəsini verir – biz əminik ki, həmin təcrübə müxtəlif sahələr (o cümlədən, mədəniyyət sahələri) üzrə mütəxəssislərin gələcək araşdırmaları üçün möhkəm metodoloji (ideoloji!) əsas verir.

Azərbaycan xalqına, onun milli mədəniyyətinə qarşı müxtəlif xarakterli qəsdləri unutmamaqla yanaşı, etiraf etməliyik ki, Azərbaycanda milli şüurun inkişafında sovet dövrü xüsusi mərhələdir – Cəfər Cabbarlı, Səməd Vurğun, Mehdi Hüseyn, Süleyman Rüstəm, Osman Sarıvəlli, Rəsul Rza, Məmməd Rahim, Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev, Mir Cəlal, Əlağa Vahid kimi böyük Azərbaycan söz ustalarının, mütəfəkkirlərinin yazıb-yaratdıqları həmin mərhələni xalqımızın tarixindən necə çıxarmaq, bu böyük şəxsiyyətləri necə inkar etmək olar?.. Onlar uzun illər “sovet yazıçısı” adını fəxrlə daşısalar da, azərbaycançılıq dünyagörüşünün formalaşmasında, demək olar ki, həlledici rol oynamış, müasir Azərbaycan dilinin, ədəbiyyatının əsaslarını yaratmışlar... Və onu da etiraf etmək lazımdır ki, Azərbaycanda sovet dövrünün son on illəri Heydər Əliyev epoxasının başlanması ilə milli şüurun inkişafı

baxımından daha məhsuldar olmuşdur. 60-cı illərin sonu, 70-ci illərin əvvəllərindən etibarən Azərbaycan mədəniyyəti görünməmiş bir sürətlə irəliləmiş, ədəbiyyat, incəsənət milli özünüdərkin ən çevik komponentlərindən birinə çevrilmişdir. Heydər Əliyev həmin illərdə sübut etdi ki, sovet dövrünün ideoloji məhdudiyyətlərinə baxmayaraq uzaqgörən rəhbəri olan xalq öz dilini, ədəbiyyatını, incəsənətini inkişaf etdirib yüksəltməyə qadirdir.

Və Azərbaycan xalqı "Müraciət"də haqqında bəhs olunan üçüncü dövrə məhz 60-cı. 70-cı, 80-ci illərdə formalaşmış kifayət qədər yüksək (və milli!) dünyagörüşü ilə gəldi.

80-ci illərin sonu, 90-cı illərin əvvəlləri Azərbaycan tarixinin hərcmərclik dövrüdür – elə bir dövrdür ki, onun mədəni definisiyası, yaxud atribusiyası, demək olar ki, yoxdur. Həmin illərdə ən çox əziyyət çəkən, mənəvi sarsıntılar keçirən məhz ədəbiyyat, incəsənət və elm xadimləri olmuşlar desək, səhv etmərik. AXC liderlərinin neobolşevizmi, hərcmərclikdən istifadə edib hakimiyyətə gələn (yaxud gətirilən) səriştəsiz, mənsəbpərəst "rəhbərlər"in volyuntarizmi onillər, yüzillər boyu yaradılmış mədəniyyəti bir anda gözdən salmaqla onlarla, yüzlərlə yaradıcı insanı – yazıçını, rəssamı, musiqiçini məəttəl qoydu, taleyin ümidinə buraxdı.

Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gəlməsi ilə müstəqil Azərbaycanın mədəniyyəti qarşısında geniş inkişaf üfüqləri açıldı. Böyük mütəfəkkir görürdü ki, "müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycanlılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Bizim bu gün təhsilimiz də, incəsənətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir".

Azərbaycanın dövlət müstəqilliyi qazandığı illərdə, "Müraciət"də deyildiyi kimi, "biz əslində milli-mədəni irsimizi, tariximizi, milli sənətimizi bir daha təhlil edərək, onu ideoloji buxovlardan və qadağalardan xilas edirik. Bununla yanaşı, biz Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış edirik".

Dahi Azərbaycan şairi M.Füzulinin 500, böyük oğuz-Azərbaycan eposu "Dədə Qorqud"un 1300 illik yubileyləri yalnız Azərbaycanda deyil, mədəni dünyanın, demək olar ki, hər yerində bu və ya digər dərəcədə qeyd edildi. Və bütün dünya müstəqil Azərbaycanın böyük mədəniyyəti, zəngin mənəviyyatı, yaradıcılıq imkanları ilə daha geniş miqyasda tanış oldu. Xüsusilə "Dədə Qorqud" eposunun həm Azərbaycanda,

həm də dünyada təbliği, öyrənilməsi sahəsində böyük işlər görüldü. Mütəxəssislərə məlumdur ki, "Dədə Qorqud" eposunun tarixi Azərbaycan etnik-mədəni sisteminin ümumtürk etnik-mədəni sistemindən fərqlənərək ayrılması (diferensiyasiyası) tarixidr. Ona görə də "Dədə Qorqud"un yubileyi bu və ya digər şəkildə Azərbaycan xalqının yubileyidir... Və Azərbaycan Prezidentinin təklifi ilə həmin yubileyin ümumdünya, xüsusilə türk dünyası miqyasında qeyd olunması böyük siyasi-ideoloji əhəmiyyətə malik idi.

Azərbaycan Prezidentinin iki il, iki əsr, iki era arasında Azərbaycan xalqına müraciətində çox doğru olaraq qeyd edilir ki, "Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığından danışan eposdur. "Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır".

Məhz Heydər Əliyevin bilavasitə rəhbərliyi, təşkilatçılığı sayəsində cəmisi bir neçə il ərzində "Dədə Qorqud" eposunun Azərbaycan cəmiyyətində kütləvi təbliği sahəsində görülən işlər bir neçə on, hətta yüz ildə görülən işlərə bərabər oldu. Yalnız belə bir faktı xatırlamaq kifayətdir ki, türk dünyasında ilk dəfə məhz Azərbaycanda "Dədə Qorqud Ensiklopediyası" yaradıldı. Və bununla da Azərbaycan oğuz türkləri içərisində eposun əsas sahibi olduğunu bir daha dünyaya sübut etdi.

Azərbaycan Prezidentinin "Müraciət"ində qeyd edilir ki, "hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın bu sahədə əldə etdiyi uğurlar yüksək təqdirə layiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur". Heç şübhəsiz, Azərbaycan mədəniyyəti inkişaf etdikcə, Azərbaycan dövləti təkmilləşib möhkəmləndikcə Azərbaycan dili daha da zənginləşəcək, daha müasir, daha qlobal, daha analitik düşüncənin dilinə çevriləcəkdir. Çünki Azərbaycan dili, Azərbaycan Prezidentinin dəfələrlə dediyi kimi, istedadlı, böyük potensiala malik bir xalqın dilidir.

Azərbaycan Prezidenti Heydər Əliyevin yeni ilin, yeni əsrin və yeni minilliyin astanasında "Azərbaycan xalqına müraciət"i Azərbaycan dilinin, ədəbiyyatının və incəsənətinin perspektivlərini müəyyənləşdirmək, böyük tarixi təcrübəyə dayanaraq inkişaf yollarını müəyyən etmək baxımından olduqca qiymətli sənəddir. Bizim fikrimizcə, həmin sənədin əsas ideyası ondan ibarətdir ki, "biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

* * *

Ulu Öndər Heydər Əliyev milli dil, ədəbiyyat, incəsənət xadimlərini Azərbaycan mədəniyyətinin inkişafı naminə həmişə qiymətləndirmiş, onları həm o zamankı Sovetlər Birliyinin yüksək mükafatlarına təqdim etmiş, həm də müstəqil Azərbaycanın yüksək mükafatları ilə təltif etmişdir. Bu təqdimlərin, təltiflərin əsas məqsədi Azərbaycanın ədəbiyyat və incəsənət xadimlərinin istedadını, əməyini qiymətləndirmək, nüfuzunu yüksəltmək idi.

Azərbaycan Prezidenti 1998-ci ilin avqust ayının 21-də Prezident iqamətgahında Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din xadimlərinin böyük bir qrupuna “Şöhrət” ordenlərinin təqdim edilməsi mərasimindəki nitqini bu sözlərlə başlamışdır:

“Bildiyiniz kimi, Azərbaycan dövlətinin ordenləri, medalları təsis olunub və ötən illərdə Azərbaycanın görkəmli şəxsləri bu ordenlərlə, medallarla təltif ediliblər. Təltif olunanların əksəriyyəti Azərbaycanın mədəniyyət, elm xadimləri - ədəbiyyatda, incəsənətdə, elmdə xalq qarşısında xidmət göstərmiş, fərqlənmiş şəxslərdir”.

Görkəmli şəxsiyyətlərə (vəfat edənlərin ordenləri övladlarına verilmişdir) dövlətin ali mükafatı təqdim olunandan sonra isə Prezident sözünə davam edərək demişdir:

“Bu gün Azərbaycan müstəqil dövlət olaraq xalqımız tərəfindən tarix boyu yaradılımış əsərləri, əldə edilmiş nailiyyətləri bütün dünyaya nümayiş etdirir və bununla da dünya xalqları içərisində xalqımızın nə qədər böyük, istedadlı xalq olduğunu sübut edir.

...Bizim yaradıcı, elm adamlarımızın – XX əsrdə yazıb-yaradanların bir çoxları da yaşayır, yaradır və öz yaradıcılığını davam etdirir. Hesab edirəm ki, biz çox xoşbəxt adamlarıq ki, Azərbaycanın milli azadlığını, müstəqilliyini gördük, müstəqil, azad ölkədə, dövlətdə yaşayırıq”.

Heydər Əliyevin millət quruculuğu ilə dövlət quruculuğuna vəhdətdə baxmağının nəticəsi idi ki, xalqın yaradıcı nəsilləri arasında əlaqənin qırılmamasına xüsusi diqqət yetirmişdir:

“Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri nəsilləri arasında əlaqələr qırılmır. Onlar bir-biri ilə bağlıdır, bir-birini irəli aparır. Gənc də, yaşlı da – hamısı bir yerdədir. Bunun xüsusi əhəmiyyəti vardır. Çünki son illərdə bəziləri Azərbaycanın tarixi keçmişini tamamilə pozmağa, qaralamağa, hörmətdən salmağa cəhd göstərmişlər.

Şübhəsiz ki, bu cəhdlər heç bir nəticə verə bilməz”.

Ümummilli Lider əminliklə bildirmişdir:

“Biz Nizamini, Füzulini, Nəsimini, Vaqifi qiymətləndirdiyimiz kimi, Mirzə Fətəli Axundovu da, Üzeyir Hacıbəyovu da, Cəlil Məmmədquluzadəni də, Cəfər Cabbarlını da, Müslüm Maqomayevi də, Səməd Vurğunu da, Rəsul Rzanı da, Süleyman Rəhimovu da, Mehdi Hüseyni də, Qara Qarayevi də, Fikrət Əmirovu da, Niyazini də, Rauf Hacıyevi də və başqalarını da qiymətləndiririk. Biz bu gün yaşayıb-yaradanları

da qiymətləndiririk... Xalqımızın, mədəniyyətimizin, incəsənətimizin, elmimizin çox gözəl keçmişi, tarixi və bu günü vardır. Mən tam əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır".

Prezident dövlət quruculuğu fəaliyyəti dövründə ortaya çıxan problemləri də görkəmli mədəniyyət xadimlərindən gizlətməmişdir:

"Siz burada mənim haqqımda xoş sözlər dediniz, öz hissiyyatlarınızı bildirdiniz, məhəbbətinizi, sevgilərinizi, arzularınızı izhar etdiniz. Mən bunlara görə sizə təşəkkür edirəm.

Bilirsiniz ki, mənim həyatım xalqa, millətə, Azərbaycana həsr olunubdur. Bu, mənim həyatımın mənasıdır. Əgər insanlar bunu görürsə və qiymətləndirirsə, bu mənim üçün ən yüksək mükafatdır. Ancaq kimsə qiymətləndirir, kimsə qiymətləndirmirsə, bu da mənim üçün heç bir narahatlıq hissi doğurmur. Cəmiyyətdə hamı üçün yaxşı olmaq mümkün deyildir. Xüsusən də hakimiyyətdə olan insan üçün. Hakimiyyətdə olan insan kimisə təltif edir, amma onun hakimiyyəti dövründə kimsə cəzalanır... Ancaq Azərbaycanda insanların tam əksəriyyəti dövlətimizin müstəqilliyi yolunda son beş ildə görülmüş işləri qiymətləndirir və sizin burada dediyiniz kimi, yüksək qiymətləndirir... Bu məni daha da ruhlandırır, mənə daha da çox güc verir".

Ədəbiyyat, incəsənət, mədəniyyət xadimlərinin Ümummilli Lider haqqında dediyi sözlər müstəqillik illərində onu xüsusilə fərəhləndirirdi. Ona görə ki, sovet dövründə bu yolda çəkdiyi böyük zəhmətin nəticələrini görmək, bunların müstəqil ölkənin dirçəlişinə təsirini müşahidə eləmək siyasi lideri məmnun etməyə bilməzdi.

Azərbaycan Prezidenti 1998-ci ilin dekabr ayının 12-də Prezident iqamətgahında Azərbaycanın görkəmli ictimai xadimlərinə, o cümlədən ədəbiyyat və mədəniyyət xadimlərinə – Bəxtiyar Vahabzadəyə, İsa Hüseynova, Arif Məlikova "İstiqlal", Nəbi Xəzriyə, Yusif Səmədoğluna (orden qızına verilmişdir), Qədir Rüstəmova, Həsən Məmmədova, Rasim Ocaqova, Gülxar Həsənovaya "Şöhrət" ordenlərini təqdim etdikdən sonra onları təbrik edərək demişdir:

"Ümumiyyətlə, bugünkü mərasim buraya toplaşanların hər birinin həyatında əlamətdar bir hadisə olduğu kimi, eyni zamanda bizim ictimai həyatımızda çox böyük bir hadisədir. Bu onu göstərir ki, müstəqil Azərbaycanın dövləti öz vətəndaşlarının yüksək nailiyyətlərini layiqincə qiymətləndirə bilir. Bu da bizim müstəqilliyimizin, dövlətçiliyimizin gözəl göstəricisidir.

...Sizin keçmişdə aldığınız mükafatlar da, ordenlər də, medallar da qiymətlidir. Onların hər biri sizin həyatınızın, tərcümeyi-halınızın parlaq bir səhifəsidir. Ancaq bununla yanaşı, bu günü görmək – Azərbaycanın müstəqilliyini görmək, bu zamana qədər yaşamaq öz-özlüyündə böyük xoşbəxtlikdir. Müstəqil Azərbaycanın dövlət mükafatını almaq, şübhəsiz ki, hər bir insanda böyük iftixar hissi doğurur".

Bu sözlər ona görə son dərəcə gözəl sözlərdir ki, həm keçmişə qiymət verir, həm də gələcəyi – müstəqilliyi qiymətləndirir.

Azərbaycan Prezidenti müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərlik etdiyi təxminən 10 il ərzində 100-dən çox ədəbiyyat və incəsənət xadimini

yubileyləri münasibətilə rəsmən təbrik etmişdir. Buraya yazıçılardan Mirvarid Dilbazi, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, İsa Hüseynov (Muğanna), Nəbi Xəzri, Əzizə Cəfərzadə, Məmməd Araz, Nəriman Həsənzadə, Balaş Azəroğlu, Hüseyn Abbaszadə, Hüseyn İbrahimov, Yusif Səmədoğlu, Anar, Elçin, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Elmira Axundova və b.; musiqiçilərdən Tofiq Quliyev, Cövdət Hacıyev, Hacı Xanməmmədov, Süleyman Ələsgərov, Ramiz Mustafayev, Şəfiqə Axundova, Sara Qədimova, Tükəzban İsmayılova, Lütfiyar İmanov, Tofiq Bakıxanov, Yaqub Məmmədov, Əlibaba Məmmədov, Arif Məlikov, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Qədir Rüstəmov, Emin Sabitoğlu, Rauf Abdullayev, Arif Babayev, Tamilla Mahmudova, Mirzə Babayev, Musa Mirzəyev, Azər Rzayev, Canəli Əkbərov, Polad Bülbüloğlu, İlhamə Quliyeva, Fidan Qasımova, Xuraman Qasımova, Fərhad Bədəlbəyli, Müslüm Maqomayev və b.; rəssam və heykəltaraşlardan Ömər Eldarov, Tahir Salahov, Kamil Əliyev, Kamil Nəcəfzadə, Tokay Məmmədov, Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Oqtay Sadıqzadə, Toğrul Nərimanbəyov, Elbəy Rzaquliyev və b.; teatr və kino xadimlərindən Qəmər Almaszadə, Tofiq Tağızadə, Lütfi Məmmədbəyov, Nəsibə Zeynalova, Zəroş Həmzəyeva, Sofiya Hüseynova, Leyla Vəkilova, Leyla Bədirbəyli, Əminə Dilbazi, Rasim Ocaqov, Hacıbaba Bağırov, Həsən Turabov, Firəngiz Əhmədova, Siyavuş Aslan, Həsən Məmmədov, Cənnət Səlimova, Vera Şirye, Şəfiqə Məmmədova, Eldar Quliyev, Rasim Balayev, Vaqif Mustafayev və b. daxildir. Həmin təbrik məktublarında a) hər bir sənətkarın yaradıcılıq uğurları barədə mükəmməl məlumat verilir, b) onların milli mədəniyyətin inkişafında xidmətləri göstərilir və dövlət adından hər birinə yeni yaradıcılıq nailiyyətləri arzulanır.

"21-ci əsr" jurnalı ilk sayında Heydər Əliyevə siyasətlə bağlı olmayan 21 sual vermişdir ki, həmin sualların cavabları dahi siyasətçinin ədəbiyyat, incəsənət və ümumən mədəniyyət barədəki təsəvvürlərini əks etdirir:

1. Ən çox sevdiyiniz şeir?
   - Səməd Vurğunun "Azərbaycan" şeiri.
2. Ən çox sevdiyiniz şair?
   - Şəhriyar.
3. Ən çox sevdiyiniz mahnı?
   - Xalq mahnıları və Tofiq Quliyevin mahnıları.
4. Ən çox sevdiyiniz insan?
   - Zərifə xanım.
5. Ən çox sevdiyiniz bəstəkar?
   - Üzeyir Hacıbəyov.
6. Ən çox sevdiyiniz pyes?
   - Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi.
7. Ən çox sevdiyiniz dramaturq?
   - Hüseyn Cavid.
8. Ən çox sevdiyiniz sənət əsəri?

- Səttar Bəhlulzadənin “Muğan gözəlləri”.

9. Ən çox sevdiyiniz sənət növü?
- Miniatür.

10. Ən çox sevdiyiniz sənətkar?
- Ömər Eldarov.

11. Ən çox sevdiyiniz içki?
- Çay, səhərlər südlə.

12. Ən çox sevdiyiniz gül?
- Qızılgül.

13. Ən çox sevdiyiniz rəng?
- Zoğalı rəng.

14. Ən çox sevdiyiniz idman növü?
- Yüngül atletika və üzgüçülük.

15. Ən çox sevdiyiniz insani xüsusiyyət?
- Mərdlik.

16. Ən çox sevdiyiniz şəhər?
- Bakı.

17. Ən çox sevdiyiniz mövsüm?
- Yaz.

18. Ən çox sevdiyiniz qələm növü?
- Mürəkkəblə yazan qələm.

19. Ən çox sevdiyiniz rəqəm?
- 7.

20. Ən çox sevdiyiniz bayram?
- Novruz bayramı.

21. Ən çox sevdiyiniz jurnal?
- “Molla Nəsrəddin”.

Həm verilən suallar, həm də cavablar, yəqin ki, zaman-zaman təhlil olunacaq, müzakirə ediləcək və həmişə ən doğru (və ən səmimi!) cavaba klassik nümunə göstəriləcəkdir.

* * *

Heydər Əliyevin dil, ədəbiyyat və incəsənət, ümumən mədəniyyət barədəki görüş, mülahizə və qeydlərini hər nə qədər ayrı-ayrılıqda təhlil etməyə çalışsaq da, onlar Ulu Öndərin ictimai-siyasi fəaliyyətində bütöv bir hadisə kimi təzahür edərək, birinci növbədə Azərbaycan xalqının, Azərbaycan dövlətinin inkişafına xidmət göstərir, ancaq o da şübhəsizdir ki, həmin görüşlər, mülahizələr, qeydlər (və mədəniyyətin müxtəlif sahələrində görülmüş möhtəşəm işlər!) bu sahələrə aid elmi-nəzəri ümumiləşdirmələr üçün də son dərəcə zəngin xəzinədir.

## Birinci hissə

# DİL

1. “Xalqı xalq edən, milləti millət edən onun ana dilidir”
2. “Azərbaycanın dövlət dili Azərbaycan dilidir”
3. Azərbaycan dili təliminin miqyası...
   Və Dünya azərbaycanlıları

# I FƏSİL

## “XALQI XALQ EDƏN, MİLLƏTİ MİLLƏT EDƏN ONUN ANA DİLİDİR”

Heydər Əliyevin bir dövlət (və millət) rəhbəri kimi Azərbaycanda aparmış olduğu dil siyasəti elmi-nəzəri (və ideoloji) baxımdan yalnız Azərbaycan miqyasında əhəmiyyətli olması ilə məhdudlaşmır, eyni zamanda dünya miqyasına çıxmaqla, ümumən, dil siyasətinin həmişə aktual olan problemlərinin həlli üçün əsaslı (və mötəbər) prinsiplər təqdim edir. Bu prinsiplər həm də (və daha çox!) ona görə əhəmiyyətlidir ki, Azərbaycanın, yəni müstəqillik uğrunda yüz illər boyu mübarizə aparan və qalib gələn bir xalqın (və dövlətin) nümunəsində və ya təcrübəsində uğurla həyata keçirilmişdir.

* * *

Dil haqqındakı elmin – müqayisəli-tarixi dilçiliyin meydana çıxdığı XIX əsrin əvvəllərindən min illərlə qabaq dünyanın Mesopotamiya, Hindistan, Yunanıstan kimi sivilizasiya mərkəzlərində inkişaf etmiş (ədəbi) dilləri sonsuz maraqla (və bütün normativ, üslubi incəliklərinə qədər) təsvir edirdilər. Bu təsvirlər öz əksini bugün olduqca məşhur lüğətlərdə, qrammatikalarda tapmışdır... Türkcəyə gəldikdə isə onun ilk ən mükəmməl təsvirini, məlum olduğu kimi, XI əsrdə Mahmud Kaşğari özünün “Divani-lüğat it-türk”ündə verdi. Azərbaycan dili tarixi haqqındakı elmin yaradıcısı Əbdüləzəl Dəmirçizadə “Divan”ı müqayisəli-tarixi dilçiliyin hadisəsi sayanda, əlbəttə, hissə qapılmışdı. Hər şeydən əvvəl ona görə ki, Mahmud Kaşğari “lüğat” (“dillər”) terminini işlətsə də türk dillərini yox, məhz dialektlərini, şivələrini müqayisə edirdi; ikincisi, müqayisə o zaman tarixi dəyər qazanır ki, mövcud dillər əsasında pradili (kökdili) bərpa eləsin, halbuki türkcə göz önündə idi; nəhayət, üçüncüsü odur ki, ərəb-müsəlman “dilçilər”inin təsvir obyekti olan ərəb, fars və türk dilləri tarixi yox, məhz tipoloji müqayisəyə meydan açırdı, çünki bunlar müxtəlif mənşəli dillər idi.

Ümumiyyətlə, ərəb-müsəlman “dilçiliy”i sərəncamında olan dillərin tarixi diferensiasiyası proseslərini izləmək barədə düşünmür, onların bütövlüyündən çıxış

etməyə üstünlük verirdi. Ona görə də türk dilləri neçə ki bu “dilçiliy”in ixtiyarında idi, onların get-gedə artan fərqi, müstəqillikləri qeydə alınmırdı. Elə ki Mirzə Kazımbəyin şəxsində hind-Avropa dilçiliyinin prinsipləri ortaya çıxdı, “Türk-tatar dilinin ümumi qrammatika”sı ayrı-ayrı türk ləhcələri (əslində, dilləri!) barədə danışmağa başladı... Ərəb-müsəlman “dilçiliyi”nin təsvir pedantizmi türk dillərinin müqayisəli-tarixi tədqiqinə, nə qədər paradoksal görünsə də, o baxımdan yardım etmişdi ki, nəinki müsəlman, eləcə də xristian, bütpərəst türk xalqlarının dilləri də məhz həmin “dilçiliy”in baxış dairəsində, yaddaşında müxtəlif ləhcələrə malik ümumi bir dil kimi qalmışdı. Müsəlman türklərin dilləri isə yalnız türkcənin deyil, ərəb və farscanın ortaq leksikonu ilə bütün orta əsrlər boyu “bütöv bir dil” təsəvvürünü möhkəmləndirməkdə davam etmişdir.

Odur ki müqayisəli-tarixi metodun türkologiyada geniş tətbiqinin artıq kifayət qədər zəngin təcrübəsi olduğu bizim günlərdə belə Azərbaycan dilinin türk dillərindən ayrılmağını – təşəkkülünü, eləcə də təkamülünü təsəvvür edərkən qarşıya bir-birinə diametral əks olan iki maneə çıxır: bir sıra dil tarixçıləri Azərbaycan dilinin təşəkkülünü eramızdan əvvəlki minilliklərə aparıb çıxardıqları halda, bəziləri türk dillərinin diferensiasiyasını (və deməli, Azərbaycan dilinin də təşəkkülünü) son əsrlərə qədər gətirirlər... Ən maraqlısı isə odur ki, bu fərqli yanaşmaya bəzən eyni bir dil tarixçisinin təcrübəsində təsadüf edilir.

Azərbaycan dilinin həm təşəkkül, həm də təkamül tarixi barədə bəhs edərkən – dilin ümumi (və elmi!) “tərcümeyi-hal”ını yaradarkən, görünür, müqayisəli-tarixi metodla yanaşı, sistem-struktur və antroposentrik (praqmatik) metodların imkanlarından da yararlanmaq lazım gəlir... Müqayisəli-tarixi metod bizə belə sxematik bir qənaət verir ki, Azərbaycan dili hər hansı başqa bir dilin yox, məhz türkcənin diferensiasiyasının (bölünməsinin) məhsuludur. Ancaq bu hadisənin nə zaman baş verdiyini biz sistem-struktur yanaşma ilə dəqiqləşdirə bilərik... Antroposentrik baxış isə bizi həm təşəkkülün, həm də təkamülün etnokulturoloji mühiti (və ya məkanı!) barədə müfəssəl məlumatla təmin edəcəkdir... Əlbəttə, nə zamandan, nə də məkandan kənarda hər hansı dilin mükəmməl “tərcümeyi-hal”ı yoxdur.

Dilin işarələr sistemi olması o deməkdir ki, biz tarixin hər hansı dövründə hər hansı dil adına məhz müəyyən (özünəməxsus!) işarələr sistemini görməliyik. Əgər bir neçə on antroponim, toponim, yaxud ümumişlək söz türkcə (yaxud onun hansısa təzahürü) barədə aydın təsəvvür yaratmırsa, burada dil varlığından danışmaq əsassızdır. Ortada elə mətnlər olmalıdır ki, bu və ya digər sistemin mövcudluğuna şübhə yeri qoymasın... Məsələn, kimmer - sak-skiflərin, xüsusilə hun-qıpçaqların Azərbaycanda məskunlaşmaları mənbələrdə əks olunur, lakin onların dil sistemi barədə məlumat kafi deyil. Bu isə o deməkdir ki, həmin dövrləri hər hansı türk dilinin, o cümlədən Azərbaycan dilinin “tərcümeyi-hal”ına aid edilməsi yalnız “fakt-güman”dır... Bu, məsələnin hələ sadə tərəfidir: burada dil ya var, ya da yoxdur... Sistem-struktur yanaşma üsulu o zaman daha böyük əhəmiyyət kəsb edir ki, mətn var,

ancaq onun hansı türk dilinə aidliyi mübahisəlidir. Türkcənin diferensiasiya prosesi bir neçə əsr davam edə bildiyinə görə keçid dövrü mətnlərini, adətən, türkcəyə, yaxud onun hər hansı diferensial təzahürünə aid edib-etməmək problemi yaranır. Bəzi hallarda isə mətnin artıq ümumi türkcənin özü yox, təzahürü olduğunu təyin etsək də, həmin təzahürün hansı türkcəyə mənsubluğunu deyə bilmirik... Bütün bu hallarda ayrı-ayrı türk dillərinə məxsusluğu heç bir şübhə doğurmayan mətnlərdə stabilləşən fonoloji, qrammatik və leksik sistemləri bir-biri, eləcə də hər birini ayrı-ayrılıqda ümumtürk, yaxud "protürk" sistemi ilə müqayisə etmək lazım gəlir. Ancaq etiraf eləməliyik ki, istər türk dillərinin, istərsə də Azərbaycan dilinin tarixşünaslığında, bu işlər ümumən çox böyük zəhmət (və zaman) istədiyindən, yalnız intuisiya ilə (gözəyarı!) aparılır. Bu isə, təbii ki, mübahisələrə gətirib çıxarır; məsələn, Yunus Əmrənin, Nəsiminin, hətta Füzulinin dili həm Azərbaycan, həm də Türkiyə türkcəsinə aid edilirsə, deməli ya dil sistemləri baxımından düzgün hesabat aparılmamışdır, ya da bu dillər ən azı Füzuliyə qədər hələ eyni bir dil olaraq qalmışdır.

Dilin "tərcümeyi-hal"ına antroposentrik yanaşma dil işarəsi ilə insanın, cəmiyyətin (və dil ustasının!) münasibətlərinin tarixinə necə gəldi deyil, mümkün qədər daha çox elmi texnologiyalar səviyyəsindən baxmağa imkan verir... Dil sistemi o dildə danışan, yazan – o dilin işarəsindən ünsiyyətdə istifadə edən hər kəsə münasibətdə neytraldır. Ancaq cəmiyyət bu neytrallıqdan nə qədər faydalanmış olsa da özünün münasibətində həmin neytrallığı gözləməkdən çox-çox uzaqdır. Ona görə də cəmiyyət, bir tərəfdən, ümumən kütlənin timsalında tarixən dil sisteminə sərbəst, diqqətsiz (hətta müəyyən mənada məsuliyyətsiz!) yanaşaraq onun normativliyini pozur, şivələr, dialektlər törədir, digər tərəfdən isə, öz ziyalılarının (din xadimlərinin, yazıçıların, siyasətçilərin, müəllimlərin...) şəxsində dilin elə bir intellektual qatını yaradır ki, kütlənin təfəkkürü oraya müdaxilə edə bilmir. Və paradoks da orasındadır ki, biz dilin tarixi deyəndə ilk növbədə bu sonuncusunu – ədəbi dili düşünürük, heç nəzərə də almırıq ki, kütlənin "törədicisi" olduğu dillə ayrı-ayrı dil ustalarının yaratdıqları miqyasca müqayisəyə gəlmir. Çünki ədəbi dil bir neçə əsrdən sonra köhnəlib aradan qalxır, onun yerini yeni ədəbi dil tutur ki, bu da xalqın yeni ziyalılar nəslinin üzərində işləyəcəyi "xam material" hesabına mümkündür – o material hesabına ki, törədicisi xalq kütləsidir.

Azərbaycan dili müqayisəli-tarixi, sistem-struktur və antroposentrik müşahidələr (təhlillər) altında aşağıdakı dövrlərdən keçir: 1) təşəkkül dövrü, 2) köhnə Azərbaycan dili dövrü, 3) yeni Azərbaycan dili dövrü.

Azərbaycan dili (Azərbaycan türkcəsi) türk dilinin təbii-tarixi diferensiasiyası (bölünməsi) nəticəsində məhz Azərbaycanda təşəkkül tapmışdır. Azərbaycan dilinin ilk mükəmməl abidəsi "Dədə Qorqud" eposudur ki, müasir dövrə orta əsrlərin sonlarına aid əlyazmalarında gəlib çatmışdır.

Qədim Azərbaycan ərazisində yayılmış xalqlar haqqında bizə gəlib çatan məlumatlar e.ə. III minillikdən başlayır. Ən məşhurları lullubey, kuti, xurrit xalqlarıdır

ki, tədqiqatçıların çoxu onları Qafqaz xalqlarına (və dillərini də, nəticə etibarilə, Qafqaz dillərinə) aid edir. E.ə. II minilliyin sonu, I minilliyin əvvəllərində Azərbaycanın dil mənzərəsi əsaslı şəkildə dəyişir. Bir sıra epizodik dil hadisələrini nəzərə almasaq, tarix səhnəsinə İran və Turan sosial-siyasi nüfuzları çevrəsində təmərküzləşən iki dil – İran və türk dilləri çıxır. Ehtimal edilir ki, onların hər ikisi Ön Asiyaya aşağı-yuxarı eyni dövrdə, hətta ola bilsin ki, eyni yollarla eyni axınların (köçlərin) tərkibində gəlmişlər. Və təbii ki, bu zaman əsas diqqət kimmer-sak-skif köçlərinə yönəlir... Xüsusi olaraq qeyd etmək lazım gəlir ki, bu möhtəşəm (və davamlı) köçlərdə, ümumən kimmer-sak-skif etnoslar ittifaqında iranlılarla turanlıların nüfuz nisbəti uzun illərdir ki, mübahisə mövzusu olaraq qalır.

E.ə. I minilliyin əvvəllərindən başlayaraq təxminən min il ərzində Ön Asiyada, xüsusən Azərbaycanda dövlətlər qurmuş türklər çox güman ki, yalnız şifahi deyil, az-çox yazılı abidələrə də sahib olmuşlar. Lakin bu abidələrin dili barədə hələ konkret bir təsəvvürümüz yoxdur.

Eramızın ilk əsrlərindən etibarən Turan-türk etnosunun yeni nəslinin – hunların özlərindən əvvəlki nəsli təkrar edərək Şimaldan Azərbaycana (və ümumən Ön Asiyaya) əsrlərlə davam edən ardıcıl axınları islamaqədərki (və sonrakı) dövrdə Sasanilərin yürütdüyü “iranlaşdırma” siyasətinin qarşısını almaqla Azərbaycanda (və ümumən Ön Asiyada) türklüyün zəifləməkdə olan hegemoniyasını yenidən gücləndirdi... Türkcənin ilk mükəmməl yazılı örnəklərini VIII əsrin 30-cu illərində Mərkəzi Asiyada Orxon çayı hövzəsindəki karvan yolları üzərində daşlara həkk edən türklərin nəvələrinin (Səlcuqların) XI-XII əsrlərdə Azərbaycana (oradan da Kiçik Asiyaya) axınları isə türkcənin (və türklərin) taleyi baxımından həlledici olmuşdur.

Doğrudur, Ön Asiyada “prototürklər”in, yaxud “protoaltaylar”ın e.ə. III minillikdən, hətta daha qədimlərdən məskunlaşmaları barədə mülahizələr vardır. Nə qədər qeyri-adi (metaforik) görünsə də, belə iddia edilir ki, Azərbaycan dili üç tarixi dövrdən keçmişdir: 1) Şumer dövrü (e.ə. III-II minilliklər), 2) Skif-türk dövrü (e.ə. I minillik), 3) Türk dövrü... Əlbəttə, bu iddianın arxasında kifayət qədər elmi olan nə isə var, müzakirə edilə bilər, eynilə Şumer-türk paralelləri məsələsi kimi onun da üzərindəki “qeyri-elmilik” damğası götürülməlidir, lakin türkcənin, eləcə də altaycanın tarixi hüdudları barədəki təsəvvürlərimizi genişləndirməyə stimul verən bu cür mülahizələr hələ ki sübut olunmamış qalır.

Kimmer-sak-skif (e.ə. I minillik) → hun-qıpçaq (I-VIII əsrlər) → oğuz-səlcuq (IX-XII əsrlər) modelinə gəldikdə isə o, Azərbaycanda türkcənin yayılma addım və ya impulslarını aydın əks etdirir. Birinci dövrdən (kimmer-sak-skiflərdən) bizə yalnız xüsusi adlar – toponim və antroponimlər gəlib çatmışdır... İkinci dövr dil materialı ilə o baxımdan daha zəngindir ki, Cənubi Qafqaz xristian mənbələri də tədricən tarix səhnəsinə çıxıb bilavasitə əlaqədə olduqları hun-qıpçaqların həyat tərzi ilə yanaşı, dili barədə də müəyyən faktlar təqdim edir. Məsələn, mən, yaxşı, çöl və s. kimi onlarla sözlər bu günə qədər Azərbaycan dilində işlənirsə ( və bu tipli sözlərin böyük bir

qismi XI-XVI əsrlərdə oğuz türkcəsi tərəfindən sıxışdırılmışdırsa, məsələn: aytmaq), deməli, hun-qıpçaqcanın Azərbaycan dilinin "tərcümeyi-hal"ındakı rolu təsəvvür etdiyimizdən daha önəmli olmuşdur.

Əgər birinci, eləcə də ikinci dövrün Azərbaycan dilinin mənşəyində bilavasitə yer tutduğu ehtimal edilirsə, üçüncü dövrə münasibətdə bu ehtimal gerçəkliyin özü qədərdir. Əvvəla, "Dədə Qorqud" eposu var ki, o, öz qədimliyi (və müasirliyi!) ilə Azərbaycan dili tarixinin üvertürasıdır. Prinsip etibarilə türkcənin oğuz-səlcuq xüsusiyyətlərini əks etdirsə də, başlanğıcını hun-qıpçaq dövründən almaqla həm Azərbaycan coğrafiyasında (əsasən, Cənubi Qafqazda), həm də ümumtürk sistemi zəminində Azərbaycan türkcəsinin ana türkcə ilə genotipoloji varisliyini göstərir.

Azərbaycan türkcəsinin IX-XII əsrlərdə ümumxalq dili olaraq Azərbaycanda geniş yayılmasının ikinci mühüm göstəricisi Nizaminin "Xəmsə"sidir ki, burada çox müxtəlif üsullarla türkcənin nüfuzu təsbit olunur. Və "Xəmsə"də "türk" sözünün yüz dəfədən çox işlədilməsi bütün əsərlərini farcsa yazmasına baxmayaraq dahi şairin öz türklüyü (o cümlədən türkcəsi!) ilə nə qədər fəxr etdiyinin əlamətidir. Nəhayət, XI-XII əsrlərdə türklərin (oğuz-səlcuqların) Ön Asiyada oynadıqları çoxtərəfli (və çoxmiqyaslı) beynəlxalq rol da ərəb və fars dilləri ilə müqayisədə türkcənin ictimai-siyasi nüfuzunu tədricən gücləndirir.

Və beləliklə, türkcə "Dədə Qorqud" eposu ilə özünün Azərbaycandakı diferensial varlığını – Azərbaycan türkcəsini min beş yüz illik "cəhdlər"dən sonra gerçəkləşdirmiş olur... Epos xalqın canlı (şifahi) yaddaşında qalmamış, orta əsrlərin sonlarında məhz Azərbaycanda yazıya alınmış əlyazmaları ilə qorunub saxlanmışdır ki, həmin əlyazmalar (Drezden və Vatikan), görünür, daha əvvəlki (XI-XII əsrlər) yazılı mətnlərdən köçürülmüşdür. Əgər belə olmasaydı, bir çox arxaik dil xüsusiyyətləri yaşamazdı. Və eposun nəzm dilinin "nəsrləşdirilməsi" prosesi də onun yazıya müxtəlif dövrlərdə bir neçə dəfə köçürüldüyünü göstərir.

"Dədə Qorqud" bütöv bir epoxanın (görünür, VII-XII əsrlərin) canlı fəaliyyətdə olmuş dil hadisəsi, həm tarixi-intellektual, həm də ədəbi-bədii yaradıcılıq aktıdır ki, ikinci keyfiyyəti birincidən daha böyük əhəmiyyət kəsb edir. Əsəri yazıya alan kifayət qədər istedadlı katiblər onun həmin keyfiyyətini unutmamaq şərtilə birincisini – tarixi-intellektual, başqa sözlə, informativ missiyasını da qoruyub saxlamış, mətnə, xüsusilə islam dini, baş vermiş yeni ictimai-siyasi hadisələr barəsində zəruri məlumatlar əlavə etmişlər.

Epos yazıya alınarkən üzərində "Kitabi-Dədəm Qorqud əla lisani-taifeyi-Oğuzan" yazılmışdır ki, "Oğuzların dili" anlayışının bu cür önə çəkilməsi əsərin dilinin qıpçaq və karluq dillərindən, yəni digər türkcələrdən fərqləndiyini göstərir. Bununla belə, "Kitab"ın yalnız ideya-məzmunu yox, dilinin sistem-strukturu da bütün ortaq cəhətlərilə birlikdə məhz bir Azərbaycan hadisəsi olduğuna zəmanət verir.

Azərbaycan dilinin tarixində təşəkküllə başlayan ilk dövr köhnə Azərbaycan dili dövrüdür ki, XIII əsrdən XVI-XVII əsrlərə qədər davam etmişdir. Bu dövrü, ilk

növbədə, mükəmməl bir yazılı ədəbi dil səciyyələndirir ki, mənbəyini XI-XIII əsrlərin ümumtürk ədəbi dili türkidən alır. Yusif Balasaqunlu, Əhməd Yəsəvi, Əhməd Yüqnəki ənənələrinin davamı olan ədəbi dil Türküstandan Azərbaycan – Şərqi Anadoluya gələrkən bir sıra yeni xüsusiyyətlər qazanır. Bunlardan birincisi kifayət qədər zəngin yerli danışıq dili, ikincisi isə ərəb və fars dilləri elementlərinin mənimsənilməsidir.

"Yusif və Züleyxa" mövzusunda (əsasən, məsnəvi, qismən də qoşma ilə) yazanların xalq danışıq dilinə yaxın ifadə tərzini tədricən sufi-panteist qəzəl (divan) şeirinin həm demokratizmi, həm də özünəməxsus metafizikası ilə seçilən obraz texnologiyaları əvəz etdi... Yunus Əmrənin, Nəsiminin dil-üslub axtarışları (bu da öz kökünü Əhməd Yəsəvidən almışdı) türkcəni Azərbaycan – Anadolu məkanında ərəbcənin, farscanın qibtə elədiyi ədəbi səviyyəyə qaldırsa da, türkdilli şairlər həm farsca, həm də ərəbcə qələm işlətməyə çalışırdılar ki, bunun əsas səbəbi müsəlman dünyasının üçdilli olması idi. Ancaq heç bir şübhə yoxdur ki, istər Nəsimi, istərsə də Füzuli türkcə yaradıcılıqları ilə daha qüdrətli, daha möhtəşəm idilər. Və təbii ki, öz tarixi missiyalarını bilavasitə bu dillə yerinə yetirirdilər. Dahi sələfləri Nizami kimi onlar da doğma dilləri ilə yad dil arasındakı fərqi bütün dərinliyi ilə duyur, türkcənin son dərəcə ardıcıl təəssübkeşləri olduqlarını gizlətmirdilər.

XVI-XVII əsrlərə qədər, görünür, vahid bir türk ədəbi dilinin mövcudluğu barədə israr etmək özünü o qədər doğrultmasa da, türkcənin biri-digərilə həm norma, həm də funksional üslub etibarilə sıx əlaqədə olan (eyni etnik-mədəni sistemin müxtəlif qütblərində dayanan) iki ədəbi (klassik) variantlarından danışmaq mübahisə doğurmamalıdır: Şərqdə cığatayca, Qərbdə oğuzca. Və XV əsrdə Şərqdə Nəvainin yaratdığı türkdilli məktəbin nüfuzu (təsiri) olmasaydı, XVI əsrdə Füzuli bu qədər vüsət ala bilməzdi. Hər şeydən əvvəl ona görə ki, vahid ədəbi məkan fəaliyyət çevrəsi nə qədər genişlənmiş olsa da müəyyən dərəcədə vahid ədəbi dil məkanının mövcudluğuna da nəzarət edirdi.

Əsasən, sufi-panteist ideyaların tərənnümü ilə məşğul olan, "vəhdəti-vücud" tərənnüm edən köhnə Azərbaycan dili XVI-XVII əsrlərdə artıq adındakı "köhnə" təyininə daha çox uyğun gəlməyə başlamışdı. Belə ki, ən mükəmməl ifadə-obrazlar, ən poetik sintaktik konstruksiyalar belə o qədər – ən azı üç əsr təkrar olunmuşdu ki, ideya-estetik təsirini itirmək üzrə idi.

Dövrün ədəbi dilinə antroposentrik baxımdan yanaşsaq görərik ki, İzzəddin Həsənoğludan başlayaraq türkcə yazan şairlərin sayı onlarladır, hətta bir neçə qəzəli qalmış söz ustalarının belə istedadı kifayət qədər yüksəkdir. Ümumilikdə isə, onlar xeyli dərəcədə məhsuldar olmuşlar... Nəsimi ilə Füzulinin mövqeyi köhnə Azərbaycan dili kontekstində, heç şübhəsiz, daha yüksəkdir. Ancaq məsələ burasındadır ki. onlardan birincisi Azərbaycanı (Şamaxını) gənc yaşlarında tərk etmiş, ikincisi isə Azərbaycanın üzünü, ümumiyyətlə, görməmişdir. Hər ikisinin türkcə ilə yanaşı, farsca, ərəbcə də yazmaları onların yaşayıb yaratdıqları müsəlman coğrafiyasının (və xalqlarının) ortaq şairləri olmaq iddialarını da nümayiş etdirir.

Sözügedən dövrün ədəbi dilinin sonrakı dövrdə bir-birindən daha çox fərqlənən Azərbaycan və Türkiyə türkcələrinə münasibətinə gəldikdə, artıq qeyd etdiyimiz kimi, buradakı ortaqlıq hər hansı etnokulturoloji, yaxud siyasi-ideoloji iddiadan irəli gəlmir, ədəbi dil proseslərinin tarixi inersiyasının nəticəsidir. Ancaq get-gedə daha aydın hiss olunur ki, qəzəl (divan) şeirinin klassik normalılığı səviyyəsində belə Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi arasında fərqlər dərinləşir... Səlcuqlardan sonra Azərbaycana axın edən qaraqoyunlular, ağqoyunlular, xüsusilə Səfəvilərin (qızılbaşların) hakimiyyəti altında təmərküzləşərək Osmanlılara qarşı bir neçə əsr davam edən cəbhə açırlar ki, bu, Azərbaycan türkləri ilə Türkiyə türklərini məhz ictimai-siyasi zəmində tədricən müxtəlif xalqlara çevirir. XI-XIII əsrlərdə Azərbaycan – Şərqi Anadoluya etnik bütöv (və vahid məkan) kimi daxil olan oğuz türkləri Kiçik Asiyada Səlcuqlar dövrü bitib. Osmanlı dövrü başlayandan etibarən tayfaların yenidən təşkili deyə biləcəyimiz etnogenetik bir proses keçirirlər. XI-XIII əsrlərin "iyirmi dörd" oğuz tayfasının orta əsrlərin sonuna doğru təkcə adları qalır. Və elə əvvəlcədən də onların dialekt, yaxud şivə mənsubiyyətindən danışmaq mümkün deyildi.

XV əsrin ortalarından həm siyasi, həm də mədəni mərkəz kimi Azərbaycanda Təbriz, Osmanlıda isə İstanbul önə çıxsa da, etnogenetik proseslərin davamı olaraq hər iki ölkədə ümumxalq dillərinin formalaşması bütün siyasi coğrafiyanı əhatə edir. Və hər iki dilin dialekt-şivə spektrlənməsi də həmin coğrafiyalar hüdudunda yayılır. Orta əsrlərin sonu, yeni dövrün əvvəllərində Azərbaycan və Osmanlı türkcələrini birləşdirən yalnız Şərqi Anadolu şivələridir, ondan şərqdəkilər Azərbaycan, qərbdəkilər isə Osmanlı dilinin perspektivlərini müəyyən edir.

Köhnə Azərbaycan dili dedikdə, elə ilk yanaşmadan da məlum olduğu kimi, ədəbi (yazılı) dil nəzərdə tutulduğuna görə bu "köhnəliy"in parametrlərini də o müəyyənləşdirir. Yəni ərəb, fars sözləri, izafət tərkiblərilə "ağırlaşdırılmış", ideya-məzmunca da çətin anlaşılan ifadə tərzi (mətn!) məhz ədəbi (yazılı) dilin əlamətidir. Bunun ümumxalq danışıq-ünsiyyət dilinə aidliyi, demək olar ki, yoxdur... Lakin nəinki sistem-struktur, hətta müqayisəli-tarixi baxış da tələb edir ki, köhnə Azərbaycan dilinin ümumxalq təzahürləri də yeni Azərbaycan dilinin müvafiq təzahürlərilə qarşılaşdırılsın. Və həm fonetikada, həm qrammatikada, həm də xüsusilə leksikada bu cür qarşılaşdırma üçün kifayət qədər zəngin material vardır... Xüsusilə bir məsələyə aydınlıq gətirilməlidir ki, yeni Azərbaycan dilinin dialekt sistemi nə dərəcədə köhnə Azərbaycan dili dövründən gəlir? Və ümumiyyətlə, Şimaldakı qədim qıpçaq dialektlərini nəzərə almasaq, köhnə Azərbaycan dilinin ümumxalq coğrafi mənzərəsi necə olmuşdur? Oğuz-səlcuq tayfalarının məskunlaşması müəyyən bir nizamla getmiş, yoxsa pərakəndə olmuşdur?..

Hər hansı halda bütün məsuliyyəti ilə demək mümkündür ki, yeni Azərbaycan dili köhnə Azərbaycan dilinin nə qədər varisidirsə, o qədər də inkarıdır.

XVI-XVII əsrlərdə köhnə Azərbaycan dilinin çöküşü, yeni Azərbaycan dilinin formalaşması prosesi başlayır. Və Azərbaycan ədəbi dilinin ümumi tarixi Füzulini

köhnə Azərbaycan dilinin son, Vaqifi isə yeni Azərbaycan dilinin ilk nümayəndəsi kimi təqdim edir. Hərçənd belə bir mülahizə irəli sürülmüşdür ki, Azərbaycan milli ədəbi dilinin banisi Füzulidir, ancaq bu mülahizə, görünür, əsaslı deyil. Halbuki, Füzuli ilə müqayisədə Vaqif dilinin yeniliyi həm aydındır, həm də bir neçə baxımdan (coğrafi, siyasi, sosial-mədəni, sistem-struktur və s.) strateji səciyyə daşıyır.

Antroposentrik baxış göstərir ki, bütün linqvopoetik dühası ilə birlikdə Füzuli orta əsrlərin ümumtürk sferasından enib yeni dövrün diferensial (milli) keyfiyyətlərini qəbul etməkdən çox uzaqdır. Və bu uzaqlığı onun yazıb yaratdığı coğrafiya da nümayiş etdirir. Əlbəttə, Bağdadda yaşayıb orta əsrlər şairi olmaq olar, ancaq yeni dövrün şairi olmaq üçün millətin özünü təsdiq etdiyi coğrafiya lazım gəlir.

Köhnə Azərbaycan dili dövründə Azərbaycanda baş vermiş sosial, siyasi hadisələr etnogenetik xarakterli olub, Azərbaycan xalqının təşəkkülü prosesini yekunlaşdırmağa xidmət edirdi. Şah İsmayılın qurduğu Azərbaycan Səfəvilər dövləti XVI əsrin ilk illərindən etibarən xalqı təşkil edərək türk (eləcə də bir sıra qeyri-türk) tayfalarının siyasi inteqrasiyasını təmin eləməklə bütün ölkə miqyasında sosial mütəşəkkilliyin əsaslarını yaratdı. Xətai təxəllüsü ilə gözəl şeirlər yazan Səfəvi hökmdarı, bir tərəfədən, klassik ənənələri yaşadan, digər tərəfdən isə, xalq yaradıcılığına əsaslanan iki fərqli dil-üslub nümayiş etdirirdi... Ancaq hiss olunur ki, Xətai daha çox geniş xalq kütlələrinin anlayacağı, sevəcəyi və ətrafında birləşəcəyi bir dil-üslubun, yəni ədəbi perspektivi görünən ümumxalq (folklor) dilinin tərəfdarıdır.

XVI-XVII əsrlərdə “Dədə Qorqud” eposunu “Koroğlu” əvəz etməyə başlayır ki, bu həm də yeni Azərbaycan dili dialektlərinin bazasında dialekfövqü nitq yaradıcılığı imkanlarının bütün ölkə miqyasında genişlənməsi, kütləviləşməsi, ozan sənətinin yerini aşıq sənətinin tutması idi. Heç şübhəsiz, yeni dialektfövqü (get-gedə ədəbi!) dilin təşəkkülü dialekt-şivə diferensiasiyasının qarşısını almırdı, hər şeydən əvvəl ona görə ki, Azərbaycan Səfəvilər dövləti hər nə qədər mərkəzi idarəçiliyə, siyasi-inzibati bütövlüyə çalışsa da, ölkədə feodal pərakəndəliyini aradan qaldırmaq elə də asan məsələ deyildi. Ancaq ümumxalq “ruh”u hər halda kifayət qədər canlı, mütəşəkkil və perspektivli idi.

Yeni ümumxalq dilinin ədəbiləşməsində ən əsas xidməti, təbii ki, aşıqlar göstərirdilər. Yazılı dilin yayılması qarşısında çoxsaylı maneələrin olduğu XVI, XVII, XVIII əsrlərdə (hətta XIX əsrdə də!) Azərbaycan aşığı öz mükəmməl şifahi ədəbi dil məktəbi ilə xalqın intellektini yüksəltməyin, onun sosial-mədəni (milli!) özünüdərkini təmin etməyin son dərəcə uğurlu nümunəsini verdi. Və maraqlıdır ki, yazılı ədəbi dilin inkişaf yoluna çıxdığı mərhələlərdə də şifahi ədəbi dil məhz aşıq sənətinin imkanları hesabına onunla uzun zaman rəqabətə girə, məsələn, XIX əsrdə Aşıq Ələsgər kimi dahi söz ustasını yetirə bildi.

XVI əsrin əvvəllərindən özünü göstərməyə başlayan Milli İntibah hərəkatı yeni Azərbaycan dilinin təşəkkülündə o mənada həlledicidir ki, İntibah öz köklərini ümumxalq təfəkküründən almış, Azərbaycan cəmiyyətinin ideya- estetik bütövlüyünü

təsdiq etmiş, eyni zamanda bu mənəvi vəhdətin kommunikativ təzahürü olaraq köhnə dildən fərqli yeni dil texnologiyaları hazırlamışdır.

Köhnə Azərbaycan ədəbi dilinin – türkünün regional formasının "yaradıcılar"ı ümumxalq dili ilə çox da bağlı olmadıqları halda, yeni Azərbaycan ədəbi dili öz mənbəyini bilavasitə ümumxalq dilindən almışdı. Və ona görə də, prinsip etibarilə, yeni (diferensial) etnosun dili idi.

Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsinin ədəbi (yazılı!) dil səviyyəsində artıq bir-birindən fərqlənməsi barədəki ilk məlumatı da, tamamilə təbiidir ki, ümumxalq dili abidəsi – "Koroğlu" eposu vermişdir... Nigar xanımn arxasınca İstanbula gedən Koroğlu istəyir ki, məsələni dava-şavasız həll etsin. Küçədə rast gəldiyi mirzəyə xotkarın adından belə bir namə yazdırmaq istəyir ki, guya Koroğlu onun (xotkarın) yaxın adamıdır, hər cür hörmətə layiqdir. Lakin təcrübəli, öz xotkarına, dövlətinə sədaqətli mirzə Koroğlunun savadsızlığına inanıb yazır ki, bu adam quldurdur, dərhal həbs edin. Koroğlu naməni alıb oxuyur. Və mirzəyə deyir: Elə bilmə ki, mən savadsızam, yazıb-oxumağı bilirəm; dedim sən yazasan ki, sizin dildə olsun... Göründüyü kimi, "Koroğlu"nu yaradan aşığın şəxsində xalq ən geci XVII-XVIII əsrlərdə anlayır ki, Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi fərqli yazılı (ədəbi) dillərdir.

Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq... kimi xalq sənətkarlarının şifahi dili XVIII əsrdə Molla Pənah Vaqifin yazı dilini yaradır. Və əslində, Vaqif də Xətai kimi klassik üslubdan dərhal imtina etmir. Ancaq hər cəhətdən görünür ki, Vaqifin dili artıq qəzəlin yox, məhz qoşmanın dilidir.

Azərbaycan İntibahı yalnız ictimai təfəkkürə, düşüncəyə deyil, dilə də realistlik, açıqgözlülük gətirir ki, bu, bütöv bir yaradıcılıq hərəkatı kimi orta əsrlərin çox zaman dinlə, müxtəlif təriqətlərlə pərdələnmiş mənəvi standartlarına qarşı dayanmaqla mövcud həyat tərzinə get-gedə güclənən tənqidi münasibət təlqin edir.

İntibahın mühüm əlamətlərindən biri də XVII-XVIII əsrlərdə (əslində, XVI əsrdən başlayaraq) ölkədə, əgər belə demək mümkünsə, milli şəhərlərin meydana çıxmasıdır. Əsasən, yeni yaranmış xanlıqların siyasi mərkəzi olan həmin şəhərlərin (Gəncə, İrəvan, Bakı, Şəki, Quba, Təbriz, Lənkəran, Şuşa...) əhalisi həm şifahi, həm də yazılı ədəbi dilin təşəkkül tapıb yayılmasında tarixi iş görür. Və məsələ burasındadır ki, ərəb, fars dillərinin əsrlərlə davam etmiş elmi-mədəni nüfuzu da ilk dəfə bu şəhərlərdə Azərbaycan dilinin müqaviməti ilə üz-üzə gəlir. Məsələn, İntibahın ən böyük nümayəndəsi, öz yaradıcılıq karyerasına mollaxanada ərəbcə, farsca dərs deməklə başlayan Vaqif həmin dillərdə bir şeir belə yazmır, yazmış olsa belə, mühit (və tarix) o şeiri qoruyub saxlamır... Doğrudur, yeni dil də köhnə dil kimi elmi, dini, rəsmi-işgüzar sahələrə hələ müdaxilə edə bilmir, ancaq formalaşmaqda olan millətin ruhunun əsas tərcümanı olduğunu daha cəsarətlə hiss etdirir. Və bu cür passionarlığın nəticəsidir ki, qonşu xalqlara da əhəmiyyətli təsir edir, onların bir-biri ilə ünsiyyətində əsas vasitəyə çevrilir. Rusiya bölgəni işğal edənə qədər yerli xalqlar məhz Azərbaycan türkcəsilə anlaşır, məclislərində azərbaycancanın nüfuzu özünü göstərirdi.

Şifahi ədəbi dilin yazılı ədəbi dilə həlledici təsirinin bir faktı da bayatıların, qoşmaların, hətta bütöv dastanların yazıya alınması idi. Yeni ədəbi-bədii dil xalq arasından çıxmış böyük istedadların şifahi yaradıcı təfəkkürünün ifadəsi olmaqla yazıya qədəm basır, nəticə etibarilə, yazı dili şifahi dilə məxsus son dərəcə zəngin nitq maneralarını qəbul edirdi. Məsələn, heç bir tərəddüdsüz, demək olar ki, XVIII əsrdə yazıya alınmış "Şəhriyar" dastanındakı dialoqlar Mirzə Fətəlinin dramaturgiya dilinin sələflərindən biridir.

Elm dili olan ərəb, ədəbiyyat dili olan fars dillərinin Azərbaycan dilinə kütləvi təsiri yeni dövrün əvvəllərindən öz intensivliyini itirir (bu təsirin böyük bir qismi ümumtürk xarakterli olmuşdur), XIX əsrdən Qərb (Avropa) təsirinin perspektivləri görünür. Bu təsirlər həm ümumxalq dilinin, həm də ədəbi dilin leksikonuna nə qədər güclü olsa da iltisaqi quruluşlu qrammatikaya keçə bilmir. Bəzi epizodik məqamları nəzərə almasaq, qrammatikaya köhnə dövrdən miras qalmış izafət yeni dövrdə dili tədricən tərk edir... Fonetik quruluşda isə həmin dövrün əsas ərəb yadigarı "ayn" uzun müddət – XXI əsrə qədər tələffüzdə yox, yalnız yazıda (apastrof) yaşaya bildi. Əlbəttə, Azərbaycan dilinin qrammatik saflığına görə, ilk növbədə, ahəng qanununa minnətdarıq ki, ərəb, fars dillərinin "yad nəfəs"inin, hətta bəzi dialektlərə belə keçmək imkanı tapmasına rəğmən dağıdıcı təsirinə (disharmoniyaya) qarşı tarix boyu böyük enerji ilə müqavimət göstərmişdir.

Yeni Azərbaycan dili XIX əsrə Zakirlə daxil oldu. Və onun Vaqifdən də irəli gedən realizmi dilə dövrün tənqidi ovqatını, Şərq müstəmləkəçiliyindən hələ qurtarmamış bir xalqın Qərb müstəmləkəçiliyinə verdiyi ilk reaksiyalarını gətirdi. Onun arxasınca yeni dövrün mütəfəkiri Mirzə Fətəli özünün çoxşaxəli yaradıcılığı ilə dilin indiyə qədər görünməmiş imkanlarını aşkarladı... Ən mühüm hadisələrdən biri o oldu ki, Azərbaycan dili teatr səhnəsi, mətbuat kimi ictimai-kütləvi təsisatlara ayaq açdı, məktəbdə, dərsliklərdə göründü. Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycan dilini yalnız sözdə deyil, işdə də dövlət dili səviyyəsinə yüksəltdi. Ancaq təbii ki, onun həm ölkə daxilində, həm də dünya miqyasında böyük nüfuzunu Azərbaycanın dövlət müstəqilliyi (və Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi azərbaycançılıq siyasəti) təmin etdi.

XX əsrin 20-ci, 30-cu illərində Azərbaycan dili əvvəlki dövrlərlə müqayisə edilməyəcək bir miqyasda elmi tədqiqat predmetinə çevrildi. Bəkir Çobanzadə, Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə və Muxtar Hüseynzadənin əsasını qoyduqları Azərbaycan dilçiliyi məktəbi 50-ci illərdən etibarən bu sahədə çoxsaylı mütəxəssislər ordusu yetirdi ki, onlar Azərbaycan dili barədə aydın elmi təsəvvür yaratdılar.

Keçən əsrin 30-cu illərindən yeni Azərbaycan dili dövrünün ən yeni, yaxud müasir Azərbaycan dili mərhələsi başlayır ki, bu, a) Azərbaycan dilinin türk dilləri kontekstində öz müstəqilliyini keyfiyyətcə təmin etməsi (müqayisəli-tarixi paradiqma), b) fonetik, qrammatik və leksik quruluşun mükəmməlləşməsi

(sistem-struktur paradiqması) və c) funksional üslubların tam diferensiallaşması (antroposentrik paradiqma) ilə səciyyələnir.

* * *

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi XX əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərinə qədər də kifayət qədər gərgin, enerjili və bir sıra mərhələlərdə məhsuldar milli dil quruculuğu prosesləri getmişdir.

Həmin proseslər, əsasən, aşağıdakılardan ibarət idi:

1. İlk orta əsrlərdən etibarən türk dillərinin diferensiasiyası nəticəsində formalaşan Azərbaycan türkcəsi həm orta əsrlərdə, həm də xüsusilə yeni dövrdə özünün bədii, elmi-publisistik və s. təzhürlərində inkişaf edərək XIX əsrin sonu, XX əsrin əvvələrinə kifayət qədər yüksək mədəni səviyyəsi olan bir millətin ünsiyyət vasitəsi kimi gəlib çıxmışdı.

2. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan türkcəsi rəsmi olaraq dövlət dili elan olunmuş, ancaq Cümhuriyyət tez süqut etdiyindən bu sahədə zəruri tədbirlərin həyata keçirilməsi, yəni dil-dövlət-cəmiyyət münasibətlərinin möhkəmləndirilməsinin lazımi səviyyədə təmin edilməsi mümkün olmamışdı.

3. Sovet dövründə Azərbaycan türkcəsi (30-cu illərdən etibarən rəsmi olaraq Azərbaycan dili) müxtəlif siyasi-ideoloji problemlərə baxmayaraq sürətlə inkişaf etmiş, ictimai həyatın müxtəlif sahələrində özünün təbii-tarixi hüquqlarına yiyələnmiş, xüsusilə milli ədəbiyyatın əsasında dayanmış, demokratikləşmiş, milliləşmiş, kütləvi normativlik qazanmışdı, ancaq tədricən dövlət idarəçilik sistemindən (və ünsiyyətindən) sıxışdırılmağa, siyasi nüfuzunu itirməyə başlamış, hətta Azərbaycan SSR-nin Konstitusiyasına Azərbaycan dilinin respublikada dövlət dili olması barədə xüsusi maddə daxil edilməmişdi.

4. Sovetlər Birliyində Stalin rejiminin süqut etdiyi (və kəskin tənqidə məruz qaldığı) 50-ci illərin ortalarından sonra Azərbaycan ziyalıları, xüsusilə akademik, xalq yazıçısı və dövlət xadimi Mirzə İbrahimov Azərbaycan dilinin dövlət idarələrindəki pozulmuş hüquqlarını bərpa etmək təşəbbüsü göstərsələr də, həmin təşəbbüs tamamilə uğursuz oldu. Və hətta respublika rəhbərliyi Mirzə İbrahimovun şəxsində millətçilikdə günahlandırıldı, siyasi-ideoloji konyukturun güclü təzyiqi altında iş milli (və prinsip etibarilə, haqlı!) qüvvələrin "üzürxahlığ"ına qədər gedib çatdı.

5. Mühüm məsələlərdən biri də Azərbaycanın (və Azərbaycan xalqının) XIX əsrin əvvəllərindən etibarən ikiyə parçalanması, Şimalın Rusiyanın (SSRİ-nin), Cənubun isə İranın tabeliyində olması, Şimalda rus, Cənubda isə fars dilinin hökm etməsi idi ki, millətin təbii bütövlüyünü zədələyir, milli ruhu təhdid edirdi.

Azərbaycan dili keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərinə belə bir keyfiyyətdə, demək olar ki, paradoksal bir vəziyyətdə gəlib çıxmışdı. Əsas paradoks isə ondan ibarət idi ki, dilin inkişaf potensialı kifayət qədər güclü olsa da,

siyasi nüfuzu, yəni dövlət dili olaraq mövqeyi məhdudlaşdırılmış, hətta hər hansı dilin inkişafı üçün mühüm hadisələrdən biri olan etnik-mədəni kontekstindən, yəni digər qohum türk dilləri ilə kontaktlardan məhrum edilmişdi. Şimalda rus, Cənubda isə fars dilini çıxmaq şərtilə ümumən geniş yayılmış (nüfuzlu və ya beynəlxalq!) dünya dilləri ilə əlaqələrdən isə söhbət belə gedə bilməzdi.

Dövlət Təhlükəsizlik orqanında gənclik illərindən etibarən çalışan, xüsusi istedadına, intellektinə, işgüzarlığına görə sürətlə yüksək mövqelər qazanan Heydər Əliyev Moskvanın dövlət idarəçiliyi, eləcə də “milli ucqarlar” dakı (N.Nərimanov) idarəçilik siyasətinin nəinki mahiyyətinə, hətta “mətbəx”inə də dərindən bələd olduğundan respublikada müxtəlif sahələrdə, o cümlədən də milli dil məsələsində problemi necə həll etməyin optimal (və uğurlu!) yollarını da aydın təsəvvür edirdi. Yeni liderin hakimiyyətə gəldiyi ilk illərdəki fəaliyyətini təhlil etməyə çalışsaq görərik ki, o, mövcud problemlərin həllinə a) təmkinlə, b) bütün məqamlarını, konyukturunu, gözlənilən nəticələrini hesablayıb nəzərə almaqla və həm ziyalıları, həm də geniş xalq kütlələrini səfərbər etməklə başlayır. Yəni elə hərəkət edir ki, potensial rəqiblər tamamilə, yaxud qismən tərk-silah olsunlar. Və hər cür inpulsivliyə qarşı olan yeni lider mənsub olduğu xalqın mütəşəkkilliyini təmin etməklə onun ruhunu yüksəldir ki, öz tarixi hüquqlarını müdafiə eləməyə həmişə hazır olsun.

Heydər Əliyevin bir dövlət başçısı olaraq uğurlu dil siyasəti yürütməsinin səbəblərindən biri milli dil quruculuğu təcrübəsinin (ənənənin!) mövcudluğu, ikincisi həmin təcrübəni dərindən öyrənməsi (ənənəni davam etdirməsi) idisə, üçüncüsü ona, sözün geniş (və böyük) mənasında, yaradıcı münasibəti idi.

Və yaradıcı münasibət dedikdə biz, əsasən, aşağıdakıları başa düşürük:

1. Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etmiş sələflərindən fərqli olaraq bilirdi ki, Leninin artıq mənasız, heç bir real gücü olmayan “millətlərin öz müqəddəratını təyin etmək hüququ” barədəki xülyalarına (zahirən nə qədər “dəb”də görünsə də!) istinad edib respublikada dil, ümumən millət məsələsində inqilabi reformalara cəhd göstərmək tamamilə uğursuzluğa məhkumdur. Ona görə də millətin (və onun dilinin) siyasi mövqeyini möhkəmləndirmək üçün Sovetlər Birliyindəki mövcud şəraitə (konyukturlara!) uyğun yollar axtarmaq lazım gəlir.

2. Heydər Əliyevə iqtisadi baxımdan geridə qalmış, sosial təminatı xeyli aşağı olan, xalqla rəhbərlik arasındakı münasibətlərin o qədər də səmimi olmadığı, milli yuxarıların çox hallarda intriqa bataqlığına sürüklədiyi və Azərbaycan xalqına yuxarıdan aşağı baxan millətlərin nümayəndələrinin müxtəlif səviyyələrdə idarəçilik mövqelərini işğal etdiyi bir respublika miras qalmışdı ki, bu da milli məsələyə kifayət qədər fundamental problemlərdən(və əgər belə demək mümkünsə, aşağılardan!) başlamağı tələb edirdi.

3. Heydər Əliyev respublika rəhbərliyindəki sələflərindən daha yaxşı bilirdi ki, milli məsələləri, o cümlədən də dil məsələsini o zaman uğurla həll etmək mümkündür ki, xalqın yatmış enerjisi, kifayət qədər zəngin potensialı hərəkətə gəlsin. Əks halda

yuxarıdan təqdim olunmuş ən uğurlu təklif, yaxud irəli sürülmüş ən dəyərli təşəbbüs belə aşağılara – geniş xalq kütləsinə çatmadan elə yuxarılardaca provakasiya hədəfinə tuş gəlib uğursuzluqla nəticələnəcəkdir ki, bunun da acı təcrübəsi respublikada hələ unudulmamışdı.

* * *

Heydər Əliyevin Azərbaycan dilinə (ana dilinə!) münasibətinin etnoqrafik əsaslarını doğulub boya-başa çatdığı Naxçıvanın zəngin dil-ünsiyyət mühiti yaratmışdı. O mühit ki, həm kökləri çox-çox qədim dövrlərə gedib çıxan folklorun, həm də müasir dünyagörüşlü ziyalıların vətənidir. Və belə bir mühitdə formalaşmış hərtərəfli xüsusi istedada malik şəxsiyyət sürətlə yüksək mövqelər qazandıqca öz milli-mənəvi kimliyini də yüksəltmiş, mənsub olduğu xalqın timsalına (rəmzinə!) çevrilmişdi.

Heydər Əliyev sonrakı illərdə, xüsusilə milli azadlıq əldə edilib müstəqil dövlət qurulandan sonra dəfələrlə xatırlayacaqdı ki, onun bir azərbaycanlı kimi mənsub olduğu millətlə fəxr etməsi hissləri məhz yeniyetməlik dövründən başlamış, sovet dövlətinin idarəçiliyində yüksək mövqelər tutduqca həmin hisslər nəinki zəifləməmiş, hətta daha da güclənmiş, açıq və gizli təzyiqlərlə rastlaşdıqca siyasi-ideoloji məzmun kəsb edərək milli qürur mənbəyinə çevrilmişdir. Sələflərində olmayan bir mühüm xüsusiyyət Heydər Əliyev üçün xarakterik idi ki, bu da milliliklə ümumbəşəriliyin (modern dünyagörüşünün!) bir şəxsiyyətdə mükəmməl şəkildə birləşməsindən ibarət idi. Ona görə də həm tələsmədən, həm də gecikmədən, demək olar ki, bütün maneələri aradan qaldıraraq, bütün mövcud konyukturları neytrallaşdıraraq millətin mütəşəkkilliyinə nail oldu, Azərbaycan dilinin respublikada dövlət dili olaraq nüfuzunun o dövrkü şərtlər daxilində maksimum yüksəlməsi üçün bütün tədbirlərin görülməsini təmin etdi.

Heydər Əliyevin sovet dövründə Azərbaycana rəhbərlik edərkən yürütdüyü milli dil siyasəti kifayət qədər müstəqilliyi ilə seçilən bir milli kommunistin yürütdüyü siyasətdir ki, onun əsas məzmununu aşağıdakı təşəbbüslər müəyyən etmişdir:

1. Xalq gördü ki, respublikanın yeni rəhbəri kənd zəhmətkeşləri ilə görüşlərdən başlamış ta Azərbaycan Dövlət Universitetinin yarım əsrlik yubiley mərasiminə və ya Azərbaycan yazıçılarının qurultaylarına qədər xalqın öz dilində - Azərbaycan dilində danışır. Və bunu elə edir ki, sanki belə də olmalı imiş.

2. Azərbaycan ədəbiyyatının, ümumən mədəniyyətinin klassiklərinin ümumxalq səviyyəsində keçirilən yubileyləri həm də ana dilinin geniş miqyasda təbliği demək idi. Xalq özünün Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Zakir, Mirzə Fətəli Axundzadə, Aşıq Ələsgər, Mirzə Cəlil, Sabir, Hüseyn Cavid, Səməd Vurğun kimi dahilərinin dövlət (və dövlət başçısı) miqyasında nə qədər yüksək qiymətləndirildiklərini gördükcə özü də yüksəlirdi. Və hər biri öz dövründə ana dilinə ölməz abidə qoymuş bu mütəfəkkirləri yalnız ziyalılar səviyyəsində yox, həm də geniş xalq kütlələri səviyyəsində yenidən

dərk etmək bütün hallarda milli intibaha, tarixi köklərin dərinliklərinə getməyə və bu günün hansı təkamül mərhələlərinin nəticəsi olduğunu anlamağa məcbur edirdi ki, burada dil məsələsi ən mühüm məsələ idi.

3. Azərbaycan Respublikasının rəhbəri müasir Azərbaycan yazıçısının ( onların mütləq əksəriyyəti ana dilində yazırdı) nüfuzunu o zamana qədər görünməmiş bir səviyyəyə qaldırdı, onu (Azərbaycan yazıçısını) sovet ideologiyasının (rejiminin!) inzibati təzyiqlərindən cəsarətlə qorudu, milli demokratik dünyagörüşünün yayılması üçün geniş meydan açdı... Və Azərbaycan yazıçılarının əsərlərinin həm respublikada ana dilində, həm də bütün Sovetlər Birliyi miqyasında rus, eləcə də digər dillərdə nəşrinə hərtərəfli şərait yaratdı. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, əgər keçən əsrin 70-ci illərində Azərbaycana Heydər Əliyev kimi böyük bir millət xadimi, geniş dünyagörüşlü lider başçılıq etməsəydi, İsa Hüseynov, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Hüseyn Arif, Nəbi Xəzri, Nəriman Həsənzadə, Fikrət Qoca, Anar, Elçin kimi onlarla böyük sənətkarlar bu qədər inamla yazıb-yarada, bu qədər böyük şöhrət qazana (və ana dilinə bu qədər böyük şöhrət gətirə!) bilməzdilər. Və onu da əlavə edək ki, həmin 70-ci, eləcə də 80-ci illərdə Azərbaycan yazıçılarının çap olunduqları “Azərbaycan”, “Ulduz” jurnalları, “Ədəbiyyat və incəsənət” qəzeti heç bir digər milli respublikada müşahidə edilməyən yüksək tirajlarla çıxaraq Azərbaycan ədəbi dilinin inkişafına, xalq kütlələri arasında yayılmasına böyük töhfələr verirdi.

Azərbaycan yazıçılarının qurultaylarında, toplantılarında iştirak edən respublika rəhbəri yazıçılarla xalq arasında ünsiyyətin genişlənməsinə, yazıçının xalqla birlikdə olmasına da xüsusi diqqət yetirirdi.

4. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra dil, ədəbiyyat və tarix sahəsindəki, xüsusilə 30-cu illərdən etibarən məlum ideoloji çərçivəyə salınmış elmi araşdırmalar həm xronoloji, həm də intellektual-metodoloji baxımdan dərinləşməyə başladı. Ən mühüm məsələlərdən biri o oldu ki, antitürkçü əhval-ruhiyyə aradan qalxdı; bu isə milli humanitar təfəkkürün inkişafı, milli özünüdərkin meydanının genişlənməsi üçün elmi mühitdə uzun illər gözlənilən şəraiti yaratmış oldu.

1974-cü ildə ali məktəblər üçün “Müasir Azərbaycan dili” dərsliyinə Azərbaycan SSR-in Dövlət mükafatının verilməsi isə o demək idi ki, dövlət həm Azərbaycan dilini, həm Azərbaycan dilçiliyini, həm də azərbaycandilli təhsili yüksək səviyyədə himayə edir.

5. Və nəhayət, çox mühüm təşəbbüslərdən biri o oldu ki, Azərbaycan SSR Ali Sovetinin növbədənkənar VII sessiyasında (1978) respublikanın yeni Konstitusiyası qəbul olundu ki, onun 73-cü maddəsində Azərbaycan dilinin respublikada dövlət dili olması təsbit edildi.

Əlbəttə, heç də asan olmayan bir tarixi şəraitdə irəli sürülmüş bu cəsarətli (və milli) siyasi mövqe Heydər Əliyevin özünə (və xüsusilə rəhbərlik etdiyi xalqa!) böyük inamının nəticəsi idi ki, bütün maneələrə baxmayaraq özünü doğrultdu. Və həyata keçdi.

Niyə? Çünki Heydər Əliyev yalnız böyük millət xadimi deyildi, həm də dahi siyasətçi idi. Və özündən əvvəlki populist, düşünülməmiş təşəbbüslərin nə ilə nəticələndiyini, problemi həll etmək əvəzinə yeni problemlər yaratdığını görmüşdü. Məsələni üzdən yox, kökündən (əsaslı şəkildə) həll etməyin nəticəsi idi ki, tarixi təşəbbüsün müəllifi hər işdə olduğu kimi bu mühüm milli işdə də özünə (və xalqına) qələbə qazandırdı.

Heydər Əliyev Moskvada – Sovetlər Birliyinin rəhbər vəzifələrindən birinə təyin olunduqdan sonra da Azərbaycanda gedən quruculuq, o cümlədən milli dil quruculuğu proseslərinə yaxından nəzarət etmişdir. Lakin Sovetlər Birliyi rəhbərliyində gedən dəyişikliklər, xüsusilə M.S.Qorbaçovun hakimiyyətə gətirilməsi və onun avantürist dünyagörüşlü idarəçilik üsulu Azərbaycan xalqının liderinin ictimai-siyasi fəaliyyətinin məhdudlaşdırılması, sonra isə ümumiyyətlə, işdən uzaqlaşdırılıb haqsız təqiblərə məruz qalması ilə nəticələndi.

Moskvada Heydər Əliyevin Azərbaycan xalqı üçün kim olduğunu, onun müasir tarixində hansı yeri tutduğunu yaxşı bildiklərinə görə ciddi-cəhdlə çalışırdılar ki, artıq öz azadlığını, müstəqilliyini tələb etməkdə olan xalqı başsız qoysunlar. Və odur ki, Ümummilli Lideri mənsub olduğu xalqdan tamamilə təcrid etmək üçün hər cür provakasiyalara əl atırdılar. Hətta iş o yerə çatdı ki, Moskva (M.S.Qorbaçov) Azərbaycana Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş dövlət dilini əməlli-başlı bilməyən, öz qüsurlu (və hər kəlməsi gülüş doğuran) nitqi ilə xalqın ana dilini təhqir edən bir “rəhbər” göndərməkdən belə çəkinmədi.

Millətin ikrahla dolu münasibətini hiss etmək qabiliyyəti belə olmayan bu manqurt “rəhbər” isə Azərbaycan xalqına mütəşəkkilliyin, özünəməxsusluğun və müstəqilliyin nə demək olduğunu anlatmış Ümummilli Lider haqqında “kompramat”lar toplamağa, onun tarixi nüfuzunu zədələməyə uğursuz cəhdlər etməyə başladı ki, bunların da nə ilə nəticələndiyi, yəqin ki, heç vaxt xalqın yadından çıxmayacaqdır.

Heydər Əliyevin böyük (və danılmaz!) təcrübəsi göstərdi ki, həqiqi milli lider, dövlət xadimi bu və ya digər dərəcədə çətin ictimai-siyasi vəziyyətlərdə də mənsub olduğu xalqın milli məzmunlu problemlərini ya sona qədər həll etməyə, ya da bunun üçün münbit şərait yaratmağa tamamilə qadirdir. Və konkret olaraq milli dil məsələsinə gəldikdə isə tam aydınlığı ilə görürük ki, Heydər Əliyev sovet dövründə ana dilinin nüfuzunu nə qədər mümkün idisə yüksəltdi; o məsələləri ki həll etmək mümkün deyildi (məsələn, Azərbaycanın Şimalı ilə Cənubu arasında milli dil kontaktlarını təmin etmək), onların gələcəkdə həlli üçün elə zəruri (və perspektivli) tədbirlər gördü ki, az-çox münbit ictimai-siyasi şərait yaranan kimi “Heydər Əliyev formulu” uğurla özünü təsdiq etməyə başladı.

* * *

Xalqın (və tarixin!) tələbi ilə Azərbaycana (Vətənə!) gələn, müxtəif xarakterli hərcmərcliklərin, iğtişaşların, dağıntıların qarşısını alaraq ölkəni müstəqil inkişaf yoluna çıxaran Ümummilli Liderin 1993-cü ildən 2003-cü ilə qədər milli dil quruculuğu sahəsində gördüyü işlər həm miqyasca, həm də məzmunu etibarilə müqayisəsizdir. Hər şeydən əvvəl ona görə ki, ölkə parçalanmaq üzrə idi. Və belə bir şəraitdə dövlətin, eləcə də onun dilinin varlığı ciddi təhlükə altında qalmışdı.

Heydər Əliyev Azərbaycanda – Naxçıvanda fəaliyyətə başlayanda milli dillə bağlı ən aktual məsələ onun necə adlandırılması idi ki, həmin məsələyə münasibətdə fikir-mövqe ziddiyyətləri, doğrudan da, bəzən əsaslı, bəzən də əsassız olaraq, son dərəcədə gərginləşir, hətta ölkənin milli-siyasi bütövlüyü üçün təhlükə yaradacaq bir həddə çatırdı.

Naxçıvan MR Ali Məclisinə rəhbərlik etdiyi illərdə Heydər Əliyev dövlət dilinin "türk dili" adlandırılmasını təklif edənlərə məsələnin tarixi mahiyyətini dərindən izah elədikdən sonra belə bir təmkinli (və müdrik) məsləhət verir:

"...Mən də hesab edirəm ki, biz türkük... Ancaq indi gətirib biz tələm-tələsik bu Konstitusiyaya (*Naxçıvan MR-nın Konstitusiyası nəzərdə tutulur – N.C.*) dəyişiklikdə yazaq ki, Naxçıvan Muxtar Respublikasının dövlət dili türk dilidir, bu, mənə elə gəlir ki, tələsiklik olar. Gəlin bunu bir də etiraf edək ki, milli dirçəliş, milli ənənələrin bərpa olunması, milli inkişaf sahəsində bu günlərdə çox mühüm qərarlar qəbul etmişik. Gəlin bir az səbr edək ki, bizim bu qərarlar həzm olunsun"... (Naxçıvan MR Ali Məclisinin 24 noyabr 1990-cı il tarixli iclası).

Bu mülahizə-mövqedə ən azı üç mühüm elmi-ideoloji prinsip ehtiva olunur:

1) məsələnin tarixi mahiyyəti – dilin (və xalqın) adının hansı təkamül mərhələlərindən keçdiyi (və onun məntiqi) aydın təsəvvür olunmalıdır;

2) yalnız Naxçıvan yox, ümumazərbaycan miqyasında müzakirələrə ehtiyac vardır;

3) nə qədər zəruri olsa da, ümummilli qərarlar tədricən qəbul edilməlidir ki, cəmiyyət onları həzm edə bilsin.

Azərbaycan Parlamenti isə 1992-ci ilin 22 dekabrında bir qrup deputatın iştirakı ilə dövlət dilinin adı ilə bağlı məsələni, Ümummilli Liderin ifadəsi ilə desək, məhz "tələm-tələsik" müzakirə edib "türk dili"nə üstünlük verdi.

Və bu qərar işləməyə başlasa da, tezliklə böyük mübahisələrə, praktikada isə problemlərə meydan açdı. Hər şeydən əvvəl ona görə ki müstəqil dillər olan Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsini fərqləndirməkdə çətinliklər yarandı.

"Tələm-tələsik" qəbul edilmiş qərarın yaratdığı problemləri həll etmək milli dil siyasəti ilə bağlı ən aktual problemlərdən birinə (demək olar ki, birincisinə!) çevrildi.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilənə qədər bu məsələ açıq qaldı.

Azərbaycan Prezidentinin dövlət dilinin taleyi ilə bağlı ilk möhtəşəm tədbirlərindən biri Azərbaycan Respublikası Konstitusiyası layihəsinin 1995-ci ildə elm, mədəniyyət xadimlərinin iştirakı ilə keçirilən geniş müzakirəsi oldu. İki gün davam edən həmin müzakirə yalnız qəbul etdiyi obyektiv qərarla yekunlaşmadı, həm də (və fikrimizcə, daha çox) onunla əlamətdar (və tarixi!) oldu ki, dövlətin (və xüsusilə dövlət başçısının!) dil məsələsinə həssaslığını, ona nə qədər böyük siyasi-ideoloji önəm verdiyini bir daha bütün miqyası ilə göstərdi.

Əlbəttə, əsas məsələ dövlət dilinin adı ilə bağlı idi, ancaq bundan heç də az əsas olmayan bir məsələ də o idi ki, Azərbaycan dövləti (və Prezidenti) dil quruculuğunu dövlət (və millət!) quruculuğu prosesindən ayrı təsəvvür eləmir, xalqın dilinə, doğrudan da, "onun ruhu" (V.Humboldt) kimi baxır. Və milli dilə hər hansı volyuntarist müdaxiləni milli dövlətə qarşı yönəlmiş təxribat sayıb cəsarətlə rədd edir.

1995-ci ilin oktyabr ayının 31-də Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonunda Azərbaycan Respublikasının yeni konstitusiya layihəsində dövlət dili haqqında maddənin geniş müzakirəsində Azərbaycan Prezidenti giriş nitqi ilə çıxış edərək demişdir:

"Mən konstitusiyanın bir maddəsinin xüsusi müzakirə olunmasını lazım hesab edirəm. Bu, Azərbaycanın dövlət dili haqqında olan 23-cü maddədir".

Konstitusiya layihəsi müzakirə olunarkən komissiya üzvlərindən Bəxtiyar Vahabzadə, Anar və Elçinin layihədə "dövlət dili Azərbaycan türk dilidir" yazılsın təklifini xatırladan Prezident yığıncaq iştirakçılarına bu barədə qısa tarixi arayış vermişdir:

"1921-ci ildə qəbul olunmuş ilk Azərbaycan konstitusiyasında dövlət dili haqqında heç bir maddə yoxdur.

1937-ci ildə qəbul edilmiş Azərbaycan konstitusiyasında da dövlət dili haqqında heç bir maddə yoxdur.

1956-cı ildə Azərbaycan Respublikasının Ali Soveti 1937-ci ildə qəbul olunmuş konstitusiyaya əlavə edibdir. Konstitusiyaya Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə edilibdir".

Əlbəttə, belə bir maddənin əlavə edilməsi öz-özlüyündə xalqın iradəsinin təzahürü idi, ancaq o dövrün şərtləri daxilində heç də dərin düşüncənin nəticəsi deyildi. Adətən, bu cür hallarda "irəli getmək" "geri qalmaq"dan ona görə daha ziyanlı idi ki, heç bir ciddi perspektivi olmayan sovet hakimiyyətinin onsuz da hər şeydən şübhələnən vaxtı idi, buraxılan çoxlu səhvlərdən, qüsurlardan, heç bir nəticə verməyən çoxsaylı "eksperimentlər"dən sonra özünə gələ bilməyən zatən eksperimental mərkəzi hakimiyyət SSRİ-nin hər hansı respublikasında milli dilin dövlət dili elan olunması barədə "yerli" qanuna necə reaksiya verə bilərdi?

Azərbaycan Prezidenti xatırlayırdı:

"Mən də onun şahidiyəm. Bu maddənin qəbul olunmasından sonra həyata keçirilən bəzi tədbirlər daha çox mübahisələr və narazılıqlar doğurdu. Bu, deyə

bilərəm ki, o vaxt respublikamızı çətin vəziyyətə saldı. Çünki belə bir maddə qəbul edilən kimi o vaxt – bəzən belə də olur, bəzi adamlar özlərini həddindən çox vətənpərvər, millətə həddindən artıq yaxın göstərmək istəyirdilər – dərhal göstərişlər verildi ki, bütün idarələrdə, təşkilatlarda yazışmaların hamısı ancaq Azərbaycan dilində getsin".

Məqsəd, əlbəttə, bir millətin mövqeyindən son dərəcə mütərəqqi idi. Sovetlər Birliyindən ayrılmaq iqtidarında olmayan Azərbaycan xalqı öz ziyalılarının (Mirzə İbrahimovun!) timsalında milli dilinin müstəqilliyini elan etmək iddiasına düşmüşdü. Və həmin iddia bu sözlərlə başlanırdı:

"Böyük Oktyabr sosialist inqilabı millətlərin bərabərliyini, milli mədəniyyətlərin və dillərin azad inkişafını müqəddəs bir şüar kimi elan etdi. İnqilabın dahi rəhbəri V.İ.Lenin dönə-dönə göstərdi ki, həqiqi proletar beynəlmiləlçiliyi, ancaq bütün böyük və kiçik millətlərin həqiqi bərabərliyi əsasında yarana bilər. Hər hansı şəkildə olursa-olsun milli zülm, milli təzyiq, ümumiyyətlə, vəhşi bir hərəkətdir, ünsiyyətə ziddir, əslində, bütün bəşəriyyətin səadətini, əmin-amanlığını təşkil edən xalqlar qardaşlığı idealına qarşı çevrilir, bu idealın həyata keçirilməsinə min əngəl törədir. Çünki hakim millətin, "böyük" millətin məzlum millətə, "kiçik" millətə göstərdiyi hər hansı təzyiq, ancaq nifrət və nifaq duyğuları oyadır, əzilən milləti tarixi intiqam saatını gözləməyə məcbur edir".

Marksizm-leninizm ideologiyasına istinadən deyilən bu cür "hədələyici" sözlərdən sonra görkəmli Azərbaycan ziyalısı müstəmləkə xalqlarının imperializmə qarşı apardığı mübarizədən, həmin mübarizələrin Asiyada, Afrikada verdiyi "gözəl nəticələr"dən söz açır, V.İ.Leninin çar Rusiyasını "xalqlar həbsxanası" adlandırdığını yada salır və əlavə edir ki, o, vaxtilə "Rusiyadakı özgə xalqları tipik rus bürokratı olan əsl rus adamının, velikorusun, şovinistin, əslində əclaf və təcavüzkarın hücumundan qorumağa çağırırdı".

Mirzə İbrahimov sosialist inqilabının qələbəsindən sonra Lenin milli siyasətinin həyata keçirilməsi sayəsində hətta ucqarlarda olan sovet respublikalarında belə milli mədəniyyətin, maarifin, elmin inkişaf etdiyini etiraf elədikdən sonra yazır:

"Sovet hakimiyyəti illərində qazandığımız ən böyük qələbələrdən biri də milli dillərin, o cümlədən Azərbaycan dilinin yüksək dərəcədə inkişaf etməsidir. Azərbaycan dili qədim dillərdəndir.

...Yalnız sovet dövründə Azərbaycan xalqı dövlət idarələrində ana dilini işlətmək hüququ aldı. Çünki Azərbaycan xalqı milli istiqlaliyyət qazanaraq öz milli dövlətini – Azərbaycan Sovet Sosialist Respublikasını yaratdı. Dil yalnız məişətdə, ədəbiyyat və elmi əsərlərdə yaşamaqla məhdudlaşmayıb iqtisadi, ictimai həyatın hər bir sahəsində və o cümlədən dövlət idarələrində geniş şəkildə işlənmək imkanı əldə etdi".

Sovet hakimiyyətinin ilk on ili dövründə Azərbaycan dilinin cəmiyyət həyatının ən müxtəlif sahələrinə daxil olduğunu, işlədildiyini qeyd edən dövlət xadimi təəssüflə əlavə edir ki, "son on beş-iyirmi ildə bu cəhətdən kobud təhriflərə yol verilmişdir...

Sanki bütün bunları görürmüş kimi böyük Lenin 1922-ci ildə yazırdı ki, bizim ittifaqa daxil olan milli respublikalarda milli dilin işlədilməsi xüsusunda ən ciddi qaydalar qoymaq və bu qaydaları xüsusi bir diqqətlə yoxlamaq lazımdır. Şübhəsizdir ki, dəmir yol xidmətinin birliyi bəhanəsi altında, xəzinə işinin birliyi və i.a. bəhanəsi altında bizim indiki aparatımızda əsl rus mahiyyətində bir çox qanunsuzluqlar baş verəcəkdir. Bu qanunsuzluqlarla mübarizə aparmaq üçün xüsusi bir məharət lazımdır".

Mirzə İbrahimov Azərbaycan xalqının etiraz səsini qaldırmağa cəsarət göstərərkən yenə də marksizm-leninizmə əsaslanmışdı:

"Milli mədəniyyətlərin və milli dillərin inkişafı sovet ictimai quruluşunun təbii qanunudur və xalqlarımızın qardaşlıq ailəsini daha da möhkəmləndirir".

Milli kommunist, nəticə etibarilə, bəyan etmişdi:

"Respublikanın dövlət idarələrində və ictimai təşkilatlarında işlərin azərbaycanca aparılması... qanuni bir haldır. Çünki bu xalqın öz idarələrini ana dilində idarə etmək arzusundan təbii bir şey ola bilməz. Sovet quruluşunda hər bir xalqın pozulmaz hüququdur. Bu hüquqa hörmət etmək hamının vətəndaşlıq borcudur".

Həmin dövrdə ana dilinin – Azərbaycan dilinin hüquqları uğrundakı mübarizəyə gənc şair Bəxtiyar Vahabzadə də qoşulmuş, məşhur "Ana dili" (1954) şeirini qələmə almışdı:

Dil açanda ilk dəfə "ana" söyləyirik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bu dil, – bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, – bir-birimizlə əhdi - peymanımızdır.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil, – əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən,
Bu torpaqdan, bu yerdən,
Elin bağrından qopan yanıqlı nəğmələrdən,
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağ saçlı babaların əqlindən, kamalından,
Düşmən üstünə cuman o Qıratın nalından
Qopan səsdən yarandın,
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.

...Ey öz doğma dilində danımağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədabazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun.
Amma Vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun.

Elmlər Akademiyasındakı iclasda Azərbaycan Prezidenti xatırlamışdı ki, "1959-cu ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi Azərbaycanda millətçilik olması barədə qərar qəbul etdi. O vaxt Azərbaycan rəhbərliyi dəyişildi, bəzi vəzifəli şəxslər bundan istifadə edib öz şəxsi məqsədlərinə nail oldular... Ondan sonra bu məsələ müəyyən qədər sakitləşdi".

Mərkəzi Komitənin belə bir qərar qəbul etməsinin əsas səbəbkarı Mirzə İbrahimov yazırdı:

"Məlumdur ki, mən respublika Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində işlərkən dil məsələlərində bir sıra tədbirlər, fikirlər irəli sürmüşəm. Onlardan başlıcası həm ana dilimizi (Azərbaycan dilini), həm də rus dilini ağıllı-başlı öyrənməyə çağırışım olub... Azərbaycan dilinin həyatda, dövlət idarələrində işlədilməsi ən vacib tələblərdən biridir. Bu və ya digər qüsurların qarşısını almaqda daha ciddi tədbirlərə əl atmaq lazım olduğunu da görürdüm. Dilimizin dövlət idarələrində daha geniş şəkildə işlədilməsi yolundakı mübarizədə mənim o zaman çəkdiyim əzab və iztirablar, yəqin, çoxlarına məlumdur".

70-ci illərdə Azərbaycan dilinin rəsmən dövlət dili elan olunması qarşısındakı maneələr hələ tamamilə aradan qalxmasa da respublika rəhbərliyi səviyyəsində aparılan mübarizə, göstərilən prinsipiallıq öz bəhrəsini vermişdi:

"1977-78-ci illərdə biz yeni konstitusiya qəbul edərkən bu məsələ, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni konstitusiyada Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırladıq.

...Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Mən Sovet İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq".

Əlbəttə, Sovetlər Birliyinin ideoloji həyatında hər nə qədər "istiləşmə" olsa da, Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, Moskvada ölkə rəhbərliyi postlarında əyləşənlər müttəfiq respublikalarda, xüsusilə türk-müsəlman respublikalarında hər hansı müstəqillik cəhdlərinin qarşısını kəsirdilər. Və ona görə də Heydər Əliyev öz böyük nüfuzundan istifadə etməli olmuşdu:

"Moskvada bir neçə dəfə müzakirələr oldu. Cürbəcür fikirlər səsləndi və həmin fikirlərin əksətriyyəti ondan ibarət idi ki, belə olmamalıdır. Ancaq biz buna nail olduq və 1978-ci ildə, səhv etmirəmsə, aprel ayında biz konstitusiyanı qəbul etdik. Həmin konstitusiyada yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir".

Görünür, mərkəz ona görə ermənilərə və gürcülərə "güzəştə getmək" istəyirdi ki, onlardan heç bir təhlükə gözləmirdi. Ancaq azərbaycanlılara – Azərbaycan türklərinə güzəştə getmək yalnız Qafqazı deyil, Orta Asiyanı, Qərbi Sibiri – bütün Türküstanı yerindən oynatmaq, hərəkətə gətirmək kimi düşünülürdü. Azərbaycanın rəhbəri bu düşüncəyə qarşı çıxmaqla Sovetlər Birliyinin onsuz da laxlamaqda olan ideoloji əsaslarını əmlli-başlı silkələdi:

"O vaxt on beş müttəfiq respublikadan yalnız üç respublikanın – Azərbaycan, Gürcüstan və Ermənistanın konstitusiyalarında dövlət dili haqqında maddə var idi. Qalan respublikaların heç birinin konstitusiyasında dövlət dili haqqında maddə yox idi... Qeyd etmək istəyirəm ki, o cümlədən Baltikyanı respublikalar da – onlar öz milli ənənələrini başqalarına nisbətən daha çox qoruyub saxlamağa çalışırdılar, o vaxt onları, ümumiyyətlə, millətçi respublikalar hesab edirdilər – buna baxmayaraq onlar öz konstitusiyalarında dövlət dilini yazmamışdılar".

20-ci illərdə ilk milli kommunistləri, sosialistləri, demokratları məhv edilmiş, 30-cu illərdə düşünən millətçi başları repressiyaya məruz qalmış, etnik mənşəyi (türklüyü!) danılmış bir xalqı Heydər Əliyev qalın kül altından çıxararaq, SSRİ-nin zəngin mədəni irsi, müasir dili, ədəbiyyatı, incəsənəti ilə seçilən bir respublikasına çevirməkdə idi. Həm də təmkinlə, ardıcıl olaraq, diplomatik məharətlə...

# II FƏSİL

## AZƏRBAYCANIN DÖVLƏT DİLİ AZƏRBAYCAN DİLİDİR

Azərbaycan dilinin sadəcə adı deyil, bəlkə də, taleyi müzakirə olunan məclisdə Azərbaycan Prezidenti demişdi:

“İndiyə qədər konstitusiyamızın 73-cü maddəsi – “Azərbaycanın dövlət dili Azərbaycan dilidir” maddəsi qüvvədədir. Bunu, yəni “Azərbaycan konstitusiyasının 73-cü maddəsi qüvvədədir” fikrini nəzərə alaraq, yeni konstitusiyanın son layihəsini dərc edərkən yazdıq ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir”.

Bu, o demək idi ki, ölkə (və dövlət!) başçısı qanunvericilikdə hər hansı provokasiyalara deyil, birbaşa hüquqi ənənəyə əsaslanır. Və dövlət quruculuğu üçün çox mühüm olan belə bir prinsipi rəhbər tutur, eləcə də Azərbaycan cəmiyyətinə təlqin edir ki, bundan sonra hər hansı volyuntarizm, yaxud özbaşınalıq işə keçməyəcək, Azərbaycan Respublikasının qanunlarını ayrı-ayrı adamların arzusu deyil, xalqın ümumi iradəsi müəyyən edəcəkdir:

“1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdir. Bu müzakirə nəticəsində qərar qəbul olunub ki, Azərbaycanın dövlət dili türk dilidir.

...Mən bunu şəxsən özüm üçün araşdırdım və məlum oldu ki, burada özbaşınalığa, volyuntarizmə yol verilibdir. Mən bunu deyərkən əvvəlcədən xahiş və xəbərdarlıq edirəm ki, fikirlərim heç kəsə öz sözlərini demək üçün təsir etməsin. Mən sizə olmuş şeylərin xronologiyasını danışdım. İstəyirəm ki, burada sərbəst müzakirələr getsin”.

Azərbaycan Prezidentinin (və Ümummilli Liderin!) vəd etdiyi kimi həmin müzakirələr olduqca sərbəst, demokratik, hər cəhətdən konstruktiv getdi. Xüsusilə o baxımdan ki, yalnız mütəxəssislər, xalqın dilinin taleyi üçün bu və ya digər dərəcədə məsuliyyət daşıyan görkəmli ziyalılar çıxış edirdilər, hər bir mövqe peşəkarlıq səviyyəsində əsaslandırılırdı.

Prezident Milli Məclisdə qəbul olunmuş son qərarın proseduruna diqqəti çəkdi:

“...Mən Milli Məclisin qərarının nəticəsinə toxunmayaraq və o barədə öz münasibətimi bildirməyərək yalnız həmin qərarın qəbul olunması prosedurası

haqqında danışmaq istəyirəm. Belə bir mühüm qərar üç-dörd günün içərisində kiçik qrup adamın iradəsi nəticəsində qəbul olunubdur. Bax mən bunu heç bir vəchlə qanuni hesab etmirəm. Mən hesab edə bilmərəm ki, bu işə ciddi münasibət göstərilibdir".

Xalqın (və dövlətin!) dilinin adı ilə bağlı həm genetik, həm də siyasi baxımdan çox mühüm bir məsələyə düşüncəsiz münasibət göstərilməsinin mənzərəsi, Azərbaycan Prezidentinin dediyi kimi, aşağıdakı şəkildə olmuşdur ki, bu, doğrudan da, qəbul edilməzdir:

"Milli Məclisdə Azərbaycanın dövlət dili məsələsi müzakirə olunarkən Məclis üzvlərindən biri deyib ki, gəlin yazaq "Azərbaycanın dövlət dili Azərbaycan türk dilidir", başqa birisi deyib ki, niyə belə yazaq. Yazaq ki, "türk dili"dir.

...Məsələ Milli Məclisdə səsə qoyalarkən həmin iclasda Milli Məclisin 50 üzvündən 39-u iştirak edibdir. Onların 26-sı dilimizin türk dili kimi qəbul olunmasına səs verib. 7-si, ya 8-i əleyhinə səs verib, qalanları isə bitərəf olublar".

O dövrdəki siyasi hərc-mərcliyin, yaranmış "münbit" şəraitdən sui-istifadə edib, məsələnin mahiyyətinə varmadan millətçi, vətənpərvər görünmək ehtirasının nəticəsi idi ki, özünü cəmiyyətə ictimai-siyasi xadim kimi təqdim etmək istəyən bəzi şəxslər elə sərsəm ideyalara düşürdülər ki, sonralar ictimai şüuru bunlardan təmizləmək üçün xeyli zəhmət çəkmək lazım gəldi. Təəssüf doğuran isə o idi ki, bəzən həmin sərsəm ideyalar bu və ya digər akta, ya hansısa quruma, yaxud iş üsuluna çevrilirdi. Odur ki, sözügedən yığıncaqda Azərbaycan Prezidenti demişdir ki, məsələnin ümumxalq səsverməsinə qoyulmaması bir yana, "burada da böyük bir səhv buraxılıbdır. Həmin səhv ondan ibarətdir ki, əgər Milli Məclis, doğrudan da, belə bir qərar qəbul etməli olsaydı, həmin qərar qanuna, konstitusiyaya görə, Məclis üzvlərinin üçdə ikisi tərəfindən səs verildiyi halda qəbul olunmalı idi.

...Mən yenə deyirəm, bu qanunun məna və nəticəsini kənara qoyaraq sadəcə qanunvericilik nöqteyi-nəzərindən, dövlət məsuliyyəti nöqteyi-nəzərindən bu mühüm məsələyə nə qədər məsuliyyətsiz yanaşdıqlarını qeyd etmək istəyirəm".

Bu, sadəcə, prosedur pozuntusu, yaxud texniki bir məsələ deyildi, Prezidentin tamamilə doğru olaraq göstərdiyi kimi, xalqın, millətin çox mühüm bir əlaməti olan dilə barmaqarası baxmaq, tale əhəmiyyətli məsələni xalqdan, millətdən xəbərsiz həll etmək "nümunə"si vermək cəhdi idi. Qarşısı alınmasa daha böyük yanlışlıqlara, məsuliyyətsizliklərə gətirib çıxara bilərdi. Ona görə də Prezident həmin məsələ üzərində xüsusi dayanaraq hərəkətin qeyri-qanuniliyi, onun aradan qaldırılması üçün görülən tədbirlər barədə cəmiyyətə müfəssəl məlumat verilməsini məsləhət bilmişdi:

"Mən dörd ay Milli Məclisə sədrlik etdim. O vaxt Milli Məclisin bəzi üzvləri bir neçə dəfə məsələ qaldırdılar ki, həmin qanun düzgün qəbul edilməmişdir. Yəni o, konstitusiya qanunu kimi qəbul olunmayıbdır – imzalanmasına baxmayaraq bu qanun saxta qanundur. Dedilər ki, gəlin buna yenidən baxaq. Mən buna imkan vermədim. Çünki əgər bir səhv buraxılıbsa, o vaxt buna cürbəcür münasibət olubdur və müəyyən

gərginlik yaranıbdır. İndi bu səhvi biz tələsik düzəltməyə başlasaq və ya hesab etsək ki, bunu düzəltmək lazımdır – bu, yeni çətinlik yaradacaqdır.

...Ancq indi, yeni konstitusiya qəbul etdiyimiz zaman bu məsələdə mövqelərimiz müəyyənləşdirilməlidir”.

Yeni konstitusiyanı, təbii ki, Ulu Öndərin rəhbərliyi ilə mütəxəssislərdən ibarət xüsusi komissiya hazırlayırdı. Və dövlət dili məsələsi də buraya qanunvericiliyin ciddi tələbləri mövqeyindən daxil edilməli idi. Lakin komissiya rəhbəri onu da nəzərə almışdı ki, bu məsələdə Azərbaycanın ziyalılar ordusunun, xüsusilə ədəbi ictimaiyyətin nümayəndələri kənarda qalmamalı, əksinə, öz açıq, əsaslandırılmış mövqeləri ilə bilavasitə iştirak etməlidirlər:

“Bir halda ki biz indi yeni konstitusiya qəbul edirik, cəmiyyətimizdə cürbəcür fikirlər var – bu fikirləri araşdırmaq, təhlil etmək lazımdır. Onlardan tarixilik nöqteyi-nəzərindən, bu günümüz və gələcəyimiz nöqteyi-nəzərindən doğru olanını qəbul etmək lazımdır. Yəni bu işdə xalqın iradəsini nəzərə almaq lazımdır. Bu sahədə xalqın iradəsini ən yüksək səviyyədə bizim alimlərimiz, ziyalılarımız, xüsusən də ictimai elmlər sahəsində çalışan mütəxəssislərimiz, yazıçılarımız, şairlərimiz deyə bilərlər”.

O, dil məsələsinə münasibətdə doğru-düzgün yolda olduğunu hamıdan daha yaxşı bilirdi. Cəmiyyətin, millətin, dövlətin idarəçiliyində zəngin təcrübə qazanmış müdrik tarixi şəxsiyyət əmin idi ki, bəzi destruktiv, dağıdıcı, konyuktur qüvvələr bu gün olduğu kimi sabah da meydana çıxıb onun gördüyü işin əleyhinə yüz cür hədyanlar söyləyə, onun qəbul etdiyi qanuni, əsaslı qərarları gözdən salmağa uğursuz cəhdlər göstərə bilərlər. Ona görə də öncədən xəbərdarlıq etmişdi:

“Son vaxtlar, deyəsən bu layihə dərc olunandan sonra hansısa bir müxalifət qəzetində oxudum ki, “bizim dilimizi vaxtilə Stalin və Mikoyan dəyişiblər, dilimizi Azərbaycan dili onlar adlandırıblar, indi də onların yolu ilə getmək istəyirik”. Mən dünən onlara (*Prezident Adminstrasiyasının əməkdaşlarına – N.C.*) dedim ki, bilirsiniz, bax bunu yazan adamlar – əgər siz bu müzakirədən qaçmısınızsa və hesab edirsinizsə ki, bu, ajiotaj yaradacaq, üç ildən sonra, beş ildən sonra, xüsusən də Heydər Əliyev dünyadan gedəndən sonra götürüb yazacaqlar ki, “Heydər Əliyev Stalin və Mikoyanla birlikdə bizi bu yola gətirdi, yoxsa biz başqa yolla gedəcəydik”. Mən bu tarixi məsuliyyətdən qorxmuram. Ancaq mən də araşdırıram. İstəyirəm ki, həqiqəti aydınlaşdıraq”. Və əlavə etmişdir ki, “ona görə də xahiş edirəm ki, mənim bu çıxışımı vəziyyəti aydınlaşdırmaq niyyəti kimi qəbul edəsiniz”.

Ulu Öndərin gördüyü tarixi əhəmiyyətli işlərə sonralar qara yaxmaq fikrinə düşənlərə az da olsa təsadüf edildi, ancaq bunlar, əlbəttə, tarixə dərindən bələdlik, dəmir məntiq, doğru-dürüst mühakimələr qarşısında davam gətirmək iqtidarında deyildilər.

Azərbaycan Prezidenti öz izahlarında irəli gedərək dilin adı ilə xalqın adı arasındakı münasibətlərin tarixçəsinə də toxunmuşdu:

“Deyirlər ki, guya 1935-36-cı illərdə bizim dilimiz türk dili adlanıbdır və dilimizin adı o vaxt dəyişibdir. Amma şəxsən məndə bu barədə tarixi bir sənəd yoxdur. Bu hansı fərmanla, hansı qərarla, hansı sənədlə dəyişdirilibdir – bu, məndə yoxdur. Bilmirəm, bəlkə kimdəsə var.

Ancaq tariximiz elə olubdur ki, vaxtilə bizə “azərbaycanlı” da deməyiblər. İndi əgər biz Cəlil Məmmədquluzadəyə, Mirzə Ələkbər Sabirə, Nəriman Nərimanova və ya başqalarına istinad ediriksə, elə onların əsərlərində deyirlər ki, biz müsəlmanıq. Bəli, o vaxt deyirdilər ki, biz müsəlmanıq. Yazıların əksəriyyətində belədir. Bizə “azərbaycanlılar” da demirdilər”.

Yalnız dahilərə məxsus bir keyfiyyətdir ki, məsələni süni olaraq mürəkkəbləşdirmədən, onun təbiətini düzgün təsəvvür edərək mahiyyətinə varılır. Və bu da imkan verir ki, çıxarılan nəticələr, qəbul olunan qərarlar məhz həqiqəti əks etdirsin. Eyni zamanda dahilərin bir üstünlüyü də cəmiyyətlə mükaliməyə girməkdən çəkinməmələri, ifrata varmadan, hərcmərcliyə imkan vermədən, qayda-qanunlara əməl edilməsi çərçivəsində hər cür müzakirələrə hazır olmalarıdır:

“Nəhayət, XX əsrin axırlarında biz bu məsələləri tam aydınlaşdırmalıyıq və bu məsələyə nöqtə qoymalıyıq ki, bütün söz-söhbətə son qoyulsun.

Siz hansı qərarı qəbul etsəniz, həmin qərarı biz konstitusiyaya yazarıq”.

Müzakirəyə dəvət edilmiş mütəxəssislərin heç nədən çəkinmədən öz fikirlərini söyləmək, mövqelərini bildirmək üçün yaradılan şərait olmasaydı, kimsə öz rəyini (lap mübahisəli olsa da!) səsləndirməkdən məhrum edilsəydi, yəqin ki, “məsələyə nöqtə qoymaq” da çətin olacaqdı. Müstəqilliyini yeni qazanmış bir ölkədə cəmiyyətlə normal müzakirə aparmağın özü də asan iş deyildi. Ona görə də Ümummilli Lider, bir tərəfdən, xalqın (və dövlətin) gələcəyi üçün zəruri qanunların qəbul edilməsinə, digər tərəfdən isə, həmin qanun qəbuletmə prosedurlarının özünün də qanuni bir şəkildə aparılmasına xüsusi önəm verir, diqqət yetirirdi.

Azərbaycan Prezidenti nə cür adlandırılacağından asılı olmayaraq dilimizin çox zəngin, özünəməxsus, inkişaf etmiş bir dil olduğunu yığıncaq iştirakçılarına bir daha xatırladaraq yada salmışdır ki, 70-ci illərdə “Azərbaycan dili haqqında kitab yazmış böyük bir kollektivə dövlət mükafatı verdik... Burada mənim şəxsi təşəbbüsüm o olubdur ki, ictimaiyyət bir daha bilsin ki, biz dilimizin inkişafına nə qədər fikir veririk”.

Burada söhbət Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Səlim Cəfərov, Əlövsət Abdullayev, Yusif Seyidov və Ağaməli Həsənovun dörd hissədən (fonetika, leksika, morfologiya və sintaksis) ibarət “Müasir Azərbaycan dili” dərsliyindən gedirdi. Bu hadisə o zaman Azərbaycanda, eləcə də onun hüdudlarından kənarda, xüsusilə türkdilli respublikalarda böyük ictimai rezonans doğurmuş, görkəmli şairimiz Nəriman Həsənzadə həmin illərdə ən gözəl şeirlərindən birini bu hadisəyə həsr etmişdi:

Qızışdı gah şahlar, gah xəlifələr,
Dağıldı min illik mədəniyyətim.

Yadların xeyrinə dolaşdı illər,
Min il gizli qaldı sözüm, söhbətim.
...Yaratdıq ərəbin, farsın dilində,
Düşdük kitablara kimin adıyla?
Xaqani doğuldu Şirvan elində,
Nizami parladı istedadıyla.

...Onda Nəsiminin ənəlhəq səsi,
Qəmi, naləsi var onda anamın.
Onda – muğamatın ilk zənguləsi,
Himni də səslənir respublikanın.

Bu dildə nə xoşdu nəğmə oxumaq,
Sevmək, kürsülərdən nitq eləmək də.
Adi salam vermək, ya salam almaq,
Ülfətə çağırır dil də, ürək də.

Var olsun eşqiniz, məhəbbətiniz,
Sevinir yazdıqca əlimdə qələm.
Bir xalqın dilini tədqiq edən siz,-
Necə xoşbəxtəm ki, - şairi mənəm.

Azərbaycan Prezidenti Akademiyadakı yığıncaqda xatırlamışdı ki, o illərdə respublikada təkcə Azərbaycan dilçiliyi deyil, türkologiya üzrə də araşdırmaların aparılması üçün geniş şərait yaradılmışdı. Bu ona görə xüsusi əhəmiyyət daşıyır ki, 30-cu illərin sonlarından etibarən Azərbaycanda türkoloji araşdırmalar, demək olar, qadağan edilmişdi:

"Azərbaycanda türkologiya da çox inkişaf edibdir. Sovetlər İttifaqının ərazisində türkologiyaya, demək olar ki, Azərbaycan qədər fikir verən olmayıbdır. Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı Azərbaycanda nəşr edilirdi. İndi də nəşr olunur. Yəni bu sahədə bizim böyük nailiyyətlərimiz var".

Azərbaycan Prezidentinin bu sözləri tarixi əhəmiyyət daşıyır. Belə ki, Azərbaycanda türkologiya elminin tarixi türkçülük məfkurəsinin yayıldığı illərdən - XIX əsrin sonu, XX əsrin əvvəllərindən (Rusiya türkologiyasını yaradan Mirzə Kazımbəy də azərbaycanli idi) başlayır. "Türklər kimdir və kimlərdən ibarətdir?" (Əli bəy Hüseynzadə) sualı yalnız ideoloji yox, elmi təfəkkürü də narahat edir... 1926-cı ildə Bakıda keçirilən Birinci (və sonuncu!) Türkoloji qurultay Azərbaycana "türkologiyanın mərkəzi" statusunu qazandırır. Və 30-cu illərin sonuna qədər bu nüfuz davam edir.

Haqqında söhbət gedən dövrdə (XX əsrin ilk illərindən 30-cu illərinin sonlarına qədər) Azərbaycan türkologiyası, əsasən, dünya türkologiyası qarşısında heyranlığını bildirməklə yanaşı, praktik problemlərlə məşğul olur. Hətta yüksək türkoloji məktəb keçmiş professor Bəkir Çobanzadə də elmi-nəzəri problemlərlə məşğul olmaqla kifayətlənməyib vaxtının böyük bir hissəsini praktik məsələlərin həllinə sərf edir. Çünki o illərdə bütün türk dünyasında, xüsusilə sovet türkləri arasında əlifba, orfoqrafiya, terminologiya və s. o baxımdan həyati əhəmiyyətə malik idi ki, hətta türk dillərinin təsnifinə (dillərlə dialektlərin fərqləndirilməsinə) də təsir göstərirdi.

Sovet kommunist beynəlmiləlçiliyinin rus-slavyan şovinizmi ilə parodoksal ittifaqının yarandığı 30-cu illərdən etibarən türk sovet respublikalarında, xüsusilə “türkologiyanın mərkəzi” olan Azərbaycanda türkçülük bir yana, türkologiya elmi də repressiyaya məruz qaldı. Moskva ilə Türkiyə arasındakı “isti” münasibətlərin 30-cu illərin əvvəllərindən “soyuma”sı özünü ən kəskin şəkildə məhz dili “türk dili”, ədəbiyyatı “türk ədəbiyyatı”, mədəniyyəti “türk mədəniyyəti” adlanan Azərbaycana münasibətdə göstərdi. Hər cür türkoloji mülahizə pantürkizmin təzahürü kimi kəskin təqib olunmağa başladı.

XVII-XVIII əsrlərdə yaranmış “türkləri öyrənən elm”in varisi olaraq XX əsrin ortalarından “sovet türkologiyası” formalaşdı ki, onun da əsas məqsədi sovet türklərini akademik səviyyədə idarə etmək idi. Sovet Türkoloqları Komitəsinin elmi-nəzəri orqanı olan “Sovetskaya tyurkologiya” jurnalı Bakıda nəşr olunsa da Moskvanın ideoloji nəzarəti altında çıxırdı. Ancaq sovet ideologiyasının (və hakimiyyətinin) tarixində 70-ci illər artıq 30-cu, 40-cı, yaxud 50-ci illər deyildi. Ona görə də Azərbaycan türkoloqlarının yeni nəsli yetişməyə başladı ki, 1970-ci ildən nəşr olunan “Sovetskaya tyurkologiya”nın ildən-ilə necə türkləşdiyini, bu prosesdə, xüsusilə sovet türk respublikaların, o cümlədən Azərbaycana mənsub türkoloqların nə qədər böyük rol oynadıqlarını görmək mümkündür.

Sovet ideologiyasının müəyyən qədər demokratikləşdiyi 80-ci illərdən etibarən Azərbaycanda türkoloji təfəkkürün miqyasının genişlənməsi müşahidə olunur. Yalnız dilçilikdə deyil, ədəbiyyatşünaslıqda, tarixdə də ortaq ümumtürk keçmişinə maraq artır. Doğrudur, həmin maraq çox hallarda professional keyfiyyətdən uzaq olub, necə deyərlər, romantik səciyyə daşıyır, on illərlə cavabsız qalmış düşmən iddialarının qarşısını tezliklə almağa hesablanır, ancaq türkologiya (və türkçülük) düşüncəsi bu halında da milli mənlik şüurunun “sovet yuxusu”ndan oyanmasına təsir göstərir. Etnogenez problemi müxtəlif sahələr üzrə mütəxəssislər tərəfindən ən çox müzakirə edilən, elmi konfransların mövzusu olan məsələyə çevrilir... Türklərin pravətəni axtarılır, “Altay nəzəriyyəsi” – türk etnoslarının Azərbaycana, hətta Kiçik Asiya yarımadasına belə gəlmə olması barədəki təsəvvür şübhə altına alınır, Şumer məsələsi gündəmə gəlir... Və türkçülük məfkurəsinin mövqeyinin güclənməsi Sovetlər Birliyinin dağıdılmasına, sovet türkologiyasının süqutuna qədər davam edir.

Azərbaycan Prezidenti xalqın (və onun dilinin) tarixi inkişafına işarə edərək fəxrlə bildirir ki, “dilimizin 30-cu illərdəki vəziyyətini təsəvvür edin. Götürün öxuyun 20-ci illərdə yazılan kitabları. İndiki dilimizi götürün. Dilimiz nə qədər zənginləşib, nə qədər gözəlləşibdir, nə qədər cazibədar olubdur, nə qədər də şirindir. Bu bizim dilimizdir. Amma adını nə qoyacaqsınız – o sizin işinizdir”.

Burada biri digəri ilə bağlı iki fərqli məsələyə diqqət cəlb edilir: birincisi dilin özü, ikincisi isə adıdır. Bu isə o deməkdir ki, Azərbaycan dili, hətta 30-cu illərə qədər “türk dili” (yəni keçmiş türkcədən fərqləndirilmədən!) adlanmış olsa da, sonrakı onillərdə özünü göstərən inkişaf-diferensiasiya prosesləri müstəqil-diferensial bir dil təqdim etmişdir ki, onun adının fərqli olması da heç kimi təəccübləndirməməlidir... Beləliklə, türkdilli sistemdə yeni bir dil ayrılmışdır (halbuki bunun da tarixi orta əsrlərin sonu, yeni dövrün əvvəllərinə gedib çıxır) ki, onun adının həm qədim türkcədən, həm də müasir (qardaş) türk dillərindən fərqli olması qədər təbii heç nə yoxdur.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın Prezident Sarayında keçirilən iclasında (2 noyabr 1993-cü il) Prezident demişdir:

“Mən gündəliyə bir məsələni təklif etmişəm və bu gün də bu məsələnin müzakirə olunmasını lazımlı hesab edirəm. O da konstitusiya layihəsinin 23-cü maddəsi – Azərbaycanın dövlət dili haqqında olan maddədir. Nə üçün mən bu maddəni xüsusi müzakirə etməyi lazım bilirəm, nə üçün bu maddəyə bu qədər diqqət verilir və nə üçün şəxsən mən diqqət verirəm? Ona görə ki bu maddə konstitusiyamızın çox əsas maddələrindən biridir. Bir də ona görə ki, dövlət dili haqqında respublikamızın tarixində və xüsusən XX əsr tariximizdə cürbəcür mənbələrdə cürbəcür ifadələr olubdur. Bunların hamısını müzakirə edib son bir qərara gəlmək lazımdır”.

Sözügedən mənbələrdə “Azərbaycan dili” anlayışı bu ifadələrlə (linqvonimlərlə) əks olunmuşdur: türk dili, tatar dili, Qafqaz türklərinin dili, Zaqafqaziya tatarlarının dili, Azərbaycan türk dili, Qafqaz müsəlmanlarının dili, türk-tatar dili, türk (və ya tatar) dilinin Azərbaycan ləhcəsi, Azərbaycan dili və s.

Həmin yığıncaqda Azərbaycan Prezidenti məlumat vermişdir ki, “komissiyanın üzvləri Bəxtiyar Vahabzadə, Anar, Elçin Əfəndiyev deyirlər ki, dövlət dili yazılsın: Azərbaycan türk dili ya Azərbaycan türkcəsi. Komissiyanın başqa üzvləri bu fikri bəyənməyiblər, yəni bu fikrə qoşulmayıblar. Prosedura, müzakirə nöqteyi-nəzərindən vəziyyət bundan ibarətdir. Ancaq yenə də deyirəm, bu çox həssas, çox incə məsələ olduğuna görə, əgər bir adam da bu barədə bir söz deyirsə, ona fikir vermək lazımdır və burada məsələni adi çoxluq ilə, azlıq ilə həll etmək olmaz”.

Məsələyə çox böyük məsuliyyətlə yanaşmaq lazım gəldiyini qeyd edən Prezident həmin məsuliyyətin nədən irəli gəldiyini, hansı dəyərlərə əsaslandığını səmimi olduğu qədər də dahiyanə bir şəkildə izah etmişdir:

“Bilirsiniz, mən uzun həyat yolu keçmişəm, bu gün də yaşayıram, sizinlə birlikdə işləyirəm. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə də mən

istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə də milli mənliyimizi gərək itirməyək. Milli mənliyimiz də var, onunla da biz fəxr edə bilərik".

Əlbəttə, Heydər Əliyev kimi böyük dövlət adamlarının şəxsi təcrübəsi istənilən xalqın ümumi sərvəti olub onun – həmin xalqın gələcəyini möhkəm təməllər üzərində qurmaq iqtidarındadır. Ona görə də Azərbaycan xalqı, tarixin gedişi də göstərdi ki, öz Ümummilli Liderinin tövsiyyələrinə əsaslanaraq çox ağır sınaqlardan keçib gələcəyə doğru inamla irəliləyir.

1995-ci ilin noyabr ayının 5-də Prezident Sarayında yeni konstitusiya layihəsinin növbəti iclasında Prezident demişdir:

"Oktyabrın 31-də Elmlər Akademiyasında bütün ziyalıların nümayəndələri bu məsələni müzakirə etdilər. 25-dən çox adam çıxış etdi. Mən bunula qane olmadım. Noyabrın 2-də konstitusiya komissiyasının iclasını tamamilə buna həsr etdim. Biz beş saata qədər müzakirə apardıq. O müzakirədən sonra, bəlkə də, qərar qəbul etmək olardı. Görürsünüz ki, mən bu gün konstitusiya komissiyasının və işçi qrupunun üzvlərinin burada iştirakı ilə müzakirəni yenə də davam etdirirəm".

İki gün çəkən yüksək səviyyəli müzakirələri dinlədikdən sonra Ümummilli Lider öz mövqeyini belə ifadə etmişdir:

"Bu gün biz dövlət dilimiz haqqında məsələni müzakirə edərkən heç bir konyukturaya yol verməməliyik. Hansısa bir qərar qəbul edəcəyiksə, – bu kimin xoşuna gələcək, ya gəlməyəcək, – bu bizi narahat etməməlidr. Biz bunu həqiqət əsasında qəbul etməliyik və kimdənsə üzürxahlıq da etməməliyik: bağışlayın, biz sizinlə qardaşıq, amma biz dilimizi belə etmək istəyirik. Mən bununla da razı deyiləm".

Dünyada türk mənşəli xalqların (və dillərin) sayca çox olduğunu göstərən Azərbaycan Prezidenti onu da qeyd edir ki, "ancaq bu dillərin, yəni bizim bu türk dili qrupuna mənsub dillərin gəlib dövlət dili səviyyəsinə çatması XX əsrdə baş vermişdir... Osmanlı imperatorluğu və Osmanlı dili bu müzakirələr zamanı tez-tez yada salınır. Amma məlumdur ki, Osmanlı imperatorluğunun dövlət dili XIX əsrədək türk dili deyildi... Onlar da Türkiyə Cümhuriyyəti yaranandan sonra indiki türk dilini formalaşdırıb dövlət dili ediblər".

"Ümumxalq dili" ilə "dövlət dili" anlayışlarının fərqləndirilməsi zərurətini yada salan dahi millət (və dövlət) xadimi illərlə populyarlıq qazanmış qondarma təsəvvürlərin aradan qaldırılması, dil quruculuğu kimi mürəkkəb problemin həllində gerçək vəziyyətlərin düzgün qiymətləndirilməsinin lazım gəldiyini bir daha nəzərə çatdırır:

"Bizim ərazimizdə, yəni Azərbaycanda yaşayan insanlar, İranda yaşayan və bizim dilə mənsub olan insanlar, Türkiyənin şərq hissəsində yaşayan və azəri adlanan insanlar keçmişdə də, elə XX əsrdə də biz danışdığımız dildə danışıblar. Ona görə də dilimizin dövlət dili statusu alması yalnız və yalnız 1978-ci ildə qəbul edilmiş

konstitusiyada olubdur. O vaxta qədər bizim dilimiz dövlət dili statusu almayıbdır. Hamı bu həqiqəti bilməlidir".

Məsələnin birinci tərəfinə, yəni Azərbaycan dilinin yayılma coğrafiyasına gəldikdə qeyd etmək lazımdır ki, 1926-cı ildə Birinci Türkoloji Qurultay Azərbaycan ədəbi dili normlarını komplektləşdirmək üçün materialların Şimali-Cənubi Azərbaycandan, eləcə də Şərqi Anadoludan toplanmasını qərara almışdı ki, bu Azərbaycan türklərinin tarixi vətəni idi... Azərbaycan dilinin dövlət dili statusu almasının, hətta sovet dövründə – Azərbaycan SSR-in mövcud olduğu dövrdə belə 1978-ci ilə qədər yubanması sovet ideologiyasının SSRİ tərkibində olan respublikalara heç də müstəqil dövlətlər kimi baxmamasının nəticəsi olmuşdur. Bu, artıq 1920-ci illərin əvvəllərindən – Nəriman Nərimanovun Azərbaycana rəhbərlik etməyə başladığı ilk aylardan məlum idi. Ancaq sovet sosialist ideologiyası öz təbliğatı ilə bunu uzun zaman ört-basdır etmişdi.

Ölkə başçısının "biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da dilimiz itməyib, yaşayıb. Onu xalq yaşadıbdır, eyni zamanda onu xalqımızın böyük şəxsiyyətləri yaşadıblar" sözləri də tarixi həqiqətdir. Və bunu kökü çox qədim dövrlərə gedib çıxan Azərbaycan şifahi xalq ədəbiyyatı, öz əsərlərini, hətta farsca qələmə almağa məcbur olmuş dahi şairlərimiz Qətran Təbrizinin, Xaqani Şirvaninin, Nizami Gəncəvinin əsərlərindəki çoxsaylı Azərbaycan-türk dili ünsürləri, "Kitabi-Dədə Qorqud", Nəsiminin, Xətainin, Məhəmməd Əmaninin, Qövsi Təbrizinin, Saib Təbrizinin, Məsihinin... dil təcrübəsi aydın göstərir.

Məsələnin bir tərəfi bu böyük şəxsiyyətlərin – dil ustalarının tarixdə olmasıdırsa, digər tərəfdən dünya xalqlarının XX əsrin əvvəllərindən etibarən sürətli inkişaf, tərəqqi yoluna düşdüyü dövrdə onlar barədə təsəvvürlərin, məlumatların ortaya çıxarılmasıdır ki, Azərbaycan Prezidenti öz çıxışında bu barədə də bəhs etmişdir:

"Həyat inkişaf etdikcə, xalqımız mədəniyyət yolu ilə, elm yolu ilə inkişaf etdikcə, irəliyə getdikcə, dünya mədəniyyətindən bəhrələndikcə öz dilini də ilbəil inkişaf etdiribdir. Əgər XX əsri götürsək, xüsusən 20-ci ildən indiyədək Azərbaycanda böyük dilçi alimlər ordusu, böyük ədəbiyyatçılar, şairlər, yazıçılar, jurnalistlər ordusu yaranıbdır".

Və əlavə etmişdir:

"Məhz bu dövrdə biz Nizami Gəncəvini qaldırıb dünyaya tanıda bilmişik, Məhəmməd Füzulini də, Nəsimini də qaldırıb dünyaya tanıtmışıq, Vaqifi də, Mirzə Fətəli Axundovu da, Sabiri də, Seyid Əzim Şirvanini də, Abbasqulu ağa Bakıxanovu da tanıtmışıq və bütün bunların hamısını o dövrdə etmişik. Bu şəxsiyyətlər keçən əsrlərdə, dövrlərdə məgər dünyada bu qədər məşhur olublarmı? Yox, heç vaxt. Bu bizim dövrümüzün hadisəsidir və bunların hamısı da Azərbaycan adı ilə, dili ilə bağlı olubdur".

Sovet ideologiyasının, sosializm sisteminin qeyri-mükəmməlliyinin, bəlkə də, eksperimental təbiətinin nəticəsi idi ki, xalqların öz müqəddəratını təyin etmək hüququnu sözdə tanısa da işdə elə ciddi maneələr yaradırdı ki, həmin hüquqdan faydalanmaq üçün illərlə mübarizə aparmaq lazım gəlirdi. Odur ki, Azərbaycan Prezidenti belə bir xronologiyanı xatırlatmalı olmuşdu ki, "1936-cı ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən layihədə yazılmışdı ki, dövlət dili türk dili olsun. Ancaq bizim nümayəndələr Moskvaya gedib qayıdandan sonra 1937-ci ildə konstitusiya qəbul ediləndə dövlət dili maddəsi yazılmayıb. 1936-cı ildə Sovetlər İttifaqının konstitusiyasında da dövlət dili maddəsi yoxdur. 1977-ci ildə qəbul olunmuş Sovetlər İttifaqı konstitusiyasında dövlət dili barədə maddə yoxdur. Bunun səbəbi o deyildi ki, Sovetlər İttifaqı bir dövlət deyildi, yox. Yəqin dövlət dilini yazmayan adamlar istəmirdilər ki, dillər parçalansın. Bir də bilirdilər ki, onsuz da rus dili hakim dildir və bunu konstitusiyaya yazmağa da ehtiyac yoxdur".

Əlbəttə, Sovetlər Birliyində rus dilinin hüquqlarının başqa dillər hesabına genişləndirilməsi qarşısıalınmaz bir proses idi. Və digər müttəfiq respublikalarda olduğu kimi Azərbaycanda da ilk növbədə ziyalılar buna qarşı çıxırdılar. Məsələn, Bəxtiyar Vahabzadə "Latın dili" şeirində (1967) göstərirdi ki, biz latın dilinə "ölü dil" deyirik, ancaq düşünmürük ki, günü bu gün elmi terminlərin çoxu bu dildə işlənir, millət yoxdur, ancaq dil qalır... Halbuki elə xalqlar var ki, onların natiqləri yad dildə "mən azadam, mən xoşbəxtəm" deyir, ancaq öz dilində deyə bilmir. Birinci halda millət ölüb, dil yaşayır, ikinci halda dil ölüb, guya millət yaşayır.

Şair davam edir:

Sən dərdə bax,
Vətən də var,
Millət də var.
Ancaq onun dili yoxdur.
Elə bil ki
Güzgü kimi hamar, şəffaf royalın var,
dili yoxdur...
İndi söylə,
hansı dilə ölü deyək:
Vətən varkən,
Millət varkən
Kiçik, yoxsul komalarda
dustaq olan bir diləmi,
Yoxsa uzun əsrlərdən
keçib gələn,
xalqı ölən.
özü qalan bir diləmi?

Əgər bu cür mübarizələr olmasaydı, təhlükəni əvvəldən görüb onun qarşısını almaq cəhdləri meydana çıxmasaydı və kifayət qədər böhranlı bir vəziyyətdə Azərbaycana Heydər Əliyev kimi bir dövlət başçısı gəlib bütün milli qüvvələri, xalqın ziyalılarını bir məqsəd uğrunda səfərbər etməsəydi, yəqin ki, dilimiz həqiqi müstəqillik dövrünə bu cür inkişaf etmiş şəkildə gəlib çata bilməzdi.

Azərbaycan Prezidenti yığıncaqdakı nitqini yekunlaşdırarkən demişdi:

“1936-cı ildən indiyədək Azərbaycanda bizim dilimiz Azərbaycan dili adlanmışdır. Bütün sənədlərdə Azərbaycan dili adlanır. Bütün yerlərdə Azərbaycan dili adlanır. 1978-ci ildəki konstitusiyada “Azərbaycan dili dövlət dilidir” yazılmışdır. Bu gün də hamımız deyirik ki, bizim dilimiz Azərbaycan dilidir”.

Ümummilli Lider bütün çıxış edənləri diqqətlə dinlədikdən sonra öz mükəmməl məntiqi, məsələnin tarixini təfsilatı ilə bilməkdən irəli gələn möhkəm inamı ilə sübut etmişdir ki, Azərbaycanın dövlət dili “Azərbaycan dili” adlanmalıdır:

“Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik və mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil – həm tarixi nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycan dövlətçiliyi nöqteyi-nəzrindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düzgün deyil”.

Ən yeni tarixin o qədər də uzaq olmayan illərində gərgin müzakirələrə, münaqişələrə yekun vurmuş bu mülahizələr isə bizim günlərdə milli dilin (və millətin) manifesti kimi səslənir:

“Mən bir dəfə dedim ki, biz gərək öz milli mənliyimizi heç zaman itirməyək... Xalqların hər biri tarixi yol keçib, hər birinin də özünəməxsus naliyyəti var. Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüdudlar çərçivəsində Azərbaycan Respublikasında yaşayanlar azərbaycanlılardır. Bizim keçmişimiz məlumdur, biz onu inkar etmirik, - yenə də deyirəm, biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna məxsus bir dildir. Ancaq o 23 dil kimi bizim də öz dilimiz var. Biz öz dilimizi gedib heç bir başqa dilə nə qarışdırmalıyıq, nə də ona yapışdırmalı, qoşmalıyıq.

...Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır. Mən keçən dövrü kənara qoyuram, - 60 il ərzində bu, mövcud olmuş reallıqdır. Gün-gündən, aybaay inkişaf etmiş reallıqdır”.

Kifayət qədər nüfuzlu mütəxəssislərin, ziyalıların mülahizələri dinləniləndən, eləcə də öz prinsipial mövqeyini bəyan etdikdən sonra Azərbaycan Prezidenti təklif edir ki, dövlət dili ilə əlaqədar maddə – 23-cü maddə ümumxalq müzakirəsinə ayrıca göndərilsin. Və bu, hər nə qədər vacib olsa da, yalnız prosedura əməl etmək

məqsədindən irəli gəlmirdi, həm də Azərbaycan cəmiyyətinə dövlət dilinin nə qədər böyük siyasi əhəmiyyətə malik olduğu, xalqın həmin məsələ üçün hansı məsuliyyəti daşıdığı barədə tarixi bir məsaj verilirdi:

"Mən hesab edirəm ki, biz bu layihəni bu gün hazırlayarkən 23-cü maddəyə baxıb onu, bəlkə də, bir az təkmilləşdirmək, genişləndirmək olar. Hər halda bunu qəbul edirik, referenduma veririk. Bəli, qoy xalq öz sözünü desin. Ancaq biz də xalqın nümayəndəsi, cəmiyyətin üzvü kimi, eyni zamanda xalq tərəfindən böyük səlahiyyətlərə malik olan şəxslər kimi bu gün öz fikrimizi deyirik".

Həqiqət naminə demək lazımdır ki, müzakirələrdə "türk dili", "Azərbaycan türk dili", "Azərbaycan türkcəsi" variantlarına tərəfdar çıxanların çoxu öz mövqelərində elə də prinsipial, yaxud ardıcıl deyildilər. Bəziləri bu fikrə müstəqilliyin doğurduğu türkçülük emosiyasından (və eyforiyasından!) gəlmişdilər, bəziləri üçün illərlə danılmış bir anlayışı - "türk" anlayışını diriltmək maraqlı görünürdü, bəziləri isə sırf elmi-nəzəri (ümumtürkoloji) mülahizələrdən çıxış edib, məsələnin sosial-siyasi tərəflərini nəzərdən qaçırırdılar... Nəticə isə o oldu ki, Ümummilli Liderin davamlı izahlarından, mühakimələrindən, gəldiyi yekun qərarından sonra fərqli düşünənlərin sayı kəskin şəkildə azaldı. Referendum isə məsələyə nöqtə qoydu.

Azərbyacan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın sonuncu – 10 noyabr 1995-ci il tarixli iclasında Azərbaycan Prezidenti və komissiyanın sədri Heydər Əliyev bir daha dövlət dili məsələsinə münasibət bildirərək demişdir:

"Ən doğru, ən düzgün və ən əsaslı bir qərar qəbul etdik ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Bu, Azərbaycan xalqı üçün, onun mənəviyyatı, dilinin inkişafı üçün çox əhəmiyyətli qərardır. O, Azərbaycanda bütün Azərbaycan xalqının tərkibini təşkil edən xalqların hamısının özləri üçün bir dil qəbul etməsi üçün çox əsaslı bir qərardır və hesab edirəm ki, həm keçmişimizə böyük hörmətdir, həm də gələcək üçün böyük bir sərvətdir".

Göründüyü kimi, dövlət başçısı burada "Azərbaycan dili" ifadəsinin işlədilməsinin tarixi baxımdan əsaslı olduğunu bir daha vurğulamaqla yanaşı, Azərbaycanda yaşayan müxtəlif xalqların, etnosların konsolidasiyasını, mütəşəkkilliyini təmin edəcək bir ideya-anlayış kimi də səciyyələndirir.

Referendum günü (12 noyabr 1995-ci il) jurnalistlərlə görüşdə "hörmətli Prezident, konstitusiya layihəsində dövlət dilinin Azərbaycan dili yazılması hansı siyasi məqsəddən irəli gəlir?" sualına Prezident belə cavab vermişdir:

"Bu, siyasi məqsəd deyil. Bu, Azərbaycan dilinin keçdiyi tarixi yolun əsasında olan bir şeydir. Bizim dilimiz Azərbaycan dilidir, biz azərbaycanlıyıq, respublikamız Azərbaycandır. Ancaq tarix, dilçilik elmi nöqteyi-nəzərindən Azərbaycan dili dünyada mövcud olan türk dilləri qrupuna daxildir. Ona görə ki Azərbaycan dilinin mənşəyi türk dilləri kökündən gəlir. Amma dünyada türk dilləri qrupu çox böyükdür. Keçmiş Sovetlər İttifaqının ərazisində bu qrupa daxil olan 23 dilin hərəsinin müstəqil adı var, amma hamısı türk dilləri qrupuna mənsubdur. Bunlardan biri də Azərbaycan

dilidir. Mənşəyimiz, kökümüz də, şübhəsiz ki, türk kökündən gəlibdir. Dilimiz isə Azərbaycan dilidir".

12 noyabr 1995-ci ildə referendumla qəbul olunan, 27 noyabr 1995-ci ildə isə qüvvəyə minən Azərbaycan Respublikası Konstitusiyasında həmin maddə aşağıdakı şəkildə təsbit edilmişdir:

"I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir".

Müzakirələr göstərdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də ana dilinin (eyni zamanda dövlət dilinin) qeydsiz-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədirlər, ona görə ki:

a) iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur və təcrübədə onları istər-istəməz ayrı-ayrı adlarla (Azərbaycan türkcəsi – Türkiyə türkcəsi) adlandırmaq lazım gəlir;

b) Azərbaycan ərazisində yaşayan qeyri-türk mənşəli müxtəlif xalqlar, etnoslar (talışlar, tatlar, kürdlər, ləzgilər və b.) "Azərbaycan dili"nin "türk dili" adlandırılmasından hər halda narahat olurlar, bir sıra qüvvələr isə bundan istifadə edərək "xırda millətçilik" hisslərini qızışdırırlar;

c) "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla istifadə olunur, kifayət qədər böyük işlənmə təcrübəsinə malikdir və milli ictimai təfəkkürdə tamamilə qərarlaşmışdır.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası, eləcə də onun dövlət dili ilə bağlı xüsusi maddəsi qəbul olunduqdan sonra uğurla işləməyə başladı ki, bu da Ümummilli Liderin milli dövlət quruculuğu (və idarəçiliyi) ideyalarının təntənəsi demək idi.

* * *

1996-cı ilin yanvar ayının 8-də Azərbaycan Respublikasının ilk konstitusiyasına uyğun olaraq icra və idarəetmə işlərinin təkmilləşdirilməsi ilə bağlı respublika Nazirlər Kabinetinin ilk iclası keçirilmiş, həmin iclasda yeni konstitusiyadan irəli gələn məsələlər müzakirə olunmuşdur. Azərbaycan Prezidenti dövlət dili ilə əlaqədar vəziyyətdən bəhs edərək demişdir ki, "biz keçid dövründə yaşayırıq. Artıq dörd ildir ki, müstəqil dövlətik. Beşinci ildir ki, müstəqillik şəraitində yaşayırıq. Mən bunu dəfələrlə demişəm: biz danışanda, müzakirə aparanda, şübhəsiz ki, Azərbaycan dilindən savayı rus dlindən də istifadə etmək olar. Ancaq bunun da bir müddəti olmalıdır. Ona görə də mən indi də, bundan sonra da etiraz etməyəcəyəm ki, bizim ana dilimizi biməyən adamlar hələ ki məruzələrini rus dilində etsinlər. Ancaq xəbərdarlıq edirəm – artıq vaxt, illər keçir, dili öyrənmək lazımdır".

Azərbaycan Prezidenti, bir tərəfdən, dövlət məmurlarını dövlətin konstitusiyasına – əsas qanununa əməl etməyə çağırırdısa, digər tərəfdən, yaxın keçmişin diqtə etmiş olduğu vəziyyəti də nəzərə alırdı. Ancaq strateji məqsəd öz-özlüyündə məlum idi:

"İndi mən heç kimi günahlandırmıram. Keçmişdə ümumi işimiz belə olubdur ki, vəzifəli şəxslərin çoxu rus dilində təhsil alıb, işləri rus dilində aparıblar. Mən bunların heç birisini günah hesab etmirəm. Keçid dövründə də insanlar müəyyən qədər bu keçid prosesində yaşayırlar, bu da təbiidir, ancaq nə qədər, neçə il lazımdır ki, vəzifəli şəxslərimiz dövlət dilimizi öyrənsinlər və biz müzakirələri də bu dildə aparaq?".

Günlər keçdikcə Azərbaycan Prezidenti özünün (və dövlətin) iradəsini daha prinsipial şəkildə ifadə edərək vəzifəli şəxslərin Azərbaycan dilində məruzə eləmələrini tələb etmiş, qınayıcı sözlər söyləmişdir... Bu, son dərəcə gərəkli idi. Çünki az qala günbəgün dövlətin müstəqilliyinin gücləndiyini, beynəlxalq münasibətlərdə indiyə qədər görünməmiş mövqelər qazandığını müşahidə edən xalq hər hansı nazirin, komitə sədrinin, idarə və ya müəssisə rəhbərinin rucsa danışdığını qəbul edə bilmirdi. Və Prezidentin tənbehləri məhz hakimiyyətin əsası olan xalqın iradəsini əks etdirirdi:

"Birini rus dilində dinləyib ona Azərbaycan dilində cavab vermək və yaxud onunla müzakirə aparmaq mənim üçün çətin deyil. Amma bu hər adam üçün də asan deyil. Yenə də deyirəm, əgər keçmişdə bəziləri buna ehtiyac duymayıblarsa, amma indi bu ehtiyac var axı! Oturun, müəllim tutun, bu dili öyrənin. Axı nə qədər olar, məgər elə dünyadan bu dili bilməyə-bilməyə çıxıb gedəcəksiniz! Axı belə şey olmaz. Mən yenə də deyirəm, keçmişdə, Xalq Cəbhəsinin vaxtında bəzi insanları günahlandırırdılar ki, nə bilim, rus dilində danışmaq olmaz, düş aşağıya – mən bu şeylərin əleyhinəyəm".

Azərbaycan Prezidenti hər bir həqiqi mütəxəssisi həmişə yüksək qiymətləndirir, onun hansı çatışmazlığı vardısa, çalışır, tövsiyyələr verir, yol göstərirdi ki, aradan qaldırsın. İstəmirdi ki, öz işini yaxşı bilən, cəmiyyətə ləyaqətlə xidmət edən adamı xalq, dövlət itirsin. Ancaq mövcud tələblərə rəğmən ana dilini – dövlət dilini bilməmək adi çatışmazlıq deyildi:

"Mən buraya gələndən – iki il yarımdır ki, bir yerdə işləyirik – hesab edirəm, insanlara sərbəstlik vermək lazımdır. Mən də bu şəraiti yaradıram ki, kim öz fikrini hansı dildə izah edə bilirsə, etsin. Ancaq heç kəs bunu daimi bir proses kimi qəbul etməsin. Bu keçid dövrümüzün müəyyən bir elementidir. Ancaq keçid dövrünü əgər iqtisadiyyatda qısaltmaq istəyiriksə, dili mənimsəməkdə daha da qısaltmaq lazımdır".

Müəyyən müddətdən sonra Prezident öz tələblərini sərtləşdirmiş, rusca danışmaq, çıxış etmək istəyənlərə ana dilini – dövlət dilini öyrənməyin konkret yollarını da göstərmişdi:

"Mən indiyədək bunu deməmişəm, ancaq bu gün mütləq deməliyəm: dövlət dilini yaxşı bilməyən adamlar məşğul olsunlar, müəllim tutsunlar, kitab oxusunlar, başqa

yollarla dövlət dilini öyrənsinlər. Mən demirəm bu gün, sabah, bir aya, iki aya, amma qısa bir müddətdə bizim hamımız bütün müzakirələri dövlət dilində aparmalıyıq".

Bu cür prinsipial mövqeyin, əlbəttə, nəticəsi olmaya bilməzdi. Və müəyyən dövrdən sonra dövlət müzakirələrinin bütün iştirakçıları yalnız dövlət dilində danışırdılar.

Ən ciddi problemlərdən biri də Azərbaycan ordusunun Azərbaycan dilinə keçməsi idi – burada söhbət orduya çağırılan gənclərdən getmirdi, onlar ana dilini yaxşı bilirdilər, əsas çətinlik rusca təhsil almış zabitlərin hələ də təhsil-təlimdə rus hərbi terminologiyasını işlətməsində idi:

"Ordumuzda da vəziyyət belədir. Çünki keçmişdə Sovet Ordusunda olan terminlərin və s. əksəriyyəti dilimizə o qədər də çevrilməyib. Amma mən müdafiə nazirinə də göstəriş vermişəm ki, artıq vaxt keçib, təhsili də, ordunun idarəsini də, başqa şeyləri də tədricən dövlət dilinə, Azərbaycan dilinə çevirmək lazımdır".

Beləliklə, müstəqil dövlətin ilk konstitusiyası qəbul edildikdən sonra Azərbaycan dilinin dövlət dili olaraq hüquqları cəmiyyət həyatının bütün sahələrində təmin olunmağa başladı ki, bu, Heydər Əliyevin dövlət başçısı kimi qəbul etdiyi qərarlarla yanaşı, onun çoxsaylı şəxsi təşəbbüslərinin nəticəsi idi. Ümummilli Lider Azərbaycan dilinin dövlət dili olaraq işlənməsini təmin edərkən onun hər sahədə inkişafını da düşünür, bu barədə lazımi göstərişlərini verir, eyni zamanda ortaya çıxan problemlərin həllinə də kömək göstərirdi.

Azərbaycan milli televiziyasının 40 illik yubileyi münasibətilə görüşdə (17 fevral 1996-cı il, Prezident sarayı) çıxış edərək demişdir:

"Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vəzifələrdən biri ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir. Bu sahədə biz dəfələrlə danışmışıq. Müstəqil Azərbaycan Respublikasının keçən il noyabrın 12-də ilk konstitusiyası Azərbaycan dilini Azərbaycanın dövlət dili elan etmişdir. Azərbaycan dilinin təbliği sahəsində televiziya çox iş görə bilər. Tamaşaçılar qarşısında çıxış edən televiziya işçiləri Azərbaycan dilində nə qədər səlis, gözəl, şirin, mədəni danışsalar, o qədər də hər bir Azərbaycan vətəndaşı öz dilini sevəcək, həmin televiziya verilişlərindən özləri üçün nümunələr götürəcək və öz dilini inkişaf etdirəcəkdir. Bu televiziya işçiləri qarşısında duran çox böyük vəzifədir".

Azərbaycan Prezidenti bu baxımdan ziyalıların, elm və mədəniyyət xadimlərinin üzərinə nə qədər böyük məsuliyyət düşdüyünü ayrıca qeyd etmişdi:

"Elm, mədəniyyət xadimlərimiz televiziya vasitəsilə çıxış edərkən, söhbətlər, müzakirələr apararkən Azərbaycan dilində nə qədər səlis danışsalar, o qədər də çox seviləcəklər və xalqımızın ana dilini, dövlət dilini mənimsəməsi, öyrənməsi üçün o qədər də kömək edəcəklər. Güman edirəm, televiziyamız bundan sonra da bu sahəyə fikir verəcəkdir".

Ziyalıların ana dilinə doğma münasibəti Heydər Əliyevi həmişə düşündürmüş, elmin, mədəniyyətin müxtəlif sahələrində çalışanların bu dilin nüfuzunu yüksəltməkdə böyük rol oynayacaqlarını həmişə vurğulamışdı.

1996-cı ilin mart ayının 18-də Bakı Dövlət Universitetinə növbəti gəlişində Ulu Öndər sovet dövründə – 1970-ci ildə Universitet tribunasından heç kimin gözləmədiyi halda məhz azərbaycanca nitq söyləməyinin məqsədini bir daha xatırlayaraq demişdi:

"İndi o vaxtdan 26 il keçibdir. O vaxtlar – mən respublikaya rəhbərlik etdiyim dövrdə, sonra Azərbaycanın Prezidenti kimi burada fəaliyyət göstərdiyim zaman bizim azərbaycanlıların əksəriyyəti öz dilini öyrənibdir və onlar öz dillərində danışırlar. Ona görə də mənim burada hansı dildə danışmağımın fərqi yoxdur. O vaxt Azərbaycan Dövlət Universitetində Azərbaycan dilində danışmağım təkcə bu dili bilməyimi göstərmək məqsədi daşımırdı. Ən əsası bu idi ki, mən istəyirdim azərbaycanlılar və xüsusən yüksək vəzifələrdə olanlar öz dilini sevsinlər, ona hörmət etsinlər, öz dilini qiymətləndirsinlər, bu dildə nitqlər söyləsinlər. Mən buna nail olmuşam. Doğrudur, bəziləri indi də öz dilində istənilən səviyyədə danışa bilmirlər. Amma əksəriyyəti Azərbaycan dilində, Azərbaycanın dövlət dilində danışır".

Göründüyü kimi, Heydər Əliyev əsl millət (və dövlət) xadimi kimi, ana dilimizin, dövlət dilimizin ölkədə özünəlayiq məqama yüksəlməsi ilə sonsuz qürur duymuş və bunu gizlətməmişdi.

Bunula belə, o, bütün dillərə (və xalqlara) hörmətlə yanaşırdı.

1997-ci ilin yanvar ayının 5-də Fransada səfərdə olarkən Azərbaycan Prezidenti jurnalistin belə bir sualına cavab verməli olmuşdur:

"Çox xoşdur ki, rus dilində danışmaq zəruriliyi Sizi həyəcanlandırmır. Çünki keçmiş Sovet ittifaqının bir sıra dövlətlərinin bəzi siyasi xadimləri rus dilini nədənsə çox tez unudublar. Sualım belədir: Azərbaycanda rus mədəniyyətinə, rus dilinə Azərbaycanın münasibəti, şəxsən Sizin münasibətiniz, bu baxımdan Sizin siyasətiniz necədir?"

Cavab bundan ibarətdir:

"Qeyri-adi sualdır. Buna baxmayaraq ona tam açıqlığı ilə, səmimi cavab verəcəyəm. Rus dili böyük bir xalqın dilidir. Rus dili dünyada yayılmış dillərdən biridir, keçmişdə rus imperiyasına, sonralar isə Sovet İttifaqına daxil olmuş bir çox xalqların təhsilinin, mədəniyyətinin, elm və texnikasının inkişafında böyük rol oynamışdır. Şəxsən mən rus dilinə dərin hörmət bəsləyirəm. Onun köməyi ilə mən nəinki rus mədəniyyəti, həm də dünyanın bütün digər xalqlarının mədəniyyəti barədə çox şey öyrəndim. Azərbaycan əhalisinin əksəriyyəti də rus dilinə bu cür hörmət bəsləyir.

...Mən öz Azərbaycan dilimi çox sevirəm və rus dili kimi, ana dilimi də yaxşı bilirəm. Lakin burada Azərbaycan dilində danışmağa ehtiyac yoxdur, bunun üçün rus dilindən istifadə edirəm, bir də ona görə ki, burada oturanların yarısı rus dilini bilir. Mən sizə hörmət edirəm və buradakılara hörmət əlaməti olaraq rusca danışıram".

Bu sözlər həm böyük bir vətənpərvərin, həm də eyni dərəcədə böyük bir humanistin, planetar miqyaslı siyasi xadimin mövqeyini ifadə edir.

* * *

Məlum olduğu kimi, bütün xalqların milli yaradıcılıq (özünütəsdiq!) təcrübəsində dil məsələsi ədəbiyyat məsələsi ilə bilavasitə bağlıdır.

Heydər Əliyev, artıq qeyd etdiyimiz kimi, hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi ilk illərdən Azərbaycan yazıçılarının qurultaylarında iştirak etmiş, həmin qurultaylardakı çıxışlarında qələm adamlarına dəyərli tövsiyələr vermişdir ki, onların böyük bir hissəsi dil məsələlərini ehtiva edir. Müstəqillik dövründə - 1997-ci ilin oktyabrında keçirilən X qurultayda da Ulu Öndər cəmiyyyətin bu məsələyə - dil məsələsinə həssas münasibətini nəzərə alaraq çıxışında ona xüsusi yer ayırmış, özünəməxsus məzmunlu (və tarixi!) mülahizələrini söyləmişdir ki, bu gün dil quruculuğunun, dövlətin dil siyasətinin və ümumiyyətlə, xalqın (və dövlətin) dilinə yaradıcı münasibətin “yol xəritəsi”dir. Və heç şübhəsiz, sabah da belə olacaqdır.

Qurultaydakı məşhur nitqində Heydər Əliyev xatırlayırdı ki, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra (*bu hadisə 1971-ci ildə olmuşdu – N.C.*) tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki mən orada, birinci növbədə, Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir... Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili və bir də ədəbiyyat dili olmuşdu. Amma dövlət dili olmamışdı”.

Və Ümummilli Lider əlavə etmişdi:

“Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi”.

Azərbaycan dilinin inkişafında Azərbaycan yazıçısının xidmətlərini yüksək qiymətləndirən Ulu Öndər qurultayda bu məsələ üzərində xüsusi dayanaraq fəxrlə demişdi:

“Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var... Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq – xalq, millət ola bilməz”.

Heydər Əliyevin nitqində maraqlı məqamlardan biri də o oldu ki, görkəmli dilçi Tofiq Hacıyevin çıxışındakı bir neçə aktual məsələyə diqqəti cəlb edib dəyərli şərhlər verdi.

Professor Tofiq Hacıyev dedi:

"Cənab Prezident keçən il Türk yazarlarının üçüncü qurultayında təxminən saat yarıma qədər geniş, məzmunlu bir çıxış etdi. Türkiyədən gələn yoldaşlarım mənim yanımda oturmuşdular... Dil Qurumunun sədri Əhməd bəy tənəffüsdə dedi ki, sizin Prezident bu geniş çıxışında cəmisi beş Avropa sözü işlətdi. İstanbul Universitetinin professoru Səfi bəy "fakt" sözünü də əlavə etdi. Aydın oldu ki, Prezident bu çıxışında cəmi altı Avropa sözü işlədibdir. Dedi ki, amma bizim Prezidentimiz bu boyda çıxış etsəydi, orada 200-dən çox Avropa sözü olmalı idi".

Və əlavə etdi:

"Bu yaxınlarda, sentyabrın 26-da Dil Qurumu ilə Bilkənd Universitetinin keçirdiyi Dil bayramı yığıncağında oldum. Türk dünyasının böyük elm, təhsil işçisi İhsan Doğramacı orada dedi ki, Azərbaycan türkcəsi türk dillərinin içərisində ən gözəlidir...

Bu qocaman həkim, böyük elm adamı dedi ki, hazırda türk dünyası üçün ortaq türk dili problemi vardır. Azərbaycan türkcəsi bütün türk dünyası və türk xalqları üçün ortaq dil olmağa layiqdir.

Bəlkə özümüz bu işin içindəyik deyə görmürük, amma görürsünüz kənardan necə qiymətləndirirlər".

Ulu Öndər həmin məsələyə münasibətini belə ifadə etdi:

"Burada professor Hacıyev çıxış edərək Türk Yazarlarının qurultayından bir xatirə yada saldı. Bilirsiniz, bu hadisə məni sevindirdi. Çünki biz dil haqqında müzakirə apararkən professor Hacıyev belə mövqedə idi ki, dilimizin adı başqa cür olmalıdır. Biz isə qəbul etdik ki, Azərbaycan dil olmalıdır. Amma onun sözləri məni ona görə sevindirdi ki, bizim Türkiyədən gələn alimimiz, dostumuz dilimizin qiymətini verə bilibdir. İş onda deyil ki, bunu mən danışıram, sən danışırsan, o birisi danışır. İş ondadır ki, dilimizin qiymətini verə bilibdir. Həqiqətən, bizimlə dost, qardaş ölkədə - Türkiyədə də dilimizi – Azərbaycan dilini çox sevirlər".

Və əlavə elədi ki:

"Bilirsiniz mən bunu dəfələrlə demişəm və bu gün fürsətdən istifadə edib yenə də deyirəm: Biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur".

Professor Tofiq Hacıyevin "Bir əcnəbi təyyarə meydanından maşınla Dənizkənarı bulvara qədər gələr, bilməz ki, dünyanın hansı şəhərindədir – Vaşinqtondadır, Ankaradadır, ya da Bakıda. Bütün reklamlar, yazılar əcnəbi, yabançı dildədir" sözlərinin müqabilində Azərbaycan Prezidenti dedi:

"O ki qaldı reklamlara və şəhərdə başqa dillərdə olan yazılara və yaxud da ki respublikamızda hansısa kolleclərdə ingilis dilində dərs keçilir, - bunların hamısına baxmaq lazımdır. Ancaq bu məsələdən bir o qədər də narahat qalmaq lazım deyil...

... Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Bununla yanaşı biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər".

Və Prezident Azərbaycan, ümumiyyətlə, postsovet respublikaları üçün xarakterik olan ciddi bir problemə də toxundu:

"... Azərbaycanda indi də insanlar var ki, əsasən rus dilində danışırlar. Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da beləlləri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam".

Prezident həmişə olduğu kimi bu dəfə də yazıçılarla açıq danışmaqdan, mövcud problemləri necə varsa o cür deməkdən çəkinmədi:

"Professor Hacıyev mənə deyir ki, siz Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin işçilərini məcbur edin, onlar Azərbaycan dilini öyrənsinlər. Mən öz azərbaycanlılarımızı məcbur edə bilmirəm ki, Azərbaycan dilini öyrənsinlər. Amma sizə deyim ki, onlar artıq öyrənirlər. Xarici ölkələrin respublikamızda olan səfirləri artıq Azərbaycan dilini öyrənirlər. Onlar mənimlə görüşəndə çalışırlar Azərbaycan dilində danışsınlar. Mən də bunlara çox sevinirəm. Hətta Rusiyanın səfiri hörmətli Bloxin – burada oturubdur – o, Azərbaycan dilini öyrənir, özü də çox yaxşı öyrənir.

Budur bizim müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya mərkəzdən Azərbaycan Kommunist Partiyasının ikinci katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmirdim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir, Fransanın səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir".

Azərbaycan yazıçılarının X qurultayında Azərbaycanda latın qrafikalı əlifbaya keçidin tarixi zərurət olduğunu əsaslandıran, hələ XIX əsrdən görkəmli Azərbaycan ziyalılarının ərəb əlifbasından latına keçmək uğrunda ardıcıl mübarizə apardıqlarını xatırladan Ümummilli Lider dillə bağlı mülahizələrini aşağıdakı sözlərlə yekunlaşdırdı:

"Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!".

* * *

2001-ci ilin iyun ayının 18-də Azərbaycan Prezidenti "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman verdi ki, həmin fərman, tam məsuliyyətlə demək olar ki, Azərbaycan dilinin tarixində görünməmiş hadisə idi. Dövlətin dil siyasətini bütün miqyası ilə olduqca dolğun şəkildə əks etdirən fərman həm də elmi-metodoloji məzmunu ilə diqqəti cəlb edir. Sənəddə Azərbaycan dilinin mənşəyi məsələsinə ayrıca (və geniş) yer ayrılmışdır və burada qeyd olunur ki, "Azərbaycan dili dialekt və şivələrinin geniş Avrasiya məkanına yayılan türk xalqlarının az qala bütün dil xüsusiyyətlərini əks etdirəcək qədər rəngarəng olmasının da başlıca səbəbi ta qədimlərdən bu torpaqlarda etnik baxımdan eyniköklü türk etnoslarının mövcud olmasıdır".

Bu, uzun illər (və məhz siyasi məqsədlərlə) türk etnoslarının Azərbaycana nəinki ilk orta əsrlərdə, hətta monqol-tatar yürüşləri dövründə gəldiklərini yeganə akademik mövqeyə çevirməyə çalışanlara tutarlı cavab olmaqla yanaşı həm də (və daha əsası!) milli tarixi təfəkkürün, ana qaynaqlarını türkçülükdən alan azərbaycançılıq ideologiyasının təntənəsi idi.

Azərbaycan dili tarixinin bir sıra mübahisəli və ya uzun illər hansısa ideoloji məqsədlə mübahisə obyektinə çevrilmiş problemlərinə aydınlıq gətirilən fərmanda dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi üçün bir sıra konkret tədbirlərin görülməsi də irəli sürülür:

"... Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standatlarına, milli-mədəni inkişaf tarximizin tələblərinə cavab verən tədrisi işinin təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və s. sahələrdə Azərbaycan ədəb dilinin normalarına lazımınca əməl olunmur. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsürlar müşahidə olunur".

Fərman aşağıdakı çox mühüm müddəa-qərarlarla bitir:

"1. Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılsın.

2. "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun hazırlansın.

3. Azərbaycan Respublikasının nazirlik, idarə, təşkilat və müəssisə rəhbərləri öz tabeliklərində olan qurumlarda dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı uzunmüddətli kompleks planlar hazırlayıb həyata keçirsinlər.

4. Təhsil nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi, bu dildə təhsilin keyfyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin.

5. Azərbaycan MEA və Təhsil Nazirliyi Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə latın qrafikasında çap olunacaq zəruri elmi, bədii, tədris və s. ədəbiyyatının siyahısını hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsinlər.

6. Azərbaycan MEA Azərbaycan dilçiliyinə dair aparılmalı araşdırmaların proqramını hazırlasın və araşdırma işinin gedişi barədə hər altı aydan bir Azərbaycan Prezidentinə məlumat versin.

7. Şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki, yerlərdə istifadə olunan lövhə, reklam, şüar, plakat və s.-in dilinin Azərbaycan ədəbi dilinə uyğun olması baxımından tədbirlər görsünlər.

8. Azərbaycanda nümayiş etdirmək üçün alınacaq əcnəbi kino və televiziya məmulatlarının Azərbaycan dilinə dublyaj işi lazımi səviyyədə qurulsun.

9. 2001-ci il avqustun 1-dən respublikada bütövlükdə latın qrafikasına keçirilsin".

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman göstərdi ki:

1) Azərbaycan dilinin (və xalqının) mənşəyi barəsində bir neçə on ildir ki, davam edən mübahisələri yekunlaşdırmaq, tarxi faktların (və sağlam tarixi düşüncənin) mövqeyindən əsaslı bir konsepsiya vermək artıq yalnız elmi deyil, həm də milli, ictimai-siyasi bir ehtiyacdır;

2) Azərbaycan dilini dövlət dili kimi yaşatmaq, daha da inkişaf etdirmək üçün etnososial, mədəni-mənəvi potensialının olmasını göstərmək məqsədilə tarixdən, daha dərin köklərdən gəlmək lazımdır;

3) Haqqında söhbət gedən fərman bir dövlət sənədi olaraq bütövlükdə Azərbaycan dövlətinin (və xalqının!) marağını əks etdirsə də, həmin dövləti yaradan, həmin xalqı işıqlı gələcəyə aparan bir mütəfəkkirin düşüncəsinin məhsulu olduğuna görə, sıravi yox, tarixi səciyyə daşıdığına görə xüsusi elmi konsepsiya ifadə edir.

Əlbəttə, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsəri idi – burada dövlətin milli dil siyasəti əks etdirilir, həmin dövlət (və dil) uğrunda aparılmış mübarizənin tarixi və gələcəyi ifadə olunurdu. Fərmanda irəli sürülmüş ideyalar aşağıdakı kimi ümumiləşdirilə bilər:

Azərbaycan dilinin bir dövlət dili olaraq qorunması;

Azərbaycan dilinin bir dövlət dili olaraq inkişaf etdirilməsi.

Məhz Heydər Əliyevin formalaşdırdığı dövlət dil siyasətinin uğurla həyata keçirilməsi nəticəsində

1) Azərbaycan dilinin dövlət dili olaraq siyasi nüfuzu təmin olundu;

2) təhsilin, elmin, ədəbiyyatın və s. inkişafı ana dilinin – dövlət dilinin tərəqqisi üçün münbit şərait yaratdı;

3) Azərbaycan dili Azərbaycan dövlətinin beynəlxalq mövqeyinin yüksəlməsi ilə tarixdə ilk dəfə geniş beynəlxalq arenaya çıxdı.

Ümummilli Liderin milli dil siyasətinin ideya – məzmunu qədər mənbələri də zəngindir. Heydər Əliyevi əlinə tabaşir alıb millətinə yeni əlifbanı (dili!) öyrədən

böyük Atatürklə müqayisə edənlər tamamilə haqlıdırlar. Mümkün olan hər bir şəraitdə Azərbaycan dilindən bəhs etmək, onun qüdrətindən danışmaq, onu sevdirmək Heydər Əliyevin daxilindən, təbiətindən, Milli Lider olaraq şəxsiyyətindən irəli gəlirdi. Tək yazıçılarla yox, gənclərlə, yaxud təhsil işçiləri ilə görüşəndə də, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla söhbətlərində də mütləq dil məsələsini ön plana çəkib öz müdrik məsləhətlərini verir, onları mənən, ruhən səfərbər edirdi.

Ümummilli Liderin milli dil siyasətindən danışarkən çox mühüm bir məsələni də dönə-dönə (və qürurla!) qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyanın o möhtəşəm dövlət adamlarındandı ki, güclü natiqlik istedadına malik idi. Və o, Azərbaycan dilini yalnız ürəkdən sevməsi, onun dövlət dili hüquqlarını müdafiə edib milli (və beynəlxalq) nüfuzunu yüksəltməsi ilə deyil, həm də bu dildə gözəl danışması, hər kəsə nümunə göstərməsilə ona (Azərbaycan dilinə) tarixi şöhrət qazandırdı, elə bir abidə ucaltdı ki, bundan sonrakı nəsillər ana dilini, dövlət dilini bir də ona görə sevəcəklər ki, o, Heydər Əliyevin dilidir.

Ümummilli Liderdən sonra Azərbaycan dili ilə bağlı qazanılmış hər bir nailiyyətdə (bunlar isə, tamamilə təbii olaraq, kifayət qədərdir) Heydər Əliyevin – Ulu Öndərin həmişə qədirşünaslıqla, ehtiramla etiraf ediləcək böyük rolu olmuşdur.

Azərbaycan Prezidenti, bütün dünyada Azərbaycan dilinin inkişafının qarantı İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı, eləcə də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (9 aprel 2013-cü il) Azərbaycan dövlətinin yürütdüyü dil siyasətinin ardıcıllığının (və mükəmməlliyinin) göstəricisidir.

* * *

Heydər Əliyevin dili, nitq mədəniyyəti, natiqlik məharəti onun milli dil siyasətinin bilavasitə davamıdır. Ana dilinin, Azərbaycan dilinin, dövlət dilinin işlədilməsində Azərbaycan vətəndaşlarından, azərbaycanlılardan nə tələb edirdisə, özü həmin tələblərə ilk növbədə və təbii ki, böyük peşəkarlıqla riayət etməklə heç də hər kəsə nəsib olmayan son dərəcə mükəmməl nümunə göstərirdi.

Mütəxəssislərin dəfələrlə göstərdikləri kimi, Heydər Əliyevin nitqinin – dil təfəkkürünün konseptual obrazı (konsepti!) "Azərbaycan" olmuşdur ki, bu, az qala sonsuz sayda törəmələrə malikdir: Azərbaycan, Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan mədəniyyəti, Azərbaycan musiqisi, Azərbaycan təsviri sənəti, Azərbaycan elmi, Azərbaycan ordusu, Azərbaycan gəncliyi, Azərbaycan təhsili... Məsələn: Mənə göndərilən o müraciətdə də, bir tərəfdən, Azərbaycandakı vəziyyətlə əlaqədar həyəcan təbili vurulurdu, ikinci tərəfdən, Azərbaycan haqqında qayğı, düşüncələr., Azərbaycanın gələcəyi

haqqında narahatlıq və eyni zamanda bu müraciətin həm siyasi, həm də məntiqi nöqteyi-nəzərdən lazımi səviyyədə əsaslandırılması vardı... Yeni Azərbaycan qurulur, müstəqil Azərbaycan qurulur. Yeni Azərbaycanda da Yeni Azərbaycan partiyası olmalıdır... Azərbaycanda demokratiya hər yerdə bərqərar olunubdur. Azərbaycan demokratik ölkədir. Kim çalışırsa ki sübut etsin Azərbaycanda demokratiya yoxdur, o, buna nail ola bilməyəcəkdir... Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan! (Yeni Azərbaycan Partiyasının 10 illiyinə həsr olunmuş yubiley mərasimində nitq, 26 noyabr 2022-ci il). Biz, buraya toplaşmış insanlar bu gün Azərbaycanın neft sənayesinin həyatında, bütün Azərbaycanın həyatında əlamətdar bir hadisənin iştirakçısıyıq... Azərbaycanın neft sənayesinin qədim və zəngin tarixi var. Azərbaycan qədim odlar diyarıdır. 1848-ci ildə dünyada ilk dəfə məhz Azərbaycan torpağında neft fontan vurub... XX əsrin əvvəllərində Azərbaycan neftçiləri qurudan dənizə doğru irəliləyiblər... Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşlər... Bugünkü mərasim – xarici şirkətlərin nümayəndələri ilə Azərbaycan neftçiləri və ictimaiyyətin nümayəndələrinin birlikdə keçirilən bu təntənəli mərasimi bizim gözəl əməkdaşlığımızın parlaq təzahürüdür. Bu bir daha sübut edir ki, Azərbaycanda görülən işlərin hamısı böyük gələcəyə malikdir və Azərbaycana sərmayə gətirən insanlar öz sərmayəsinin xeyrini görəcəklər. Azərbaycanda yaranmış şərait bundan sonra da respublikamıza xarici sərmayənin gəlməsini təmin edəcəkdir... Görülən işlər və əldə olunmuş bəhrələr yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir və Azərbaycan dövlətinin bu müstəqillikdən, azadlıqdan istifadə edərək apardığı doğru, düzgün, düşünülmüş daxili və xarixi siyasətin parlaq nəticəsidir ("İstiqlal" qazma qurğusunun işə salınmasına həsr olunmuş təntənəli mərasimdə nitq, 2 sentyabr 1998-ci il). Sizi Azərbaycan xalqının milli bayramı – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm... Müstəqil Azərbaycan Respublikasında Novruz bayramı ilbəil geniş vüsət alır... Bu bayram, Azərbaycanın hər bir guşəsində hər bir ucqar ərazisində yüksək sevgi və məhəbbətlə keçirilən şənliklər onu göstərir ki, biz ölkəmizdə artıq daxili ictimai-siyasi sabitliyə nail olmuşuq... Mən əminəm ki, əldə edilən bu nailiyyətlər əsasında biz hamımız birlikdə irəliyə gedəcəyik, müstəqil Azərbaycanın bayrağını daha da yüksəklərə qaldıracağıq, Azərbaycanı daha qüdrətli bir dövlətə çevirəcəyik, hər bir Azərbaycan vətəndaşı üçün daha da yaxşı yaşayış təmin olunacaqdır... Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir. Yerindən-yurdundan didərgin düşmüş bacı-qardaşlarımız öz evlərinə, elinə-obasına, doğma torpaqlarına qayıdacaqlar. Azərbaycan öz sərhədləri çərçivəsində bütöv, vahid Azərbaycan kimi yaşayacaq, inkişaf edəcəkdir (Qoşaqala qapıları önündə Novruz şənliyində çıxış, 21 mart 1997-ci il).

Heydər Əliyevin nitqlərində Azərbaycanın tarixi şəxsiyyətlərinin adları dönə-dönə çəkilməklə xalqımızın milli mənəvi, mədəni, ictimai obrazı barədə son dərəcə enerjili bir təsəvvür yaradılır. Məsələn: Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik... Bəxtiyar müəllim rəyasət heyətində dedi ki, vaxtilə burada (*rəyasət heyətində - N.C.*) Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mehdi Hüseyn və başqaları əyləşirdilər, indi biz əyləşmişik. Bəli. Onların hər biri çox böyük yazıçı, şair, şəxsiyyət olub... Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov – bunlar hamısı XX əsrə qədər yaşayıb-yaradıblar... Bu (*millilik, vətənpərvərlik hissiyyatları – N.C.*) bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun əsərlərindən də, Rəsul Rzanın əsərlərindən də, Süleyman Rüstəmin əsərlərindən də, Məmməd Rahimin əsərlərindən də, Osman Sarıvəllinin əsərlərindən də, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əbülhəsənin, Əli Vəliyevin, Mir Cəlalın, İlyas Əfəndiyevin, Mirvarid Dilbazinin əsərlərindən də keçibdir (Azərbaycan yazıçılarının X qurultayında nitq, 30 oktyabr 1997-ci il).

Heydər Əliyev öz nitqlərində, çıxışlarında təkrara xüsusi yer verir, ancaq burada söhbət adi, sıradan bir təkrardan deyil, mənalı, məzmunlu, ifadəli (bu və ya digər mətləbi vurğulayan, diqqəti məhz onun üzərinə yönəltməklə emosional effekt, məntiqi-psixoloji sinerji yaradan) təkrardan gedir. Və Ulu Öndərin dilindəki həmin təkrarların çox müxtəlif, rəngarəng növləri, tipləri müşahidə olunur. Məsələn: Gəncə Azərbaycanın, Azərbaycan xalqının qədim tarixini əks etdirən gözəl bir məkandır. Uzun əsrlərdir ki, Gəncə Azərbaycan mədəniyyətinin, şeirinin, ədəbiyyatının inkişafında böyük rol oynamışdır. Gəncə Azərbaycanın elm, tərəqqi mərkəzlərindən biri olmuşdur. Gəncədə Azərbaycanın milli mənliyi, Azərbaycan xalqının azadlığı və müstəqilliyi yolunda böyük qəhrəmanlıq göstərən insanlar yaşamış, yaratmışlar və Azərbaycan xalqını ucaltmışlar... Gərək ki, biz indi Yeni Gəncənin ərazisindəyik. Xatirimdədir, mən 1970-ci illərdə buraya gələndə Yeni Gəncə yox idi. Biz burada Yeni Gəncənin əsasını, təməl daşını qoyduq. Çünki Gəncə çox böyümüşdü, keçmiş əraziyə yerləşmirdi. Mən çox sevinirəm ki, indi, təxminən 25 il, bəlkə də, ondan bir az çox vaxt keçəndən sonra buranı tanımaq olmur. Yeni Gəncə ilə keçmiş Gəncə bir-birinə qovuşubdur... Bizim gələcəyimiz gənclərdir. Biz bu gün müstəqil Azərbaycanın bütün sahələrində mümkün olan nailiyyətləri əldə etmək üçün çalışmalıyıq. Ancaq bu işləri görərkən mütləq Azərbaycanın gələcəyi haqqında düşünməliyik və düşünürük. Azərbaycanın gələcəyi isə gənclərə məxsusdur. Gənclər Azərbaycanın gələcəyini inkişaf etdirməli və özlərindən sonra gələn nəsillərə verməlidir... Bizim gənclərin, birinci növbədə öz sağlamlıqlarını möhkəmləndirməsi, sağlam gənc nəsil yetişdirilməsi, Azərbaycan gənclərinin sağlam gələcəyinin hazırlanması üçün imkanlar yaranır. İndi vəzifə bu imkanlardan səmərəli istifadə etməkdir. Bu isə yerli hakimiyyət orqanlarının, sizin, bu kompleksi idarə edənlərin üzərinə düşür. Birinci növbədə, yenə də gənclərin özlərinin üzərinə düşür. Gənclər nə qədər həvəs göstərsələr, bu

kompleksin imkanlarından istifadə etməyə çalışsalar, o qədər udmuş olacaqlar... Mən sizi burada çox saxlamaq istəmirəm. Mənim ürəyimdə çox sözlər var. Sizə daha geniş məlumatlar verə bilərəm. Ancaq hesab edirəm ki, mənim məlumatlarım bu gün üçün yetərlidir. Mən bugünkü görüşdən bir daha məmnun olduğumu bildirmək istəyirəm... Mənim qəlbim həmişə Gəncə ilədir, gəncəlilərlədir (Gəncə olimpiya idman kompleksinin açılış mərasimində nitq, 12 sentyabr 2002-ci il).

Heydər Əliyevin yüksək intellekti adi sözləri belə, kontekstual olaraq "terminolojiləşdirmək", bu sözlərə kulturoloji, ictimai-siyasi status (ideya!) vermək və özünün intellektual-informativ məqsədləri üçün istifadə etmək qüdrətinə malikdir. Məsələn, bu mətndə "Azərbaycan təhsili" anlayışı belə bir status qazanmışdır: "Son illər müstəqil Azərbaycan dövlətində təhsil sahəsində həqiqətən xeyli işlər görülübdür. Eyni zamanda biz hamımız yaxşı bilirik ki, Azərbaycanda təhsil – orta, ali təhsil on illərlə sürətlə inkişaf edibdir.

Ali təhsilin əsasını qoyan, 1919-cu ildə yaranmış Bakı Dövlət Universiteti ondan sonra Azərbaycanda çoxlu ali məktəb yaranmasına yol açmışdır. Məmnuniyyət hissi ilə deyə bilərik ki, bizim ölkəmizdə ötən dövrlərdə vətəndaşlarımızın, yəni uşaqlarımızın, gənclərimizin bütün sahələrdə təhsil, ali təhsil alması üçün imkanlar yaranmışdır (Azərbaycanın təhsil işçiləri və bu il ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitq, 31 avqust 1999-cu il). Buraya "azadlıq" ("müstəqillik"), "uğur" ("nailiyyət"), "inkişaf" ("tərəqqi"), "keçmiş", "gələcək", "mübarizə aparmaq", "qələbə", "ədalət", "vicdan", "ruh vermək" kimi yüzlərlə bu cür faktlar daxildir.

Heydər Əliyevin nitqləri, bir qayda olaraq, sintaktik bütövlər, yaxud periodlar üzərində qurulur. Və onların hüdudları təkrar sözlər, ifadələr və ya cümlələrlə müəyyənləşir. Məsələn: 1) Belə zərbələr vurulan sahələrdən biri də Azərbaycan silahlı qüvvələridir. Azərbaycan ordusudur. Ermənistan tərəfindən edilən təcavüz nəticəsində respublikamızın torpaqlarının 20 faizinin işğal olunmasının və Azərbaycanın böyük itkilər verməsinin əsas səbəbi də mən dediyim bu amillərlə bağlıdır. O cümlədən, Azərbaycanda ölkəmizin torpaqlarını qorumağa qadir ola bilən ordunun yaradılmasında buraxılan səhvlər, edilmiş cinayətlər, günahlar. Biz bu zərbələrin ağrı-acısını çəkirik... 2) Biz Ermənistan ilə hərbi münaqişəyə son qoymaq istəyirik. Biz atəşkəs rejimini bundan sonra da qoruyub saxlamaq üçün öz tərəfimizdən bütün tədbirləri həyata keçirəcəyik. Biz müharibənin yenidən başlamasına tərəfdar deyilik və öz tərəfimizdən buna yol verməyəcəyik. Biz Ermənistanla olan bu münaqişənin sülh yolu ilə həll edilməsini indiki mərhələdə yeganə yol hesab edirik... O vaxtlar kosmosa uçuşlar başlayanda mən çox istədim və çalışdım ki, kosmosa bir azərbaycanlı uçsun. Bu məsələni mən Sovet İttifaqının rəhbərləri qarşısında, xüsusilə SSRİ-nin o vaxtkı müdafiə naziri qarşısında qoydum ki, artıq kosmosa uçanların sayı artıb və Sovetlər İttifaqı 15 müttəfiq respublikadan ibarət bir dövlətdir, ona görə də hər bir respublikadan, o cümlədən Azərbaycandan da kosmosa uçan və kosmonavt adını qazanan bir gənc lazımdır... (Azərbaycan

Respublikası Hərbi Təyyarəçilər Məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasimdə çıxış, 15 oktaybr 1997-ci il).

Heydər Əliyevin nitqlərində onun böyük şəxsiyyəti ən müxtəlif üsullarla ifadə olunur ki, buraya "mən" şəxs əvəzliyindən başlayaraq bir sıra leksik, morfoloji və sintaktik vasitələr daxildir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, həmin ifadə texnologiyaları Ulu Öndərin müstəqil Azərbaycanı quraraq ona rəhbərlik etdiyi dövrdəki nitqlərində daha zəngindir. Məsələn: Əvvəl olaraq onu demək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının qurultayında mən də müxalifət mətbuatı haqqında öz fikirlərimi demişəm və bunu heç vaxt gizlətmirəm ki, müxalifət mətbuatında bəzi hallarda ifratçılığa yol verilir... Mən bunu demşəm və bu gün də öz sözlərimdən keçmirəm... Mən özüm "ANS"  telekanalında o hadisəni seyr etdim. Düzü, özüm bundan çox narahat oldum ki, nə üçün belə olubdur, gərək belə olmayaydı... Siz bilin, mən həqiqəti deyirəm. Keçmişdə, sovet hakimiyyəti vaxtında Azərbaycana rəhbərlik edərkən bizdə bir mətbuat, kommunist mətbuatı var idi. Amma mən həmişə bu mətbuatı bizim nöqsanları araşdırmağa, aşkara çıxarmağa yönəldirdim...  Mənim xatirimdədir, 1970-ci ildə idi. Bizim "Kommunist" qəzeti bir neçə rayonda bəzi şeyləri aşkara çıxardı, böyük məqalələr verdi. Biz onları Mərkəzi Komitədə müzakirə etdik... Yenə də deyirəm, heç kəsi məcbur etmirəm ki, mən düşündüyüm kimi düşünsün, dediyim bu sözləri mən anladığım kimi anlasın. Hərə bu barədə müstəqildir. Hərə öz fikrinin sahibidir. Ancaq bu gün Azərbaycanın reallığı bunlardan ibarətdir... Mən Azərbaycanın bütün mətbuatını bir daha əməkdaşlığa dəvət edirəm. Sizi əməkdaşlığa dəvət edirəm. Hamını ədalətə dəvət edirəm (Azərbaycanda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə nitq, 18 dekabr 2001-ci il).

Ulu Öndərin nitqini təhlil edən mütəxəssislər qeyd edirlər ki, bu nitq dahi şəxsiyyətin uğrunda mübarizə apardığı ideyaların həyata keçirilməsində həmişə həlledici rol oynamışdır.

* * *

Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik illərində istər Azərbaycanda, istər türk dünyasında, istərsə də bütün dünyadakı çıxışlarında Azərbaycan dilinin türk dilləri sistemində özünəməxsus (müstəqil) bir dil olduğunu əsaslandırmışdır.

Təəssüf ki, heç bir elmi prinsipə dayanmadan buna qarşı çıxanlar da zaman-zaman az olmamışdır.

Türkcənin türkcələrə bölünməsi (diferensiasiyası) tarixini düzgün metodoloji əsaslarla öyrənməyin üç yolu var: onlardan birincisi ilk orta əsrlərdən başlayaraq mövcud zəngin türkdilli yazılı abidələrin xronoloji qaydada, yəni prospektiv olaraq müqayisəli araşdırılmasıdır; ikinci yol müasir canlı türk dillərindən retrospektiv olaraq addım-addım daha əvvəlki, hər dəfə daha çox ortaqlıq nümayiş etdirən

dövrlərə gedilməsidir; üçüncüsü isə Mahmud Kaşğari "Divan"ından bu günə qədər tərtib edilmiş dilçilik əsərlərinin sözügedən bölünmə prosesinə münasibətinin ardıcıllıqla izlənilməsidir.

Əlbəttə, yalnız bundan sonra hər üç istiqamətdə alınmış nəticələr qarşılaşdırıla, türk dili, yaxud dilləri tarixinin, bəlkə də, ən fundamental məsələsi heç bir ciddi mübahisəyə yer qalmadan həll oluna bilər.

Hər üç yola bu və ya digər dərəcədə baş vurulsa da, etiraf etmək lazımdır ki, əldə edilmiş nəticələr son dərəcə pərakəndə, fraqmental olmaqla yanaşı, çox hallarda ümumi bir elmi təsəvvür yaratmayacaq qədər ziddiyyətlidir.

Əlbəttə, birinci halda yazılı, ikinci halda isə əsasən şifahi dil materialının müvafiq olaraq prospektiv və retrospektiv tədqiqi tamamilə fərqli metodoloji üsullar tələb edir. Üçüncü hal isə ilk növbədə onu nəzərdə tutur ki, türkcənin türkcələrə çevrilmə proseslərinə elmi dilçilik əsərlərinin münasibəti analitik təfərrüatı ilə təsvir edilsin.

Türkcənin türkcələrə bölünməsini yazılı abidələr vasitəsilə öyrənərkən qarşımıza çıxan ilk mənbələr, heç şübhəsiz, qədim türk (run) mətnləridir ki, onların kifayət qədər müfəssəl təsvir olunmuş dili qədim türkcənin fonetik, leksik və qrammatik mənzərəsi, eləcə də üslub xüsusiyyətləri barədə aydın təsəvvür yaradır. Doğrudur, bu dilin zamanca pratürkcəyə yaxın olub onun əsas əlamətlərini nümayiş etdirdiyini inkar eləmək çətindir, ancaq bilavasitə pratürkcə olduğunu demək mümkün deyil. Hər şeydən əvvəl ona görə ki, yazılı abidələrin dili nə qədər qədim dövrlərə aid olsa da ümumən dilin yox, məhz ədəbi dilin keyfiyyətlərini daşıdığından normalaşma prosesinin bu və ya digər dərəcədə yekunu kimi çox-çox sonrakı dövrləri səciyyələndirir.

Qədim türk (run) yazılı abidələrindən sonra uyğur (soqd) və ərəb əlifbası ilə yazılmış abidələr gəlir ki, hər üç dil hadisələri təxminən beş yüzillik bir dövrü (VII-XII əsrlər) əhatə etməklə, bir tərəfədən, ümumən türkcəni, digər tərəfdən, onun a) oğuz, b) karluq və c) qıpçaq təmayüllərinin təşəkkülünü əks etdirir. XIII əsrdən XVIII əsrə qədər türkdilli yazılı abidələrin həm yaranma coğrafiyası genişlənir, həm müxtəlif regionlara yayılmış türk ədəbi dillərində həmin regionlara məxsus "dialekt" xüsusiyyətləri meydana çıxır, həm də diferensiasiya meylləri güclənir ki, biri digəri ilə sıx əlaqədə olan bu proseslər, əslində, orta əsrlərin sonu, yeni dövrün əvvəllərindən etibarən türkdilli yazılı abidələrə formalaşmaqda olan müxtəlif türk xalqları mədəniyyətlərinin özünəməxsus hadisələri kimi baxmağı tələb edir. Məsələn, Nəvainin özbək dilində, Füzulinin Azərbaycan, Baqinin Türkiyə türkcələrində yazması, bütün ortaq cəhətlərilə birlikdə, filoloji baxımdan elə bir mübahisə doğurmur. Və nəticə etibarilə, get-gedə dərinləşən fərqlər XIX əsrin sonlarına doğru türkdilli mətbuatın, kitab nəşrinin, teatr sənətinin, XX əsrdə əvvəl radio, sonra isə televiziyanın fəaliyyəti ilə daha da kütləviləşir. Heç zaman arası kəsilməyən dialekt-şivə bölünmələri istər yazılı, istərsə də şifahi ədəbi dil normalarının stabilləşməsi (və cəmiyyətdə mədəni amil olaraq nüfuz qazanması) ilə elə maneələrlə qarşılaşır ki, dil

yaranandan start almış həmin təbii bölünmə stixiyası tədricən sosial kontingentin çox az hissəsinin nitq enerjisilə kifayətlənməli olur.

Əlbəttə, ədəbi dilin tarixini əks etdirən yazılı abidələr mövcud xronoloji gediş ilə yalnız türkcənin dialekt diferensiasiyasında normativləşdirici impulslar olaraq qalmır, eyni zamanda hər bir dövrün beynəlxalq dillərinin ədəbiləşdirici – intellektual təsirlərinə də xüsusi həssaslığı ilə seçilir. Və ona görə də türkcənin türkcələrə bölünməsində dialekt diferensiasiyası ilə yanaşı, beynəlxalq dillərin təsirindəki ümumiliklə fərqliliyin nisbəti heç cür əhəmiyyətsiz ola bilməz.

Türkcənin türkcələrə bölünməsi tarixinin öyrənilməsində müasir canlı türk dillərindən keçmişə doğru hərəkət, yəqin ki, yazılı abidələrin xronoloji tədqiqi qədər inandırıcı görünmür. Ancaq bu, daxili əsasları olan məsələyə zahiri münasibətin ifadəsindən başqa bir şey deyil. Və əslində, türkcənin türkcələrə bölünməsinin nə qədər sxematik də olsa, daha məntiqi üsulu “bu gün”dən “keçmiş”in dərinliklərinə doğru gedən retrospektiv yolun ayrı-ayrı mərhələlərini aşkarlamaqdan ibarətdir.

Deyək ki, biz XVII, XV, yaxud XIII əsrlərdə türkcənin türkcələrə bölünməsinin ümumi mənzərəsini yazılı abidələrin köməyi ilə az-çox aydın təsəvvür etmək imkanlarına malik deyilik. Bunula yanaşı, heç bir şübhə yoxdur ki, müasir türk dilləri yazılı (ədəbi) tarixlərinin nə zamandan başlamasından asılı olmayaraq ən geci XIX əsrin sonu, XX əsrin əvvəllərindən mövcuddur. Əgər çuvaş, yakut (Saxa), Altay, xakas, balkar, qumuk və s. dillərin yazılı abidələrinə XVIII əsrə qədər, demək olar ki, heç yerdə təsadüf etmiriksə, bu, o demək deyil ki, onlar həmin əsrdən sonra təşəkkül tapmışdır. Əks halda “yazısı olmayan dillərin tarixi də yoxdur” kimi qeyri-elmi müddəaya haqq qazandırmalı olardıq.

Protürkcənin sxematik mənzərəsini məhz müasir türkcələrin müqayisəsilə rekonstruksiya etmək mümkündür. Hər şeydən əvvəl ona görə ki, burada “müasirlik” anlayışı tamamilə şərti olub bu və ya digər türkcənin stabil xarakterindən çıxış edir. Yəni hər hansı bir türkcə əsrindən asılı olmayaraq artıq formalaşmışdırsa, onun tarixi məhz müasirliyinin tarixini təşkil edir. Çünki biz türkcələrin müqayisəsində ayrı-ayrı fonem, leksem, yaxud qrammemlərə deyil, həmin türkcələrin məhz sisteminə əsaslanmağa məhkumuq.

Əlbəttə, yazılı abidələrin xronoloji araşdırılması müxtəlif türk dil coğrafiyalarında qərarlaşan norma fərqlərini ortaya çıxarır, türkcələrin retrospektiv tədqiqi isə ədəbi norma üçün şərt olmuş təbii nitq texnikası təzahürlərinin istinad etdiyi dil mexanizmlərini (sxemlərini) bərpa edir.

Metodoloji əsaslılıq baxımından bu cür fundamental əkslikləri necə uyğunlaşdırmaq, yaxud bir araya gətirmək olar? Məsələ burasındadır ki, yazılı abidələrin verdiyi (prospektiv) dil materialına münasibətdə biz “nitq”i, türkcələrdən türkcəyə retrospektiv hərəkətdə isə “dil”i araşdırırıq. Lakin yenə də məhz həmin metodoloji əsaslılıq naminə belə bir suala cavab vermək tələb olunur: türkcəni bir dil hadisəsi kimi qəbul edib, müxtəlif türkcələri onun nitq təzahürləri olaraq izah

etmək mümkündürmü? Zahirən az məntiqli görünməyən bu suala “dil”lə “nitq”i ən mükəmməl bir səviyyədə fərqləndirmiş Ferdinand de Sössür təliminə müvafiq olaraq mənfi cavab verməli olacağıq. Ona görə ki ayrı-ayrı türkcələrdən fərqli olaraq türkcənin “sərbəst işarələr sistemi” ümumi ictimai sazişi qəbul etmir. Yəni türkmənlərin bir, tatarların başqa bir, uyğurların isə hər ikisindən fərqli verbal ünsiyyət texnologiyaları təşəkkül tapmışdır ki, həmin texnologiyaları daha əvvəlki dövrlərə, xüsusilə “ortaq dövrə” – şərti olaraq “qədim türk” dili adlandırdığımız dövrə yalnız kəmiyyət əməliyyatları ilə aparıb çıxarmaq mümkün olmazdı.

Türkcənin türkcələrə bölünməsi prosesi, çox böyük dilçilik mədəniyyəti faktıdır ki, onu türk dilçiləri də vaxtlı-vaxtında izləmişlər. Həmin prosesin “gündoğan”ını təsvir etmək qisməti dahi Mahmud Kaşğarinin taleyinə yazılmışdı. Əlbəttə, Mahmud Kaşğarini müqayisəli-tarixi dilçiliyin banisi saymaq qədər əzəmətli bir metaforanın altına girmək çətindir. Lakin heç bir şübhə yoxdur ki, o, türkcənin türkcələrə bölünməsini ilk dəfə (və elə bir tarixi müfəssəlliklə) təqdim etmişdir ki, heyran olmamaq mümkün deyil. Və bu heyranlıq, tamamilə təbii olaraq, ona gətirib çıxarmışdır ki, “Divani-lüğat –it türk” müəllifinin türkcənin türkcələrə bölünməsinin “perspektivlər”ini guya öncədən görməsi barədə olduqca maraqlı bir mülahizə (Əbdüləzəl Dəmirçizadə) də meydana çıxmışdır.

Əlbəttə, biz dahi dilçinin hamıya məlum olan bölgü təşəbbüsünün detallarını burada bir daha yada salmaq istəmirik, lakin qeyd etmək lazımdır ki, bu detallar türkcənin a) oğuz, b) qıpçaq və c) karluq fərqlənmələrini ilkin vəziyyətində təqdim edən ilk peşəkar müşahidələrdir.

Orta əsrlərin istər sonrakı mərhələlərində, istərsə də yeni dövrdə bir sıra türk dilçiləri türkcənin bölünməsi barədəki mülahizələrini “Divan” müəllifi qədər təfsilatlı olmasa da hər halda söyləmişlər. Bununla belə etiraf etmək lazımdır ki, Mirzə Kazımbəyin yeri o baxımdan müstəsnadır ki, o, türk dillərinin XIX əsrdəki mənzərəsini mövcud diferensial keyfiyyətində təsbit etməyin klassik nümunəsini vermişdir. Və həmin klassik təqdimatı XIX əsrin sonu, XX əsrin əvvəllərinə məxsus “ləhcə”-“dil” tərəddüdləri kontekstində təkmilləşdirən ən böyük dilçi isə professor Bəkir Çobanzadə olmuşdur ki, həmin tərəddüdlər məhz dövrün ideoloji tendensiyalarının diqtə etdiyi “diferensiasiya” – “inteqrasiya” maraqlarından irəli gəlirdi.

Müasir dövrdə isə həmin maraq bir sıra hallarda özünü hiss etdirsə də, əminliklə, demək olar ki, dilçilikdə artıq çoxdandır ki “türk ləhcələri” yox, “türk dilləri” anlayışı hakimdir. Söhbət müstəqil türk dillərinin ədəbi təzahürləri ilə yanaşı, müxtəlif ləhcələrindən gedə bilər.

# III FƏSİL

## AZƏRBAYCAN DİLİ TƏLİMİNİN MİQYASI... VƏ DÜNYA AZƏRBAYCANLILARI

Ümummilli Lider ana dilinin – Azərbaycan dilinin tədrisinə, gənc nəslin bu dilə mükəmməl yiyələnməsinə xüsusi diqqət vermiş, respublika rəhbərliyinə gəldiyi ilk günlərdən çalışmışdır ki, Azərbaycan dilinin ictimai-siyasi nüfuzu yüksəlsin.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi Heydər Əliyev 1969-cu il noyabr ayının 2-də Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqini Azərbycan dilində bu sözlərlə başlamışdır:

“Azərbaycan Dövlət Universitetinin 50 yaşı tamam oldu. Yarım əsrdir ki, universitet bilik məşəlini uca tutur, vətənə, xalqa fədakarlıqla xidmət edir. Azərbaycanın bu birinci ali məktəbi doğma xalqın mənəvi dirçəlişində, onun iqtisadiyyatının və mədəniyyətinin tərəqqisində elə böyük, elə nəcib rol oynamışdır ki, universitetin 50 illiyi əsl ümumxalq təntənəsinə çevrilmişdir. Respublika öz ali məktəb flaqmanının yubileyini milli mədəniyyətin və elmin böyük bayramı kimi qeyd edir.

Azərbaycan Dövlət Universiteti öz qızıl yubileyinə yaradıcılıq qüvvələrinin bulaq kimi qaynadığı bir vaxtda gəlmişdir”.

Respublika rəhbəri sözünə davam edərək demişdir:

“Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Məşhur filosof Ə.Bəhmənyarın və mütəfəkkir şair Nizaminin, riyaziyyatçı – astronom Nəsrəddin Tusinin və dahi lirik şair Füzulinin, orta əsrlərin böyük alimi F.Rəşidəddinin və üsyankar şair Nəsiminin, tarixçi Bakıxanovun və realist yazıçı Mirzə Fətəli Axundovun, görkəmli satiriklərdən Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və bir çox başqalarının adları bu mədəniyyətin çoxəsrlik tarixinin bəzəyidir.

Biz Azərbaycan xalqının bu və ya bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrinin, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar”.

Məhz Azərbaycan dilində səslənən bu sözlər yalnız Universitetin şanlı tarixindən xəbər vermirdi, həm də Azərbaycan dilinin nüfuzunu yüksəldir, ona böyük hörmət gətirirdi.

Heydər Əliyev 1994-cü ilin 25 noyabrında Bakı Dövlət Universitetinin 75 illik yubileyi münasibətilə təbrik məktubu ünvanlamışdır ki, həmin məktubda deyilir:

“Əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə və maarifinə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar mədəni hadisədir”.

Bir gün sonra – noyabrın 26-da Respublika sarayında keçirilən təntənəli mərasimdə ölkə başçısı geniş nitq söyləmiş, universitetin Azərbaycan mədəniyyəti tarixində yerini bir daha yüksək qiymətləndirmişdir.

“Bakı Dövlət universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır” deyən Heydər Əliyev qeyd etmişdir ki, “universitetin 75 illik tarixi Azərbaycan Respublikasının elminin, mədəniyyətinin, təhsilinin inkişaf tarixidir. Bu 75 il müddətində xalqımızın savadlanmasında, eyni zamanda təhsilin yaranmasında, inkişafında böyük işlər görülmüşdür... Əgər bu 75 il ərzində həmin işlər görülməsəydi, indi müstəqil Azərbaycan Respublikası özünün böyük elmi, mədəni, intellektual potensialı ilə fəxr edə bilməzdi... Biz Bakı Dövlət Universiteti haqqında danışanda Azərbaycanın həm elmini, həm təhsilini, həm mədəniyyətini, həm də bütün xalqımızın savadlanmasını düşünürük”.

Universitet həm də sözün geniş mənasında “Ana dili məktəbi” olmuşdur:

“Bakı Dövlət Universitetinin bütün digər xidmətləri ilə yanaşı, Azərbaycan xalqının ana dilinin inkişafındakı xidmətlərini xüsusi qeyd etməliyik. Universitet yaranarkən müəllimlərin əksəriyyəti azərbaycanlı olmamışdır. Ancaq sonrakı mərhələlərdə universitet Azərbaycan xalqının ana dilinin inkişaf etməsi üçün, təbliğ olunması üçün böyük işlər görmüşdür... Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Bu baxımdan Bakı Dövlət Universitetinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır”.

Və Universitet eyni zamanda “Milli mənlik məktəbi” olaraq inkişaf etmişdir:

“Bakı Dövlət Universitetinin auditoriyalarında, dərs otaqlarında, kafedralarında Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi üçün də çox işlər görülmüşdür. Mən bu gün bunu xüsusi qeyd edirəm. Çünki öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəliyə getməsinə xidmət göstərir”.

Universitet alimlərinin ana dili sahəsində (və uğurla!) çalışmalarının Füzulinin, XX əsrin əvvəllərindəki dil dühalarının – Sabirin, Mirzə Cəlilin, Üzeyir Hacıbəylinin və başqalarının xidmətləri ilə müqayisəsi, əlbəttə, ali təhsil müəssisəsinə verilən

yüksək qiymətdir ki, bunu ancaq Heydər Əliyev kimi dahi millət (və dövlət) xadimi deyə bilərdi:

“Biz bu il dahi şairimiz Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Fəxr edirik ki, 500 il bundan öncə Füzuli öz ana dilində – Azərbaycan dilində, türk dilində əsərlərini yazmışdır. Eyni zamanda onu da unutmayaq ki, elə bu əsrin əvvəllərində də, ortasında da ana dilimizdə yazanlarımız çox olmuşdur. Ancaq ana dilini, Azərbaycan dilini yüksəklərə qaldırmaq istəyənlər, zənginləşdirməyə çalışanlar fədakar adamlar olublar. Onların əksəriyyəti Azərbaycan Dövlət Universitetində olublar”.

Ulu Öndər nitqini bu son dərəcə məhrəm, dərin hissiyyatlı sözlərlə bitirmişdir:

“Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam. Eyni zamanda xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin 50 illik yubileyinin də, 60 illik yubileyinin də iştirakçısı olmuşam. İndi universitetin 75 illik yubileyinin iştirakçısıyam”.

Gənc nəslin formalaşmasında, xalqa, vətənə, dövlətə layiqli övlad, vətəndaş olmasında ana dilinin, milli ədəbiyyatın roluna verdiyi yüksək dəyər idi ki, Ümummilli Lider Bakı şəhərinin təhsil işçiləri ilə 31 avqust 1994-cü il tarixli görüşündə demişdi:

“...Məktəblərdə Azərbaycan dilinin tədrisinə mühüm diqqət yetirilməlidir. Bildiyiniz kimi, 10-20 il bundan qabaq biz çalışırdıq ki, Azərbaycan dili bütün məktəblərimizdə tədris olunsun və gənc nəsil məktəblərdə ilk təhsil addımlarını atarkən öz dilini – ədəbi dilini, milli dilini yaxşı bilsin. Bu barədə çox işlər görülüb. Mən bu gün fürsətdən istifadə edib demək istəyirəm ki, Azərbaycan dilçiləri, dilçilik sahəsində fəaliyyət göstərən alimləri çox böyük işlər görüblər. Azərbaycan dilinin bu gün bu qədər zəngin, səlis və cazibədar olması bizim mədəniyyət, elm xadimlərimizin, ədəbiyyatşünaslarımızın, şairlərimizin, yazıçılarımızın və xüsusən dilçiliklə məşğul olan alimlərimizin, mütəxəssislərimizin xidmətinin nəticəsidir. Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan Azərbaycan dilimiz var”.

Əlbəttə, Azərbaycan dilinin zənginliyi bir məsələdirsə, onun gənc nəslə tədrisi, mənimsədilməsi də ayrı bir məsələdir:

“Azərbaycan dili söz ehtiyatına görə, fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini – ədəbi dilini, mədəni dilini yaşxı mənimsəsin, öz dilimizdə yaxşı danışa bilsin, öz dilimizdə fikrini ifadə edə bilsin.

Mən nə üçün bu məsələnin üzərində dururam? Çünki əldə etdiyimiz nailiyyətlərlə yanaşı, təəssüf ki, bu sahədə qüsurlarımız, nöqsanlarımız da çoxdur. Hələ çox adamlar var ki, öz ana dilində mədəni, ədəbi dilin ifadələrindən istifadə edərək yaxşı danışmaq imkanına malik deyillər”.

Dil məsələsinə son dərəcə həssas olan Ümummilli Lider sözünə davam edərək demişdir:

“Əgər keçmişdə bu, müəyyən qədər bağışlanırdısa – çünki onda nədənsə bəzi adamlar ancaq bir dili bilməyi özləri üçün böyük nailiyyət hesab edirdilər – ancaq indi

bu, yolverilməz haldır. Şübhəsiz, hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı öz ana dilindən savayı, bir cox dillər bilməlidir. İndi bu, xüsusən lazımdır. Hələ keçmişdə bizim respublikamız Sovet İttifaqının tərkibində idisə, onun çərçivəsində yaşayırdısa, dünyadan müəyyən qədər və ya həddindən çox təcrid idiksə, onda bütün Sovetlər İttifaqında əsas hakim dil rus dili idi və respublikamızda Azərbaycan və rus dilləri işlənirdisə, indi biz bütün dünya ilə əlaqədəyik, müstəqil dövlətik. Bütün sahələrdə, o cümlədən təhsil sahəsində həm Qərb ölkələri ilə, həm Şərq ölkələri ilə, bütün dünya ölkələri ilə əlaqə saxlayırıq. Ona görə orta məktəblərimizdə başqa dillərin öyrənilməsinə də çox ciddi fikir verilməlidir”.

Azərbaycanın müstəqil dövlət kimi inkişafı, dünya birliyində layiqli yer tutması, heç şübhəsiz, onu tamamilə fərqli dil-ünsiyyət münasibətləri sisteminin üzvi tərkib hissəsinə çevirmişdir:

“Keçmişdə mən bəzən ayrı-ayrı ölkələrin orta təhsilli gəncləri ilə rastlaşarkən müşahidə edəndə ki, o, 3-4 dil bilir, heyran olurdum. Eyni zamanda fikirləşirdim ki, nə üçün bizim orta məktəblərimiz bu cür təhsil vermir? Ancaq bunun müəyyən səbəbləri də var idi. O vaxtlar başqa bir sistem idi, biz Ümumittifaq tərkibində idik. İndi isə müstəqilik. Ona görə də bütün dillərin tədris olunması çox gərəklidir. Xüsusən dünyada çox, geniş işlənən dillərin orta məktəblərimizdə öyrənilməsi vacibdir. Lazımdır ki, gənclərimiz orta məktəbi bitirərkən 2-3 xarici dili bilsinlər. ancaq bununla yanaşı, öz ana dilini bilmək hər bir azərbaycanlı üçün lazımdır. Bir də deyirəm, biz öz dilimizlə fəxr edə bilərik. Çünki dilimiz zəngin dildir, ədəbiyyatımız zəngindir, mədəniyyətimiz zəngindir və bunların hamısı da ana dilimizlə, Azərbaycan dili ilə bağlıdır. Lazımdır ki, orta məktəblərdə bu məsələlərə çox ciddi fikir verilsin”.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda (2 fevral 1996-cı il, Respublika Sarayı) söylədiyi geniş nitqində Azərbaycan Prezidenti yeni nəslin mənəvi tərbiyəsində dil məsələsinin əhəmiyyətindən də bəhs etmişdir:

“Məni bu gün bu forumda sevindirən cəhətlərdən biri də o oldu ki, çıxış edən bütün gənclər çox sərbəst, səlis Azərbaycan dilində danışırdılar. Bilirsiniz, bir neçə il bundan öncə bunu görmək mümkün deyildi. Keçmiş illərin müəyyən xüsusiyyətlərinə görə Azərbaycan dili Azərbaycanda lazımi qədər inkişaf etməmişdi. Doğrudur, biz buna çox çalışmışıq, 60-cı, 70-ci, 80-ci illərdə bu barədə çox səylər göstərilmişdir. Ancaq Azərbaycan dili hakim dil ola bilməmişdi... Mənim xatirimdədir, keçmiş komsomol qurultaylarında gənclərin çoxu Azərbaycan dilində danışmırdı. Azərbaycan dilində danışmaq istəyən də səlis, cazibədar danışmırdı”.

Sovetlər Birliyi müttəfiq respublikaların hər birində rus dilinin geniş işlənməsini müxtəlif vasitələrlə təlqin edir və təbii ki, yerli dilləri sıxışdırırdı:

“Biz Sovetlər İttifaqının tərkibində idik. Sovetlər İttifaqının ümumi dili – rus dili hakim dil idi və o vaxt gənclərin valideynlərinin çoxu öz övladlarını rusdilli məktəblərə qoyurdu. Bu da təbii idi, çünki geniş təhsil almaq üçün, Azərbaycandan kənara çıxmaq üçün o dildə təhsil almaq lazım idi və bunu da qınamaq olmaz.

Ancaq bunlar hamısı bizim Azərbaycan dilinin tam inkişaf etməsinə müəyyən qədər maneçilik edirdi. Biz də, açıq demək lazımdır, biz müstəqil dövlət deyildik, ümumi bir dövlətin tərkibində idik, ümumi bir dövlətin dili ilə çoxları danışırdı. Ona görə də bəzi adamlarda, təəssüf ki, öz dilinə düzgün münasibət çatmışrdı".

Ümummilli Lider öz nitqində bir daha tövsiyə etmişdir ki, gənclər mümkün qədər çoxlu xarici dillər öyrənsinlər, ancaq Azərbaycan dilini mənsub olduqları millətin (və dövlətin!) dili kimi daha yaxşı, daha mükəmməl mənimsəsinlər:

"Bilirsiniz, hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini – rus dilini də, ingilis dilini də, fransız dilini də, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu, lazımdır. Çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dili bilməsini tələb edir. Mən gənclərimizə bu tövsiyəni verirəm. Amma bunlarla yanaşı, bunlardan əvvəl öz ana dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi daim duymaq lazımdır, bu dili sevmək lazımdır".

Azərbaycan dilini bilmək təkcə ona görə deyil ki, bu dillə ətrafdakılarla ünsiyyət saxlayırsan, həm də (və daha çox!) ona görədir ki, bu dillə mənsub olduğun xalqın zəngin ədəbiyyatının sirlərinə, mənəviyyatının əsaslarına bələd olursan:

"Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Xatirimdədir, 70-ci illərdə bir neçə dəfə çox narahatlıqla göstərişlər verdim ki, rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatına çox yer verilsin. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməzsə, o tariximizi bilməyəcək; onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır".

Prezident ümidvar olduğunu bildirmişdir ki, Azərbaycan gəncliyi Vətənin gələcəyinə layiq bir şəkildə yetişəcəkdir:

"Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun.

Ümidvaram ki – bu gün məndə bu ümidlər daha da çoxaldı – bizim gənclərimiz bundan sonra tariximizi daha da yaxından öyrənəcək, doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır".

Təbii ki, Azərbaycan çoxmillətli ölkə olduğundan burada bütün dillərin işlədilməsinə, inkişafına hər cür şərait yaradılmışdır:

"Dil barəsində danışarkən, mədəniyyət, milli ənənələr haqqında danışarkən eyni zamanda mən onu qeyd etmək istəyirəm ki, Azərbaycanda bütün vətəndaşlar eyni hüquqa malikdir və bütün dillərdən sərbəst istifadə olunur, olunmalıdır və gələcəkdə də istifadə olunacaqdır".

Prezident sonda demişdir:

“Mən böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycanda millətlər arasında olan əlaqələr mehriban dostluq əlaqələridir, bir-birinə hörmət, ehtiram əlaqələridir və biz bu əlaqələri inkişaf etdirəcəyik, bu əlaqələri yaşadacağıq, qoruyub saxlayacağıq. Ona görə də Azərbaycanın xüsusiyyətlərini, çoxmillətli ölkə kimi xüsusiyyətlərini, çoxdilli ölkə kimi xüsusiyyətlərini qoruyub saxlamaq bizim borcumuzdur, gənclərimizin vəzifəsidir”.

Azərbaycan Prezidenti 1997-ci ilin avqust ayının 29-da Prezident sarayında ali məktəblərə yeni qəbul olmuş tələbələrlə görüşdə geniş nitq söyləyərək demişdir:

“Şübhəsiz ki, siz xarici ölkələrdə dil öyrənməlisiniz. Mən keçmişdə də demişəm, bu gün də deyirəm, – şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var.

...Mən bir daha arzu edirəm ki, vətəndaşlarımız ingilis dilini də, rus dilini də, fransız dilini də, alman dilini də, türk dilini də, ərəb dilini də, fars dilini də, hətta Çin dilini də bilsinlər... Bu, müasir dünyanın tələbidir. Amma ən əsas ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini – dövlət dilini mükəmməl bilməlidir”.

Prezident gənclərə məsləhət bilmişdir ki, ana dilini nəinki unutmasınlar, onu xaricdəkilərə də öyrətsinlər:

“Xarici ölkələrdə təhsil alarkən, həmin ölkənin dilini öyrənərkən öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz.

Hətta öz dilimizdə danışmağı başqalarına da öyrədin. Ümumiyyətlə, mən fikir verirəm, – respublikamıza başqa ölkələrdən gəlib işləyənlər, dövlət nümayəndələri, səfirliklərdə çalışanlar Azərbaycan dilini öyrənməyə çalışırlar. Bu çox sevindirici haldır. Bunun özü də yenilikdir”.

Azərbaycan dilinin xarici ölkələrdə təbliği, öyrədilməsi barədə deyilənlər, heç şübhəsiz, azərbaycançılıq ideologiyası mövqeyindən strateji əhəmiyyətə malikdir:

“Mənim xatirimdədir, keçmiş zamanda ədəbiyyat tarixini öyrənərkən fəxr edirdik ki, vaxtilə Lermontov bir müddət Azərbaycanda olmuş, Quba zonasında yaşamışdır. O öz dostuna yazmışdı ki, mən burada Azərbaycan dilini öyrənirəm. Avropada fransız dili kimi Qafqazda da Azərbaycan dili çox məşhur və mötəbər bir dildir... İndinin özündə də bizim dili öyrənməyə çalışırlar. Bəziləri artıq bizim dildə danışırlar... Mən əminəm ki, başqa ökələrdə də bizim dilimiz nə qədər geniş yayılsa, öyrənilsə, Azərbaycan ədəbiyyatını, mədəniyyətini ana dilimizdə oxuyanlar, öyrənənlər respublikamızın necə zəngin mənəviyyata, ədəbiyyata, mədəniyyətə malik olduğunu dərk edəcəklər”.

Azərbaycan Prezidenti 1997-ci ilin sentyabr ayının 1-də yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 saylı məktəbdə keçirilən mitinqdə çıxış

edərkən demişdir ki, "biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa bir müddətdə başa çata bilməyəcəkdir... Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir.

...İndi dərs alan uşaqlar, gənclər gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar".

Prezident latın əlifbasına keçidin sürətləndirilməsini tövsiyə etmişdir:

"Biz yeni əlifbaya – latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç bir çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun".

Əlbəttə, Azərbaycanda kiril əlifbası ilə nəşr edilmiş zəngin ədəbiyyatın mövcudluğu da latın əlifbasına keçidə mane olmamalı idi:

"Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır. Nəşriyyata da bu gün müraciət edirəm ki, kitabların hamısı latın əlifbası ilə çap olunsun. 1939-cu ildən indiyə qədər yazılan kitabların hamısı kiril əlifbası ilə buraxılıb. Bu illərdə bizim ədəbiyyatımızda, mədəniyyətimizdə, tariximizdə, elmimizdə çox böyük nailiyyətlər, ixtiralar əldə olunubdur. Bunların hamısı öz əksini kitablarda tapıbdır. Bizim kitabxanalar belə kitablarla doludur. Şübhəsiz ki, bunlardan bu gün də, on illər sonralar da istifadə etməli olacaqlar. Əgər biz tezliklə bütün sahələrdə latın əlifbasına keçməsək, gecikmiş olacağıq".

1998-ci ilin avqust ayının 31-də Respublika sarayında 1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısı keçirilərkən Azərbaycan Prezidenti dil məsələsinə toxunaraq demişdir:

"Azərbaycanda təhsil alanların əksəriyyəti Azərbaycan dilində təhsil alırdı... Ancaq o vaxtlar bizə Sovetlər İttifaqı məkanında xalqımızı bu dövlətin hər yerinə daha da yaymaq və xalqımızın səviyyəsini artırmaq üçün rus dilində təhsil alan kadrlar da lazım idi.

...Beləliklə, biz doğma ana dilimizdəki təhsillə o vaxt çərçivəsində yaşadığımız Sovet İttifaqının hakim dili olan rus dilini birləşdirirdik".

Sovetlər Birliyi dövründə Moskva, Leninqrad, Kiyev kimi mərkəzi şəhərlərdə rus dilində təhsil almaq, əlbəttə, azərbaycanlılara çox lazım idi. Və bunun çoxlu səbəbləri vardı:

"Respublikamızda bir çox sahələr üzrə Azərbaycan dilində ədəbiyyat, lazımi təhsil vasitələri yox idi. Bir çox elmi jurnalları, kitabları o vaxt yalnız rus dilində oxuyub öyrənmək mümkün idi. Ona görə də Moskva, Leninqrad və başqa şəhərlərin institutlarında, universitetlərində hazırlanan kadrlar respublikamızda elmi ədəbiyyatın çatışmazlığı sahəsində olan boşluğu da müəyyən qədər doldururdular".

Bu möhtəşəm təhsil proqramı (daha doğru olar deyək, siyasəti!) respublika rəhbərinin bilavasitə nəzarəti altında həyata keçirilirdi:

"Mən bu işi başladım, genişləndirdim. Özüm də təsəvvür etmədən gördüm ki, Azərbaycan üçün yeni bir ali məktəb yaratmışam. Bu nədən ibarətdir? 1969-cu ildə biz respublikadan kənara oxumağa heç 50 nəfər də göndərmədik. 1970-ci ildə 60 nəfər göndərdik. Ondan sonra bunu ilbəil artırdıq. Nəhayət, biz 1975-ci ildə, gərək ki, 600 nəfər, 1977, 1978-ci illərdə hər il 800-900 nəfər gənci respublikadan kənar ali məktəblərə göndərdik.

...Sonralar bunu Moskvada hiss etmişdilər. Onlar görmüşdülər ki, beləliklə, biz Azərbaycanın ərazisində olmayan, ancaq respublikamız üçün kadr hazırlayan yeni bir ali məktəb yaratmışıq".

Prezident vaxtilə Sovetlər Birliyinin rusdilli ali məktəblərində təhsil almış azərbaycanlılara bir vaxtlar hansı tövsiyələri verdiyini xatırlatmış, indi nə etməli olduqlarını söyləmişdir:

"Xatirimdədir, o illər burada, bu salonda sizləri yola salarkən mən bir çox tövsiyələr verirdim. Verdiyim tövsiyələrdən biri o idi ki, rus dilini mükəmməl öyrənin. Bu sözləri sizə hər dəfə demişəm. Bu gün isə deyirəm ki, rus dilini mükəmməl öyrənmisiniz, Azərbaycan dilini unutmayın, mükəmməl öyrənin. O vaxt rus dilini öyrənməyinizə ehtiyac var idi, çünki siz həmin ali məktəblərdə yaxşı təhsil almalı idiniz. Təhsil aldınız, öyrəndiniz – bu sizin qazancınızdır. İnsan nə qədər çox dil bilsə, bir o qədər də zəngin olar. Amma Azərbaycan dilini nəinki unutmayın, müasir Azərbaycan dilini öyrənin. Bütün diasporlarda Azərbaycan dili hökm sürməlidir. Çünki dilini unudan adam, şübhəsiz ki, milli keyfiyyətlərini də xırda-xırda unudur. Buna yol vermək olmaz".

1999-cu ilin avqust ayının 31-də Prezident sarayında Azərbaycan təhsil işçiləri ilə görüşdə Azərbaycan Prezidenti demişdir ki, orta məktəblərdə müxtəlif elm sahələri üzrə müəyyən ixtisaslaşma getsə də, elə ümumi fənlər vardır ki, onları – ana dili, ədəbiyyat və tarixi hamı öyrənməlidir. Və əlavə etmişdir:

"Ana dili" deyəndə, şübhəsiz ki, hər bir uşaq doğulandan sonra ailəsində atasından, anasından öz dilini öyrənir. Bir var ki, sadəcə öz dilini ailədə bilmək, bir də var ki, Azərbaycan dilini yüksək səviyyədə bilmək. Keçmişdə biz buna fikir verməmişik. Bu, həqiqətdir. Yəni o qədər fikir verməmişik".

Prezident təhsil sahəsində ana dilinin qorunub saxlanmasının səbəblərini göstərməklə yanaşı, çox mühüm bir məsələyə də toxunmuşdur ki, təhsil, məktəb yeniyetməyə məhz ədəbi dili, onun zəngin ifadə imkanlarını öyrətməlidir:

"Onu da unutmaq lazım deyil ki, keçmiş zamanlarda Sovet İttifaqının tərkibində olarkən Azərbaycanda orta təhsil və ali təhsil sistemində Azərbaycan sektoru həmişə çoxluğu təşkil etdiyinə görə biz dilimizi yaşatmışıq və inkişaf etdirmişik. İndi isə, şübhəsiz, bizdə təhsilin tam əksəriyyəti Azərbaycan dilində gedir. Ancaq bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilinin incəliklərini bilirsən, Azərbaycan

dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən. Bu hələ bizdə çox çatışmayan bir sahədir".

Heç şübhəsiz, xalqın ədəbi dili, ilk növbədə, onun ədəbiyyatının dilidir:

"Ədəbiyyatımızı bilmək lazımdır. Ədəbiyyatını bilməyən adam dilini yaxşı bilməyəcəkdir. Ədəbiyyatı bilməyən adam yüksək mədəni səviyyəyə çata bilməyəcəkdir. Bu dərslərə fikir vermək lazımdır. Xüsusən o məktəblərdə ki, Azərbaycanda dərslər rus bölməsində keçir".

Dövlət başçısı Azərbaycan məktəblərinin sovet dövründəki acı həqiqətini də yada salmışdır:

"Keçmiş zamanlarda mən bunu müşahidə etmişdim və heç vaxt unuda bilmirəm. Məsələn, Azərbaycanın başqa yerlərində yox, Bakıda rus məktəbləri çox idi. Azərbaycan məktəbləri çoxluq təşkil edirdi, amma rus məktəbləri də çox idi. Ziyalılar, dövlət işində işləyən adamlar, tam əksəriyyəti uşaqlarını rus məktəblərinə qoyurdular. Burada da müəyyən obyektiv səbəb var idi, heç kəsi buna görə qınamaq olmaz... Ancaq müşahidə olunurdu ki, rus məktəblərində, yəni dərslər rus dilində keçilən məktəblərdə Azərbaycan tarixini yaxşı tədris etmirdilər.

... Yaxud da ki orada, rus məktəblərində Azərbaycan ədəbiyyatını, Azərbaycan dilini tədris edirdilər, amma bu, o qədər də hörmətli bir fənn hesab olunmurdu, yəni onu bilsək də olar, bilməsək də... Mən o vaxtlar rastlaşırdım ki, rus məktəblərində oxuyan gənclər şairlərimizi – Nizamini, Füzulini, başqalarını, müasir şairlərimizi tanımırlar".

Yeni tarixi şəraitin – Azərbaycanın müstəqilliyinin yeni şərtlər diqtə etdiyini xatırladan Prezident söyləmişdir ki, "indi biz Azərbaycanda məhdudiyyət qoymuruq. Rusdilli məktəblər var və qarışıq – rus-azərbaycandilli məktəblər vardır. Gürcülər yaşayan yerdə gürcüdilli məktəblər vardır. Başqa dillərdə olan bütün bu məktəblərdə, yaxud ola bilər başqa dillərdə də məktəblər yaransın – bunların hamısında Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti tədris olunmalıdır. Bu, mütləq lazımdır".

Azərbaycan Prezidenti 2000-ci ilin sentyabr ayının 1-də yeni dərs ilinin başlanması münasibətilə Bakı şəhəri 82 saylı pilot orta məktəbində keçirilən təntənəli toplantıdakı nitqində demişdir:

"Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarix deyil, bizim zəngin ədəbiyyatımız var. Azərbaycan ədəbiyyatı qədim dövrlərdən indiyədək öz zənginliyi ilə bütün dünya xalqları içərisində öncül yerlərdə olubdur. Deməli, bu həm bizim tariximiz, həm mənəviyyatımız, həm də milli mənliyimizdir".

Ulu Öndər bunun ardınca özünün tarixi sözlərindən birinidə söyləmişdir:

“Azərbaycan dili! Bu gün iftixar hissi ilə deyə bilərik ki, Sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik... Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik”.

Azərbaycan Prezidenti 2001-ci ilin sentyabr ayının 1-də yeni dərs ilinin başlanması münasibətilə Bakı şəhəri 6 saylı məktəb-litseydə keçirilən mərasimdə iştirak etmişdir. Hər iki övladının – həm oğlu İlham Əliyevin, həm də qızı Sevil Əliyevanın burada təhsil aldıqlarını bildirərək məktəbə təşəkkür edən Prezident demişdir:

“O vaxt bu məktəb rus dilində təhsil verirdi. İndi deyirlər ki, burada həm Azərbaycan sektoru, həm də rus sektoru var. Bu da tamamilə təbiidir. Ancaq o vaxt bizim Bakıda rus dilində olan məktəblər Azərbaycan dilində olan məktəblərdən çox idi. Bunda da heç kəsi günahlandırmaq olmaz... Ancaq o vaxt bu məktəblərdə böyük bir qüsur var idi. Bu da ondan ibarət idi ki, birincisi, rus dilində təhsil verərək azərbaycanlı uşaqlara, balalara Azərbaycan dilini yaxşı öyrədə bilmirdilər. İkincisi, o vaxtın nöqsalarını yada salmaq lazımdır ki, bu gün, sabah bu nöqsanlara yol verilməsin”.

Prezident səmimi olduğu qədər də ibrətamiz – rusdilli məktəblərdə Azərbaycan dili tədrisinə vaxtilə göstərilmiş laqeyidliyi bilavasitə sübut edən bir xatirə danışmışdır:

“O vaxt bu məktəbdə Azərbaycan dili başqa bir dil kimi tədris olunurdu. Çünki bütün dərslər rus dilində idi. Bu gün mən Emma xanımı (*İlham Əliyevin müəllimi – N.C.*) burada gördüm... O mənim xatirimə bir şey saldı, mənim yadımdan çıxıbdır. Oğlumun buraxılışı vaxtı bu məktəbdə olarkən Emma xanıma demişəm ki, burada hər şey yaxşıdır, ancaq mənim oğluma Azərbaycan dilini yaxşı öyrədə bilməmisiniz.... Çünki rus dili hakim dil olduğuna görə Azərbaycan dilinə o qədər fikir vermirdilər. Müəllim çalışırdı, amma şagird fikir vermirdi”.

Sonra Prezident müəllimə – Emma xanıma müraciət edərək “Emma xanım, bilirsən, oğlum indi Azərbaycan dilini necə yaxşı bilir! Sən yəqin onun çıxışlarını televiziyadan eşidirsən. O, Azərbaycan dilində rus dilindən yaxşı danışır. Bunda da sizin zəhmətiniz var”.

Azərbaycan dilini bilməyən azərbaycanlı gənc isə, təbiidir ki, Azərbaycan ədəbiyyatı, xüsusilə onun klassiklərinin yaradıcılığı ilə bu və ya digər dərəcədə dərindən tanış ola bilməzdi:

“Azərbaycan tarixi” çox cüzi əks olunurdu. Moskvadan gələn dərsliklər hamısı rus ədəbiyyatı idi. Bəs Azərbaycan ədəbiyyatı? Bəzən həmin bu rus məktəblərində təhsil almış, Azərbaycan dilinə meyl göstərməmiş gənclərdən Nizaminin, Füzulinin,

Nəsiminin, Vaqifin, yaxud da bizim müasirimiz olan şair və yazıçıların əsərlərini soruşanda görürdün ki, onlardan xəbərləri yoxdur... Ona görə də rus dilində təhsil alan adamların, təəssüf ki, Azərbaycanın tarixi, onun zəngin mədəniyyəti, zəngin ədəbi irsi haqqında məlumatları çox az idi".

Tədrisdə, təhsildə özünü göstərən bu qüsur, nəticə etibarilə, Azərbaycan Respublikasını idarə edən şəxslərə qədər yayılır, onların dünyagörüşünə, mənəviyyatına təsir göstərirdi:

"Xatırlayıram, 1970-ci illərin axırlarında mən işlədiyim yerdə - partiyanın Mərkəzi Komitəsində mənim yanımda işləyən yüksək vəzifəli şəxsə göstəriş verdim ki, get Azərbaycan Milli Teatrına, orada bir əsər var, təzə tamaşaya qoyublar, ona bax, gəl mənə o barədə danış. Çünki həmin əsər bir az mübahisəli idi. Gördüm, baxır mənə, dedim, sən əvvəllər Azərbaycan Dram Teatrında olmusan? Dedi ki, yox, olmamışam. Təsəvvür edin ki, rus dilində təhsil alıb, Rus Dram Teatrına gedib, amma bizim böyük tarixə malik olan Azərbaycan Dövlət Dram Teatrında bu, bir dəfə də olmayıbdır. Təbiidir ki, o, Azərbaycan dramaturqlarının, yazıçılarının, şairlərinin əsərlərini bilməyəcək. Çünki nə oxuyub, nə də tamaşa edib".

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra, əlbəttə, ölkədə rusdilli təhsil ənənəsi aradan qaldırılmır, ancaq rus bölməsində oxuyanlar da Azərbaycan dilini – dövlət dilini mükəmməl öyrənməli, Azərbaycan ədəbiyyatı klassiklərinin yaradıcılığına bələd olmalıdırlar:

"İndi, biz müstəqil dövlətik. Bizim dövlət dilimiz, ana dilimiz Azərbaycan dilidir. Tədris hər yerdə Azərbaycan dilində getməlidir. Ancaq o yerlərdə ki, rus əhalisi üçün, yaxud bəzi rusdilli insanlar üçün tədris rus dilində gedir, orada mütləq Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı tədris edilməlidir. Ona görə də bizim nazirliyə bir neçə il bundan öncə göstərişlər verilibdir ki, bizim tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə aid olan fənlər üzrə rus dilində də kitablar, dərsliklər buraxılsın ki, həmin o rus sektorunda təhsil alan gənclər onları rus dilində oxusunlar. Amma yenə də deyirəm, yaxşı olar ki, onlar Səməd Vurğunun şeirini Azərbaycan dilində oxusunlar. Çünki onun rus dilində tərcüməsi o dadı, o hissiyyatı vermir. Bax bu, əsas məsələlərdən biridir".

Dövlət başçısı kiril əlifbasından latına keçiddə məktəblərin xüsusi xidmətini qeyd etmişdir:

"Latın qrafikasının tətbiq olunması da əsas məsələlərdən biridir. İndi mən burada XI sinfin şagirdləri ilə tanış olarkən məktəb direktoru mənə bildirdi ki, bunlar artıq II sinifdən latın qrafikası ilə oxuyurlar. Deməli, bunlar artıq bizim cəmiyyətdə hər şeyə hazırdırlar. Amma mən bu yaxınlarda fərman verəndə ki, avqust ayının 1-dən bütün nəşriyyat, qəzetlər, kitablar latın qrafikasına keçməlidir, etiraz etdilər ki, bu mümkün deyil. Nə üçün mümkün deyil? Mümkün oldu. İndi hər şey mümkündür. Bu da məktəbin əsas vəzifələrindən biridir".

Azərbaycan Prezidenti həmin gün Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksinin istifadəyə verilməsi mərasimində də iştirak etmiş, həm şagirdlər, həm müəllimlər, həm də valideynlərə müraciətən demişdir:

“Bizim məktəblərimiz millidir. Bilirsiniz ki, mən son vaxtlar Azərbaycan dövlət dili, ana dili, Azərbaycan dili haqqında bir çox fərmanlar vermişəm. Azərbaycanın latın əlifbasına, latın qrafikasına keçməsi haqqında fərman vermişəm. Bu, artıq avqust ayının 1-dən tətbiq olunubdur. Çox məmnunam ki, mən buna nail oldum. Çünki bəziləri etiraz edirdilər ki, qısa müddətdə buna nail olmaq olmaz. Amma oldu. Bütün dövlət orqanlarında, hakimiyyət orqanlarında, təkcə dövlət, hakimiyyət orqanlarında yox, təhsildə, səhiyyədə, biznes sahəsində, hər yerdə Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili hakim olmalıdır”.

Prezident Azərbaycan dilində təhsil verən özəl məktəbin açılmasını ona görə təqdir etmişdir ki, burada xarici dillər, xüsusilə beynəlxalq dillər də geniş tədris olunacaqdır:

“Mən çox sevindim ki, bu gün mənə verilən məlumatlar bizim dövlətin siyasətinin həyata keçirilməsi istiqamətində məktəbin qurulmasını nümayiş etdirir. Burada bütün təhsil Azərbaycan dilində, dövlət dilində keçiriləcəkdir. Ancaq mənə məlumat verdilər ki, burada eyni zamanda uşaqların hansı dilə həvəsli olmasından asılı olaraq başqa dillər – ingilis dili də, rus dili də, fransız dili də, ərəb dili də, başqa dillər də tədris olunacaqdır. Bəli, təhsildə uşaqların, gənclərin gələcəyini təmin etmək üçün bizim siyasətimiz bundan ibarətdir”.

Bir daha qeyd olunmuşdur ki, məktəb xarici dilləri öyrədərkən bunu dövlət dilinin – Azərbaycan dilinin hesabına etməməlidir:

“Bir halda ki, biz müstəqil dövlət kimi Dünya Birliyində bərabərhüquqlu yer tutmuşuq, müasir dünya tələb edir ki, hər bir azərbaycanlı öz Azərbaycan dilini, dövlət dilini yaxşı bilərək, onu işlək dil hesab edərək, eyni zamanda başqa dili də, ingilis dilin də, rus dilini də, fransız dilini də, digər dilləri də bilsin. Əgər insan müstəqil Azərbaycanda öz ana dilini, Azərbaycan dilini bilmirsə, başqa dillərdə təhsil alırsa, əlbəttə, o, Azərbaycan üçün yararlı ola bilməz. Başqa dilləri öyrənmək, mənimsəmək lazımdır. Ancaq o şərtlə ki, təhsil Azərbaycan dilində keçirilsin. Azərbaycan dilində təhsillə yanaşı, başqa dillərin də çox mükəmməl öyrənilməsi təmin olunsun”.

* * *

Azərbaycan xalqı – azərbaycanlılar dünyanın müxtəlif ölkələrində –Azərbaycan Respublikasında, İranda, Rusiyada, Türkiyədə, Gürcüstanda, ABŞ-da, İngiltərədə, Almaniyada, Fransada, Skandinaviyada, Baltikyanı ölkələrdə və digər yerlərdə yaşasalar da, onları bir-birinə bağlayan olduqca möhkəm mənəvi-ideoloji vasitələr vardır: bu, ana dilidir, ata yurdu – Vətəndir, tarixən formalaşmış etnik-mədəni sistemdir... Və Milli Liderdir!.. Müşahidələr göstərir ki, Heydər Əliyevin siyasi

fəaliyyətində müstəqil Azərbaycan dövlətinin daxili möhkəmliyini, xarici (beynəlxalq) nüfuzunu qorumaq nə qədər möhtəşəm yer tutursa, Azərbaycan xalqının, dünya azərbaycanlılarının milli birliyi, dünya xalqları içərisində özünəlayiq mövqe qazanması uğrunda mübarizə də o qədər mühüm əhəmiyyət daşıyır.

Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyi, milli birliyi uğrunda mübarizəyə respublikaya – Naxçıvana qayıtdığı ilk aylardan başladı. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar verdi. Həmin qərarın qəbul edilməsi Ali Məclisin sədri Heydər Əliyevin bilavasitə təşəbbüsü idi. Və 1991-ci ilin 31 dekabrı Naxçıvanda müxtəlif ölkələrdən, xüsusilə İrandan, Türkiyədən gəlmiş azərbaycanlıların iştirakı ilə bayram edildi. Naxçıvan MR Ali Məclisinin qərarı Azərbaycan Respublikası Ali Soveti tərəfindən rəsmən müdafiə edilsə də, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan Respublikası miqyasında 1993-cü ildə (yenə də Heydər Əliyevin təşəbbüsü ilə) qeyd edildi.

...Azərbaycan Prezidenti bununla kifayətlənməyərək, xarici ölkələrə səfərlərində azərbaycanlılarla görüşməyə xüsusi diqqət yetirməklə, onların nəzərinə çatdırdı ki, formalaşmaqada olan Azərbaycan dövlətinin bütün azərbaycanlılara ehtiyacı var... Və bunun nəticəsi idi ki, Azərbaycan Prezidenti rəsmi səfər etdiyi ölkələrdə (hətta qonşu ölkələrdə də) yaşayan azərbaycanlılar həmişə böyük məmnunluq hissi ilə onun görüşünə gəlmiş, səfərdən sonra isə həmin azərbaycanlıların həm bir-biri, həm də Azərbaycan Respublikası ilə əlaqələri genişlənmişdir.

...Dünyada nə qədər azərbaycanlı olduğunu dəqiq demək çətindir. Təxmini hesablamalara görə, müxtəlif ölkələrdə 50 milyondan artıq azərbaycanlı yaşayır ki, bunların 10 milyona qədəri azərbaycanlıların tarixi vətənindən kənarda, onlarla ölkədə məskunlaşmışdır. Həmin ölkələr içərisində əsas yeri Rusiya, Ukrayna, ABŞ, Almaniya, Fransa, Hindistan, Pakistan, İsveç, Norveç, Kanada... tutur.

1996-cı ilin mart ayının 9-da Tbilisidə Gürcüstanda yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşdə Azərbaycan Prezidenti demişdir:

“Mən hesab edirəm ki, hər bir xalqa, millətə mənsub olan insan harada, hansı ölkədə yaşayırsa-yaşasın, öz ana dilini, dinini, milli ənənələrini heç vaxt unutmamalıdır”.

Və əlavə etmişdir ki, “Azərbaycan məktəblərində tədris Azərbaycan dilində keçməlidir. Bunun üçün bizim tərəfimizdən nə görmək lazımdırsa biz bunu edəcəyik. Azərbaycanda gürcülər də yaşayırlar. Onlar da məktəblərdə dərsləri gürcü dilində keçməlidir. Biz buna da qayğı göstəririk, göstərəcəyik və Gürcüstanda da onlara qayğı göstərən, kömək etmək istəyən adamlar üçün yol açıqdır. Əminəm ki, biz ümumi səylərimizlə bu məsələləri həll edə biləcəyik”.

Ümummilli Lider Gürcüstandakı Azərbaycan məktəblərində gürcü dilinin keçirilməsi təklifini bəyənmiş, bu barədə demişdir:

“Gürcüstanda gürcü dili olduğu kimi Azərbaycanda da Azərbaycan dili dövlət dilimizdir... Gürcüstanda yaşayan azərbaycanlı da qoy həm Azərbaycan dilini bilsin, həm rus dilini bilsin, həm ingilis dilini bilsin, başqa dilləri bilsin. Ancaq gürcü dilini mükəmməl bilsin. Çünki gürcü dili Gürcüstanın dövlət dilidir. Burada yaşayan azərbaycanlı gürcü dilini bilməlidir”.

Bununla belə o, aydın söyləmişdir ki, Gürcüstanda yaşayan azərbaycanlılar xüsusən orta təhsili azərbaycanca almalıdırlar:

“Mən verilən təklifi müdafiə edirəm ki, Azərbaycan məktəbində gürcü dili də tədris olunsun. Amma eyni zamanda mən çox arzu edərdim ki, Gürcüstanda yaşayan bütün azərbaycanlılar Azərbaycan dilində təhsil alsın, onu unutmasın, Azərbaycan dilini inkişaf etdirsin. Bu mənim arzumdur və güman edirəm ki, belə də olacaqdır”.

Mövcud şəraitə, tələblərə uyğun olaraq bir neçə dilin öyrənilməsi zərurətini qeyd edən Prezident, nəticə etibarilə, bu baxımdan ana dilinin müstəsna yer tutduğunu yenə də nəzərə çatdırmışdır:

“Burada Gürcüstanda yaşayan azərbaycanlılar çıxış etdilər. Mən çox sevindim. Onlar sərbəst olaraq həm gürcü dilində, həm rus dilində, həm də Azərbaycan dilində çox gözəl danışdılar. Deyə bilərəm ki, respublikamızda yaşayan bəzi azərbaycanlılar sizin kimi, burada çıxış edənlər kimi heç Azərbaycan dilində danışa bilmirlər. Bu onu göstərir ki, Azərbaycan dili Gürcüstanda yaşayır, inkişaf edir. Ümidvaram ki, bundan sonra daha çox inkişaf edəcəkdir”.

Söhbət Tbilisidə çıxan “Gürcüstan” qəzetindən düşmüşdür:

“Burada “Gürcüstan” qəzeti haqqında danışıldı. Doğrudan da, bu qəzet bizim üçün əziz olan qəzetdir. Bu qəzet Gürcüstanla Azərbaycan arasında, xalqlarımız arasında əlaqələrin inkişaf etməsində çox xidmətlər göstərib. Hesab edirəm ki, bu qəzet yaşamalıdır. Bugün bunu mənə xatırlatdılar, mən onu heç vaxt unutmamışam”.

Ulu Öndər əlavə etmişdir ki, çətin vaxtlarda Naxçıvanda olanda iki gürcü müxbir gəlib onunla görüşürlər... “Onlar mənimlə geniş müsahibəni Tbilisidə gürcü dilində dərc etdirmişdilər, mənə göndərdilər. Bundan sonra həmin müsahibəni o vaxt “Sovet Gürcüstanı” deyilən, indi “Gürcüstan” adını daşıyan qəzet Azərbaycan dilində dərc etdi və onu mənə göndərdilər. O vaxt mənim üçün bu, böyük mənəvi dayaq idi.

...Mən böyük vədlər verən adam deyiləm. Ancaq bu gün bəyan edirəm ki, “Gürcüstan” qəzetinin yaşaması, mütəmadi çıxması üçün Azərbaycan dövləti və şəxsən mən lazımi tədbirlər görəcəyik. İnanıram ki, mənim dostum Eduard Şevardnadze də bu təşəbbüsə qoşulacaqdır”.

Gürcüstanın paytaxtı Tbilisi, əlbəttə, azərbaycanlılara heç zaman yad olmamışdır:

“Tbilisi dövri-qədimdən azərbaycanlılar üçün sevimli bir şəhər, bir yer olubdur. Burada bizim böyük-böyük şəxsiyyətlərimiz yaşayıb, yaradıb, böyük-böyük işlər görüblər. Burada Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin adları çəkildi. 1918-ci ildə Azərbaycan demokratik dövlətini yaradanlardan biri – Əlimərdan bəy Topçubaşov da Tbilisidə doğulmuşdur. Bizim böyük yazıçımız, filosofumuz, böyük mütəfəkkir

Cəlil Məmmədquluzadə fəaliyyətinin çoxunu Tbilisidə, Gürcüstanda keçirib. Bütün dünyada, xüsusən müsəlman Şərqində məşhur olan "Molla Nəsrəddin" jurnalı məhz Tbilisidə Cəlil Məmmədquluzadənin təşəbbüsü, rəhbərliyi ilə nəşrə başlayıb və uzun illər burada fəaliyyət göstərib, bütün Qafqaza, Orta Asiyaya, İrana, Türkiyəyə, bütün Şərqə böyük, mütərəqqi təsir bağışlayıb".

Prezident Qori Müəllimlər Seminariyasında təhsil almış məşhur azərbaycanlılardan da bəhs etmişdir:

"Böyük bəstəkarımız Üzeyir Hacıbəyov, Müslüm Maqomayev – Azərbaycan professional musiqisinin baniləri Qori Seminariyasını qurtarıblar. Öz böyük təhsillərini burada alıblar. Onlar Qori Seminariyasında oxuyarkən bəstəkarlığa başlayıblar. Azərbaycan musiqisini Gürcüstan torpağında yaşadıblar. Belə misalları çox saymaq olar. Ona görə də Tbilisi, Gürcüstan bizim üçün əziz bir şəhər və diyardır".

Azərbaycan Prezidenti 1996-cı ilin iyul ayının 1-də Almaniyanın Bonn şəhərində Azərbaycan cəmiyyətlərinin nümayəndələri ilə görüşündə demişdir:

"Siz bir məsələni də bilməlisiniz ki, Azərbaycanda son illər bəzi adamlar deyirlər ki, biz türkük, dilimiz də türk dilidir. Biz bu kökdənik, amma bu bir kökdən neçə budaq gedib. Anadoluda yaşayanlar da, Özbəkistanda da, Qazaxstanda da, Türkmənistanda da, Dağıstanda da, Qırğızıstanda da yaşayanlar türklərdir. Çində yaşayan uyğurlar da türklərdir. Amma onlar bir kökün hərəsi bir şaxəsidir. O şaxəni itirmək lazım deyil. Necə deyərlər, onların hamısını bir rəngdə rəngləmək lazım deyil. Yenə də deyirəm, kök birdir. Respublikamızda demişik, biz azərbaycanlıyıq".

Azərbaycan Prezidenti bəyan etmişdir ki, "biz yeni konstitusiya qəbul etdik. Orada yazıldı ki, biz azərbaycanlıyıq, dövlət dilimiz Azərbaycan dilidir. Azərbaycan dili türk dilləri qrupuna məxsus olan bir dildir. Türk dilləri qrupunun bir qolu Anadolu türklərinin, bir qolu azərbaycanlıların dilidr, biri özbəklərin, biri qırğızların, biri qazaxların və başqalarınındır.  Ona görə də bu ümumi kökləri həmişə qorumaq lazımdır... Amma eyni zamanda, bir dili başqasının içərisində əritmək lazım deyil.

...Dünyada bir kökdən olan nə qədər millətlər var. Bu, öz rəngarəngliyini nə qədər göstərsə, o qədər də güclü olacaq. Amma bir dili başqa dilin içərisində əritsən, necə deyərlər, horra çıxacaq. Horradan da bir şey çıxmaz".

Azərbaycan dilinin inkişaf tarixindən xəbəri olmayanlar bir çox hallarda inandırmağa çalışırlar ki, guya sovet dövrü dilimizin hər cəhətdən tənəzzülü dövrüdür. Halbuki qətiyyən elə deyil. Və ona görə də Prezident bu məsələ üzərində xüsusi dayanmalı olmuşdu:

"Mən fəxr edirəm ki, Azərbaycan dili sovet hakimiyyəti dövründə çox inkişaf etdi, daha da zənginləşdi. Adətən, sovet hakimiyyəti dövrünü çox tənqid edirlər. Amma olan həqiqətləri də unutmaq, qaralamaq olmaz. Bizim dilimiz məhz o illərdə inkişaf etdi. Dilimizin qrammatikası, qanunları haqqında o dövrdə nə qədər əsərlər yazıldı. Azərbaycan dili haqqında harda belə əsərlər yazılıb? Bəli, belə əsərlər sovet hakimiyyəti dövründə yazıldı. Yenə də deyirəm, tarixi qaralamaq olmaz".

Azərbaycan Prezidenti 1997-ci ilin iyul-avqust aylarında prezident Bill Klintonun dəvəti ilə ABŞ-a rəsmi səfəri çərçivəsində Amerikadakı Azərbaycan Mədəniyyəti Cəmiyyətinin nümayəndələri ilə görüşür (Çikaqo, 4 avqust 1997-ci il). Və bu görüşdə Prezidentin söylədiyi fikirlər Azərbaycan xalqının dünya meridianlarındakı mövqeyi baxımından son dərəcədə əhəmiyyətlidir ki, burada dil, ədəbiyyat, mənəviyyat amilləri xüsusi əhəmiyyət kəsb edir.

Söhbət ilk növbədə millətdən, milli mənsubiyyətdən (və Vətəndən!) getmişdir:

"Bilirsiniz, harada yaşayırsansa yaşa, Vətəndən, Ana torpaqdan şirin şey yoxdur. Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim. Azərbaycan xalqının, müsəlman aləminin tarixində nə keçmiş rus imperiyası dövründə, nə də Sovet İttifaqının hakimiyyəti zamanı o cür zirvəyə çatan azərbaycanlı, müsəlman olmamışdır... Mən bununla fəxr edirəm. Çünki Azərbaycan xalqını tanıtmışam, Azərbaycan xalqını Kremlin sarayına qaldırmışam... Ola bilərdi ki, bəlkə, başqa yerdə rahat yaşayardım. Amma Bakıya gəldim. Mənim vaxtilə yetişdirdiyim, tərbiyə etdiyim, vəzifəyə gətirdiyim adamlar Bakıda yaşamağa mənə imkan vermədilər. Naxçıvana getdim. Əgər orada da yaşamağa qoymasaydılar, çıxıb bir dağda yaşayacaqdım, amma Azərbaycan torpağında yaşayacaqdım".

Ulu Öndər izah etmişdir ki, Azərbaycan artıq müstəqil dövlətdir. Və milli dövlətçiliyin bütün atributlarını qorumaq, dünyaya nümayiş etdirmək əzmindədir:

"Hər bir azərbaycanlı fəxr etməlidir ki, nəhayət, Azərbaycan xalqının dünya birliyinə daxil olan müstəqil dövləti vardır. Bu hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Təsəvvür edin, Azərbaycan Prezidenti Amerika Birləşmiş Ştatlarına rəsmi səfərə gəlib, müstəqil Azərbaycan dövlətinin bayrağı hər yerdə dalğalanır... Mənim bu rəsmi səfərim müddətində burada Azərbaycanın dövlət himni dəfələrlə səslənibdir.

...Nə vaxt belə olub? Bu, Şah İsmayıl vaxtında da olmayıbdır. Baxmayaraq ki, Şah İsmayıl o vaxt Azərbaycanın padşahı idi".

İstər Azərbaycan dövləti, istərsə də Azərbaycan xalqı – dünyada yaşayan bütün azərbaycanlılar üçün vahid bir ünsiyyət vasitəsinin – Azərbaycan dilinin varlığı, heç şübhəsiz, həlledici şərtdir:

"Bu əsrdə bizim ən böyük nailiyyətimiz nədir? Azərbaycanın öz dili var. Azərbaycan öz dilində yazır, oxuyur, danışır. Azərbaycanın dövlət dili – Ana dili, Azərbaycan dilidir. Azərbaycanın bütün universitetləri, məktəbləri, elmi Azərbaycan dilindədir. Azərbaycanın zəngin mədəniyyəti var. Heç bir Şərq ölkəsinin bizim qədər böyük mədəniyyəti yoxdur. Üzeyir Hacıbəyovun, başqa bəstəkarların yazdığı əsərlərə bərabər əsərlər müsəlman Şərqinin hansı ölkəsində var? Görün nə qədər güclü ədəbiyyatımız, elmimiz vardır".

Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə Respublika sarayında keçirilən təntənəli toplantıdakı (27 dekabr 1997-ci il) nitqində Azərbaycan Prezidenti demişdir:

“Məni sevindirən odur ki, azərbaycançılıq artıq tarixdə həkk olunubdur. Azərbaycan dili – Azərbaycan xalqının ana dili, müstəqil Azərbaycan Respublikasının dövlət dili artıq dünya dilləri içərisində öz yerini tapıbdır. Dünya azərbaycanlılarında millilik, milli vətənpərvərlik hissləri günü-gündən artır, bu da bizim həmrəyliyimizin güclənməsinin rəmzidir. Mən əminəm ki, bütün bu proseslər bundan sonra daha da sürətlə inkişaf edəcəkdir”.

1998-ci ilin iyul ayının 22-də Londonda Azərbaycan Respublikasının səfirliyində Azərbaycan Prezidenti Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşmüş, həmin görüşdə söyləmişdir ki, “bizim üçün tarixi bir amil var – Azərbaycançılıq. Bilirsiniz, ermənilər çalışırlar sübut etsinlər ki, guya, ümumiyyətlə, Azərbaycan milləti yoxdur, köçərilər olublar, filan olubdur. Amma azərbaycanlı kimi bizim millətimizin böyük tarixi var. Böyük, qədim tarixi var! Bizim dilimiz Azərbaycan dilidir”.

Prezident vaxtilə buraxılmış səhvin artıq düzəldildiyini qeyd etmişdir:

“Bilirsiniz, 1992-ci ildə Azərbaycanda böyük səhvə yol vermişdilər ki, bizim dilimiz türk dilidir. Bəli, biz türkdilli millətlərə daxilik, əcdadlarımız birdir. Ancaq türkdilli xalqlar sonra şaxələnib, hərəsi bir millətə çevrilibdir... Məsələn, mən özbək dilinin, ola bilər, on faizini başa düşə bilərəm, ondan artıq başa düşə bilmərəm. Amma bizim dillərimizin kökü birdir, biz bir kökdənik. Millət kimi də, dil baxımından da bir kökdənik”.

Dilin insan üçün, xalq üçün nə demək olduğunun etnokulturoloji mahiyyətinə varan dövlət başçısı söyləmişdir:

“Siz bilirsiniz ki, mənim təhsilim, ümumiyyətlə, rus dilində gedibdir... Mənim üçün rus dili ana dili kimi bir dildir. Amma mən o dildən nə qədər istifadə etmiş olsam da, Azərbaycan dilini unuda bilmərəm. Azərbaycan dili mənim üçün hər şeydən əzizdir.

...Bu, təkcə dil məsələsi deyil. Azərbaycançılıq məsələsidir. Azərbaycançılıq bizim üçün böyük Azərbaycan nöqteyi-nəzərindən çox vacibdir... Biz böyük xalqıq, müstəqil xalqıq, öz adımız, öz dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz, musiqimiz və öz ölkəmiz var”.

Müstəqil bir xalqın, ölkənin, dövlətin başçısının həmin xalqın, ölkənin, dövlətin dilində danışması isə artıq siyasi bir hadisədir:

“Mənim üçün rus dilində danışmaq Azərbaycan dilində danışmaq kimidir, bəlkə, ondan da asandır... Mən hər yerdə ancaq Azərbaycan dilində danışıram.

...Bu, prinsipial məsələdir, kiçik məsələ deyildir. Mən hər dəqiqə Azərbaycanın müstəqilliyini təsdiq edirəm, bunu nümayiş etdirirəm, hər sahədə göstərirəm. Qoy onlar elə bilməsinlər ki, keçmişdəki kimi yenə də Rusiyanın müstəmləkəsiyik, rus dilində danışırıq. Yox! Bizim öz dilimiz var və öz dilimizdə danışırıq, dilmiz də çox gözəl, zəngin dildir”.

Azərbaycan Prezidenti 2000-ci ilin iyun ayının 22-də Moskvada Azərbaycan Respublikası səfirliyində Azərbaycanlıların Ümumrusiya Konqresinin təsis yığıncağında söylədiyi nitqini Azərbaycan dilində bu sözlərlə başlamışdır:

“Mən hiss etdim ki, burada toplaşanların əksəriyyəti daha çox rus dilində danışır, rus dilini başa düşür. Ona görə bu gün məqsədim ondan ibarətdir ki, siz mənim sözlərimin hamısını olduğu kimi anlaya biləsiniz. Azərbaycan dili bizim ana dilimiz, doğma dilimizdir, müstəqil Azərbaycanın dövlət dilidir. Bu dili, yəni anadan gələn dili hər bir azərbaycanlı bilməlidir. Ancaq eyni zamanda mən bilirəm ki, Rusiyada yaşayan azərbaycanlılar, yaxud da Azərbaycanın özündə yaşayan azərbaycanlılar uzun illər olan ənənəyə görə rucsa təhsil alıblar, ailələrində də daha çox rusca danışıblar. Ona görə də öz dillərini bilməkdən bir az qüsurları var”.

President Azərbaycanda həyata keçirilən dövlət dil siyasətindən ətraflı bəhs etmişdir:

“Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycan dili dövlət dili elan olundu. Bundan doqquz il keçir. İndiyə qədər də Azərbaycanda, Bakıda azərbaycanlılar var, hətta dövlət işində çalışan azərbaycanlılar var ki, bizim müxtəlif iclaslarda xahiş edirlər ki, öz fikirlərini daha dəqiq ifadə etmək üçün onlara imkan verilsin rus dilində danışsınlar. Mən isə neçə dəfə onları xəbərdar etmişəm ki, sizə bir az da vaxt verirəm, əgər o müddətdə də öz ana dilimizi, dövlət dilmizi öyrənə bilməsəniz, bundan sonra dövlət işini tərk edəcəksiniz. Ondan sonra hansı dildə danışırsınız danışın.

Amma bu sizə aid deyil. Azərbaycanda yaşayan və dövlət işində çalışan azərbaycanlılara aiddir”.

Azərbaycan dövlətinin başçısı keçmiş “ənənələr”in qısa bir zamanda unudulmayacağını, hələ bir nüddət davam edəcəyini söyləmişdi:

“...Burada məndən öncə çıxış edənlər də, xüsusən professor Məmməd Əliyev dedi ki, harada olursan ol, hansı məmləkətdə, hansı xalqın içində yaşayırsan yaşa, öz kökünü unutmamalısan. Öz dilini nəinki unutmamalısan – bilməlisən, öz adət-ənənələrini nəinki bilməlisən, – bunlara həmişə riayət etməli, bunları qorumalısan, saxlamalısan.

Ancaq mən hesab etmirəm ki, indi biz burada hamının qarşısında belə tələblər qoymalıyıq. Yox... Qısa bir müddətdə bunu dəyişdirmək mümkün deyildir”.

Ulu Öndər həmişə olduğu kimi, yenə də gənclərə öz müdrik, tarixin sınaqlarından çıxmış məsləhətini vermişdir:

“Mən Azərbaycanda dəfələrlə çıxış edib demişəm və bunu sizə də deyirəm: mən istəyirəm ki, azərbaycanlılar – bunu xüsusən gənclərə ünvanlayıram – rus dilini də, ingilis dilini də, fransız dilində də, alman dilində də, ərəb dilində də, ispan dilində də yaxşı, təmiz bilsinlər. Amma Azərbaycan dilini də yaxşı bilsinlər. İnsan nə qədər çox dil bilsə, o qədər də zəngindir. Təkcə bir dillə yaşayan adam indiki müasir dünyada, bütünlüklə bir-biri ilə əlaqədə olan dünyada, təbiidir ki, çətinlik çəkər”.

Bundan sonra Prezident nitqini rus dilində davam etdirmişdir.

O demişdir:

“Mən həmişə milli məhdudluq hisslərinin əleyhinə olmuşam. Bəzən adamlar burada ziddiyyət görürlər, yəni, məsələn, bizdə Azərbaycanda keçmiş vaxtlarda da elə adamlar olmuşlar və bu gün də elə adamlar var ki, deyirlər, yox, filankəs azərbaycanlıdırsa, onun hər şeyi azərbaycansayağı olmalıdır. Bəli, əgər o, anadan azərbaycanlı doğulmuşsa, onun hər şeyi üçün azərbaycançılıq xasdırsa, başlıcası isə onun damarlarından azərbaycanlı qanı axırsa, onu daha heç cür dəyişdirmək olmaz – o, azərbaycanlı kimi düşünür, onun qəlbi azərbaycanlı qəlbidir. Lakin o yalnız öz kəndində yaşasa, oxusa, inkişaf etsə və öz kəndindən uzağı görməsə, öz genetik dahiliyinə baxmayaraq, çətin ki, çox şeyə nail olsun”.

Keçən əsrin 70-ci, 80-ci illərində azərbaycanlı gənclərin Rusiyanın qabaqcıl ali məktəblərində təhsil almaları üçün gördüyü möhtəşəm tədbirlərdən danışan Prezident əlavə etmişdir ki, “o vaxtlar məqsədim bu idi ki, onlar belə yüksək təhsil aldıqdan, o vaxtkı ümumsovet mühitinə – Moskva, Leninqrad və ya Kiyev mühitinə uyğunlaşdıqdan sonra Azərbaycana həm daha savadlı, həm daha yüksək mədəniyyətli, həm də daha geniş dünyagörüşünə malik adamlar kimi qayıtsınlar. Güman edirdim ki, onların bir qismi qayıtmayacaqdır. Nəyə görə? Ona görə ki Moskvada yaşamaq onun xoşuna gələcək, qoy Moskvada yaşasın... Qoy öz həyatını istədiyi kimi qursun...”

Üzeyir Hacıbəyovun şəxsində göstərilən nümunə isə, heç şübhəsiz, Ulu Öndərin fikirlərini heç bir mübahisəyə yer qoymadan təsdiq edir:

“Elə bizim Üzeyir Hacıbəyovu götürün. O öz məzmununa görə sırf milli adamdır, nəinki bir bəstəkar kimi, həm də bir ictimai xadim, bir mütəfəkkir kimi Azərbaycan millətinin fəxridir. O, Rusiya təhsili almışdır – Qori Seminariyasında, sonra Peterburq Konservatoriyasında oxumuşdur və onun Allah vergisi olan genetik göstəriciləri, istedad və bacarığı belə güclü inkişaf tapmışdır, çünki o, rus dilini, rus ədəbiyyatını, bunun vasitəsilə isə Qərb mədəniyyətini öyrənmiş və əsrimizin əvvəllərində elə böyük əsərlər yaratmışdır ki, bu əsərlərlə Azərbaycanın neçə-neçə nəsilləri neçə-neçə gələcək nəsilləri fəxr edəcəkdir”.

2001-ci ilin noyabr ayının 9-da Respublika sarayında Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Həmin qurultayda geniş nitq söyləyən Azərbaycan Prezidenti demişdir:

“Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik”.

Əlbəttə, sovet dövründə Azərbaycan dili dövlət idarələrində layiq olduğu yeri tuta bilməmiş, rus dili tərəfindən daim sıxışdırılmışdı:

“Çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa öz xidmətini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir”.

Azərbaycan dilinin Azərbaycan Respublikasında dövlət dili olaraq öz şərəfli mövqeyini mütləq tutacağını bəyan etməklə yanaşı, dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlılara tövsiyə etmişdir ki, ana dilini unutmamaq şərti ilə yaşadıqları ölkənin dilini mənimsəsinlər:

“Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin”.

Ümummilli həmrəyliyə nail olmaq üçün, heç şübhəsiz, xalqı məhz ana dili ətrafında, onun cazibəsində birləşdirmək, gələcək nəsillərə bu dili öyrətməkdən ötrü müxtəlif modern üsullardan istifadə etmək lazım gəlir:

“Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən başqa ölkələrdə yaşayan azərbaycanlılar. Ona görə də mən arzu edərdim ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar. Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar”.

## İkinci hissə

# ƏDƏBİYYAT

1. Klassiklərin müasirliyi.
2. Azərbaycanın ədəbiyyatı tarixinin Heydər Əliyev dövrü
3. Ədəbiyyatın ümumtürk üfüqləri.

# I FƏSİL

## KLASSİKLƏRİN MÜASİRLİYİ

Heydər Əliyevin millət (və dövlət) quruculuğu təcrübəsində milli ədəbi irsin – klassikanın müasirləşdirilməsi (və müasir milli-mənəvi dəyərə çevrilməsi) elə bir ideya-estetik yer tutur ki, onsuz müasir Azərbaycan cəmiyyətinin ruhi həyatını təsəvvür etmək mümkün deyil.

1997-ci ilin aprel ayının 20-də Azərbaycan Prezidenti "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında fərman imzaladı ki, bu fərman bir neçə il davam edən milli ədəbi-mədəni intibahın əsasını qoymuşdu.

1999-cu ilin fevral ayının 16-da Prezident sarayında "Dədə Qorqud dastanı"nın 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının ilk iclası olmuş, iclasda giriş sözü söyləyən Azərbaycan Prezidenti demişdir:

"Ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra biz azərbaycanlılar öz tariximizi, tarixi keçmişimizi və tariximizdə mövcud olan mühüm hadisələri, mərhələləri yenidən təhlil edirik, tədqiq edirik və onları müstəqillik mövqeyindən daha da obyektiv, doğru-düzgün yazmağa və həm ölkəmizin ictimaiyyətinə, həm də dünyaya çatdırmağa çalışırıq.

Bu baxımdan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi xüsusi əhəmiyyətə malikdir".

Geniş müzakirədən sonra Prezident yekun nitqi söyləmişdir. O qeyd etmişdir ki, "fərman imzalanandan sonra indiyə qədər görülən işlər və bugünkü müzakirə onu göstərir ki, biz böyük bir iş başlamışıq. Bu gün bütün çıxışlarda bir daha qeyd olundu ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir".

Və əlavə etmişdir:

"Kitabi-Dədə Qorqud" dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir".

Azərbaycan Prezidenti (və Azərbaycan xalqının Ümummilli Lideri!) bu sözləri özünəməxsus bir milli (və tarixi!) mövqedən bəyan etməklə, doğrudan da, elmi-ictimai düşüncəyə XX əsrin 30-cu illərindən ideoloji-şovinist məqsədlərlə yeridilmiş paniranist ideyaların qarşısını alırdı:

"Məlumdur ki, XX əsrdə Azərbaycan xalqı bir çox tarixi hadisələri yubileylərlə, yaxud tədbirlərlə qeyd edibdir. Ancaq bu gün təəssüflə deyə bilərik ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanın həyatında özünəməxsus yeri indiyə qədər tutmayıbdır. Bunun da səbəbləri məlumdur. Çıxışlarda bu barədə deyildi. Biz ötən dövrdə tariximizi özümüz istədiyimiz kimi yaza bilməmişik. Tariximizin, o cümlədən ədəbiyyat, mədəniyyət tariximizin həmişə ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtilə belə böyük itkilərə gətirib çıxarmışdı".

Azərbaycan Prezidenti respublikaya rəhbərlik etdiyi illərdə –70-ci illərdə, eləcə də 80-ci illərin əvvəllərində Azərbaycan ədəbiyyatı, mədəniyyəti haqqında çoxlu tədbirlər həyata keçirildiyini xatırlatdıqdan sonra qeyd etmişdir ki, "amma mən bu gün açıq deməliyəm ki, "Kitabi-Dədə Qorqud" haqqında heç bir təşəbbüs irəli sürülməmişdi. Mən bu gün bunu qətiyyətlə deyirəm. Əgər belə bir təşəbbüs irəli sürülsəydi, biz bunu müəyyən çərçivədə həyata keçirə bilərdik. Mənim işlədiyim həmin illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin keçirilməsinə Moskvanın müqavimətini, hətta qadağanını hiss etmişdik. Lakin bununla yanaşı, bizim cəhdlərimiz, təkidlərimiz nəticəsində biz o vaxt bir çox tədbirlərin keçirilməsinə nail olmuşduq".

Bu sözlər sovet ideologiyasının ittihamı idi. Həm də o qədər dərin (və istehzalı!) ittiham idi ki, bunu, ancaq Heydər Əliyev kimi həmin ideologiyanın "mətbəx"inə bələd bir şəxsiyyət deyə bilərdi.

Və məsələnin mahiyyətini özü belə izah etmişdi:

"Ümumiyyətlə, bizim Azərbaycanın üzərinə pantürkizm damğası vurulduğuna, Azərbaycanda çox dəyərli insanlar pantürkist adı ilə həbs olunduğuna, repressiyaya məruz qaldığına, əsərlər, kitablar dağıdıldığna görə alimlərimiz, ictimai xadimlərimiz "Kitabi-Dədə Qorqud" haqqında təşəbbüs qaldırmağa, bəlkə də, cəsarət etməyiblər".

Azərbaycan Prezidenti bu sözlərlə kifayətlənməyərək əlavə etmişdi:

"Burada artıq qeyd olundu ki, Həmid Araslının, Məmmədhüseyn Təhmasibin, Əbdüləzəl Dəmirçizadənin və başqa alimlərin yazdıqları əsərlər "Kitabi-Dədə Qorqud" dastanının elmi-tədqiqi və geniş təbliğ edilməsi üçün böyük xidmətlər göstərmişdir. Başqa bir çox alimlərin də adını çəkə bilərik".

Fərhad Zeynalovla Samət Əlizadənin hazırladıqları "Kitabi-Dədə Qorqud" nəşrini (1988), xüsusilə Anarın çoxşaxəli xidmətlərini ayrıca qiymətləndirən Prezident belə bir qənaətə gəlmişdir ki, "indiyə qədər olan dövrdə müəyyən işlər görülmüşdür. Əgər biz tariximizi bu gün müəyyən qədər səliqəyə salsaq, indiyə qədər görülən işləri, yəqin ki, "Kitabi-Dədə Qorqud"un tarixinin öyrənilməsinin birinci mərhələsi

hesab etmək olar. Yəqin ki, ikinci mərhələ "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan başlanır".

Bu deyilənlər, təbii ki, söz olaraq qalmayacaqdı, çünki Ümummilli Liderə mənsub idi. Və onun dediyi söz ona görə dəyərli idi ki, rəhbəri olduğu xalqın iradəsini ifadə edirdi:

"Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, birincisi, biz bütün dünyaya nümayiş etdirir və bildiririk ki, bəli, "Kitabi-Dədə Qorqud" dastanının ən azı 1300 il yaşı var. İkincisi onu bildiririk ki, bəli, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Burada çox deyildi, bəli, onun vətəni, sahibi Azərbaycan xalqıdır, onun sahibi müstəqil Azərbaycan dövlətidir".

Burada Ümummilli Lider üçün səciyyəvi olan ifadə tərzinə diqqət yetirmək lazımdır: 1) onun vətəni, sahibi Azərbaycan xalqıdır; 2) onun sahibi müstəqil Azərbaycan dövlətidir... Yəni "Dədə Qorqud" eposunun sahibi tarixdə Azərbaycan xalqıdırsa, müasir dövrdə müstəqil Azərbaycan dövlətidir... Bu isə o deməkdir ki, müasir (və müstəqil) Azərbaycan dövləti qədim tarixi olan bir xalqın – Azərbaycan xalqının dövlətidir.

1999-cu ilin aprel ayının 8-də yubiley komissiyasının növbəti iclası keçirilərkən Azərbaycan Prezidenti giriş sözündə məlumat vermişdir ki, "qonaqların arasında türkdilli ölkələrin dövlət başçıları – prezidentlər də olacaq, onlar da "Dədə Qorqud" dastanının yubileyində iştirak edəcəklər. Mən onların hər biri ilə ayrılıqda danışmışam. Onlar "Dədə Qorqud" dastanının yubileyini öz xalqlarının da yubileyləri kimi qəbul edirlər, ona görə də bu mərasimdə böyük məmnuniyyətlə iştirak etmək arzusunu bildirirlər".

Əlbəttə, türk dünyası miqyasında əvvəl keçirilən (və Ümummilli Liderin də yaxından iştirak etdiyi) "Manas", "Alpamış" və b. yubileylərdə məhz bu və ya digər türk xalqına məxsus olan abidələrdən bəhs olunurdu. "Dədə Qorqud" eposu isə, demək olar ki, bütün türk xalqlarının yaddaşında az və ya çox dərəcədə qorunub saxlanmışdı.

Yekun nitqini Prezident bu sözlərlə başlamışdır:

"Kitabi-Dədə Qorqud" dastanının yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir. Biz son onilliklərdə Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək məqsədi ilə bir çox yubiley mərasimləri keçirmişik".

Nizaminin, Nəsiminin, Füzulinin möhtəşəm yubileylərini xatırladan Azərbaycan Prezidenti "Dədə Qorqud"un yubileyinin keçirilməsinin özünəməxsus missiyası barədə demişdir ki, "biz artıq böyük türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq... "Dədə Qorqud" dastanının yubileyi bu baxımdan böyük siyasi əhəmiyyət daşıyır".

Azərbaycan Prezidenti yekun nitqində Dədə Qorqudun portreti məsələsi üzərində xüsusi dayanaraq demişdir ki, “indi Dədə Qorqudu kim necə istəyir, o cür də çəkir. Amma bu yaramaz... Təsəvvür edin, biz “Kitabi-Dədə Qorqud” dastanının yubileyinə gəlirik. Dədə Qorqudun portreti yoxdur. Yaxşı, bəs bu müsabiqə nə qədər davam edəcəkdir? Xahiş edirəm, bu barədə düşünün”.

2000-ci ilin mart ayının 11-də Prezident sarayında yubiley komissiyasının növbəti iclasında Azərbaycan Prezidenti demişdi ki, “biz yubileyin keçən ilin iyun ayında keçirilməsi haqqında qərar qəbul etmişdik. Ancaq məlum səbəblərdən bunu edə bilmədik. Bəlkə də, bu elə lazım imiş ki, bir il də vaxt uzansın, daha da çox iş görmək mümkün olsun. Hər halda, üç il müddətində görülən işlər indi “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin layiqincə keçirilməsinə çox gözəl əsas yaradıbdır”.

Ulu Öndər eposun yubileyi ərəfəsində görülmüş işləri dəyərləndirərək onların nəticələri barədə mükəmməl ümumiləşdirmə də vermişdir:

“Biz indi bu üç il müddətində – buradakı məruzələr, çıxışlar bunu göstərdi – birincisi, “Kitabi-Dədə Qorqud” dastanını xalqımıza yaxşı tanıtdıq; ikincisi, dünyaya tanıtdıq; üçüncüsü, tam təsdiq etdik ki, bu, Azərbaycana məxsusdur. Bəli, bu, türk xalqlarına məxsusdur, ancaq Azərbaycana məxsusdur. Onun vətəni Azərbaycandır və varisi, sahibi Azərbaycandır, yəni Azərbaycan xalqıdır. Biz gələcək işlər üçün böyük yol aldıq”.

Prezident yubileyə hazırlıq dövrünün olduqca məhsuldar olduğunu, həm Azərbaycan cəmiyyətinin eposun məzmun-mündərəcəsini daha dərindən anlamasında, həm də mütəxəssislərin bu sahədə yeni araşdırmalar aparmasındakı uğurlarını göstərməklə yanaşı, demişdir:

“Mən hesab etmirəm ki, bununla iş bitir. Çünki mən özüm də etiraf etməliyəm ki, “Dədə Qorqud”un bu qədər dərin dərya olduğunu təsəvvür edə bilmirdim. İndi kimsə desə ki, yox, o bilirmiş, güman edirəm, xəta edir, mən bilmirdim. Məsələn, mənim bu barədə biliklərim bu kitablardan, təkcə onların sayına görə yox, hər birinin məzmunu və mənasına görə nə qədər artıbdır. Hesab edirəm, eləcə də hər bir Azərbaycan vətəndaşının biliyi artıbdır”.

Azərbaycan Prezidenti eposun sadəcə ədəbi-bədii bir abidə deyil, “ana kitabı”mız olduğunu söyləmiş, müstəqil Azərbaycan dövlətçiliyinin qurulmasında, inkişafında bu möhtəşəm abidədə öz əksini tapmış ideyaların əhəmiyyətli rol oynayacağını göstərmişdi:

“Kitabi-Dədə Qorqud” dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu, bizim ana kitabımızdır. Bu kitabın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. İnsanlar bütün bunları nə qədər çox bilsələr, millətini, xalqını, vətənini və müstəqil Azərbaycanı da bir o qədər çox sevəcəklər. Bu, bizim xalqımızın çoxəsrlik tarixində yeni bir mərhələdir”.

Aprelin 9-da Respublika sarayında türk dövlət başçılarının iştirakı ilə "Kitabi-Dədə Qoqrqud"un 1300 illiyinə həsr olunmuş yubiley mərasimi keşirilmiş, həmin mərasimdəki nitqini Azərbaycan Prezidenti bu sözlərlə başlamışdır:

"Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabı-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır".

Prezident eposun yaranma tarixi barədə bəhs edərkən bu nəhəng, genişmiqyaslı yaradıcılıq prosesini Azərbaycan xalqının ümumi təşəkkül, inkişaf tarixi kontekstində dəyərləndirməklə etnos-epos münasibətlərinin dialektikasına dahiyanə bir aydınlıq gətirmişdir:

"Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki yaşayır. Əgər 1300 ildən öncə "Kitabı-Dədə Qorqud" dastanının yaranması üçün xalqımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır".

Azərbaycan Prezidenti eposun bütün çətinliklərə, məhdudiyyətlərə rəğmən xalqlarımızın yaddaşından heç zaman silinmədiyini xatırlatmaqla yanaşı, demişdir:

"Ancaq onu da qeyd etmək lazımıdr ki, biz "Kitabi-Dədə Qorqud"un 1300 illik tarixinə yüksək qiymət verərək etiraf etməliyik ki, son üç il ərzində Azərbaycanda "Kitabi-Dədə Qorqud" irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar "Kitabi-Dədə Qoqrqud"u bizim xalqımıza, bütün türk dünyasına, türkdilli xalqara tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu dünyaya nümayiş etdirmişdir".

Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşündə də "Kitabi-Dədə Qorqud" barədə fəxrlə bəhs olunduğunu mərasim iştirakçılarının nəzərinə çatdıran Prezident əlavə etmişdir ki, "bu yubileyə daha da çox əhəmiyyət verən, onun səviyyəsini qaldıran odur ki, biz onu türkdilli dövlətlərin başçıları ilə birlikdə keçiririk".

Dünyanın müxtəlif ölkələrindən "Kitabi-Dədə Qorqud"un bilavasitə vətəninə təşrif buyurmuş nüfuzlu qonaqları – ictimai-siyasi xadimləri, elm adamlarını, ədəbiyyat-incəsənət xadimlərini salamladıqdan sonra ölkə başçısı demişdir:

"Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızıdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz vardır. Fəxr edirik ki, Dədə Qorqud kimi ulu əcdadımız vardır.

"Kitabi-Dədə Qorqud" xalqları, millətləri daim birliyə, sülhə dəvət edibdir. 1992-ci ildə Türkdilli Dövlətlər Birliyinin yaranması Dədə Qorqud vəsiyyətlərinin yerinə yetirilməsinin parlaq nümunəsidir.

Biz dövlət müstəqilliyi əldə edəndən, milli azadlığımıza çatandan sonra bu Birliyin təmin olunması üçün böyük imkanlar əldə etmişik və bu Birliyin bizim xalqlarımız üçün nə qədər əhəmiyyətli olduğunu dərk etmişik".

Ulu Öndər özünəməxsus dərinməzmunlu nitqini bu müdrik, qürurverici və səfərbəredici sözlərlə başa çatdırmışdır:

"Kitabi-Dədə Qorqud" yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu, bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi, sərbəstliyimizi bir daha nümayiş etdirir. "Kitabi-Dədə Qorqud" vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir. Bu məqsədə nail olmaq üçün mən sizin hamınıza, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına böyük uğurlar arzulayıram".

Əlbəttə, yalnız dahilər həm tarixi müasirləşdirməyin, həm də müasirliyi tarixiləşdirməyin ən parlaq örnəklərini verməyə, mədəni irsi canlandıraraq onun dünəndən bu günə (və gələcəyə) hərəkətini təmin etməyə qadirdirlər. Əslində, bu, onların elə bir heyranedici missiyasıdır ki, bunsuz bəşər tarixi öz yerində sayardı.

Yubiley şərəfinə təşkil olunmuş rəsmi qəbulda Azərbaycan Prezidenti iki gün ərzində keçirilən yüksək səviyyəli tədbirlərə yekun vurarkən bildirdi ki, türkdilli xalqların milli oyanışı, dirçəlişi, dövlət müstəqilliyini əldə etməsi, öz tarixi köklərini dərindən öyrənməsi məhz belə gözəl nəticələr veribdir. Onun da ən parlaq nümunəsi "Kitabi-Dədə Qorqud" dastanının yubileyini hamımızın bir yerdə, o cümlədən müxtəlif ölkələrdən Azərbaycana gəlmiş qonaqlarla bir yerdə təntənəli qeyd etməyimizdir. Mən əminəm ki, Türkdilli Dövlətlər Birliyi bundan sonra da yaşayacaq, öz fəaliyyətini genişləndirəcək və xalqlarımızın daha da yaxınlaşması üçün, xüsusən bizim xalqlarımızın tarixini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini daha da dərindən öyrənmək üçün çox böyük faydalar verəcəkdir".

"Kitabi-Dədə Qorqud"un yubileyinin olduqca möhtəşəm keçdiyini qeyd edən Prezident xüsusi olaraq vurğuladı ki, yubiley tədbirlərinin bədii hissəsi "Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, teatr sənətinin, musiqi sənətinin, balet sənətinin, rəqs sənətinin nə qədər yüksək səviyyədə olduğunu əyani surətdə göstərdi".

Ümummilli Lider 2000-ci ilin aprel ayının 14-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının yekun iclasını keçirərkən görülmüş işlərin böyük tarixi əhəmiyyətini bir daha qeyd edib göstərdi ki, "mən hesab edirəm, biz bu gün "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar üç il bundan əvvəl başladığımız işə yekun vuraraq hamımız eyni fikirdəyik ki, birincisi, həqiqətən biz bu yubileyin keçirilməsilə əlaqədar düzgün qərar qəbul etmişik. İkincisi, bu üç ildə çox işlər görülübdür. Üçüncüsü, bu yubiley tədbirlərinin son mərhələsi, həqiqətən, həm elmi, həm ictimai, həm siyasi, həm də bədii nöqteyi-nəzərdən ən yüksək səviyyədə olmuşdur.

Təbiidir ki, bu, xalqımız üçün iftixar hissidir. Şəxsən mən çox qürur hissi keçirirəm ki, xalqımız, millətimiz öz tarixini, mənşəyini, keçmişini, mədəniyyətinin zənginliyini dünyaya bir daha sübut etdi. Xalqımız özü-özünü tanıdı, dərk etmək yoluna düşdü, haradan gəldiyini, kim olduğunu, hansı kökdən çıxdığını tamamilə dərk etdi. Ancaq əvvəl dediyim kimi, bu, işin başlanğıcıdır. Biz bu işi davam etdirməliyik".

Əlbəttə, bütöv bir xalqın tarixi (və taleyi) baxımından olduqca düşündürücüdür ki, əgər "Kitabi-Dədə Qorqud" əsrin ortalarında Mircəfər Bağırovun şəxsində Azərbaycan Sovet dövləti tərəfindən "xalqlar arasında ədavət yayan" əsər kimi manqurtcasına qadağan olunmuşdusa, əsrin sonlarında Heydər Əliyevin şəxsində müstəqil Azərbaycan dövləti tərəfindən möhtəşəm milli-mənəvi abidə kimi ən yüksək səviyyədə təqdir edilərək nəinki yalnız Azərbaycan xalqına, bütövlükdə türk dünyasına (və dünyaya!) qaytarıldı.

* * *

Dahi Azərbaycan şairi, mütəfəkkiri, ictimai xadimi Nizami Gəncəvinin həyatı, yaradıcılığı, xatirəsinin əbədiləşdirilməsi, əsərlərinin tərcüməsi, nəşri və s. məsələlər Heydər Əliyevi həmişə düşündürmüş, o, bu sahədə çox böyük işlərin görülməsinə bilavasitə rəhbərlik etmişdir.

Azərbaycan Prezidenti 2000-ci ilin may ayının 24-də Nizami Gəncəvinin məqbərəsini ziyarət edərkən söylədiyi nitqində demişdir:

"İlk dəfə burada Nizami Gəncəvinin qəbri üzərində abidə 1948-ci ildə tikilibdir. O vaxtlar Nizami Gəncəvinin 800 illik yubileyi keçirilirdi. Ancaq o vaxt yaranmış məqbərə Nizamiyə layiq deyildi. İkincisi, siz yəqin xatırlayırsınız, gəncəlilər bilir ki, burada yaxınlarda gil-torpaq kombinatı tikildi... gil-torpaq kombinatında alunitin işlədilməsi zamanı toz çıxırdı və Nizami Gəncəvinin məqbərəsini də toz basırdı".

Bu sözlər dahi şair-mütəfəkkirin məzarının XIX əsrdəki vəziyyətini yada salır... Milli təhsil, məktəb uğrunda mübarizə aparan, hüquqlarını bərpa etmək üçün Tiflisə şikayətə gedən Seyid Əzim Şirvani dahi sələfinin məzarını ziyarət edərkən dağılmış görüb ürək ağrısı ilə demişdi:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan!
Olmuşmu səninlə mən kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan?!

Nizami məqbərəsinin tarixi barədə danışarkən Prezident xatırlamışdı ki, "70-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman bir çox ziyalılarımız – şairlərimiz, alimlərimiz gəlib Nizami Gəncəvinin məqbərəsini belə halda görəndə mənə bir neçə təklif verdilər. Təkliflər ondan ibarət idi ki, Nizami Gəncəvinin məqbərəsini başqa yerə köçürmək lazımdır.

...Mən çox fikirləşdim ki, axı necə ola bilər? 800 il bundan öncə dahi şairimiz Nizami Gəncəvini burada torpağa veriblər... İndi onu narahat edib başqa bir yerə köçürmək nə qədər düzgün olar?"

Heydər Əliyevin dahi şair-mütəfəkkirə göstərdiyi bu ehtiram yalnız respublikanın başçısı kimi vəzifə borcu olmaqla bitmirdi, o, Nizaminin şəxsiyyətinə, yaradıcılığına dərindən bələd idi, eyni zamanda necə bir müqəddəs nəslə mənsubluğunu da yaxşı bilirdi:

"Gəncənin ətrafında nə qədər istəsən yer var, onu harada istəsəniz tikmək olardı. Onu yaradanlar da bilirdilər ki, bu istehsal elədir ki, toz buraxır. Onu bizim ən böyük, ən müqəddəs tarixi abidəmiz olan Nizami Gəncəvinin qəbrinin, məqbərəsinin yanında yerləşdirmək, mən deyərdim ki, vaxtilə mənəvi cinayət olmuşdur... Ancaq nə etməli? O vaxt gərək ya bu müəssisəni dağıdaydıq – bu da mümkün deyildi, çünki Sovet İttifaqının böyük tikintilərindən biri idi – ya da deyirdilər ki, əgər bu mümkün deyilsə, tədbir görün, Nizami Gəncəvinin məqbərəsini başqa yerə köçürək".

Əlbəttə, respublika rəhbəri bu böyük problemi həll etməyin yolunu özünəməxsus bir məharətlə tapdı:

"Mən bu gün böyük hisslərlə Nizaminin məqbərəsini bir daha ziyarət etdim. Onu da sizə deyə bilərəm ki, Nizaminin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirdim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda – çünki onlarsız bu işi görə bilmirdik – dedilər ki, "840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd eləmisiniz, 850 illik də ola bilər. Amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim 847".

...Dedim, ... Nizami Gəncəvi elə dahidir ki, onun... yubileyini hər il keçirmək lazımdır".

Məqbərəni ziyarət edərkən söylədiyi nitqində Ümummilli Lider xatırlamışdı ki, "o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik. Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik. O vaxt yubiley ərəfəsində də qərar verdik ki, buradakı məqbərə yenidən qurulsun, Nizamiyə layiq bir səviyyəyə çatdırılsın.

Mən məmnunam ki, bunu etdik. Amma indi içərisinə də, çölünə də baxanda hesab edirəm ki, bundan da yaxşı edə bilərdik. Güman edirəm, əgər vaxt çatsa, biz bunu edəcəyik. Amma vaxt çatmasa, gələcək nəsillər bu məqbərəni bundan da gözəl edəcəklər".

Azərbaycan Prezidenti bütün dünyada məşhur olan dahi şair-mütəfəkkir qarşında yalnız indiki yox, gələcək nəsillərin də həmişə borclu olduqlarını diqqətə çatdırmış, bilavasitə özünə gəldikdə isə böyük işlər gördüyünü deməklə yanaşı, hələ çox işlər görülməli olduğunu da söyləmişdi:

"Mən qürur hissi keçirirəm ki, Nizaminin yolunda az iş görməmişəm. Onun xatirəsini əbədiləşdirmək, irsinin daha da təbliğ olunması, yayılması üçün, kitablarının nəşri üçün çox iş görmüşəm.

...Ancaq mən hesab etmirəm ki, bütün borclarımı qaytarmışam... Nə qədər ki çalışıram, xalq mənə etimad göstərir, xalq, millət, ölkə, dövlət, doğma torpaq qarşısında o qədər də özümü borclu hesab edirəm".

2002-ci ilin iyun ayının 9-da Sankt-Peterburqda Nizami Gəncəvinin abidəsinin açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti demişdir:

"Bu gün Sankt-Peterburqda dahi şair Nizaminin abidəsinin açılışını biz dünya mədəni irsinə böyük ehtiramın ifadəsi, Azərbaycan xalqına bəslənilən dostluq və qardaşlıq hisslərinin təzahürü kimi qiymətləndiririk. Keçən il oktyabrın 12-də Bakıda rus poeziyasının dühası Aleksandr Sergeyeviç Puşkinə heykəl qoyulmuşdur. Bu gün isə burada – Puşkinin "Böyük Pyotrun əsəri" adlandırdığı bu şəhərdə Nizamiyə heykəl ucaldılmışdır.

...Bu şəhərin müdafiəçilərinin və sakinlərinin Hitler qoşunlarının hücumlarına qəhrəmancasına müqavimət göstərdikləri 900 gün ərzində dünya bir daha dərk etdi ki, qəhrəmanlıq hər şeydən öncə yüksək mənəviyyatın təzühürüdür. Bu qəhrəmanlığın mənbəyini ilk növbədə böyük rus mədəniyyətinin mənəvi qaynaqlarında axtarmaq lazımdır. Bu mədəniyyətin möhtəşəmliyi özünü həm də mühasirə günlərində Ermitajın soyuq salonlarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyi təntənəli şəkildə qeyd edilərkən büruzə verdi".

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatına, elminə, mədəniyyətinə həsr edilmiş çox az tədbir olmuşdur ki, Ulu Öndər orada dahi şair-mütəfəkkir Nizami Gəncəvinin adını iftixarla çəkməsin.

2021-ci ilin yanvar ayının 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında sərəncam verdi. Həmin sərəncamda göstərilir ki, "Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli Lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğatını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdı. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubileyi mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir".

* * *

Heydər Əliyevin gənc yaşlarından yaradıcılığına, şəxsiyyətinə böyük maraq göstərdiyi mütəfəkkir şairlərdən biri də İmadəddin Nəsimi olmuşdur. Həyatı da yaradıcılığı qədər zəngin, təlatümlü, eyni zamanda sirlərlə dolu bu şairin nəinki

Azərbaycanda, bütün dünyada tanınması üçün hələ 70-ci illərdə Heydər Əliyev, demək olar ki, cahanşümul işlər görmüşdür.

Həmin illərdə Nəsimi ən müxtəlif yönlərdən araşdırılaraq, həqiqətən, nəsimişünaslıq adlı bir yaradıcılıq sahəsi formalaşdı ki, burada respublika rəhbərinin rolu müstəsna idi. Həmid Araslı, Məmməd Arif, Mirzağa Quluzadə, Cahangir Qəhrəmanov kimi alimlərin dəyərli əsərləri nəşr olundu.

Məmməd Arif yazırdı:

“Hürufiliyin konkret həyati mənası onda idi ki, fəal bir qüvvə kimi qiymətləndirilən insanın qarşısına özünü dərk etmək kimi böyük bir vəzifə qoyurdu. Özünü dərk etmək üçün insan, hər şeydən əvvəl, öz kimliyini müəyyən etməli, cəmiyyətdə öhdəsinə düşən vəzifəni başa düşməli, ictimai ədalətsizliyi, əndazəsiz təmtərağı, pis əməlləri aradan qaldırmaq barədə düşünməli, yalnız düşünmək deyil, əməli iş görməli idi”.

Hürufiliyin ictimai mahiyyətini, inqilabi keyfiyyətini qeyd etdikdən sonra müəllif Nəsimi üzərinə gəlir:

“İmadəddin Nəsimi Azərbaycan şeirində ən parlaq nümayəndələrindən biri olmaqla feodalizm quruluşu əleyhinə çıxan bu cərəyanın ən müsbət keyfiyyətlərini də özündə birləşdirirdi. Söz yox ki, bir dini-fəlsəfi cərəyan kimi hürufilik Nəsimi yaradıcılığında özünəməxsus ziddiyyətlərlə təzahür edirdi. Lakin tarixilik baxımından yanaşdıqda mütəfəkkir şairin öz zəmanəsində qabaqcıl mövqedə durduğunu, öz insanpərvərlik vəzifəsini cəsarətlə yerinə yetirdiyini təsdiq etməli oluruq”.

Məmməd Arif Nəsiminin üstünlüyünü onda görür ki, “o, əqidəsində sarsılmaz idi və öz qabaqcıl fikirlərini təbliğ etmək üçün qüdrətli şair qələminə malik idi. O öz yaradıcılığını dövrün, zamanın ən vacib məsələləri ilə, xalq azadlığı, insan problemi ilə möhkəm bağlaya bilirdi. Xalqa bağlı şair ilə aydın fikirli mütəfəkkir Nəsimidə ecazkar bir şəkildə birləşirdi”.

Ömrünün sonuna qədər heç bir tərəddüd etmədən “ən əl-həqq” deyənlərin yolu ilə getmiş (və bu yolda dini mühakimə olunaraq edam olunmuş) dahi şair-mütəfəkkirin, sufizm-hürufizm təbliğatçısının “mən”i haqqında ən populyar, kütləvi məlumat, ilk növbədə, onun məşhur

"Məndə sığar iki cahan,
Mən bu cahana sığmazam", -

sözlərində öz əksini tapır.

1973-cü ilin sentyabr ayının 14-də Nəsiminin 600 illiyi şərəfinə Azərbaycan SSR Nazirlər Sovetinin keçirdiyi qəbulda Heydər Əliyev nitq söyləyərək demişdir:

“Bu günlər qədim Azərbaycan torpağında böyük bayramdır, poeziya bayramı, ədəbiyyat bayramı, bədii söz bayramıdır. Ürəklərə sevinc bəxş edən sənət bayramıdır. Bu bayram böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi ilə əlaqədardır.

Öz nəsillərinə gözəl bir irs qoyub getmiş bu müdrik insanın anadan olduğu vaxtdan 600 il keçmişdir. Budur, indi onun vətənində nəsillər şairin fərəhli yubileyini dərin minnətdarlıq hissi ilə qeyd edirlər".

Yaradıcılıq taleyi belə gətirmişdi ki, Azərbaycan ədəbiyyatşünaslığı XX əsrin 20-ci illərinə – görkəmli ədəbiyyat xadimi Salman Mümtazın məlum məqalələri çıxana qədər Nəsimini, demək olar ki, tanımırdı. Yalnız yaddaşlarda Sarı Aşığın belə bir bayatısı qalmışdı:

Mən aşıq, soy iləndir,
Şahmar da soy ilandır.
Nəsimitək bu aşıq
Yolunda soyulandır.

Salman Mümtaz 1926-cı ildə mötəbər mənbələr əsasında məlumat verdi ki, "VIII əsri-hicrinin son yarısı ilə IX əsrin əvvəllərini dərk etmiş bu nadir simanın məsqətürrəsi Şirvandır... Nəsimi VIII əsri-hicrinin son yarısında doğma yurdu Azərbaycanda sakin idi. O zaman bu yerdə hökmranlar Əmir Teymur, Şahrux Mirzə və Miranşah idi. Nəsimi Miranşahın zamanında vətənini tərk etməyə məcbur oldu. Buna da Şah Fəzlullahın Miranşahın əmri ilə öldürülməsi səbəb oldu. Cahil üləmanın fitvaları ilə Miranşah Şah Fəzlullahı Şirvandan götürdərək öldürtdü. Nəsimi isə ya ələ keçməmək və yaxud təbliğat aparmaq üçün səyahətə çıxdı..."

Heydər Əliyev bilirdi ki, böyük şair-mütəfəkkir haqqında Azərbaycan ədəbiyyatşünaslarının (və təbii ki, Azərbaycan xalqının) təsəvvürləri tarixcə qədim olmadığı kimi məzmunca da zəngin deyil. Odur ki, Nizami, Xaqani, Füzuli ilə yanaşı Nəsiminin də adını fəxrlə çəkərək bütün dünyada tanınmağa laiq bir söz ustası olduğunu bəyan etmişdi:

"Bəşəriyyət özünün ən yaxşı nümayəndələrini, onu mənəvi cəhətdən zənginləşdirən simaları həmişə yüksək qiymətləndirmişdir. Bəşər tarixinin müxtəlif mərhələlərində bir çox görkəmli şəxsiyyətlər yetişmişdir. Hər bir xalq həmin dühaların tərəqqiyə, işıqlı həyata, xoş güzərana çağırışları ilə fəxr edir. Azərbaycan xalqı öz böyük övladlarının – Nizaminin, Xaqaninin, Füzulinin və başqalarının adlarını iftixarla çəkir. Bu gün isə biz Azərbaycan və dünya poeziyasının parlaq ulduzu İmadəddin Nəsiminin yubileyini qeyd edirik".

Nəsimi yubileyi keçirilən günlərdə görkəmli nəsimişünas Cahangir Qəhrəmanov şairin anadilli divanının elmi-tənqidi mətnini ərəb qrafikası ilə nəşr etdirərək yeni araşdırmaların aparılması üçün mötəbər mənbə hazırladı. Mirzağa Quluzadə uzun illərin tədqiqatlarının nəticəsi olaraq "Böyük ideallar şairi" monoqrafiyasını oxuculara təqdim etdi... Nəsimişünaslığın artıq ciddi uğurlara imza atmış olduğunun nəticəsi idi ki, respublika rəhbəri demişdi:

"...Nəsiminin yaratdığı, qoyub getdiyi irsə heyran olduğumuzu bildirərkən biz gərək onun ikinci yaranışından da danışaq. Yalnız bizim zəmanədə Nəsimi əsrlərin dərinliklərindən qaldırılmış və o, layiqincə qiymətləndirilir. Bu gün Nəsimi bütün dünya qarşısında bütün əzəməti ilə ucalır. O elə bir insan idi ki, hələ uzaq keçmişlərdə cəhalətpərəslərdən qorxmayıb zülmə, riyakarlığa, dini mövhumata etiraz səsini ucaldır, çox-çox irəliyə nəzər salırdı. Görkəmli Azərbaycan şairi, müasirimiz Səməd Vurğun Nəsimi haqqında belə demişdir: "Tarixlər boyunca qaldı yadigar ölməz fikirlərin, ölməz sözlərin..."

İlk növbədə Heydər Əliyevin uzaqgörənliyinin, vətənpərvərliyinin və yüksək təşkilatçılıq qabiliyyətinin nəticəsi idi ki, Azərbaycan öz şair-mütəfəkkirini məşhurlaşdırdığı kimi, Nəsimi də Azərbaycanı şöhrətləndirirdi:

"Nəsiminin yubileyi Azərbaycan xalqının, eləcə də bütün xalqların mədəniyyətinin tərəqqisinə daha bir parlaq sübutdur.

Bütün müttəfiq respublikaların nümayəndələrinin iştirakı ilə keçirilən Nəsimi yubileyinin belə geniş miqyasda qeyd edilməsi də hər bir xalqın mədəniyyətinin inkişafına partiyanın göstərdiyi qayğının təzahürlərindən biridir, ölkəmizin xalqları arasında dostluğun nümayişidir" – deyə dövrün siyasi konyukturunu nəzərə alan Heydər Əliyev onu da əlavə etmişdir ki, "bizim hamımızı, Nəsimi yubileyi münasibətilə Azərbaycan torpağına toplaşan adamların hamısını mütərəqqi ideallar, bəşəriyyətin ən yaxşı zəkalarının əsrlər boyu həsrətində olduqları əmin-amanlıq və dostluq şəraitində yaşamaq arzuları birləşdirir. Həmin ideallar və arzular bu gün gerçəkliyə çevrilmişdir".

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 13 noyabr 2018-ci il tarixli sərəncamında haqlı olaraq deyilir:

"Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması bunun üçün ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış Ümummilli Lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir".

Sərəncamda göstərildiyi kimi, "Azərbaycan ədəbiyyat və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır".

* * *

Nizami, Nəsimi kimi Füzuli yaradıcılığı da həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə Dövlət komissiyasının 1 avqust 1994-cü il tarixli iclasında sədr Heydər Əliyev demişdir:

"İndi iqtisadi vəziyyət, yaşayışımız, bir sözlə, həyat nə qədər çətin olsa da, biz Məhəmməd Füzulinin yubileyini yüksək səviyyədə keçirməliyik.

...Həyatımızın bu keçid dövründə, mənəviyyatımızın, mədəniyyətimizin müəyyən dərəcədə sıxıntı keçirdiyi dövrdə belə bir yubileyin təşkili həyatımızı, bəlkə də, zənginləşdirəcəkdir".

Ümummilli Lider, əlbəttə, Füzulinin yubileyinin, mövcud çətin şəraitə baxmayaraq, yüksək səviyyədə keçirilməsinə bir neçə baxımdan önəm verirdi ki, onlardan biri də Azərbaycan xalqının dərin (və zəngin) tarixi köklərə malik olduğunu inkar edən düşmən qüvvələri susdurmaqdan ibarət idi:

"Biz daim çalışmalıyıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi, mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaradıcılığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır".

Dövlət müstəqilliyi əldə edildikdən sonra Azərbaycan mədəniyyətinin dünyada tanıdılması işi yeni məna-məzmun kəsb etmişdi ki, müasir Azərbaycan dövlətçiliyinin qurucusu həmin məsələyə xüsusi diqqət verirdi:

"YUNESKO Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar qərar qəbul etmişdir. Bildiyiniz kimi, YUNESKO hər il bu qəbildən olan qərarlar qəbul edir. Lakin bu imkandan necə istifadə etmək, şübhəsiz ki, hər bir ölkənin, xalqın özündən asılıdır... Türkdilli ölkələrdə Füzulinin yubileyinin keçirilməsi də bu tədbirlər sırasına daxildir.

...Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Tükdilli xalqlar isə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün.

Eyni zamanda biz bu yubiley tədbirlərindən istifadə edərək dünyaya bir daha bildirməliyik ki, Füzuli azərbaycanlıdır".

Azərbaycan Prezidenti Füzulinin dünya miqyasında bir azərbaycanlı kimi tanıdılması üçün ciddi elmi tədqiqat əsərlərindən başqa kütləvi bir kitabın da nəşrini məsləhət görür:

"...İndi Füzulinin əsərlərini ingilis, fransız, alman dillərinə tərcümə edib yaymaq imkanımız yoxdur. Bunu gələcəkdə etməliyik. Lakin Füzuli haqqında geniş məlumat verən bir kitab varsa onu tərcümə etmək, yoxdursa yazmaq lazımdır. Özü də həmin kitab bütün keçmiş stereotiplərdən xilas olmalıdır".

Əlbəttə, sovetlər dövründə türk xalqlarının nəinki ictimai-siyasi, hətta ədəbi-mədəni əlaqələrini belə hər hansı şəkildə inkişaf etdirmək cəhdlərinə Moskva "pantürkizm" kimi baxdığına görə türk dünyasının ortaq mənəvi dəyərləri barədə "ucadan" danışmaq mümkün deyildi. Və bu, olduqca anti-tarixi (və eyni zamanda anti-metodoloji!) təsəvvürlərin yaranmasına rəvac vermişdi ki, onlardan ən acınacaqlısı həmin ortaq dəyərləri türk xalqları arasında "bölüşdürmək", hər bir ədəbi şəxsiyyət və ya abidəyə rəsmi bir "sahib" elan edib, digərlərini kənarlaşdırmaq idi.

Müstəqilliyin mənəvi sahədəki bəhrəsi oldu ki, ortaq dəyərlərə ortaq miras kimi yanaşılmağa başlandı.

Dahi şair-mütəfəkkirin yubileyinin ilk növbədə hansı ölkələrdə keçirilməsinin zəruriliynə gəldikdə Heydər Əliyev bildirmişdi ki, "Türkiyədə tədbirlərin keçirilməsi məsələsi məni xüsusi maraqlandırır... Çünki Türkiyədə Füzulini elə Azərbaycandakı qədər tanıyırlar... Füzulinin yubileyinin İranda – Tehranda və Təbrizdə keçirilməsi də çox mühümdür. Orta Asiya dövlətlərində, Qazaxıstanda, Tatarıstanda, Başqırdıstanda da belə tədbirlərin keçirilməsi gərəklidir".

1994-cü ilin noyabr ayının 1-də Türkiyənin Bilkənd Universitetinda, 2-də isə Böyük Millət Məclisində keçirilən Füzuli yubileyləri bütün Türk dünyasında əks-səda verdi. Və həmin tədbirlərdəki çıxışlarında Azərbaycan Prezidenti dahi şairin zəngin irsi barədə mükəmməl analitik təhlil verməklə yanaşı, türk xalqlarının mənəvi birliyinin nümayişi üçün bu irsin nə qədər mötəbər mənbə olduğunu dönə-dönə vurğulamışdı.

Bilkənd Universitetindəki çıxışında demişdi:

"Xalqlarımız çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, özlərinin milliliyini, mənəviyyatını, dilini, dinini yaşatmış, saxlamış və bugünkü xoşbəxt günlərə gətirib çıxarmışlar. Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər.

Bu sırada - xalqlarımızın böyük şəxsiyyətləri sırasında Məhəmməd Füzulinin xüsusi yeri var".

Böyük Millət Məclisindəki çıxışında isə Ümummilli Lider özünün növbəti tarixi sözlərindən birini söyləmişdi:

"Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olub. Amma indi, türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyəti (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənələrinə uyğun olmayan rejimlər içərisində yaşayan vaxtda Füzuli bizi yaşadıb, bu günlərə gətiribdir. Bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə – Kərbəlada, Bağdadda, həm Ankarada, Türkiyədə Füzulinin 500 illiyini qeyd edərkən artıq keçmişdəki parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyətinin yanında digər türk cümhuriyyətləri də vardır".

1996-cı ilin 23 iyulunda Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət komissiyasının növbəti iclası keçirilir. Və həmin iclasda komissiya sədrinin müavini Elçin Əfəndiyev 1994-cü ilin avqust ayından bəri görülən işlər barədə məlumat verdikdən sonra Heydər Əliyev yekun sözü söyləyərək göstərir ki, "Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər çox oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir".

Bunları nəzərə alan böyük dövlət xadimi Füzuli kimi dühaların yubileylərini keçirərkən tələsməməyi məsləhət görür, hər şeydən əvvəl ona görə ki, bu cür yubileylər cəmiyyətin həmin düha haqqındakı təsəvvürlərini daha da genişləndirməli, yanlış qənaətləri aradan qaldırmalı, ictimai-mədəni şüurun, milli-mənəvi təfəkkürün sağlamlaşdırılmasına, inkişafına və klassikanın müasirləşməsinə təkan verməlidir. Digər tərəfdən, "biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyət xəzinəsinə öz böyük töhfələrini veribdir. Ona görə də biz yubileyi elə keçirməliyik ki, bu tədbir təkcə Azərbaycanda deyil, Türkiyədə də, İranda da, İraqda da, Moskvada da, Dərbənddə də, bir sözlə, hər yerdə böyük iftixar hissi doğursun".

Əlbəttə, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hələ sovet dövründə çox yubileylər keçirilmiş, Azərbaycan mədəniyyətinin keçmiş Sovetlər Birliyi, eləcə də dünya miqyasında tanıdılmasında kifayət qədər böyük təcrübə qazanılmışdı. Lakin Füzulinin 500 illik yubileyi müstəqillik illərində keçirilən ilk irimiqyaslı yubiley olduğundan dövlət səviyyəsində məsləhətləşmələrə ehtiyac vardı. Tamamilə təbiidir ki, həmin məsləhətləşmələrdə türk dövlətlərinin o qədər zəngin olmayan təcrübələrinə daha çox istinad olunur. Və Dövlət Komissiyasının iclasında sədr deyir:

"Bilirəm ki, məsələn, keçən il avqust ayının sonunda biz Qırğızıstanın paytaxtı Bişkekə yalnız "Manas" dastanının min illik yubileyinə deyil, həm də türk cümhuriyyətləri dövlət başçılarının Zirvə görüşünə toplaşmışdıq. Xatirimdədir, o vaxt belə bir qərar qəbul olundu ki, türk ölkələri dövlət başçılarının növbəti Zirvə görüşü bu ilin oktyabrında Daşkənddə keçirilsin. Düzdür, görüşün günü müəyyənləşdirilmədi. Özbəkistan Prezidenti cənab İslam Kərimov burada olarkən dedi ki, onlar Əmir Teymurun 670 illiyinə hazırlaşırlar.

...Mən belə başa düşürəm ki, ola bilər, onlar həmin Zirvə görüşünü Əmir Teymurun yubileyi ilə bir vaxta salsınlar. Bişkekdə "Manas"ın yubileyində olduğu kimi". Bu isə o deməkdir ki, ümumtürk mədəni-mənəvi məkanı öz reallığını müstəqilliyin ilk illərindən başlayaraq bütün ciddiliyi, zəruriliyi və qədim dövrlərdən

gələn tarixi məntiqi (və təbii metafizikası) ilə diqtə etməkdə idi. Artıq Azərbaycan mədəni irsinin dünyada təbliği ümumtürk miqyaslı prosedurlardan keçirdi:

"...Füzulinin yubileyinə türkdilli ölkələrdən, şübhəsiz, daha çox nümayəndə gələcəkdir. Bu məsələni də nəzərdən qaçırmaq olmaz.

Burada Anar təklif verdi ki, bizdə türkdilli ölkələrin yazıçılarının qurultayı keçirilsin. Mən bu təklifi qəbul edirəm... Belə bir qurultayı Azərbaycanda keçirmək lazımdır. Özü də mütləq... Onu Füzulinin yubileyi ilə eyni vaxta salmaq məqsədəuyğundur. Çünki əgər biz yazıçıların qurultayını keçiririksə, ən böyük yazıçımız, hamı üçün ən böyük yazıçı Füzulidir... Polad Bülbüloğlu burada o vaxt TÜRKSOY məclisinin də keçirilməsini təklif edir. Bəlkə, bu da yaxşı olardı. Amma bir az düşünün, bunların hamısı eyni vaxta düşsə, tədbirlər çox yorucu olar. Bu barədə düşünmək lazımdır.

...Əgər biz o yazıçılar qurultayını keçiririksə, deməli, biz onu bütün türkdilli ölkələrlə razılaşdırdıqdan sonra keçirməliyik".

Geniş müzakirələrdən, müəyyən çətinliklərə baxmayaraq görülən gərgin hazırlıq işlərindən sonra 1996-cı ilin noyabr ayının 8-də Bakıda Respublika Sarayında Füzulinin 500 illik yubileyi münasibətilə təntənəli gecə keçirilmişdir. Həmin gecədəki nitqində Azərbaycan Prezidenti dünyanın bir çox ölkələrindən respublikamıza təşrif buyurmuş nümayəndə heyətlərinə, dövlət xadimlərinə, ictimai xadimlərə, elm və mədəniyyət xadimlərinə təşəkkür və minnətdarlığını ifadə etdikdən sonra bildirmişdi ki, "Füzulinin yubileyi təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində təntənəli surətdə keçirilibdir. Türkiyədə – Ankarada, Rusiyada – Moskvada, İraqda – Bağdadda, Kərbəlada, Kərkükdə, İranda – Tehranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda – Dərbənddə, Mahaçqalada, Parisdə – YUNESKO-nun baş qərargahında Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçirilib. Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunub və bütün dünyaya çatdırılıbdır".

Azərbaycan Prezidenti xüsusi olaraq qeyd etmişdi ki, "Türk dünyası yazıçılarının III qurultayında Məhəmməd Füzulinin yaradıcılığı və onun 500 illik yubileyi diqqət mərkəzində olmuşdur. Türkdilli dövlətlərin beynəlxalq TÜRKSOY təşkilatının VIII toplantısında Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi diqqət mərkəzində olmuşdur. Bakıda beynəlxalq simpozium keçirilmişdir.

"Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq eyni zamanda bütün türkdilli, Türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur".

Heydər Əliyev Füzulini həm Azərbaycan xalqının, həm də ümumən türk-müsəlman xalqlarının dünya ədəbiyyatına, elminə, mədəniyyətinə, ictimai-fəlsəfi fikrinə bəxş etdiyi son dərəcə nəhəng simalardan biri kimi səciyyələndirməkdə tamamilə haqlı idi:

"Məhəmməd Füzuli öz yaşadığı dövrdən əvvəlki dövrü geniş təhlil etmiş və həm Şərqin ona qədər yaratdıqlarını, həm də qədim yunan, rum antik ədəbiyyatının, qədim

hind ədəbiyyatının nümunələrini öz əsərlərində cəmləyərək yaradıcılığında Şərqin və Qərbin sintezinin nəticəsi olaraq, elmin, fəlsəfənin ən yüksək zirvələrinə çatmışdır".

Ümumiyyətlə, xalqın milli-mənəvi özünəməxsusluğunun (və özgürlüyünün!) ən mühüm göstəricilərindən biri (bəlkə də, birincisi) olan dil məsələsinə çox həssas yanaşan (və bu həssaslığı bütün məlum siyasi-ideoloji qadağalara baxmayaraq sovet dövründə də dövlət səviyyəsində nümayiş etdirməkdən çəkinməyən) Heydər Əliyevin öz nitqində Füzulinin tarixi dil missiyası üzərində ayrıca dayanması bir çox mətləblərə işıq salır:

... Məhəmməd Füzuli o dövrdə hakim olan ərəb və fars dillərində yazmışdır. Ancaq bizim üçün ən əhəmiyyətli cəhət bundan ibarətdir ki, Məhəmməd Füzuli əsərlərinin çox hissəsini türk dilində, bugünkü Azərbaycan dilində yazmışdır. Bu, Məhəmməd Füzulini ondan əvvəl və sonra yaşamış, yaratmış və xalqımıza məxsus olan bir sıra şairlərdən, alimlərdən fərqləndirən amildir. Biz Füzulinin "Leyli və Məcnun" poemasını, onun türk dilində yazdığı divanını bu gün də dilimizdə rahat oxuyuruq, anlayırıq. Beləliklə, Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir".

Əlbəttə, bütün türk xalqlarının ümumi mənəvi sərvəti olan türkcənin orta əsrlərin sonlarından başlayan diferensiasiya prosesində Füzuli dilinin yeri o dərəcədə müstəsnadır ki, sinxron mükəmməlliyi ilə yanaşı, türk dilinin (və dillərinin) həm keçmişi (retrospektivi), həm də gələcəyi (prospektivi) barədəki elmi-metodoloji təsəvvürlərin bu baxımdan ona ən yaxın olan Nəvai də daxil olmaqla türkcənin hər bir dil dühasından daha adekvat, daha sistemli şəkildə təqdim edir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin 500 illik yubiley təntənələri 1996-cı il noyabr ayının 8-də Bakıda "Gülüstan" sarayında keçirilən rəsmi qəbulla başa çatdı ki, həmin qəbulda Azərbaycan Prezidenti üç il davam edən yubiley təntənələrinin çox böyük əhəmiyyətindən bəhs etdikdən sonra türk dünyasından gələn qonaqlara müraciətən nitqini belə yekunlaşdırmışdır:

"Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı dostluğa, əməkdaşlığa bundan sonra da sadiq olacaqdır. Əmin edirəm ki, müstəqil, demokratik Azərbaycan Respublikasında birlik, həmrəylik, dostluq, mehribanlıq üçün bundan sonra da gərəkli addımlar atılacaqdır. Bunların hamısını bizə böyük Füzuli vəsiyyət edibdir. Bunlar hamısı Füzuli yubileyindən çıxardığımız nəticələrdir".

* * *

Orta əsrlərin sonu, yeni dövrün əvvəllərində Azərbaycan ədəbiyyatı və incəsənəti milli intibah dövrünə qədəm qoydu ki, bunun əsas əlamətləri; a) xalq yaradıcılığının ictimai-mədəni mövqeyinin güclənməsindən, b) ədəbi dilin milliləşməsindən və ya

demokratikləşməsindən və c) həm ədəbiyyatda, həm də incəsənətdə realist meyllərin meydana çıxaraq aparıcı ideya-estetik tendensiyaya çevrilməsindən ibarət idi.

Yeni dövr Azərbaycan mədəniyyətinin ən böyük abidəsi, heç şübhəsiz, “Koroğlu” eposu idi.

Üzeyir Hacıbəyovun 1995-ci ilin sentyabr ayının 18-də keçirilən 110 illik yubileyində dahi bəstəkarın “Koroğlu” operasından bəhs edərkən Ümummilli Lider demişdir:

“Koroğlu” dastanı əsrlər boyu nəsildən-nəsillərə keçib, bizim günlərimizə gəlib çatıbdır. “Koroğlu” dastanı insanları həmişə qəhrəmanlığa, cəsurluğa dəvət edibdir. Bu dastan insanlarda qəhrəmanlıq, cəsurluq, vətənpərvərlik əhval-ruhiyyəsi yaradıbdır. “Koroğlu” dastanı insanları həmişə azadlığa, azadlıq yolunda mübarizəyə, zülmə qarşı mübarizəyə çağırıbdır. “Koroğlu” dastanı ona görə sevilibdir ki, xalqın həyatı, gələcəyi üçün ən əhəmiyyətli fikirlər o dastanda cəm olubdur”.

Yeni dövrdə Azərbaycan aşıqları Qurbani, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Valeh və b. yetişmiş, “Əsli və Kərəm”, “Tahir və Zöhrə”, “Aşıq Qərib” və s. məhəbbət dastanları yaranmış, bir sıra dastanlar (məsələn, “Şəhriyar”) yazıya alınmışdır. Yazılı ədəbiyyatı (poeziyanı) həmin dövrdə öz realizmə meylli düşüncələri ilə Şah İsmayıl Xətai, Məhəmməd Əmani, Qövsi Təbrizi, Şirvan şairləri, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və b. təmsil etmişlər.

Heydər Əliyev Vaqifin yaradıcılığına, Qarabağ xanlığının vəziri kimi ictimia-siyasi, diplomatik fəaliyyətinə yüksək qiymət vermişdir. Onun göstərişi ilə Şuşada şairin möhtəşəm məqbərəsi ucaldılmış, məqbərə 1982-ci ilin yanvar ayının 14-də təntənəli şəkildə açılmışdır. Lenti gurultulu alqışlar altında Heydər Əliyev, Süleyman Rüstəm və Mirzə İbrahimov kəsmişlər.

Həmin gün Poeziya evi də açılmış, Heydər Əliyev Poeziya evinə toplaşanlara müraciət edərək demişdir:

“Əlamətdar haldır ki, Şuşada Vaqifin məqbərəsinin təntənəli surətdə açıldığı gün Poeziya evi də açılmışdır. Gərək çalışasınız ki, bu ev şəhərdə əsl poeziya mərkəzinə çevrilsin, ədəbiyyatı təbliğ etsin, şuşalıları, ilk növbədə də gəncləri, böyüməkdə olan nəsli vətənpərvərlik ruhunda tərbiyə etsin, onlara gözəllik hissi aşılasın”.

Respublikanın rəhbəri sözünə davam edərək söyləmişdir:

“Şuşanın zəngin tarixi vardır... Şuşanın tarix muzeyi bunu əks etdirir.

Muzeydə toplanmış çoxlu eksponat keçmişin maddi mədəniyyətini təmsil edir. Onun bölmələrindən biri Şuşada yetişmiş, öz yaradıcılığı ilə Azərbaycanın mədəniyyət salnaməsinə çoxlu şanlı səhifə yazmış, ölkənin mənəvi həyatının xəzinəsinə töhfələr bəxş etmiş ədəbiyyat və incəsənət ustalarından bəhs edir”.

Heydər Əliyev Şuşanın tarixindən danışmaqla, onun Azərbaycan mədəniyyəti hadisəsi olduğunu dönə-dönə qeyd etməklə bu gözəl şəhərə yiyə durmaq xəyalına düşmüş erməni şovinistlərinə başa salırdı ki, xam xəyallarından əl çəksinlər.

O dövrün rəsmi məlumatında xəbər verilir ki, "Əliyev Şuşanı gəzərək işlərin gedişi ilə tanış oldu, işlərin davam etdirilməsinə dair bir sıra dəyərli qeydlər və təkliflər söylədi. O dedi ki, yeni binalar tikməklə yanaşı, qədim şəhərin qorunub saxlanmasına, tarixi keçmişin abidələrinə də xüsusi fikir verməк lazımdır. Şuşa qədirbilən şairlər, musiqiçilər, rəssamlar məskəni kimi məşhur olmuşdur. Buranın havasında poeziya və musiqi duyulur, təbiət özü yaradıcılığa ruhlandırır, ilham gətirir. Zənnimcə, burada mədəniyyət ustaları üçün yaradıcılıq evi tikmək məqsədəuyğun olardı".

Bu sözlərin ona görə böyük əhəmiyyəti vardı ki, Şuşa onu qəsb edənlərin yox, onu yaradanların (yaradıcıların!) vətəni idi.

Həmin gün o vaxt Stepanakert adlandırılan Xankəndidə Dağlıq Qarabağ fəallarının yığıncağı keçirilmiş, yığıncaqdakı nitqini respublika rəhbəri bu sözlərlə başlamışdı:

"Bu gün biz ondan başladıq ki, Şuşa şəhərinə getdik, görkəmli Azərbaycan şairi Vaqifin məzarı üstündə ucaldılan əzəmətli məqbərənin açılışında iştirak etdik. Molla Pənah Vaqif poeziyamızın korifeyidir, insanın və doğma torpağın gözəlliyinin ilhamlı nəğməkarıdır, onun gözəl şeirləri xeyirin və ədalətin təntənəsinə inam oyadır. Vaqif həm də xalqlar dostluğunun böyük carçısı kimi şöhrət qazanmışdır. Vaqifin böyük xidməti ondan ibarətdir ki, hakimiyyət uğrunda daxili çəkişmələrin, müharibələrin, zorakılığın və zülmün hökm sürdüyü mürəkkəb bir şəraitdə o, dahiyanə bir uzaqgörənliklə xalqın yeganə nicat yolunu Rusiya ilə yaxınlaşmaqda görürdü. O özünün bütün diplomatik səylərini, şairlik istedadını bu işə həsr etmişdir. Məqbərənin açılışı şərəfinə keçirilən bugünkü mitinq öz həmvətənlərini xoşbəxt və azad görmək arzusu ilə yaşamış şairə və vətəndaşa xalq məhəbbətinin daha bir ifadəsi oldu".

Son illər Azərbaycan KP MK və respublika hökumətinin Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında qərarından sonra, xüsusilə tarix və memarlıq abidələrinin bərpa edilməsi və qorunub saxlanması ilə əlaqədar məsələlər sahəsində görülən işlər barədə məlumat verən respublika başçısı əlavə etmişdir:

"Biz şəhərə baxarkən faydalı təkliflər, o cümədən ötən əsrin məşhur şairəsi Xurşidbanu Natəvanın evinin bərpası haqqında təkliflər eşitdik. Zənnimcə, həmin məsələlər müvəffəqiyyətlə həll ediləcəkdir. Azərbaycan KP MK, respublika hökuməti müasir dövrün tələbləri, keçmiş və indiki dövr haqqında fikirlərimiz nəzərə alınmaqla Şuşa şəhərinin Azərbaycanın əsl mədəniyyət, şəhərsalma, arxitektura və incəsənət incisinə çevrilməsi üçün əllərindən gələni etməyə hazırdırlar".

Şuşada Poeziya evinin açılışının Vaqifə məhəbbətlə başlanan bir şeir bayramı olduğunu, ədəbi yaradıcılığın inkişafına, xalqların dostluq və qardaşlığının daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirən natiq demişdir:

"Burada, Şuşada keçirilən şənliklərdə Vaqif poeziya gününü ənənəyə çevirmək ideyası meydana gəlmişdir. Respublikamızda Nizami, Sabir, Yesenin, Səməd Vurğun poeziya günləri keçirilir və onlar ənənəyə çevrilmişdir. Ədəbiyyatçılar,

zəhmətkeşlərin nümayəndələri həmin günlərdə şairlərin abidələri qarşısına toplaşıb şeir oxuyurlar. Belə günlər böyük bədii hadisəyə çevrilir, ölkəmizin xalqlarının dostluq və qardaşlığının möhkəmlənməsinə kömək edir. Zənnimcə, Vaqif poeziya günləri də bu gözəl ənənəni zənginləşdirərdi".

Bu sözləri deyən böyük şəxsiyyət yalnız mənsub olduğu xalqın Lideri deyildi, həm də region xalqlarına birgəyaşayış texnologiyalarını təbliğ edən böyük humanist idi. Heç bir şübhə yoxdur ki, o, Şuşada, Qarabağda erməni şovinizminin çoxdan baş qaldırdığını bilirdi (və onu da bilirdi ki, ermənilərin "vətən"i haradır), ancaq Sovetlər Birliyində sərhəd mübahisələri olmamalı, hər sovet vətəndaşı SSRİ-nin hər bucağını özünün vətəni saymalı idi. Ona görə də bir bucağa qısılıb oranı özlərinin "tarixi vətən"i elan etməyə adət eləmiş (və bunun üçün bütün syasi mərkəzləri, o cümlədən Moskvanı abırdan salmış) erməni ideoloqları eşitsin deyə bütün aydınlığı ilə söyləmişdi:

"Mən adamların ünsiyyətinin – mənəv-şəxsi ünsiyyətinin böyük əhəmiyyətini bir daha dönə-dönə qeyd etmək istəyirəm. Ona görə də mən belə hesab edirəm ki, bugünkü gün vilayət və respublika üçün xüsusi əhəmiyyətə malikdir. Dağlıq Qarabağa respublikamızın görkəmli mədəniyyət və elm xadimləri, yaradıcılıq İttifaqlarının rəhbərləri, yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, kinematoqrafçılar, Elmlər Akademiyasının prezidenti başda olmaqla alimlər gəlmişlər. Yəqin ki, Stepanakertə və Şuşaya eyni vaxtda hələ heç zaman Azərbaycandan bu qədər çox elm və mədəniyyət xadimi gəlməmişdir.  Belə bir səfərin təşkil olunması yaxşıdır..."

"Belə bir səfərin təşkil olunması" iki mənada "yaxşı" idi: birincisi o idi ki, belə böyük bir heyət hələ Azərbaycan SSR öz yerində, SSRİ-nin ərazisinə gəlmişdi, ikincisi isə, əgər belə bir heyət Dağlıq Qarabağa gəlib böyük bir Azərbaycan şairinin məqbərəsini yaradaraq onu ziyarət edirsə, Poeziya evi tikirsə, respublika rəhbəri qarlı yanvar günündə Şuşanı küçə-küçə gəzib onun təmiri üçün göstərişlərini verirsə, deməli, gələcək pis ola bilməzdi:

"Ümidvaram ki, Azərbaycanın Dağlıq Qarabağa gəlmiş mədəniyyət. incəsənət ustaları, alimləri bugünkü günü layiqincə qiymətləndirəcəklər, yaddan çıxarmayacaqlar..."

Çünki həmin gün həm də Molla Pənah Vaqifin günü idi.

XIX əsr Azərbaycan tarixinə misli görünməmiş kataklizmlərlə gəldi: ölkənin Şimali və Cənubi olmaqla iki yerə ayrılması, bunun ardınca Şərq və Qərb dəyərlərinin mübarizə meydanına çevrilməsi dil-ünsiyyət texnologiyalarında olduğu kimi ədəbi-mədəni düşüncədə də öz əksini tapmağa başladı. Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov kimi ziyalıların fəaliyyətindən sonra XX əsrin əvvəlləri dilə, ədəbiyyata, mədəniyyətə, ictimai həyata biri digərini inkar edən yeni "zövqlər" gətirdi ki, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Üzeyir Hacıbəyov və b. ədəbi şəxsiyyətlər bu "zövq" müxtəlifliklərini

bir millətin ümumi ictimai "tərcümeyi-hal"ında birləşdirməyə çalışırdılar. Çünki Şimalla Cənub, Şərqlə Qərb arasındakı ziddiyyətə üçüncüsü də əlavə olunurdu ki, bu, aşağılarla (xalqla) yuxarılar (ziyalılar) arasındakı ziddiyyət idi. Və Azərbaycan xalqı "sovet dövrü"nə həmin üçölçülü ziddiyyətlər kompleksi ilə daxil oldu. 20-ci illərin əvvəllərindən etibarən Azərbaycanın Şimalı ilə Cənubu arasında kəskin sərhədin qoyulması isə artıq milli fəlakət idi.

Heydər Əliyev Azərbaycan xalqının tarixinin bütün dövrlərinə həssas olmuş, XIX-XX əsrlərə isə ona görə xüsusi münasibət göstərmişdir ki, biz bu gün də həmin dövrü (hələ başa çatmamış dövrü!) yaşayanlardanıq. Ola bilsin ki, xalqla ziyalılar arasındakı (eləcə də ziyalıların bir-biri arasındakı ziddiyyətə, prinsip etibarilə, son qoyulmuşdur, ancaq Şərqlə Qərb, Şimalla Cənub arasındakı fərqlər hələ də qalır.

Yeni dövrün ictimai-siyasi, ideoloji-mənəvi əhval-ruhiyyəsini əks etdirən hər bir şair, nasir, dramaturq, alim, mütəfəkkir, publisist haqqında Heydər Əliyev müxtəlif vaxtlarda müəyyən mülahizələr söyləmiş, onların milli ictimai fikir tarixindəki yeri, xidmətləri barədə dəyərli sözlər demişdir.

1972-ci ilin oktyabr ayının 3-də Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərinin təntənəli açılışındakı nitqində Azərbaycan SSR-in rəhbəri demişdir:

"Rus dili Azərbaycanda maarif və mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Azərbaycanın maarifpərvər şairi Seyid Əzim Şirvani oğluna şeirlə yazdığı müraciətində bunu çox yaxşı ifadə etmişdir:

Ey oğul, hər lisana ol rağib,
Xassə ol rus elminə talib.
Onlara ehtiyacımız çoxdur.
Bilməsək dil, əlacımız yoxdur".

Həqiqətən, Seyid Əzim bu və ya bu tipli çoxlu maarifçi şeirlərində oğlu Cəfəri və onun şəxsində yeni nəsli elmə, təhsilə səsləyirdi. Azərbaycan məktəbinin ilk dərsliklərindən olan "Rəbiül-ətfal" bütünlüklə həmin ideyanın təbliğinə həsr olunmuşdu. Dini dünyagörüşü etibarilə kamil bir müsəlman olsa da, Seyid Əzim yeniləşən dünyanın ovqatını prinsipial bir şəkildə əks etdirmişdi.

Heydər Əliyev Azərbaycan ədəbiyyatının, ictimai, siyasi və mədəni fikrinin görkəmli nümayəndəsi Mirzə Fətəli Axundzadənin adını həmişə fəxrlə çəkmiş, onu ölkədə yeniləşmənin, novatorluğun, dünya miqyaslı düşüncənin bayraqdarı saymışdır.

Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərinin təntənəli açılışında respublikanın rəhbəri demişdir:

"Azərbaycan xalqının görkəmli oğlu, yazıçı və materialist filosof M.F.Axundov rus mədəniyyətinin, rus dilinin alovlu təbliğatçısı idi. O yazmışdı ki, rus dili "ən incə fikirləri ifadə etmək üçün tayı-bərabəri olmayan bir dildir". A.S.Puşkinin ölümü münasibətilə Mirzə Fətəli Axundovun dərin həyəcan hissi ilə yazdığı "Şərq poeması"

Azərbaycan-Rusiya mədəni əlaqələri salnaməsində dərin iz buraxmışdır. Mirzə Fətəli Axundov A.S. Puşkini "söz ordusunun başçısı" adlandırmışdı. Axundovun poemasının rusca tərcüməsini dərc edən "Moskovski nablyudatel" jurnalı poemanı "Puşkinin qəbri üstünə şairin əli ilə qoyulmuş gözəl bir çiçək dəstəsi" adlandırmışdı".

1980-ci ilin 31 oktyabrında yazıçıların ümumittifaq yaradıcılıq konfransının "Gülstan" şadlıq sarayında keçirilən bağlanışındakı çıxışında söyləmişdi ki, "görkəmli mütəfəkkir, yazıçı, Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundov bütün yaradıcılığı, bütün varlığı ilə böyük beynəlmiləlçi idi... Puşkinin ölümündən bir neçə gün sonra Mirzə Fətəli Axundovun nə yazdığını xatırlayaq:

Ey dünyadan bixəbər, söylə görüm, məgər sən,
Yatıb qəflət içində bir şey eşitməmisən
Şairlər məclisinin o böyük başçısından?
O Puşkin ki, şeirdən nəqşlər vuran zaman
Sanasan söz mülkünə bir ilk bahar gələrdi,
Şəninə hər tərəfdən təriflər yüksələrdi.
O Puşkin ki, ağ kağız onun zər qələmindən,
Dünyalara sığmayan qəmindən, ələmindən
Qaralmaq atəşilə od tutardı, yanardı,
Onda tovuz misalı min xəyal rəngi vardı.
Ah, o dəmlər, a dostum, Lomonosov deyirlər
Ülvi bir gözəlliklə yazıb incə şeirlər
Şeiriyyət dünyasını bəzəmişsə də, lakin
Puşkinin quş xəyalı olmuş o yerdə sakin.
Əgər şeir mülkünü Derjavin tutmuşsa da,
Puşkin cavan yaşından sahib olub bu ada.
Dərin, dibsiz göylərdən hakim yaranmış ona.
Ah, bəlkə, Karamzinin o bilik badəsini,
Onun ümmanlar kimi dərin ifadəsini
Puşkin almış əlindən içib yetirmiş sona.
Şərq necə vurğunudur bir gecəlik hilalın,
O da istəklisiydi soyuq, qarlı şimalın.
Onun şöhrəti, sanı yayılmışdı hər yana,
Necə çar hökmləri Çindən Tatarıstana".

Mirzə Fətəlinin dramaturgiyası, fəlsəfi traktatları, nəsri, yeni əlifba uğrunda mübarizəsi onun tarixi şəxsiyyəti barədə müfəssəl təsəvvür yaradır ki, Ulu Öndər vaxtaşırı olaraq bu barədə söhbət açmış, onun genişmiqyaslı ictimai fəaliyyətinə toxunmuş, xüsusilə Mirzə Fətəli yaradıcılığının dünya miqyasını – Şərq və Qərb əlaqələrini qeyd etmişdir.

2001-ci ilin oktyabr ayının 12-də Azərbaycan Prezidenti Bakıda dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin abidəsinin açılış mərasimində demişdir:

“Puşkin təkcə Rusiyanın yox, rus xalqının yox, bütün bəşəriyyətin dahi insanlarından biridir. Təsadüfi deyil ki, Puşkinin yaradıcılığı – qısa bir ömür zamanı yazdığı həddən ziyadə əsərləri dünyanın bir çox xalqları tərəfindən sevilə-sevilə oxunur, öyrənilir və bu əsərlər insanlara mənəvi qida verir.

Puşkin Azərbaycan üçün doğma bir insandır. Çünki Puşkinin yaradıcılığı Azərbaycanda hələ XIX əsrdə Azərbaycanın mütəfəkkir şəxsiyyətləri, alimləri, şairləri tərəfindən öyrənilirdi və tərcümə edilirdi. Təsadüfi deyil ki, Azərbaycanın böyük yazıçısı, şairi, filosofu Mirzə Fətəli Axundov Puşkinin əsərlərindən bəhrələnmiş və Puşkinin vaxtsız ölümü münasibətilə özünün ən dəyərli əsərlərindən birini – “Şərq poeması”nı yazmışdı”.

Prezident Puşkinə münasibətdə Mirzə Fətəli ənənələrinin Azərbaycanda həmişə davam etdiyini göstərmişdir.

“XX əsrdə Puşkinin yaradıcılığı Azərbaycanda geniş yayılmışdır... Bizim böyük şairlərimiz Puşkinin əsərlərinin, demək olar ki, əksəriyyətini, hər halda məşhur əsərlərinin hamısını dəfələrlə Azərbaycan dilinə tərcümə ediblər.

...Puşkin, bir daha deyirəm, Azərbaycana yad bir anlayış deyil. Amma indiki zamanda, yəni Azərbaycan müstəqil bir dövlət olduğu zamanda Puşkinin yaradıcılığının öyrənilməsi, mənimsənilməsi Rusiya ilə müstəqil Azərbaycanın bütün sahələrdə əlaqələrinin daha da inkişaf etməsinə xidmət edir və edəcəkdir”.

Aşağıdakı sözlər isə qurduğu dövlətin nüfuzunu hər yerdə, hər məqamda qorumağa, bunun üçün etibarlı modellər hazırlayıb ənənəyə çevirməyə hazır dahi siyasi xadimə məxsusdur:

“Biz Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünü bayram edirik. Bax bu bayram günlərində Bakının mərkəzindəki gözəl bir guşədə Puşkinin abidəsinin qoyulması onu göstərir ki, Azərbaycan müstəqil bir dövlət olaraq, milli azadlığını əldə edəndən sonra, eyni zamanda bütün başqa xalqlara da, xüsusən keçmişdə sıx əlaqədə olduğu xalqlara da öz hörmət və ehtiramını bildirir”.

* * *

1994-cü ilin 28 dekabrında Azərbaycan Prezidenti Cəlil Məmmədquluzadənin ev-muzeyini açmış, yazıçının həmin gün Respublika sarayında keçirilən 125 illik yubiley gecəsindəki nitqini aşağıdakı sözlərlə başlamışdı ki, “bugünkü mərasim böyük yazıçımızın şəxsiyyətinə, onun yaradıcılığına, ədəbi və mənəvi irsinə verilən yüksək qiymətin təzahürüdür. Eyni zamanda, bu, dövlətin, ictimaiyyətin, xalqımızın mədəniyyətə, ədəbiyyata, mənəviyyata göstərdiyi münasibətdir. Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir

şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o bizim müasirimizdir".

Mirzə Cəlilin müasirliyi onda idi ki, mənsub olduğu xalqa, məşhur ifadəni xatırlasaq, öz keçmişindən gülə-gülə ayrılmağı təlqin edirdi. "Molla Nəsrəddin" jurnalı onun və əqidə dostlarının əlində bu baxımdan çox təsirli bir vasitə olmuşdu:

"Cəlil Məmmədquluzadə... Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir.

... Əvvəl Tiflisdə, sonra Təbrizdə, daha sonra Bakıda nəşr olunan bu jurnal, təəssüflər olsun ki, Mirzə Cəlil dünyasını dəyişəndən sonra öz fəaliyyətini dayandırdı... Ancaq buna o illərdə də ehtiyac çox idi, bu gün də ehtiyac çoxdur və bugünkü şəraitdə biz yenə də "Molla Nəsrəddin" jurnalına çox möhtacıq".

Ulu Öndər, tamamilə doğru olaraq, Mirzə Cəlilə yalnız bir ədib, qələm adamı kimi deyil, ictimai-siyasi xadim kimi də yüksək qiymət vermişdir:

"Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda böyük ictimai xadim kimi, böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycan ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlişində böyük rol oynamışdır. Bu təkcə ədəbiyyat deyil, təkcə mədəniyyət deyil, bu, siyasətdə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir".

Mirzə Cəlil dövrün ən görkəmli azərbaycançılarından biri, bu ideologiyanın bütün müsbət keyfiyyətləri ilə görkəmli daşıyıcısı idi. O, 1917-ci ildə məşhur "Azərbaycan" məqaləsində yazırdı:

"Ax, unudulmuş vətən, ax, yazıq vətən!

... Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki, mənim anam kimdir? Öz-özümə də cavab verirəm ki, mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

- Dilim nə dildir?
- Azərbaycan dilidir.
- Yəni vətənim haradır?
- Azərbaycan vilayətidir".

Mirzə Cəlil Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsində bunları yazmaqla, əslində, siyasi uzaqgörənlik etmişdi.

Ulu Öndər tamamilə haqlı olaraq demişdi:

"Biz indi əsrin sonuna doğru addımlarkən müstəqil dövlət kimi öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü ilə, gələcəyi ilə bağlı olmalıdır. Bu baxımdan Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyamızın

əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir".

Milli mənliyin (və milli ideologiyanın) ilk baxışdan nəzərə çarpan göstəricisi, şübhəsiz, milli dildir ki, Mirzə Cəlil bu barədə dövrünün ən obyektiv yol tutan ziyalılarından biri, hətta cəsarətlə, demək olar ki, birincisi idi. Və Ulu Öndər həmin maqama ayrıca diqqət yetirmişdi:

"Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi "Vətən, vətən, vətən! Millət, millət, millət! Dil, dil, dil!" xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə - Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi, insanların hamısını ana dilini bilməyə dəvət etməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinə dair fikirləri, yazıları o vaxt üçün çox vacib idi, bu gün üçün də çox aktualdır".

Heydər Əliyev dühasının təzahürü idi ki, Mirzə Cəlil kimi klassiklərin ideyalarını yalnız yaşadıqları dövrün, proqressin cəhəti hesab etməklə kifayətlənmirdi, onları milli mənəvi dəyər olaraq xalqın tarixinin ən müxtəlif dövrlərinə və zamanlarına, xüsusilə bugününə və gələcəyinə tətbiq etməyin perspektivlərini müəyyənləşdirirdi:

"Anamın kitabı" əsəri Azərbaycan üçün çox dahiyanə əsərdir. Çünki bizim xalqımız, respublikamız Şərqin və Qərbin, Şimalın və Cənubun qovuşuğundadır. Əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur. Mədəniyyətimizin və elmimizin inkişafına da bu təsirlər olmuşdur. Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini daim yaşadıb, Azərbaycanın milliliyini yaşadıb, milli şüuru yaşadıb, milli məfkurəni yaşadıblar".

Heydər Əliyevin "Ölülər" əsərinə münasibəti isə, tamamilə təbiidir ki, xüsusi olmuşdur:

"Mən tam cəsarətlə deyə bilirəm ki, dünya ədəbiyyatında buna bərabər, buna bənzər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılığını, özünəməxsus fitri istedadını nümayiş etdirir. "Ölülər" əsəri ölməz əsərdir. O, yazıldığı vaxtda lazım idi, o bizə bu gün də lazımdır. "Ölülər" əsərindən uzun müddət din əleyhinə təbliğatda istifadə edilib və çox hallarda o, din əleyhinə yazılan bir əsər kimi qəbul olunubdur".

Bunun bir vaxtlar belə olduğunu təəssüflə xatırladan Ulu Öndər tamamilə doğru olaraq göstərir ki, "Mirzə Cəlil bu əsəri yaradarkən heç də dinə müxalif çıxmayıbdır, əksinə, bu əsərlə islam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışıbdır".

Bu sübut isə, heç şübhəsiz, ondan ibarət idi ki, Mirzə Cəlil bir vaxtlar "qəflət"dən oyanmaq üçün qəbul edilmiş islamı cəmiyyətin zaman-zaman necə qəflət bataqlığına çevirdiyini göstərir.

Prezident "Ölülər" əsərinin ideya-məzmununda ikinci bir məqama – mənəviyyat məsələsinə toxunur:

"Təəssüf ki, mənəviyyatda çatışmazlıq, mənəviyyatda gerilik bizi bu gün də sıxır. Biz "Ölülər" əsərindən dərs götürməliyik".

Və göstərir ki, əvvəl Şeyx Nəsrullahın yolunu gözləyənlər sonra onun xidmətindən imtina ediblər... "Nə üçün? Günahlarına görə. Nə üçün? Mənəvi şikəstliklərinə görə.

Bu mənəvi şikəstlik bizim cəmiyyətdə indi də var... Bəlkə, o vaxtkından daha çoxdur. Ona görə də "Ölülər"... böyük bir fəlsəfi əsər kimi bizə bu gün də lazımdır".

Yubiley gecəsindəki nitqində Azərbaycan Prezidenti demişdir:

"Burada Anar Cəlil Məmmədquluzadənin həyatının son illəri haqqında məlumat verdi, dedi ki, bu böyük insan nə qədər əzab-əziyyət içində yaşayıbdır və təəssüf ki, o vaxt cəmiyyət ona layiqincə qayğı göstərməyibdir. Bunu eşidərkən, bunu oxuyarkən dəhşətə gəlirsən, inciyirsən və bəzən də anlamırsan ki, nə cür ola bilərdi ki, Cəlil Məmmədquluzadə kimi bir şəxsiyyət elə ağır şəraitdə yaşasın və elə bir əzab-əziyyət içərisində dünyanı tərk etsin".

Ümummilli Lider bu məsələ ilə bağlı olaraq dahilərə məxsus bir ümumiləşdirmə ilə nə qədər paradoksal görünsə də bir-birini istisna etməyən iki nəticə çıxarır: Birincisi odur ki, "ədəbiyyata, elmə, mədəniyyətə qayğı, diqqət həmişə olmalıdır. İndi iqtisadiyyatımızda vəziyyət ağırdır, müharibə şəraitindəyik, çətin yaşayırıq... Bunlar keçid dövrünün gerçəkliyidir. Mən bunları ürək ağrısı ilə deyirəm... Əmin edirəm ki, biz bundan sonra da əlimizdən gələni edəcəyik və çalışacağıq ki, əhalinin bu təbəqəsinə (*yaradıcı adamlara – N.C.*) bu ağır dövrdə imkan dairəsində yardımlar olunsun".

İkincisi isə odur ki, "gərək bu gün bizim yaradıcı adamlarımız – alimlərimiz, yazıçılarımız, mədəniyyət xadimlərimiz Cəlil Məmmədquluzadənin həyatını təhlil edərək özləri üçün müəyyən etsinlər ki, əgər Cəlil Məmmədquluzadə kimi adam belə ağır əzab-əziyyət görübsə, öz iradəsindən, öz məsləkindən dönməyibsə, demək, bu, böyük bir məktəbdir, böyük bir təcrübədir, böyük bir yoldur".

Prezident əlavə etmişdir:

"Mən istəməzdim ki, bu gün mədəniyyət xadimlərimiz belə ağır vəziyyətə düşsünlər. Əgər həyat kimisə belə ağır, əziyyətli vəziyyətə salıbsa, biz onlara kömək əli uzatmalıyıq, eyni zamanda mədəniyyət xadimlərimiz, alimlərimiz, ziyalılarımız bu əzab-əziyyətli dövrü cəsarətlə keçib getməlidirlər. Biz bərabər keçib getməliyik".

Azərbaycan Prezidenti 1999-cu ilin oktyabr ayının 13-də Naxçıvanda Cəlil Məmmədquluzadənin ev muzeyinin açılışı mərasimində iştirak edərək demişdir:

"Mən dünən çıxışımda dedim, bu gün də deyirəm, Azərbaycan bizi əhatə edən istər uzaq, istər yaxın bütün Şərq ölkələrindən bu gün fərqlənir. Nəyə görə fərqlənir? Əgər bizim ulu babalarımız, əcdadlarımız Azərbaycanda mədəniyyəti, elmi, dünyəviliyi, tərəqqini yaratmasaydılar, onu inkişaf etdirməsəydilər, bəli, Azərbaycan belə olmazdı. Azərbaycanda insanlar bu gün də çadra altında olacaqdılar. Azərbaycan öz milli ənənələrini, dəyərlərini, dini dəyərlərini qoruyaraq, saxlayaraq, inkişaf

etdirərək eyni zamanda dünyəvi mədəniyyətə doğru gedibdir. Azərbaycan xalqının buna nail olmasında Azərbaycanın böyük simalarının, o cümlədən dahi insan Cəlil Məmmədquluzadənin – Mirzə Cəlilin xüsusi xidməti və rolu olubdur".

Əlbəttə, burada cəmiyyət (əslində, millət!) və şəxsiyyət münasibətlərindən söhbət gedir. O millət ki fəlakətə düçar olacağı günləri gözünün qabağına alıb, onu həmin fəlakətlərdən çıxaracaq şəxsiyyətləri yetişdirmir, onu, nəticə etibarilə, şeyxnəsrullahların yırtıcı, çaqqal xislətli ehtirasları idarə edəcəkdir:

"Əgər Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini göstərməsəydi, əgər "Molla Nəsrəddin" jurnalı yatmış insanları qaranlıqdan çıxarmağa çalışmasaydı, əgər onun "Ölülər" əsəri insanların gözünü real dünyaya açmasaydı, xalqımız bu qədər inkişaf edə bilməzdi. Bu sözlər təkcə Cəlil Məmmədquluzadəyə aid deyil, bizim çox dahilərimizə aiddir".

Mirzə Cəlil, doğrudan da, Nizami, Nəsimi, Füzuli, Vaqif, Zakir, Mirzə Fətəli xətti ilə gələn ədəbi-ictimai yaradıcılıq (və məfkurə) pleyadasının XX əsrin əvvəllərində ən parlaq ulduzu idi.

Ulu Öndər öz nitqində böyük öndərin "kiçik vətən"ini də yada salmışdı:

"Naxçıvan torpağı, doğrudan da, çox qəribə bir torpaqdır. Amma Cəlil Məmmədquluzadənin doğulduğu bir kənd də var – Nehrəm kəndi... O kənd çox qəribə bir kənddir. Həqiqətən, çox mövhumatcıl bir kənddir, dinə çox bağlı kənddir. Amma eyni zamanda, təsəvvür edin, o kənddə doğulmuş adam – onun atası Məmmədqulu kişi öz oğlunu o kənddən ayırır, Qori Seminariyasına, bura – Naxçıvana oxumağa göndərir. Bu kənd qeyrətli insanlar kəndidir. Mən o kəndi həmişə sevmişəm. Xatirimdədir, 40-cı illərdə mən Naxçıvanda yaşayanda Cəlil Məmmədquluzadənin qızı Münəvvər xanım burada idi, mən onunla dəfələrlə görüşürdüm. Mən gənc idim, onunla yaş fərqim böyük idi. Ancaq Cəlil Məmmədquluzadəyə görə onu daha yaxından tanımaq, öyrənmək üçün çalışırdım, görüşürdüm. O vaxt onunla görüşmək də asan deyildi. O, SSRİ-nin deputatı idi".

Ümummilli Liderin yaratdığı ənənə idi ki, bütün böyük Azərbaycan ədəbiyyatı klassikləri kimi Cəlil Məmmədquluzadə də bu gün həm hərtərəfli tədqiq olunur, həm də onun ideyaları müasir azərbaycançılıq ideologiyasının əsaslarından biri kimi təqdim edilir.

* * *

Heç şübhəsiz , Heydər Əliyevin görkəmli ədib, məşhur ictimai-siyasi xadim Nəriman Nərimanovun yaradıcılığına, fəaliyyətinə və şəxsiyyətinə münasibəti müstəsna olmuşdur. İlk növbədə ona görə ki, bu böyük insan vaxtilə Azərbaycana rəhbərlik etmiş, sonra isə Moskvada çox nüfuzlu bir mövqe tutmuşdu. İlk "milli kommunist" idi. Öz xalqının, respublikasının mənafelərini müdafiə etdiyinə görə Lenindən sonrakı sovet rəhbərliyinin ciddi təzyiqləri ilə qarşılaşaraq bu günə qədər

üstü açılmayan hansısa cinayətin qurbanı olmuşdu. Və uzun illər onun haqqında danışmaq, yazmaq da təhlükəli hesab edilirdi.

Heydər Əliyev 1972-ci ilin iyun ayının 6-da Nəriman Nərimanovun abidəsinin açılışında söylədiyi nitqdə demişdir ki, “Nəriman Nərimanov mürəkkəb və çətin bir yol keçmiş, fəaliyyətə maarifçi-demokrat kimi başlamışdır”.

Həmin ilin iyun ayının 29-da Nəriman Nərimanovun 100 illik yubileyində respublika rəhbəri məruzə etmişdir. O, böyük ictimai-siyasi xadimin ədəbi yaradıcılığından da bəhs etmişdir:

“... Nəriman Nərimanov məşhur “Nadanlıq”, “Nadir şah” və digər bədii əsərlərini yazmış, Azərbaycan və rus dillərini öyrənmək üçün dərsliklər və dərs vəsaitləri yaratmışdı. Pedaqoji işlə fəal bir surətdə məşğul olur, Azərbaycan dilində qəzet və jurnallar buraxmaq, teatrı inkişaf etdirmək yolunda addımlar atırdı. O, Qoqolun ölməz “Müfəttiş” komediyasını Azərbaycan dilinə tərcümə etmişdi”.

Nəriman Nərimanovun ədəbi fəaliyyətinin ictimai məzmunu, maarifçi-demokratik xarakteri barədə danışan məruzəçi demişdi:

“Nəriman Nərimanov ədəbi yaradıcılığa zəhmətkeşləri azadlıq və səadət uğrunda mübarizə vasitəsi kimi, onları şər qüvvələrə, mülkədar və kapitalist zülmünə, nadanlığa, dini fanatizmə və cəhalətpərəstliyə fəal müqavimət ruhunda tərbiyə etmək vasitəsi kimi baxırdı. Nəriman Nərimanov bu meyarları əsas tutaraq, özünün yazdığı kimi, xalq kütlələrini oyadıb inqilaba hazırlamağı öz ədəbi və ictimai fəaliyyətinin qayəsi hesab edirdi”.

Nəriman Nərimanovun inqilabi fəaliyyəti barədə ətraflı məlumat verdikdən sonra məruzəçi bir daha onun geniş mənada maarifçi təşəbbüslərinə qayıdır:

“Azərbaycan partiya təşkilatı maarif, mətbuat, elm, ədəbiyyat və incəsənətin inkişafı uğrunda qətiyyətlə mübarizə aparırdı. Respublikanın digər rəhbərləri kimi, Nəriman Nərimanov da köhnə Azərbaycan ziyalılarını sovet hakimiyyətinə çəkmək üçün çox iş görmüş, yeni Azərbaycan ziyalılarının təşəkkül və tərbiyəsinə, ilk ali məktəblərin, texnikumların, kitabxanaların, muzeylərin və digər mədəni-maarif ocaqlarının yaradılmasına çox əmək sərf etmişdir”.

1977-ci ilin noyabr ayının 6-da Azərbaycan rəhbəri Bakı şəhərində Nəriman Nərimanovun 1913-cü ildən 1918-ci ilə qədər yaşamış olduğu evdə onun xatirə muzeyini açmışdır.

* * *

Hüseyn Cavid Azərbaycan ədəbiyyatında həm möhtəşəm dram əsərlərinin müəllifi olan böyük şair-dramaturq, həm bütöv bir ədəbi-fəlsəfi cərəyanın əsas nümayəndəsi, həm də repressiyaya məruz qalmış ictimai-siyasi xadim, ideoloq kimi məşhurdur.

Azərbaycan KP MK Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin 100 illiyi haqqında 21 iyul 1981-ci il tarixli qərar qəbul etmişdir. Həmin qərarda deyilir:

"Hüseyn Cavidin incə lirizm və dərin psixologizmlə, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Onun şerləri və poemaları Bakıda və Moskvada nəşr edilmiş, pyesləri təkcə Bakı teatrlarında deyil, həm də Tbilisi və Daşkənd, Səmərqənd və Aşqabad teatrlarında, ölkənin başqa şəhərlərinin teatrlarında tamaşaya qoyulmuş, qardaş sovet xalqlarının dramaturgiyasının və teatr sənətinin inkişafına səmərəli təsir göstərmişdir".

1995-ci ilin iyun ayının 10-da Prezident sarayında Azərbaycan Prezidenti Heydər Əliyev müşavirə keçirmiş, həmin müşavirədəki çıxışına bu sözlərlə başlamışdı:

"Bu gün mən sizi mədəniyyətimizlə, ədəbiyyatımızla bağlı olan bir məsələ üçün – Azərbaycan xalqının böyük şairi, yazıçı, dramaturqu, filosofu Hüseyn Cavidin xatirəsi ilə əlaqədar buraya dəvət etmişəm".

Cavid sənətinin qüdrətindən, böyük şair-mütəfəkkirin xatirəsini əbədiləşdirmək üçün hələ sovet dövründə (və bütün maneələrə baxmayaraq!) görülən müəyyən işlərdən, onların yarımçıq qalması səbəblərindən danışan Prezident əlavə etmişdir ki, "vaxt var idi, Hüseyn Cavidi və onun bütün əsərlərini qadağan etdilər. Hüseyn Cavid həbs olunandan, hətta dünyasını dəyişəndən sonra onu millətçi, panturkist, antisovet adam adlandırdılar... Necə ki repressiya olunmuş adamlar, onların ailələri üçün repressiya illəri nə qədər uzun olsa da keçib getdi, o ailələr, o insanlar tamamilə bəraət qazandılar, hətta tarixi şəxsiyyət kimi tanınırlar və təbliğ olunurlar, hörmət və ehtiramla yad edilirlər".

Hüseyn Cavidin məqbərəsinin təntənəli açılış mərasimində (29 oktyabr 1996-cı il) Azərbaycan Prezidenti geniş nitq söyləmişdir. Həmin nitqdə Naxçıvanda yaşadığı illəri xatırlamış, Hüseyn Cavidin məzarını ziyarət etməsi, qəbri dağılmış vəziyyətdə görüb pərişan olması barədə danışmışdır. Sonra demişdir:

"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır".

Cəlil Məmmədquluzadə kimi Hüseyn Cavid də, heç şünhəsiz, öz xalqının oğlu idi, ancaq birincisi bu övladlıq missiyasını realist-satirik, ikincisi isə romantik-tarixi üsulla həyata keçirməyə çalışırdı. Və təbii ki, hər iki yol bu dahi şəxsiyyətlərin yaradıcılıq təcrübəsində bir də ona görə məqbul idi ki, son dərəcə düzgün, əsaslı və işıqlı idi:

"Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azdalığa, müstəqilliyə

çağırıbdır. O həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətinə, xalqına həddindən artıq xidmət edən bir insan olmuşdur".

Ulu Öndər bir daha keçmiş günlərə qayıtmış, tarixin onun üçün olduqca təsirli səhifələrini vərəqləmişdi:

"Burada deyildi, 1982-ci ildə Hüseyn Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi... Yazıçılarımız, alimlərimiz, ziyalılarımız böyük fikir mübadiləsi apardılar. Onlar qərar qəbul etdilər, bu mənim də qərarım idi ki, cənazə Naxçıvana gətirilsin. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır".

Əlbəttə, belə bir qərarın qəbul edilməsi Hüseyn Cavidin xatirəsinə ümummilli ehtiramın nəticəsi idi.

Ancaq Hüseyn Cavidin, görünür, taleyi idi ki, hətta Sibirdən Vətənə qayıtdıqdan sonra da bir müddət rahat uyumasını gözləməli imiş:

"Bilirsiniz ki, mən 1982-ci ilin sonunda Azərbaycandan Moskvaya işə keçdim. Doğrudur, orada işləyərkən də mən bu məsələyə maraq göstərirdim və müəyyən addımlar atırdım. Ancaq Moskvada çox böyük işlərlə məşğul olmağım, eyni zamanda, təəssüf ki, o vaxt Azərbaycana rəhbərlik edən şəxslərin bunun mahiyyətini, əhəmiyyətini dərk edə bilməməsi məsələnin belə uzanmasına gətirib çıxardı.

... Azərbaycanın Prezidenti seçiləndən sonar dərhal bu məsələ ilə məşğul oldum. Turan xanım bilir, onu bir neçə dəfə yanıma dəvət etdim. Layihələr hazırlamaq barədə memarlara sifarişlər verdim... Nəhayət, memar Rasim Əliyevin tıklif etdiyi layihə əsasən qəbul olundu".

Bütün bu xatirələrdən, onların arxasında dayanan ağrılı olduğu qədər də qürurverici hissiyyatlardan sonra Ulu Öndər fəxrlə demişdir:

"Nəhayət, biz böyük bir abidənin önündə durmuşuq, bayram edirik. Bu gün böyük iftixar hissi ilə bu abidəni birlikdə açmağa gəlmişik.

Mən çox məmnunam, sevinirəm ki, 15 il bundan əvvəl qəbul etdiyim qərar həyata keçir. Mənim arzularım həyata keçir. Mən sizi də, özümü də bu münasibətlə təbrik edirəm.

Mən çox məmnunam ki, bu gün bu bayram mərasiminə qonşu Türkiyədən, İrandan da nümayəndələr, qonaqlarımız gəliblər".

Əslində, Hüseyn Cavidin möhtəşəm abidəsi ucaldılanda Azərbaycanın iqtisadi vəziyyəti o qədər də ürəkaçan deyildi, ancaq Heydər Əliyev mövcud imkanlar daxilində nə mümkündürsə onu etdi. Və Hüseyn Cavid, eyni zamanda Naxçıvan tarixinin dünya miqyasının yeni üfüqlərini müəyyən etdi:

"Hüseyn Cavidin məqbərəsi Naxçıvan memarlıq tarixinə yeni bir səhifədir. Naxçıvanda böyük memarlıq, milli, mədəni abidələrimiz var. Bu abidə də həmin ənənələrin davamıdır. Ümidvaram ki, Möminə xatun abidəsi kimi bu abidə də əsrlər

boyu yaşayacaqdır. Güman edirəm ki, gələcək nəsillər bu günü xatırlayacaq və bu abidəni yaradanları unutmayacaqlar.

Bu abidəni yaradanlara, yəni onun inşası ilə məşğul olanlara təşəkkür edirəm. Memar Rasim Əliyevə, heykəltəraş Ömər Eldarova, "Star" şirkətinə təşəkkür edirəm".

Vətənin ərazicə ən kiçiyi belə yetirdiyi dahi şəxsiyyətlərlə o dərəcədə böyüyür ki, dünyanın mənəvi xəritəsində bütün ölkələrdən daha əzəmətli görünür.

* * *

Yeni dövrün yeni ədəbiyyatının ən heyrətdoğurucu siması, görünür, Cəfər Cabbarlı idi. İstər Azərbaycan Xalq Cümhuriyyəti, istərsə də Azərbaycan Sovet Sosialist Respublikası olsun, fərqi yoxdur, Cəfər Cabbarlı məhz Azərbaycanı təmsil edirdi: mövzuları ilə, ideyaları ilə, yüksək milli ədəbi təyinatı olan dili ilə...

1982-ci ilin mart ayının 22-də Cəfər Cabbarlının abidəsinin açılışında Heydər Əliyev geniş nitq söyləmişdir:

"Şəxsiyyəti dövr, zaman yetişdirir... Lakin şəxsiyyət də dövrün, zamanın ən mühüm xüsusiyyətlərini ifadə edərək onu səciyyələndirir. Cəfər Cabbarlı məhz belə xadim idi. O, yeni həyat yaradılmasının mürəkkəb, çətin, lakin müzəffər prosesində öz istedadını bütün qüdrətilə əks etdirmişdir, əsərlərində öz dövrünün fəlsəfəsini və psixologiyasını, dövrlər arasındakı qırılmaz əlaqəni, xalqın tarixi müqəddəratının rəşadətli səhifələrini açıb göstərmişdir".

Cəfər Cabbarlı hər nə qədər şair, nasir kimi qələmini (və istedadını!) təcrübədən keçirmiş olsa da, o öz inkar olunmaz yaradıcılıq qüdrətini məhz dramaturgiyada tapdı:

"Şair, nasir və dramaturq Cabbarlının yaradıcılığı çoxşaxəlidir. Onun gördüyü işlər, sözün əsl mənasında, yorulmaz əmək fədaisinin hünəridir. O, müasir Azərbaycan dramaturgiyasının bünövrəsini qoymuşdur, bu dramaturgiyanın inkişafının əsas istiqamətlərini müəyyən etmişdir, Azərbaycan xalqının və bir çox başqa xalqların teatr mədəniyyətini zənginləşdirən qiymətli töhfələr vermişdir. Bizim bütün müasir dram sənətimiz, müəyyən mənada, Cabbarlı teatrının bəhrəsidir. Mirzə Fətəli Axundovun və Cəlil Məmmədquluzadənin böyük ənənələrini inkişaf etdirib zənginləşdirən Cabbarlı teatr yaradıcılığının həqiqi novatoru olmuş, Azərbaycan səhnəsində bu gün gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur".

Heydər Əliyev tarixi nə qədər müasirləşdirməyin, milli irsi bugünkü meyarlar baxımından dəyərləndirib mənəvi sərvətə çevirməyin tərəfdarı idisə, onu saxtalaşdırmağın, başqa ad altında təqdim etməyə çalışmağın da o qədər əleyhdarı idi. Ona görə də demişdi:

"Cəfər Cabbarlı Azərbaycanda sosializm realizminin banilərindən biridir. Onun yeni ədəbiyyat və sənətin ən mühüm prinsipini qeyri-adi qüvvə ilə və yetkinliklə təcəssüm etdirən əsərləri Azərbaycan ədəbiyyatı tarixində bütöv bir dövrü səciyyələndirən çox əhəmiyyətli ideya-bədii hadisədir".

Sosializm realizmi Cəfər Cabbarlı üçün özünün "inqilabi romantika" təzahüründə kifayət qədər milli bir hadisə idi ki. sonralar bunu dahi Səməd Vurğun daha da zənginləşdirməklə yanaşı, onun nəzəriyyəsini də özünəməxsus bir şəkildə formulə etmişdi. Bununla belə Cəfər Cabbarlının romantizmi bilavasitə həyatın özündən nəşət edirdi. Və hətta düşünmək olar ki, böyük sənətkar Azərbaycan Xalq Cümhuriyyəti illərindən aldığı azadlıq, inqilab, yeni həyat impulslarını sovet dövründə də heç bir xəyal qırıqlığına uğramadan (sadəcə, müəyyən direktivlərə uyaraq!) davam etdirirdi:

"Cabbarlının simasında Azərbaycan mədəniyyəti elə bir yeni tipli sənətkar tapdı ki, onun üçün ədəbiyyat və sənət yalnız real həyatı əks etdirmək vasitəsi deyildi, həm də həyatın mürəkkəb inkişafına fəal müdaxilə etmək vasitəsi idi.

"Dövrün ictimai sifarişi"nə, ölkəni yenidən qurmaq uğrunda xalqın mübarizəsinə əsaslanan dəqiq, aydın, döyüşkən həyat mövqeyi – bir sənətkar və vətəndaş kimi Cabbarlının başlıca xüsusiyyətləri bunlardır".

Respublika rəhbəri dahi yazıçı-dramaturqun istedadının həyata, dövrün o qədər də hamar olmayan mənəvi-ictimai münasibətlərinə necə müdaxilə etdiyini, hansı dərin qatları qaldırdığını bir neçə kəlmə ilə şərh edərək demişdir:

"Bütün dolğun və çoxcəhətli real həyatla qırılmaz əlaqə – onun ədəbi irsinin ən qiymətli cəhətidir. Öz ideyalarını, süjetlərini, gözəl obrazlarını həyatımızdan alırdı. Onun əsərlərində zamanın ən vacib problemləri, gündəlik həyatın ən kəskin məsələləri yüksək istedadla əks olunur və dərin fəlsəfi məna ilə səslənirdi.

..."Sevil", "Almaz", "1905-ci il", "Yaşar" – unudulmaz dövrün salnaməsinin parlaq səhifələridir".

Cəfər Cabbarlı yaradıcılığının ideya-estetik xarakteri barədə dəyərli mülahizə söyləməyin bir nümunəsi də, görünür, bundan ibarətdir:

"Cəfər Cabbarlının yaradıcılıq vüsəti özünün zənginliyi və rəngarəngliyi ilə valeh edir. O, xalqımızın qədim dövrünün, azadlıq mübarizəsi tarixinin parlaq lövhələrini yaratmış, doğma yurdumuzda dəyişikliklərin pafosunu, zəmanəmizin qəhrəmanlarının qüdrət və əzəmətini tərənnüm etmiş, istismarçı cəmiyyətin, altun və mənsəbpərəstlik dünyasının eybəcərliklərini sarsıdıcı tənqid atəşinə tutmuşdur".

Heç bir şübhə yoxdur ki, Cəfər Cabbarlının əsərlərində son dərəcə güclü (və sağlam!) bir pafos vardır. Azərbaycanın düşünən insanını, yeni tipli ziyalısını Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun doğurduğu dərin pessimizmdən, milli münaqişələrin, qırğınların acı təəssüratlarından, repressiya ərəfəsindəki sinfi mübarizə "eyforiya"sının yaratdığı süni düşmənçilik "effekt"lərindən az-çox qoruyan məhz bu pafos (!) idi.

Cəfər Cabbarlının ədəbiyyata (və həyata!) gətirdiyi yeniliyin, humanizmin çox mühüm təzahürlərindən biri qadın azadlığının qızğın təbliğatı olmuşdur:

"Cabbarlı Şərq qadınının məzlum vəziyyətinə qarşı bədii sözün nəhəng qüvvəsi ilə mübarizə aparmış, qadının azadlığa çıxmasını təsvir etmiş, unudulmaz qadın obrazlarının bütöv bir silsiləsini yaratmışdır.

...Cabbarlı əsərlərinin bədii təsir qüvvəsi o qədər böyük idi ki, elə bil kitabla oxucu arasında, səhnə ilə tamaşaçı arasında hədd yox olurdu. "Sevil" pyesinin tamaşalarında əsərin qəhrəmanı öz çadrasını başından çıxarıb atarkən tamaşa salonunda onlarca yeni Sevil qətiyyətlə ayağa qalxıb çadrasını atırdı".

Bu, ədəbiyyatın tarixində çox az-az müşahidə olunan bir hadisə idi. Bədii sözün bu dərəcədə böyük təsirə malik olması, bu dərəcədə hüquqi bir status qazanması – dinin hələ güclü olduğu bir ölkədə sxolastik düşüncəyə qarşı çıxıb onun gerçək həyatdakı nüfuzunu sındırması nadir hadisələrdən sayılır. Ancaq müasir dilçilik nəzəriyyəsində işlənən anlayışdan istifadə etsək, Cəfər Cabbarlı "söz-işdir" tezisinin və ya formulunun parlaq nümunələrini vermişdi:

"Aydın", "Oqtay Eloğlu" qəhrəmanlarının faciəsi salondakılarda dərin kədər hissi oyatmaqla yanaşı, adamları burjuaziya cəmiyyətinin eybəcərliklərinə barışmaz mübarizə ruhunda tərbiyə edirdi.

...Əsl sənətin güclü təsiri belədir. Həmin illərin oxucuları və tamaşaçıları sənətkarın əqidəsindən yüksək mənəvi-estetik qüvvə alaraq böyük həyat səhnəsində aparılan mübarizənin fəal iştirakçısı olurdular. Cəfər Cabbarlının əsərləri bu gün də tamamilə aktualdır, bu əsərlər bizi yeni dünya və yeni insan uğrunda coşğun fəaliyyətə, açıq döyüşə səsləyir".

Öz nitqində Cəfər Cabbarlının məşhur "Ölkəm" şeirindən "Vətənimizin verimli torpağı, geniş çölləri, çalışqan ərləri, igid elləri vardır" sözlərini iqtibas edən respublika rəhbəri əlavə etmişdir ki, "sənətkar bu ilhamlı misralarda sanki bizim günləri qələmə almışdır".

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yazılmış həmin şeirin bu cür "təsrif"i, əlbəttə, Azərbaycan SSR-in rəhbəri səviyyəsində böyük bir cəsarət idi. Və həmin şeir bütövlükdə belə səslənirdi:

Şiş ucları buludlarla döyüşən
Dağlarında buzları var ölkəmin.
Göy otlardan ipək paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.

Verimli torpağı, geniş çölləri,
Çalışqan ərləri, iyid elləri,
Böyük gəmiləri, dəmir yolları,
Keçidləri, rizləri var ölkəmin.

Göllərində ördəkləri üzərlər,
Çöllərində maralları gəzərlər,
Güllərindən gəlinlər tac bəzərlər,
Ceyran gözlü qızları var ölkəmin.

Coşqun Xəzər oynar ayaqlarında,
İşıq saçar neftli torpaqlarında.
Tarixlərin qızıl yarpaqlarında
Dadlı-dadlı sözləri var ölkəmin.

Cəfər Cabbarlının abidəsinin açılış mərasimində Azərbaycan Respublikasının başçısı böyük sənətkarın obrazlarının, ideyalarının ölməzliyi barədə demişdir:

“Cabbarlının öz qəhrəmanlarını yaratdığı vaxtdan neçə-neçə illər keçmişdir. Bu qəhrəmanların arzu və amallarının bir çoxu indi həqiqətə çevrilmişdir. Lakin Cabbarlı əsərlərinin yaradıcı qüvvəsi, həyatverici günəş enerjisi bu gün də vətənə xidmət göstərir və həyatın bugünkü parlaq, gur ahəngində biz Cəfər Cabbarlının mərd səsini aydın eşidirik”.

Heydər Əliyev öz çıxışında Cəfər Cabbarlının, əslində, qısa bir ömür ərzində bu qədər zəngin ədəbi irs qoyub getməsini heyrətamiz hadisə adlandırmışdır:

“Cabbarlının həyat yolu və yaradıcılıq taleyi heyrətamizdir. O, az yaşasa da, qoyub getdiyi zəngin ədəbi irs Azərbaycan ədəbiyyatı və incəsənətinin tarixində bütöv bir dövr təşkil edir. Cabbarlının ədəbi irsi xalqın qəlbində və şüurunda, müasirlərimizin adlarında və əməllərində, yeni-yeni oxucu və tamaşaçı nəsillərinə sənətkarın mənəvi təsirinin zəifləmək bilməyən guşəsində yaşayır. Bax budur görkəmli sənətkarın ölməzliyi”.

Və bu ölməzliyin, əbədiliyin sonrakı təzahürləri barədə də respublika rəhbəri özünəməxsus təsirli sözlərlə mərasimi yekunlaşdırmışdır:

“Cəfər Cabbarlı ədəbi irsi daşda və tuncda, küçələrin, meydançaların və mədəniyyət ocaqlarının adlarında, ədəbiyyatşünasların əsərlərində və yazıçıların, bəstəkarların, rəssamların yaradıcılığında əbədiləşmişdir. Bu gün Bakının yaraşıqlı guşəsində ucalan Cabbarlı abidəsi Vətəninin, Azərbaycan xalqının öz böyük oğluna ehtiram və məhəbbətinin yeni parlaq təzahürüdür.

Əbədiyyət və abidə - bir kökdən olan sözlərdir. Bu gün açdığımız abidə bir daha sübut edir ki, Cəfər Cabbarlı xalqın qəlbində və hafizəsində əbədi yaşayacaq”.

Səhərisi gün – mart ayının 23-də isə Cəfər Cabbarlının ev-muzeyinin təntənəli açılışı olmuşdur.

* * *

Səməd Vurğun, bir tərəfdən, müasir Azərbaycan poeziyasının (ümumən ədəbiyyatının, ideya-estetik əsaslarını yaratmış, digər tərəfdən, sovet dövrünün verdiyi imkanların fövqünə yüksələrək azərbaycançılıq ideologiyasının nəinki yaşaması, həmçinin inkişaf edib milli ictimai şüurda möhkəmlənməsi üçün əvəzsiz xidmətlər göstərmişdir.

1997-ci ilin mart ayının 7-də Respublika sarayında xalq şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr olunmuş gecə keçirilmişdir. Həmin gecədə Azərbaycan Prezidenti demişdir:

“Azərbaycan bir ildir ki, Səməd Vurğunun 90 illik yubileyini qeyd edir, ölkəmizdə yubiley mərasimləri keçirilir. Bu, təbiidir, çünki Səməd Vurğun xalqımız, millətimiz üçün o qədər dəyərli bir şəxsiyyət olub, o qədər zəngin bir irs qoyub ki, onun 90 illik yubileyi bir gün, bir ay yox, məhz bir il müddətində keçirilməli idi. Bu müddətdə hər yerdə, hər evdə, hər şəhərdə, hər kənddə Səməd Vurğun yad olunur”.

Səməd Vurğunun ilk yubileyi, məlumdur ki, 1956-cı ildə keçirilmişdir. Və əlli illik bu yubiley tarixdə həm böyük şairə ehtiramın ifadəsi, həm də onun xəstəlik səbəbindən öz yubileyində iştirak edə bilməməsindən doğan böyük kədərlə yadda qalmışdır. Sonrakı illərdə də 60, 70, və 80 illikləri (əlbəttə, fərqli səviyyələrdə) qeyd olunmuşdur.

Azərbaycan Prezidenti öz nitqinə şairin dövrü barədə məlumatla başlamışdır:

“Səməd Vurğunun yaşadığı illər həddindən artıq mürəkkəb, qarışıq, çətin olub. Birinci dünya müharibəsi dünyaya nə qədər ziyanlar vurubdur. Ondan sonra Yer kürəsinin altıda bir hissəsində yeni bir quruluş, yeni ideologiya hökm sürməyə başlayıbdır. Sonra bəşəriyyət üçün ən təhlükəli olan faşizm meydana çıxıb, İkinci dünya müharibəsi başlanıb, nə qədər insanlar qurban gedib. İkinci Dünya müharibəsindən sonra “soyuq müharibə”  başlayıb, yer üzündə yenə də gərginlik yaranıb, eyni zamanda sülhü müdafiə etmək üçün qüvvələr yaranıbdır”.

Öz dövrünün bütün bu keşməkeşlərini yaradıcılığında əks etdirən, dünyanın ictimai-siyasi kataklizmlərinin insan taleyinə təsiri barədə fəlsəfi düşüncələrə geniş meydan açan şair, çox əlamətdardır ki, pessimizmə qapılmır, nəticə etibarilə, dünyanı tərənnüm edir:

Əzəldən belədir çünki kainat,
Cahan daimidir, ömür amanat.
Əldən ələ keçir vəfasız həyat,
Biz gəldi-gedərik sən yaşa, dünya!

Azərbaycan Prezidenti şairin fitri istedadını xüsusi qiymətləndirmişdir:

“Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb-yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, Azərbaycanda, həm də bir sıra xarici ölkələrdə tanınmış, sayılan bir insan olmuşdur”.

Səməd Vurğunun əsərləri həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda müxtəlif dillərdə geniş nəşr olunmuş, haqqında çoxlu kitablar, dissertasiya işləri, məqalələr qələmə alınsa da, Prezident tamamilə doğru demişdir:

“Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcılığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və bu barədə yeni-yeni əsərlər yaranacaqdır”.

Heç də təsadüfi deyil ki, bizim günlərdə Səməd Vurğunun yaradıcılığının, ictimai-siyasi görüşlərinin, humanitariya sahəsindəki elmi-metodoloji mülahizələrinin sistemli araşdırılmasına güclü maraq özünü göstərməkdədir. Şairin əsərləri yenidən nəşr olunarkən əvvəlki nəşrlərdə məlum ideoloji məqsədlə yol verilmiş qüsurlar, yanlışlıqlar düzəldilir, onun məhz milli bir kommunist olduğu, millətinin təəssübünü çəkdiyi, humanizmi barədə yeni faktlar ortaya çıxarılır.

Azərbaycan Prezidentinin söylədiyi kimi, Səməd Vurğunun ən mühüm yaradıcılıq uğurlarından biri Molla Pənah Vaqifi yenidən kəşf etməsi olmuşdur:

“Səməd Vurğun Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir. Ancaq mən bir məqama toxunmaq istəyirəm. Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm qavraya bildi, həm də sevdi. Beləliklə, o, Azərbaycan şeirində yeni bir yol açdı. Səməd Vurğun Azərbaycan klassiklərinin ənənələrini davam etdirərək, bizim dövrümüzdə – məhz 20-ci, 30-cu, 40-cı illərdə Azərbaycan şeirini daha da yüksək səviyyələrə qaldırdı”.

Şair özü yazırdı ki, poeziyada Füzuli ilə Vaqifin davamçısıdır. Ancaq təbii ki, Füzulinin Səməd Vurğuna təsiri dolayısı ilə, Vaqifin təsiri isə birbaşa olmuşdur. Və məhz yeni dövr Azərbaycan poeziyasının ilk klassikinə – Vaqifə xüsusi münasibətinin təzahürü idi ki, yazıb-yaratdığı dili Səməd Vurğun “Vaqifin şirin dili” adlandırmışdı. Və həm XVIII əsrin, həm də XX əsrin şairinin yaradıcılığından bəhs edərkən dil məsələsi önə çıxır:

“Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi böyük xidmətlərdən biridir”.

Səməd Vurğunun dilində xalqın son dərəcə zəngin etnoqrafik təfəkkürü ilə müasir ümumbəşəri düşüncə vəhdətdə çıxış edir:

Min Qazaxdan köhlən ata,
Yalmanına yata-yata,
At qan tərə bata-bata
Göy yaylaqlar belinə qalx,
Kəpəz dağdan Göygölə bax.

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşam üstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

Bir dön bizim Bakıya bax,
Sahilləri çıraq-çıraq.
Buruqları hayqıraraq
Nərə salır boz çöllərə,
İşıqlanır hər dağ, dərə.

Ulu Öndər öz nitqində yenidən “Vaqif” dramına qayıdaraq demişdir:

“Səməd Vurğunun bütün yaradıcılığında ən görkəmli yer tutan onun “Vaqif” tarixi mənzum dramıdır və Azərbaycan milli teatrında onun əsasında yaranmış “Vaqif” tamaşasıdır.

... “Vaqif” əsəri Azərbaycan xalqına onun Molla Pənah Vaqif kimi bir şəxsiyyətini tanıdan bir əsərdir. Etiraf etməliyik ki, Səməd Vurğunun “Vaqif” əsəri yarananadək Molla Pənah Vaqif xalqın arasında geniş təbliğ olunmamışdı və xalq onu o qədər də tanımırdı... Vaqifi geniş tanıtmaq, onu xalqa daha da yaxınlaşdırmaq, Vaqifin şəxsiyyətini açmaq, onun surətini xalqa doğma etmək – bunların hamısını Səməd Vurğun etdi”.

Səməd Vurğunun Vaqifə marağı bir böyük şairin özündən əvvəl yaşamış başqa bir böyük şairə sevgisi ilə məhdudlaşmırdı, Səməd Vurğun Vaqifdə özünü görürdü. Və “Vaqif” dramı ilə o, dünya ədəbiyyatı tarixində, elə buna görə də, ən gözəl şair obrazlarından birini yaratmışdı. Ona görə də Səməd Vurğunun Vaqifi özünün XVIII əsrdəki prototipindən daha məşhur oldu.

Ümummilli Lider öz nitqində xatırlayırdı ki, “1937-ci ilədək – “Vaqif” əsəri yaranana qədər Azərbaycanda Vaqif adı daşıyan adam olmayıb, ya da çox az olubdur. Bəlkə də, heç kəs buna fikir verməyib. Bəlkə də, hamı güman edir ki, Azərbaycanda geniş yayılmış Vaqif adı elə dövri-qədimdəndir. Amma “Vaqif” əsəri meydana çıxandan sonra insanlar Vaqifi, yəni Səməd Vurğunun yaratdığı Vaqif obrazını o qədər sevdi ki, həddindən çox ailə yeni doğulan övladlarına Vaqif adı verdi”.

Vaqif obrazında hələ gənc olan Səməd Vurğunun öz həyatı da əksini tapdığından bir xeyli dərəcədə avtobioqrafik məzmun-mündərəcə daşıyır. Xüsusilə “Şair, hökmdarın hüzurundasan!” müraciət-xəbərdarlığı XVIII əsr şairindən daha çox XX əsr şairinə aiddir. Və məlum olduğu kimi, Səməd Vurğun “Vaqif” dramını yazdığı 30-cu illərdə onun başı üzərində hakimiyyətin-rejimin təhlükəli ildırımları çaxmaqda idi.

Əsərin ilk tamaşası göstəriləndə şair son dərəcə həyəcanlı olmuş, yalnız “yuxarı”nın müsbət rəyi eşidiləndən sonra özünə gəlmişdi. Ancaq nə yaradıcılıq zəhməti, nə də bu həyəcanlar boşuna getdi, “Vaqif” tamaşası böyük şöhrət qazandı:

“Azərbaycan Dram Teatrının tarixində “Vaqif” pyesi bir inqilab oldu. O illəri yaşayan adamlar xatırlamalıdırlar – bu, mənim də xatirimdədir – həmin tamaşa o vaxt bir inqilab oldu.

Azərbaycan teatrının ən parlaq səhifələrindən biri "Vaqif" pyesidir, onun yaranmasıdır və uzun illər onun teatrımızın səhnəsində olmasıdır. "Vaqif" pyesi eyni zamanda teatrımızın görkəmli sənətkarlarını daha da yüksəltdi".

Azərbaycan Prezidentinin göstərdiyi kimi, "Vaqif" dramı Azərbaycanın mədəni-ictimai həyatına, təfəkkürünə təkcə ədəbi deyil, eyni zamanda miqyaslı bir sənət zənginliyi gətirdi:

"Bu gün biz Vaqifin şəkillərini, heykəlini görürük. Amma həqiqətdə Vaqifin fotoşəkli olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif rolunu oynayan böyük sənətkarımız Ələsgər Ələkbərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışlar.

... Görürsünüz, Səməd Vurğun bir əsərlə bizim milli mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza aid nə qədər böyük məsələləri həll edibdir... Biz də Səməd Vurğunun yolu ilə gedərək Vaqifin adını əbədiləşdirməyə çalışdıq, onun ölümündən 200 il sonra Şuşada, Cıdır düzündə Vaqifin qəbri üzərində böyük məqbərə yaratdıq".

Səməd Vurğunun poeziyada, ədəbiyyatda qazandığı şöhrəti Heydər Əliyevin siyasətdə qazandığı şöhrətlə müqayisə edən bəzi publisistlər Heydər Əliyevi "Azərbaycan siyasətinin Səməd Vurğunu" adlandırırlar ki, bu həm Səməd Vurğuna verilən yüksək qiymət, həm də Heydər Əliyevin siyasi fəaliyyətinə (və hünərinə!) ehtiramdır.

Ulu Öndərin "Səməd Vurğun ana dilimizi – Azərbaycan dilini təkmilləşdirib, inkişaf etdiribdir. Bu, Səməd Vurğunun böyük xidmətlərindən biridir. Bizim hazırkı dilimiz 70, 80, 90 il bundan əvvəl olan dil deyil. İndiki dilimiz – türk dilləri qrupuna mənsub olan Azərbaycan dili, türk dillərinin kökündən gələn Azərbaycan dili məhz Səməd Vurğun kimi şəxsiyyətlərin yaradıcılığı, onların şeirlərinin, əsərlərinin nəticəsində bu qədər gözəlləşib, bu qədər zənginləşib, şirinləşibdir" sözlərinə gəldikdə isə bu, milli mənafe naminə millətin bir dahisinin – Heydər Əliyevin ondan əvvəl yaşamış başqa bir dahisinə - Səməd Vurğuna istinadı idi. Azərbaycan Prezidenti Azərbaycan Respublikasının dövlət dilinin məhz "Azərbaycan dili" adlanmasının doğru-düzgünlüyünün sübutu üçün Səməd Vurğunun dil sahəsindəki xidmətlərini misal çəkir, həmin dilin bütün başqa türk dillərindən seçildiyini, özünəməxsus əlamətlər kəsb etdiyini deyirdi.

Və Səməd Vurğunun yaradıcılıq miqyası bu deyilənlərlə də məhdudlaşmırdı:

"Səməd Vurğun eyni zamanda böyük alim, filosof idi. Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biridir... Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranıbdır... Ən böyük xoşbəxtlik ondadır ki, Səməd Vurğun ömrünün son illərində həmin akademiyanın vitse-prezidenti vəzifəsini daşımışdır".

50-ci illərin əvvəllərindən yaradılmağa başlanan “Azərbaycan tarixi”, “Azərbaycan ədəbiyyat tarixi”, “Azərbaycan mədəniyyəti tarixi”, “Azərbaycan ictimai fikri tarixi” və s. çoxcildliklərinin hazırlanmasında akademik Səməd Vurğun yaxından iştirak etmiş, məruzə, çıxış və məqalələrində bu sahədə görülən işlərin həm elmi əsaslarla, həm də milli təəssübkeşliklə həyata keçirilməsi üçün ideya-metodoloji istiqamətlər vermişdir.

Şair-mütəfəkkir mənsub olduğu xalqa, onun tarixinə, ruhuna çox dərindən bağlı idi ki, bu barədə Ulu Öndər demişdi:

“Səməd Vurğunun bütün əsərləri Vətənə məhəbbətlə, Azərbaycana, xalqımızın dilinə, milli ənənələrinə məhəbbətlə doludur. Səməd Vurğunun şəxsiyyətini ifadə edən, onun əsərlərinin əsas mənası və məzmunu bax budur”.

Bu isə o deməkdir ki, dahi şair-mütəfəkkirin tükənməz sənətkarlıq istedadını, yaradıcılığını parlaq şəxsiyyəti tamamlayırdı. Səməd Vurğunu bircə dəfə görmüş sıravi insanlar uzun zaman onu xatırlayır, bu qeyri-adi şəxsiyyətin təsir dairəsindən çıxa bilmirdilər. İctimai xadimlərə, şairlərə, alimlərə gəldikdə isə onlar dövrün böyük şairi ilə dostluqları, yaxınlıqları ilə nəinki sağlığında, vəfatından sonra da həmişə fəxr etmiş, onun haqqında dünyanın heç bir insanı barəsində söylənməmiş ən gözəl sözləri demişlər. O, mənən, ruhən zəngin, qəlbi kimi əli də həmişə açıq, dünyanın gözəlliklərindən zövq almağı bacaran, daxilən möhkəm, cəsarətli bir insan idi.

Və təbii ki, bütün bu xüsusiyyətləri ilə bərabər öz dövrünün övladı idi:

“Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir.

... Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, Kommunist Partiyasına həsr etdiyi “Zamanın bayraqdarı” poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda yüksək şeir sənətini nümayiş etdiribdir”.

Müstəqillik illərində bir sıra “siyasətçilər” sovet ədəbiyyatının, kommunist ideologiyasının üzərinə hücuma keçərkən Səməd Vurğunu da “hədəf”ə aldılar. Ancaq onların cəhdləri o qədər absurd idi ki, Səməd Vurğunun tozuna belə çatmadan Azərbaycan ictimai fikrinin təkamül səhnəsindən süpürülüb getdilər. Çünki Səməd Vurğunun “tənqidçi”ləri onun nə qədər böyük bir tarixi missiyanın daşıyıcısı olduğunu bilmirdilər. Ümummilli Lider isə, təbii ki, bilirdi:

“Səməd Vurğun bütün yaradıcılığı boyu öz xalqını azad görmək istəyibdir. Səməd Vurğun həmişə azadlıq, müstəqillik tərəfdarı olubdur. Səməd Vurğun Üzeyir Hacıbəyovla, Cəfər Cabbarlı ilə çiyin-çiyinə gedibdir. Onlar – Səməd Vurğun da, Üzeyir Hacıbəyov da, Cəfər Cabbarlı da Azərbaycanı azad, müstəqil, sərbəst görmək istəyiblər.

Biz bu günümüzə görə – xalqımızın mədəniyyətinin, ədəbiyyatının, elminin, təhsilinin ümumi səviyyəsinin bu mərtəbəyə qalxmasına görə Səməd Vurğuna minnətdarlığımızı bildirməliyik”.

Heydər Əliyevin böyüklüyü onda idi ki, o, Səməd Vurğunu yalnız görməklə, onun çıxışlarına qulaq asmaqla, onun əsərlərini oxumaqla, teatrda göstərilən tamaşalarına baxmaqla kifayətlənməmişdi, onu dərk etməyə, anlamağa, onun Azərbaycan ictimai fikrindəki xüsusi missiyasını dəyərləndirməyə çalışmışdı. Və nəticə etibarilə, belə bir şəxsiyyətlə fəxr etməyin, yeri gələndə ona istinad eləməyin zəruriliyinə əmin olmuşdu:

"Xatirimdədir, 1952-ci ildə Opera və Balet Teatrının binasında Azərbaycan ziyalılarının iclası keçirilirdi. Azərbaycanın o vaxtkı rəhbəri də ziyalılara çox təzyiq edirdi. Səməd Vurğuna söz verildi. Onun o çıxışı qulağımda bugünkü kimi səslənir. Səməd Vurğuna söz veriləndə salona toplaşanlar onu çox böyük hərarətlə qarşıladılar. Səməd Vurğun çox dərin məzmunlu və həyəcanlı bir nitq söylədi... Onun o nitqi də məhz Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, ziyalılarına aid qayğılarla dolu idi. O vaxt ona iki-üç dəfə replika verdilər, amma Səməd Vurğun heç bir dəfə də əyilmədi, öz nitqini mərdi-mərdanə, böyük iftixar hissi ilə başa çatdırdı".

Böyük şair-mütəfəkkiri bəyənməyənlər, ona əsl kommunist olmaq üçün "kommunizmin əlifbasından başlamağ"ı məsləhət görənlər də, onu kommunist ideologiyasının tərənnümçüsü hesab edənlər də keçmişdə qaldı, Səməd Vurğun isə bizim müasirimizdir, heç bir şübhə yoxdur ki, gələcək nəsillərin də müasiri olacaqdır:

"Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!"

Ulu Öndər öz nitqini heç zaman unudulmayacaq bu sözlərlə bitirmişdi:

"Biz Səməd Vurğunun ruhu qarşısında baş əyərək deyə bilərik: əziz şairimiz, sənin canın qədər sevdiyin Azərbaycan bu gün müstəqil dövlətdir. Sənin canın qədər sevdiyin xalqın bu gün azaddır. Bu gün mən bir daha bəyan edirəm ki, biz Səməd Vurğunun ruhunu gələcəkdə də şad edəcəyik. Müstəqil Azərbaycan yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaqdır".

Bu sözlər Səməd Vurğunla yanaşı, Heydər Əliyevin də böyüklüyünü, dühasını nümayiş etdirir.

* * *

Azərbaycan Prezidenti 1996-cı ilin avqust ayının 30-da şair Əliağa Vahidin Respublika sarayında keçirilən 100 illik yubileyi gecəsində iştirak etmişdir.

Mərasim başa çatdıqdan sonra mədəniyyət və incəsənət xadimləri ilə görüşdəki çıxışında demişdir:

“İndiyədək Əliağa Vahidin heç bir yubileyi keçirilməmişdir. Bu il, bu günlər keçirilən tədbirlər, xüsusən bu gecənin – şairin 100 illik yubileyinin bu qədər təntənəli, çox məzmunlu, mənalı olması, mən hesab edirəm, onun indiyədək yubileylərinin keçirilməməsini əvəz etdi.

Mən səmimi deyirəm, bu gün salonda oturarkən hisslərim həddindən çox canlandı, həyəcanlandım. Xalqımızın, millətimizin, ədəbiyyatımızın, şeirimizin, incəsənətimizin nə qədər böyük olduğuna görə sizinlə bərabər böyük iftixar hissi keçirdim”.

Əliağa Vahid yaradıcılığa XX əsrin əvvəllərində başlasa da, hələ çox gənc olduğundan dövrün ictimai-siyasi mübarizələrində iştirak etməmiş, sovet dövrünə laübalı bir əhval-ruhiyyə ilə gəlib çıxmışdı. Azərbaycan xalqı Vahidi bir də bu ideya-estetik laübaliliyinə görə sevirdi, çünki onda öz “tərcümeyi-hal”ını görürdü:

“Vahid böyük bir xəzinədir. Bu gün siz bu xəzinənin, ola bilər, bir neçə laylarını millətimizə göstərdiniz. Vahidin yaradıcılığı indiyədək həm ədəbi, həm də musiqili şəkildə bu qədər nümayiş etdirilməmişdi. Xalqımız Vahidi həmişə sevibdir. Onun sağlığında da, o, həyatdan gedəndən sonra da Vahidin qəzəllərinə çox gözəl mahnılar bəstələnibdir. Xalqımız Vahidi heç vaxt unutmayıbdir”.

Vahid deyirdi:

Vüsali-dilbərə can nəqdin etsələr qiymət,
O nazənin gözəlin cannisarı mən özüməm.

Gülüzlü nazlı gözəllərlə çox keçib ömrüm,
Elin sevimlisi, ən bəxtiyarı mən özüməm.

Deyirdim, əhli-qələm, Vahid, əfv edərsə məni,
Böyük Füzulinin yadigarı mən özüməm.

“Böyük Füzuli”nin xələfi olmaq iddiasına düşmüş, yeni poeziyanın, yeni ədəbiyyatın yeni prinsiplərinin bərqərar olduğu bir dövrdə Füzuli yadigarı olmağın təzadlarını daşıyan şair, əslində, “yuxarılar”la “aşağılar”ın mükalimə predmetinə çevrilmişdi:

“Burada siz də dediniz ki, Vahid dövlətlə təmasda olmasa da, xalqla bərabər, xalqın içində olubdur. Xalq onu sevibdir. Vahidin yaradıcılığı belə yığcam toplu şəklində nümayiş etdirilməmişdi. Mən bilmirəm, bəlkə, olub, hər halda mən sizin bu tamaşanıza, çıxışlarınıza baxarkən yaşadığım dövrü bir daha nəzərdən keçirdim. Görkəmli şairin yaradıcılığı xalqımıza, millətimizə heç vaxt belə təqdim olunmamışdı. Bu, həddindən artıq gözəl bir hadisədir”.

"Yuxarılar" hər nə qədər görməməzliyə vursalar da, Vahid "aşağılar"a məhz "yuxarılar"ın təbliğ etməli olduqları vətənpərvərlik dərslərini öyrədirdi:

Oxu, ey bülbüli-şeyda, güli-xəndan oxusun,
Görsün öz aşiqini, şur ilə canan oxusun.

Vətənin bülbüli-şeydalərini şurə gətir,
Oxu bir nəğmə, bütün Azərbaycan oxusun.

Musiqi sənətini Azərbaycan yaradıb,
Qoy bu tarixi həqiqətləri Tehran oxusun.

Qarabağdır bizim öz ölkəmizin Şirazı,
Öz muğamatını lazımdı hər insan oxusun.

Təbrizin nəğməsini xalq yaratmış, Vahid,
Qoy desin fikrimə əhsən bütün ürfan, oxusun.

Prezident demişdir:

"Bu gün Elçin də burada dedi ki, "Vahid xoşbəxt adam olmayıb, amma çox xoşbəxt sənətkar olub". Ola bilər, onun həyatı, doğrudan da, ağır keçib. Sizlərdən biriniz də dediniz ki, Vahid həm maddi, həm də mənəvi çətinliklər içərisində yaşayıb. Bəli, belə olubdur. Bu, həqiqətdir. Vahid, doğrudan da, ağır vəziyyətdə yaşayıb. Mən bunu bilirəm".

Vahid sosializm realizminin o qədər də böyük istedadı olmayan, ancaq gözünü yumub sosialist "ideyalar"ını təbliğ edən qələm adamlarının da müəyyən mövqelərə çatdığı bir dövrdə bu imkanlardan imtina etməyin nümunəsini göstərməkdən çəkinməmişdi:

Rəqibi qoyma yaxın vəslinə, xəyanət edər
Ki, qorxuram səni çəksin kənarə, bir dənəsən.

O zövqü dövləti-dünyayə vermərəm, hərdən
Məni-fəqirə də qılsan nəzarə, bir dənəsən.

Gözəl həyatını, Vahid, fənaya sərf etmə,
Səni zəmanə yetirməz dübarə, bir dənəsən.

Prezident yubiley gecəsindən sonrakı görüşdə demişdir:

"Mən bu gün sizi dinləyərkən özüm üçün bir nəticə çıxardım ki, Vahid nə qədər çətin həyat tərzi keçiribsə, ağır yaşayıbsa, ona nə qədər diqqətsizlik olubsa, qayğı

göstərilməyibsə də, o çox nikbin adam olubdur. Vahid xalqımızın, respublikamızın xoşbəxt gələcəyini nə qədər gözəl tərənnüm edib, bunları açıqca deyib".

Sonra aktyor Ramiz Əzizbəyli Prezidentin təklifi ilə Vahidin qəzəlini oxuyur:
Könül, həmişə səadət bizimlə yar olacaq,
Xəzan qəmi itəcəkdir, ölkəmiz bahar olacaq.

Tərənnüm eyləyəcək hər çəməndə bülbüllər,
Bu Odlar Ölkəsi bir başqa laləzar olacaq.
Şərəflə ömr eyləyir hər kəs öz diyarında,
Sevimli ölkəmiz hər fitnədən kənar olacaq.

Cahan işıqlanacaq sülh ilə, ədalət ilə,
Bizim üfüqdə zəfər nuru payidar olacaq.

Vətən diyarında, Vahid, nə xidmət eylərsək,
Bu şanlı iş gələcək nəslə yadigar olacaq.

Prezident isə əlavə etmişdir ki, "Vahid bu sözləri həm bu gün üçün, həm də bu gün yaşayanların gələcəyə nikbin baxışları üçün deyib. Bunlar nə qədər dəyərli sözlərdir!"

Vahidin bir şair (və mütəfəkkir!) kimi unikallığı onda idi ki, bu dünyanın "rənglər"inə (Səməd Mənsur demiş!) inanmırdı, ancaq onun da inandığı nə isə var idi:

"Yenə də deyirəm, o qədər ağır vəziyyətdə yaşayan, o qədər çətinliklər keçirmiş, qayğısız, diqqətsiz qalmış insan gərək dünyadan küsəydi, nə gələcək, nə də başqa şey haqqında düşünməyəydi. Amma görün nə qədər gözəl sözlər deyib! Bu sözlər məni həddindən artıq heyran elədi...

Mən hesab edirəm ki, Vahid çox xoşbəxt adam olub. Xoşbəxt adam olubdur ki, bizə bu cür miras qoyub gedib".

Deyirlər ki, sovet dövründə Stalin rejimindən sonrakı 50-ci, 60-cı illərdə Azərbaycan sovet ədəbiyyatını həmin rejimin məddahlığında ittiham edən xarici "dostlarımız"a ədəbiyyatın "dərin demokratik köklər"i kimi Əliağa Vahidi nümunə göstərirlərmiş. Ancaq onu rəsmi tədbirə gətirmək üçün xeyli zəhmət, xahiş-minnət və xərc çəkmək lazım imiş. Hamının arzusunda olduğu məclisə Vahidin gəlməsi "sovet ədəbiyyatı"nın problemi imiş.

Vahid özünəməxsus filosof idi:

"Vahidin əsərləri başdan-başa fəlsəfədir. Bax bu axşamkı yubiley tədbiri də bir fəlsəfə gecəsidir. Mən bunu belə qəbul etdim. Sizin oxuduğunuz o şeirlər, dediyiniz sözlər, səslənən musiqi də fəlsəfədir".

Azərbaycan Prezidenti Vahid gecəsini yekunlaşdırarkən demişdi:

“Mən gecədə iştirak edən meyxanaçıların çıxışlarını yüksək qiymətləndirirəm. Meyxana xalqımızın, millətimizin foklorunun çox gözəl janrlarından biridir. Ruslar öz çastuşkalarını sevirlər, meyxana da bizim üçün belə sevimli janrdır. Amma bəzən nədənsə meyxanaya xor baxırdılar. Halbuki meyxana xalqın özünəməxsus bir folklorudur. Ona görə də mən meyxana deyənlərin ustalığını xüsusi qeyd edirəm. Onlar indiyədək belə məclisə çıxmamışdılar. Onlara da Vahid kömək edib və bu gün belə bir gecədə çıxış ediblər”.

* * *

Ümummilli Liderin çox sevdiyi şairlərdən biri də Azərbaycanın cənublu-şimallı ədəbiyyatının XX əsrin ortalarında ən böyük nümayəndəsi Məhəmməd Hüseyn Şəhriyar olmuşdur.

Azərbaycan Prezidenti dahi şairin 90 illik yubiley mərasiminin iştirakçılarına məktubunda (11 aprel 1998-ci il) yazır:

“Şəhriyar poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin əksidir. Şair xalq həyatının dərinliklərinə enmiş, dövrün, zamanın kəskin ictimai təzadlarını, şərin, mütləqiyyətin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyanın rəvan, aydın və təsirli dili ilə bütün dünyaya car çəkmişdir. Cəmiyyətin inkişafına əngəl olan maneələri kəskin tənqid etdiyi kimi, qabaqcıl ictimai qüvvələri, zəhmətkeşlərin həyat və məişətini, onların ehtiyac və arzularını da böyük məhəbbətlə təsvir və tərənnüm etmişdir. Böyük lirika ustası Şəhriyarın əsərləri öz ideya zənginliyi, bədii saflıq və səmimiyyəti ilə seçilmişdir”.

* * *

Heydər Əliyevin Azərbaycan ədəbiyyatı tarixi barədəki təsəvvürü son dərəcə elmi, intellektual və millidir.

Azərbaycan ədəbiyyatının tarixini “Dədə Qorqud” eposundan nəinki bir neçə min il, hətta bir neçə əsr qədimə aparmaq həmin tarixi ümumtürk ədəbiyyatı tarixi sistemindən çıxarır, elə bir yeni (və uydurma!) sistem təqdim edir ki, onun türklük oriyentasiyası yoxdur.

Deməli, Azərbaycan ədəbiyyatı tarixinin az-çox mükəmməl etnokulturoloji sistemini yaratmaq üçün istər türk, istərsə də qeyri-türk mənşəli ona (həmin sistemə) aid olmayan nə varsa ondan (bu sistemdən) çıxarılmalıdır.

“Dədə Qorqud” eposu qədim (ümum-) türk eposunun məhz Azərbaycan coğrafiyasındakı differensiasiyasının məhsuludur. Əlaqə belədir: yeni coğrafiya, yeni epos və yeni etnos!..

Azərbaycan xalqının iki eposu var: “Dədə Qorqud” və “Koroğlu”. Hər ikisi ümumtürk köklərinə dayanır. “Dədə Qorqud”un həmin kökləri birbaşadır. Ancaq məlum olduğu kimi, “Dədə Qorqud”la “Koroğlu” arasında yazılı ədəbiyyat tariximizin

bütöv bir dövrü qərar tutur ki, bu dövrdə Qətran Təbrizi, Xaqani, Nizami, Yunus Əmrə, Nəsimi, Xətayi, Füzuli, Məhəmməd Əmani, Saib Təbrizi yaşayıb yaratmışlar... Bununla belə "Koroğlu" da köklərini bu ədəbiyyatdan yox, xeyli dərəcədə ümumtürk qaynaqlarından alır.

"Dədə Qorqud"la "Koroğlu"nun müqayisəli-tarixi, sistem-struktur, eləcə də antroposentrik qarşılaşdırması Azərbaycan ədəbiyyatı tarixinin etnokulturoloji (diaxronik) sistemini təsəvvür etməkdə o baxımdan ilkin mərhələdir ki, "Dədə Qorqud"dan "Koroğlu"ya aparan yol bizim bir xalq olaraq ədəbi-bədii təfəkkür tariximizin ana xəttidir. Və hər nə qədər "yerdə qalanı təfərrüatdır" deməyə çətinlik çəksək də, tarixə "sxematik" (təfərrüatsız) baxış həmin ana xətti önə çıxarır.

"Dədə Qorqud"la başlayıb "Koroğlu" ilə bitən nəhəng bir ideya-estetik axını təsəvvür etmək, yəqin ki, mümkünsüzdür... Və bunun məhz axın olduğunu nəzərə alıb epos təfəkkürünün "Koroğlu"dan sonrakı cərəyanı barədə də müəyyən mülahizələr söyləmək olar. Ən mühümü budur ki, XVI əsrdən başlayaraq ədəbiyyata Koroğlu ilə yanaşı, onlarla məhəbbət dastanlarının qəhrəmanı olan "eşq ərləri"də gəlir ki, onların mübarizə, döyüş meydanı cəmiyyətin mənəvi aləmidir.

"Koroğlu" özünəqədərki XI-XVI əsrlərin yazılı ədəbiyyatından yox, ümumtürk qaynaqlarından gəlir dedik. Və bu, prinsip etibarilə, belədir. Elə onun nəticəsidir ki, "Koroğlu"nun da, onun orbitində olan möhtəşəm məhəbbət dastanlarının da ümumtürk "analoqlar"ı var... Ancaq məhz XI-XVI əsrlər Azərbaycan yazılı ədəbiyyatının Azərbaycan "Koroğlu"suna (və xüsusilə Azərbaycan məhəbbət dastanlarına) təlqin etdiyi sufi-panteist ideyaların, ümumən ideya-estetik ovqatın rolunu da inkar etmək olmaz.

Əlbəttə, "Dədə Qorqud"la "Koroğlu"nu bir-birinə yaxınlaşdıran, daha doğrusu, bir-birindən çox da aralanmalarına imkan verməyən onların eyni epik-mədəni (nəticə etibarilə, etnokulturoloji) mühitin hadisələri olmasıdırsa, uzaqlaşdıran yeni epoxanın, yeni ictimai-siyasi maraqların, hətta yeni dil-üslub imkanının tələbləridir... "Dədə Qorqud" oturuşmuş bir dövlətin – Oğuzun, "Koroğlu" isə yeni dövlət qurmaq ehtirasının dastanıdır. Və bu, özünü Azərbaycan "Koroğlu"sunun digər türkdilli "Koroğlu"lardan müqayisə edilməyəcək qədər xəlqiliyində, realizmində də göstərir... İdeyaların xəlqiliyində, ideyaların realizmində...

"Dədə Qorqud" – "Koroğlu" xətti Azərbaycan ədəbiyyatı tarixinin bel sütunudur.

Nizami, zahirən nə qədər paradoksal görünsə də, Azərbaycan ədəbiyyatı tarixinin etnokulturoloji sistemini müəyyən edən fundamental yaradıcılıq hadisəsidir. Onun (bu yaradıcılıq fundamentallığının) sözügedən sistemin nə dərəcədə üzvi tərkib hissəsi olduğu barədə bəhs etməzdən əvvəl paradoksallığın özünü nədə göstərdiyini xatırladaq... Birincisi, Nizami farsca yazmış, dünya ədəbi-ictimai fikri məsələnin mahiyyətinə varmadan farsdilli (və İran!) ədəbiyyatının nümayəndəsi hesab etdiyindən o, uzun əsrlər boyu Azərbaycan ədəbiyyatına yadlaşdırılmışdır. Nizaminin hansı xalqa mənsub olduğu yalnız 800 illiyi ərəfəsində ucadan söylənilmiş,

ilk növbədə onun həmyerliləri olan nizamişünasların araşdırmaları şair-mütəfəkkirin milli mənsubiyyəti üzərindəki neçə əsrlərin tozunu almışdı... İkinci paradoksallıq Nizami mövzularının Azərbaycan hüdudlarını aşan elə bir miqyasıdır ki, həmin miqyasın məhz azərbaycanlı təfəkkürünün məhsulu olması şübhə doğurmuşdur...

Ancaq Nizami yaradıcılığının (bütün fundamentallığı ilə!) məhz Azərbaycan ədəbiyyatı tarixi etnokulturoloji sisteminin üzvi tərkib hissəsi olması ona görə təkzibedilməzdir ki, 1) o, ideya-məzmunca türk eposuna dayanır; 2) Müsəlman İntibahının üç etnik təzahüründən (ərəb, fars və türk) yalnız üçüncüsünün (türklüyün) hadisəsi kimi çıxış edir; 3) onun tərcümeyi-halının Gəncə (Azərbaycan) "qeydiyyat"ı yaradıcılığında da əks olunur.

Nizami hər nə qədər "Şahnamə" mövzularına müraciət etsə də, onun "Xəmsə"si Firdovsi ilə ruhi-mənəvi polemikadadır: "Əgər o, aydırsa, biz günəşik, Əgər o, Keyxosrovdursa, biz Əfrasiyabıq"...

Nizamiyə qədərki farsdilli Azərbaycan şairləri – Qətran Təbrizi, Xaqani... Nizamini yetirdikləri kimi, "Xəmsə" müəllifi də özündən sonrakı bütün türk klassiklərinə təsir göstərmişdir. O cümlədən də öz həmvətənlərinə...

Yunus Əmrə, Nəsimi, Füzuli – ədəbiyyat tariximizin "Dədə Qorqud" (və Nizami) ilə başlayan fütuhatının davamıdır ki, "Koroğlu"ya (və Milli İntibaha) qədər gəlirlər... Onların təmsil etdikləri yaradıcılıq təkamülünün ibtidasında "xalq sufizmi" dayanır. Bu isə o deməkdir ki, Azərbaycanda anadilli yazılı ədəbiyyat sufizmlə dil açır. Və Azərbaycan ədəbiyyatına ideya-estetik hadisə kimi gələn bu cərəyan öz ömrünü Füzulidə estetik (ideyasız!) hadisə kimi başa vurur... Həmin ideyasızlıq (və estetiklik!) özünü xalq ədəbiyyatında (məhəbbət dastanlarında!) daha qabarıq göstərir...

Azərbaycan ədəbiyyatı tarixinin köhnə dövrdən yeni dövrə keçməsini XVI əsrin əvvəllərindən XVIII əsrin sonlarına qədər, yəni üç əsr davam edən Milli İntibah təmin edir. Azərbaycan İntibahı təkcə ədəbi hadisə deyil, geniş etnokulturoloji məzmun daşıyır. Azərbaycanda məskunlaşmış müxtəlif türk-oğuz tayfalarının (şamlı, ustaclı, rumlu, təkəli, zülqədər, əfşar, qacar və b.) Şah İsmayıl Xətayinin təmsil etdiyi qızılbaşlıq ideologiyası altında birləşərək yaratdıqları Azərbaycan Səfəvilər dövləti, əslində, Azərbaycan İntibahının etnik-siyasi təməllərini atdı. Və bu təməllər o qədər güclü oldu ki, hətta Səfəvilər dövləti süqut edəndən sonra da onun hüdudları daxilində "komplektləşmiş" Azərbaycan xalqı bütöv bir millət olaraq təşəkkül prosesini davam etdirdi... Əslində, mərkəzləşmiş Azərbaycan dövlətinin meydana çıxması milli passionarlığın ifadəsi idi. Və həmin passionarlıq idi ki, bir tərəfdən, Azərbaycan dilini (Azərbaycan türkcəsini) müstəqil bir xalqın ünsiyyət aktı olaraq gerçəkləşdirdi; digər tərəfdən, "Koroğlu" ilə yanaşı, "Qurbani", "Tahir-Zöhrə", "Abbas-Gülgəz", "Əsli-Kərəm", "Aşıq Qərib", "Şah İsmayıl", "Alıxan-Pəri" kimi, ondan artıq dastanlar, aşıq ədəbiyyatı nümunələri bütün Azərbaycanı dolaşaraq bu dilin canlı ədəbi coğrafiyasını, həmin coğrafiyada gedən ideya-estetik (prinsip etibarilə, etnokulturoloji!) proseslərin vəhdətini (və özünəməxsusluğunu!) təsdiq etdi... Məhz

XVI əsrdən başlayaraq Azərbaycanda İrəvan, Şəki, Quba, Lənkəran, Bakı, Şuşa kimi Milli İntibah şəhərləri yarandı, Təbriz, Gəncə, Dərbənd, Şamaxı... öz tarixi ümumşərq şəhəri simasını yeniləşdirmək məcburiyyəti altında qaldı... Üçdilli “köhnə” Azərbaycan ədəbiyyatı, ilk növbədə, folklorun təsiri ilə birdilli “yeni” ədəbiyyata keçdi ki, bu, ədəbiyyatın metadili olan janrlarda da özünü təzahür etdirdi... Dastanların yazıya alınması (məsələn, “Şəhriyar”ın nümunəsində) xalq ədəbiyyatının klassik ədəbi standartlar səviyyəsinə yüksəlmək iddiasının (və imkanının) faktı idi.

Azərbaycanın ilk Milli İntibah şairi (bəlkə də, İntibahı qabaqlamış şairi!) Şah İsmayıl Xətayi oldu. Ondan sonrakı bütün söz ustalarında İntibahdan nə isə vardı... Ancaq onun (Milli İntibahın) zirvəsi, missiyasını, heç şübhəsiz, Molla Pənah Vaqif öz üzərinə aldı... O Vaqif ki, həm son dərəcə böyük həyat eşqi, həm də “mən cahan mülkündə mütləq doğru halət görmədim” ittihamı ilə ədəbiyyatı göylərdən yerə endirdi.

Milli İntibahın ardınca Azərbaycanda maarifçilik hərəkatı gücləndi. Təhsil, elm, mətbuat, əxlaq-mənəviyyat məsələləri həm Şərq, həm də Qərb təmayüllü ziyalıların meydana çıxması ilə nəticələndi: Abbasqulu ağa Bakıxanov, Mirzə Kazımbəy, Mirzə Fətəli Axundzadə, Seyid Əzim, Həsən bəy Zərdabi... xətti ilə genişlənən hərəkat XIX əsrin sonu, XX əsrin əvvəllərində millətin ən aktual problemləri üzərində (və kifayət qədər kütləvi maraqla!) baş sındırmağa başladı.

XIX əsr Azərbaycan ədəbiyyatını “estetik” ədəbiyyatdan sürətlə uzaqlaşdırıb “ideya” ədəbiyyatına çevirdi. İlk dəfə olaraq Mirzə Fətəlinin şəxsində hər cür dəbdəbəyə qarşı müharibə elan edildi. Və Pafos bütünlüklə Loqosun sərəncamına keçdi... Ancaq bir məsələ vardı ki, elmi-intellektual səviyyə ümumən müsəlman Şərqində, eləcə də Şimalı Rusiyanın, Cənubu isə İranın tərkibində olan Azərbaycanda aşağı olduğuna görə ortaya ciddi problemlər çıxırdı. Onlardan ən əsası milli məktəbin yoxluğu idi. Və ölkədə Şərq və Qərb dünyagörüşlərinin, təfəkkür tərzlərinin meydana gətirdiyi bir-birinə zidd təmayüllər elə idrak böhranı yaratmışdı ki, çox zaman adi məsələlərin belə normal müzakirəsi baş tutmurdu. Kütləvi savadsızlıq da bir tərəfdən... XX əsrin əvvəllərində Azərbaycan xalqının düşdüyü bu acınacaqlı vəziyyəti öz realist Loqosu (və satirik Pafosu) ilə Sabir məhz ədəbiyyatın (poeziyanın) predmetinə, müzakirə deyil, mühakimə obyektinə çevirdi.

“Füyuzat” ilə “Molla Nəsrəddin” jurnallarının (məktəblərinin!) fəaliyyəti ayrıca bir demokratik ideya-publisistik mühit yaratdı ki, onların apardıqları polemika, nəticə etibarilə, azərbaycançılıq ideologiyasının əsaslarını hazırladı. Və həmin ideologiya Azərbaycan Xalq Cümhuriyyətini dünyaya gətirməklə milli mücadilənin miqyasını və ya üfüqlərini müəyyən etdi.

Ümumən, azərbaycançılıq ideologiyasının (türklük, müsəlmanlıq və müasirlik ideallarının) təşəkkülündə Azərbaycan ədəbiyyatı “Dədə Qorqud”dan başlayaraq müstəsna rol oynamışdı. XX əsrin əvvəllərindən etibarən bu rol artıq bilavasitə ictimai-siyasi meydanlarda özünü təsdiq edən ideoloqlara verildiyindən ədəbiyyat

tədricən öz ənənəvi funksiyasına – Pafosa qayıtdı. Ancaq bu dəfə kifayət qədər milli ideoloji hazırlıqla – Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Əli Vəliyev, Süleyman Rəhimov, Mirzə İbrahimov, Mehdi Hüseyn, Mir Cəlal, İlyas Əfəndiyev kimi ədəbi şəxsiyyətlərlə...

Azərbaycan ədəbiyyatı tarixinin etnokulturoloji sisteminin dərkində XX əsr həlledici iş gördü. Firidun bəy Köçərli ilə başlayan ədəbiyyat tarixşünaslığı əsrin birinci yarısında onlarla, ikinci yarısında isə yüzlərlə yüksəkixtisaslı mütəxəssisin fəaliyyət göstərdiyi bir elm sahəsinə çevrildi... Ədəbiyyata ardıcıl (və geniş) ictimai maraq onun dəyərini o qədər yüksəltdi ki, hazırda hər hansı xalqı, eləcə də Azərbaycan xalqını, ilk növbədə, onun ədəbiyyatı ilə tanıyırlar. Və təxminən min beş yüz illik tarixi olan Azərbaycan ədəbiyyatı mənsub olduğu xalqı bu gün böyük inamla təqdim edir.

Heydər Əliyevin Azərbaycan ədəbiyyatı qarşısındakı tarixi xidməti onda idi ki, bu ədəbiyyatı bütün təkamül mətiqi, fəlsəfəsi ilə dərk edərək onun gələcəyinin ictimai, mənəvi və ideoloji əsaslarını, siyasi perspektivlərini artıq müstəqil bir xalqın milli atributu olaraq layihələndirmək qüdrətini (və missiyasını!) gerçəkləşdirdi.

# II FƏSİL

## AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ

Azərbaycan ədəbiyyatında sovet konyukturu öz nüfuzunu – ictimai, siyasi və ideoloji mövqeyini itirdikcə ədəbiyyat özü üçün mənəvi dayaqlar axtarmağa başladı ki, bunun ən azı üç təzahür forması daha aydın seçilirdi:

1) insanın (cəmiyyətin) hər cür təntənədən uzaq adi həyatının, məişətinin (və ondan irəli gələn, xüsusilə mənəvi problemlərin) təsviri;

2) xalqın indiyə qədər, demək olar ki, yasaq edilmiş tarixinin mümkün qədər qədim dövrlərinə enilməsi, unutdurulmuş, yaxud unudulmuş milli keçmişin, onun ayrı-ayrı dövrlərinin, mərhələlərinin (hətta tarixi şəxsiyyətlərinin, ideya modellərinin!) bərpasına cəhd edilməsi;

3) bir qədər mücərrəd şəkildə, lakin daxildən gələn güclü bir inamla milli məfkurənin qabardılaraq müdafiə olunması.

Həmin ədəbi-ideoloji, mənəvi-mədəni təzahürlər bu və ya digər şəkildə Azərbaycan ədəbiyyatının "sovet dövrü"ndə, yaxud sovet konyukturunun aparıcı olduğu dövrdə də böyük sənətkarların yaradıcılığında özünü hiss etdirirdi. Lakin müstəqil, bütöv bir ədəbiyyat hadisəsi səviyyəsinə yüksəlmək imkanı yox idi.

Respublikanı həm iqtisadi, həm ictimai-siyasi, həm də mədəni baxımdan inkişaf etdirməyi qarşısına məqsəd qoymuş yeni (və kifayət qədər gənc, enerjili, dünyagörüşlü) lider Heydər Əliyev ədəbiyyat və incəsənət adamları önündə o zamana qədər görünməmiş bir meydan, yaradıcılıq (və ictimai fəaliyyət) üfüqləri açdı. Milli kommunist olan Heydər Əliyev ədəbiyyata, incəsənətə münasibətdə kommunistdən daha çox milli idi... Ona görə də cibində partiya bileti gəzdirən sənət adamları, xüsusilə yazıçılar vaxtaşırı (və tamamilə təbii!) olaraq anti-kommunist, millətçi ideyalar irəli sürəndə, sosializm realizminin prinsiplərini pozanda da nəinki onların cəzalandırılması barədə düşünür, hətta bir-birindən Moskvaya "danos" yazanları bir-birindən qoruyur, xilas edirdi.

Keçən əsrin 70-ci, 80-ci illərində Azərbaycan ədəbiyyatının ideya-mövzu, məzmun-mündərəcə etibarilə yenilənməsində, zənginləşməsində, özünün tarixi

təkamül məcrasına düşməsində Heydər Əliyevin rolu, heç şübhəsiz, müstəsnadır. Və bu böyük şəxsiyyətin "Ümummilli Lider" səviyyəsinə yüksəlməsində milli ədəbiyyat və incəsənət (ümumən milli mədəniyyət) sahəsindəki sözün geniş mənasında quruculuq-təşkilatçılıq xidmətləri digər sahələrdəki xidmətlərindən heç də az əhəmiyyət kəsb etməmişdir.

Kifayət qədər inamla, demək olar ki, Azərbaycan ədəbiyyatının keçən əsrin 70-ci illərinin əvvəllərindən bugünə qədər davam edən dövrünün bir adı da "Heydər Əliyev dövrü"dür.

Niyə bir adı da deyirik?

Ona görə ki, ədəbiyyat, prinsip etibarilə, ədəbi-estetik meyarla dövrləşdirilir. Və dövrləşdirilməlidir...

Lakin nə qədər əsas olsa da, bu, yeganə meyar deyil, çünki ədəbiyyat, eləcə də incəsənət həm də milli ictimai-ideoloji (mənəvi) hadisədir. Və onun inkişafı (intibahı!) üçün milli dövlətçilik ideallarına (ideya-məslək liderliyinə!) həmişə ehtiyac vardır.

Heydər Əliyev hakimiyyətdə olduğu ilk illərdən yalnız müasir ədəbi prosesin düzgün istiqamətdə, çoxmiqyaslı, çoxşaxəli və çoxüslublu inkişafı qayğısına qalmaqla kifayətlənmirdi, eyni zamanda təxminən min beş yüz illik bir tarixə malik Azərbaycan ədəbiyyatının hər bir hadisəsinin (şəxsiyyətinin!) xalqa yenidən (və daha dərindən!) tanıdılması üçün ardıcıl olaraq çalışırdı. Çünki Ümummilli Lider yaxşı bilirdi ki, öz ədəbiyyatını, tarixini, milli mənəvi dəyərlərini unudan xalq heç zaman ruhən mütəşəkkil ola, qarşısına çıxan müxtəlif xarakterli problemləri uğurla həll edib dünya səhnəsinə çıxa bilməz. Xalqın ən böyük sərvəti onun milli mənliyi, milli qürurudur ki, o da yalnız tarixdən gəlməklə, dədə-babaların keçdiyi yolu yaxşı bilib mənəvi sərvətə çevirməklə qazanılır.

Ümummilli Liderin bilavasitə rəhbərliyilə müxtəlif illərdə keçirilmiş möhtəşəm yubileylərin hər biri xalqı özünə tanıtmaqla çox böyük rol oynamış tarixi forumlar idi. "Kitabi-Dədə Qorqud", Nizami, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli Axundov, Aşıq Ələsgər, Sabir, Mirzə Cəlil, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Səməd Vurğun... həmin ictimai-kütləvi forumlarda bütün miqyasları ilə həm Azərbaycan xalqına, həm də dünyaya tanıtdırılırdı ki, bu ənənə sürətlə inkişaf edən Azərbaycanda bugün də davam (və inkişaf ) etdirilir.

Bizim ədəbi-ictimai mühitdə vaxtilə belə bir sual ortaya çıxmışdı:

Necə oldu ki, 60-cı, 70-ci, 80-ci illərdə Azərbaycanda ədəbiyyat adamları içərisində bircə nəfər "dissident" olmadı?

Az-çox istedadı olan hər bir yazıçını milli sərvət kimi qoruyan Ümummilli Lider həmin suala özünəməxsus üslub (və intonasiya!) ilə belə bir dəqiq cavab vermişdi:

Çünki o illərdə ən böyük "dissident" mən özüm idim!..

Heydər Əliyev üçün milli ədəbiyyatın (və yazıçının) nə demək olduğunu bir daha (və dərindən) dərk etmək üçün dahi şəxsiyyətin Azərbaycan yazıçılarının X qurultayındakı nitqindən aşağıdakı sözləri xatırlatmağa, elə bilirik ki, ehtiyac vardır:

“Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir. Bu da təsadüfi deyil. Çünki bizim xalqımız, birincisi, öz istedadına görə şair, yazıçı, söz ustası olubdur. İkincisi, bizim xalqımız çoxəsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir. Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik”.

Milli ictimai fikir tarixində ədəbiyyatın (və yazıçının) mövqeyini bir mütəfəkkir mükəmməlliyilə müəyyənləşdirən bu mülahizələr, heç şübhəsiz, metodoloji əhəmiyyətə malikdir. Və burada Azərbaycan yazıçısının, ümumən mədəniyyət xadiminin xalqın mənəvi özünütəşkili prosesində tarixən formalaşmış nə qədər mühüm missiya daşıdığı dəqiq təsbit olunur.

Həmin qurultayda Ümummilli Lider millətin (və onun yazıçısının) müstəqilliyi məsələsinə də ayrıca diqqət yetirmişdi...

Ədəbiyyata sovet sisteminin və ya ideologiyasının maliyyə təminatının həsrətini çəkən yazıçılar keçən əsrin 90-cı illərində olduğu kimi, yəqin ki, az da olsa, bugün də vardır. Ancaq məsələnin mahiyyəti maliyyə təminatından qabaq yazıçının (ədəbiyyatın) ideallarındadır. Və ən çətin vaxtlarda da ədəbiyyata (yazıçıya) həm mənəvi, həm də maddi köməyini, qayğısını heç zaman əsirgəməmiş Ümummilli Lider onu da demişdi ki, “bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza, birinci növbədə, ədəbiyyatdan keçir”.

Və Azərbaycan ədəbiyyatının tarixində Heydər Əliyev dövrü davam edir...

* * *

Ədəbiyyata 20-ci, 30-cu illərdə gələn şairlərdən Süleyman Rüstəm, Rəsul Rza, Mirvarid Dilbazi, nasirlərdən Mirzə İbrahimov, Süleyman Rəhimov, İlyas Əfəndiyev kimi bir sıra klassiklər “Heydər Əliyev dövrü”ndə də yaşayıb yaradırdılar ki, xalqın (və dövlətin) nəzərində onların xüsusi “status”u var idi. Və bu sırada Xalq şairi Süleyman Rüstəmin yeri müstəsna olmuşdur.

Respublika rəhbəri 1981-ci ilin dekabr ayının 10-da Xalq şairi Süleyman Rüstəmə respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanını təqdim edərkən demişdir:

“Süleyman Rüstəm ədəbiyyata 20-ci illərin əvvəllərində gəlmişdir. Onun bioqrafiyası Sovet Azərbaycanının bioqrafiyası ilə qırılmaz surətdə bağlıdır, bütün bu illər ərzində o, xalqımızla birlikdə addımlamış, onun fikir və düşüncələri ilə yaşamışdır və yaşayır.

Ədəbiyyata qədəm qoyduğu ilk illərdən Süleyman Rüstəm böyük fəallıq göstərmiş, respublikanın gənc yazıçılarının “Qızıl qələmlər” adlı ilk təşkilatının banilərindən biri olmuşdur”.

Əvvəla, sual oluna bilər ki, Süleyman Rüstəm kimi məşhur bir şəxsiyyətin 75 illiyi nə üçün mütəvazi bir şəkildə, yəni özünün neçə illər sədirlik etdiyi respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə qeyd olunmuşdur? Bu suala respublika rəhbərinin çıxışının sonunda cavab vardır:

“Süleyman Rüstəmin 70 yaşı tamam olanda ona ölkəmizdə ən fəxri ad olan Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir.

O, üç Lenin ordeni, iki Qırmızı Əmək Bayrağı ordeni ilə və bir çox medallarla təltif edilmişdir. 1943-cü ildə ona respublikanın Əməkdar incəsənət xadimi, 1960-cı ildə isə Azərbaycanın Xalq şairi adı verilmişdir. Süleyman Rüstəm SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatıdır”.

İkincisi isə, onu, həqiqətən tərcümeyi-halı, xüsusilə yaradıcılıq tərcümeyi-halı etibarilə sovet Azərbaycanından ayırmaq mümkün deyil. Süleyman Rüstəmin yalnız sovet şairi yox, həm də Azərbaycan şairi olması isə o deməkdir ki, bu gün Azərbaycan tarixinin sovet dövrünü haqlı-haqsız mühakimə edənlər böyük şairin yaradıcılığı, düşüncələri, milli idealları ilə tanış olsalar, həqiqətin nədən ibarət olduğu barədə təsəvvürləri daha da aydınlaşar...

Məsələnin ən mühüm cəhəti də ondan ibarətdir ki, şair bütün ömrü boyu Azərbaycanı tərənnüm etmişdir. Hətta ümum “sovet vətəni”ndən bəhs edəndə də əsas mətləb Azərbaycan olmuşdur:

“Hələ ilk şerlərində, hekayələrində, satirik pyeslərində, “Komsomol” və “Yaxşı yol” kimi gözəl poemalarında o, qaynar həyatımızı, fəhlə sinfinin və kəndlilərin yeni həyat uğrunda, sənayeləşdirmə, kənd təsərrüfatının kollektivləşməsi uğrunda ardıcıl mübarizəsini böyük bədii qüvvə ilə əks etdirmişdir. Böyük Vətən müharibəsi illərində Süleyman Rüstəmin yaradıcılığı xüsusi əhəmiyyət kəsb etmişdir. Onun haqq işimizə dərin inamla aşılanmış şeirləri və poemaları, publisistik çıxışları, ictimai fəaliyyəti qəddar düşmənlə amansız çarpışmada cəbhəyə və arxaya kömək edir, Azərbaycan zəhmətkeşlərini gələcək qələbə uğrunda mübarizəyə ruhlandırırdı”.

Ümumiyyətlə, Süleyman Rüstəm cəmiyyətin, xalqın həyatında baş verən mühüm hadisələrin yaddaqalan ədəbi-bədii obrazını yaratmaqda mahir olmuşdur, onun şeirlərini xronoloji ardıcıllıqla oxuyan hər bir adam Azərbaycan xalqının 20-ci illərdən 80-ci illərə qədərki ictimai-siyasi ovqatını bütün əsas cizgiləri ilə izləyə bilər. Və bu, pozitiv, mübariz, hətta ilhamverici bir ovqatdır.

Respublika rəhbəri demişdir:

“70-ci illər şairin yaradıcılığında ən parlaq səhifələrdən biri olmuşdur. Süleyman Rüstəm 70-ci illərin əvvəllərindən respublikamızda baş verən əsaslı ictimai-siyasi dəyişiklikləri ürəkdən bəyənmiş, mənəvi-psixoloji şəraitin sağlamlaşması, kütlələrin siyasi və əmək fəallığının artması prosesinin mübariz iştirakçısı olmuşdur”.

Süleyman Rüstəm bir vaxtlar dillər əzbəri olmuş şeirində yazırdı:
Vətənimin seyrinə çağırıram elləri,
Hörmət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin.

Dünyada bu diyarın ürək dostu deyil az,
Torpağına can verir, əlimizdə Kür, Araz.
Süfrəsində duz-çörək, tərifi şeirə sığmaz,
Nemət görmək istəyən Azərbaycana gəlsin.

Payızında, qışında, baharında, yazında
Dinir zəfər nəğməsi könüllərin sazında.
Sabaha addımlayan oğulunda, qızında
Cürət görmək istəyən Azərbaycana gəlsin.

Heydər Əliyev şairin şerlərindəki publisistik çevikliyə, döyüşkənliyə yüksək qiymət vermişdir:

"Süleyman Rüstəmin səciyyəvi cəhətlərindən biri də bundan ibarətdir ki, o, istərsə respublikamızda, istərsə də ölkədə baş verən ən mühüm hadisələrə öz münasibətini tez bildirir. Bir şair kimi o, beynəlxalq aləmdəki hadisələrə də, indi dünyada gedən mürəkkəb proseslərə də biganə qalmır. Şairin yaradıcılığında Cənubi Azərbaycan mövzusu, onun xalqının öz sosial və milli azadlığı uğrunda mübarizəsi mövzusu görkəmli yer tutur".

"Cənub silsiləsi"nə daxil olan şeirləri tək Süleyman Rüstəmin yox, bütövlükdə Azərbaycan xalqının ən dərin hisslərinin, duyğularının ifadəsi, daha dəqiq desək, Şimalın Cənuba poetik-emosional xitabıdır:

Yadları qoymaram girsin qoynuna,
İzn ver qolumu salım boynuna,
Sənin bayramına, sənin toyuna
Dili bir, canı bir qardaşın gəlib,
Dərdinə aşina sirdaşın gəlib.

Sənin çiçəyinə, gülünə qurban,
Mənə qardaş deyən dilinə qurban,
Vətəninə qurban, elinə qurban!
Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim.

1998-ci ilin mart ayının 26-da Respublika sarayında Xalq şairi Süleyman Rüstəmin 90 illik yubileyi keçirilmiş və həmin təntənəli yubiley gecəsində Azərbaycan Prezidenti Heydər Əliyev nitq söyləmişdir.

Natiq demişdir:

“Süleyman Rüstəm Azərbaycan tarixinə, Azərbaycan mədəniyyəti, ədəbiyyatı tarixinə daxil olmuş görkəmli simalardan biridir. Sona çatan XX əsr ədəbiyyatının, mədəniyyətinin 60 ildən çox bir hissəsini əhatə edən Süleyman Rüstəm yaradıcılığı xalqımızın milli sərvətidir.

... Süleyman Rüstəm kimi insanlar nadir insanlardır. Belə insanlar Tanrının onlara verdiyi fitri istedadı fədakarlıqla xalqına, millətinə sədaqətlə birləşdirib belə zirvələrə qalxa bilibdir”.

Azərbaycanda 20-ci illərdə dünyaya gələn nəsil, eləcə də bir sıra sonrakı nəsillər Süleyman Rüstəmin vətənpərvər şeirləri ilə böyümüşlər ki, Prezident öz nitqində bunu xüsusi qeyd etmişdir:

“Süleyman Rüstəmin şeirləri, bədii yaradıcılığı çox rəngarəngdir və bir çox nəsillərin təhsilinə, mənəviyyatına, formalaşmasına böyük təsir etmişdir. Bu, böyük həqiqətdir. Mənim nəslim 30-cu illərdə Süleyman Rüstəmin və Süleyman Rüstəmlə eyni yaşda olan, Azərbaycan ədəbiyyatına onunla bir zamanda gələn böyük yazıçılarımızın, şairlərimizin əsərlərinin təsiri altında təhsil almış, böyümüş, vətənpərvər olmuş, vətənini, millətini dərk edə bilmişdir”.

Səməd Vurğun, Rəsul Rza kimi Süleyman Rüstəm də kommunist idi. Və Azərbaycan sovet poeziyasının bu son dərəcə istedadlı, ilhamlı baniləri kommunist ideologiyasına, onun Azərbaycan xalqına xoşbəxtlik, səadət gətirəcəyinə (hətta artıq gətirmiş olduğuna!) inanmışlar. Doğrudur, ola bilməz ki, cəmiyyətdəki müəyyən “təlatümlər” (məsələn, milli ayrıseçkilik, repressiyalar və s.) onlarda müəyyən narahatlıqlar, şübhələr yaratmasın, ancaq bunlar, heç şübhəsiz, keçici olmuşdur... Və dövrün, ictimai-siyasi şəraitin özü də başqa cür düşünməyi, yaşamağı, yaratmağı, prinsip etibarilə, istisna edirdi:

“Akademik Bəkir Nəbiyev Süleyman Rüstəmin yaradıcılığı haqqında danışarkən Süleyman Rüstəmin partiya, komsomol, sovet hakimiyyəti, sovet ideologiyası haqqında yazmasına müəyyən qədər bəraət qazandırmağa çalışırdı. Bilirsiniz, mən bunu keçmişdə də demişəm, bu gün də təkrar etməyim yerinə düşərdi. Hansı dövrdə hansı şair padşahları vəsf etməyibdir? Hansı dövrdə hansı şair, hansı yazıçı yaşadığı dövrü tərənnüm etməyibdir? Belələrini tapmaq mümkün deyil. Əgər bəziləri varsa, onları bayraq edib bütün qalanlarına qara yaxılması düzgün deyildir”.

Akademik Bəkir Nəbiyevin Azərbaycan sovet ədəbiyyatına münasibətdə, demək olar ki, bütün müasir Azərbaycan ədəbiyyatşünaslığı üçün səciyyəvi olan mövqeyinə Ulu Öndər özünəməxsus yüksək analitik təfəkkürlə belə bir düzgün izahat verərkən həm də məsələyə yanaşmanın metodoloji-fəlsəfi prinsipini müəyyən etmişdir:

“Bəli, biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim bu ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yazacaqdı?

İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər. Onda deyərdilər ki, bunlar qəhrəman idi... Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm”.

Əlbəttə, məsələnin başqa bir tərəfi də o idi ki, Səməd Vurğun da, Süleyman Rüstəm də, Rəsul Rza da təkcə kommunist deyildilər, həm də azərbaycanlı idilər, milli təəssübkeş idilər.

O illərdə Süleyman Rüstəm yazmışdı:

Yad gül dərə bilməz çəmənimdən,
Heç qüvvə ayırmaz məni bir an.
Öz doğma elimdən, Vətənimdən.

Hər yerdə günəşdir mənə bayraq,
Baş əymərəm aləm yağı olsa,
Qan axsa da sel tək bədənimdən.

Ölsəm qalacaqdır əməlim sağ,
Düşmən mənə əl vursa, əminəm,
Atəş açılacaqdır kəfənimdən.

Heç qüvvə ayırmaz məni bir an
Öz doğma elimdən, Vətənimdən.

Əgər Süleyman Rüstəmin, eləcə də digər iki böyük şairin şeirləri üzərində müşahidə, yaxud təhlil aparsaq görəcəyik ki, onların milli vətənpərvərlik mövzusundakı şeirləri kommunist ideologiyasını, sovet vətəndaşlığını, sosialist beynəlmiləlçiliyini və s. tərənnüm edən şeirlərindən həm daha çox, həm də poetik, ideya-estetik baxımdan daha mükəmməl, daha keyfiyyətlidir. Və eyni zamanda dövrün ictimai-siyasi, ideoloji əhval-ruhiyyəsini əks etdirən şeirlər zaman-zaman unudulduğu, yeni nəsillərin yaddaşında, mənəvi-mədəni həyatında özünə yer tuta bilmədiyi halda, milli vətənpərvərlik şeirləri yaşayır və təbii ki, bundan sonra da yaşayacaqdır.

Azərbaycan Prezidenti demişdir:

“Əgər bizim ədəbiyyatımız inkişaf etməsəydi, əgər yazıçılarımız, şairlərimiz yeni-yeni əsərlər yaratmasaydılar, onu yaymasaydılar və xalqımız bu ədəbiyyat

nümunələrindən istifadə etməsəydi, bizim dilimiz bu cür yaşaya bilməzdi. Mən hesab edirəm ki, Azərbaycan dilinin bütün o çətin dövrlərdən keçib yaşamasında, inkişaf etməsində, bugünkü yüksək səviyyəyə çatmasında Süleyman Rüstəmin də böyük bir xidməti, payı vardır".

Şairin özü də yaradıcılığına qarşı bəzi iradlara cavab verməkdən çəkinməmişdi:

Kim nə deyir desin, kim gülür gülsün,
Mən də öz yerində gülən şairəm.
Ağzın süd qoxuyur, körpəsən hələ,
Mən xalqın dərdini bilən şairəm!

Baş döndərən xülya nəyimə gərək,
İşıqsız bir dünya nəyimə gərək,
Göz yaşından dərya nəyimə gərək,
Xalqın göz yaşını silən şairəm!

Sön desəm, göylərdə sönər ulduzlar.
Yerlərə en desəm, enər ulduzlar,
İşıq karvanına dönər ulduzlar,
Günəşli ölkədən gələn şairəm!

Süleyman Rüstəmin yaradıcılığına, poeziyasının məzmun-mündərəcəsinə və şəxsiyyətinə yaxşı bələd olan Ulu Öndər demişdir:

"Vətənə, Azərbaycana bağlılıq Süleyman Rüstəmin Təbrizlə əlaqədar şeirlərində də və böyük Azəırbaycan, İran şairi Şəhriyarla yazışmalarında da özünü göstərir. Yalnız vətənini, millətini hədsiz sevən və ona sadiq olan bir insan şair Süleyman Rüstəmin yazdığı şeirləri yaza bilərdi. Əgər o hisslər olmasaydı, o, belə şeirləri yazmazdı, o hisslər olmasaydı, Şəhriyarla yazışmazdı, ona şeirlər ithaf etməzdi və ondan şeirlər almazdı. Bunlar bizim ədəbiyyat, mədəniyyət tariximizin qızıl səhifələridir. Biz bunları qiymətləndirməliyik".

Doğrudan da, bu misralardakı həyəcanı, dərin hissləri, zəngin duyğuları necə anlamamaq, qiymətləndirməmək və başlıcası, onların təsiri altına düşməmək olar:

Araz sahilindən yolum düşəndə
Bir an həyəcansız keçə bilmirəm.
Nələr olduğunu o biri tayda
Çox gözəl bilirəm, necə bilmirəm!

Eşitsin səsimi bacım, qardaşım,
Hicran yollarında ağardı başım.

Damır ürəyimə yenə göz yaşım,
Gündüzü gecədən seçə bilmirəm.

Özgələr su içir bulaqlarından,
Fəryadlar yüksəlir ocaqlarından.
Niyə qollarından, ayaqlarından
Paslı zəncirləri aça bilmirəm?!

Natiq demişdir:

"Süleyman Rüstəm çox fəal ictimai-siyasi xadim olubdur, Azərbaycan Respublikasının Ali Soveti 1938-ci ildə yaranıbdır. O yaranan zamandan Süleyman Rüstəm ömrünün axırına qədər, demək, 50 il Azərbaycan Respublikası Ali Sovetinin deputatı olubdur.

...Mən xatırlayıram, həqiqətən, 1971-ci ildə respublikaya rəhbərlik edən zaman mənim təklifimlə Süleyman Rüstəm Ali Sovetin sədri vəzifəsinə seçildi və o, bu vəzifəni ömrünün axırına qədər şərəflə yerinə yetirdi".

Süleyman Rüstəm yaradıcılığı boyu müxtəlif janrlarda yazmışdır, ancaq son illər poetik əhvali-ruhiyyəsi onu daha çox qəzələ çəkirdi. Və həqiqətən, gözəl qəzəllər yazdı:

Aşiq olanın bağrı dönər qanə, deyirlər,
Atəşdə yanan aşiqə pərvanə deyirlər.

Dost-aşnanı öyrən baxıb ətrafına, könlüm.
Hər addımını, eybini cananə deyirlər.

...Məndən sənə, ey gül, nə deyirlərsə, inanma,
Səndən də gəlib gündə Süleymana deyirlər.

Təsadüfi deyil ki, Prezident Süleyman Rüstəm yaradıcılığının bu məqamından da bəhs etmişdir:

"Süleyman Rüstəmin yazdığı şeirlərə, qəzəllərə çox mahnılar qoşulubdur, bəstələnibdir və hər bir mahnı bizdə, azərbaycanlılarda böyük ruh yüksəkliyi, xoş əhval-ruhiyyə yaradır, bizə ilham verir. Süleyman Rüstəm öz xasiyyəti, yaradıcılığı ilə çox hərarətli bir insan olubdur. Mənim xatirimdədir, ona "alovlu şair" deyirdilər. Bu, həqiqətən də, belə idi. Həyatda da belə idi. Çox mərd insan idi".

Nitqinin sonunda Ulu Öndər ən yeni Azərbaycan poeziyasının banilərini bəyənməyən, onların yaradıcılığına yuxarıdan aşağı baxan, sənətdən, ədəbiyyatdan xəbərsiz nadanları kəskin şəkildə ittiham etmişdir:

“Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır. Belə adamların özləri xalq, millət, ölkə üçün heç bir şey etməyiblər. Əgər bizim xalq dili ilə desək, onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə Süleyman Rüstəmin dırnağı qədər də ola bilməzlər”.

Azərbaycan rəhbəri 1980-ci ilin dekabr ayının 4-də Rəsul Rzaya Sosialist Əməyi Qəhrəmanı fəxri adını təqdim edərkən demişdir:

“Rəsul Rza Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, gözəl şairlərimiz Səməd Vurğun və Süleyman Rüstəmlə birlikdə Azərbaycan poeziyasının banilərindən biri hesab olunur”.

Məlumdur ki, XX əsrin ortalarından etibarən Azərbaycan poeziyasında iki məktəb – Səməd Vurğun və Rəsul Rza məktəbləri formalaşmışdır ki, elə bu faktın özü Səməd Vurğunla yanaşı Rəsul Rzanın da milli ədəbi-bədii təfəkkürdə nə qədər əhəmiyyətli mövqeyə malik olmasını göstərir.

“30-cu illərin əvvəllərində yaradıcılıq fəaliyyətinə başlayan Rəsul Rza yarım əsr ərzində Azərbaycan ədəbiyyatının, Azərbaycan şeir sənətinin inkişafına böyük təsir göstərmişdir”  deyən ölkə başçısı onu da əlavə etmişdir ki, “Rəsul Rza yaradıcılığının səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dünya ədəbiyyatının, inqilabi rus poeziyasının ən yaxşı nümunələrinin təsiri altında, Mayakovskinin poetik irsinin səmərəli təsiri altında o, zəngin milli ədəbi ənənələrdən istifadə edərək, Azərbaycan poeziyasında bir novator kimi çıxış etmiş, Azərbaycan poeziyasını yeni bədii ifadə vasitələri, yeni şeir formaları ilə zənginləşdirmişdir”.

Rəsul Rza, məsələn, hər bir azərbaycanlıya tanış (və dahi Mirzə Cəlil qələminin məhsulu) olan kefli İsgəndəri şeirə elə gətirir ki, yeni ideya-estetik dəyər qazanır - əsrin əvvəllərinə məxsus obraz əsrin ortalarının sosial-psixoloji mühitinə interpretasiya edilir:

Kimi dərdindən içir,
kimi kefindən.
Kimi təzə paltardan qorxur,
kimi kəfəndən.
İsgəndəri soruşdunuz məndən?
İsgəndər içərdi,
Ləqəbi də Kefli İsgəndərdi.
Gecə-gündüz düşündürürdü onu
diri ölülərin dərdi.
Yoxsa o da bir poçt məmuru olar
nə dərdlənər, nə içərdi,
Ömrü ölülər içində
sakit, səssiz keçərdi.

Qınamayın İsgəndəri!
Yaman olur anlamaq dərdi.

Və çox keçmədi ki, “kefli İsgəndər” ifadəsi kimi, “anlamaq dərdi” ifadəsi də müəyyən populyarlıq qazandı. XX əsrin əvvəllərinin konsepti öz ənənəvi məna-məzmun ruhunu heç də tamamilə itirmədən daha mücərrəd, daha ümumi bir anlayışa transformasiya olundu.

Rəsul Rzanın “Lenin” poeması sovet dövründə çox populyar olmuşdur. Böyük şairin oğlu Anar yazır:

“Şübhəsiz, sovet rejimi şəraitində yazıb-yaradan şairin rəsmi ideoloji qəliblərə uyğun olan əsərləri də var. Bu cəhətdən şairin məşhur “Lenin” poeması Leninin şəxsiyyəti haqqında o dövrdə təbliğ və təlqin edilən müsbət və yanlış təsəvvürlərə əsaslansa da, sənətkarlıq baxımından çağdaş şeirimizin yüksək uğurlarından sayılır”.

Anarın dediyi kimi, “50-ci illərdən, sovet rejimi haqqında bir çox acı həqiqətlər meydana çıxdıqdan sonra Rəsul Rzanın yaradıcılığında xəyal qırıqlığı, ictimai etiraz, ifşa və tənqid motivləri güclənir”, “ezop dili”nə keçən şairə qarşı ənənəvi poetik təfəkkür mövqeyindən müəyyən hücumlar olsa da, Rəsul Rza “sonacan öz sənət prinsiplərinə sadiq qalmışdır”.

“Rənglər” silsiləsi, eləcə də bir sıra digər əsərləri göstərdi ki, şair hələ sovet dövrünün davam etdiyi illərdə bu dövrün ədəbiyyatını – sovet ədəbiyyatını ruhən tərk edir. O, “Rənglər”in “Uvertüra”sında yazırdı:

Ağ, qara, sarı, yaşıl, qırmızı:
hərəsi bir sınaqla bağlıdır.
Biri həsrətimizi xatırladır,
biri dərdimizi, biri arzumuzu.
Hərəsində bir məna arayıb
Bir səbəb görən var.
Kim bilir, kim sınamış,
kim bunu ilk dəfə demiş, -
Qara – matəm,
qırmızı bayram,
sarı nifrət rəmzi imiş...

“Rəsul Rzanın poeziyası zəmanəmizdə coşqun inkişaf edərək son vaxtlar respublikada baş verən müsbət prosesləri parlaq şəkildə əks etdirir, zəhmətkeşlərin ideya-siyasi və estetik tərbiyəsinə kömək edir” deyərkən respublika rəhbəri və təkcə Azərbaycan deyil, Ümumittifaq miqyasında da ədəbi-mədəni prosesin gedişini ardıcıl izləyən Heydər Əliyev, heç şübhəsiz, şairin poeziyasındakı idealları nəzərdə tuturdu. Çünki Rəsul Rzanın 60-cı, 70-ci illərdəki yaradıcılıq üslubu elə idi ki, əvvəlki

onilliklərdən fərqli olaraq sözü birbaşa yox, daha çox dolayısı ilə demək üsullarına yiyələnmişdi. Və bu, ümumən, həmin dövr ədəbiyyatının bir çox sənətkarlarının da əməl etdiyi səciyyəvi əlamətə çevrilmişdi.

Şair "Rənglər"in "əl vurmayın, rənglənib" adlandırdığı son bölməsində "rənglənmiş"ləri belə təqdim edirdi:

Dodaqlara yapışmış təbəssüm,
Buqələmunlar.
Təcrübəli meymunlar.
Qara qatıq.
Ağ qurum.
Yeməli qum.
Məhəbbətin surroqatı.
Məqsədli alqışlar.
İnsan qəlbinin
boş olduğu anlar.
Fil görünən birələr.
Səməd Mənsur haqqında xatirələr.
Doğruya bənzəyən yalanlar.
Şalvarlı, köynəkli,
donlu, əlcəkli adamlar.
Hər cürə boya.
Toydan yasa,
yasdan toya
tələsən adamlar.

Respublika rəhbəri Rəsul Rzanın tərcüməçilik fəaliyyətini xüsusi qeyd etməklə yanaşı, onun əsərlərinin dünyanın müxtəlif dillərində oxunduğunu da göstərmişdir:

"Rəsul Rza klassik dünya ədəbiyyatının, klassik və müasir rus şeirinin ən yaxşı nümunələrini Azərbaycan dilinə tərcümə edərək bu sahədə də çox böyük xidmətlər göstərmişdir. Vladimir Mayakovskinin əsərlərinin əksəriyyətini Azərbaycan dilinə məhz Rəsul Rza tərcümə etmişdir.

Rəsul Rzanın bədii yaradıcılığı respublikamızda hamı tərəfindən sevilmiş, ona hüsn-rəğbət və hörmət, ölkəmizdə və xaricdə ona böyük şöhrət qazandırmışdır. Onun əsərləri SSRİ xalqlarının dilinə və xarici dillərə tərcümə olunmuşdur".

Və təbii ki, şairin ictimai-siyasi fəaliyyətini də təqdir etmişdi:

"Rəsul Rza respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmişdir. 40 ildən artıqdır ki, o, Kommunist Partiyasının sıralarındadır. O, respublika Ali Sovetinin deputatı, Asiya və Afrika ölkələri həmrəyliyi Azərbaycan Komitəsinin sədri,

Xəbərlər Mətbuat Agentliyi Azərbaycan şöbəsi rəyasət heyətinin sədri vəzifələrini müvəffəqiyyətlə yerinə yetirir".

Azərbaycan Prezidenti 2001-ci ilin dekabr ayının 25-də Respublika sarayında Rəsul Rzanın 90 illiyinə həsr olunmuş yubiley gecəsində iştirak etmiş, ədəbi-bədii proqramla çıxış edən incəsənət ustaları ilə görüşdə demişdir:

"Çox gözəl, qeyri-adi tamaşa göstərdiniz. Eyni zamanda Rəsul Rzanın yaradıcılığını aça bildiniz. Bu, asan şey deyildir. Çünki Rəsul Rzanın yaradıcılığı çox gözəldir, yüksək səviyyəlidir, amma eyni zamanda mürəkkəbdir, çox çətindir.

...Biz hamımız bu gün böyük şairimiz Rəsul Rzanı və Nigar Rəfibəylini – burada Nigar xanımın şeirlərinə yazılmış mahnılar, musiqilər səsləndi – bir daha xatırlamalıyıq, onların Azərbaycan xalqı qarşısında xidmətlərini bir daha qeyd etməliyik və onların xatirəsinin bizim üçün nə qədər əziz olduğunu bir daha bildirməliyik".

1998-ci ilin mart ayının 21-də Novruz bayramı günündə Şirvanşahlar sarayının həyətində bir qrup ədəbiyyat və incəsənət xadimi ilə birlikdə Prezident Heydər Əliyevlə görüşən Mirvarid Dilbazi demişdir:

"İcazənizlə iki şeirimi oxumaq istəyirəm. Birini xalqımızın böyük mütəfəkkir oğlu Heydər Əliyevin birinci katib olduğu dövrdə yazmışam və indiyə qədər də çap etdirməmişəm... İkinci şeiri təzə yazmışam.

...Mən bilirəm ki, möhtərəm Prezidentimiz tərifi sevmir. Əzizim, bu tərif deyil, məhəbbətdir. Siz o qədər incə ruhlu, alicənab, mütəfəkkir bir insansınız ki, məhəbbətlə tərifi fərqləndirə bilirsiniz.

...Mən hələ bu yaşıma qədər nə bir katibin, nə bir prezidentin qəbulunda olmuşam, nə yanında oturmuşam, nə də ehtiyacımı demişəm. Mən Sizi bir Prezident kimi, Heydər Əliyev kimi ürəkdən sevmişəm.

Heydər Əliyev: Mən də sizi həmişə doğma bacım kimi qəbul etmişəm.

Mirvarid Dilbazi: Bu şeiri mən 1974-cü ildə yazmışam. O vaxt Heydər Əliyev rüşvətxorluqla mübarizə aparanda bizim hamımızın fikrini ifadə etdi.

Şücaətli əzizim
Vətənimiz də birdir,
Torpağımız da bizim.
Üstü mavi zolaqlı
Bayrağımız da bizim.
Bir çırağın işığı,
Bir ocağın oduyuq,
İnamlı, etiqadlı
Bir xalqın övladıyıq.

Bizim yolumuz çətin,
İradəmiz sarsılmaz.

İnamımız da birdir.
Bu yol ağır savaşlı
Bizim bu günümüzdən
Aydın sabaha gedir.

Bu yüksəliş yoluyla
Gedir xalqımız bizim.
Qabaqda sən gedirsən,
Şücaətli əzizim!

İkiüzlü olanı
İki yandan vurursan.
İkisözlü olanı
Bir sözlə susdurursan.
Sən düşmənsən yalana,
Əliəyri olana.

Yaxşı divan tutursan
Vəzifələr başında
Hər gün haram pullarla
Ciblərini dolduran,
Millətə ot yolduran
Qansız rüşvətxorlara,
Acgöz nankorlara.

Eşq olsun qüdrətinə,
Milli cəsarətinə.
Qanı doğma qanımız,
Milli qəhrəmanımız.
Xalqımızın ər oğlu,
Millətə rəhbər oğlu.
Eşq olsun Sizə!

Mən bu günlərdə yazdığım şeiri Sizə əzbər söyləmək istəyirəm.

İnamlı, etiqadlı
Bir xalqın başında
Aqil, mötəbər,
Tədbirli bir başçı
Durmasa əgər,
Bu xalqı qurd nədir,

Çaqqallar yeyər.
Bir xalqın başında
Xalq, millət qanlı,
Dönməz, cəsarətli
Təmiz vicdanlı,
Xalqlar arasında
Şöhrətli, şanlı
Bir başçı durmasa, -
Sözündə kəsər,
O xalqı qurd nədir,
Tülkülər yeyər.
O xalqın başını
Düşmənlər əyər.

Aqilə, cahilə
Fərq qoymayanlar,
Yeyib xalq malını
Heç doymayanlar,
Bunu hardan bilir
    o kor vicdanlar.
Bir xalqın başında
    bir ər oğlu ər
Durmasa əgər,
O xalqı qurd nədir
Çaqqallar yeyər.

Sən ey ər oğullar
Böyüdən millət.
Sənə min təzim,
Sənə min hörmət!

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Zəroş xanım mənim tələbə yoldaşımdır, orta məktəbdə bir yerdə oxumuşuq, hətta bir partanın arxasında oturmuşuq. Buyur, Zəroş.

Zəroş Həmzəyeva (xalq artisti): Heydər müəllim, bu gün içəri girəndə Sizdən ayrıldığım 1938-ci ilə, 60 il bundan qabaqkı dövrə qayıtdım. Allah Sizə ömür versin.

... Mən Mirvarid xanımdan üzr istəyirəm. On illik səhnəsiz günlərimdə Sizə yazdığım bir şeiri oxumaq istəyirəm.

Bağçaları barlı,
düzləri çəmən.
Ətrinə bürüyür
bizi yasəmən.
Əcəmilər, Cavidlər
yetirən vətən,
Torpağına əhsən,
suyuna əhsən!

Dünyadan sorağı
gəlir Cəlilin,
Qılınc-qələmidir
Məmməd Səidin,
Tarixdə ad qoyan
neçə igidin
Şöhrətinə əhsən,
eşqinə əhsən!

Mənim Naxçıvanım,
ey doğma vətən,
Dahilər yetirdin
qucağında sən.
Vətəni, xalqını
daim yüksəldən
Heydər Əliyev kimi
Oğula əhsən!"

Azərbaycan Prezidenti 1998-ci ilin aprel ayının 23-də Respublika sarayında xalq şairi Mirvarid Dilbazinin 95 illik yubileyində iştirak etmiş, nitq söyləmişdir. O demişdir ki, "siz bu əsri – XX əsri sona çatdırırsınız və 70 ildir ki, xalqımıza, millətimizə, ölkəmizə, vətənimizə sədaqətlə, öz fədakar əməyinizlə, parlaq yaradıcılığınızla xidmət edirsiniz. Sizin şeirləriniz, poemalarınız, bütün əsərləriniz neçə-neçə nəsillərə güc, inam verib və bu gün də verir, gələcəkdə də verəcəkdir".

Mirvarid Dilbazi ədəbiyyata doğma yurdunun saf təbiətini, zəngin etnoqrafiyasını gətirmişdi. Və müharibə başlayanda onun qələmi artıq əsgər şeirləri yazmağa başladı. Hətta kiçiklər üçün də yazanda başlıca mövzusu vətən uğrunda mübarizə idi. Müharibədən sonra Mirvarid Dilbazi müxtəlif mövzulara müraciət etdi. Məhəbbətdən tutmuş beynəlxalq məsələlərə qədər...

"Siz Azərbaycanın istiqlaliyyəti yolunda fədakar bir əsgərsiniz. Ona görə də Siz müstəqil Azərbaycanın ən yüksək mükafatı olan "İstiqlal" ordeninə layiq görülmüsünüz" deyən Azərbaycan Prezidenti əlavə etmişdir:

"Mirvarid xanım, Siz 30-cu illərdən başlayaraq Azərbaycan şeirini, ədəbiyyatını inkişaf etdirən böyük və çox gözəl şairlər, yazıçılar dəstəsinin bu günlərə gəlib çatmış yeganə nümayəndəsisiniz.

...Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov, Əli Vəliyev, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Nigar Rəfibəyli – sizlər və sizin həmkarlarınız o illər Azərbaycan ədəbiyyatını çiyinlərində daşıyıb yüksəklərə qaldırmısınız".

Sonra Prezident Azərbaycanda qadınların şeir yazmaq ənənəsinin qədim dövrlərdən gəldiyini söyləmiş, sovet dövründə yazıb-yaradan görkəmli xanım şairləri xatırlamışdır:

"Azərbaycanda keçmiş əsrlərdə də qadın, xanım şairlər olmuşdur. Məhsəti Gəncəvi, Ağabəyimağa Ağabacı, Heyran xanım, Aşıq Bəsti, Xurşidbanu Natəvan – onlar keçmiş əsrlərdə Azərbaycan qadınının nə qədər yüksək mənəvi-intellektual zirvələrə qalxmasını sübut etmişlər... Bunu XX əsrdə davam etdirən ən görkəmli qadın şairlərimiz Mirvarid Dilbazi və Nigar Rəfibəyli olmuşlar.

Mədinə Gülgünü və Hökumə Büllurini də bu gün xatırlamaq istəyirəm".

Ulu Öndər öz nitqini çox səmimi, təsirli sözlərlə bitirmişdir:

"Əziz bacım Mirvarid Dilbazi... Azərbaycan xalqı Sizinlə fəxr edir. Çünki Siz XX əsrin tarixi bir şəxsiyyətisiniz. Azərbaycan ədəbiyyatının, şeirinin klassikisiniz".

Azərbaycanın rəhbəri 1981-ci ilin oktyabr ayının 23-də Xalq yazıçısı Mirzə İbrahimova Sosialist Əməyi Qəhrəmanı fəxri adını təqdim edərkən çıxışını bu sözlərlə başlamışdır:

"Azərbaycan ədəbiyyatının, bütün çoxmillətli sovet ədəbiyyatının görkəmli simalarından biri olan Mirzə İbrahimov yarım əsrdən çoxdur ki, Sovet İttifaqı Kommunist Partiyasının üzvüdür və sadiq əsgər öz xalqına, Vətəninə sədaqətlə xidmət edir".

Mirzə İbrahimovun böyük bir söz ustası kimi yaradıcılıq yoluna nəzər salan Heydər Əliyev özünəməxsus bir peşəkarlıqla onun "Həyat" pyesini təhlil etmiş, əsərin tarixi əhəmiyyəti barədə öz mülahizələrini söyləmişdir:

"Mirzə İbrahimovun ədəbi fəaliyyəti zəngin və rəngarəngdir. İlk böyük əsəri olan "Həyat" pyesində o, sosializm quruculuğuna başladığımız ilk illərdə ölkəmizdə, kənd təsərrüfatının kollektivləşməsi prosesində gedən mübarizəni, kənd zəhmətkeşlərinin fədakar əməyini parlaq surətdə realistcəsinə dərindən əks etdirmişdir. Bu əsərlə o özünü böyük bir sənət ustası kimi tanıtmışdır. Biz həmin dövrü xatırlayaraq, bu gün cəsarətlə deyə bilərik ki, Mirzə İbrahimovun "Həyat" pyesi Cəfər Cabbarlının "Sevil", "Almaz" "Yaşar" kimi əsərləri ilə yanaşı respublikada sosializm quruculuğunda böyük rol oynamışdır. Mirzə İbrahimov öz əsərlərində zamanın ən aktual məsələlərini böyük

bədii qüvvə ilə qələmə alır və oxucular onun yaradıcılığını Azərbaycan tarixinin həqiqi salnaməsi kimi qəbul edirlər".

Yazıçı yaradıcılığının sonrakı dövrlərində səhnə əsərləri yazmağa xüsusi önəm vermişdir ki, bu, bir tərəfdən, onun ədəbi özünüifadə tərzi idisə, digər tərəfdən, cəmiyyətin teatra marağını nəzərə almaqdan, ictimai sifarişi cavabsız qoymamaqdan irəli gəlirdi:

"Madrid" pyesində Mirzə İbrahimov İspaniya xalqının faşizmə qarşı mübarizəsini təsvir etmiş və bununla birlikdə o dövrün ən dəhşətli bəlasına qarşı qəzəbli etirazı ifadə etmişdir. "Məhəbbət" pyesində, habelə sonrakı illərin "Kəndçi qızı", "Yaxşı adam" kimi səhnə əsərlərində yazıçı daxili mübarizəni, cəmiyyətimizdə olan ziddiyyətləri ustalıqla əks etdirmiş, bizim günlərin müsbət adamlarının parlaq obrazlarını yaratmışdır".

40-cı illərdə qələmə aldığı "Azad", "12 dekabr", "Tonqal başında", "İztirabın sonu" kimi "Cənub hekayələri"ndən sonra Mirzə İbrahimov 1948-ci ildə eyni mövzuda məşhur "Gələcək gün" romanını qələmə aldı:

"Mirzə İbrahimovun roman janrında da xidmətləri böyükdür. O, "Gələcək gün", "Böyük dayaq", "Pərvanə" kimi epik əsərlər yaratmışdır ki, bunlar da Azərbaycan ədəbiyyatının, bütün müasir ədəbiyyatın, həqiqətən, görkəmli əsərlərindəndir".

Hər üç roman barədə öz fikrini söyləyən respublika rəhbəri sözünə davam edərək demişdir:

"... Yazıçının bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında mühüm yer tutur, onun inkişafına, yazıçıların bir neçə nəslinin təşəkkülünə böyük təsir göstərmişdir. Mirzə İbrahimovun yaradıcılığı qədim tarixi olan Azərbaycan ədəbiyyatının irsi, onun tarixi kökü üstündə qərar tutmuş, dünya ədəbiyyatının, rus klssik ədəbiyyatının ən yaxşı nailiyyətlərinin, qardaş xalqların ədəbiyyatının klassik və müasir nümunələrinin təsiri altında püxtələşmiş və inkişaf etmişdir".

Mirzə İbrahimovun yaradıcılıq fəaliyyəti çoxcəhətli olmuşdur:

"Bədii yaradıcılığı ilə yanaşı, Mirzə İbrahimovu respublikamızda və ölkəmizdə görkəmli bir ədəbiyyatşünas alim, tənqidçi və publisist kimi tanıyırlar. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü kimi bu sahələrdə onun fəaliyyəti yüksək qiymətə layiqdir və biz tam qətiyyətlə deyə bilərik ki, Mirzə İbrahimov bir ədəbiyyatşünas alim kimi Azərbaycan elminin inkişafına böyük təsir göstərmişdir".

Onun "Böyük demokrat", "Həyat və ədəbiyyat", "Azərbaycan dili", "Xəlqilik və realizm cəbhəsindən", "Aşıq poeziyasında realizm", "Ədəbi qeydlər", "Tufanlara kömək edən bir qələm" kitabları Azərbaycan ədəbiyyatşünaslığının dəyərli əsərləri sırasındadır.

Respublika rəhbəri demişdir:

"Mirzə İbrahimov böyük yaradıcılıq fəaliyyəti ilə yanaşı, respublikanın ictimai həyatında da fəal iştirak edir.

... Uzun illər Mirzə İbrahimov Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik etmiş, SSRİ Yazıçılar İttifaqının katibi olmuşdur. Azərbaycan yazıçılarının VII qurultayında o, yenidən respublika Yazıçılar İttifaqı idarə heyətinin sədri, SSRİ yazıçılarının VII qurultayında isə Ümumittifaq Yazıçılar Təşkilatının idarə heyəti katiblərindən biri seçilmişdir. Bu vəzifədə Mirzə İbrahimov öhdəsinə düşən işləri layiqincə yerinə yetirir".

Heydər Əliyev çıxışının sonunda Azərbaycanın qocaman ədiblərinə öz hörmət və ehtiramını bildirmişdir:

"Bu gün biz Cəfər Cabbarlını, Səməd Vurğunu, Rəsul Rzanı minnətdarlıqla yada salırıq və yazıçıların yaşlı nəslinin indi aramızda olan və Azərbaycan ədəbiyyatının inkişafına böyük xidmət göstərən nümayəndələri Süleyman Rüstəmin, Süleyman Rəhimovun və Mirzə İbrahimovun adlarını minnətdarlıq hissi ilə çəkirik. Biz əminik ki, onlar və onlarla birlikdə Azərbaycan ədəbiyyatının bütün xadimləri xalqımızın bədii yaradıcılığını daha yüksək zirvələrə qaldıracaqlar".

Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev 1980-ci ilin may ayının 15-də Xalq yazıçısı Süleyman Rəhimova "Xalqlar Dostluğu" ordeni təqdim edərkən demişdir:

"Süleyman Rəhimov Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Onun yaradıcılığı sovet hakimiyyəti illəri ərzində Azərbaycan Respublikasının keçdiyi bütün inkişaf mərhələlərini yüksək bədii səviyyədə əks etdirir. Ədib öz əsərləri ilə Azərbaycan ədəbiyyatının inkişafına böyük xidmət göstərir. Onun romanlarında, povestlərində, hekayələrində, publisistik çıxışlarında Azərbaycanın şərəfli yolu, xüsusən kənddə inqilabi dəyişikliklər özünün parlaq ifadəsini tapmışdır. Süleyman Rəhimov Azərbaycan ədəbiyyatında roman janrının inkişafında böyük xidmət göstərmişdir".

Səməd Vurğunun sözləri ilə desək "Azərbaycan ədəbiyyatının uzaq vuran topu" olan Süleyman Rəhimov "Şamo", "Saçlı", "Qafqaz qartalı" kimi irihəcmli əsərləri ilə Azərbaycan ədəbiyyatına epik vüsət, geniş nəfəs gətirmiş, elə bədii təhkiyə miqyasları müəyyən etmişdir ki, bu günə qədər əlçatmazdır.

Heydər Əliyev əlavə etmişdir:

"Respublikanın ədəbi ictimaiyyəti onu Azərbaycan yazıçılarının ağsaqqalı adlandırır. Mənə belə gəlir ki, bu şərəfli ad ona təkcə yaşına və ağ saçlarına görə deyil, ən əvvəl yarım əsrdən çox bir müddət ərzində Azərbaycan ədəbiyyatında fəaliyyət göstərdiyinə görə verilir, Azərbaycan ədəbiyyatının inkişafında çəkdiyi zəhmətə görə verilir".

Respublika rəhbəri onu da demişdir ki, "Süleyman Rəhimov eyni zamanda partiya xadimi və ictimai xadim kimi tanınmışdır. Yarım əsrdən çoxdur ki, Sov. İKP sıralarındadır, uzun illər partiya işində çalışmış, Azərbaycan Yazıçılar İttifaqının sədri olmuşdur. Bu gün də ədəbi yaradıcılıq ilə yanaşı, fəal ictimai xadim kimi çalışır".

Azərbaycan Respublikası rəhbəri Heydər Əliyev 1982-ci ilin may ayının 15-də xalq yazıçısı Əli Vəliyevə layiq görüldüyü "Oktyabr İnqilabı" ordenini təqdim edərkən demişdir:

"Əli Vəliyevin yaradıcılıq yolu Azərbaycan tarixi ilə qırılmaz surətdə bağlıdır. O, ədəbiyyata 1924-cü ildə yazdığı kiçik bir povestlə gəlmişdir. Həmin povest və yazıçının bütün sonrakı əsərləri respublikamızın coşqun sosial-iqtisadi inkişafını parlaq surətdə əks etdirir".

Əli Vəliyev Azərbaycan ədəbi-ictimai mühitində həmişə öz sözünü deyən, həqiqətin üzünə dik baxmağı bacaran, haqqı nahaqqa verməyən bir şəxsiyyət kimi tanınmışdır. Xalq içərisindən, "həyatın dibi"ndən çıxmış bu insanın, hətta sadəlövhlük səviyyəsinə qədər enən mənəvi saflığı barədə çox danışırlar. Görkəmli yazıçı İsa Muğanna (Hüseynov) öz xatirələrində mərdliyindən danışaraq onu öz aralarında "kişi oğlu kişi" adlandırdıqlarını yada salır...

"Əli Vəliyev oxucuların rəğbətini qazanmış, sosializm realizmi mövqelərindən yazılmış, yeni həyat quruculuğunun çoxcəhətli proseslərini dərindən və obyektiv surətdə əks etdirən bir çox əsərlərin müəllifidir. Zəngin Azərbaycan folklorundan geniş və məharətlə istifadə etmək, ana dilinin incəliklərinə dərindən bələd olmaq onun yaradıcılıq üslubunun səciyyəvi xüsusiyyətidir" deyən respublika rəhbəri əlavə etmişdir ki, "Əli Vəliyevin müharibədən sonrakı dövrdə yazdığı əsərlərin başlıca məzmununu Azərbaycan kəndinin növrağı, onun müvəffəqiyyətləri və problemləri təşkil edir. "Turaclıya gedən yol", "Budağın xatirələri" romanlarında, "Zəngəzur qartalları" oçerklər kitabında və başqa kitablarında müəllif kəndin növrağından, onun coşğun inkişafından canlı bir dildə söhbət açır, eyni zamanda yeniliyin sonu çatmış köhnəliyə qarşı mübarizəsi gedişində meydana çıxan ziddiyyətləri təhlil edir".

Əli Vəliyevin xarakteri, bədii-publisistik yaradıcılığı və ictimai-siyasi fəaliyyəti bir-birindən ayrılmaz olmuşdur ki, Heydər Əliyev öz çıxışında buna xüsusi diqqət yetirmişdir:

"Əli Vəliyev uzun illər məsul vəzifələrdə işləmiş, "Kommunist" respublika qəzetinin redaktoru, Azərbaycan Yazıçılar İttifaqının katibi olmuş, bir sıra jurnalların yaradıcı kollektivlərinə rəhbərlik etmişdir. Bütün vəzifələrdə o özünü işinin vurğunu olan, doğma xalqına sədaqət bəsləyən vicdanlı kommunist kimi göstərmişdir. Bütün bu gözəl keyfiyyətlər onun yaradıcılığında da özünün əksini tapmış, yazıçının əsərlərinin yüksək ideya-bədii pafosunu müəyyən etmişdir".

Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev 1980-ci ilin may ayının 15-də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İlyas Əfəndiyevə Xalq yazıçısı fəxri adını verərkən onun "yazıçı və dramaturq kimi xalq tərəfindən tanınmış, bəyənilmiş və sevilmiş" olduğunu qeyd etdikdən sonra demişdir:

"İlyas Əfəndiyevin əsərləri həm səlis, gözəl bədii dilinə, həm dərin məzmununa görə, həm də yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır. Onun kitablarında həm körpüsalanların çətin işi, həm neftçilərin

qəhrəmanlıq əməyi, həm müasir kəndin həyatı, həm də Azərbaycan ziyalıları arasında mənəvi-psixoloji proseslər inandırıcı şəkildə və dərindən əks etdirilmişdir. Öz yaradıcılığında yazıçı cəmiyyətimizin mənəvi təşəkkülünü və inkişafını diqqətlə izləyir, onun mənasını açıb göstərir, bugünkü həyatımız üçün də, gələcək həyat üçün də nümunə olan adamların parlaq obrazlarını yaradır".

İlyas Əfəndiyev Xalq yazıçısı fəxri adı ilə təltif olunana qədər o, "Bahar suları", "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı" kimi dəyərli əsərlərini qələmə almışdı.

* * *

Azərbaycan yazıçılarının ilk qurultayı 1934-cü ildə olmuş, Heydər Əliyev Azərbaycan respublikasının rəhbərliyinə gələnə qədər ikinci (1954), üçüncü (1958) və dördüncü (1965) qurultaylar keçirilmişdir.

Heydər Əliyev 1972-ci ilin iyun ayının 1-də keçirilən V qurultayda respublika rəhbəri kimi ilk dəfə iştirak edərək nitq söyləmişdir. O demişdir:

"Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır. Bu ədəbiyyat bədii sözün gözəl nümunələrini yaradaraq zəmanəmizin yüksək romantikasını, xalqın döyüş rəşadətini, onun fədakar əməyini tərənnüm edir. Azərbaycanlılar ədəbiyyatımızın nailiyyətləri ilə haqlı olaraq fəxr edirlər".

Ədəbiyyata, ümumən sənətə partiya liderinin bu qədər yüksək qiymət verməsi, mənsub olduğu millətin zəngin ədəbi-estetik zövqünə inanması (və bilavasitə istinad eləməsi!) qələm adamları üçün, əlbəttə, gözlənimləz hadisə idi. Heydər Əliyevin yazıçılar qurultayına belə bir missiya ilə təşrifi yazıçılara çox böyük ümidlər verməyə bilməzdi. Və o öz "ədəbiyyat siyasəti"ni açıq bəyan etmişdi:

"Biz istəyirik ki, yazıçılarımızın yaradıcılığı respublikanın ictimai-siyasi həyatı ilə sıx bağlı olsun, onlar bu həyatdan ayrılmasınlar, kəskin problemlərdən və məsələlərdən kənara çəkilməsinlər, əksinə, həmişə hadisələrin qaynağında olsunlar. Biz arzu edirik ki, yazıçılar öz yaratdıqları əsərlərə zamanın və günün tələbləri zirvəsindən qiymət versinlər.

Biz belə hesab edirik ki, bizim zəmanəmiz və müasirlərimiz haqqında gözəl əsərlər yaratmaq Azərbaycan yazıçılarının əsas qayğısı olmalıdır. Bu əsərlərin qəhrəmanları cəmiyyətin fəal və yüksək təfəkkürlü, qabaqcıl adamları olmalıdırlar, öz əməyilə ölkənin sərvətlərini artıran, yer üzərində həyatı gözəlləşdirən insanlar olmalıdırlar".

Elə görünə bilərdi ki, partiya lideri, ənənəvi olaraq, "əmək qəhrəmanları"nın tərənnüm olunmasını tələb edir. Əslində isə, belə bir yanaşma Heydər Əliyev üçün səciyyəvi deyildi. O, cəmiyyətin "fəal və yüksək təfəkkürlü, qabaqcıl adamlar"ından

yazmağı məsləhət görürdü. Və ədəbiyyatın ən mühüm vəzifələrindən biri də tarix boyu bundan ibarət olmuşdu.

Respublika rəhbərinin dərin inamına görə, ədəbiyyatın ideya-estetik qüdrəti yazıçı şəxsiyyətinin mükəmməlliyi, mənəvi zənginliyi, ictimai məsuliyyəti ilə sıx bağlıdır. Ona görə də demişdi:

“Biz yazıçıya insan qəlbinin mühəndisi deyirik. Bu adı doğrultmaq lazımdır. Yalnız o yazıçının insan zəkasına və qəlbinə təsir göstərmək kimi böyük mənəvi hüququ var ki, o, ictimai həyatda da, şəxsi davranışı ilə də öz oxucusuna, doğrudan da, nümunə ola bilir, yəni xalq qarşısında öz mənəvi məsuliyyətini bütün dərinliyi ilə dərk edir. Təəssüf ki, bəzi ədəbiyyatçılar, o cümlədən yaşlı nəsildən olanlar da, öz yaradıcılıqlarına heç də həmişə tələbkar olmurlar, qeyri-təvazökarlıq, lovğalıq bəlasına tutulurlar, elə hərəkətlər edirlər ki, bunlar sovet yazıçısı kimi yüksək adın mənəvi məsuliyyəti ilə bir araya heç cür sığmır.

Biz istərdik ki, ittifaqın rəhbərləri, ədəbiyyatımızın veteranları bu məsələlər haqqında dərindən düşünsünlər və belə faktları yazıçı təşkilatının həyatından birdəfəlik yox etmək üçün əllərindən gələni əsirgəməsinlər. Biz belə hesab edirik ki, bunun üçün sizdə kifayət qədər qüvvə, enerji - lazım gəlsə - cəsarət və qətiyyət var”.

Bu isə o demək idi ki, respublika rəhbəri Azərbaycanda başladığı ciddi iqtisadi, ictimai və mənəvi-mədəni dəyişikliklərdə ədəbiyyat adamlarını səmərəli, məhsuldar əməkdaşlığa dəvət edir. Və bunun üçün ədəbi mühitin sağlamlaşmasını, qarşısında dayanan çox mühüm vəzifələrin məsuliyyətini dərindən dərk etməsini istəyir.

Azərbaycan yazıçılarının 1976-ci ilin may ayının 26-da keçirilən VI qurultayındakı nitqini Azərbaycan respublikasının rəhbəri Azərbaycan ədəbiyyatı tarixinin inkişaf dövrləri barədə olduqca maraqlı mülahizələrlə başlayaraq göstərmişdir ki, “bu ədəbiyyatın çoxəsrlik tarixi “Kitabi-Dədə Qorqud” kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin – söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir”.

Natiq yeni dövrün Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Sabir, Cəlil Məmmədquluzadə kimi böyük nümayəndələrini qeyd etdikdən sonra ən yeni dövrə keçərək demişdir:

“Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Hüseyn Cavid, Mikayıl Müşfiq, Mehdi Hüseyn kimi görkəmli sənətkarların və bir çox digər yazıçıların əsərləri sovet ədəbiyyatının xəzinəsinə daxil olmuşdur”.

Bu cür tarixdən gəlməkdə Heydər Əliyevin məqsədi bugünkü qələm adamının necə bir zəngin ideya-estetik irsin varisi olduğunu bir daha yada salmaq idi. Sonra isə cəmiyyətin ədəbiyyatdan (və yazıçıdan) tələb etdiyi müasirliyə keçmişdi:

“Ədəbiyyatın yaradıcıları gərək bizim müasir dövrümüzün əsas mövzularını daha dərindən, ideya və bədii cəhətdən daha yüksək səviyyədə həll etsinlər, bədii sözün təsir gücünü daha da artırsınlar.

Azərbaycan ədibləri, respublikanın yazıçılar təşkilatı “ədəbiyyat sexində” işlərin vəziyyətini dərindən təhlil etməli, böyük məsul vəzifələrin həyata keçirilməsi yollarını və vasitələrini müəyyən etməlidirlər. Biz əminik ki, sizin qurultayınız başlıca və əsas bir məsələyə – bizim gözəl həyatımız, bizim müasirlərimiz – yeni həyatın yaradıcıları olan adamlar haqqında sanballı bədii əsərlər yaradılması məsələsinə xüsusi diqqət yetirəcəkdir”.

V qurultaydan fərqli olaraq, VI qurultayda respublika rəhbərinin yazıçılardan tələb etməyə daha çox haqqı vardı ki, müasir ictimai həyatda baş vermiş (və baş verməkdə olan) inqilabi dəyişikliklərə biganə qalmasınlar. Çünki 70-ci illərdə respublika həyatının ən müxtəlif sahələrində özünü göstərən irəliləyişlər əvvəlki illərin ətalətini, siyasi-ideoloji hərcmərcliyini, sovet sosialist totalitarizmini, idarəçilikdəki kortəbii avtoritarizmi, demək olar ki, aradan qaldırmış, düşünən, öz fəaliyyətini istiqamətləndirməyi bacaran, qarşısına müəyyən ictimai-faydalı məqsədlər qoyub ona çatmağa çalışan insanlar yetirmişdi:

“Azərbaycanın həyatı, Azərbaycan xalqının diqqətəlayiq nailiyyətləri bədii ümumiləşdirmələr üçün, dövrümüz haqqında yazıçının dərin fəlsəfi mühakimələri üçün zəngin material verir.

...Cəmiyyətimizin inkişafının bütün mərhələlərində ədəbiyyatın və ümumiyyətlə mədəniyyətin əsas vəzifəsi kütlələri tərbiyələndirmək olmuşdur. Bədii söz həqiqi vətənpərvərlər, əməyi sevən, nəcib, mərd, yüksək şüurlu adamlar tərbiyə etməlidir”.

Heydər Əliyevin cəmiyyətdə mənəvi tərbiyə məsələsinə daim diqqət yetirməsi, bunu ilk növbədə ədəbiyyatdan, yazıçılardan tələb eləməsi, əlbəttə, təsadüfi deyildi. O əmin idi ki, “insan qəlbinin mühəndisləri” öz işlərinə məsuliyyətlə yanaşsalar, cəmiyyətin tərəqqisi üçün hər hansı partiya işçisindən müqayisə olunmayacaq qədər böyük işlər görə bilərlər. Halbuki uzun illər partiyanın arxasınca getmiş ədəbiyyat cəmiyyətlə birbaşa ünsiyyətini itirib, Leninin vaxtilə göstərdiyi kimi, “partiyanın təkərciyinə və vintciyinə” çevrilmişdi.

Azərbaycan Respublikasının rəhbəri isə ədəbiyyatdan onun təbii tarixi funksiyasını tələb edirdi:

“Yazıçıların qarşısında xüsusilə geniş fəaliyyət meydanı açılır. Axı bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir. Təəssüflə qeyd etməli oluruq ki, ədəbiyyatçılarımız böyük və məsuliyyətli mənəvi tərbiyə işində hələ fəal iştirak etmirlər, halbuki bu məsələ Azərbaycan yazıçılarının beşinci qurultayında ən mühüm vəzifələrdən biri kimi irəli sürülmüşdür”.

Mühüm məsələlərdən biri də o idi ki, Heydər Əliyev ədəbiyyat işinə yalnız partiya lideri, siyasi rəhbər kimi deyil, həm də ədəbiyyatı (və ədəbiyyatşünaslığı) dərindən bilən müasir tipli bir intellektual kimi yanaşır, öz mülahizələrini, təhlillərini və təkliflərini eyni zamanda həmin səviyyədən söyləyirdi:

“Bizdə yaradıcı ziyalıların bir çox dəstələri – yazıçılar, bəstəkarlar, rəssamlar, arxitektorlar, teatr işçiləri, kinematoqrafçılar, jurnalistlər vardır. Yazıçılar İttifaqının vəzifələri haqqında bu gün deyilən sözlər bilavasitə bütün yaradıcılıq təşkilatlarına da aiddir... Yazıçılar, onların əsərləri incəsənətin bütün növlərini ideyalarla, obrazlarla, süjetlərlə qidalandırmalıdır. Yeni kino, teatr, musiqi və rəssamlıq əsərlərinin meydana gəlməsi sizin səyinizdən, istedadınızdan, ustalığınızdan çox asılıdır. Ümidvarıq ki, belə səmərəli əməkdaşlıq nəticəsində bütün yaradıcılıq növləri nümayəndələrinin ustalığı və ilhamı ilə böyük zəmanəmizə layiq yeni epik əsərlər meydana gələcəkdir”.

Azərbaycan yazıçılarının 1981-ci ilin iyun ayının 12-də keçirilən VII qurultayında Azərbaycan Respublikasının rəhbəri geniş nitq söyləmişdir. “Azərbaycan yaradıcı ziyalılarının xoşbəxt taleyi onların xalqla qırılmaz birliyindədir, xalq mənafeyinə xidmət etmələrindədir. Azərbaycan ədəbiyyatı və incəsənəti məhz bu gözəl zəmin üzərində müasir bədii-estetik zirvələrə çatmışdır” deyən natiq əlavə etmişdir:

“Azərbaycan ədəbiyyatı tarixində 70-ci illər xüsusi yer tutur. Bu illər respublika yazıçılarının və şairlərinin böyük yaradıcılıq əməlləri dövrüdür, bir çox istedadlı ədəbiyyatçıların yetkinlik çağına qədəm qoyduğu illərdir.

Azərbaycan şeirinin, nəsrinin və dramaturgiyasının ən sanballı əsərlərinin Ümumittifaq miqyasında bəyənilməsi onu göstərir ki, ədəbiyyatımız yüksəliş yolundadır. Bir sözlə, Azərbaycan yazıçıları öz növbəti qurultayına böyük nailiyyətlərlə gəliblər”.

Respublika yazıçılar təşkilatının fəaliyyətinin canlanmasında İttifaqın birinci katibi, mərhum İmran Qasımovun xidmətlərini qeyd etdikdən sonra respublika rəhbəri yenidən 70-ci illər mövzusuna qayıdaraq demişdir:

“Yetmişinci illərdə Azərbaycan ədəbiyyatının fərqləndirici xüsusiyyəti əxlaq problemlərinə , insanın mənəvi axtarışlarına yazıçıların həm gənc, həm də yaşlı nəslinin ardıcıl diqqət verməleridir. Bədii publisistika həyatın gündəlik faktlarına analitik diqqəti dərinləşdirmişdir”.

70-ci illər Azərbaycan ədəbiyyatının tarixində müxtəlif nəsillərin bir çətir altına yığıldığı, həqiqətən, unikal dövr idi: yaşlı nəsli ədəbiyyata 20-ci, 30-cu illərdə gələn, sovet ədəbiyyatının baniləri olan, əsasən kommunist yazıçılar (Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov, Mir Cəlal, Əli Vəliyev, Əbülhəsən, İlyas Əfəndiyev və b. ), orta nəsli yaradıcılığa 40-cı, 50-ci illərdə başlayan nisbətən maarifçi-liberal və ya millətçi təmayüllü, artıq özünü təsdiq etmiş İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, İsa Hüseynov (Muğanna), Nəbi Xəzri, Hüseyn Hüseynzadə (Arif), Məmməd Araz, Xəlil Rza (Ulutürk), Nəriman Həsənzadə, Fikrət Qoca, Əli Kərim, Tofiq Bayram, Cabir Novruz və b. sənətkarlar təmsil edirdilər. Gənc nəsil (Anar, Elçin, İsi Məlikzadə, Yusif Səmədoğlu, Sabir Rüstəmxanlı, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Vaqif Cəbrayılzadə və b.) isə öz aparıcı nümayəndələrinin şəxsində hələ 60-cı illərdən başlayaraq əmin idi ki, onlar ədəbiyyata yeni (və xüsusi!) missiya ilə gəlmişlər.

Ədəbi nəsillər arasında, təbii ki, ilk növbədə ədəbiyyatın funksiyasına münasibətdə fikir ayrılıqları vardı, ancaq yeni dövrün tələblərindən irəli gələn ümumi cəhətlər də az deyildi:

"Müasir Azərbaycan ədəbiyyatında cərəyan edən proseslər mühüm və diqqətəlayiq proseslərdir: onlar özləri ilə yenilik gətirir. Bədii söz sənətkarlarının gerçəkliyi daha tam əhatə etməyə, həyatı daha dolğun şəkildə təsvir etməyə, adamlar və zaman haqqında həqiqəti bər-bəzəksiz deməyə səy göstərdiklərini xüsusilə nəzərə çatdırmaq istəyirəm. Azərbaycan xalqının ən əsas, ümdə arzu və istəkləri, ən nəcib əməlləri bədii əsərlərdə getdikcə daha tez-tez və daha dərindən təsvir olunur.

Deməli, son on il ərzində Azərbaycan ədəbiyyatının inkişafından danışarkən biz tam əsasla belə bir nəticə çıxara bilərik ki, o, doğru yoldadır".

Respublika rəhbəri, bir tərəfdən, ədəbiyyatı təhlil edir, onun ictimai həyatdakı yerini müəyyənləşdirir, uğurlarından və problemlərindən bəhs edirdisə, digər tərəfdən, ədəbiyyata, ədəbiyyat adamına dövlət qayğısını əməli fəaliyyəti ilə nümayiş etdirirdi:

"Respublikada yaradıcı əməyə həvəsləndirən maddi və mənəvi amillərin gücləndirilməsinə, yazıçının yaşayış və istirahəti üçün əlverişli şərait olmasına yönəldilən bir çox konkret tədbirlər görülmüşdür. Bu günlərdə Xəzərin sahilindəki mənzərəli kurort qəsəbəsində yaradıcılıq evi açılmışdır. Ümidvarıq ki, oranın mühiti yeni parlaq əsərlər yaratmağa, bədii söz ustalarının səhhətini möhkəmlətməyə kömək edəcəkdir".

Natiq tamamilə haqlı idi ki, 30-cu illərin repressiyalarından, 50-ci illərin "istiləşmə"sindən – müəyyən mənada liberalizmindən sonra 60-cı, xüsusilə 70-ci illərdə ədəbiyyat özünü bərpa etməkdə, ictimai nüfuz qazanmaqda, müstəqil hərəkət edərək ona bəslənən ümidləri doğrultmaqda idi. Ancaq həmin prosesin daha uğurlu bir şəkildə, lazımi sürət və keyfiyyətlə getməsi üçün Heydər Əliyev kimi səlahiyyətli siyasətçi, dövlət xadiminə ehtiyac vardı ki, həm bu prosesi idarə eləsin, həm də belə bir mötəbər ümumiləşdirmə versin:

"Cəmiyyətin mənəvi tələbatının artması, ədəbiyyatın milyon-milyon adama ideya-mənəvi və estetik təsir imkanlarının genişlənməsi dövrümüzün mühüm əlamətidir. Bu isə yeni cəmiyyət quruculuğunun, insanlar arasında yeni münasibətlərin ön xəttində durmalı olan yazıçıların və şairlərin üzərinə çox böyük vəzifə qoyur".

Heydər Əliyevin bir üstünlüyü də onda idi ki, bir tərəfdən, ümumi ədəbi prosesin hərəkətini obyektiv dəyərləndirirdi, digər tərəfdən, hər bir ayrı-ayrı istedadlı qələm adamının yaradıcılıq tərcümeyi-halı ilə maraqlanır, onların yaradıcılıq laboratoriyası ilə yaxından tanış olmağa çalışırdı. Və təsadüfi deyil ki, bir çox görkəmli şairlər, nasirlər, dramaturqlar hələ 70-ci illərdə ictimai sifarişi bilavasitə respublika rəhbərinin özündən almışdılar.

Məsələn, böyük şair Hüseyn Hüseynzadə (Arif) danışırdı ki, heç gözləmədiyim halda qəflətən məni Mərkəzi Komitəyə çağırdılar. Heydər Əliyevin özü qəbul elədi.

O zaman ideoloji işlər üzrə katib Həsən Həsənov da orada idi. Heydər Əliyev mənə bir mətn verib dedi ki, Azərbaycan SSR himninin layihəsidir, oxu, fikrini bildir. Oxudum, qüsurlarını dedim. "Doğrudur" söylədi. Və əlavə etdi: "Himnin mətnini sən yazacaqsan, bir həftə vaxtımız var, elə olmasın ki, gecikək". Çox böyük məsuliyyət idi. Evə gəldim, işə başladım. İki-üç gündən sonra mətn hazır olanda Həsən Həsənovla əlaqə saxladım. Həsən müəllim heç gözləmədiyim halda məni danladı... "Sənə bir həftə vaxt verilib" dedi, "işinə məsuliyyətlə yanaş"... Vaxtı gələndə Heydər Əliyev məni qəbul etdi, mətni oxudum, xoşuna gəldi, bəzi tövsiyələr də verdi. Düzəltdim... Yığcam bir müşavirə keçirdi. Şairlərdən Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri orada idilər. Mətn oxundu, bəyənildi. Heydər Əliyevdən xahiş etdim ki, "əvvəlki himnimizin müəllifi mənim ustadım Səməd Vurğun olub, onun mətnindən də istifadə etmişəm, əgər mümkünsə, birinci müəllif kimi onu yazaq". Etiraz eləmədi, əksinə, "çox yaxşı olar" dedi. Sonra bir az düşünüb soruşdu: "Bəlkə, ağsaqqalın da adını əlavə edək, Süleyman Rüstəmin?" Nə deyə bilərdim?.. Himn qəbul olunandan sonra Heydər Əliyevin təşəbbüsü ilə mənə Azərbaycan SSR Dövlət mükafatı verildi.

Bu, yazıçını fəal ictimai-siyasi həyata cəlb etməyin bir nümunəsi idi.

Respublika rəhbəri qurultayda demişdi:

"Əsl görkəmli əsərlərin yaradılması sənətkardan böyük istedadla yanaşı, həm də ardıcıl, gərgin çalışmağı, geniş həyat materialını toplayıb dərindən dərk etməyi tələb edir... Yazıçılara yaradıcılıq müvəffəqiyyətləri arzulayarkən biz asan başa gələn uğurları nəzərdə tutmuruq. Əksinə, biz yazıçılarımıza tapdanmamış çətin yolda ilhamlı əmək arzulayırıq, elə bir yaradıcı axtarış və özünümüdafiə yolları ki, əsl müvəffəqiyyəti yalnız orada qazanmaq mümkündür".

Azərbaycan KP MK-nın birinci katibi çox zaman ən milli məsələləri məhz Kommunist Partiyasının adı ilə görürdü ki, bu, birincisi, artıq on illərlə davam edən bir dövlət idarəçiliyi ənənəsi, yaxud təcrübəsi idi – mənəvi-ideoloji nüfuzunu itirsə də, inzibati-siyasi gücü hələ tükənməmiş partiyaya dayanmadan hər hansı ciddi ictimai problemi həll etmək mümkün deyildi. İkincisi isə, cəmiyyət görür, inanır və tədricən adət edirdi ki, partiya yalnız təsərrüfat işlərinə rəhbərlik etmək, siyasi nümayişlər keçirmək, qərar vermək, cəzalandırmaq üçün deyil, xalqın dilinin, ədəbiyyatının, incəsənətinin, ümumən mədəniyyətinin inkişafı da onun öhdəsinə düşür:

"... Zənnimcə, kimin haqqında yazmaq və nə yazmaq barədə məsləhət verməyə dəyməz, bu, sənətkarın öz işidir, onun istedadına aiddir. Lakin yaradıcılıq axtarışlarının istiqamətini müəyyənləşdirməkdə, dövrün tələblərini, zamanın tapşırıqlarını dərk etməkdə ona kömək göstərməyi biz özümüzün partiya vəzifəmiz sayırıq. Əminik ki, 80-ci illər ən aktual və ən mühüm problemlər qaldıran yeni istedadlı əsərlərlə zəngin olacaqdır".

70-ci illərdə Azərbaycan ədəbiyyatının qazandığı nəticələri – orta nəslin tədricən canlı klassiklərə çevrilməsi, yeni nəslin peşəkarlığının artması, yaradıcı üslubların zamanın tələblərinə cavab verəcək bir səviyyədə formalaşması, yaşlı

nəslin əsərlərində isə müəyyən yeniləşmə meyillərinin meydana çıxması göstərirdi ki, 80-ci illər bundan da məhsuldar olacaqdır.

60-cı illərdə ümumən Sovetlər Birliyi miqyasında canlanan keyfiyyətcə yeni ədəbi hərəkat – onu sonralar "altmışıncılar hərəkatı" adlandırmışdılar – "layihə gücü"nə Azərbaycanda məhz 70-ci illərdə çatmışdı ki, onun da əsasında respublikada yaradılmış sağlam, münbit sosial-mədəni şərait dayanırdı.

Heydər Əliyev Azərbaycan yazıçısını sözün geniş (və böyük!) mənasında öz tarixinə sahib çıxmağa çağırırdı:

"Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən və araşdırmadan yeni mədəniyyət yaratmaq mümkün olmadığı kimi, əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəli getmək olmaz... Mədəniyyətin milli sərvətlərinin, demək olar, əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir".

Respublika rəhbərinin yazıçıların diqqətini tarixə yönəltməkdə, heç şübhəsiz, strateji məqsədləri vardı ki, bu da ilk növbədə respublikada milli şüurun, milli mənlik duyğularının canlanması, xalqın öz tarixini daha dərindən bilərək gələcəyə inamla, böyük ümidlərlə baxması imkanlarının genişləndirilməsi idi. Heydər Əliyev yaxşı bilirdi ki, 30-cu, eləcə də 50-ci illərdə Azərbaycan xalqının tarixinə (əslində, tarixşünaslığına!) siyasi-ideoloji mülahizələrlə müxtəlif təzyiqlər göstərilmiş, uydurma "konsepsiyalar" təbliğ olunaraq milləti inandırmağa çalışmışdılar ki, o, türk yox, İran mənşəlidir, orta əsrlərdə Azərbaycana təcavüz etmiş "köçəri türklər" İran mənşəli "yerli əhali"ni türkləşdirmişlər... Əlbəttə, bu cür "konsepsiyalar"la "silahlandırılmış" xalqın mükəmməl milli idealları ola bilməzdi. Ona görə də xalqın lideri demişdi:

"Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir, Azərbaycan tarixinin, mədəniyyət və elminin görkəmli xadimlərinin bədii obrazlarını gözləyir. Yazıçı sənəti salnaməçi peşəsinə yaxındır. Qoy bu çətin yolda sizə Səməd Vurğun yaradıcılığının parlaq nümunəsi ilham versin – Səməd Vurğun ölməz "Vaqif" dramında böyük Azərbaycan şairinin tarixi obrazını yaratmış, o dövrün ictimai-siyasi həyatını heyrət doğuran məharətlə canlandırmışdır".

Heydər Əliyev milli şüurun inkişafında tarixin öyrənilməsinə xüsusi diqqət yetirərkən belə bir metoddan istifadə etməyi tövsiyə eləmişdi ki, tarix məhz ədəbiyyat, sənət vasitəsilə təqdim olunsun. Burada söhbət həm müasir qələm adamlarının milli tarixin qürurverici səhifələrinə müraciət edib bugünkü Azərbaycan insanını mənən, ruhən yüksəldəcək yeni ideyalar, təsəvvürlər, obrazlar yaratmasından, həm də klassik ədəbiyyatın mükəmməl bir şəkildə nəşrindən, bugünkü oxuculara anlaşıqlı bir səviyyədə təqdimindən, bir sözlə, klassikanın müasirləşdirilməsindən gedir:

“Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Azərbaycan ədəbiyyatı klassiklərinin solmaz yaradıcılığının öyrənilməsinə və təbliğinə böyük diqqət verir. Bunu təkcə son illərdə Mərkəzi Komitənin qəbul etdiyi xüsusi qərarlar sübut edir: “Bədii ədəbiyyat klassikləri əsərlərinin tədqiqini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında”, “Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında”, “Azərbaycanın maarifpərvər şairi Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsini gücləndirmək haqqında”. Vəzifə uzun müddət qüvvədə olacaq bu sənədlərin əməli surətdə yerinə yetirilməsini təşkil etməkdən ibarətdir”.

Natiq ədəbi tərcümə məsələsi üzərində də ciddi dayanmış, istər dünya ədəbiyyatının Azərbaycan dilinə, istərsə də Azərbaycan ədəbiyyatının rus dilinə (o zaman azərbaycanlıların dünya miqyasına çıxacaqları, demək olar ki, yeganə beynəlxalq dilə) tərcüməsinin nə qədər mühüm əhəmiyyəti olduğunu söyləmişdir.

Azərbaycan yazıçılar təşkilatının respublikada tərcümə sənətinin – mövcud tərcümə məktəbinin ənənələrini davam etdirməyə çağıran Heydər Əliyev əlavə etmişdir ki, “Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi bu məsələlərə prinsipial əhəmiyyət verərək respublikada tərcümə işinin vəziyyətini xüsusi müzakirə etmək və onun əsaslı surətdə yaxşılaşdırılması üçün müvafiq tədbirlər görmək niyyətindədir”.

Şübhəsiz, tərcümə məsələsinə bu qədər diqqət verilməsinin ən azı iki səbəbi vardı: birincisi, Azərbaycan ədəbiyyatı istər klassiklər, istərsə də müasirlər səviyyəsində dünyaya tanıdılmaqla bütövlükdə Azərbaycan xalqının beynəlxalq miqyasda (heç olmasa SSRİ miqyasında) nüfuzu artırdı; ikincisi, Azərbaycan dünya ədəbiyyatı, mədəniyyəti ilə daha yaxından tanış olduqca dünyaya inteqrasiya olunur, intellektual-mənəvi potensialı güclənirdi. Ancaq görünür, Heydər Əliyev bir məsələni də nəzərə alırdı ki, 70-ci illərdə iqtisadi, sosial-mədəni və mənəvi baxımlardan sürətlə inkişaf etmiş respublikanın təcrübəsini ən parlaq şəkildə məhz ədəbiyyat əks etdirdiyindən bu ədəbiyyatın (və təcrübənin!) dünyaya çıxması çox zəruri idi.

Eyni zamanda tərcümə işi Azərbaycan ədəbi dilinin zənginləşməsinə mühüm təsir göstərirdi:

“Dillərin qarşılıqlı əlaqəsi həmişə faydalıdır, xüsusən bədii söz ustaları üçün. Bu əlaqələr milli ədəbiyyatımızın rus dilinə tərcüməsi kimi mühüm işdə də böyük yaradıcılıq imkanları açır. Azərbaycan və rus dillərini mükəmməl bilən hər bir yazıçı, ədəbiyyatçı çox böyük fayda verə bilər. Yazıçıların bu cür inkişafına hər vasitə ilə kömək etmək lazımdır. Biz inanırıq ki, bu, gözəl bəhrələr verər, böyük bədii nailiyyətlərə səbəb olar”.

Azərbaycan yazıçılarının VII qurultayında Heydər Əliyevin Azərbaycan ədəbi dili, onun inkişafı məsələlərindən ayrıca bəhs etməsi də respublika rəhbərinin strateji məqsədlərindən irəli gəlirdi:

“Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Sovet hakimiyyəti illərində Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır”.

Bu məsələdə də Heydər Əliyev tarixilik prinsiplərinə əsaslanır – “keçmiş”dən “gələcəy”ə baxışın elmi-metodoloji nümunəsini nümayiş etdirirdi. O, mövcud nailiyyətlərlə kifayətlənməməyi, milli sərvət kimi Azərbaycan ədəbi dilini davamlı zənginləşdirməyi yazıçıların yalnız peşəkarlıq deyil, həm də vətənpərvərlik borcu olduğunu söyləmişdi:

“Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır. Bu da respublikanın bütün ədəbiyyatçılarının, Yazıçılar İttifaqının ən mühüm vəzifələrindən biridir”.

Respublika rəhbəri xalqın dil mədəniyyətinə ümumi mədəniyyətin üzvi tərkib hissəsi kimi baxır, onun yüksəlməsində ədəbiyyatın (yazıçının!) roluna xüsusi önəm verirdi:

“Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Dilimizin jarqon, dialekt ifadələri ilə zibillənməsinə yol vermək olmaz. Yazıçı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır. Təəssüf, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik, ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər. Bununla əlaqədar olaraq mətbuat, radio, televiziya, teatr, kino işçilərinə, mühaziräçilərə və müəllimlərə xüsusi tələbkarlıqla yanaşmaq lazımdır”.

Heydər Əliyevin qurultayda haqqında bəhs etdiyi məsələlərdən biri də Cənubi Azərbaycanda ədəbi prosesin inkişafı idi ki, bu işdə Azərbaycan Demokratik Respublikası süqut etdikdən sonra Cənubdan gəlmiş mühacir yazıçılar çox böyük rol oynaya bilərdilər. Əlbəttə, Cənubla Şimal arasında ədəbi əlaqələrin möhkəmləndirilməsi – qeyd edək 70-ci illərin sonlarında İranda baş vermiş İslam inqilabı da bunun üçün müəyyən şərait yaratmışdı – eyni bir xalqın mənəvi-mədəni bütövlüyünü təmin edəcək ən mühüm amil idi:

“Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq İttifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmlətmək, mədəniyyətin, mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barəsində düşünmək lazımdır”.

Başqa bir problem ədəbi tənqidin imkanlarını genişləndirməkdən, məsuliyyətini artırmaqdan ibarət idi. Lakin sovet ədəbiyyatı kimi, sovet ədəbi tənqidi də artıq süqut etməkdə olduğundan yeni tənqid özünün yeni prinsiplərini axtarır, ədəbiyyata azərbaycançılıq məfkurəsi mövqeyindən yanaşmanın hələ ki yalnız ilk uğurlu nümunələrini təqdim edirdi. Bu - mövzu, ideya-məzmun və poetexnologiyada təzahür edən azərbaycançılıq idi. Və yeni ədəbi tənqidin, eyni zamanda ədəbiyyatşünaslığın Qulu Xəlilov, Pənah Xəlilov, Məsud Əlioğlu, Bəkir Nəbiyev, Yaşar Qarayev, Tofiq Hacıyev, Şamil Salmanov, Akif Hüseynov, Xeyrulla Məmmədov, Elçin, Asif Ata kimi nümayəndələri meydana çıxmışdı.

Respublika rəhbəri demişdi:

"Müasir ədəbi-bədii prosesi tənqidçilərin, ədəbiyyatşünasların fəal və faydalı işi olmadan təsəvvür etmək mümkün deyildir. Onlar bədii həyatımızın mürəkkəb, bəzən ziddiyyətli proseslərini dərindən təhlil etməyə və ümumiləşdirməyə borcludurlar. Biz bu məsələlərdən dəfələrlə danışmışıq... Bu sahədə böyük, mən deyərdim ki, fundamental iş görülməlidir. Azərbaycan ədəbiyyatşünaslığının və tənqidin vəzifələri geniş və çoxcəhətlidir. İctimai, bədii-estetik zövqləri formalaşdırmaq, incəsənətdə sönüklüyə, durğunluğa, xalturaya, yabançı baxışlara qarşı mübarizə aparmaq vasitəsi olmaq etibarilə ədəbiyyatşünaslığın və tənqidin rolunu gücləndirmək lazımdır".

Dövrün – 60-cı, 70-ci illər Azərbaycan ədəbiyyatşünaslığının bir səciyyəvi cəhəti də o idi ki, ədəbiyyata sosioloji baxış, başqa sözlə, "sosioloji tənqid" öz yerini, əgər belə demək mümkünsə, ideya-estetik tənqidə verirdi, ədəbiyyat tarixi, nəzəriyyəsi və tənqidi arasındakı fərqlər aradan qalxır, bu sahələr eyni bir ədəbiyyatşünasın yaradıcılığında birləşir, esseistikanın mövqeyini gücləndirirdi.

Heydər Əliyev nitqində ədəbi orqanların öz məsuliyyətini artırmalı olmasını da xüsusi qeyd etmişdi:

"Yazıçılar İttifaqının ədəbi orqanları – "Azərbaycan", "Literaturnı Azerbaydjan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti müasir Azərbaycan ədəbiyyatının nailiyyətlərinin, klassik irsin təbliğində, ədəbi-bədii tənqidin təsir qüvvəsinin artırılmasında, tərcüməçilik sənətinin yüksəlməsində böyük rol oynamalıdırlar. Onlar bütün yazıçıların yaradıcılığının işıqlandırılması, yaradıcılıq problemlərinin, tənqidi çıxışların sərbəst müzakirəsi, ədəbi əsərlərin prinsipal təhlili üçün ən əlverişli, eynihüquqlu şərait yaratmalıdırlar".

Heydər Əliyev həmişə olduğu kimi, bu dəfə də yeni nəslin formalaşması məsələsinə xüsusi diqqət yetirmiş, istedadlı gənclərə qayğı göstərməyin, onların qarşısına çıxan problemləri vaxtında həll etməyin zəruriliyini göstərmişdir:

"Azərbaycan ədəbiyyatının sabahkı gününə qayğı göstərmək respublika Yazıçılar İttifaqının ən mühüm vəzifəsidir. Birinci növbədə, ədəbiyyata təzə qüvvələr gəlməsi, gənc istedadların aşkara çıxarılması və tərbiyə edilməsi qayğısına qalmaq lazımdır. Müasir dövrün problemlərinə, ən aktual sosial və bədii problemlərin həllinə gənc yazıçıların canlı marağını hər vasitə ilə müdafiə etmək, özlərinin yaradıcılıq səylərini

real gerçəkliyin tələblərinə, cəmiyyətimizin ali məqsədlərinə uyğunlaşdırmaqda onlara kömək etmək lazımdır".

Heydər Əliyevin yalnız sözdə yox, işdə, əməldə də çox böyük qayğısının siyasi-ideoloji, maddi və mənəvi dəstəyinin nəticəsi idi ki, 70-ci, 80-ci illərdə Azərbaycan şeiri, nəsri və dramaturgiyası son dərəcə ciddi yaradıcılıq uğurlarına imza atdı. Həmin qayğı, həmin dəstək yazıçılarla birbaşa təmasa, fikir mübadilələrinə və səmimi münasibətlərə gətirib çıxardı ki, bu barədə respublika rəhbərinin özü demişdi:

"Bu günlərdə Şüvəlanda Yaradıcılıq evinin açılışında biz Yazıçılar İttifaqının, demək olar ki, bütün üzvləri ilə görüşdük. Oradakı söhbətdə demişəm, indi də təkrar edirəm ki, bu cür görüşlər bizə böyük fayda verir. Rəy mübadiləsinin gedişində biz özümüz üçün müvafiq nəticələr çıxarmışıq, gərək siz də çıxarasınız. Görünür, yaxşı olar ki, görüş zamanı qaldırılan məsələləri Yazıçılar İttifaqında geniş müzakirə edəsiniz, həm də dərindən, tam məsuliyyətlə. İttifaqın səlahiyyətinə aid məsələləri özünüz yoluna qoymalısınız, biz isə həmişəki kimi, köməyimizi əsirgəməyəcəyik".

IX qurultaya (1991) onu qonaq kimi dəvət etmişdilər. X qurultay müstəqil respublikanın ədəbi-ictimai həyatında çox böyük hadisə oldu, ona görə ki bu qurultayda Ümummilli Lider iştirak etməklə yanaşı, Azərbaycan yazıçılarının, Azərbaycan cəmiyyətinin heç zaman unutmayacağı dərin məzmunlu nitq söylədi.

Azərbaycan Prezidenti X qurultay ərəfəsində - 1997-ci ilin oktyabr ayının 28-də yaşlı nəsildən olan yazıçıların nümayəndələri ilə görüşüb söhbət etmişdir. Prezident sarayında keçirilən həmin görüşdəki giriş sözündə dövlət başçısı demişdir:

"Adətən, biz bu salonda dövlət işləri ilə əlaqədar olan məsələləri müzakirə etməyə toplaşırıq. Ancaq mənim burada olduğum zamanda ilk dəfədir ki, yazıçıların böyük bir nümayəndə heyəti ilə görüşürəm. Bunu özüm üçün çox əlamətdar hadisə hesab edirəm".

Dövlət başçısının çox ciddi ictimai, siyasi problemlərlə məşğul olduğu bir dövrdə yazıçılarla görüşməyə bu qədər vaxt ayırması, həm də bu görüşün birbaşa Prezident Sarayında keçirilməsi, hər şeydən əvvəl, ədəbiyyata, ədəbiyyat adamına göstərilən hörmət, verilən dəyər idi. Odur ki, demişdi:

"Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram, bəlkə də, az yerlərdə tapılar".

Prezident bu münasibətin tarixən Azərbaycanda ədəbiyyatın, mədəniyyətin zənginliyindən, ictimai nüfuzundan irəli gəldiyini göstərmiş, hazırkı iqtisadi çətinliklərin keçici olduğunu söyləmiş və yazıçıları ruhdan düşməməyə çağırmışdı:

"Şübhəsiz, mədəniyyətə, ədəbiyyata həm xalq, insanlar, həm də dövlətlər tərəfindən qayğı həmişə lazımdır. Bu qayğı mənəvi nöqteyi-nəzərdən keçmiş zamanlara nisbətən, bəlkə, indi də azalmayıbdır. Amma ola bilər, bəzi maddi imkanlar nöqteyi-nəzərindən o qədər deyildir. Ancaq bunlar hamısı keçicidir, daimi

deyildir. Hesab edirəm, bizim ədəbiyyatımız, mədəniyyətimiz əsrlər boyu çox ağır sınaqlardan, mərhələlərdən keçərək yaşadığı kimi, bu gün də bu çətin dövrü birlikdə yaşayıb keçəcəyik".

Azərbaycan Prezidenti görüşdə ədəbiyyatın keçmiş dövrü ilə müasir dövrünü müqayisə etmiş, prinsipial fərqlər barədə danışmış, bu gün yazıçının hansı mövqedə durmalı olduğunu izah etmişdi:

"Keçmiş zamanlarda, totalitar rejim dediyimiz vaxtda ən toxunulmaz yerlərdən biri bizim yazıçılar, mədəniyyət sahəsi olubdur. O vaxt bizim mədəniyyətdə, ədəbiyyatda, ümumiyyətlə, bu mühüm mədəni sahədə bir ideoloji xətti-hərəkət vardısa, indi bu da götürülübdür, yoxdur. Bir partiyanın ideologiyası yoxdur, bir hakim ideologiya yoxdur. Hamımızın bir ideologiyasi var: Azərbaycanın müstəqilliyi və müstəqilliyin əbədiliyi".

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar çıxış edərək demişdir ki, "mən bugünkü görüşü tarixi görüş hesab edirəm. Ona görə ki, X qurultay olsa da, Azərbaycan yazıçıları ilk dəfə müstəqil Azərbaycanda öz qurultaylarına toplaşırlar". Və əlavə etmişdir:

"Son 25 ildə, bizim V qurultaydan, yəni 1971-ci ildən başlayaraq, hörmətli Heydər Əliyev istisnasız olaraq yazıçıların bütün qurultaylarında iştirak və çıxış edibdir. Amma bu dəfə o, ilk dəfə olaraq müstəqil Azərbaycanın Prezidenti kimi müstəqil Azərbaycan Yazıçılarının qurultayında iştirak edəcək".

Məlum olduğu kimi, Azərbaycan Yazıçılar Birliyinin yaşamasında, müxtəlif kiçik təşkilatlara parçalanmamasında (bu cür cəhdlər 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində çox olmuşdur), ən başlıcası, çətin illərdə bütün mövcud imkanları səfərbər edərək xalqın mənafeyini müdafiə etməsində onun rəhbəri Anarın xüsusi rolu olmuşdu:

"On ildir mən Yazıçılar Birliyinə rəhbərlik edirəm. Birinci dəfə 1987-ci ildə plenumda birinci katib, sonra – 1991-ci ildə sədr seçildim. Hər işdə olduğu kimi, yəqin ki, bizim işimizdə də nöqsanlar, çatışmayan cəhətlər də vardır. Amma birincisi, ən başlıcası onu hesab edirəm ki, mən və Yazıçılar Birliyinin rəhbərliyi, katibliyi, ağsaqqallar şurası əsas bir işə nail olduq ki, Yazıçılar Birliyi parçalanmadı. Moskvada, başqa respublikalardakı kimi, bir-biri ilə əmlak, fond davası, mətbuat davası üstündə parçalanmış bir təşkilata çevrilmədi, öz bütövlüyünü saxladı".

Görüşdə Qabil, Əkrəm Əylisli, Sirus Təbrizli, Mirvarid Dilbazi, Sabir Rüstəmxanlı, Elçin çıxış edərək müəyyən problemlərə toxunduqdan sonra Prezident yekun sözü söyləmiş, demişdir ki, "bu qurultay açıq-aydın, aşkar, sərbəst şəraitdə keçməlidir. Mənim fikrim belədir. Hərə öz sözünü deməlidir, öz fikrini bildirməlidir... Güman edirəm ki, qurultay bizim yazıçılarımızın, tək yazıçılarımızın yox, yazıçıların ətrafına toplaşan yaradıcı qüvvələrin bundan sonra daha da sıx olması və daha yaxşı fəaliyyət göstərməsi üçün imkan yaradacaqdır".

Oktyabrın 29-da gənc nəsildən olan yazıçılarla görüşərkən Prezident demişdir:

“Əsrimizin sonunda Azərbaycanın gənc yazıçıları ilə görüşə gəlmişəm. Əksəriyyətinizlə şəxsən tanış deyiləm. Təəssüflər olsun ki, sizin əsərlərinizi oxuya bilməmişəm. Həqiqəti etiraf etməliyəm. Ancaq bilirəm ki, həyatımızın ən ağır illərində, əsrin əvvəllərində, yaxud Oktyabr çevrilişindən sonrakı dəyişikliklər dövründə, 1937-1938-ci illərin çətin repressiya şəraitində Azərbaycanda yazıçılar nəsli ara vermədən bir-birini əvəz edib. İtkilər, repressiyalar nəticəsində dünyasını dəyişənlər olubdur. Ancaq yazıçılar nəsli ardıcıl olaraq yaşayıb və inkişaf edibdir.

İndi də biz tariximizin çətin, mürəkkəb keçid dövrünü yaşayırıq. Çox sevindirici haldır ki, bu dövrdə də bizim yazıçılar nəsli daim yaşayır, yaradır, nəsillər arasında boşluq yoxdur”.

Gənclərin ədəbiyyata gəlişini, ədəbiyyata dövlət qayğısının heçə enməsinə baxmayaraq ədəbi varisliyin nəinki kəsilmədiyini, hətta daha da genişləndiyini, möhkəmləndiyini qeyd edən Prezident demişdir:

“Dünən mənə dedilər ki, Yazıçılar Birliyinə üzv qəbul olunmaq üçün 100-dən artıq müraciət var. Bu, sevindirici haldır. Çünki indi yazıçıların sosial vəziyyətinə qayğı və yaxud maddi imkanlar keçmişə nisbətən çətinləşib, yaxud da yox dərəcəsinə gəlib çıxıbdır. Amma belə bir vəziyyətdə yazıçı və şair olmaq, özünü bu sənətə həsr etmək, yazıçılar ittifaqlarının bəzi yerlərdə, hətta dağıldığı halda bu ittifaqa qəbul olunmaq, ona üzv olmaq istəyən gənclər Azərbaycanda çoxdursa, bu, mədəniyyətimiz və ədəbiyyatımız üçün olduqca sevindirici haldır”.

Görüşdə tənqidçi Vaqif Yusifli gənc yazıçıların yaradıcılığı haqqında məruzə etdikdən sonra onlardan bəziləri çıxış edərək gənc qələm sahiblərinin müasir dövrdə cəmiyyətin, ictimai fikrin, ədəbiyyatın vəziyyəti barədə öz hiss, duyğu və düşüncələrini ifadə eləmişlər.

Azərbaycan Prezidenti yekun sözünə başlayaraq demişdir:

“Mən bugünkü görüşdən belə bir nəticəyə gəlirəm ki, Azərbaycan ədəbiyyatı bizim həyatımızın, tariximizin bütün mərhələlərində olduğu kimi bu mərhələdə də yaşayır və öz tarixi missiyasını yerinə yetirir.

...Ədəbiyyat, incəsənət isə həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər, fədakar olmasalar, böyük sənətkar da ola bilməzlər”.

Ulu Öndər hazırkı ədəbi nəslin müstəqil Azərbaycanda yaşadığını, çox geniş yaradıcılıq imkanları olduğunu demiş, Azərbaycan ədəbiyyatının gələcəyinə nikbin baxdığını söyləmişdi:

“Sizin üstünlüyünüz nədir? Siz artıq müstəqil Azərbaycan yazıçıları, şairlərisiniz və sərbəst, azad, müstəqil bir dövlətdə yaşayırsınız. Mən keçmişimizi heç vaxt pisləməmişəm və heç vaxt pisləməyəcəyəm. Tarixdə həmişə böyük nailiyyətlərlə itkilər, müsbət və mənfi hadisələr yan-yana olubdur.

...Ancaq bununla yanaşı, bizim keçmişimizdə nə qədər yaxşı nailyyətlərimiz, ədəbiyyat, mədəniyyət sahəsində əsərlərimiz olsa da hesab edirəm ki, gələcəyimiz onlardan qat-qat üstün olacaqdır".

Dövlət başçısı nitqini belə yekunlaşdırmışdır:

"Mən gənclərə üzümü tutub deyirəm, - sizin qarşınızda çox gözəl imkanlar, perspektivlər var. Şübhə etmirəm ki, siz böyük uğurlar qazanacaqsınız, ədəbiyyatımızı inkişaf etdirəcəksiniz. Şübhə etmirəm ki, sizin içinizdən Azərbaycan xalqının ədəbiyyatını, mədəniyyətini daha da yüksəklərə qaldıran böyük şairlər, yazıçılar, ədəbiyyatçılar, ədəbiyyatşünaslar çıxacaqdır".

Azərbaycan yazıçılarının X qurultayında nitq söyləyən Azərbaycan Prezidenti demişdir:

"Yazıçılar qurultayının işə başlaması və bu salona çoxsaylı nümayəndələrin toplanması, Azərbaycan ədəbiyyatının problemlərinin, eyni zamanda respublikamızın həyatının bəzi sahələrinin müzakirə olunması ictimaiyyətimizin, cəmiyyətimizin həyatında əlamətdar bir hadisədir".

Yazıçıların əvvəlki qurultayında da yaxından iştirak etdiyini, dövlət başçısı kimi həmişə ədəbiyyatın, mədəniyyətin inkişafına ayrıca diqqət yetirdiyini xatırlayan Prezident əlavə etmişdir ki, "mən 1971-ci ildə Azərbaycan yazıçılarının qurultayında ilk dəfə Azərbaycanın rəhbəri kimi iştirak edirdimsə, ondan əvvəlki qurultaylarda da kənarda olmamışdım. O zaman mən Azərbaycanın rəhbəri deyildim, başqa vəzifələr tuturdum, ancaq yazıçıların qurultayını daim izləyirdim və imkan olanda gəlib salonda oturub yazıçıları dinləyirdim.

...1969-cu ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə yerinə yetirməyə çalışaraq həmişə hesab etmişəm, bu gün də hesab edirəm ki, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək, qayğı göstərmək lazımdır".

Azərbaycan Prezidenti özünün (və Azərbaycan dövlətçiliyinin) Yazıçılar Birliyi ilə əlaqəsinin tarixçəsini üç mərhələyə ayırır:

1) 70-ci illər, 80-ci illərin əvvəlləri;

2) 90-cı illərin əvvəlləri;

3) indiki mərhələ, Azərbaycanın dövlət müstəqilliyi, azadlığı şəraitində keçirilən ilk qurultay.

Prezident məmnunluqla bildirmişdir ki, hər bir mərhələdə, xüsusilə onun üçün çətin olan illərdə yazıçılardan həmişə hörmət, ehtiram görmüşdür. Bu, əlbəttə, 70-ci, 80-ci illərdə Azərbaycanda ədəbiyyata, ədəbiyyat adamına göstərilən dövlət qayğısına cavab idi. Və elə həmin qayğının nəticəsində ölkədə milli mənafeyi müdafiə edən bütöv bir ziyalılar ordusu yaranmışdı:

"Düzdür, bizim müstəqilliyimizin qarşısında çox çətinliklər oldu, ancaq müstəqil yaşadıq və yaşayırıq.... Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir mənəvi potensialımız – intellektual

potensialımız da vardır. Bizim mənəvi potensialımız – ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir".

Ümummilli Lider Azərbaycan ədəbiyyatının, mədəniyyətinin Şərq kökənli olsa da, zaman-zaman Qərbə inteqrasiya edildiyini söyləmiş, onun xəlqiliyi ilə yanaşı, dünyəviliyini də göstərmişdir:

"Azərbaycan Asiya ilə Avropanın birləşdiyi, qovuşduğu bir ərazidə yerləşən, amma Avropaya daxil olan bir ölkədir. Ancaq Azərbaycan öz kökünə, dini mənsubiyyətinə, ənənələrinə görə Şərq aləminə, İslam, türk dünyasına daxil olubdur. Bu qəbildən olan xalqlar, millətlər içərisində Azərbaycan xalqı XIX-XX əsrlərdə öz milli köklərindən ayrılmayaraq öz ədəbiyyatını, mədəniyyətini dünyanın inkişaf etmiş Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirə bilibdir. Bizim milli ədəbiyyatımızı, mədəniyyətimizi Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirən, onun sintezini yaradan insanlar çox uzaqgörən, müdrik insanlar olmuşlar".

Azərbaycan Prezidenti qələm adamına münasibətdə Azərbaycan xalqının nə qədər həssas olduğunu və bu həssaslığın zəngin bir mənəvi mədəniyyət yaratmaq üçün artıq böyük ənənəyə çevrildiyini nümayiş etdirən faktlar gətirmişdir. O demişdir ki, "Azərbaycanda yazıçıların, şairlərin yubileylərinin keçirilməsini böyük əhəmiyyətli bir hadisə hesab edirik... Əminik ki, keçirilən hər bir belə yubiley bizim həyatımızda çox böyük yeni hissiyyatlar doğurur, yeni qüvvələr meydana gətirir".

Yazıçılara dövlət səviyyəsində göstərilən bu hörmət yalnız yubileylərlə məhdudlaşmamış, daha doğrusu, həmin yubileylər bu və ya digər söz sənətkarının nəinki respublika, o zamankı İttifaq, hətta dünya miqyasında tanınması və beləliklə, Azərbaycan mədəniyyətinin geniş təbliği üçün bir vasitə olmuşdur. Yubileyi keçirilən sənətkarların əsərləri nəşr olunmuş, haqlarında geniş araşdırmalar aparılmış, xatirələri əbədiləşdirilmişdir:

"Azərbaycanda şairlərə, yazıçılara qoyulan heykəllər qədər heç bir insana heykəllər qoyulmayıbdır. Bunun özü ədəbiyyata, şairə, şeirə, yazıçıya nə qədər böyük hörmətin olduğunu göstərir.

...Amma gəlin açıq danışaq, xalqı yaşadanlar tək şairlər, yazıçılar olmayıbdır... Azərbaycanın böyük dövlət xadimləri olubdur. Amma indi onların hansının heykəli, yaxud məqbərəsi var? Amma şairlərin, yazıçıların var və olmalıdır, olacaqdır".

Ölkə başçısı yazıçılarla görüşünü, onların qurultayında iştirakını, həm yaşlı, həm də gənc yazıçıların təklifləri ilə bilavasitə tanış olmasını çox vacib saydığını bildirmişdir:

"Mən üçüncü gündür ki, ədəbiyyatla məşğulam... Baxmayaraq ki, mənim başqa çox vacib işlərim qalıbdır, ancaq mən heyifsilənmirəm. Dünən də, bundan əvvəlki gün də və bu gün də sizinlə birgə keçirdiyim saatları, vaxtı özüm üçün çox əhəmiyyətli hesab edirəm. Güman edirəm ki, bunların da nəticələri olacaqdır".

Sovet dövründə yazıçının maddi təminatının yüksək, indiki halda isə çox aşağı olduğunu bir daha xatırladan dövlət başçısı demişdir:

“Tərəziyə qoyanda – hansı ağır gəlir, hansı yüngül gəlir, - hamı bir səslə deyəcəkdir ki, bəli, müstəqillik naminə biz hər şeyə dözməliyik, müstəqillik naminə hər çətinliyə, hər əzab-əziyyətə dözməliyik. Ancaq bu çətinliklər daimi deyildir. Bunların da sonu var, bunlar müvəqqətidir”.

O, bəyan etmişdir ki, sovet dövründən fərqli olaraq bu gün – müstəqillik dövründə yazıçıya heç bir göstəriş verilmir, qələm adamı mövzu seçimində də, yazdığı əsərin ideya-məzmununda da tamamilə sərbəstdir, ancaq bu, o demək deyil ki, yazıçı mənsub olduğu xalqın problemlərindən kənarda qalmalıdır:

“Keçmiş qurultaylardan fərqli olaraq, görürsünüz ki, mən sizə “hansını yazmalısınız, nə cür yazmalısınız” kimi göstərişlər, heç məsləhətlər də vermək istəmirəm. Vermək istəmirəm, heç olmayacaq da. Siz tam sərbəstsin iz... Dövlət bu işlərə qarışmayacaq. Mən bunu sizə tam qətiyyətlə deyirəm.

Ancaq hesab edirəm, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz. Bu məsələ də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, Azərbaycan vətəndaşlarının hərbi vətənpərvərlik, ümumiyyətlə, vətənpərvərlik ruhunda tərbiyələndirilməsi, Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir”.

Ümummilli Lider qurultay nümayəndələrinə xatırlatmışdı ki, Yazıçılar Birliyinin orqanları sovet dövründə – 70-ci, 80-ci illərdə də xeyli sərbəst idilər. Və onlara imkan verilmişdi ki, düşündükləri kimi yazsınlar, yazılarını həmin orqanlarda maneəsiz çap etdirsinlər:

“Mən “Qobustan” jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm baxırdım bu “Qobustan” jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazımi şeylər çoxdur.

...Amma təkcə “Qobustan” jurnalı deyildi, “Azərbaycan” jurnalını, “Ulduz” jurnalını götürün. Bunlar dövlət jurnalları idi, amma bu jurnallarda siz nə istəyirdiniz, onu da dərc edirdiniz, heç bir məhdudiyyət yox idi”.

Prezident yazıçılar arasında müəyyən intriqaların olduğunu, eləcə də bu xoşagəlməz münasibətin ədəbiyyata nə qədər ziyan vurduğunu da gizlətməmişdi:

“Amma keçən şeyləri indi açmaq olar. Gəlib nə qədər şikayət edirdilər, elə sizin özünüzün içərinizdən. Biri gəlirdi deyirdi, bu, pantürkistdir, biri deyirdi, nə bilim bu, Türkiyənin casusudur, biri deyirdi, bu, İranın casusudur... İki nöqteyi-nəzərdən əsərlərin qarşısını almaq istəyirdilər: birincisi, guya millətçilik və vətənpərvərlik hissi ilə dolu olan əsərlərin, ikincisi də o vaxtlar bizim həyatımızda olan mənfi halları tənqid edən əsərlərin qarşısını almaq istəyirdilər... Ona görə gəlib mənə deyəndə ki, Anar “Şəhərin yay günləri” pyesi yazıbdır, orada bizim quruluşun əleyhinə gedir,

filan edir, dedim – yaxşı, gedib baxaram. Gəldim baxdım, çox da təriflədim, mükafat da verdim”.

Ulu Öndər öz möhtəşəm dövlət idarəçiliyi təcrübəsinə, zəngin siyasi karyerasına əsaslanaraq belə bir dəyərli mülahizə söyləmişdir ki, hər işdə cəsarətli, yaradıcı olmaq zəruridir, bunsuz nə cəmiyyətdə, nə də ədəbiyyatda inkişaf yoxdur. Və nə yaxşı ki, Azərbaycanın ən yeni tarixində belə hallar – müstəqillik cəhdləri az olmamışdır:

“Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhval-ruhiyyəni qaldıra bilməzdiniz. Əgər Bəxtiyar Vahabzadə dissident olmasaydı, Azərbaycan xalqının, gənclərin şüuruna təsir edə bilməzdi. Əgər Xəlil Rza dissident olmasaydı, onun əsərlərinin təsiri güclü olmazdı.

...Mən ömrüm boyu siyasətlə məşğul olmuşam. Ancaq 1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək kommunist partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam”.

Sonda deyilmiş bu sözlər isə Heydər Əliyevin – Azərbaycan xalqının dahi oğlunun xarakterini birbaşa ifadə edən tarixi sözlər idi:

“Ümumiyyətlə, mən nə etmişəmsə, hamısını şüurlu etmişəm... Hesab edirəm ki, hamısını xalqın naminə, millətin naminə və doğma Azərbaycanın naminə etmişəm”.

Çox böyük uğurla keçən X qurultaydan sonra Azərbaycan Yazıçılar Birliyinin rəhbərləri Ulu Öndərə belə bir minnətdarlıq məktubu ünvanlamışdılar:

“Azərbaycan Respublikasının<br>Prezidenti hörmətli<br>cənab Heydər Əliyevə

Möhtərəm Prezident!

Gərgin iş rejiminizə baxmayaraq üç gün ərzində yazıçılarımızla ətraflı, səmimi görüşlər keçirdiyinizə görə, qurultayımızın işində əvvəldən axıra qədər iştirak etdiyinizə görə Sizə ürəkdən minnətdarıq. Görüşlərdə dərin məzmunlu çıxışlarınız, qurultayda geniş miqyaslı, parlaq nitqiniz ədəbiyyat və ictimai fikir tariximizdə önəmli yer tutacaq qiymətli sənədlərdir.

Həm yaşlı, həm də gənc yazıçılara, ümumən ədəbiyyatımıza həmişəki diqqətinizin, qayğınızın yeni təzahürü olan praktik tədbirlər – “Ulduz” jurnalı, mənzil, təqaüd, gənclərə maddi yardım və başqa məsələlər haqqında göstərişləriniz – qələm sahiblərinin yaradıcılıq imkanlarının genişlənməsi və bir sıra məişət problemlərinin həlli üçün çox əhəmiyyətlidir.

Yazıçılar Birliyinə, onun rəhbərliyinin işinə qiymət üçün də Sizə çox təşəkkür edirik.

Ulu Tanrıdan diləyirik ki, bundan sonrakı qurultaylarımızda da Siz müstəqil dövlətimizin rəhbəri kimi iştirak edəsiniz.

Dərin hörmətlə,
Azərbaycan Yazıçılar Birliyinin sədri Anar,
Birliyin birinci katibi Yusif Səmədoğlu,
Birliyin katibləri Fikrət Qoca, Çingiz Abdullayev, Arif Əmrahoğlu".

Azərbaycan Prezidentinin 10 noyabr 1997-ci il tarixli fərmanı ilə Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan ədəbiyyat və incəsənət xadimləri üçün ayda bir milyon manat məbləğində ömürlük 30 fərdi təqaüd təyin olundu. Daha bir fərman həmin ilin noyabr ayının 24-də verildi ki, həmin fərmanla "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnıy Azerbaydjan" jurnalları və "Ədəbiyyat qəzeti"nin nəşri dövlət büdcəsinin hesabına keçirilməklə yanaşı, istedadlı gənc yazıçılar üçün ayda beş yüz manat məbləğində on fərdi təqaüd ayrıldı.

* * *

Heydər Əliyev ədəbiyyata 40-cı, 50-ci illərdən başlayaraq gələn yazıçılara xüsusi münasibət bəsləyirdi. Və hətta müəyyən məsələlərdə onlarla məsləhətləşirdi.

Azərbaycan Prezidenti 1999-cu ilin noyabr ayının 10-da Azərbaycan yazıçılarının bir qrupu – Anar, Bəxtiyar Vahabzadə. Hüseyn Abbaszadə, Qabil, Fikrət Qoca ilə Prezident sarayında görüşüb söhbət etmişdir. Görüşün səbəbi yazıçıların Prezidentə yazdıqları məktub olmuşdur ki, onun məzmunu barədə Yazıçılar Birliyinin sədri Anar məlumat vermişdir. O demişdir ki, Azərbaycan-Ermənistan danışıqlarının gedişi ilə bağlı cəmiyyətdə müəyyən narahatlıqlar var, ayrı-ayrı vətəndaşlar Yazıçılar Birliyinə müraciət edib soruşurlar ki, Azərbaycanın ərzi bütövlüyünə ziyan dəyməyəcək ki, yazıçılar bu danışıqlarda Prezidentə necə kömək edə bilərlər və s.

Azərbaycan Prezidenti demişdir:

"Mən sizi çox məmnuniyyətlə dinlədim. Sizinlə görüşümdən çox məmnunam. Çünki siz bilirsiniz ki, mənim ədəbiyyat, elm, mədəniyyət, incəsənət xadimlərinə xüsusi hörmətim var, xüsusi münasibətim var və keçən zamanlarda da Azərbaycana başçılıq edərkən, indi də, bu son altı ildən artıq müddətdə mən bütün başqa işlərlə yanaşı, bizim ədəbiyyat, incəsənət, mədəniyyət xadimlərinə nə qədər mümkündür o qədər də diqqət, qayğı göstərməyə çalışıram. Bəlkə də, indi siz bunu, yəqin ki, etiraf edərsiniz. Keçmiş Sovetlər İttifaqına mənsub olmuş ölkələrin çoxunda belə deyildir".

Prezident bu sözlərdən sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin vəziyyəti, eləcə də münaqişənin həlli üçün görülən işlər barədə yazıçıları məlumatlandırmışdır:

“Əmin ola bilərsiniz ki, 1993-cü ilin payızından mən artıq başladım bu işlərə girişməyə. Azərbaycanın daxilində vəziyyəti bir az sabitləşdirərək mən gecə-gündüz bu məsələ ilə məşğul oluram. Ancaq məsələ həddindən artıq ağır, çətin məsələdir. Ona görə ki, bu münaqişə 1988-ci ildən başlayıbdır və o vaxtdan Dağlıq Qarabağ Azərbaycanın hakimiyyətindən çıxıbdır.

...Mən bunu cəsarətlə deyirəm, bəlkə də, heç kəs mənim kimi bu qədər bu məsələ ilə məşğul ola bilməzdi. Nə üçün? Çünki belə məsələlərlə məşğul olmaq üçün, birinci, siyasi təcrübə lazımdır; ikincisi, diplomatiya təcrübəsi lazımdır; üçüncüsü, iradə lazımdır; dördüncüsü, vətənə, torpağa, millətə səmimi bağlılıq lazımdır; öz canını, öz həyatını bu işə sərf etmək lazımdır. Bəlkə başqaları da vardır. Amma bütün bu xüsusiyyətlər məndə cəmdir və ona görə də mən bu danışıqları aparıram”.

Prezident qarşıda dayanan problemin son dərəcə çətinliyindən, onu həll etmək üçün göstərdiyi səylərin düşünülmüş, planlaşdırılmış olduğundan və prinsipial xarakter daşıdığından bəhs etmişdir:

“Bilirsiniz ki, MDB-nin zirvə görüşlərindəki çıxışların hamısı, protokollar mətbuatda dərc olunmur. Amma onların hamısı məndə var. Mən onları tanış olmaq üçün sizə verə bilərəm. Elə bir iclas yoxdur ki, mən orada Rusiyanı günahlandırmayım ki, siz Ermənistanla Azərbaycana birtərəfli münasibət göstərirsiniz, siz Ermənistanı silahlandırırsınız, siz bu münaqişəni həll etmək üçün lazımi tədbirlər görmürsünüz.

Başa düşürsünüz, bunları orada demək üçün cəsarət, bilik və dil lazımdır. Mən bunları heç kəsdən də qorxmayaraq, çəkinməyərək edirəm. Bilirəm ki, dediyim bütün bu sözlər mənim, eyni zamanda Azərbaycanın əleyhinə əks təsir yaradır. Bu da təbiidir. Ancaq başa düşürsünüz, mənim prinsipial mövqeyim vardır. Bax indi vəziyyət belədir”.

Prezident vəziyyəti bütün açıqlığı ilə izah etdikdən sonra məsələnin diplomatik tərəfləri barədə yazıçıları xəbərdar eləmiş, problemə müxalifət mətbuatının qərəzli münasibətinin heç də xalqın ümumi mövqeyinin ifadəsi olmadığını göstərmişdir:

“Heydər Əliyev: ...Mən sizin fikirlərinizi diqqətlə dinlədim. Mən razı deyiləm ki, guya bu dəqiqə Azərbaycanın bütün əhalisi bundan (*Ermənistanla aparılan danışıqlardan – N.C.*) narahatdır... Azərbaycanda bu işi bu vəziyyətə gətirən müxalifətdir. Müxalifət qəzetləri çoxdur, - bilirsiniz – və özlərini çox yaramaz aparırlar.

İndi sizə deyiblər ki, yazıçılar kordur, siz də inciyirsiniz, elədirmi?

Anar: Elə gündə belə şeylər yazırlar.

Heydər Əliyev: Siz inciyirsiniz. Amma siz götürün o qəzetləri, bir statistika aparın. Məsələn, “Yeni Müsavat” qəzetində Heydər Əliyev haqqında neçə dənə böhtan məqaləsi gedibdir. “Azadlıq” qəzetində neçəsi gedib... Hamısını bir yerə yığsaq, Heydər Əliyev əleyhinə gündə yüzə yaxın yalan, böhtan, iftira, uydurmalar yazırlar. Bəs mən insan deyiləmmi, can deyiləmmi? Bəs mən necə dözürəm və nə üçün dözürəm?”

Azərbaycan Prezidenti gördüyü işlərin, apardığı mübarizənin nə qədər strateji səciyyə daşıdığı, müxalifət qüvvələrinin hansı şərəfsiz əməllər törədə biləcəyi barədə də xəbərdalıq etmişdir:

"Mən Azərbaycanın bütün milli mənafelərini daim sevmişəm, ona xidmət göstərmişəm və bundan sonra da göstərəcəyəm. Amma indi müxalifətin bu "Qarabağ kartı"ndan istifadə edib özünü xalqa göstərməsi, bilirsiniz, əhəmiyyətsiz bir şeydir. Xalq heç vaxt onları dəstəkləməyəcəkdir və onlar bundan heç bir şey əldə edə bilməyəcəklər. Məndə başqa yerlərdən məlumatlar var ki, Heydər Əliyevdən canlarını qurtarıb buranı dağıtmaq üçün onların yeganə yolu terrordur. İndi terrorun da, nə mümkündür, qarşısını alırıq. Nə vaxt qarşısını ala bilməriksə, dəfələrlə demişəm, mən xalqımın yolunda şəhid olmağa hər dəqiqə hazıram".

Ümummilli Lider yazıçılarla söhbətini bu sözlərlə bitirmişdir:

"...Mənim indi vaxtım yoxdur. Təkcə sizinlə yox, daha geniş ziyalı qrupları ilə görüşəcək, danışacağam. Yenə də deyirəm, aparılan danışıqlar gizli gedir. Əgər gizli olmasa, bu danışıqlar aparıla bilməz. Ancaq nə vaxt ki hansı bir nəticə əldə olunacaq, o nəticə mütləq sizə təqdim ediləcəkdir. Xalq bunu qəbul etsə, o, həyata keçiriləcəkdir. Qəbul etməsə, həyata keçirilməyəcəkdir.

Müharibə haqqında demək istəyirəm ki, bəli, müharibə aparmağa bizim gücümüz var. Amma dünyanın bugünkü reallığı onu göstərir ki, biz məsələni sülh yolu ilə həll etməliyik".

* * *

Heydər Əliyevin hörmət etdiyi yazıçı müasirlərdən biri İsmayıl Şıxlı olmuşdur. O, 4 iyul 1994-cü il tarixli məktubunda Xalq yazıçısı İsmayıl Şıxlını 75 illik yubileyi münasibətilə təbrik etmiş, yaradıcılığını, pedaqoji fəaliyyətini yüksək qiymətləndirmişdir.

1995-ci ilin iyul ayının 28-də Xalq yazıçısı ilə vidalaşma mərasimində Prezident çıxışını bu sözlərlə başlamışdır:

"Azərbaycan xalqı bu gün böyük qəm içindədir. Xalqımız görkəmli ziyalı, böyük yazıçı və vətəndaş İsmayıl Şıxlını itirmişdir. Onun vəfatı ilə sıralarımızdan çox dəyərli bir insan getmişdir. İsmayıl Şıxlı böyük, dəyərli, çox nümunəvi həyat yolu keçibdir. Onun ömrü, yaradıcılığı, insani keyfiyyətləri hər bir Azərbaycan vətəndaşı üçün örnək ola bilər".

Azərbaycan xalqının milli müstəqillik, dövlət müstəqilliyi qazanmasında İsmayıl Şıxlının əsərlərinin rolunu yüksək qiymətləndirən Prezident əlavə etmişdir ki, "İsmayıl Şıxlı görkəmli ictimai xadim olubdur. Mən onunla bir çox illər əməkdaşlıq etmişəm. Ona bir yazıçı kimi, bir müəllim kimi həmişə hörmətim olubdur. Yadımdadır, 70-ci illərdə mən Yazıçılar İttifaqının rəhbərliyi haqqında düşünərkən, bizim bir sıra görkəmli yazıçılarımızın adları çəkilərkən onların içərisində İsmayıl

Şıxlının namizədliyi məni daha çox cəlb etdi... Xatirimdədir, o, bu etimadı yüksək qiymətləndirdi, digər tərəfdən də böyük təvazökarlıq göstərdi. Eyni zamanda hiss etdim ki, o daha da sərbəst surətdə yaradıcılıqla məşğul olmaq istəyir... Ancaq biz razılığa gəldik".

İsmayıl Şıxlı ədəbiyyata (və ədəbiyyatşünaslığa) Azərbaycan xalqının SSRİ-nin "üzvi" tərkib hissəsi kimi cəlb edildiyi müharibədən çıxıb gəlmişdi. Özü ilə birlikdə "Cəbhə xatirələri"ni gətirmişdi, 50-ci illərdə "Ayrılan yollar"ı, 60-cı illərdə "Dəli Kür"ü yazmışdı. Və respublika rəhbəri onun kim olduğunu hamıdan yaxşı bilirdi:

"Mən çox məmnunam ki, o vaxt biz belə bir addım atdıq. Çünki onun Yazıçılar İttifaqına rəhbərlik etdiyi dövr Azərbaycanın həyatında çox mürəkkəb bir dövr idi. Azərbaycan xalqı böyük sınaqlardan, ağır mərhələlərdən keçirdi. İsmayıl Şıxlı o vaxt Azərbaycan parlamentinə üzv seçildi. Azərbaycan parlamentində o həm yazıçı, həm vətəndaş, həm də ictimai xadim kimi özünü çox müsbət tərəfdən göstərdi... Ancaq mən Azərbaycanın məhz ağır dövründə – 1990-cı il Yanvar faciəsi dövründə İsmayıl Şıxlının ictimai-siyasi və vətəndaşlıq fəaliyyətini xüsusi qeyd etmək istəyirəm".

İsmayıl Şıxlı, Ulu Öndərin dediyi kimi, xalqın (və vətənin!) qəlbindən doğulmuş elə bir şəxsiyyət idi ki, ən çətin məqamlarda özünü göstərməli idi:

"Mən o vaxt Azərbaycanda deyildim, Moskvada idim. Amma o günlərdə mən Azərbaycanın həyatının, demək olar ki, hər bir dəqiqəsini izləyirdim. Gələn məlumatlar, bir tərəfdən, məni incidirdisə, kədərləndirirdisə, digər tərəfdən, sakitləşdirirdi və arxayınlaşdırırdı ki, xalqımızın içərisində dəyərli insanlar vardır. Xalqın ağır vaxtında onlar özlərinin parlaq fəaliyyəti, cəsarəti, qüdrəti ilə onu bu vəziyyətdən çıxarmağa çalışmışlar. Onlardan biri – ən görkəmlisi İsmayıl Şıxlı olmuşdur".

Azərbaycan Respublikasının rəhbəri 1980-ci ilin may ayının 15-də Xalidə Hasilovaya təltif olunduğu "Qırmızı Əmək Bayrağı" ordenini təqdim edərkən demişdir:

"Xalidə Hasilova ədəbiyyat sahəsində uzun illər boyu fəaliyyət göstərir. O öz bədii əsərlərində və publisistik çıxışlarında xalqın həyatını tərənnüm edir. Böyük yazıçılıq məharəti ilə, qadın həsaslığı, qadın incəliyi ilə oxuculara çatdırır. Xalidə Hasilova eyni zamanda respublika mətbuatında səmərəli fəaliyyət göstərir. Səkkiz ilə yaxındır ki, "Azərbaycan qadını" jurnalının baş redaktoru vəzifəsini müvəffəqiyyətlə yerinə yetirir".

Təqdimat mərasimində ölkə rəhbəri "Azərbaycan qadını" jurnalı barədə də bəhs etmişdir:

"Biz "Azərbaycan qadını" jurnalının nömrələrini həmişə böyük maraqla oxuyuruq. Çünki Azərbaycan qadınının həyatını geniş surətdə əks etdirən yeganə jurnaldır. "Azərbaycan qadını" jurnalı qadınlarımızın çox çətin, ağır tarixi keçmişini təsvir etməklə yanaşı, onların bugünkü gözəl, xoşbəxt həyatını da maraqlı və məzmunlu məqalələrlə, fotoşəkillərlə, hekayələrlə və şeirlərlə parlaq şəkildə əks

etdirir. Bu sahədə Xalidə Hasilova bir yazıçı kimi, mətbuat işçisi kimi, ictimai xadim kimi mühüm rol oynayır".

Respublika rəhbəri 1981-ci ilin dekabr ayının 10-da Balaş Azəroğluya Xalq şairi fəxri adını və "Xalqlar Dostluğu" ordenini təqdim edərkən demişdir:

"Balaş Azəroğlunun ilk şeirlərinin bir çoxu qırxıncı illərin əvvəllərində Cənubi Azərbaycanda gedən ictimai-siyasi prosesləri əks etdirir. Həmin şeirlərin əsasını şah istibdadına, sosial zülmə və milli istismara qarşı mübarizə motivləri təşkil edir, bu şeirlər inqilabi mübarizə ruhu ilə aşılanmışdır! Təsadüfi deyildir ki, Balaş Azəroğlu ilk poemalarından birini "İnqilab şairiyəm" adlandırmışdı. Onun İran şahına açıq məktubunu bu baxımdan ən mühüm mərhələ hesab etmək olar.

15 ildir ki, Balaş Azəroğlu Sovet Azərbaycanında yaşayıb yaradır. Şairin yeni əsərlərində də biz çox zaman Cənubi Azərbaycan mövzusuna rast gəlirik. Bu əsərlər onun çoxmilyonlu xalqının arzu və istəklərini əks etdirir".

Cənubdan Şimala gəldikdən sonra Balaş Azəroğlu artıq iki cildlik "Seçilmiş əsərlər"ini çap etdirmişdi. Bu isə o demək idi ki, o artıq Şimalla Cənubu öz yaradıcılıq taleyində birləşdirirdi:

"Balaş Azəroğlunun yaradıcılığının əhəmiyyətli cəhətlərindən biri də, istər bizdə, istərsə də Cənubi Azərbaycanda müasir ədəbiyyatın inkişafına səmərəli təsir göstərməsindən ibarətdir. Onun əsərləri respublikamızın nailiyyətləri haqqında parlaq, doğru-düzgün hekayətdir, mütərəqqi, demokratik, inqilabi ideyaları təbliğ edir. Bu əsərlərin bir çoxu milli azadlıq hərəkatına, Asiya, Afrika və Latın Amerikası xalqlarının zülmə, müstəmləkəçiliyə qarşı diktator rejimlərinə qarşı mübarizəsinə həsr olunmuşdur".

Azərbaycan Respublikasının rəhbəri 1980-ci ilin may ayının 15-də Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi İmran Qasımova Azərbaycan Xalq yazıçısı fəxri adını verərkən demişdi:

"İmran Qasımov görkəmli nasir, dramaturq, publisist və eyni zamanda fəal ictimai xadimdir. Onun ədəbi yaradıcılığı parlaq, orijinal istedadı ilə, qaldırılan problemlərin dərinliyi, yüksək sənətkarlığı ilə fərqlənir. İlk yaradıcılıq addımlarından öz ilhamını cəmiyyətimizin aparıcı sosial qüvvəsi olan fəhlə sinfinin həyatının təsvirinə həsr edən yazıçı bu böyük və nəcib mövzuya sadiq qalmışdır".

İmran Qasımov Azərbaycan oxucusuna Həsən Seyidbəyli ilə birgə yazdıqları məşhur "Uzaq sahillərdə" filminin ssenarisi ilə yaxşı tanış idi. Və Azərbaycan Yazıçılar İttifaqının rəhbəri kimi də böyük işlər görürdü. Odur ki, respublika rəhbəri onun xidmətlərini yüksək qiymətləndirmişdi:

"İmran Qasımov yaradıcı qüvvələrin sıx birləşməsinə, birgə çalışmasına çox zəhmət sərf edir. Bizi sevindirən cəhətlərdən biri də budur ki, son illərdə Azərbaycan Yazıçılar İttifaqı Azərbaycan yazıçılarının gənc nəslinin ərsəyə gəlməsinə, ideya və yaradıcılıq cəhətdən inkişaf etməsinə çox fikir verir, onların öz yaradıcılığını püxtələşdirməsinə və səylə çalışmasına hər cür şərait yaradır".

Respublika rəhbəri öz çıxışında İmran Qasımovun SSRİ Yazıçılar İttifaqının katibi kimi Azərbaycan ədəbiyyatının Sovetlər Birliyi miqyasında təbliğ etməsini də xüsusi qeyd etmişdir.

Azərbaycanın rəhbəri 1980-ci ilin may ayının 15-də yazıçı-tərcüməçi İshaq İbrahimovu Əməkdar incəsənət xadimi adına layiq görərkən demişdi:

"... Yazıçı və şairlərin, demək olar ki, hamısı öz yaradıcılığı ilə yanaşı, tərcümə ilə də məşğul olur. Yazıçı İshaq İbrahimov tərcümə işində böyük fəallıq göstərir. O, klassik və müasir rus nasirlərinin və dramaturqlarının tam bir sıra əsərlərini Azərbaycan dilinə çevirmiş və beləliklə, çoxmillətli sovet ədəbiyyatının ən yaxşı nümunələri ilə tanış olmaqda Azərbaycan oxucularına və tamaşaçılarına kömək etmişdir.

... Son illərdə İshaq İbrahimov Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin katibi vəzifəsində çalışır və bu sahədə də bədii tərcümə işinin inkişafına, həm də Azərbaycan Yazıçılar İttifaqının işinin ümumən yaxşılaşmasına kömək göstərir".

1997-ci ilin 19 yanvarında Azərbaycan Prezidenti xəstəxanada müalicə olunan Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşüb söhbət etmişdir. Həmin söhbətdə Bəxtiyar Vahabzadə rus-sovet elminin, ədəbiyyatının, mədəniyyətinin Azərbaycana təsirindən danışaraq Xalq yazıçısı Süleyman Rəhimovun adını çəkmiş, Azərbaycan Prezidenti isə demişdir:

"Mənim xatirimdədir, o vaxt mən işləyəndə ilk dəfə Süleyman Rəhimov və sonra yazıçılarımızdan, şairlərimizdən bir çoxları Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Bu, o vaxt dövlətimizin ən yüksək mükafatı idi.

... Bilirsiniz ki, insanlar arasında paxıllıq da, rəqabət də var. Bəziləri dedilər ki, niyə Süleyman Rəhimova belə yüksək ad verirlər?

... Ümumiyyətlə, ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir. Məsələn, Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Cavid də, Rəsul Rza da, Səməd Vurğun da, Cəlil Məmmədquluzadə də, Sabir də, Süleyman Rüstəm də belədir".

Və əlavə etmişdir:

"Bu gün bizim dövrümüzdə yaşayanlardan söhbət açsaq, Bəxtiyar Vahabzadə belədir. İkinci bir Bəxtiyar Vahabzadə yoxdur".

Bəxtiyar Vahabzadə ədəbiyyata yeni gələn gənclərin böyük ümid verdiklərini, öz axtarış yolları olduqlarını deyərək bildirmişdir ki, onlara kömək etmək, "qollarından tutub irəli aparmaq lazımdır". Ümummilli Lider milli şairə belə cavab vermişdir:

"Düz deyirsən, mən Anarla danışmışam, sizə də deyirəm, vaxt ayıraram, istəyirəm ki, bu yaxınlarda yazıçıların hamısı ilə, eyni zamanda ya bir yerdə, ya da ayrıca gənc nəsillə görüşək. Çünki biz vaxtilə bunu edirdik. Məsələn, Anar, Elçin, Yusif Səmədoğlu – xatirimdədir, 25 il bundan əvvəl biz onlarla cavanlar kimi görüşürdük. İndi onlar yaşlaşıblar. Amma gərək bugünkü gənclərlə də görüşək. Belə cavanlarımız var və olacaqdır".

Heydər Əliyev 1980-ci ilin may ayının 15-də Nəbi Xəzriyə Əməkdar incəsənət xadimi fəxri adını verərkən onu müasir Azərbaycan ədəbiyyatının, poeziyasının görkəmli nümayəndəsi kimi səciyyələndirərək demişdir:

“Nəbi Xəzri öz şeirlərində xalqımızın həm qəhrəman keçmişini, həm də bugünkü həyatını və sabahını yüksək ustalıqla, fitri sənətkarlıqla tərənnüm edir.

... Nəbi Xəzrinin lirikası, poemaları, bütün bədii əsərləri publisistik çıxışları ictimaiyyətimiz tərəfindən, xalqımız tərəfindən sevilir. Onun əsərləri dillərdə əzbər olub, bir çox şeirlərinə musiqi bəstələnib, incəsənətimizi bəzəyən mahnılar yaradılıb. Nəbi Xəzrinin şeirləri təkcə Azərbaycan dilində deyil, həm də rus dilində, başqa sovet xalqlarının dillərində də, dünyanın bir sıra xalqlarının dillərində səslənir”.

Ölkə başçısı şairin fəaliyyətinin çox mühüm bir sahəsindən də bəhs etmişdi:

“Nəbi Xəzri ədəbi yaradıcılıqla yanaşı, eyni zamanda böyük ictimai iş aparır. Azərbaycanın Xarici Ölkələrdə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti rəyasət heyətinin sədri kimi o, son illərdə bu mühüm sahənin işini yaxşılaşdırmaq üçün çox zəhmət çəkimişdir. Bu cəmiyyət ədəbiyyat və incəsənətimizin, Azərbaycanın, bütün xalqın nailiyyətlərinin xaricdə gözəl təbliğatçısıdır”.

Azərbaycan Prezidentinin Xalq yazıçısı İsa Hüseynova 70 illik yubileyi münasibətilə təbrik məktubunda deyilir:

“Ədəbiyyatımızda insana, onun zəngin, mürəkkəb mənəvi dünyasına marağı gücləndirən roman və povestləriniz bütöv bir nəslin formalaşmasında böyük rol oynamışdır. İdeoloji buxovlardan uzaqlaşaraq həyata obyektiv baxış yaradan, insan şəxsiyyətinə, ləyaqətinə ehtiram hissləri təbliğ edən əsərləriniz sonrakı yazıçılar nəslinin təşəkkül tapmasına öz müsbət təsirini göstərmişdir”.

Altmışıncılar hərəkatı öz başlanğıcını İsa Hüseynovun “Yanar ürək” romanından almışdı. Ancaq altmışıncılar kimi İsa Hüseynov da dayanmamış, ədəbiyyatın hüdudlarını aşaraq İnsanın taleyini araşdırmaq naminə daha böyük üfüqləri kəşf etməyin ardınca getmişdi. Və Ulu Öndər bunları yüksək qiymətləndirirdi:

“Müasirlərimizin əxlaqi saflığı, psixoloji ovqatları, milli dəyərlərlə yaşamaq səyləri sizin nəsrinizdə yüksək sənətkarlıqla təsvirini tapmışdır. Siz öz bədii yaradıcılığınızda Azərbaycanımızın tarixi keçmişinə, dilinə və mədəniyyətinə böyük maraq doğurmaqla xalqımızın milli şüurunun inkişafına əhəmiyyətli xidmət göstərmisiniz”.

İsa Hüseynov (Muğanna) tarixin ona məlum olan nə qədər dərin qatlarından gəlsə də öz humanist, kimsəyə müyəssər olmayacaq qədər kamil ideyaları ilə bugünün hər bir insanının ruhunu işıqlandırmaq qüdrətinə malik zəngin ideya-estetik enerji mənbəyi idi.

“Siz respublikada öz dəsti-xətti ilə seçilən məhsuldar ssenarist kimi də məşhursunuz. Milli kinomuzun parlaq səhifələri sayılan “Ulduzlar sönmür”, “Nəsimi”, “Tütək səsi”, “Nizami” kimi bədii filmlərin ssenariləri sizin qələminizin məhsuludur.

Tarixi keçmişimizin dərk olunmasında mühüm rol oynayan bu filmlər indinin özündə də tərbiyəvi təsir gücünü və dəyərini qoruyub saxlayır".

1995-ci ilin 16 aprelində M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Xalq şairi Məmməd Arazın "Azərbaycan – dünyam mənim" adlı yaradıcılıq gecəsi keçirilir. Mərasimdən sonra Azərbaycan Prezidenti ziyalılarla görüşündə deyir ki, "öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Araz poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir".

Məmməd Araz ədəbiyyata 50-ci illərdə gəlmişdi. Və elə ilk illərdən hiss etdirmişdi ki, o, vətənpərvər poeziyası ilə özünəməxsus bir üslubun parlaq nümayəndəsidir.

"Azərbaycan – dünyam mənim" şeiri yalnız Məmməd Arazın yaradıcılığında deyil, ümumən müasir Azərbaycan poeziyasında yüksək qiymətləndirilən əsərlərdəndir:

Azərbaycan – qayalarda
bitən bir çıçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı
vəsf eləyərək,
Azərbaycan dünyasından
baxır dünyaya.
Azərbaycan – mayası nur,
qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər,
"Azərbaycan!" deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.
...Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin
ümman dünyası.
Azərbaycan qatarı da yollara çıxdı
Dağılanda Qoca Şərqin duman dünyası.
Azərbaycan – mayası nur,
qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" deyiləndə
ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

Ümummilli Lider ədəbiyyata, elmə, mədəniyyətə diqqətin azaldığı son illərdə Məmməd Araz şeirinin səslənməsinin çox zəruri olduğunu demişdi:

“Son illər bizim mədəniyyətimizə, elmimizə, şeirə, ədəbiyyata diqqət azalıb, qayğı azalıb. Bilirsiniz bu axşam bizim üçün nə qədər böyük bir mənəviyyat axşamı oldu. Bu gün mədəniyyətimizin, ədəbiyyatımızın böyük nümunələri səsləndi, canlandı, gözümüz önünə gəldi və biz özümüz-özümüzü bir daha qiymətləndirdik, tanıdıq”.

Və əlavə etmişdi:

“Sizə səmimi deyirəm, mən həyəcansız otura bilmirdim. Hər adam belə şeylərə bir cür reaksiya verir. Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilmirdim. Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var! Biz nə qədər zənginik!”

Azərbaycan Prezidenti “İstiqlal” ordeni ilə təltif etdiyi üç böyük Azərbaycan şairinin xidmətləri barədə də danışmışdır:

“Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rzanın – bu üç şəxsin adını mən fərəhlə çəkirəm. Dünən mən üç fərman vermişəm... Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, Xəlil Rzanı “İstiqlal” ordeni ilə təltif etmişəm.

...Bilirsiniz, milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan bir proses deyildir. Çox vaxt tələb eləyən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər”.

Həmin görüşdə Ümummilli Lider ədəbi proses üçün çox əhəmiyyətli olan bir məsələyə də öz münasibətini ifadə etmişdir:

“Xatirimdədir, Moskvada yaşadığım vaxt Azərbaycanın qəzetlərinə abunə yazılmışdım, göndərirdilər. Hamısına vaxtım yox idi. Amma “Ədəbiyyat və incəsənət” qəzetini mütləq oxuyurdum, tamamilə oxuyurdum. İndi bu “Ədəbiyyat qəzeti” çıxmır. Amma di gəl elə adamlar peyda olublar ki, hərəsi bir qəzet çıxarır, ağızlarına gələni də yazırlar”.

Ancaq çox keçmədi ki, dövlət başçısı Azərbaycan Yazıçılar İttifaqının bütün mətbuat orqanlarının dövlət hesabına nəşri barədə sərəncam verdi.

Heydər Əliyev Xəlil Rza Ulutürkün şəxsiyyətinə, yaradıcılığına, milli müstəqillik uğrunda apardığı ardıcıl mübarizəyə həmişə – sovet dövründə də, sonra da xüsusi hörmət göstərmişdir.

Xəlil Rza Ulutürk məşhur “Gündəliklər”indən birində yazır:

“20 ocaq 1992-ci il. Naxçıvana gəlmişəm ki, əziz bir insanı yaxından görüm. Millətinə məhəbbətində Günəş kimi qızğın və bərəkətverici, düşmənə nifrətində arslan təki cəsur, qurub-yaratmaq elmində memar məharətli, diplomatiya fənnində bütün dövlət xadimlərindən uzaqgörən və müdrik, dostluqda, ülfətdə hədsiz həssas, diqqətli, ülvi Heydər Əlirza oğlu Atatürkümüzü yaxından müşahidə edim”.

Əslində, şairi Naxçıvana Ulu Öndər özü dəvət etmişdi, bir il əvvəl, yazıçılar qurultayında:

“ – Bəs niyə Naxçıvana gəlmirsən? Dəvət edirəm, buyurun gəlin.

– Ustad Cəlaləddin Ruminin bir sözü var, – dedim – Şair şah qarşısında gədadan gəda, Şahsa şair evində ucadan uca!

– Şükür Allaha, nə mən şaham, nə də sən “saray şairi”. On dörd il şahlıq etdim, səni bircə yol da MK qarşısında görmədim. İndi mən məmləkətin yox, adacığın başçısıyam. Buyurun gəlin!”

Xəlil Rza Ulutürk həmin qurultayda iştirak edən hər bir yazıçının yaddaşına həkk olunmuş tarixi bir hadisəni də qələmə almışdır:

“Filarmoniyada arxa cərgədə yan-yana əyləşib bu cür konuşduğumuz çağda gurultulu alqışların dəyirmi salonu ayağa qaldırdığını xatırlayıram. Sən demə şair Məmməd Aslan təklif edibmiş ki, rəhbərimiz Heydər Əlirza oğlu gəlsin yuxarıda rəyasət heyətində əyləşsin.

Qopan alqış bu istəyi dəstəkləmək üçünmüş. Yaşı yetmişə yaxınlaşsa da, gənclik təravətini və şuxluğunu itirməyən, dərin mavi gözlərindəki işıqlı təbəssümünü daim qoruyub saxlayan ucaboy, mətin, pəhləvan sanballı, ağüzlü Heydərimiz ayağa qalxıb salona dönə-dönə baş əydiyini və təbəssümlə dediklərini xatırlayıram: - Mən illər boyu yuxarıda əyləşmişəm və sizə yuxarıdan çox baxmışam. Yetər! İndi də qoyun əksinə olsun. Əyləşim öz yerimdə. Sizə aşağıdan baxım!

Yenə alqış qasırğası...”

Heydər Əliyevlə Xəlil Rza Ulutürkün Naxçıvandakı görüşünü Xalq artisti Mikayıl Mirzə belə xatırlayır:

“1992-ci il, şaxtalı-sazaqlı yanvar gecəsi. Xəlil Rzanın gündəliyində, mənim yaddaşımda bu gün kimi qalır... Və bu gecə bu ev sahibi bilinməz dərəcədə olduqca sadə və səmimi idi. Mən, bəlkə də, səmimiyyətin nə olduğunu o gecə, o soyuq yanvar gecəsində Heydər Əliyevin otağı və qəlbimizi isidən isti münasibətində gördüm. O gecəni səhərə qədər bir-birlərinin söhbətlərindən, Azərbaycanın gələcək taleyinin müzakirələrindən doymayan Böyük Dövlət Xadimi ilə Böyük azadlıq şairi səhəri diri açdılar... Təkcə səhər açılmırdı – hər ikisinin qəlbi səhər kimi açılırdı...”

Mikayıl Mirzə Heydər Əliyevlə Xəlil Rza arasında olmuş müxtəsər, ancaq məzmun-mündərəcə etibarilə siqlətli bir söhbəti də xatırlayır:

“Xəlil Rza: – Yönümüz harayadır, Heydər bəy?

Heydər Əliyev: – Yönümüz doğuya olsa da, yolumuz batıyadır.

Xəlil Rza: – Batı şər yuvası, nifaq məskənidir. Günəş batıda batır.

Heydər Əliyev: – Batıda batır ki, doğuda doğsun”

1992-ci ilin yanvar ayının 19-da Xəlil Rza Ulutürk Naxçıvanda “Dədə Heydər – Atatürk” şeirini yazır ki, bu, şairin siyasi uzaqgörənliyinin parlaq ifadəsi idi:

Azadlıq Allahı tək əyləşib öz yerində,
Yerin, göyün nuru var peyğəmbər gözlərində.
Sadəliyi nur saçır, əzəməti dərində,

Gedir polad çiynində Kəpəz, Qoşqar boyda yük,
Dədə Heydər – Atatürk.

Dərin mavi gözləri sakit yanan od-ocaq,
Alovunda düşmənlər yanacaq, kül olacaq.
Qaranlıqda işıqdır –
O işığa yol açaq.
Məsləki varlığından
Min qat böyükdür, böyük –
Böyüklüyün rəmzidir Dədə Heydər – Atatürk.

Dörd tərəf qar-qiyamət, sərt qış...
O, güllü yazdır.
Dinc, mülayim səsi də qaynar bir ehtirasdır,
Ərzurumdan Xəzərə şığıyan Xan Arazdır.
Dalğasında dönüklər ağ köpükdür,
Boz köpük.
Qəzəblidir nəhr tək Dədə Heydər – Atatürk.

Sədərək körpüsünə
Qanadlandı bir səhər.
Üç addımda Türkiyə...
Hər çınqılı ləl, gövhər.
Azərbaycan – Türkiyə – cüt qala,
Qoşa səngər.
Bütün qasırğalara
Birləşməklə sinə gər!
Bu birlik qarşısında
Düşmən tük salacaq, tük,
Dədə Heydər – Atatürk!

Umud körpüsü üstə
Dayanıbdır inamla.
Anla bu həqiqəti,
Anla, ey qafil, anla,
Nicat verəcək xalqa
Yalnız Heydər – Atatürk.

Öz ideya-estetik quruluşuna görə şeir üç hissədən ibarət olsa da, həmin hissə-periodlar bir-birinə harmonik bir şəkildə keçir. Əvvəl Ulu Öndərin əzəməti

tərənnüm edilir: hər tərəf qar-qiyamətdir, xalq böyük fəlakətə düçar olmuşdur, ancaq Lider öz dəyanətini itirməmiş, məsləkində, əqidəsində heç bir tərəddüdə yol verməmişdir. Və o inanır ki, lideri olduğu millət özündə güc toplayıb tezliklə bu böhrandan çıxacaqdır... Sonra Azərbaycan-Türkiyə qardaşlığı motivi qabardılır: Sədərək körpüsünün inşası bu qardaşlığın artıq təkcə "tarix" olaraq qalmadığını, Azərbaycan və Türkiyənin gələcəyinə geniş perspektivlər açdığını göstərir. Və düşmənə məsaj verilir ki, xəyanətkarlığından, işğalçılığından, yersiz iddialarından əl çəksin... Nəhayət, Heydər Əliyevin qələbəsinə şəkk gətirənlər, dönüklər xəbərdar olunurlar...

Ümummilli Lider 1994-cü ilin 24 iyununda Xalq şairi Xəlil Rza Ulutürklə vidalaşma mərasimində çıxış edərək demişdi:

"Ağır dövrdə yaşayan Azərbaycan bu gün böyük bir matəmə bürünmüşdür. XX əsrdə Azərbaycanın görkəmli simalarından biri – şair, yazıçı, filosof, alim, xalq azadlığı uğrunda fədakar mübariz, böyük vətəndaş Xəlil Rzanı itirmişik. Bu, böyük itkidir, son illər xalqımız faciələr içərisində yaşayır. Lakin Xəlil Rza kimi şəxsiyyətlər, böyük insanlar xalqımızı daim ruhlandırmış, mübarizəyə dəvət etmiş, milli azadlıq uğrunda öz mübarizəsi ilə nümunə göstərmişlər.

Xəlil Rzanın Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. Onlar heç vaxt unudulmayacaq. Xəlil Rza xalqımıza böyük ədəbi irs qoymuş, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirmişdir" .

Ümummilli Lider daha sonra demişdir:

"Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgələrində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. Allaha şükürlər olsun ki, o, Azərbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür".

Xəlil Rza azadlıq aşiqi idi. Və hələ sovet dövründə yazmışdı:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək,
Qıram!
Qıram!
Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,
İstəyirəm səma kimi,
Günəş kimi!
Cahan kimi!
Çəkil!
Çəkil, ey qəsbkar!
Mən bu əsrin gur səsiyəm.

Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyəm.

Bu tipli şeirlərin qələmə alındığı illərdə Heydər Əliyev şairi həmişə müdafiə etmiş, onun yaradıcılıq axtarışlarının daha geniş miqyas alması üçün çalışmış, həmin müdafiəni hiss edən şair isə daha irəli gedərək yazmışdı:

Nə qədər ki sıxıb məni limon kimi sümürən var,
Sümüyümü gəmirən var,
Nə qədər ki Bakımıza püsgürdülər ölüm tozu,
Təyyarələr zəhərləyir o kolxozu, bu sovxozu,
Nə qədər ki çocuq qanı pesdisidlə mayalanır,
Aşımıza qatır alçaq yüz fitnəni, min yalanı,
Nə qədər ki Ovçarenko dəstəkləyir Balayanı,
Milli gədə Boroviki, Aqanbekyan min ilanı,
Nə qədər ki canımızda qan sorucu min gənə var,
Mənim isti sözlərimə soyuq baxan biganə var,
O xəyanət sanma bitdi,
Davam edir 37.

Heydər Əliyev demişdi:

"Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə seçilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, ən çox da cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə də bu itki bütün Azərbaycan xalqı kimi mənim üçün də böyük bir itkidir. Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır. Əminəm ki, Xəlil Rza Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır" .

Ümummilli Lider böyük şair, böyük ictimai xadim və böyük şəxsiyyətlə vida mərasimindəki çıxışını aşağıdakı təsirli sözlərlə bitirmişdir:

"Mən bu gün Xəlil Rzanın cənazəsi qarşısında baş əyirəm. Allah ona rəhmət eləsin. Mən onun ailəsinə başsağlığı verirəm. Bu böyük itki münasibətilə bütün Azərbaycan xalqına başsağlığı verirəm. Başınız sağ olsun. Allah xalqımıza səbrlər versin. Allah Xəlil Rzaya rəhmət eləsin".

1997-ci ilin 7 yanvarında Xalq şairi Qabilin 70 illiyinə həsr olunmuş tədbirdən sonra Azərbaycan Prezidenti şairi təbrik edərkən demişdir:

"Mən bu yubiley gecəsinə təkcə Qabilə hörmət naminə gəlməmişəm, buraya həm də incəsənətimizlə, ədəbiyyatımızla, şeirimizlə görüşmək üçün gəlmişəm... Yubiley gecəsinin məhz bu yanvar ayında olması bir də ona görə yerinə düşdü ki, burada yubilyarın Yanvar faciəsinə həsr olunmuş şeiri dəfələrlə səsləndi".

Həmin şeir belə başlanırdı:
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı - millətimi gülləbaran eylədilər.

Tutulub vahimədən dil bu gün, nitq bu səhər,
Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,
Bakı fəryad eləyir, gözdən axır sel bu səhər,
Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Öz Qızıl Ordumuzun Yurdumuza qəsdinə bax,
Üstünə tank yeridən fitnəkarın şəstinə bax,
Gözü qanımla xumar düşmənimin məstinə bax,
Qara bayraqlarımın cərgəsinə, dəstinə bax,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Öldü gənc, öldü uşaq, öldü gəlin-qızlarımız,
Ölmədi! Şanlı şəhid oldu neçə yüzlərimiz,
Bu saat Kərbübəla düzləridir düzlərimiz,
Necə qan ağlamasın üzlərimiz-gözlərimiz,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Azərbaycan Prezidenti sözünə davam edərək demişdi:

"Çıxış edənlərdən biri dedi ki, Qabil siyasətlə məşğul olmayıbdır. Bu fikir doğru deyil. Qabilin həmin Yanvar faciəsinə həsr olunmuş şeirlərinin özü siyasətdir. Yaxud, yadımdadır, mən Naxçıvanda olanda Qabil burada qəzetdə çıxış etmişdi və Mütəllibova 24 sual vermişdi ki, o, bu suallara cavab versin. Mən o vaxt bu sualların yarısını oxudum, fikirləşdim ki, görəsən, Mütəllibov bu suallara cavab verəcək, yoxsa yox? O həmin suallara cavab verə bilmədi. Qabilin bu sualları verməsinin özü bir vətəndaşlıq şücaəti, mövqeyi idi".

Qabilin vətəndaşlığı onun ictimai həyata, cəmiyyətə münasibətinin çox-çox dərin qatlarından gəlirdi:

Duman dağı dolanar,
Qiyamət olar.
Duman yola sallanar,
Müsibət olar.

Müsibət oluruq biz
Səhv düşəndə yerimiz.

Ümman gəmisi çayda
Oturar, üzməz!
Çay gəmisi dağ boyda
Dalğaya dözməz!
Dözümsüz oluruq biz
Səhv düşəndə yerimiz.

...Ağ biləklər, gül əllər
Tarlada qabar.
Bir qeyrətsiz yekəpər
Qızılgül satar.
Qeyrətsiz oluruq biz
Səhv düşəndə yerimiz.

Ümummilli Lider çıxışında "Nəsimi" poemasını da yüksək qiymətləndirmişdir:

"Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da, o, çox böyük iş idi və Qabil bu işi gördü. Bu, həqiqətən, Dövlət mükafatına layıq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil".

Görüşdə Qabil çətin günlərdə Heydər Əliyevə yazdığı şeiri oxumuşdur:

Məsləhətdir, aç oxu sən bu kitabı, Heydər,
Çox suala tapacaqsan da cavabı, Heydər.
Görəcəksən quruluş zay quruluşdur, a kişi,
Yandırır həm şişi o, həm də kababı, Heydər.

Üstünə kim bu saat qalxdı, xoruzlandısa da,
Xoruzun uçmağa hardaydı ki tabı, Heydər.
Hansı namərdin olub vicdanı, abrı, həyası?
Mərdə, mərdanəyə xas vicdan əzabı, Heydər!

Prezident bu şeirin (və şairin) dəyərini o zaman belə vermişdir:

"Yadımdadır, o vaxt – 1991-ci ilin fevral ayında mən buraya gəlmişdim, Ali Sovetin sessiyasında iştirak edirdim. Həmin o namərdlər mənə hücum etdilər. Sən şair baba idin, vəzifən yox idi və məndən vəzifə almamışdın. Amma sən həmin şeiri yazıb mənə göndərdin. Bu sənin vətəndaşlıq mövqeyini bildirirdi. Çox sağ ol!"

Azərbaycan Prezidenti 1995-ci ilin 19 dekabrında yazıçı Yusif Səmədoğlunun "Gülüstan" Sarayında keçirilən 60 illik yubileyində çıxış edərək demişdir:

"Yusif Səmədoğlu bizim millətimizin xoşbəxt insanlarından biridir. Çünki o, böyük şair, böyük insan, böyük alim Səməd Vurğunun oğludur. Səməd Vurğunun övladı olmaq, onun tərbiyəsini almaq, onun ailəsində böyümək özü böyük bir nemətdir. Bəlkə, bu elə bəs olardı. Ancaq bununla yanaşı, bu kökün üstündə, bu ailə ab-havasının içində böyüyüb, ərsəyə gəlib atasının yolunu davam etdirmək və cəmiyyətdə özünəməxsus, məhz özünəməxsus yer tutmaq – bu, böyük xoşbəxtlikdir".

Ulu Öndər çıxışında Yusif Səmədoğlunun da atasına layiq bir oğul olduğunu vurğulamışdır:

"Həm yaradıcılığı ilə, yaratdığı əsərlərlə, həm ictimai-siyasi fəaliyyəti ilə, həm də ziyalılığı ilə, davranışı ilə, insanlara münasibəti ilə atasının adına layiqdir. Güman edirəm ki, bu ən yüksək qiymətdir. Bir də qeyd edirəm – atasının yolu ilə gedib, atasının ədəbi xələfi olaraq, onun işini davam etdirərək özünü ədəbiyyata, mədəniyyətə həsr etmək böyük bir işdir, deyə bilərəm ki, böyük bir qəhrəmanlıqdır".

Əlbəttə, Yusif Səmədoğlu bədii yaradıcılığı, xüsusilə "Qətl günü" romanı ilə sübut etdi ki, o, böyük ədəbiyyatın adamıdır.

Ümummilli Lider əlavə etmişdir ki, Səməd Vurğun kimi "Yusif də cəmiyyətimizə təkcə yazıçı kimi, mədəniyyət xadimi kimi yox, eyni zamanda görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. Azərbaycanın həyatı üçün və xüsusilə son illərdə Azərbaycanda milli azadlıq hərəkatının inkişafı üçün, xalqımızda milli dirçəliş, milli oyanış hisslərinin yaranması və inkişafı üçün, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə üçün onun fəaliyyəti çox əhəmiyyətli, çox gərəkli olmuşdur".

Həmin mürəkkəb illərdə Yusif Səmədoğlunun xalq, Vətən qarşısındakı xidmətlərini yada salan Ulu Öndər demişdir:

"Xatirimdədir. Yusifin səsi ilə – yəni o, telefonla bəyanat vermişdi – məlumat verdilər. O, Sovetlər İttifaqının böyük qoşun hissəsinin Bakıya girməsini "Azadlıq" radiostansiyasına telefonla nə qədər həyəcan hissi ilə bildirirdi. Qoşunların vəhşiliyindən, təcavüzkarlığından danışırdı. Mən bunları "Azadlıq" radiostansiyasından Yusifin səsi ilə özüm eşitdim".

Yəqin ki, o səsi həmin illərin şahidləri yaxşı xatırlayırlar. Yusif Səmədoğlu Azərbaycanın azadlığının müdafiəsinə qalxmışdı. Və səsində elə bir inam vardı ki, "Azadlığ"ı dinləyənlər (zatən, başqa bir obyektiv informasiya mənbəyi də yox idi) hərbi müdaxiləyə, imperiya təcavüzünə rəğmən müstəqilliyin tezliklə əldə olunacağına şübhə etmirdilər.

Heç şübhəsiz , o, tək deyildi:

"Respublikamız, xalqımız ağır dövrünü yaşayır. Burada Elçin 70-ci illəri çox həyəcanla, onun sözü ilə desək, nostalgiya ilə xatırladı. Buna əsas var. Doğrudan da, o illərdə 60-70-ci illərdə ədəbiyyata, mədəniyyətə gəlmiş gözəl bir nəsil indi artıq ədəbiyyatımızın, mədəniyyətimizin aparıcı qüvvələridir. Yusif də, Anar da, Maqsud

da, Elçin də, başqaları da. Ona görə də bir daha deyirəm, o illəri xatırlamağa və onun qiymətini unutmamağa əsas var. Ancaq nə qədər ağır olsa da, bugünkü günümüz də bizim üçün çox qiymətlidir. Bu günlər indiyədək yaşadığımız dövrlərin, bəlkə də, hamısından qiymətlidir. Çünki biz indi milli azadlığa çıxmışıq, müstəqil dövlət kimi yaşayırıq".

Maqsud İbrahimbəyovun 60 illik yubiley gecəsində (14 may 1995-ci il, "Gülüstan" sarayı) çıxış edən Azərbaycan Prezidenti görkəmli yazıçını, kinodramaturqu təbrik edərək demişdir:

"Maqsud İbrahimbəyovun və onunla bərabər Rüstəm İbrahimbəyovun ictimaiyyətə tanınması dövrü, onların ədəbiyyatda, mədəniyyətimizdə ilk addımları mənim yaxşı xatirimdədir. Bunlar adi deyildi. Müəyyən qədər qeyri-adi idi. Bəzən də mövcud formalara uyğun gəlmədiyinə görə birmənalı qəbul olunmurdu. Hətta bir vaxt bu qardaşlar dissident kimi tanınırdılar.

...O vaxtlar kim dissident olub, kim olmayıb məsələsi dəbdə idi. Məndən soruşdular ki, siz rəhbərlik etdiyiniz vaxt Azərbaycanda dissidentlər vardımı? Mən dedim, yox idi. Dedilər, nə üçün? Dedim ki, sadəcə olaraq biz onları axtarmırdıq. Əgər doğrudan da biz o vaxt dissident axtarmaq istəsəydik, elə Maqsud İbrahimbəyovu da, Rüstəmi də dissident kimi damğalamaq olardı".

Prezident əlavə edir ki, "bunlar heç vaxt dissident olmayıblar. Azərbaycan mədəniyyətində, incəsənətində, ədəbiyyatında həmişə öz görkəmli yerlərini tutublar, bizim xalqımız, yaşadığımız dövr, o zamanlar, o illər üçün və bu gün, gələcək üçün çox dəyərli əsərlər yaradıblar".

Maqsud İbrahimbəyova "Bayquş gələndə", "Bütün yaxşılıqlar üçün ölüm!" əsərlərinə görə 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatı verilmişdi:

"Maqsudun yaradıcılığının xüsusiyyəti bir də ondan ibarətdir ki, o, əsərlərini rus dilində yazır. Bizim içərimizdə elə adamlar var ki, bəzən deyirlər, əgər bu rus dilində yazırsa, Azərbaycan yazıçısı deyil. Şübhəsiz ki, bu yanlış fikirdir. Bunlarla razılaşmaq olmaz... Mən hesab edirəm ki, qanı ilə, canı ilə, ruhu ilə, qəlbi ilə azərbaycanlı olub, başqa dildə əsər yazıb Azərbaycanı başqa dilli adamlara yazdıqları ilə tanıtdırmağın özü də bir nailiyyətdir... Xüsusən o dövrdə ki, biz Sovetlər İttifaqının tərkibində idik. Ümumi bir millətlərarası dilimiz var idi – rus dili".

Maqsud İbrahimbəyov yaradıcılığına bütün hörməti ilə yanaşı, Ulu Öndər Azərbaycan xalqının taleyi ilə bağlı çox mühüm bir məsələyə də öz münasibətini açıq bildirmişdir:

"Burada bir çıxışda dedilər "bakılı", "bakinets". Maqsud əsərlərinin əksəriyyətini Bakı şəhərinin həyatının təsvirinə həsr edibdir. Ancaq doğrudan da belədir ki, Bakıda hamı bakılıdır. Təkcə Bakıda anadan olanlar, əsli-kökü buradan olanlar deyil, hamı bakılıdır. Bakı elə bir şəhərdir ki, Azərbaycanda yaxşı nə varsa, hamısını özünə çəkmişdir. Ona görə də "bakılı" sözünü məhz bu mənada başa düşmək lazımdır. Bunu

təhrif etməyə, ondan cəmiyyətimizdə, dövlətimizdə, müstəqil Azərbaycanımızda hansısa bir təbəqələşmə yaratmaq üçün istifadə etməyə yol vermək olmaz”.

Məsələ burasında idi ki, Bakını Azərbaycandan ayırmaq təşəbbüsləri həmişə, xüsusilə Bakı nefti böyük şöhrət qazanandan sonra olmuşdu. Ən təhlükəlisi isə özünü “bakılı” sayan azərbaycanlıların iddialı davranışları idi... Ona görə də Ümummilli Lider bu cür iddialara qarşı öz prinsipial mövqeyini bildirməkdən heç zaman çəkinmirdi.

Azərbaycan Prezidenti 1999-cu ilin fevral ayının 5-də “Gülüstan” sarayında Rüstəm İbrahimbəyovun 60 illik yubiley mərasimindəki çıxışını bu sözlərlə başlamışdır:

“Rüstəm İbrahimbəyov Azərbaycan ədəbiyyatına, mədəniyyətinə 60-cı illərin əvvəllərində gəlmiş böyük yaradıcılar dəstəsinin parlaq nümayəndəsidir. Rüstəm İbrahimbəyov o zamandan indiyə qədər öz yaradıcılığı ilə – nəsr əsərləri, kino əsərləri, səhnə əsərləri ilə Azərbaycan mədəniyyətini zənginləşdirmiş, dünya mədəniyyətinə layiqli töhfələr vermişdir”.

“Bir cənub şəhərində” barəsində danışan Prezident onu da əlavə edir ki, “Rüstəm İbrahimbəyovun bütün əsərlərində əsas məzmunu, mənanı təşkil edən budur ki, o həmişə həyatın reallığını təsvir edibdir. Amma o dövrdə, sovet ideologiyası çərçivəsində bu o qədər də asan deyildi... Ancaq Rüstəm İbrahimbəyovun həyatı olduğu kimi təsvir etməsi və həyatın hər tərəfini – həm müsbət tərəfini, həm də mənfi tərəfini olduğu kimi göstərməsi onun yaradıcılığının ən gözəl cəhətidir və əsərlərinə böyük şöhrət gətirən amildir”.

Ulu Öndər özünəməxsus bir üslubda zarafat da etmişdir:

“Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsl dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar. Bəlkə də, onlar indi heyifsilənirlər ki, o vaxt Əliyev qoysaydı və biz dissident olsaydıq, indi, bəlkə, hörmətimiz daha da artıq olardı”.

Heydər Əliyev yubileydəki çıxışında xatırlamışdı ki, “bir dəfə Moskvadan nümayəndə heyəti gəldi ki, belə şey olmaz, - “Qobustan” jurnalında yazılıbdır Nərimanov Lenindən də böyük adamdır. Dedim, a kişi, elə şey olmaz, yəqin sizə səhv deyiblər. Gətirin baxım. Gətirdilər baxdım. “Qobustan” jurnalında yazıçı İsa Hüseynovun Nəriman Nərimanov haqqında bir yazısı getmişdi. Orada yazmışdı ki, bəli, Nəriman Nərimanov Lenin deyil, Lenindən də üstün bir adamdır.

Mən dedim, bilirsiniz nə var, indi bu, yazıçıdır, yazıbdır, sərbəst adamdır. Bu o demək deyil ki, bizim də fikrimiz belədir. Bizim fikrimiz belə deyil. Mən birtəhər bu məsələni sovuşdurdum. Amma sonra bunlara dedim ki, yaxşı, daha ağını çıxarmayın”.

Görünür, bu sözlərdə də zarafat nüansı az deyildi:

“Azərbaycanda bir ənənə yaranıbdır: atası şair, yazıçı, oğlu da şair, yazıçı. Əgər keçmiş Sovetlər İttifaqına nəzər salsaq, başqa respublikalarda mən buna rast gəlməmişəm.

... Məsələn, Səməd Vurğun – oğulları Yusif, Vaqif yazıçılar, şairlərdir. Rəsul Rza, Nigar Rəfibəyli – oğulları Anar. İlyas Əfəndiyev – oğlu Elçin... Bunlar ata-oğuldurlar. Amma iki qardaşın ikisinin də ədəbiyyat, mədəniyyət, kino sənətində eyni səviyyədə böyük fəaliyyət göstərməsi – bunlar Azərbaycan üçün yenidir".

Hər iki sənətkarın rus dilində yazmasını Azərbaycan Prezidenti qəbahət hesab etməmiş, əksinə, bunun Azərbaycan üçün əhəmiyyətli olduğunu göstərmişdi:

"Bizim yazıçılarımızın, şairlərimizin, alimlərimizin əsərlərinin çoxu başqa dillərə çevrilib və yayılıbdır. Ancaq Rüstəm İbrahimbəyov öz əsərlərini həm Azərbaycan dilində, həm də rus dilində yazaraq, əsərlərinin çoxunu keçmiş Sovetlər İttifaqının oxucularına, tamaşaçılarına orijinalda təqdim edibdir, tərcümədə yox. Bu, birinci cəhət. İkinci cəhət də ondan ibarətdir ki, ümumiyyətlə, Azərbaycan həqiqətlərini daha da geniş yayıbdır".

1998-ci ilin dekabr ayının 19-da Respublika sarayında şair Zəlimxan Yaqubun yaradıcılığına həsr olunmuş poeziya məclisində iştirak edən Azərbaycan Prezidenti məclis başa çatdıqdan sonra demişdir:

"Hər bir şair Azərbaycan üçün dəyərli bir şəxsiyyətdir. Azərbaycan xalqı bütün tarix boyu şairlərlə zəngin olubdur... Zəlimxan Yaqub bizim bu son illərdə çox üzə çıxmış, xalq tərəfindən sevilmiş və öz şeiri ilə, sözü ilə, öz fəaliyyəti ilə böyük hörmət qazanmış şairdir. Bugünkü şeir gecəsi də, poeziya məclisi də bunu bir daha sübut etdi.

Zəlimxan Yaqubun xüsusiyyətlərindən biri də odur ki, onun çox gözəl yaddaşı vardır... Öz yazdığı şeirləri də həmişə çox gözəl yadında saxlayıb söyləyir, deyir, oxuyur. Ancaq başqa şairlərin şeirlərini də insanlara çox gözəl çatdırır".

Xalqın dar günündə Zəlimxan Yaqub üzünü göylərə tutub demişdi:

Allahım, mənə bir ağsaqqal yetir,
Ona söyləyəsi ağrım-acım var.
Oğul deyə-deyə sızlayan anam,
Qardaş deyə-deyə yanan bacım var.
Havalı dağların havası kimi,
İnsanı yaşadan hava, su kimi
Bu gün ağsaqqala ehtiyacım var.
...
Üzmüşəm əlimi yerdəkilərdən
İlahi, göylərdən bir kişi göndər.
Min ildi Savalan dağında yatan
Hələ ayılmamış dərvişi göndər.
Gəlsin bu günümə yel qanadıyla,
Gəlsin bu günümə köhlən atıyla.
Qoy bilsin qəm səpib dərd əkirəm mən,
Qoy görsün günümü, nə çəkirəm mən.

Qeyrət qılıncım sıyıra, bəlkə,
Yaxşını yamandan ayıra, bəlkə,
Qurula meydanda haqq tərəzisi,
Çəkə ağılları, çəkə başları.
Layiq olanları taxta qaldıra,
Taxtından endirə yekəbaşları!
Allahım, mənə bir ağsaqqal yetir!

Ulu Öndərin vəfatından sonra Zəlimxan Yaqub "Böyük ömrün dastanı"nı qələmə aldı. Kitabın ön sözündə şair yazır: "Ulu Öndərimiz, xalqımızın ölməz oğlu, millətimizin şərəfi Heydər Əliyevin müqəddəs ruhuna bağışladığım. "Böyük ömrün dastanı" poeması isti-isti, birnəfəsə yazılmış acılı-şirinli bir xatirədir, elegiyadır".

* * *

Azərbaycan ədəbiyyatı tarixində Heydər Əliyev dövrünün emosional olduğu qədər də məntiqi hadisələrdən biri Leyla Əliyevanın yaradıcılığıdır. Gənc şair hələ babasının sağlığında yazmışdı:

Mənim Babam – gözəl insan,
Sevimlidir, mehribandır.
Yüz il, min il yaşayasan –
Desəm ona, yenə azdır.
İnsan var ki, qəlbiqara,
Bəd əməli, bəd niyyəti.
Onlar hara, Babam hara...
Bir insandır ədalətli,
Öz xalqına sədaqətli
Mənim Babam.
Kömək edər, əl uzadar
Dara düşsə bircə adam.
Bax belə bir ömür yaşar
Mənim məğrur,
Mənim əziz Heydər Babam!

Dahi babası haqqındakı ən səmimi "Elegiya"nı da Leyla Əliyeva qələmə aldı:
Ulduzlara uçan quşa dönəydim,
Ay da yollarıma nur ələyəydi.
Məğrur yerişinlə qoşa dönəydin,
Sənə yer üzündə yer eləyəydim.

Dinlə kədərimin pıçıltısını,
Mən yaxşı bilirəm ayrılıq nədi!..
Küləklər könlümün qışqırtısını
Kaş ki, kainata yaya biləydi.

...Dağ idin, çiynimi dağlara verdim,
Dağların dərdini çəksə dağ çəkər.
Sənə məhəbbətim dağlar qədərdi,
Yerini dağlardan soruşum, bəlkə?

Bəlkə, çinarlarla baş-başa verim,
Görən qovuşarmı boyum boyuna?
Gərək sənə yetə bu qəmli şeirim,
Gərək sənə yetə, haqqım var buna.

Nurunu gözümdə saxlayım necə?
Möcüzə yaratmaq gəlmir əlimdən.
Parçalan, ey zülmət, çəkil, ey gecə,
Günəşə qovuşmaq istəyirəm mən.

# III FƏSİL

## ƏDƏBİYYATIN ÜMUMTÜRK ÜFÜQLƏRİ

Azərbaycan xalqının Ümummilli Liderinin ədəbiyyatla bağlı fəaliyyətlərində ümumtürk miqyası xüsusi əhəmiyyət kəsb edir ki, buraya türk dövlətləri başçılarının Zirvə toplantısında söylədiyi mülahizələr, TÜRKSOY barədəki fikirləri, Türk dünyası yazıçılarının Bakıda keçirilən III qurultayındakı nitqində dedikləri, müxtəlif türk dövlətlərinin başçıları ilə görüşlərdə bu xalqların ədəbiyyatının ümumtürk kökləri barədəki qeydləri və s. daxildir. Həmin mülahizə, fikir və düşüncələr ümumən ədəbiyyatın, xüsusən türk xalqları ədəbiyyatının dərindən təhlilinə əsaslanır.

Sovetlər Birliyi dağıldıqdan sonra dövlət müstəqilliyinə qovuşmuş türk xalqları arasında əlaqələrin genişlənməsi, strateji xarakter almasında türk dövlətləri başçılarının Zirvə toplantıları əsas formata çevrildi. Heydər Əliyev ilk dəfə həmin toplantıda iştirak etmək üçün (söhbət 1994-cü ilin 18-19 oktyabr günlərində keçirilən 2-ci Zirvə toplantısından gedir) İstanbula yola düşərkən jurnalistlərə müsahibəsində demişdi:

“Şübhəsiz ki, Zirvə toplantısı bizim xalqlarımızın, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın – tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm”.

Həmin toplantının açılışındakı dərin məzmunlu nitqində Azərbaycan Prezidenti bildirmişdir ki, “bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrimizin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub... Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə böyük imkanlarımız var”.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın müstəqilliyinin ilk illərində respublikadakı hərc-mərclikdən istifadə edərək hakimiyyətə gəlmiş səriştəsiz qüvvələr yeni müstəqqillik qazanmış türk dövlətləri ilə münasibətləri möhkəmləndirmək əvəzinə, əksinə, əsassız mülahizələrlə yersiz ziddiyyətlərin meydana çıxmasına yol verdilər. Heydər Əliyev Zirvə toplantısında bunu bütün səmimiyyətilə bəyan edərək göstərdi ki, "iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasının Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə mən Azərbaycan Respublikasına başçılıq eləməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam...

...Ümumiyyətlə, bir kökdən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik".

1996-cı il oktyabrın 21-də Heydər Əliyev türkdilli dövlət başçılarının Daşkənddə keçirilən IV forumunda iştirak etmiş, forumdakı nitqində məmnuniyyət hissi ilə bildirmişdir ki, "Ankarada keçirilmiş birinci görüşümüzdən sonrakı dövr ərzində türkdilli dövlətlərin ikitərəfli münasibətləri daha da inkişaf etmiş, aramızda yüksək səviyyədə çoxlu səfərlər, beynəlxalq məclislərdə görüşlər və danışıqlar olmuşdur. Türkdilli dövlətlərin başçıları arasında sıx şəxsi ünsiyyət, mehriban, etibarlı münasibətlər yaranmışdır". Azərbaycan Prezidenti əlavə etmişdir ki, "biz kommunikasiya sistemlərinin tikintisinə dair layihələri əməli surətdə həyata keçirməyə başlamışıq. Bu sistemlər ölkələrimizi bir-birinə sıx bağlayacaq, qarşımızda Avropaya, Asiyaya, Yaxın və Orta Şərqə, bütün dünyaya yollar açacaqdır. Avropa İttifaqının iştirakı ilə həyata keçirilən, vaxtilə Avropanı Asiya ilə bağlamış məşhur İpək yolunun mücəssəməsi olan Traseka layihəsi məhz belə layihədir".

Get-gedə şaxələnən kommunikasiya sistemlərinin türk dövlətləri, xalqları arasındakı çoxtərəfli əlaqələrin inkişafına böyük təkan verəcəyinə əminliyini bildirdikdən sonra natiq demişdir:

"Bizim əlbir səylərimiz sayəsində milli mədəniyyətlərimizin və mənəvi irsimizin inkişafı sahəsində yaranmış gözəl əməkdaşlıq razılıq hissi doğurur. Dahi mütəfəkkirlərimizin, ədəbiyyat və incəsənət klassiklərimizin yaradıcılığı, "Dədə Qorqud", "Manas", "Alpamış" kimi min illik tarixə malik eposlarımız bizim ümumi mədəni sərvətimizdir, xalqlarımızın yüksək mənəviyyatının və əxlaqının təməlidir, bizi xeyirxahlıq və humanizm ruhunda yetişdirmiş ümumi qaynaqlardır".

Və nəhayət, Daşkənd görüşlərinin sonunda Azərbaycan Prezidenti öz təəssüratlarını belə ifadə etmişdir:

"Bu iki gündə biz qədim tarixi, özbək xalqının, bütün türkdilli xalqların zəngin, çox şan-şöhrətli tarixini yaddaşımızda bir daha canlandırdıq. Biz Əmir Teymurun

məqbərəsini ziyarət etdik, Əmir Teymurun, onun kimi şəxsiyyətlərin gələcək nəsillərə, bizə miras qoyduqları görkəmli tarixi memarlıq abidələri ilə tanış olduq.

...Biz böyük Əmir Teymurun görkəmli tarixi xidmətlərini bir daha, dönə-dönə hiss etdik".

Azərbaycan Prezidenti 1998-ci ilin 9-10 iyun günlərində Qazaxıstanda türkdilli ölkələrin V Zirvə görüşündə iştirak etmişdir. Zirvə görüşündəki çıxışında bildirmişdir ki, "yeni minilliyin astanasında ölkələrimizi nəinki tarixi köklər, adət-ənənələr, həm də dövlətlərimizin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsi, vətəndaşlarımızın həyatının, rifahının yaxşılaşdırılması kimi ümummilli mənafelər birləşdirir.

Əminəm ki, dünya sivilizasiyasının inkişafına böyük töhfə vermiş olan xalqlarımız bu vəzifələri uğurla yerinə yetirəcək və XXI əsrə ulu əcdadlarımızın layiqli varisləri kimi qədəm qoyacaqlar".

Azərbaycan Prezidentinin həmin çıxışında mədəniyyət sahəsində türk dünyası miqyasında görülmüş kifayət qədər böyük işlərin, bir növ, qısa hesabatı da verilmişdir ki, bu hesabat, əslində, türk dünyasında başlayan etnik özünüdərk və milli özünütəsdiq proseslərinin necə bir start almasının ifadəsidir:

"Dərin məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, ümumi mənəvi irsimizin təbliğinə və inkişafına böyük diqqət yetirilir. Qırğızların "Manas" eposunun min illiyinin, özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyinin, Şərqin görkəmli mütəfəkkiri, Azərbaycan şairi Füzulinin 500 illiyinin, böyük qazax şairi Abayın 150 illiyinin bayram edilməsi xalqlarımızın mədəni həyatında mühüm hadisələrə çevrilmişdir.

Ümumi sərvətimiz olan məşhur "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyi 1999-cu ildə YUNESCO ilə birlikdə Azərbaycanda geniş qeyd ediləcəkdir".

Bakıda keçirilən VI Zirvə toplantısı (8-9 aprel 2000-ci il) çərçivəsində "Dədə Qorqud" eposunun min üç yüz illiyi böyük təntənə ilə qeyd olundu.

Zirvə görüşündəki nitqində Azərbaycan Prezidenti demişdir:

"Türkiyə Cümhuriyyətinin, mərhum Turqut Özalın, hörmətli prezident Süleyman Dəmirəlin nəcib təşəbbüsü, türkdilli dövlətlərin başçılarının iradəsi və arzusu ilə 1992-ci ilin oktyabrında Ankarada keçirilən zirvə görüşü (*söhbət türkdilli dövlətlərin başçılarının I Ankara görüşündən gedir – N.C.*) və qəbul edilən Ankara bəyannaməsi bizim ölkələrimizin həyatında tarixi hadisə olmuşdur.

...Bu gün toplaşdığımız VI Bakı zirvə görüşü bir daha təsdiq edir ki, xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıq birinci növbədə müştərək mədəniyyətimizin, adət-ənənələrimizin, tariximizin, milli-mənəvi dəyərlərimizin bərpası yolunda gözəl nəticələr vermiş, gələcək üçün geniş perspektivlər açmışdır".

Ümumtürk milli-mədəni irsinə böyük ehtiramla yanaşaraq onu qoruyub saxlamağın, öyrənməyin, gələcək nəsillərə çatdırmağın nə qədər böyük əhəmiyyət daşıdığını xatırladan dövlət başçısı bildirmişdir:

"...Xalqlarımızın milli-mədəni irsinin öyrənilməsi və əlaqələndirilməsi məqsədi ilə TÜRKSOY təşkilatının yaradılmasını çox uğurlu hadisə hesab edirəm.

Bizim zirvə görüşlərimiz daha bir nəcib ənənənin təməlini qoymuşdur. Bu, dahi şəxsiyyətlərimizin, milli mədəniyyətimizin korifeylərinin, bəşər mədəniyyətinin inciləri sayılan milli eposlarımızın əlamətdar ildönümlərini, xalqlarımızın həyatındakı mühüm və tarixi hadisələri birlikdə bayram etməyimizdir. "Manas" eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150 illiyinin, Qazaxıstanın yeni paytaxtı Astananın açılışının birlikdə bayram edilməsi buna əyani sübutdur".

Azərbaycan Prezidenti bunun ardınca əlavə etmişdir:

"Sabah aprelin 9-da isə biz türkdilli xalqların milli eposu, ümumi sərvətimiz olan "Kitabi-Dədə Qorqud" dastanının1300 illiyinə həsr olunan yubiley mərasimlərində iştirak edəcəyik. Bu yubiley YUNESKO-nun qərarı ilə bütün dünyada keçirilir".

Əlbəttə, bu cür yubileylərin həm türk dünyası, həm də dünya miqyasında keçirilməsi türk xalqları ədəbiyyatlarının, mədəniyyətlərinin təbliğində çox mühüm əhəmiyyət daşıyırdı:

"Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunus Əmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Kaşğarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud",  "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim xalqlarımıza mənsub deyil. Onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir".

Milli mədəni irsə dərin fəlsəfi mövqedən dəyər verən böyük mütəfəkkir burada biri digəri ilə dialektik əlaqədə olan iki məsələyə aydınlıq gətirir ki, hər ikisi türk mədəniyyəti tarixinə müasir münasibət baxımından olduqca əlamətdardır:

1) hər bir xalq öz etnik-mədəni irsini araşdırmağa, onu bütün təfsilatı ilə mənimsəməyə, tarixin müxtəlif dövrlərində bu və ya digər səbəblər üzündən unutmağa, yaxud unutdurulmağa məhkum olduğu dəyərləri çox qiymətli mənəvi xəzinə kimi yaddaşında bərpa etməyə borcludur;

2) öz mədəniyyətinin tarixini yaxşı bilməyən, öz milli mənəvi irsinə yetərincə sahib çıxmayan xalq bütünlükdə üzvi tərkib hissəsi olduğu bəşəriyyətin ümumi dəyərlər xəzinəsinə verməli olduğu töhfələrdən məhrum qalır.

Odur ki, türk xalqları bu gün, bir tərəfdən, mədəni keçmişlərini öyrənməyi, digər tərəfdən, onu dünya miqyasında təbliğ etməyi öz qarşılarına məqsəd qoymalı, bu sahədəki mövcud boşluqları aradan qaldırmalı, siyasi müstəqilliyin heç nə ilə müqayisəyə gəlməyən imkanlarından vaxtında, elmi-intellektual əsaslar və modern təsisatlarla istifadə etməlidirlər.

Həmin gün (8 aprel 2000-ci il) qəbul edilmiş Bakı Bəyannaməsində ayrıca olaraq göstərilir ki, "dövlət başçıları Bakıda yüksək səviyyədə altıncı görüşün "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin bayram edildiyi dövrdə keçirilməsini alqışlayaraq, elm, mədəniyyət, təhsil, informasiya mübadiləsi sahəsində əməkdaşlıqdan məmnun qaldıqlarını ifadə etmiş, ölkələri arasında bu əlaqələrin daha da inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə tərəfdar olduqlarını bildirmiş, türkdilli dövlətlərin xalqlarının ümumi tarixinə, mədəniyyətinə aid olan və dünya əhəmiyyətinə malik əlamətdar tarixlərin bayram edilməsinə dair birgə proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində TÜRKSOY təşkilatının fəallığını yüksəltməyin zəruriliyini qeyd etmişlər".

Yeri gəlmişkən, Zirvə görüşü başa çatdıqdan sonra onun yekunlarına dair keçirilən birgə mətbuat konfransında türk birliyinin möhkəmlənməsində tarixi xidmətləri olan Türkiyə Prezidenti Süleyman Dəmirəl öz bəyanatında demişdir:

"Türkdilli ölkələrin başçılarının bu gün Bakıda keçirilən VI Zirvə toplantısı ölkələrimiz arasındakı həmrəyliyi, qarşılıqlı sevgi və hörməti daha da gücləndirmiş, eyni tarixi və mədəniyyəti paylaşan, fərqli ləhcələrdə də olsa eyni dildə danışan ölkələr XXI əsrə istiqamətlənən tale və könül birliyi nümayiş etdirmişlər. XXI əsrə qədəm qoyarkən türkdilli ölkələrin həmrəyliyinin əhəmiyyətini bir daha ifadə etmək istəyirəm... Önümüzdəki on il ərzində bölgədə ötən on ildəkinə nisbətən daha mühüm dəyişikliklər olacaqdır. Mədəni dünya ilə inteqrasiya baxımından da mühüm dəyişikliklər olacağına inanıram. Böyük bir fikir bərabərliyi içindəyik. Bunu ifadə etməkdən xüsusi məmnuniyyət duyuram".

Türkdilli ölkələrinin dövlət başçılarının İstanbulda keçirilən VII Zirvə görüşündə Azərbaycan Prezidenti iftixarla qeyd etmişdir ki, "müstəqillik qazandıqdan sonra xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıq birinci növbədə ortaq mədəniyyətimizin, adət-ənənələrimizin, tariximizin, milli-mənəvi dəyərlərimizin bərpası baxımından bir sıra müsbət nəticələr vermiş və gələcək üçün aydın perspektivlər açmışdır.

...Hələ keçən əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "Dildə, fikirdə və əməldə birlik" şüarı ilə çıxış edirdilər. Biz uzun və çətin mübarizələrdən sonra yalnız XX əsrin sonunda bu istiqamətdə böyük irəliləyişlərə nail olduq".

Türk xalqları mədəniyyətlərini təmsil edən dahi şəxsiyyətlərin, dahiyanə əsərlərin yubileylərinin keçirilməsinin çox nəcib bir ənənəyə çevrildiyini deyən Azərbaycan Prezidenti onu da əlavə etmişdir ki, "belə yubiley tədbirlərinin birlikdə qeyd olunmasında əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bütün dünyaya bir daha nümayiş etdirməkdir".

Dahi dövlət xadimi türk xalqlarının (və dövlətlərinin) mədəni-mənəvi irsə münasibətlərində, ümumiyyətlə, üç məqamı fərqləndirir:

1) hər bir türk xalqı həm ortaq ümumtürk, həm də diferensial milli irsini bütün miqyası ilə nə qədər dərindən öyrənsə, ruhən özünə o qədər inamlı olar;

2) bu gün hər bir türk xalqının adət-ənənəsi, dili, ədəbiyyatı, elmi, incəsənəti və s. ilə təzahür edən ümumi mədəniyyəti yüz illər ərzində təşəkkül tapmışdır;

3) layiq olduqları mədəni mövqelərə yiyələnmək üçün türk xalqları özlərini müasir dünyanın qabaqcıl mədəniyyətlərindən təcrid etməməli, milli əsaslara dayanmaqla ümumbəşəri dəyərləri mənimsəməlidirlər.

* * *

Müstəqil türk dövlətləri və xalqları arasında mədəni əlaqələrin inkişafında, qədim etnik-mədəni köklər barəsindəki təsəvvürlərin genişlənməsində və ümumtürk mədəniyyəti irsinin həm türk, həm də dünya miqyasında təbliğində TÜRKSOY-un rolu Heydər Əliyev tərəfindən həmişə dəstəklənmiş, təşkilatın uğurlu fəaliyyəti üçün zəruri şərait yaradılmış və həmin rolun gücləndirilməsindən ötrü bir sıra tövsiyələr verilmişdir.

6 noyabr 1996-cı ildə TÜRKSOY Beynəlxalq Təşkilatının Bakıda keçirilən VIII toplantısındakı nitqini Azərbaycan Prezidenti bu sözlərlə başlamışdır:

"Bu gün Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisələr baş verir. Günün birinci yarısında Bakıda türk dünyası yazıçılarının III qurultayı açılıbdır, ikinci yarısında isə TÜRKSOY Beynəlxalq Təşkilatının növbəti toplantısı işə başlayır. Sonra Azərbaycana təşrif gətirmiş qonaqlarımızla görüşlər və nəhayət, noyabrın 8-də böyük şair Məhəmməd Füzulinin yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçiriləcəkdir. Beləliklə, qədim Azərbaycan torpağı, müstəqil respublikamız öz dostları, qonaqları ilə görüşür, qucağını öz dostlarına, qonaqlarına açır".

Prezidentin dediyi kimi, həmin günlərdə Azərbaycan türk dünyası miqyasında keçirilən üç mədəni tədbirə ev sahibliyi etməklə yalnız sözdə deyil, işdə də ümumtürk məkanında gedən mənəvi inteqrasiyaya öz tarixi töhfəsini verirdi. Və bu, illər boyu müxtəlif siyasi-ideoloji təzyiqlərlə qarşısı alınmış təbii arzuların, istəklərin, bütün türk dünyası miqyasındakı milli maraqların gerçəkləşməsi istiqamətində atılmış ilk möhtəşəm addımlar idi.

Heydər Əliyev böyük məmnuniyyətlə qeyd edirdi ki, "TÜRKSOY ötən dövrdə böyük yol keçibdir, yaxşı nailiyyətlər əldə edibdir, özünün çox zəruri və böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdiribdir. Böyük məmnuniyyət hissi doğurur ki, TÜRKSOY artıq beynəlxalq təşkilatdır. Birləşmiş Millətlər Təşkilatının bir hissəsi olan YUNESKO ilə bilavasitə əlaqə qurubdur... Bunlar hamısı mədəniyyətin müasir dövrdə insanların qarşısına çıxmış ağır, çətin siyasi-iqtisadi, sosial problemlərin həllində nə qədər əhəmiyyət kəsb etdiyini və böyük xidmətlər göstərə biləcəyini sübut edir".

Türk xalqlarının mədəniyyətini beynəlxalq miqyasda təbliğ etmək vəzifəsini öz üzərinə götürmüş bir təşkilatın sözün həqiqi mənasında beynəlxalq status qazanması, dünya mədəniyyətinin üzvi tərkib hissəsi olan (və qədim tarixə malik) zəngin türk mədəniyyətinin müasir dəyərlər baxımından qiymətləndirilərək bütün bəşəriyyətin sərəncamına verilməsində mühüm rol oynayacaq səlahiyyətli bir qurumun artıq müəyyən iş təcrübəsi qazanması Ümummilli lideri son dərəcə məmnun edirdi:

"Ona görə də biz – Azərbaycan Respublikası, dövlətimiz TÜRKSOY Beynəlxalq Təşkilatının yaranmasından indiyə qədər onun zəruri olduğunu qeyd etmişik, bu barədə öz fikrimizi bildirmişik. Bu gün TÜRKSOY təşkilatının VIII toplantısında iştirak edərək xalqımız və dövlətimiz adından bəyan edirəm ki, bu təşkilatın gələcəkdə də uğurlu fəaliyyət göstərməsi üçün biz əlimizdən gələni əsirgəməyəcəyik".

Heydər Əliyev TÜRKSOY-un yeni dövrün tələbləri əsasında yarandığını, müasir çağırışlara cavab verməli bir qurum kimi təşəkkül tapdığını xüsusi vurğulamaqla türk dövlətlərinin, xalqlarının (və Zamanın!) belə bir quruma nə qədər böyük ehtiyacı olduğunu bir daha nəzərə çarpdırmışdır:

"Bu gün mən TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərini dinləyərək çox böyük hissiyyatlar keçirirəm. Bu yeni bir aləmdir, dövrdür. Biz XX əsri sona çatdırırıq. Bir çox mərhələlərdən keçmişik. Həyatımızın çox xoşbəxt günlərini də yaşamışıq, eyni zamanda qanlı-qadalı, faciəli günlərini də görmüşük. Ona görə də hər bir yeni hadisə, şübhəsiz ki, bizi maraqlandırır və öz mənasına görə qiymətlidir".

Türk dünyasının böyük övladı türk xalqları, mədəniyyətləri arasındakı qarşılıqlı əlaqələrin son dərəcə genişləndiyini məmnunluq hissi ilə qeyd etmiş, həmin inteqrasiya prosesində dil amilinin – türk dilləri arasındakı genetik yaxınlığın, qohumluğun roluna və əhəmiyyətinə diqqət çəkmişdir:

"Vaxtilə biz Mərkəzi Asiyada olan türkdilli, türk kökünə mənsub xalqlarla, respublikalarla, ölkələrlə sıx əlaqədə olmuşuq. Vaxtilə biz Tatarıstan və Başqırdıstan ilə sıx əlaqədə olmuşuq, görüşlərimiz keçirilib, mədəniyyət xadimlərimiz yaxından əməkdaşlıq ediblər, bir-birimizin ölkələrində mədəniyyət günləri keçirmişik. Ancaq mədəniyyətimizin bugünkü qədər yaxın, bu qədər sıx olduğunu görməmişik. Şəxsən mən dəfələrlə Mərkəzi Asiya ölkələrində olmuşam və o ölkələrin dövlət başçıları, respublikaların rəhbərləri, mədəniyyət nümayəndələri də Azərbaycanda olublar. Ancaq öz kökümüzə mənsub olan dildə bizim bir-birimizə müraciət etməyimiz, belə görüşlərdə öz dilimizdən istifadə etməyimiz indiyədək olmamışdır. Mən bunları görərkən çox sevinirəm və hesab edirəm ki, bu, bizim böyük gələcəyimizin başlanğıcıdır".

Əlbəttə, türk xalqları içərisində Azərbaycan və Türkiyə (Anadolu) türklərinin dil-ünsiyyət, mədəniyyət, sosial-siyasi əlaqələri yüzillər ərzində daha sıx olmuş, əslində, bu xalqların bölünməsi, diferensiasiya prosesləri orta əsrlərin sonu, yeni dövrün əvvəllərində başa çatmışdır. Lakin bu qədər yaxın olan xalqlar arasında da

tarixin keşməkeşləri, yaxud paradoksları elə ayrılıqlar salmışdır ki, onların təbii təmasları da uzun illər kəsilmiş, yaxud dolayı səciyyə daşımışdır:

“Türkiyə Cümhuriyəti ilə Azərbaycanın dövlətlərarası əlaqələrinin beş illik tarixi var. Ancaq Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri əsrlərdən keçibdir. Təəssüflər olsun ki, XX əsrdə bizim bu əlaqələrimiz çox məhdudlaşdırılmış, hətta kəsilmişdi.

...Bizim dilimiz, mədəniyyətimiz eynidir, bir-birimizlə də qonşuyuq. Ancaq bir-birimizdən nə qədər uzaqda olmuşuq, nə qədər aralı düşmüşük, bir-birimizin həsrətini çəkmişik. Bu gün artıq bir yerdəyik. Bu gün artıq hamımıza aydın olan, hamımızın anladığı dildə danışır və öz ürək sözlərimizi bir-birimizə çatdırırıq”.

Azərbaycan Prezidenti mədəni inteqrasiyada dil yaxınlığının nə qədər böyük stimul olduğunu Tatarıstan və Başqırdıstanın nümunəsində bir daha xatırladaraq demişdir:

“Mən Tatarıstanın nümayəndələri ilə mərasimlərdə də, toplantılarda da və təkbətək də dəfələrlə görüşmüşəm. Ancaq biz ikimiz də anladığımız dildə heç vaxt danışmamışıq. Bu gün mən Tatarıstan və Başqırdıstan mədəniyyət nazirlərinin burada öz ana dillərində danışmasına çox sevinmişəm və bu ölkələri vaxtilə yaxşı bildiyimə baxmayaraq indiyədək heç təsəvvür edə bilmirdim ki, bu dillər bizim Azərbaycan dilinə bu qədər yaxındır və bu qədər də anlaşıqlıdır”.

Yalnız dahi ictimai-siyasi xadimlərə (və dövlət qurucularına) məxsus bir təvazökarlıqla bəşəriyyətin (və mənsub olduğu millətin) keçmişini, bu gününü və gələcəyini bir bütöv halında dərk və izah etmək səriştəsi (və qüdrəti) ilə, eyni zamanda hər kəsin anlayacağına, öz fəaliyyətində rəhbər tutacağına və bir insan-fərd olaraq uğurlar qazanmaq üçün cəhdlər göstərəcəyinə imkan verəcək bir aydınlıq, səmimiyyət və uzaqgörənliklə söylənmiş bu sözlər türk dünyasının haradan haraya gəldiyini, türk insanının qarşısında uzun illərin təcrid olunmasından sonra hansı mənəvi perspektivlərin açıldığını bəyan edən yol xəritəsidir. Və “bunlar hamısı dünyada gedən böyük ictimai-siyasi dəyişikliklərin nəticəsidir. Bunlar hamısı xalqlarımızın dövlət müstəqilliyini əldə etməsinin, milli azadlığa nail olmasının bəhrəsidir. Bunlar hamısı bizim üçün yeni bir eranın, epoxanın, yeni bir parlaq gələcəyin başlanğıcıdır. Biz xoşbəxt adamlarıq ki, bunlar bizə nəsib olubdur. Biz belə bir gələcəyin təməlini qoyanlardanıq. Ümidvaram ki, biz bu gələcəyi də görəcəyik, gələcək nəsillər görülən işləri layiqincə qiymətləndirəcəklər”.

Dahi liderlər həm keçmişi hər kəsə müyəssər olmayan bir analitik miqyasla təhlil etməyi bacarırlar, həm bu günün mürəkkəb metafizikasına varırlar, həm də bütün fəaliyyətlərində gələcəyə xüsusi diqqət ayırdıqlarına görə bu günü keçmişlə gələcəyin dialektikasında dərk etməklə Zamanın fövqünə yüksəlirlər.

Heydər Əliyev TÜRKSOY-un toplantısına Rusiyadan, Gürcüstandan gəlmiş qonaqları da səmimiyyətlə salamlamışdır:

“Çox sevindirici haldır ki, bu gün TÜRKSOY-un növbəti toplantısında Rusiya Federasiyasının və Gürcüstan Respublikasının nümayəndə heyətləri də iştirak edirlər. Mən qonşu Gürcüstanın mədəniyyət naziri cənab Asatianini çox məmnuniyyətlə dinlədim. Rusiya Federasiyasının mədəniyyət nazirinin müavini, bizim üçün çox yaxın və hörmətli olan cənab Şerbakovun çıxışını çox böyük məmnuniyyətlə dinlədim. Hər iki çıxışda TÜRKSOY-a çox doğma, müsbət münasibət, bu təşkilatla əməkdaşlıq etmək arzusu və gələcək əməkdaşlığa ümid verən sözlər həddindən artıq sevindiricidir”.

Heydər Əliyevin bu sözləri yalnız dünyanın gəliş-gedişini dərindən bilən böyük bir ictimai-siyasi xadimin, öz ölkəsinə hörmət qazandırmağı qarşısına məqsəd qoymuş dahi diplomatın jestləri deyildi, həm də (və daha çox!) bütün dünyada, bütün xalqlar arasında elə bir mədəni həmrəylik tapmaq istəyinin təcəssümü idi ki, liderlik missiyasını öz üzərinə aldığı türk xalqları, o cümlədən Azərbaycan xalqı da inkişaf edən bəşəriyyətin üzvi tərkib hissəsi olaraq bu gündən gələcəyə həmişə inamla addımlasın.

Heydər Əliyev deyir:

“Cənab Şerbakovun çıxışındakı bir nöqtə çox maraqlıdır. O bildirdi ki, Rusiya Federasiyasında slavyandilli xalqlardan sonra ikinci yerdə türkdilli xalqlar durur və onların da sayı 12 milyondur. O bildirdi ki, slavyandilli xalqlarla türkdilli xalqların əməkdaşlığına Rusiya Federasiyasında çox böyük diqqət və qayğı göstərilir. Bu, sevindirici haldır. Keçmişdə bu məsələlərə biz heç vaxt toxunmurduq, toxuna bilməzdik.

...Bu, son illərdə meydana çıxmış dəyişikliklərin nəticəsidir, bunlar bizim hamımızın – həm türkdilli dövlətlərin, həm də türkdilli ölkələrlə qonşu olan dövlətlərin bir-biri ilə sıx əməkdaşlıq etməsi üçün çox gözəl imkanlar yaradıb və böyük yollar açıbdır”.

Azərbaycan Prezidenti öz nitqində xüsusi olaraq qeyd etmişdir ki, türkdilli ölkələrin Zirvə görüşlərində əsas mövzulardan birincisi iqtisadi əlaqələri inkişaf etdirməkdirsə, ikincisi elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığı genişləndirməkdir. Və ona görə də TÜRKSOY-un fəaliyyətinə ayrıca önəm verilir. Lakin “bizim ölkələrimizdə gedən ictimai-siyasi proseslər, sosial-iqtisadi çətinliklər, şübhəsiz ki, mədəniyyətə istənilən qədər qayğı göstərməyə və maddi yardım etməyə imkan vermir... Buna baxmayaraq mədəniyyət, elm, təhsil bizim üçün ən əsas vəzifələrdəndir... TÜRKSOY bu işi görür və indiyə qədər, qısa müddətdə - üç il ərzində toplanmış təcrübə sübut edir ki, bu təşkilat bundan sonra da çox səmərəli fəaliyyət göstərə bilər və ölkələrimiz, xalqlarımız üçün daha çox iş görə bilər. Bu da ondan ibarətdir ki, xalqlarımızın əlaqələrini bir-biri ilə daha da sıx bağlasın. Mədəniyyət, ədəbiyyat vasitəsilə bu əlaqələri daha da genişləndirmək xalqlarımız üçün çox lazımdır, zəruridir”.

2001-ci ilin yanvar ayının 16-da Prezident TÜRKSOY-un Bakıda keçirilmiş XV toplantısının iştirakçılarını qəbul edərkən onlara öz dəyərli məsləhətlərini verərək

göstərmişdir ki, “bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bu irsi nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik Sovet cəmiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır. Bəzən də Sovetlər İttifaqında yaşayan türkdilli xalqlar üçün qadağan olubdur... Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Bu Birliyin də, yenə də deyirəm, ən əsas özəklərindən biri TÜRKSOY təşkilatıdır”.

Türkdilli xalqların, dövlətlərin inteqrasiyasında iqtisadiyyatın da, siyasətin də mühüm fəaliyyət sahələri olduğunu deməklə yanaşı, Ulu Öndər əlavə etmişdir ki, “ticarətin, iqtisadiyyatın nə milliyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır”.

Müstəqil türk dövlətlərinin, xalqlarının ümumi iradəsi (və maraqları) əsasında çox böyük bir missiyanı öz üzərinə almış TÜRKSOY-un –türk YUNESKO-sunun fəaliyyəti Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuş, təşkilatın on illiyi münasibətilə türkdilli ölkələrin mədəniyyət nazirlərinin daimi şurasına ünvanladığı 16 iyul 2002-ci il tarixli məktubunda böyük məmnuniyyət hissi ilə qeyd etmişdir ki, “TÜRKSOY-un qurucu ölkələrindən olan Azərbaycan Respublikası bu hərəkatın elə ilk günlərindən onun fəal iştirakçısı olmuşdur. TÜRKSOY-un məqsəd və vəzifələri müstəqil Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki strategiyasına tam uyğundur. Buna görə də biz TÜRKSOY-un fəaliyyətinə böyük əhəmiyyət verir və onu dəstəkləyirik.

İnanıram ki, keçən on il ərzində tam formalaşmış və böyük təcrübə toplamış təşkilatımız öz fəaliyyətini daha da gücləndirəcək və türkdilli xalqların qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün bundan sonra da var qüvvəsini sərf edəcəkdir”.

Azərbaycan Prezidenti 2003-cü ilin fevral ayının 6-da Prezident sarayında TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri daimi şurasının XIX toplantısının iştirakçıları ilə görüşərkən demişdir:

“Türkdilli dövlətlər birliyi əmələ gələndən sonra bizim təşkilatlar içərisində ən irəli getmiş qurumlardan biri TÜRKSOY-dur. TÜRKSOY hamını birləşdirir. Amma hansısa başqa bir təşkilatda hərə bir tərəfə çəkir. Ona görə biz sizin təşkilata çox diqqət yetirir, əhəmiyyət veririk. Biz dövlət başçıları olaraq, türkdilli dövlət başçılarının toplantılarında birinci növbədə mədəni əlaqələri inkişaf etdirmək məsələsini qoyuruq. Təbiidir, iqtisadi əməkdaşlığın, insani əlaqələrin inkişaf etdirilməsi məsələləri də vardır. Bunların hamısı vardır. Ancaq bunların hamısının kökündə mədəniyyət, dil, bizim adət-ənənələrimiz durur”.

Prezident öz çıxışında türk dillərinin, ədəbiyyatlarının, mədəniyyətlərinin diferensiasiyası məsələsinə də toxunmuşdur:

“Bizi bir-birimizə bağlayan nədir? Dilimizin kökü. Düzdür, bəziləri bir-birini başa düşmür. Amma biz dilimizə görə eyni kökdən gəlmiş xalqlarıq.

İkincisi, bizim müştərək mədəniyyətimiz, ənənələrimiz, müştərək mənəvi dəyərlərimizdir. Bunlar əsrlər boyu türkdilli xalqları bir-biri ilə bağlayıb, birləşdirib, yaxınlaşdırıbdır.

Sonra rus imperatorluğu, ondan sonra isə sovet imperatorluğu dövründə biz bunları itirmədik, ancaq bir-birimizdən bir qədər aralandıq”.

Əlbəttə, bu xatirə də türk xalqlarının taleyi baxımından son dərəcə maraqlıdır:

“Mən Altayda oldum. Orada məni Rusiya Federasiyası Ali Sovetinin deputatı seçmişdilər. SSRİ Ali Sovetinin Azərbaycandan deputatı seçilmişdim. Altay bizim babalarımızın qədim məskənidir. Mən ora getdim. O vaxt Dağlıq Altay adı altında tanınan ərazi indi Altay Respublikası adlanır.

Mən o vaxt orada olarkən onlara deyirdim ki, siz türksünüz, onlar deyirdilər ki, biz dağlıq altaylılarıq. Amma onların mənə olan münasibətlərini görürdüm. Onlar isə mənimlə “qohum” olduqlarını boyunlarına almırdılar”.

Prezident TÜRKSOY-un eyni zamanda türk dilləri ilə də məşğul olmasının əhəmiyyəti barədə danışaraq, bildirmişdir ki, kök eyni olsa da hər bir türk dilinin tarixi inkişafın – diferensiasiyanın nəticəsi olaraq elə özünəməxsusluqları vardır ki, onları (və nəticə etibarilə, müasir türk dillərinin müstəqilliyini) inkar etmək olmaz. Eyni zamanda demişdir:

“Yadımdadır, mən bir-iki dəfə ya burada, ya da Türkiyədə toplantılarda nitq söyləyəndən sonra dostum Süleyman Dəmirəl mənə deyirdi ki, sən şeir oxudun. Deyirdim ki, yox, mən nitq söylədim. O deyirdi ki, bilirəm, amma Azərbaycan dili o qədər şeir dilidir ki, bəzən fərqinə varmaq olmur ki, nitq söyləyirsən, yaxud şeir deyirsən”.

TÜRKSOY artıq neçə on illərdir ki, türk xalqlarının dillərinin, ədəbiyyatlarının, incəsənətlərinin, ümumən mədəniyyətlərinin həm türk dünyasında, yəni ayrı-ayrı türk xalqları arasında, həm də bütün dünyada (YUNESKO ilə əməkdaşlıq şəraitində) uğurla təbliğ etməkdədir.

* * *

Ümummilli Lider Heydər Əliyev xalqın ictimai, siyasi və mədəni yüksəlişində yazıçının roluna həmişə böyük dəyər vermiş, ədəbi şəxsiyyətin (və ümumən ədəbiyyatın) missiyasını bütün dövrlər üçün fövqəladə hadisə hesab etmişdir.

1996-cı il noyabr ayının 6-da məhz Ümummilli Liderin himayəsi ilə türk dünyası yazıçılarının III qurultayı keçirildi ki, onu Azərbaycan xalqı, Azərbaycan dövləti adından salamlayan Heydər Əliyev əvvəlcə iştirakçılara həmin qurultayın tarixçəsini xatırlatdı:

“Bu qurultay ilk dəfə 1992-ci ildə Türkiyədə, Ankarada öz əsasını qoymuş və Allaha şükürlər olsun ki, artıq ənənəyə çevrilmişdir. Heç şübhə etmirəm ki, bu, daim davam edəcəkdir. 1992-ci ildə Türkiyədə, Ankarada Türkiyə Cümhuriyyətinin, onun mərhum prezidenti Turqut Özalın təşəbbüsü ilə başlanan bu qurultay türkdilli xalqların, türk dünyasının qədim, böyük tarixini yenidən canlandırmaq üçün çox gözəl və dəyərli təşəbbüs olmuşdur. Sonra bu qurultay ikinci dəfə Türkiyədə, Ankarada keçirilərkən bizim əziz dostumuz, qardaşımız, Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəlin təşəbbüsü və iştirakı ilə bu qurultaya güc verilmiş və bu, ənənənin köklənməsini göstərmişdir”.

Azərbaycan Prezidenti bu dəyərli təşəbbüsü müdafiə etməyin zəruriliyini bildirdikdən sonra belə bir əminlik ifadə eləmişdir ki, “türk dünyasının yazıçıları və bizim ölkələrimiz, xalqlarımız bu işi davam etdirəcəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar”.

Heydər Əliyev öz nitqində həmişə olduğu kimi bu dəfə də tarixə, türk xalqlarının şərəfli keçmişinə diqqəti cəlb etmiş, ortaq köklərin, müştərək mənəvi dəyərlərin bu gün və gələcək üçün tükənməz ilham qaynağı olduğundan danışaraq türk xalqları yazıçıları arasında yaradıcı əməkdaşlığa nə qədər dərin ideya-estetik əsaslar (və eyni zamanda ehtiyac!) olduğunu bir daha yada salmışdır:

“Türkdilli xalqlar qədim, çoxəsrlik tarix boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çıxarmışdır. Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərələrimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik”.

Azərbaycan Prezidenti göstərmişdir ki, türk xalqlarının elm, ədəbiyyat, incəsənət, ümumən mədəniyyət xadimləri mənsub olduqları xalqın yalnız zəngin, keşməkeşli, nəticə etibarilə, hər səhifəsi fəxr doğuran tarixini yazmaqla kifayətlənməmiş, özləri də gələcək nəsillər üçün hər cəhətdən qürurverici bir tarix – milli mənəviyyat tarixi yaratmışlar:

“Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır. Xalqlarımız tarix boyu insan həyatının bütün sahələrində, bəşəriyyətin (*müqayisə et: insanlığın – N.C.*) bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş, elmi axtarışları, qəhrəmanlıq nümunələri, böyük tarixi memarlıq abidələri və böyük bədii əsərləri, musiqisi ilə parlaq səhifələr yazmışlar”.

Əlbəttə, tarixi müxtəlif hadisələrlə, xüsusilə qəhrəmanlıq nümunələrilə zəngin olmayan, ictimai həyatın bir-birindən fərqli dolaylarından keçib öz mənəvi varlığını bütün mental keyfiyyətlərilə ortaya çıxara bilməyən, həmin dolaylarda milli mənliyini təsdiq etməyə gücü çatmayan bir xalq böyük ədəbiyyat yaratmaq imkanlarından məhrumdur.

“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadanlar, zənginləşdirənlər, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olmuşdur. Biz, adətən, böyük tariximiz haqqında, xalqlarımızın böyük mədəniyyəti haqında danışarkən, birinci növbədə, onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlərinə istinad edir, bunları nümunə gətirir və təbliğ edərək eyni zamanda öz tariximizi, mədəniyyətimizi təbliğ edirik” deyən dahi dövlət xadimi onu da əlavə edir ki, “qədim dövrlərdə “Dədə Qorqud”, “Manas”, “Alpamış”, “Koroğlu” dastanları, xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, xalqlarımızı dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir”.

Heydər Əliyev türk dünyası yazıçılarının qurultayındakı nitqində yaxın tarixin metafizik dərinliklərinə vararaq türk mədəniyyətinin son epoxasında baş vermiş kataklizmlərin nəticələrini ümumiləşdirmiş, həmin nəticələri, bir tərəfdən, türk, digər tərəfdən, dünya sivilizasiyası kontekstində qiymətləndirməyin dahiyanə fəlsəfi formulunu vermişdir:

“XX əsr dünya tarixində çox mürəkkəb, ziddiyyətli, gərgin proseslər dövrü olmuşdur. Bizim əksəriyyətimiz, demək olar, hamımız bu əsrdə doğulmuşuq və artıq bu əsri başa çatdırırıq. Xalqımızın – türkdilli xalqların, ölkələrin mədəniyyəti, ədəbiyyatı XX əsrdə ziddiyyətli, eyni zamanda çox şərəfli və müvəffəqiyyətli yol keçmişdir. Bir tərəfdən, bizim mənəviyyatımızı, mədəniyyətimizi, ədəbiyyaımızı bir-birindən ayırmaq, parçalamaq, milliliyin qarşısını almaq cəhdləri çox güclü olmuş, ikinci tərəfədən də, yaranmış ictimai-siyasi vəziyyət və xalqlarımızın cürbəcür imkanlardan istifadə edib dünya mədəniyyəti ilə daha çox əlaqələr qurması nəticəsində ədəbiyyatımız, mədəniyyətimiz çox inkişaf etmişdir”.

Burada söhbət ondan gedir ki, türklər (və onların mədəniyyəti!) XX əsrə hansısa imperiyanın müstəmləkəsi, yaxud hansısa yad sivilizasiyanın himayəsi altında yox, ən geci I minilliyin ortalarından başlayan intibahın əsrlər boyu davam edən diferensial təzahürü kimi gəlib çıxmışdır. Və bu intellektual-mədəni hərəkatın ümumbəşəri xarakteri heç vaxt imkan verə bilməzdi ki, hər hansı təsadüfi təcavüz onu öz təbii yolundan sapdırsın.

Heydər Əliyev öz analitik təhlillərini davam etdirərək demişdi ki, "XIX–XX əsrlərdə xalqımızın mədəniyyətinin, ədəbiyyatının Avropa mədəniyyəti, Rusiya mədəniyyəti ilə yaranmış əlaqələrdən istifadə edib çox böyük nailiyyətlər qazanmasını xüsusi qeyd etmək lazımdır. Bu, yeni bir şey deyil, təbiidir. Keçmişdə də böyük, dahi şairlərimiz, yazıçılarımız, tarixçilərimiz qədim yunan, Roma ədəbiyyatından, qədim Avropa ədəbiyyatından istifadə etmişlər...Şərqin və Qərbin mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin sintezi həm Qərbə, həm də Şərqə çox böyük müsbət nəticələr gətirmişdir. Bu proses XIX-XX əsrlərdə bizim xalqlarımız üçün çox müvəffəqiyyətli olmuşdur və onların ədəbiyyatının, mədəniyyətinin inkişafına çox güclü müsbət təsir göstərmişdir".

Əlbəttə, Sovetlər Birliyi tərkibində yaşamağa məcbur olan türk xalqlarının taleyini bir müddət həmin Birliyin formalaşmasında əsas olmuş ideologiyanın diqtəsi müəyyən etmişdir. Lakin bu nə qədər böyük faciələrlə müşayiət olunsa da, türk xalqları mədəniyyətinin tarixində sovet dövrü özünü geriləmə yox, məhz inkişaf dövrü kimi göstəriri:

"XX əsrdə mədəniyyətimizi inkişaf etdirmək üçün cürbəcür qurultaylarda iştirak etmişik, cürbəcür formalarda əlaqələr yaratmışıq. Bunların əksəriyyəti səmərəli olubdur, bunların müsbət nəticələrini inkar etmək düzgün olmazdı. Çəkdiyimiz zərərləri, bizə vurulan zərbələri əldə etdiyimiz nailiyyətlərlə müqayisə edəndə hər iki sahəyə ədalətli qiymət verməliyik".

Doğrudan da, bir tərəfdə milli mənəvi dəyərlərə qarşı siyasi-ideoloji repressiya tüğyan edirdisə, digər tərəfdə kütləvi savadlanma, müasir texnologiyaların – elmin, təhsilin, mətbuatın və s. sürətlə yayılması özünü göstərir, "sovet türkləri" məhrumiyyətlər, qurbanlar hesabına olsa da dövrün nailiyyətlərindən faydalanaraq mövcud tarixi şəraitdə öz mədəni varlıqlarını inkişaf etdirirdilər.

Heydər Əliyev göstərir ki, "ancaq indi, XX əsrin sonunda bizim xalqlarmız, ölkələrimiz üçün yeni, gözəl fürsət, yeni bir şərait yaranmışdır. O da ondan ibarətdir ki, dünyada gedən ictimai-siyasi proseslər, baş vermiş dəyişikliklər, Sovetlər İttifaqının dağılması türkdilli, türk dünyasına mənsub olan xalqların tam azad olmasına, müstəqillik əldə etməsinə və müstəqil dövlət qurmasına imkanlar yaratmış və bu, qısa bir müddətdə öz gözəl nəticələrini vermişdir".

Azərbaycan Prezidenti istər Sovetlər Birliyinin dağılması, istərsə də türk sovet respublikalarının öz həqiqi müstəqiliklərini təmin etməsi proseslərinin asan olmadığı, müxtəlif xarakterli (siyasi, iqtisadi, mənəvi və s.) problemlərin ortaya çıxdığı barədə mülahizələrini qurultay iştirakçılarının nəzərinə çatdırdıqdan sonra öz qəti mövqeyini də bildirmişdir:

"Milli azadlıq, dövlət müstəqilliyi bizim xalqlarımız üçün hər bir şeydən üstündür və bunun naminə bütün əzab-əziyyətlərə dözmüşük, bu gün də dözürük, gələcəkdə də dözəcəyik, ona görə ki biz əbədi olaraq azad, sərbəst, müstəqil yaşamaq istəyirik".

Türk dünyası yazıçılarının qurultaylarının, o cümlədən keçirilməkdə olan III qurultayın da məhz haqqında söhbət gedən milli azadlığın, sərbəstliyin, müstəqilliyin bəhrəsi olduğunu qeyd edən natiq türk dövlətləri arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməyi çox mühüm bir vəzifə kimi dəyərləndirməklə, türkdilli ölkələrin dövlət başçılarının vaxtaşırı keçirilən zirvə görüşlərində həmin məsələnin müzakirəsinə xüsusi diqqət verildiyini deməklə yanaşı, əlavə edir ki, "amma eyni zamanda xalqlarımızın böyük tarixini yenidən təhlil etmək, yenidən qiymətləndirmək, ona düzgün, ədalətli qiymət vermək və hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, ədəbiyyat, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran prinsiplərdir, vəzifələrdir".

Türk xalqları arasındakı ortaq tarixi dəyərlər türk dövlət başçılarının görüşləri zamanı müzakirə mövzusu olarkən, heç şübhəsiz, dil məsələsinin ön plana çıxacağı şübhə doğurmur:

"Bizim xalqlarımız uzun illər cürbəcür dövlətlərin tərkibində olduqlarına görə bir çox hallarda dillərindən və milli dəyərlərindən lazımi qədər istifadə etməkdən məhrum olublar, yaxud da ki onların bu imkanları məhdudlaşdırılıbdır. Ancaq bizim dilimizi, mədəniyyətimizi, milli dəyərlərimizi yaşadanlar həmişə, bütün mərhələlərdə yazıçılar olubdur".

Heydər Əliyev dil-ünsiyyət baxımından türk xalqlarının inteqrasiyasında yazıçıların üzərinə çox böyük vəzifələrin düşdüyünü göstərərək demişdir:

"Mənim tövsiyəm ondan ibarət olardı ki, bizim xalqlarımızın bir-biri ilə daha da yaxınlaşması üçün, bir-birini bilavasitə daha da anlaması üçün, dillərimizin inkişaf etməsi üçün və bir kökdən olan dillərimizin bir-birinə daha da yaxınlaşması üçün yazıçılar öz xidmətlərini göstərsinlər. Bizim dillərimiz bir kökə mənsubdur və bir-birimizi anlayırıq. Ancaq yaxşı olardı ki, dediyim bu sözləri mənim özbək, qırğız, qazax qardaşlarım da azərbaycanlı kimi anlasınlar və eyni zamanda bu qurultayda Başqırdıstandan, Qırğızıstandan olan yazıçıların çıxışlarını bizim azərbaycanlılar da tamam anlaya bilsinlər".

Əlbəttə, türk xalqları öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ortaq ünsiyyət vasitəsi ehtiyacı özünü hər sahədə hiss etdirdiyindən həmin problemi aradan qaldırmaq məqsədilə bir sıra mülahizələr meydana çıxdı, hətta bəzi təşəbbüslər də (məsələn, bir çox özbək dilçi-alimləri indiyə qədər düşünürlər ki, ortaq türk dili bütün mövcud türk dillərinin materialları əsasında, yəni hər bir türk dilindən fonetik, leksik və qrammatik əlamətlər almaqla, bir növ, laboratoriya şəraitində yaradılmalıdır) göstərildi. Azərbaycan Prezidenti türk dillərinin bir-birinə yaxınlaşması ideyasının tərəfdarı olmaqla, bu baxımdan türk xalqları yazıçılarının, qələm adamlarının öhdəsinə böyük bir missiyanın düşdüyünü göstərməklə yanaşı, bildirir ki, "bizim xalqlarımızın dilləri bir kökdən olaraq, hərəsi öz tarixi yolu ilə gedərək böyük inkişaf dövrü keçirmişdir. Ancaq mən Azərbaycan dili haqqında danışarkən deyə bilərəm ki, bizim Azərbaycan dilimiz XX əsrdə çox inkişaf etmiş, çox zənginləşmişdir. Mən

fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik".

Dövlət başçısı öz nitqini aşağıdakı sözlərlə bitirmişdi:

"Bu gün burada, türk dünyası yazıçılarının III qurultayında çıxış edən dəyərli qonaqlarımız çox qiymətli sözlər dedilər. Mən hesab edirəm ki, bunlar hamısı Azərbaycanın ictimai-siyasi həyatı, Azərbaycanın ictimaiyyəti üçün çox əhəmiyyətlidir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu günlər keçirilən cürbəcür görüşlər bizim əlaqələrimizi daha da inkişaf etdirəcəkdir".

* * *

Ulu Öndər müxtəlif Türk dövlətlərinə rəsmi, yaxud işgüzar səfərlərində, eləcə də həmin dövlətlərin başçılarının, ziyalılarının Azərbaycana səfərlərindəki görüşlərində türk xalqları ədəbiyyatları, mədəniyyətləri barədə dəyərli fikirlər söyləmişdir.

O, 1997-ci ilin may ayında Türkiyəyə rəsmi səfərə gəlmiş, həmin səfər çərçivəsində Bilkənd Universitetində çıxış edərkən bu universitetin qurucusu proferssor İhsan Doğramacıya müraciətən demişdir:

"Sizin öz həmvətənlərinizə, türkmənlərə göstərdiyiniz qayğı təbiidir. Çünki onlar sizin həmvətənlərinizdir, bizim həmvətənlərimizdir.

...Mən sizinlə bərabər sevinirəm ki, orada türkmən diyarında məktəblər açmısınız, cocuqları öz dillərində təhsilə cəlb edirsiniz. Mən bilirəm, bu nədir. Çünki Azərbaycan xalqının da XX əsrin əvvəllərində öz dilində məktəbi yox idi. Ancaq məktəblər açıldı, indi Azərbaycan xalqı tam, başdan-başa təhsil almış millətdir".

Prezident Cənubi Azərbaycanda yaşayan milyonlarla həmvətənlərimizin problemlərini də xatırlatmağı unutmamışdır:

"Ancaq ürək ağrısı ilə deyirəm ki, dünyanın başqa bölgələrində çoxsaylı, on milyonlarla azərbaycanlılar yaşayır ki, hələ öz dilində təhsil almaq imkanına malik deyil. Gün o gün olar ki, onlar da öz dillərində məktəblər açacaq, öz dillərində kitablar oxuyacaq, təhsil alacaqlar".

Söhbətdə İraq türkmanlarının da Azərbaycan xalqının üzvi tərkib hissəsi olduğuna işarələr edilmişdir:

"Türkmən dili ilə Azərbaycan dili arasında heç bir fərq yoxdur. Mən 70-ci illərin əvvəllərində türkmənlərlə Bakıda çox görüşmüşəm. Orada məşhur yazıçı-şair var – Bəndəroğlu, tanıyırsanmı? Bakıya gəlirdi, bir neçə dəfə görüşmüşdüm. İraqdan gəlmişdi, elə bizim kimi, Azərbaycan dilində danışırdı. Deyirdim ki, sən buradan getmisən, orada yaşayırsan? Deyirdi, yox, mən türkmənəm. Bu dildə heç bir fərq yoxdur. Ona görə də sən də, mən də çox böyük sevinc və şövq ilə oxuyuruq ki, "Samovara od salmışam, küçələrə su səpmişəm, yar gələndə toz olmasın, elə gəlsin, elə getsin, aramızda söz olmasın".

Azərbaycan Prezidenti 1998-ci idə Türkiyə Cümhuriyyətinin 75 illiyi ilə əlaqədar İstanbulda "Mərmərə" qrupunun strateji və sosial araşdırmalar vaqfının keçirdiyi mərasimdəki nitqində demişdir:

"Azərbaycan yeddi ildir ki, öz dövlət müstəqilliyini elan edibdir. Mən Azərbaycan dilində danışıram. Bilirsiniz, mən sizinlə Türkiyə türkcəsində sizin kimi danışa bilərəm. Yəni Türkiyə türkcəsində danışmaq imkanım var. Amma mən bunu etmirəm. Çünki mən istəyirəm ki, siz də mənim dilimi öyrənəsiniz, mən sizin dilinizi bildiyim kimi, siz də mənim dilimi biləsiniz".

Türk xalqlarının eyni kökdən nəşət etdiyini yada salan Prezident eyni zamanda onların bir-birinə fərqli dərəcədə yaxın olan ayrı-ayrı müstəqil xalqlara bölündüklərini də söyləmişdir:

"Dünyada türkdilli millətlər çoxdur. Biz bir soydanıq. Özbəkistan da, Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Azərbaycan da, Türkiyə də və digərləri də eyni soydanıq. Hamımızın bir kökü, bir soyu vardır. Ancaq Azərbaycan dili ilə Türkiyədə olan dilin bir-birinə yaxınlığı qədər heç bir dilin yaxınlığı yoxdur".

Slavyan dilləri ilə müqayisə apararaq demişdir:

"Mən slavyan dilləri qrupunu da yaxşı bilirəm. Slavyan dilləri qrupuna bir çox dillər daxildir. Ancaq Ukrayna ilə Rusiyanı götürsək, onlarda Azərbaycan - Türkiyə qədər yaxınlıq yoxdur. Bu bizim – Türkiyə ilə Azərbaycanın bir-biri ilə nə qədər əlaqəli olmasını göstərir. Ona görə də bizə tərcüməçi lazım deyil. Mən dediyimi siz anlayırsınız, siz dediyinizi isə mən anlayıram. Mən sizi Azərbaycan dilində danışmağa öyrətmək istəyirəm. Ona görə də mənim dilimi dinləyin və hansı sözü anlamasanız, məndən soruşun. Mən onu sizə izah edərəm".

Prezident Azərbaycanla Türkiyə arasındakı münasibətlərin strateji xarakteri barədə bəhs etmişdir:

"Soruşurlar ki, Azərbaycan hansı ölkə ilə daha yaxındır, Azərbaycan ən çox hansı ölkəyə önəm, diqqət verir, Azərbaycan hansı ölkə ilə daha yaxın əlaqə qurur. Bunları sual verənlər çoxdur. Amma dünya da bilir, qoy hamı da bilsin – Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir, türk xalqı ilə Azərbaycan xalqı arasında dostluq, qardaşlıq əlaqələri böyük, zəngin tarixə malikdir. Bu gün bir daha bəyan edirəm, bu dostluğumuz əbədidir, sarsılmazdır".

1999-cu ilin noyabr ayının 1-də Ankarada Çankaya köşkündə Azərbaycan Prezidenti Heydər Əliyevə Beynəlxalq Atatürk Sülh Mükafatı təqdim olunmuşdur. Təqdimat mərasimindəki nitqində Azərbaycan Prezidenti demişdir:

"Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar. O, dünyanın bəşəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək öz xalqını daha da yüksəklərə qaldırmışdır".

XX əsrin sonunda müstəqilliyini əldə etmiş türk xalqlarının (və dövlətlərinin!) yeni tarixi şəraitdəki birliyinin onların gələcək taleyi üçün nə qədər mühüm olduğunu Prezident Azərbaycan Respublikası adından bəyan etmişdir:

"Mən türkdilli dövlətlər birliyinə daxil olan Azərbaycan Respublikası adından onu demək istəyirəm ki, bu birlik lazımdır. Biz bu birliyi yaşatmalıyıq. Biz burada çox şeylərə nail olmuşuq. Birliyin əsas məqsədi odur ki, iqtisadi, mənəvi, elmi, mədəni sahələrdə, tarixi köklərimizin, dinimizin, dilimizin bir olduğuna və başqa məsələlərə görə biz bir-birimizlə daha da yaxınlaşaq, qovuşaq. Bu, təbiidir. Ancaq buna kənardan başqa cür baxırlar. Ona görə bu birlik yaşamalıdır. O öz bəhrələrini, nəticələrini verəcəkdir. Amma onu yaşadan, bunu təmin edən hörmətli Süleyman Dəmirəldir".

Dünya miqyasında təcrübəli dövlət xadimi demişdir:

"Mən həyatımda çox mükafatlar almışam... Keçmişdə gördüyüm işlərə görə mən Sovetlər Birliyi kimi fövqəldövlətin ən yüksək mükafatlarını, nişanlarını almışam. Mən bir çox digər ölkələrin də mükafatlarını, nişanlarını almışam. Ancaq Türkiyə Cümhuriyyətinin mükafatını, Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq və xüsusən Sülh adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm ki, bu mükafat mənim indiyə qədər aldığım mükafatların hamısından yüksək, qiymətlidir".

Atatürkün dövlət quruculuğu siyasətinin təfərrüatlarını yaxşı bilən (və həmişə yüksək qiymətləndirən) Heydər Əliyev həmin nitqində onun türk dünyası ilə bağlı ideyaları haqqında da bəhs etmişdir:

"Mustafa Kamal Atatürk təkcə Türkiyə üçün yox, bütün dünya türkləri üçün, türk dünyası üçün də çox düşünmüşdür.

Onun bu barədə çox məşhur kəlamları, sözləri var. O, 30-cu illərdə söyləyirdi ki, Azərbaycanda və Orta Asiyada yaşayan türklər indi çətin problemlər içərisindədirlər. Amma zaman gələcəkdir ki, onlar bu əsarətdən çıxacaqlar... O hələ o vaxt görürdü ki, Azərbaycan və türkdilli digər xalqlar – Orta Asiya xalqları daim əsarətdə qalmayacaqlar, öz azadlıqlarına nail olacaqlar".

Əlbəttə, burada söhbət Atatürkün ilk növbədə o məşhur kəlamından gedir ki, həmin kəlamda siyasi müstəqillik üçün əlverişli şərait yetişənə qədər türk xalqları arasında mövcud olan mənəvi-mədəni körpülərin qorunması tövsiyə edilir:

"Bu gün Sovet Rusiyası dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir... Dövlət olaraq bu dostluğa ehtiyacımız var. Fəqət sabah nə olacağını kimsə deyə bilməz... Bizim bu dostumuzun idarəsində dili bir, inancı bir, özü bir qardaşlarımız vardır. Onlara arxa durmağa hazır olmalıyıq... Millətlər buna necə hazırlanırlar? Mənəvi körpüləri sağlam tutaraq! Dil bir körpüdür, inanc bir körpüdür, tarix bir körpüdür!.. Onların bizə yaxınlaşmağını gözləməyin, bizim onlara yaxınlaşmağımız gərəkdir".

1996-cı il sentyabrın 16-da Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlir. Bu səfərə, keçirilən ikitərəfli danışıqlara, imzalanan sənədlərə xüsusi önəm verən Azərbaycan Prezidenti "Gülüstan" sarayında keçirilmiş

ziyafətdəki nitqində göstərir ki, “xalqlarımızın dostluğunun tarixi kökləri uzaq keçmişə gedib çıxır və biz əcdadlarımızın, qazax və Azərbaycan xalqlarının görkəmli insanlarından irs qalmış hər şeyi yüksək qiymətləndiririk.

...Yeri gəlmişkən deyim ki, Abayın, Cambulun əsərlərinin bir çoxu Azərbaycan dilinə tərcümə olunubdur və oxucularımız onları yaxşı tanıyırlar. Xalq akını Cambul Azərbaycana da şeirlər, əsərlər həsr edibdir.

...Biz tariximizi, keçmişimizi xatırlayarkən eyni dərəcədə həm qazax, həm də Azərbaycan xalqlarına məxsus olan “Dədə Qorqud” dastanı haqqında, “Koroğlu” dastanı barədə, xalqlarımızın tarixinin digər səhifələri haqqında iftixarla danışırıq. Tariximizin, kökümüzün, dilimizin, mənəvi və əxlaqi dəyərlərimizin eyniliyi bizi həmişə yaxınlaşdırmış, doğmalaşdırmış, birləşdirmişdir”.

1997-ci ilin 11 iyununda Azərbaycan Prezidentinə Əl-Fərabi adına Qazax Milli Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim edilərkən o, fəxrlə söyləmişdi ki, “xalqlarımız çoxəsrlik dostluq, qarşılıqlı fəaliyyət, əməkdaşlıq tarixinə malikdirlər. Sizin universitet Şərqin böyük mütəfəkkiri Əl-Fərabinin adını daşıyır. Əl-Fərabi eyni dərəcədə həm qazax xalqına, həm də Azərbaycan xalqına və bütün türk xalqlarına məxsusdur. Məhz bu ad və bir çox digər adlar tarixən bunun rəmzi olmuşdur ki, biz eyni köklərə mənsubuq, taleyimiz birdir, tariximiz birdir, dilimiz birdir, dinimiz birdir, adət və ənənələrimiz, mənəvi və əxlaqi-etik dəyərlərimiz də birdir, eynidir, oxşardır”.

1996-cı ilin may ayının 27-də Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov ilk dəfə Azərbaycana rəsmi səfərə gəlmişdir. Həmin gün Prezident sarayında birgə mətbuat konfransında gələcək mədəni əlaqələr barədə verilən suala Azərbaycan Prezidenti belə cavab vermişdir:

“Özbək və Azərbaycan xalqları arasında mədəni əlaqələrin qədim tarixi var. Xalqlarımızın mədəni, ədəbi əlaqələrindən danışarkən çoxlu misallar və adlar çəkmək olar. Lakin bizim əsrimizdən, son onilliklərdən söhbət gedirsə, deyə bilərik ki, biz Azərbaycanda özbək mədəniyyəti günlərini uğurla keçirmişik. O zaman ongünlük ərzində özbək mədəniyyətinin bütün məşhur nümayəndələri Azərbaycanda idilər... Özbəkistanda Azərbaycan mədəniyyəti günləri də eynilə bu cür keçmişdir... Şübhə etməmək olar ki, indi, Özbəkistan Prezidentinin buraya gəlişindən, sənədlərin imzalanmasından sonra mədəni əlaqələrimiz genişlənəcəkdir”.

Özbəkistan Prezidenti isə demişdir:

“Heydər Əliyev mədəniyyət barədə çox tutarlı danışdı və mən deyilənlərə elə bir şey əlavə edə bilmərəm. Lakin Nizami Gəncəvi, Füzuli kimi böyük azərbaycanlıların adlarını çəkmək istərdim, onlar, bəlkə də, Özbəkistanda sizdə olduğundan daha məşhurdurlar... Sonrakı dövrlərdə yaşamış müəlliflər, məsələn, Səməd Vurğun da çox məşhurdur. Mən bu siyahını artıra bilərdim. Demək istəyirəm ki, özbəklər sizin yazıçıları və şairləri özbək dilində oxuyurlar. Bu fakt isə çox şey deyir. Rus dilində oxumurlar. Füzulini rus dilində oxumaq mümkün deyil. Füzulinin rus dilinə tərcümə edilmiş şeirlərinə necə mahnı bəstələmək olar, təsəvvür etmirəm. Axı onun qəzəllərini

yalnız milli, dərindən bildiyin dildə oxumaq mümkündür: əks halda başlıca gözəlliyi, mənası itir".

Natiq klassiklərdən müasirlərə keçərək əlavə etmişdir:

"Müasir ədiblərdən, məsələn, milliyyətcə azərbaycanlı olan yazıçımız Şeyxzadədən danışsam, o, Özbəkistanın ən nüfuzlu yazıçılarından biridir. Doğrudur, indi o, həyatdan getmişdir, lakin bu insan Azərbaycanın Özbəkistan tarixinə əbədi daxil olması üçün çox böyük töhfə vermişdir. O, Özbəkistanın tarixini elə dərindən bilirdi ki, Uluqbəyin, Teymurilərin həyatı haqqında klassik, tarixi əsərlər yazmışdır. Şeyxzadə azərbaycanlı olsa da, artıq bu gün özbək ədəbiyyatının klassiki sayılır".

Özbəkistan dövlətinin başçısı Azərbaycan – Özbəkistan ədəbi-mədəni əlaqələrinin dərin köklərindən söhbət açaraq demişdir:

"Sizin dərin lirik, sırf milli musiqinizi biz çox gözəl duyuruq. Ən ucqar qışlaqda yaşayan hər hansı özbək Azərbaycan musiqisini məmnuniyyətlə dinləyir. Ona görə də biz günahkarıq ki, qəlbləri sevindirən və ilhama gətirən, ruhu sakitləşdirən, harmoniya yaradan və eyni kökdən olduğumuzu xəbər verən bu xəzinədən müəyyən bir müddət uzaqlaşmışıq. Əgər eyni kökdən olmasaydıq, musiqini və klassik şeiri başa düşə bilməzdik".

Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun şərəfinə verilmiş rəsmi ziyafətdə Azərbaycan Prezidenti çıxış edərək demişdir:

"Bir daha təkrar edirəm, tarixi köklərimiz bizi birləşdirmişdir və birləşdirir. Bu gün biz dünya sivilizasiyasına çox sanballı töhfə vermiş olan Xarəzmi, Fərabi, Biruni, İbn Sina, Uluq bəy kimi Şərqin, Özbəkistanın görkəmli mütəfəkkirlərinin, filosoflarının, alim və şairlərinin adlarını dərin ehtiram hissi ilə çəkirik. Bu gün biz özbək klassik ədəbiyyatının banisi Əlişir Nəvainin, Özbəkistanın bir çox digər alimlərinin, mütəfəkkirlərinin, filosof və şairlərinin adlarını dərin ehtiram hissi ilə xatırlayırıq".

Prezident Azərbaycan və özbək ədəbiyyatı klassiklərinin əsərlərinin ideya-məzmunca bir-biri ilə sıx bağlılığından söhbət açmışdır:

"Bu gün biz böyük sevinc hissi ilə xatırlayırıq ki, tarixi köklərimiz Özbəkistan və Azərbaycanın mütəfəkkirləri, şairləri, alimləri arasında çox sıx dostluq telləri üçün əsas olmuşdur... Nizami Gəncəvi kimi Əlişir Nəvai də "Xəmsə" və digər diqqətəlayiq əsərlər yaratmışdır. Bu əsərlərdə o, Nizami yaradıcılığının fikir və duyğularını əks etdirmişdir. Əlişir Nəvai Nizami Gəncəvini şairlər şairi, Gəncə şairlərinin şahı adlandırırdı. Öz növbəsində biz Əlişir Nəvainin əsərlərinin Füzuli yaradıcılığına, habelə digər özbək şairlərinin yaradıcılığına böyük təsir göstərdiyini görürük".

Və bu əlaqələr müasir dövrə qədər davam etmişdir:

"Qafur Qulamla Səməd Vurğunun dostluğu özbək və Azərbaycan xalqları arasında dostluğun çox parlaq səhifəsidir.

Yaxşı məlumdur ki, Azərbaycan musiqisi klassiklərinin əsərləri Özbəkistanda böyük məhəbbətlə ifa olunmuşdur və ifa edilir. Məsələn, məşhur "Arşın mal alan"

operettası hələ çox-çox illər qabaq, müharibədən əvvəlki illərdə Özbəkistanda da Azərbaycandakı kimi böyük müvəffəqiyyətlə göstərilmişdir. Azərbaycanın şairləri və yazıçıları özbək ədəbiyyat klassiklərinin, demək olar, bütün əsərlərini ana dilinə tərcümə etmişlər. Bu əsərlər kütləvi tirajla nəşr olunmuşdur".

Şərəf Rəşidovla Mirzə İbrahimovun yaradıcılıq əməkdaşlığı özbək - Azərbaycan ədəbi əlaqələri tarixinin parlaq səhifələridir:

"Çox diqqətəlayiq bir fakt gətirmək istəyirəm. Azərbaycan yazıçısı Mirzə İbrahimov və başqaları rəhmətlik Şərəf Rəşidovun romanlarını tərcümə etmişdilər. Bu romanlar 70-ci illərdə Azərbaycanda kütləvi tirajla buraxılmışdır. Azərbaycan ədəbiyyatı və incəsənətinin nümayəndələri Özbəkistanda müvəffəqiyyətlə çalışmışlar".

Azərbaycan Prezidenti əlavə etmişdir ki, "bu barədə dostumuz İslam Kərimov da danışdı. Mən də iftixar hissi ilə demək istəyirəm ki, soydaşımız, azərbaycanlı Maqsud Şeyxzadə özbək ədəbiyyatının klassiki olmuşdur, əsərlərini özbək dilində yazırdı. Bir görün o, özbək xalqına nə kimi əsərlər qoyub getmişdir! Bunlar həm özbək xalqı üçün, həm də Azərbaycan xalqı üçün iftixardır".

Şərəf Rəşidovun əsəri əsasında görkəmli Azərbaycan bəstəkarının balet yaratması da mühüm hadisə idi:

"70-ci illərin axırlarında mühüm hadisə baş verdi. İstedadlı Azərbaycan bəstəkarı Arif Məlikov mərhum Şərəf Rəşidovla birlikdə "İki qəlbin əfsanəsi" adlı gözəl balet yaratdı. Bu balet Şərəf Rəşidovun povesti əsasında yazılmışdı. Sonra isə onun özü baletə libretto yaratdı. Balet Daşkənd Opera və Balet Teatrında böyük müvəffəqiyyətlə göstərildi. Yadımdadır, Şərəf Rəşidov, Arif Məlikov buna çox sevinirdilər. Buna mən də sevinirdim, çünki bu qardaş münasibətimizi, əlaqələrimizi bir daha təsdiqləmişdi".

1997-ci ilin iyun ayının 18-də Azərbaycan Prezidenti Özbəkistan Respublikasına rəsmi səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərlə söhbətdə demişdir ki, "Azərbaycan və Özbəkistan dövlət müstəqilliklərini əldə edən anlardan, təəssüf ki, respublikamızda Özbəkistana qarşı qeyri-sağlam münasibət olmuşdur. ona görə də Özbəkistanın başçıları buna öz müvafiq münasibətlərini bildirmişlər... Biz diplomatik əlaqələrimizi yalnız 1995-ci ilin sonunda yarada bildik".

Azərbaycan Prezidentinin şərəfinə rəsmi qəbulda Heydər Əliyev Azərbaycanla Özbəkistan arasında səmimi əlaqə yaranması münasibətilə məmnunluğunu bildirərək bəyan etmişdir:

"Biz Özbəkistanla Azərbaycanın münasibətlərini Azərbaycan üçün çox vacib amil kimi qiymətləndiririk. Xalqlarımız zəngin və qədim tarixə malikdirlər. Bəşər tarixinin əsrləri ərzində özbək və Azərbaycan xalqları dünya sivilizasiyasına, Şərq sivilizasiyasına nəhəng töhfələr vermişlər".

Prezident hər iki xalqın ortaq epos yaradıcılığı ənənələrindən bəhs etmişdir:

"Biz ümumi köklərə bağlıyıq, eyni tarixi köklərə mənsubluq və xalqlarımızın dil birliyi, mənəvi, əxlaqi, mədəni dəyərlərinin birliyi xalqlarımızı həmişə birləşdirmiş və dostluq şəraiti, qarşılıqlı yardım şəraiti yaratmışdır. Biz "Dədə Qorqud", "Alpamış",

"Koroğlu" dastanlarından iftixar hissi ilə danışırıq. Onlar həm özbək xalqı üçün, həm də Azərbaycan xalqı üçün eyni dərəcədə dəyərlidir. Nizami Gəncəvi də, Əlişir Nəvai də bizim üçün doğmadır".

Söhbətdə dahi Füzulinin adı xüsusi ehtiramla çəkilmişdir:

"İslam Abduqəniyeviç belə deməkdə, həqiqətən, haqlıdır ki, Füzuli bizim ümumi dəyərimiz, ümumi sərvətimizdir. Buna görə, təsadüfi deyil ki, ötən il Məhəmməd Füzulinin 500 illiyi Özbəkistanda da, Azərbaycanda da, digər türkdilli ölkələrdə də təntənə ilə qeyd edildi. Bu yubiley YUNESKO çərçivəsində beynəlxalq miqyasda qeyd olundu".

Bu cür söhbətlərdə Əmir Teymurun adının xatırlanması, əlbəttə, tamamilə təbiidir:

"Yadımdadır, tələbəlik illərində biz qədim memarlıq tarixini öyrənirdik və bu dərslikdə Özbəkistanın, Səmərqəndin memarlıq abidələri kompleksinə, o cümlədən Registan və Əmiri Gur komplekslərinə çox mühüm yer verilirdi. Tariximizdə xalqımızın dühası ilə çox belə görkəmli əsərlər yaradılmışdır. Bu da Özbəkistanın və Azərbaycanın dövlət müstəqilliyi şəraitində yeni münasibətlərimizin əsasıdır".

Azərbaycan Prezidenti demişdir:

"Biz bu gün Əlişir Nəvai adına Opera və Balet Teatrında olduq. Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun musiqi əsəri üzrə Özbəkistan Opera və Balet Teatrının kollektivi tərəfindən tamaşaya qoyulmuş baletə baxdıq. İslam Abduqəniyeviç Maqsud Şexzadəni xatırladı. O, həqiqətən, görkəmli insan, Özbəkistanda özünə vətən tapmış və özündən sonra çox böyük irs qoyub getmiş azərbaycanlıdır. Bizim mədəniyyət, elm xadimlərimizin, müasir tariximizin xadimlərinin dostluğuna dair başqa faktlar da çoxdur və bu gün tamaşa etdiyimiz balet də bunu bir daha təsdiq edir".

Prezident sözünü xalq şairi Süleyman Rüstəmin "Özbək qardaşıma" şeirindən bir parça ilə tamamlamışdır:

Candan əziz torpağını, daşını
Anam kimi, balam kimi sevirəm.
Düşmənlərin qarşısında əyilməyən başımı
Qardaş kimi qarşınızda əyirəm.

Heydər Əliyev ona Mirzə Uluqbəy adına Daşkənd Dövlət Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasimində çıxış edərkən Azərbaycanın və Özbəkistanın mədəni-tarixi keçmişinə nəzər salmış, Mirzə Uluqbəylə Nəsrəddin Tusini, Nizami Gəncəvi ilə Əlişir Nəvaini birgə xatırlatmaqla hər iki xalqın nə qədər böyük şəxsiyyətlər yetirməyə qadir olduğunu göstərmiş və bu qüdrətin ümumtürk köklərindən, ortaq mənəvi dəyərlərdən gəldiyinə diqqət çəkdikdən sonra əminliklə demişdir ki, "belə zəngin keçmişi olan özbək xalqı da, Azərbaycan xalqı da öz tarixi

ilə fəxr etmək hüququna malikdir. Özbək xalqının da, Azərbaycan xalqının da müasir mədəniyyəti, müasir elmi məhz bu tarixi keçmiş əsasında, bu elmi, mənəvi baza əsasında meydana gəlmişdir... Bu da bizə əsas verir deyək ki, indi də, yeni şəraitdə, dövlət müstəqilliyi şəraitində biz öz həyatımızı istədiyimiz kimi, milli ənənələrimiz, mənəvi dəyərlərimiz əsasında, görkəmli əcdadlarımızdan qalmış böyük elmi, mənəvi irs əsasında qura bilərik. Odur ki tərəqqipərvər xalqlar, mütərəqqi ölkələr ilə birlikdə, çiyin-çiyinə irəliləyə bilərik".

Heydər Əliyev Daşkənd Dövlət Universitetindəki çıxışında türk xalqlarının keçmişi ilə gələcəyi arasındakı qırılmaz mənəvi bağlılığı Azərbaycanla Özbəkistanın nümunəsində olduqca obrazlı bir şəkildə ifadə etmişdi:

"Keçmişdə nə olmuşdursa, şübhəsiz, dəyərlidir. Məsələn, mən belə hesab edirəm ki, bizlərdən hər biri öz tarixinə, öz keçmişinə, öz köklərinə böyük ehtiramla yanaşmalıdır, çünki, təkrar edirəm, bu, yüzdən artıq yaşı olan nəhəng bir palıd, Özbəkistanda, Daşkənddə olan nəhəng palıdlar kimidir. Söz düşmüşkən, dünəndən bəri yaşadığım yerdə mən bu palıd ağaclarını görmüşəm – qədim və qəvi ağaclardır. Budur bizim tariximiz, Özbəkistanın və Azərbaycanın tarixi. Budur bizim zəngin keçmişimiz – həmin palıd ağacı özbək və Azərbaycan xalqlarının səadəti və firavanlığı naminə qol-budaq atmış və bundan sonra da atacaqdır".

Azərbaycan Prezidenti Bişkekdə "Manas" dastanının 1000 illiyinə həsr olunmuş təntənəli yığıncaqda (28 avqust 1995-ci il) iştirak edərkən "Manas" haqqında demişdir ki, "bu eposun 1000 illik yubileyi qırğız xalqının böyük tarixini dünyaya bir daha nümayiş etdirir. Qardaş qırğız xalqı "Manas" dastanının qoyduğu yolla gedir. Min il, əsrlərdən-əsrlərə böyük yol keçmiş "Manas"ın dahi fikirləri, dahi sözləri bu yolu daim işıqlandırmışdır. "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir". Və əlavə etmişdir:

"Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir".

Dillərimizin kökləri eyni olsa da, bu gün bir-birindən xeyli fərqləndiyini söyləyən Prezident nitqini rusca davam etdirməli olmuşdur:

"Manas"ın dili bizim hamımızın dilidir. Biz bir kökdən, bir dildən olan xalqlarıq. Ancaq əsrlərdən-əsrlərə dilimizdə müəyyən fərqlər yaranmışdır. Bir-birimizi qəlbən duyuruq, qəlbdən anlayırıq, amma dilimizdə olan fərqlərə görə deyilən sözlərin bəzilərini anlaya bilmirik. Mən bu gün sözlərimi Azərbaycan dilində başladım. Ancaq eyni zamanda istəyirəm ki, sözlərimi siz və məni dinləyən bütün Qırğızıstan vətəndaşları, qırğızların hamısı eşidə bilsin. Ona görə bir neçə kəlmə də ürək sözlərimi rus dilində demək istəyirəm".

"Manas" eposu yalnız möhtəşəm ədəbi-mədəni abidə deyil, həm də qırğızların dövlətçilik təfəkkürünün məhsuludur:

“Manas min il bundan əvvəl qüdrətli qırğız dövləti yaratmışdı. Bu gün qırğız xalqı yenidən milli müstəqillik əldə etmişdir, onun öz milli dövləti var. “Manas” dastanının 1000 illiyini məhz belə şəraitdə Qırğızıstanda və başqa ölkələrdə geniş və təntənəli surətdə dünya miqyasında qeyd etmək mümkün olmuşdur”.

Və heç şübhəsiz, “Manas” eposu elə bir zəngin, fundamental mədəni irsdir ki, qırğız xalqını həmişə irəliyə, gələcəyə, inkişafa aparacaqdır:

“Biz dünən əzəmətli abidənin – “Manas ulu”nun açılışında böyük məmnuniyyətlə iştirak etdik. Qırğız xalqının əli ilə, zəkası və bacarığı ilə yaradılan və bundan sonra da yaradılacaq nə varsa, həqiqətən, böyük Manasın qırğız xalqına və bütün dünyaya qoyub getdiyi nəhəng irsi layiqincə əks etdirir”.

Talasda “Manas” muzeyinin təntənəli açılışı mərasimində (29 avqust 1995-ci il) Azərbaycan Prezidenti demişdir:

“Talaslılar, qırğız xalqı “Manas” dastanını, Manasın qəbrini, Manasın xatirəsini 1000 il müddətində böyük çətinliklərdən, sınaqlardan keçərək qoruyub saxlamışlar. Ancaq indi “Manas”ın 1000 illiyi qeyd edilərkən, Manasın muzeyi açılarkən biz tam əminik ki, Qırğızıstan Respublikasının müstəqil dövləti, azadlığa çıxmış Qırğızıstan xalqı bundan sonra Manası daha da ucaya qaldıracaqlar. Manasın həm dastanı, həm bu muzeyi, həm də qəbri gələcək nəsillər üçün əbədi yaşayacaqdır”.

1997-ci ilin aprel ayının 23-də Qırğızıstan Prezidenti Əsgər Akayev Azərbaycana rəsmi səfərə gəlmiş, “Gülüstan” sarayında onun şərəfinə verilmiş ziyafətdə Azərbaycan Prezidenti demişdir:

“Bu gün biz tarixi keçmişimizdən də danışdıq. Hörmətli dostumuz Əsgər Akayevə Bakı Dövlət Universitetinin Fəxri doktoru diplomu verilməsi münasibətilə universitetin kollektivi ilə görüşdə tarixi əlaqələrimizə dair çoxlu faktlar gətirildi. Biz bunu yüksək qiymətləndiririk. Bunlar həmin köklərdir ki, bizi həmişə birləşdirmişdir, bu gün də münasibətlərimizi möhkəmlətmək üçün mənbədir. Dil birliyimiz, türkdilli ölkələr, türk dövlətləri qrupuna daxil olmağımız üzərimizə çox vəzifələr qoyur. Buna görə də biz bu gün həm qırğız xalqı üçün, həm də Azərbaycan xalqı üçün bərabər əhəmiyyəti olan Manas, Nizami, Füzuli haqqında heç də təsadüfən danışmadıq”.

Və əlavə etmişdir:

“Biz Qırğızıstanda gedən prosesləri böyük diqqətlə izləyirik. Mən Manasın 1000 illiyi ilə əlaqədar 1995-ci ilin avqustunda qırğız torpağında keçirilmiş bayram şənliklərindən aldığım böyük təəssüratın təsiri altındayam. Biz Qırğızıstanın hər yerindən çox böyük miqdarda insanın axışıb gəldiyi Manasaulund Manasın 1000 illiyini bayram edərkən orada hökm sürmüş şən mühiti indiyədək xatırlayırıq. Bütün təntənəli mərasimləri və xüsusən Manasın vətəni Talasda olduğumuz anları xatırlayıram. Bunların hamısını xatırladıqda qırğız xalqı üçün, dostluğumuz üçün çox böyük sevinc hissləri keçirir və məmnunluq duyuram”.

Türkmənistan Prezidenti Saparmurad Niyazovun – Türkmənbaşının şərəfinə “Gülüstan” sarayında keçirilən (18 mart 1996-cı il) rəsmi ziyafətdə Azərbaycan

Prezidenti Türkmənistanla Azərbaycanın ədəbi-mədəni əlaqələrinin tarixindən bəhs edərkən demişdir:

"Tarix yaxşı bilir ki, bizim görkəmli səhnə ustalarımız, artistlərimizdən Ərəblinski, Hacıbababəyov, Sidqi Ruhulla əsrin hələ əvvəllərində Aşqabada qastrol səfərlərinə getmiş, orada Azərbaycan dilində də, türkmən dilində də tamaşalar vermişlər. Əsrin əvvəllərində görkəmli Azərbaycan mütəfəkkiri, yazıçısı Cəlil Məmmədquluzadə tərəfindən nəşr edilən "Molla Nəsrəddin" jurnalı Türkmənistanda geniş yayılırdı. Molla Nəsrəddin, Türkmənistanda Xoca Nəsrəddin kimi tanınmış bu şəxs həmişə eyni dərəcədə qiymətləndirilmişdir.

Təkrar edirəm, bütün bunlar çoxəsrlik dostluğumuzu, əməkdaşlığımızı səciyyələndirən yalnız ayrı-ayrı səhifələrdir".

Türk dövlətləri ilə ikitərəfli əlaqələrin inkişafına önəm verən Azərbaycan Prezidentinin dəvəti ilə Tatarıstan Prezidenti Mintimer Şaymiyev 1996-cı ilin 21noyabrında Bakıya rəsmi səfərə gəlir. Respublikalar arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş imzalandıqdan sonra keçirilən birgə mətbuat konfransında Heydər Əliyev hər iki xalqın ortaq etnik-mədəni köklərindən bəhs edir:

"Azərbaycan əsrlər boyu Tatarıstanla bağlı olmuşdur. Xalqlarımız eyni tarixi köklərə malikdir, ənənələrimiz, mənəvi dəyərlərimiz bir-birinə çox oxşayır, dilimiz eynidir. Bütün bunlar Azərbaycan və tatar xalqları arasında ötən dövrlərdə də, bu gün də sıx əlaqənin, əməkdaşlığın, dostluğun və qarşılıqlı anlaşmanın təməlidir".

Təbiidir ki, Tatarıstan Respublikası Rusiya Federasiyasının tərkib hissəsidir, lakın unutmaq olmaz ki, belə bir federasiyanın formalaşmasında Tatarıstan və ümumiyyətlə, tatarlar ruslardan az rol oynamamışlar. Və ona görə də Azərbaycan Prezidentinin Tatarıstan Prezidentini xüsusi olaraq Azərbaycana dəvət etməsi bütün Rusiya Federasiyası türklərinə zərif olduğu qədər də uzaqgörən bir məsaj idi. Yəni Rusiyanın imperialist siyasətçiləri həmişə nəzərə almalıdırlar ki, bir xalqın (və dövlətin) simasını müəyyən edən amillər içərisində ən başlıcası onun hansı etnik-mədəni köklər üzərində yüksəlməsidir. Bundan sonra iqtisadiyyatdan da, dövlət quruculuğu texnologiyalarından da, beynəlxalq münasibətlərdən də bəhs etmək olar.

Azərbaycan Prezidenti həmin mətbuat konfransındakı nitqində demişdi:

"1969-cu ildə Tatarıstanda Azərbaycan mədəniyyəti günlərinin uğurla keçməsi xatirimdədir. Tatarıstanın elm və mədəniyyət nümayəndələrinin Azərbaycanda görüşləri də müvəffəqiyyətlə keçmişdi. Yəni ictimai-siyasi quruluşa, dövlət quruluşuna baxmayaraq, xalqlarımız sıx dostluq münasibətlərini qoruyub saxlayırdılar. Bu münasibətlər bu günədək də saxlanmışdır. Üstəlik indi həmin münasibətləri inkişaf etdirmək və möhkəmləndirmək üçün imkan var".

Tatarıstan Prezideni Mintimer Şaymiyevin şərəfinə verilmiş ziyafətdə Azərbaycan Prezidenti əlavə etmişdir:

“Tatarıstan Prezidentinin Azərbaycana səfəri, imzalanmış saziş, dünən və bu gün keçirilmiş görüşlər, söhbətlər həyatımızda yeni hadisədir. Bu hadisə həm Rusiyada, həm də Azərbaycanda baş verən demokratik dəyişikliklərlə bağlıdır və xalqlarımızın daha çox ünsiyyət saxlamasına və onların əlaqələrinin möhkəmlənməsinə kömək edir”.

Azərbaycan Prezidenti 1999-cu ilin mart ayının 4-də Prezident sarayında qazax yazıçısı Oljas Süleymenovla görüşüb söhbət etmişdir. Prezident görkəmli yazıçıya müraciətən demişdir:

“Hesab edirəm ki, siz Azərbaycan xalqının da dostusunuz, mənim də dostumsunuz. Sizə böyük hörmət hissləri bəslənilir, həm yazıçı, həm də siyasi xadim kimi Azərbaycanda böyük nüfuza maliksiniz”.

1990-cı ilin yanvarında sovet qoşunları qırğın törədəndə Oljas Süleymenovun Bakıya gəlib Azərbaycan xalqının yanında olduğunu nümayiş etdirməsini xatırladan Prezident əlavə etmişdir ki, hələ neçə illər bundan əvvəl “mən sizə böyük iftixar hissi ilə baxırdım ki, xalqımızın belə gənc istedadları var; elə istedadlar ki, nəinki romanlar, pyeslər və ya digər ədəbi əsərlər yazmağa, həm də öz xalqı haqqında, onun taleyi, keçmişi, indisi və gələcəyi barədə düşünməyə qadirdirlər”.

Görkəmli şair-publisist cavabında demişdir:

“Heydər Əliyeviç, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam, yanaşıram və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan üçün, yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm. Zənnimcə, əgər onda, 1990-cı ildə Siz burada olsaydınız, həmin o Qara Yanvar olmazdı”.

Oljas Süleymenov o ağır günlərdə Bakıya qızdırma içində hansı hisslərlə gəldiyi, ilk qaçqınlar barədəki təəssüratları barədə danışdıqdan sonra bildirmişdir:

“Bu gün mən Sizinlə, Azərbaycanla bir daha görüşürəm... Bu torpağa, onun xalqına, şəxsən Sizə, Azərbaycanın görkəmli oğullarına öz məhəbbətimi bir daha ifadə etmək və doğma saydığım bu torpağa xoşbəxtlik, tarixin bizi qarşılaşdırdığı belə dəhşətli vəziyyətlərdən tezliklə çıxmağı arzulamaq istəyirəm”.

Azərbaycan Prezidenti demişdir:

“Xatırlayıram ki, siz öz əsərlərinizdə mədrliklə və cəsarətlə elə mövzular qaldırdınız ki, bunlar o vaxtlar da gərək idi, indi – qazax xalqı da, Azərbaycan xalqı da öz müstəqilliyini, azadlığını əldə etdiyi, suveren dövlət olduğu vaxtda daha yüksək qiymətləndirilir”.

M.S.Qorbaçovun 1986-cı ilin dekabrında Qazaxstana yerli kadr deyil, rus millətindən olan bir şəxsi rəhbər təyin etdiyini, Almatıda buna qarşı etiraz nümayişlərinin qalxdığını xatırladan Azərbaycan Prezidenti onu da əlavə etmişdir ki, “Qorbaçovun yeritdiyi milli siyasət məsələləri ilə əlaqədar bizim aramızda əvvəllər də ciddi fikir ayrılıqları olurdu. Yeri gəlmişkən deməliyəm ki, öz sələflərindən fərqli olaraq o, müsəlman xalqları, türk mənşəli xalqlar barəsində çox mənfi mövqe tuturdu.

Siyasi Büronun iclaslarında , – xüsusən də bu iclaslar "məhdud" dairədə keçəndə – oturmaq və olduqca xoşagəlməz söhbətləri eşitmək mənim üçün çox ağır idi".

Dahi siyasi xadim görkəmli ədəbiyyat adamını bir sıra mürəkkəb mətləblərdən agah etmişdi:

"Sonralar, 1988-ci ilin fevralında Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında münaqişə başlandı. Sözün düzü, mən hər yerdə və həmişə dəfələrlə açıq demişəm ki, günahkar o – Qorbaçovdur. "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin mümkünlüyü" barədə müraciət edən ermənilərə o vəd vermişdi. O, erməniləri arxayın salmış, onlara razılıq vermişdi, sonra da onlar baş qaldırdılar".

Bu söhbətin tarixi əhəmiyyəti ondadır ki, siyasətçi ilə yazıçı bir-birini bütün təfsilatı ilə anlamışdılar.

"Siyasi nadanlıq miyonlarla insanın faciəsinə gətirib çıxarır" deyən yazıçı-mütəfəkkir onu da söyləmişdir ki, "buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə, bəlkə də, bir dəfə verilir və onu əldən buraxmaq olmaz, ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında azad və məğrur insanlar olsunlar".

* * *

Heydər Əliyevin türk dünyasının etnokulturoloji arxitekturası barədə çox mükəmməl təsəvvürləri vardı ki, özünü bu mövzuya həsr edilmiş bütün mülahizələrində göstərir... Ulu Öndər türk dilləri kimi, türk ədəbiyyatlarının, mədəniyyətlərinin (və xalqlarının) bir kökdən yarandıqlarını qəbul etməklə yanaşı, ən geci orta əsrlərin sonu, yeni dövrün əvvəllərindən etibarən müstəqil olmağa başladıqlarını da dönə-dönə söyləmişdi.

Həmin mülahizələrin işığında bəzi mühüm məqamları nəzərdən keçirək...

Türk dünyasının sözün geniş mənasında bütövlüyünü təmin edən ən mühüm (fundamental!) cəhət onun etnoqrafik köklərinin və ya əsaslarının möhkəmliyidir ki, orta əsrlər boyu meydana çıxmış bütün diferensial keyfiyyətlərinə baxmayaraq bu gün türk xalqlarının etnik-mədəni birliyi barədə kifayət qədər inamla bəhs olunur. Müasir türkoloji araşdırmalar türk etnosunun təxminən beş min illik tarixi barədə söhbət açarkən onu da çoxsaylı faktlara istinadən təsdiq edir ki, həmin tarix Avrasiyanın geniş bir coğrafiyasında, eyni zamanda müxtəlif etnoslarla sıx qarşılıqlı əlaqədə yaşanmış, nəinki ilk orta əsrlərdən, hətta qədim dövrlərdən başlayaraq türklər bir-birindən az və ya çox dərəcədə fərqlənən dünyagörüşlərlə ardıcıl təmasda olmuşlar. Lakin belə bir həqiqət heç cür şübhə, yaxud mübahisə doğura bilməz ki, türk düşüncəsinin etnoqrafik əsasında Göy Tanrı inamı (və bu inamdan irəli gələn təfəkkür mədəniyyəti) dayanır. Məhz həmin inamın (və mədəniyyətin) verdiyi mənəvi

enerjinin təzahürüdür ki, türklər heç bir coğrafi məhdudluğa qapılmadan, heç bir etnik, yaxud siyasi sərhədlə hesablaşmadan daimi hərəkətə üstünlük vermişlər. Və bu hərəkət bir də ona görə mütamadi xarakter daşımış, qarşısındakı maneələri asanlıqla aşıb keçə bilmişdir ki, həm özü ciddi sosial-inzibati nizama tabe olmuş, həm də ayaq basdığı yerlərə müəyyən düzən, dinc yanaşı yaşamaq normalarına hörmət gətirmişdir.

Doğrudur, bu gün dünyada insanların dünyagörüşünə, həyat tərzinə əhəmiyyətli təsir göstərən dinlər sırasında tanrıçılığın adı çəkilmir, sayı iyirmi beşi ötmüş türk xalqları içərisində hər hansı birini tapmaq mümkün deyil ki, dini islam, xristian, iudaist, buddist və s. yox, məhz tanrıçı olsun, bununla belə elə bir türk də təsəvvür etmək mümkün deyil ki, onun dünyagörüşünün dərin qatlarında (iç strukturunda!) tanrıçılığın "hava"sı olmasın.

Göründüyü kimi, burada kifayət qədər böyük bir paradoks mövcuddur: hər bir türk öz-özlüyündə (fərdiliyində) nə qədər tanrıçıdırsa, ictimai münasibətlərdə (şəxsiyyətində) o qədər islamçı, xristian, iudaist və ya buddistdir. Səbəbi isə odur ki, tanrıçılıq dünyanın sosial, siyasi, mədəni dəyərlərini müəyyənləşdirən (və cəmiyyətə hakim olmaq uğrunda bir-biri ilə apardıqları münaqişədə heç bir dəyər tanımayan) dinlərin mübarizə metodlarını qəbul edə bilmədiyinə görə tədricən cəmiyyətdən fərdiyyətə doğru sıxışdırılmışdır. Ona görə də türk dünyasında düşüncə birliyi ideyaları (və hərəkatları!) həmişə fərdiyyətlə cəmiyyət arasındakı münasibətlərin konyukturları ilə hesablaşmağa məhkumdur.

Türk birliyi ideyasını XIX əsrin sonlarına doğru nə qədər sadəlövh olsa da tam səmimiyyətilə ilk dəfə İsmayıl bəy Qaspralı tarix səhnəsinə çıxarmış, məşhur "Tərcüman"ını nəşr etdirərək "dildə, fikirdə, işdə birlik" şüarını türk ziyalıları arasında yaymağa çalışmışdır. Onun ideyalarını davam etdirən Əli bəy Hüseynzadənin əsas xidməti isə onda olmuşdur ki, türkçülüyün "türkləşmək, islamlaşmaq və avropalaşmaq"dan ibarət formulunu işləyib hazırlamaqla məsələyə nəzəri miqyas vermişdir.

Lakin türk birliyi ideyasını mükəmməl bir ideologiya səviyyəsinə yüksəldən, heç şübhəsiz, Ziya Göyalpdır ki, onun "Türkçülüyün əsasları" əsəri bütün polemik tərəflərilə birlikdə bu günə qədər həmin ideologiyanın (və səviyyənin) şah əsəri olaraq qalır.

Ziya Göyalpın türkçülüyü, eləcə də türk birliyi ideyaları təşəkkülə osmanlıçılığın inkarı ilə başlamış, Türkiyə Cümhuriyyətçiliyinin ideya-siyasi (və fəlsəfi) təsdiqi ilə başa çatmışdır. Türkiyə Cümhuriyyətçiliyinin, başqa sözlə, Mustafa Kamal inqilablarının türk birliyi ideyalarının (və ideallarının!) çıxış (və istinad!) nöqtəsi kimi qəbul olunması, əlbəttə, tarixi bir zərurət idi. Lakin həmin zərurət elə başlanğıcdan ortaya çox ciddi problemlər də çıxarmışdı.

"...Türkün yalnız bir dili və bir kültürü ola bilər.

Halbuki türkün bəzi qolları Anadolu türklərindən ayrı bir dil, ayrı bir kültür yaratmağa çalışmışlar. Məsələn, quzey türklərindən bəzi gənclər bir tatar dili, tatar kültürü meydana gətirməklə məşğuldurlar... Uzaqda olduğumuz üçün qırğızların və özbəklərin necə bir yol tutacaqlarını bilmirik. Bunların da hər biri ayrı dil və ədəbiyyat, ayrı kültür meydana gətirməyə çalışsalar, Türk millətinin hüdudu daha da daralmış olar. Yakutlar ilə Altay türkləri daha uzaqda olduqları üçün onları Türkiyə türklərinin kültürü içinə almaq daha da çətin görünür".

Problem yalnız onda deyildi ki, uzaq Sibirdən Qafqazlara qədər (və ya əksinə) yayılmış türkləri (əslində, türk xalqlarını) "Türkiyə tükrlərinin kültürü içinə almaq... çətin görünür"dü, daha çox onda idi ki, böyük mütəfəkkir Türkiyədəki cümhuriyyət quruculuğu eyforiyasının təsiri altında o qədər də kiçik olmayan metodoloji yanlışlığa yol verirdi. Və həmin yanlışlığa haqq qazandırmaq üçün etdiyi cəhd də, prinsip etibarilə, uğurlu sayıla bilməzdi ki, guya "kültür yönündən birləşməsi asan olan türklər, özəlliklə oğuz türkləri, yəni türkmənlərdir. Türkiyə türkləri kimi Azərbaycan, İran və Xarəzm ölkələrinin türkmənləri də oğuz nəslinə mənsubdurlar. Deməli, türkçülükdəki yaxın ülkümüz "oğuz birliyi", yaxud "türkmən birliyi" olmalıdır".

Ziya Göyalpa türk birliyi ideyasına ilham verən türkçülük ideologiyası ona görə lazımi miqyas ala bilmədi ki, XX əsrin əvvəllərində türk xalqları arasındakı əlaqələr son dərəcədə zəif idi. Və "Türkçülüyün əsasları"nın müəllifi bütün elmi-nəzəri (sosioloji) hazırlığına rəğmən nəinki "uzaq", hətta "yaxın" türklərin o dövrdəki ictimai, siyasi və mənəvi həyatına - iddialarına və imkanlarına münasibətdə obyektiv ümumiləşdirmələr aparmaq baxımından o qədər də məlumatlı görünmür. Çox təəssüf ki, düz bir əsr keçsə də, Türkiyədə yetişmiş bir sıra elm adamlarının türk dünyasına, eləcə də türk düşüncə birliyi məsələsinə baxışları "Türkiyə mərkəziyyətçiliyi" modelindən kənara çıxmamışdır. Halbuki müasir dünyada sayı iyirmi beşi aşmış müstəqil türk xalqlarının mövcudluğunu nəzərə almadan onların hər hansı birliyi barədə az-çox məhsuldar mühakimələr yürütmək mümkün deyil.

Doğrudur, sağlam etnoqrafik köklər və ya əsaslar türk dünyasının yalnız mənəvi-mədəni deyil, ictimai-siyasi, hətta ideoloji bütövlüyünə də zəmanət verir ki, Ziya Göyalp həmin kökləri və ya əsasları olduqca müfəssəl bir şəkildə araşdırmış, dildə, estetikada, əxlaqda, hüquqda, dində, iqtisadiyyatda, siyasətdə və fəlsəfədə türkçülüyün zəngin etnoqrafik imkanlarını ortaya çıxarmışdır. Lakin burada söhbət, doğrudan da, yalnız potensial imkanlardan gedir - o imkanlardan ki, necə reallaşacağı, türk xalqlarını müasir dünyanın inkişaf sürətinə necə uyğunlaşdıracağı barədə nəinki o zaman, indinin özündə də əsaslı bir fikir söyləmək çətindir.

Ziya Göyalp da öz sələfləri kimi, prinsip etibarilə, "türkləşmək (xalqa doğru), islamlaşmaq və müasirləşmək (Qərbə doğru)" (yəni "türk millətindənəm, islam ümmətindənəm, Avropa mədəniyyətindənəm") şüarını müdafiə etməklə türkçülüyü "ülküsünün böyüklüyü baxımından üç dərəcəyə ayırırdı:

1) türkiyəçilik; 2) oğuzçuluq, yaxud türkmənçilik; 3) turançılıq".

“Türkçülüyün əsasları”nın müəllifi düşünürdü ki, “türkçülüyün uzaq ülküsü Turan adı altında birləşən oğuzları, tatarları, qırğızları, özbəkləri, yakutları dildə, ədəbiyyatda, kültürdə birləşdirməkdir. Bu ülkünün gerçəkləşməsi mümkündürmü, yoxsa mümkün deyilmi? Yaxın ülkülər üçün bu suala cavab axtarılarsa, uzaq ülkülər üçün axtarılmaz”. Və həmin düşüncələr mövqeyindən tamamilə haqlı idi ki, “yüz milyon türkün bir millət halında birləşməsi türkçülük üçün ən qüvvətli bir coşğunluq qaynağıdır. Turan ülküsü olmasaydı, türkçülük bu qədər sürətlə yayılmayacaqdı”.

XX əsrin əvvəlləri üçün səciyyəvi olan bu siyasi romantizm XX əsrin sonu, XXI əsrin əvvəllərində hər cür spekulyativ əhəmiyyətini ilk növbədə ona görə itirdi ki, türk xalqları XX əsr boyu bütün imperiya təzyiqlərinə baxmayaraq olduqca zəruri (və təbii) bir diferensiasiya prosesi yaşamaqla tarix səhnəsinə mümkün mükəmməl keyfiyyətləri ilə çıxdılar. Hal-hazırda bir sıra türk xalqlarının iqtisadi, siyasi və mədəni problemləri ən mötəbər beynəlxalq təşkilatlarda həll olunur. yəni “dildə, fikirdə və işdə” bir vaxtlar İsmayıl bəy Qaspralı, Əli bəy Hüseynzadə, hətta Ziya Göyalp kimi romantik türk mütəfəkkirlərin xəyalına belə gəlməyəcək qədər diferensial xüsusiyyətlər nümayiş etdirən türk xalqları barədə artıq vahid bir millət olaraq baxıb nəinki müxtəlif nəzəriyyələr yaratmaq, hətta az-çox əsaslı mülahizələr yürütmək də ağılasığmazdır. Odur ki, istər dil, istər düşüncə-təfəkkür, istərsə də iş-əməl məsələsi olsun, türklərin birliyi və ya türk məkanında inteqrasiya mövzusunda söhbət açarkən “kafi əsas” kimi onların eramızdan əvvəlki minilliklərdəki “amorf” bütövlüyündən yox, elə diferensial mövcudluqlarından başlamaq lazımdır ki, müasir xarakterlərini bu və ya digər dərəcədə dəqiq ifadə edə bilsin.

Türk dünyasında düşüncə birliyi üçün mükəmməl etnoqrafik dayaqların olması müasir inteqrasiya üçün hələ hər şey demək deyil. Odur ki həmin dayaqlara həddindən artıq istinad etmək bu günü keçmişlə izah etməyə aparıb çıxaracaq çox yanlış bir yola düşmək deməkdir. İlk növbədə bu günün özü ciddi metodoloji prinsiplər əsasında (və təbii ki, ümumdünya konteksində) təhlil olunmalı, hər bir türk xalqının özünütəsdiq maraqları (və proqramları) göz önünə gətirilməlidir. Əgər biz düşünsək ki, Türkiyə, yaxud Azərbaycan türklərinin, yaxud da özbəklərin, qazaxların, türkmənlərin, qırğızların, tatarların, başqırdların, çuvaşların, yakutların... bütöv bir millət səviyyəsində təzahür edən özünəməxsus iqtisadi, siyasi, mədəni istəkləri yalnız türk birliyinə mane olan “yanılmalar”dan ibarətdir, həmin birliyi təmin edəcək texnologiyalar işləyib hazırlamaqda nəinki çətinlik çəkməli, eyni zamanda, daha əsası, mahiyyətdən yayınmalı olacağıq.

Türk birliyi, bir tərəfdən, ümumi (etnoqrafik) köklərə istinad edirsə, digər tərəfdən, onun (həmin birliyin) keyfiyyətini ayrı-ayrı türk xalqlarının artıq qaçılmaz olan xüsusi maraqlarının uzlaşdırılması imkanları müəyyənləşdirir. Ən müxtəlif sahələrdə...

## Üçüncü hissə

# İNCƏSƏNƏT

**1. Musiqi**

**2. Təsviri incəsənət**

**3. Teatr, kino, televiziya**

# I FƏSİL

## MUSİQİ

Heydər Əliyevin ədəbiyyat kimi incəsənətə də marağı, bir tərəfdən, şəxsiyyət olaraq zəngin mənəvi aləmi ilə bağlıdırsa, digər tərəfdən, xalqın lideri, dövlətin başçısı kimi ölkədə aparılan mədəniyyət siyasətinə səriştəli, peşəkar rəhbərlikdən irəli gəlmişdir. 1971-ci ilin 29 oktyabrında keçirilən Azərbaycan KP MK plenumundakı məruzəsində Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev demişdir:

“İncəsənət zəhmətkeşlərin tərbiyəsində, insanın mənəvi aləminin zənginləşməsində, şəxsiyyətin ahəngdar inkişafında mühüm vasitədir. Azərbaycan incəsənətinin ən yaxşı əsərləri respublikanın hüdudlarından uzaqlarda da böyük şöhrət qazanmışdır”.

Azərbaycan incəsənətinin ən müxtəlif sahələrində əldə olunmuş nailiyyətlər, mövcud problemlər və qarşıda duran vəzifələr həmin məruzədə geniş təhlil olunmuşdur. Musiqidən bəhs edən respublika rəhbəri demişdir ki, bəstəkarlarımız “bir sıra qiymətli əsərlər yaratmış, musiqi obrazlarında təcəssüm etdirmişlər. Simfonik musiqinin və kamera musiqisinin inkişafında müvəffəqiyyətlərimiz vardır. Azərbaycan baleti maraqlı əsərlərlə zənginləşmişdir.

Lakin musiqi həyatımızda yaranmış vəziyyət ümumən narahatlıq doğurur. Hər şeydən əvvəl ona görə ki, çoxdan bəri yeni, yaxşı opera əsərləri yaradılmır. Mahnı yardıcılığı da geri qalır. Bəstəkarlarımızın son illərdə yaratdıqları bir çox mahnılarda vətəndaşlıq motivləri, əsl coşqunluq yoxdur”.

Əlaqədar təşkilatların məsələyə ciddi, məsuliyyətlə yanaşmasını, tələbkarlığın artırılmasını, bayağılığa, zövqsüzlüyə, xalturaya qarşı barışmaz mübarizə aparılmasını zəruri sayan respublika rəhbəri əlavə etmişdir:

“Bəstəkarlarımız xalqın arzu və əməlləri ilə yaşamalı, forması maraqlı və ideya-məzmunu dərin olan musiqi əsərləri yaratmalıdırlar.

Musiqi tənqidimiz onlara daha fəal surətdə, başlıcası isə, prinsipial mövqelərdən kömək etməlidir. Bəstəkarlarımızın bir qisminin mütəmadiyyən, həm də bəzi hallarda əsassız yerə təriflənməsi, başqa bir qisminin isə nahaqdan tənqid edilməsi,

yaxud onların haqqında heç bir şey deyilməməsi işimizə nəinki fayda vermir, hətta ziyan vurur”.

* * *

Azərbaycan incəsənətində, ümumən mədəniyyətində musiqinin yeri xüsusidir. Kökü çox-çox qədim dövrlərə gedib çıxan xalq (folklor) musiqisi ilə yanaşı, Azərbaycanın zəngin professional musiqisi də mövcuddur ki, bunların hər ikisinin, ancaq ilk növbədə professional musiqinin inkişafı Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.

1975-ci ilin noyabr ayının 20-də Bakı şəhərində Üzeyir Hacıbəyovun 1915-ci ildən 1942-ci ilə qədər yaşadığı ünvanda onun ev-muzeyinin açılışı olmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə keçirilən açılış mərasimindən verilən rəsmi məlumatda deyilir ki, “Azərbaycan musiqisinin tacında ən parlaq gövhər olan ölməz “Koroğlu” operasını bəstəkar burada yaratmışdır. Qara royal sanki indi də bəstəkarın yolunu gözləyir... “Koroğlu” operasının baş rolunun ilk və misilisiz ifaçısı olan Bülbül buraya bəstəkarın görüşünə gələr, bəstəkar ilə müğənni xalq qəhrəmanının obrazı haqqında uzun-uzadı söhbətləşər, hər bir musiqi parçasını müzakirə edərdilər. Böyük musiqiçilərin hər ikisi əbədiyyətə qovuşmuşdur, onların əlbir yaradıcılığının bəhrəsi olan “Koroğlu” operası yaşayır. Koroğlunun ilhamlı ariyası maqnitafon yazısında səslənir, artist bu ariyada bəstəkarın yaradıcılıq niyyətini çox gözəl təcəssüm etdirmişdir.

..Evin havasında da musiqi duyulur. Bu əzəmətli və gözəl, ürəkaçan və zərif musiqi Üzeyir Hacıbəyovla görüşə gələn hər kəsin qəlbini əsrlər boyu yaşayacaq böyük istedada minnətdarlıq və iftixar hissi ilə doldurur”.

Heydər Əliyev dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun anadan olmasının 110 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsindəki (Respublika sarayı, 18 sentyabr 1995-ci il) nitqində onu belə səciyyələndirir:

“Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur”.

Üzeyir Hacıbəyovun tərcümeyi-halı hər nə qədər zəngin, fəaliyyəti çoxşaxəlidirsə, adı çəkiləndə yada ilk növbədə onun bəstəkarlığı düşür. Və Azərbaycan professional musiqisinin banisi olan bu böyük şəxsiyyət həmin sahədə həm praktik, həm də nəzəriyyəçi kimi əvəzsiz xidmətlər göstərmişdir:

“Azərbaycan opera sənətinin tarixi “Leyli və Məcnun” operası ilə başlayır. Azərbaycan xalqının böyük və zəngin teatr tarixi var... Azərbaycan opera sənətinin banisi isə Üzeyir Hacıbəyovdur. Onun yaradıcılığı sayəsində, əsasında və onun tükənməz fəaliyyəti nəticəsində Azərbaycanda böyük opera sənəti, opera və balet

teatrı inkişaf etmiş və bu gün bizim dünya şöhrətli opera sənətimiz var, opera və balet teatrımız var".

Üzeyir bəyi ictimai-siyasi mübarizələr meydanına, görünür, onun milli maarifçi düşüncələri gətirmişdi. Və xalqını inkişaf etmiş dünyanın tərkib hissəsi kimi görmək istəyən bu böyük şəxsiyyətin hansı ictimai-siyasi quruluşun hökm sürməsindən asılı olmayaraq xalqa xidmətdən başqa amalı yox idi. Bu isə məhz musiqiyə köklənmişdi:

"Üzeyir Hacıbəyov ardıcıl olaraq gözəl, dəyərli musiqi əsərlərini yazmış və xüsusən "Arşın mal alan", "O olmasın, bu olsun" kimi böyük əsərləri – operettaları ilə məşhurlaşmış, bütün sonrakı fəaliyyətini Azərbaycan musiqisinin, mədəniyyətinin inkişafına həsr etmişdir".

Ağcabədidə doğulsa da yaradıcılığını, gəncliyini "Azərbaycanın konservatoriyası" Şuşada keçirən Üzeyirin Qori Müəllimlər Seminariyasında təhsil aldığı illər (1899-1904) gələcəyin böyük şəxsiyyətinin dünyagörüşünün formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Bir də ona görə ki, bu illər Azərbaycanın da daxil olduğu Rusiya və İranda əsaslı inqilabi dəyişikliklər dövrü idi.

Prezident nitqində qeyd etmişdir ki, Üzeyir Hacıbəyov "Azərbaycanın ilk demokratik respublikasının yaşaması, inkişaf etməsi üçün çalışmış, fəaliyyət göstərmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün cəhdlər göstərmişdir. Paris – Versal konfransına gedən Azərbaycan nümayəndəsinə onun verdiyi tövsiyələr və göstərişlər – Üzeyir Hacıbəyovun kiçik qardaşı Ceyhun Hacıbəyov da nümayəndə heyətinin tərkibində idi – bunlara canlı sübutdur. Üzeyir Hacıbəyov ilk müstəqil Azərbaycan dövlətinin "Azərbaycan" qəzetinin redaktoru olmuş və bu qəzetin fəaliyyətində həm öz məqalələri ilə, həm də rəhbərliyi ilə çox böyük xidmətlər göstərmişdir".

Üzeyir bəy tezliklə Bakıya gəlib mətbuat aləminə atılır. Və "Tərəqqi", "Həqiqət", "İrşad" kimi qəzetlərdə çalışır. İstedadlı publisist 1905-ci il inqilabını nəzərdə tutaraq yazırdı: "Rusiyadakı hadisələr bizə çox böyük təsir etdi, gözlərimizi açdı və bizi oyatdı".

Azərbaycan Prezidenti demişdir:

"Üzeyir Hacıbəyov Azərbaycan ictimai həyatının daim mərkəzində olmuşdur. Xalqı savadsızlıqdan xilas etmək, xalqın mədəni səviyyəsini qaldırmaq, mədəniyyəti inkişaf etdirmək üçün o çox görkəmli addımlar atmış, böyük tədbirlər görmüşdür. Azərbaycanda musiqi məktəbinin, ali musiqi təhsilinin yaranması, incəsənətin geniş inkişaf etməsi, mədəniyyətin inkişaf etməsi Üzeyir Hacıbəyovun fəaliyyəti ilə bağlıdır".

Əlbəttə, XX əsrin əvvəllərində yaşamış, demək olar ki, bütün Azərbaycan ziyalıları kimi Üzeyir bəyin də ictimai-siyasi hadisələrin mərkəzində olmağa can atması, ilk növbədə, vətənpərvərlikdən, milli təəssübkeşlikdən, xalqı düşdüyü vəziyyətdən xilas etmək istəyindən irəli gəlirdi (təsadüfi deyildi ki, həmin illərdə Üzeyir bəy "Vəziyyətimiz haqqında" başlığı altında silsilə məqalələr qələmə almışdı), ancaq

bu ziyalıların bir çoxunun həyatda, yaradıcılıqda özünəməxsus missiyası da var idi. Üzeyir bəy dünyaya Azərbaycan musiqisini yüksəltmək üçün gəlmişdi:

"Azərbaycanda Üzeyir Hacıbəyov məktəbinin təsiri altında bəstəkarlar ordusu yaranmışdır. Deyə bilərəm ki, Üzeyir Hacıbəyov Azərbaycanın tarixində ilk bəstəkardır. Azərbaycanın ondan sonrakı bəstəkarlarının hamısı bilavasitə onun tələbəsi olmuş, sonrakı nəsillər onun əsərlərinin, yaradıcılığının təsiri altında təhsil almış, böyümüş, bəstəkarlıq sənətini qavramış və yeni-yeni musiqi əsərləri yaratmışlar".

Heydər Əliyev öz nitqində çox mühüm bir məsələyə də toxunmuşdu ki, o, Üzeyir bəyin bədii yaradıcılığının yalnız estetik deyil, həm də ideya aspektinin son dərəcə mükəmməl olması, aktuallığı idi:

"Üzeyir Hacıbəyovun əsərlərində təkcə musiqi yox, onun ictimai-siyasi və mənəvi məzmunu da böyük əhəmiyyət kəsb edir. Bəstəkarın əsərlərinin hamısında insan azadlığı, insanın paklığı, səmimiyyəti, insanların bir-birinə münasibəti tərənnüm edilibdir. Bu, "Leyli və Məcnun"da da belədir. "Arşın mal alan"da da belədir. "Məşədi İbad"da da belədir və nəhayət, Üzeyir Hacıbəyovun şah əsəri olan "Koroğlu"da da və başqa əsərlərində də belədir".

"Leyli və Məcnun" (1907), "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Leyla və Harun" (1915) dan – uzun fasilədən sonra "Koroğlu" (1937) Üzeyir bəyin opera yaradıcılığında, ümumən Azərbaycan mədəniyyətində mühüm irəliləyiş hesab olunur:

"Xalqımızın böyük dastanı olan "Koroğlu" dastanının Üzeyir Hacıbəyov tərəfindən istifadə olunması Azərbaycan tarixində, mədəniyyətində, bədii həyatında çox böyük və əvəzsiz bir hadisədir.

... "Koroğlu" dastanını nəinki xalqımıza, bütün dünya ictimaiyyətinə daha da təsirli şəkildə çatdırmaq, tanıtdırmaq üçün Üzeyir Hacıbəyovun "Koroğlu" operasını yaratması, yenə də deyirəm, mədəniyyətimizdə böyük inqilabi hadisədir".

Ümummilli Lider nitqində "Koroğlu" operasının beynəlxalq aləmdə qazandığı şöhrət barədə ayrıca bəhs etmişdir:

"Üzeyir Hacıbəyov 1937-ci ildə dünyaya "Koroğlu" operasını təqdim etmişdir. Yenə də deyirəm, bu, xalqımızın tarixində, mədəniyyətimizdə böyük bir inqilabi hadisə kimi meydana çıxdı. Azərbaycanın mədəniyyəti "Koroğlu" əsəri ilə o vaxtlar Sovetlər İttifaqının paytaxtı olan Moskvaya getdi... Kreml sarayında Üzeyir Hacıbəyov böyük hörmət və ehtiramla qarşılandı... Bunların heç birisini unutmaq olmaz".

Nitqdə Üzeyir bəy böyük elm adamı, milli ideoloq, vətəndaş olaraq da səciyyələndirilmişdir:

"Üzeyir Hacıbəyov dahi bir bəstəkar, musiqiçi, eyni zamanda böyük alimdir, filosofdur, maarifçidir. Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin yaranmasında, formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır.

...Üzeyir Hacıbəyov böyük vətəndaş olmuşdur".

Böyük vətəndaş olmanın bir mühüm təzahürü də o idi ki, Üzeyir bəy onun (və mənsub olduğu xalqın) iradəsindən asılı olmayaraq dəyişən dünyanın, ictimai-siyasi formasiya və ya ukladların fövqünə qalxaraq ən müxtəlif vəziyyətlərdə məhz vətəninə xidmət eləmişdir:

"Bu gün respublikamızda ictimai-siyasi sistem dəyişəndən sonra yenə də əvvəlki xəstəliyə düşmək, bir dövrü qabarıq verib o biri dövrü gizlətmək lazım deyil. Üzeyir Hacıbəyov 1885-ci ildə anadan olandan 1949-cu ilə qədər, yəni dünyasını dəyişənə qədər Azərbaycan xalqının görkəmli bir oğlu olmuşdur. Azərbaycan xalqına xidmət etmişdir və hansı sistemdə olursa-olsun, hansı hakimiyyət dövründə olursa-olsun bütün imkanlarından istifadə edərək xalqını daim irəliyə aparmışdır".

Üzeyir bəyin tutduğu yolun düzgünlüyü özünü onda da göstərir ki, dünən olduğu kimi bu gün də xalqı ilə birlikdə gələcəyə doğru inamla addımlayır:

"Üzeyir Hacıbəyovun ən böyük xidmətlərindən biri müstəqil Azərbaycan Respublikasının ilk himnini yaratmasıdır. O himn sonra kənarlaşdırıldı. 1945-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının yeni himni yarandı. Onu da Üzeyir Hacıbəyov yaratdı. Nəhayət, Azərbaycan müstəqilliyini əldə edəndən sonra Üzeyir Hacıbəyovun 1919-cu ildə yaratdığı, hamımızın həddindən artıq sevdiyimiz Dövlət Himnini biz bərpa etdik. Bunlar hamısı Azərbaycanın tarixidir. Bunlar hamısı Üzeyir Hacıbəyovun həyat yolunun, yaradıcılığının mərhələləridir".

Ulu Öndər Üzeyir bəyin müasirliyi barədə sözünü davam etdirərək demişdir:

"Üzeyir Hacıbəyovun vətəni olan Şuşada – bütün Azərbaycan onun vətənidir, ancaq gəncliyini Şuşada keçirmişdir – ona görə orada da ev-muzeyi yaradılmışdı.

...1992-ci ilin may ayında Şuşa Ermənistan tərəfindən işğal olundu. İşğalçılar çox şeyləri dağıtdılar, o cümlədən mədəniyyətimizin abidələrini də. Onlar Üzeyir Hacıbəyovun, Bülbülün, Natəvanın heykəllərini nəinki dağıtdılar, hətta vəhşiliyi o qədər büruzə verdilər ki, o heykəlləri güllələdilər. Çox böyük iş oldu ki, o heykəllər əsirlikdən xilas edildi. Gürcüstan vasitəsilə Azərbaycana gətirildi".

Əlbəttə, Şuşanın düşmən işğalından xilas edilməsi Üzeyir bəyin xatirəsinə ümummilli ehtiramın parlaq nümunəsi idi.

1996-cı ilin sentyabr ayının 18-də Respublika sarayında görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin 110 illik təntənəli yubileyi keçirilmiş, mərasimdən sonra mədəniyyət və incəsənət xadimlərilə görüşən Azərbaycan Prezidenti demişdir ki, "bilirsiniz, mən xoş həyəcan keçirdim. Vaxtilə mənim respublikaya rəhbərliyim dövründə biz Müslüm Maqomayevin anadan olmasının 90 illiyini və 100 illiyini qeyd etmişik. İndi onun 110 illiyini də qeyd etmək mənə nəsib oldu.

...Mən bu yubileyin keçirilməsini çox istəyirdim. Təkid edirdim ki, məhz sentyabrın 18-də, Müslüm Maqomayevin və Üzeyir Hacıbəyovun anadan olduğu gün, musiqi və incəsənət günü kimi qeyd etdiyimiz gün keçirilsin".

Babasının yubileyində dünya şöhrətli nəvə Müslüm Maqomayev də iştirak etmişdir:

“Müslüm və Tamara “Azərbaycan” mahnısı ifa edəndə mən iftixar hissi keçirdim ki, bu mahnı 70-ci illərdə, mən Azərbaycana rəhbərlik edəndə, respublikanı tanıtmaq, ucaltmaq, Azərbaycanın incəsənətini göstərmək üçün hər şeyi etdiyim vaxt yaranmışdır. Azərbaycanı tərənnüm edən başqa gözəl mahnılar, o cümlədən Polad Bülbüloğlunun bəstələdiyi və Müslüm Maqomayevin ifasında, xüsusilə yaxşı səslənən mahnılar da var idi. Lakin yeni mahnılar gərək idi və o zaman Müslüm Maqomayev Nəbi Xəzrinin şeirinə həmin “Azərbaycan” mahnısını bəstələdi. Mən, ümumiyyətlə, hissiyyatlı adamam, musiqi, mahnılar məni həmişə həyəcanlandırır. Lakin o zaman ki bu mahnını ifa edirlər, mən özümü xoşbəxt sanıram. Vaxtilə Müslüm Maqomayev bu mahnının mənə ithaf olunduğunu demişdi. Lakin mən bununla razılaşmamışdım, indi isə qəbul edirəm... Azərbaycan, həqiqətən də, mənim həyatımın mənasıdır”.

Prezident yubileydə iştirak edən digər incəsənət xadimləri – Azərbaycan musiqisinin canlı klassikləri haqqında da xoş sözlər söyləmişdir:

“Musiqimizin ağsaqqalı Tofiq Quliyev həmişəki kimi bu gün də gözəl çıxış etdi. Mən onu görəndə həmişə sevinirəm. Onun mahnılar yazmağa başladığı illər xatirimdədir. O, 30-cu illərdə Azərbaycanda ilk caz orkestri yaratmışdı və mən caz musiqisinin gənc pərəstişkarı kimi o vaxtdan onu xatırlayıram. Mən onun “Sənə də qalmaz” mahnısını çox sevirəm... Rauf Abdullayev bu gün fərqlənirdi, orkestri çox yaxşı idarə edirdi... O, Niyazidən sonra Azərbaycan dirijorluq məktəbini şöhrətləndirməkdə davam edir”.

Müslüm Maqomayevin məşhur “Şah İsmayıl” operasından danışan Prezident demişdir:

“Şah İsmayıl” operasından rəqs mənim çox xoşuma gəldi, bu operanın böyük əhəmiyyəti təkcə sənət əsəri olmaqla bitmir. Müslüm Maqomayev bu mövzuya sadəcə olaraq bəstəkar, incəsənət xadimi kimi deyil, Azərbaycanın tarixini gözəl bilən bir insan kimi müraciət etmişdir... Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır”.

Prezidentin Azərbaycan klassik musiqisini yaradanların və onu inkişaf etdirənlərin zəhmətinin hədər getmədiyini deməsi də ona görə çox əhəmiyyətli idi ki, iqtisadi baxımdan çətin bir dövrdə də Respublika sarayı tamaşaçılarla dolu olmuşdur:

“Sevinirəm ki, xalqımız indiki ağır şəraitdə incəsənətlə yaşayır, mədəniyyətdən ayrılmır. Fikir verin, sizin ifa etdiyiniz əsərlərin əksəriyyəti klassik musiqidir. Deyirlər ki, bu musiqini heç də hamı başa düşmür, qəbul etmir. Ancaq salonun münasibətinə baxın! Şübhəsiz ki, bu məni sevindirir, bugünkü Azərbaycanın, mənim xalqımın səviyyəsini göstərir”.

Dövlət başçısı nitqində ən ağır vəziyyətdə belə incəsənət xadimlərinə yaradıcılıqla məşğul olmaları üçün şərait yaradılacağına söz vermişdir:

“Yaxın vaxtlarda mən bizim mədəniyyət xadimlərinə kömək göstərilməsi üçün tədbirlər görəcəyəm. İndiki çətin şəraitdə mədəniyyət və incəsənət xadimlərimizin öz işlərini fədakarlıqla davam etdirmələri məni çox sevindirir”.

* * *

1982-ci ilin iyun ayının 11-də Heydər Əliyev Bakıda Bülbülün xatirə muzeyinin təntənəli açılışında iştirak etmiş, nitq söyləmişdir:

“Bülbülün xatirə muzeyinin açılışı mədəni həyatımızda böyük hadisədir, şübhə yoxdur ki, muzey Azərbaycan musiqi sənətinin... görkəmli nümayəndəsi Bülbülün yaradıcılığını layiqincə təbliğ edən mərkəzə çevriləcəkdir. Bülbül özünün bütün parlaq, ilhamlı yaradıcılığı ilə, gözəl həyatı, zəngin bədii irsi ilə ümumxalq məhəbbəti və hörməti qazanmışdır. Ona böyük ehtiram bəslənir. Onun parlaq istedadı, gözəl obrazı Azərbaycan xalqının... qəlbində əbədi yaşayacaqdır”.

Heydər Əliyev 1997-ci ilin dekabr ayının 3-də Azərbaycan vokal sənətinin banisi Bülbülün 100 illiyi münasibətilə onun qəbrini ziyarət etmiş, sonra ev-muzeyinə gəlmiş, oradakı çıxışında demişdir ki, “bu gün çox iftixar hissi keçirirəm ki, biz Bülbülün 100 illik yubileyini təntənə ilə keçirməyə nail ola bilmişik. Məlumdur ki, ölkəmizin həyatında çox çətin və ağır problemlər vardır. Ölkəmiz keçid dövrünü yaşayır. Bir milyondan artıq qaçqınlarımız, o cümlədən Bülbülün doğulduğu yerdən – Şuşadan, Qarabağdan zorla qovulmuş insanların çox hissəsi çadırlarda yaşayır. Problemlərimiz çoxdur. Amma eyni zamanda biz problemlərə, başımıza gələn faciələrə görə aylarla inildəməməliyik”.

Azərbaycan Prezidenti muzeyin açıldığı zaman yada salmışdır:

“Mən bu gün fəxr edirəm ki, yenidən Bülbülün ev-muzeyindəyəm. Biz 1982-ci ildə bu ev-muzeyini təntənəli surətdə açdıq... Bu gün həmin vaxtdan 15 il keçibdir. Yaratdığın, qurduğun bir əsərə 15 ildən sonra gəlib baxmaq, həqiqətən, böyük iftixar hissi doğurur”.

Həmin gün Respublika sarayında Bülbülün yubiley gecəsi təntənə ilə keçirilmiş, Azərbaycan Prezidenti nitq söyləmişdir. O demişdir ki, “Bülbül, onun yaradıcılığı Azərbaycan mədəniyyətinin tarixində nadir, parlaq bir hadisədir. Azərbaycanın gözəl güşələrindən biri olan, canımız qədər istədiyimiz Qarabağ torpağında, müqəddəs Şuşa şəhərində dünyaya gəlmiş Bülbül öz fitri istedadı ilə, fədakarlığı ilə Azərbaycan mədəniyyətinin parlaq ulduzuna çevrilmiş və bizim milli iftixarımızdır”.

Murtuza Məşədi Rza oğlu Məmmədov – Bülbül Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş, 1927-1931-ci illərdə Milanda təhsilini davam etdirmiş, həmin ildən Konservatoriyada dərs demiş, 1940-cı ildən professor olmuşdur. Bülbül xalq musiqisi ilə professional musiqi arasında əsaslı körpü salmış ilk Azərbaycan sənətkarlarındandır:

“Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları bizim milli sərvətimizdir. Əsrlər boyu xalqımız bu mahnılarla yaşamışdır və Bülbül də öz yaradıcılıq fəaliyyətinə məhz bu xalq mahnıları ilə, bu muğamlarla başlamışdır. Ancaq ondan əvvəlki böyük sənətkarlardan fərqli olaraq Bülbül həm xalq mahnılarını, xalq musiqisini, muğam musiqisini ən yüksək bəşəri səviyyələrə qaldıra bilmişdir, həm də bizim zəngin muğam, xalq musiqimizin əsasında professional vokal sənətinin yaranmasının banisi olmuşdur”.

Bülbülün məlahətli səsi ilə yanaşı böyük aktyorluq istedadı da vardı. O bir çox operalarda baş rolların ifaçısı olmuşdur:

“Bülbülün yaradıcılığının zirvəsini “Koroğlu” operasında ifa etdiyi Koroğlu rolu təşkil edir. Azərbaycanın dahi bəstəkarı – Üzeyir Hacıbəyovun da yaradıcılığının şah əsəri, zirvəsi “Koroğlu” operasıdır. Bu operanın yaranmasına Üzeyir Hacıbəyovun nə qədər böyük yaradıcılıq səyləri olmuşdursa, o qədər də Bülbülün varlığı və Bülbülün ifaçılıq sənəti kömək etmişdir”.

İstər Üzeyir Hacıbəyovun, istərsə də Bülbülün musiqi zövqü muğam əsasında formalaşmışdı, aşıq sənəti onlar üçün elə də yaxın deyildi, ancaq 30-cu illərdə muğamla aşıq sənətinin elə doğmalaşması prosesi baş verdi ki, “Koroğlu” yarandı:

“Üzeyir Hacıbəyov “Koroğlu” dastanını musiqiyə çevirdi, opera əsərini yaratdı. Bülbül isə Koroğlunu yaratdı... Biz “Koroğlu” operasını görəndə və sonrakı nəsillər “Koroğlu” operasını, Koroğlu obrazını görən kimi, Bülbülü görən kimi hamı hesab edir ki, Koroğlu bax bu imiş. İndi Koroğlunun hər yerdə şəkilləri var. Bu, Bülbülün şəkilləridir, amma Koroğlu obrazında, Koroğlu libasında. Koroğluya heykəllər qoyulur. Hamısı həmin “Koroğlu” operasında Bülbülün yaratdığı, şübhəsiz ki, Üzeyir Haclbəyovla, rejissorlarla, rəssamlarla birlikdə Bülbülün yaratdığı və at üstündə Azərbaycan Opera Teatrının səhnəsində hamımızın qarşısına çıxdığı Koroğlu obrazından götürülüb”.

“Koroğlu” operası (və Koroğlu obrazı!) xalqın ümumi istedadının milli ideallarını (və qəhrəmanını!) ortaya çıxarmaq amalının nəticəsi idi ki, öz dahi sənətkarlarının yaradıcılıq qüdrəti ilə təqdim olunurdu:

“Şübhəsiz ki, biz bu gün “Koroğlu” operası haqqında danışarkən əsərin librettosunu Üzeyir Hacıbəyovla birlikdə yazan böyük yazıçımız Məmməd Səid Ordubadini, alim Heydər İsmayılovu, “Koroğlu” operasının ilk rejissoru, böyük rejissor İsmayıl Hidayətzadəni və böyük rəssam Rüstəm Mustafayevi də minnətdarlıq hissi ilə xatırlamalıyıq”.

Ümummilli Lider öz nitqində Bülbülün Koroğlusunun tarixi dəyərini xüsusi qeyd etmişdir:

“Bu gün də, gələcəkdə də “Koroğlu” operası yaşayacaq, bizim yeni-yeni gözəl, parlaq müğənnilərimiz meydana gələcək, Bülbülün yolu ilə gedərək Koroğlu rolunu ifa edəcəklər. Ancaq hamı çalışacaq Bülbül kimi oxusun. Çünki bütün o mahnıları yaradan Bülbüldür. Əgər kimsə onu başqa cür oxusa, hesab edəcəklər ki, bu, Koroğlu deyil”.

Bülbülün yaradıcılığına verilmiş bu qiymət həm əsaslı, həm rəsmi, həm də səmimi idi. Ancaq Bülbül onun üçün hər nə qədər xarakterik olsa da yalnız Koroğludan ibarət deyildi:

“Böyük Nizami Gəncəvinin qəzəlləri əsasında Üzeyir Hacıbəyov ölməz “Sənsiz” və “Sevgili canan” romanslarını yaratdı. Onların ilk ifaçısı Bülbül oldu. Ondan sonra bu romanslar daim bizim həyatımızda səslənir, yeni-yeni müğənnilər bu romansları oxuyurlar. Amma hamısı çalışır ki, Bülbül kimi oxusun, öz əsərini Bülbülün əsərinə oxşatsın. Bu da Bülbülün bizim bu günümüz üçün və gələcəyimiz üçün etdiyi böyük xidmətlərdir”.

Azərbaycan Prezidenti demişdir:

“Bu gün Bülbülün ruhu şad olubdur. Amma eyni zamanda düşünürəm ki, Bülbülün narahatlığı da var. Narahatlığı ondan ibarətdir ki, onun doğma Şuşası, Qarabağı Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Buna görə Bülbül narahatdır. Biz də narahatıq”.

Və dərhal da peyğəmbərcəsinə əlavə etmişdir:

“Ancaq Bülbül də bilməlidir, xalqımız da bilməlidir, bizim üçün əziz olan Qarabağ torpağı, Şuşa qalası işğaldan azad olacaq. Bülbül diyarı müstəqil Azərbaycanın çiçəklənən bir guşəsi olacaq”.

1994-cü ilin sentyabr ayının 18-də Bakıda böyük sənətkar Niyazinin ev-muzeyinin təntənəli açılışında Azərbaycan Prezidenti öz çıxışını bu sözlərlə başlamışdır:

“Hörmətli dostlar, bu gün respublikamızın həyatında əlamətdar gündür. Azərbaycan xalqının professional musiqisinin banisi, dahi bəstəkarımız Üzeyir Hacıbəyovun anadan olduğu gün, onun xatirəsi yad edilən gündür. Bu gün Üzeyir bəyin silahdaşı, professional musiqinin yaranmasında və inkişaf etməsində ömrü boyu onunla birlikdə əvəzsiz xidmətlər göstərmiş böyük bəstəkar Müslüm Maqomayevin də anadan olduğu və xatirəsinin yad edildiyi gündür.

On illərdir ki, sentyabrın 18-i Azərbaycanda musiqi bayramı, Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin xatirə günü elan olunubdur. Həm də çox sevindirici haldır ki, həyatımızın bu keşməkeşlərinə, çətinliklərinə, ağırlığına baxmayaraq mədəniyyətimiz yaşayır, mədəni irsimizə hörmət və ehtiram yaşayır, bu gün cari ildə də təntənə ilə qeyd edilir.

Əsla təsadüfi deyildir ki, məhz bu gün – Azərbaycanın təqviminə həkk olunmuş musiqi bayramı günü böyük bəstəkar, dahi dirijor, Azərbaycan xalqının böyük mədəniyyət xadimi, respublikamızın görkəmli ictimai xadimi Niyazinin ev-muzeyi açılır”.

Natiq demişdir:

“Niyazi respublikamızda da, keçmiş Sovet ittifaqında da, dünyanın ən böyük ölkələrində də tanınan, sayılan, hörmət qazanmış bir sənət ustasıdır. Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, o həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycanın mədəniyyətinə, milli musiqimizə böyük töhfələr

vermiş və eyni zamanda Üzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlarımızadək Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür".

Ulu Öndər böyük sənətkarla tanışlığı, dostluğu barədə də bəhs etmişdir:

"Mən Niyazi ilə uzun illər ərzində tanış idim, onunla lap gənc vaxtlarımızdan dostluq etmişəm. Sonra isə, yəni 25 il öncə Azərbaycana rəhbərliyə başlayarkən və bütün sonrakı dövrdə Niyazini həmişə qiymətləndirmişəm, onunla sıx təmasda olmuşam. Sənətinə pərəstiş etmişəm. Onun yaradıcılıq fəaliyyətinin coşğun və dolğun inkişaf etməsi üçün, milli mədəniyyətimizə, musiqimizə təsir göstərməsi üçün əlimdən gələni əsirgəməmişəm".

Hər bir sənət adamına, xüsusilə klassiklərə sonsuz hörmət, ehtiram bəsləyən Heydər Əliyev üçün bu, Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə tarixi xidmətin elə bir nümunəsi idi ki, gələcək nəsillər məhz bu yolla getməli idilər. Onun Niyaziyə verdiyi qiymət gələcəkdə Niyazinin yerini tutmaq iddiasında olan hər bir yaradıcı azərbaycanlının yoluna işıq salırdı:

"Niyazi Azərbaycanda ilk ən böyük dirijor idi. Özü də bir dirijor kimi tək Azərbaycanda yox, keçmiş Sovet İttifaqında, habelə bir çox ölkələrdə, dünyanın, hətta ən böyük dövlətlərində – İngiltərədə də, Fransada da, Amerikada da, Türkiyədə də olduqca müvəffəqiyyətli çıxışlar etmişdir".

Leninqrad Opera və Balet Teatrının baş dirijoru olduğu dövrdə İngiltərədə son dərəcə böyük uğurla konsert verdiyini xatırladan Prezident onu da əlavə edir ki, "bildiyiniz kimi, professional musiqi Avropaya məxsusdur. Bizim başa düşdüyümüz mənada professional musiqi Avropada meydana gəlmişdir. Lakin azərbaycanlı, Azərbaycan dirijoru və bəsəkarı Niyazi Avropanın mərkəzində dünya şöhrətli professional musiqiçilər qarşısında heyrətamiz səviyyədə dirijorluq etdi. Onun belə məşhur orkestri məharətlə idarə etməsi xalqımız üçün böyük fəxrdir".

Həmin təntənəli açılış mərasimindəki çıxışında dövlət başçısı Azərbaycanda ev-muzeylərinin yaradılması məsələsinə də toxunaraq demişdir ki, "yadımdadır, böyük bəstəkarımız, gözəl insan, Azərbaycan xalqının fəxri və tacı olan Üzeyir Hacıbəyov 1949-cu ildə vəfat etmişdi. Fikir verin, 49-cu ildə. Amma onun həyat yolunu və yaradıcılığını əks etdirən, şəxsən ona məxsus olan muzey 74-cü ilədək yaradılmamışdı. Halbuki Üzeyir bəyin yaşadığı ilk ev də, "monolit" adlandırılan binada yaşadığı mənzil də məlum idi, onun xidmətləri də məlum idi. Bu muzeyin yaradılmasına təşəbbüs göstərdiyim üçün özümü xoşbəxt hesab edirəm".

Həmin təşəbbüslə respublikanın mədəni həyatında gözəl bir ənənənin əsası qoyulduğunu qeyd edən Ümummilli Lider göstərir ki, "ondan sonra bir neçə ev-muzeyi yaradıldı. Böyük şairimiz Səməd Vurğunun, görkəmli dramaturqumuz, yazıçımız və şairimiz Cəfər Cabbarlının, böyük sənətkarımız, müğənnimiz, Azərbaycan operasının yaranmasında və inkişafında əvəzsiz xidmətləri olan Bülbülün ev-muzeyləri açıldı".

* * *

Azərbaycan Prezidenti 2002-ci ilin dekabr ayının 6-da Respublika sarayında Niyazinin 90 illik yubiley gecəsində dünya şöhrətli sənətkar haqqında geniş nitq söyləmişdir. O demişdir ki, "mən bu gün bu salonda Niyazi haqqında deyilən sözləri dinləyərək, onun musiqisini dinləyərək dirijorluq sənətinin nümunələrini yenidən xatırlayaraq böyük hissiyyatlar keçirirəm. Bu hissiyyatlar xalqımıza olan sevgidən gəlir. Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir".

Bu isə o deməkdir ki, Ulu Öndər Azərbaycan dövlətçiliyini yaradarkən onun əsasında yalnız maddi deyil, mənəvi sərvətlərin də dayandığını (və dayanacağını!) düşünmüş, yalnız maddi deyil, mənəvi sərvətlərə də son dərəcə diqqətlə yanaşmışdır ki, onlardan biri də Niyazının yaradıcılığı idi:

"Azərbaycan professional musiqisinin, yəni simfonik musiqinin təbliğində, Azərbaycan bəstəkarlarının simfonik musiqi əsərləri yaratmasında və bu əsərlərin ifa edilməsində Niyazinin əvəzsiz rolu olubdur. Burada Qara Qarayevin sözlərini səsləndirdilər ki, onun əsərlərinin səslənməsində o, Niyaziyə borcludur. Bu, həqiqətdir... Amma təkcə Qara Qarayevin yox, bütün Azərbaycan bəstəkarlarının, həm opera əsərlərinin, həm simfonik əsərlərinin işıq üzü görməsində, səslənməsində, xalqa çatdırılmasında Niyazi əvəzsiz rol oynamışdır".

1982-ci ilin iyul ayının 17-də Heydər Əliyev Azərbaycan Dövlət Simfonik Orkestrinin 60 illik yubileyində nitq söyləmiş, 20-ci illərin əvvəllərində yaradılmış bu orkestrin keçdiyi tarixi inkişaf mərhələlərindən bəhs etmişdir.

Niyazinin yubiley mərasimində də Ulu Öndər simfonik orkestlə bağlı məsələyə qayıtmışdır:

"Azərbaycanda simfonik orkestrin yaranması Üzeyir Hacıbəyovun fəaliyyəti ilə bağlıdır. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev o illərdə, ilk illərdə Azərbaycanda simfonik orkestrin inkişaf etməsi üçün çox işlər görmüşlər" deyən Prezident onu da əlavə etmişdir ki, "ancaq mən bunu tam qətiyyətlə deyirəm – əgər Niyazi olmasaydı, Azərbaycanın simfonik orkestri bu səviyyəyə çatmazdı. Niyazi olmasaydı, bizim Azərbaycanın görkəmli bəstəkarlarının yaratdıqları gözəl əsərlər, simfoniyalar bu qədər yüksək səviyyəyə çatmazdı".

Azərbaycan Prezidenti öz nitqində dövlət idarəçilik təcrübəsində incəsənətin, musiqinin imkanlarından necə istifadə olunduğu barədə son dərəcə unikal məsələyə də toxunmuşdur:

"Mən bir gün filarmoniyaya gəlmişdim, hansısa simfonik konsert var idi... Konsertdən sonra mən otağında onunla söhbət edirdim. O mənə söylədi ki, Siz buraya gəlmisiniz, yəqin bu münasibətlə salon doludur – yəni simfonik orkestrin konsertlərini nəzərdə tuturdu – ancaq başqa vaxtlarda bizim simfonik orkestrin konsertlərinə adamlar çox gəlmir... Bunu təşkil etdik.

Həmin vaxt o mənə dedi ki, biz simfonik musiqi əsərini ifa edirik, amma bəziləri bunun dərin mənasını dərk edə bilmirlər. Ona görə də bu musiqini qəbul edə bilmirlər. Təklif etdi ki, hər əsər haqqında əvvəlcə izahat verilsin, o əsərin məzmunu sadə dildə çatdırılsın, sonra isə əsər dinlənilsin... O hər ay Moskvadan Janna Dozortsevanı dəvət edirdi... O, əsərlərin məzmununu çox gözəl çatdırırdı.

...Beləliklə, biz bir sistem yaratdıq. Buna da Moskvada, oradakı mətbuatda, qəzetlərdə, jurnallarda "Simfonik musiqini dinləmə universiteti" adı qoydular".

Ulu Öndərin nitqində elə məqamlar da vardır ki, söhbət onun zəngin təcrübəsindən, sənət adamlarını yalnız sözdə deyil, bilavasitə işdə əməkdaşlığa səfərbər etməsindən gedir:

"Mən xüsusən çalışırdım ki, Qara Qarayevi, Fikrət Əmirovu, Niyazini – üçünü bir-biri ilə dost edim, bir-biri ilə birləşdirim... Bir gün dost olurdular, bir gün küsürdülər, bir gün bir-birindən inciyirdilər. Bu da bizim ümumi işimizə zərər verirdi".

Prezident həmin nitqində hər üç görkəmli sənət adamını Zuğulbadakı dövlət bağ evinə dəvət etdiyini, bütün günü bir yerdə olduqlarını, söhbət elədiklərini xatırlamış və demişdi ki, "sonra bizim bəstəkarlar... təşəkkür edirdilər ki, mən belə bir görüş keçirdim və onları bir-biri ilə daha da yaxınlaşdırdım".

Bu sözlər isə Niyazinin xarakterini açmağa kömək edir:

"Şəxsi nöqteyi-nəzərdən Niyazi özünü çox sevdirən bir adam idi, məzəli insan idi. Burada dedilər, onun sərtliyi də var idi. Bəzən heç kəsi eşitmirdi. Mülayimliyi də var idi... O ömrü boyu öz xarakteri ilə yaşadı və böyük işlər gördü.

...Çox yaxşı lətifələr də danışırdı. Azərbaycanın müxtəlif bölgələrindən olan, müxtəlif ləhcələrdə danışan adamları çox gözəl yamsılayırdı. Ona görə bəzən mən onu görəndə deyirdim, danış görüm Şəki teatrında "Otello" nə cür gedir. Elə danışırdı ki, daha ondan sonra nə konsert lazım idi, nə də teatr, heç bir şey lazım deyildi".

1978-ci ilin fevral ayının 4-də bəstəkar Qara Qarayevə yüksək dövlət mükafatının təqdimetmə mərasimində Heydər Əliyev demişdi:

"Öz yaradıcılıq fəaliyyətinin qırx ili ərzində böyük qabiliyyətə və parlaq istedada malik olan Qara Qarayev tükənməz əzmkarlığı, fədakarlığı, əməksevərliyi sayəsində böyük və şanlı yol keçmişdir. Onun formaca milli yaradıcılığı respublikamızın hüdudlarından çox-çox kənara çıxmışdır.

...Əsası böyük Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş Azərbaycan professional musiqisinin gözəl ənənələrini bəstəkar müvəffəqiyyətlə davam və inkişaf etdirir... Onun yaradıcılığı fəlsəfi dərinliyi, bədii gözəlliyi, xüsusi koloriti ilə fərqlənir. Musiqi yaradıcılığını elmi tədqiqat işi ilə əlaqələndirən Qara Qarayev musiqişünaslığın nəzəri problemlərinin işlənməsinə böyük xidmət göstərmişdir".

Böyük bəstəkarın ictimai xadim kimi də çox işlər gördüyünü, beynəlxalq aləmdə nüfuzlu bir şəxsiyyət olduğunu qeyd edən respublika rəhbəri söyləmişdir ki, "Qara Qarayev yaradıcılıq qüvvələrinin çiçəkləndiyi bir dövr keçirir və parlaq zəkası ilə öz xalqına gözəl əsərlər bəxş etmək üçün hələ çox iş görəcəkdir".

Ancaq təəssüf ki, 1982-ci ilin may ayının 18-də Heydər Əliyev böyük bəstəkarın dəfn mərasimində çıxış etməli olmuşdur:

"Biz zəmanəmizin böyük bəstəkarını, bütün həyatını xalqa xidmət işinə həsr etmiş bir sənətkarı son mənzilə yola salırıq. Musiqi xalqın canıdır. Qara Qarayev də onun dərinliklərinə nüfuz etmiş, Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi olmuşdur".

Qara Qarayev yaradıcılığının dərinliklərinə nüfuz edən respublika rəhbəri qeyd etmişdir ki, "onun gözəl əsərləri bəstəkarın yalnız özünə xas olan əlvan musiqi boyaları ilə, Qarayev koloriti ilə, yüksək ideyalılığı, həqiqi vətəndaşlıq ruhu ilə fərqlənir, bu əsərlər professionalizm zirvələridir".

Dahi bəstəkarın "Yeddi gözəl", "İldırımlı yollarla" baletləri, "Vətən" operası, "Leyli və Məcnun" simfonik poeması və s. barədə danışan natiq demişdir:

"Görkəmli pedaqoq, gənclərin həssas, tələbkar hamisi və tərbiyəçisi olan Qarayevin yaradıcılığı respublikamızın və bütün ölkənin sərvətinə, iftixarına çevrilən parlaq, istedadlı musiqiçilərin neçə-neçə nəslini yetişdirmişdir".

Ümummilli Lider bəstəkar Arif Məlikovun 1995-ci ildə keçirilən müəllif gecəsində də Qara Qarayevi xatırlamışdır:

"Mən Qara Qarayevlə gənc yaşlarımızdan yoldaşlıq, dostluq etmişəm. Biz çox yaxın olmuşuq. Düzdür, sənətimiz bir-birindən tamamilə fərqlidir – o bəstəkar, musiqiçi, incəsənət ustası idi, mən isə gənc yaşlarımdan siyasətlə məşğul olan adamam. Ancaq məlumdur ki, mən həmişə incəsənəti sevmişəm, hörmət etmişəm. Hələ gənc yaşlarımdan Qara Qarayevin sənətinin pərəstişkarı idim, onun ağlına, zəkasına hörmət edirdim".

Ulu Öndər Azərbaycan musiqisinin inkişafı naminə dahi bəstəkarla birlikdə çalışdıqlarını, şəxsən onun yaradıcılığının zənginləşməsi üçün respublikanın rəhbəri kimi qayğı göstərdiyini qeyd etdikdən sonra demişdir:

"Biz Qara Qarayevin yubileyini Bakıda keçirdik (*söhbət dahi sənətkarın 60 illik yubileyindən gedir – N.C.*). Sonra onun yubileyini Moskvada Dövlət Konservatoriyasının böyük salonunda keçirmək nəzərdə tutulmuşdu. Mən bundan ötrü xüsusi olaraq oraya getdim. Təəssüf ki, o axşam Qara Qarayevin səhhəti yubiley gecəsində iştirak etməyə imkan vermədi. Ancaq mən mərhum həyat yoldaşım Zərifə xanımla bərabər o gecədə iştirak etdim. Qara Qarayevin həyat yoldaşı Tatyana xanım və ailə üzvləri də orada idi".

Prezident öz çıxışında Qara Qarayevin dəfnini də yada salmışdır:

"Təəssüf olsun ki, biz Qara Qarayevi itirdik, o, dünyadan getdi. Mən dost kimi, onun sənətinə çox yüksək qiymət verən bir adam kimi, eyni zamanda respublikanın rəhbəri kimi Qara Qarayevin cənazəsini çiynimdə apardım. Mən adətən matəm mitinqlərində nitq söyləməmişdim, ancaq Qara Qarayevin matəm mitinqində, onun qəbri yanında nitq söylədim. Ona rəhmət oxudum".

Və Qara Qarayev haqqındakı söhbətini belə yekunlaşdırmışdır:

“Mən Moskvada işləyərkən bunu yüksək səviyyələrdə də demişəm, bir də qeyd etmək istəyirəm ki, Qara Qarayev müasir dünyanın ən dahi bəstəkarlarından biri idi. O vaxtlar biz hər şeyi Sovetlər İttifaqı miqyasında ölçürdük. Mənim aləmimdə o zaman Sovetlər İttifaqında Dmitri Şostakoviçdən sonra ikinci yerdə Qara Qarayev idi. Qara Qarayev Şostakoviçin tələbəsi idi. Yenə də deyirəm, bu bizim üçün böyük iftixar mənbəyi idi”.

1980-ci ilin may ayının 15-də Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanı fəxri adını təqdim edərkən Heydər Əliyev demişdir:

“Rəşid Behbudov Azərbaycan mədəniyyətinin ən görkəmli, ən parlaq nümayəndələrindən biridir. Özünə məxsus, təkrarolunmaz, çox gözəl, məlahətli səsi, yüksək ifaçılıq istedadı, böyük sənətkarlığı ilə Rəşid Behbudov xalqımız arasında, ölkəmizin hər yerində, bütün dünyada şöhrət qazanmışdır.

...Rəşid Behbudovun yaradıcılığının xüsusiyyəti bundan ibarətdir ki, o, Azərbaycan xalq mahnılarını, milli musiqi folklorunun ən yaxşı nümunələrini professional incəsənətin müasir tələblərinə uyğun surətdə ifa edərək xalqımızın çoxəsrlik tarixi olan zəngin mahnı irsini dünyanın hər yerində tanıtmışdır”.

Respublika rəhbəri daha sonra qeyd etmişdir ki, “Rəşid Behbudovun təşəbbüsü ilə yaradılan və 15 ildən çoxdur ki, onun rəhbərliyi altında fəaliyyət göstərən, ölkədə birinci mahnı teatrı Azərbaycan musiqi sənətinin inkişafında mühüm rol oynamışdır”.

2001-ci ilin 13 oktyabrında Respublika sarayında dahi sənətkar Rəşid Behbudovun xatirə gecəsi keçirilmiş, həmin gecədə Azərbaycan Prezidenti geniş nitq söyləmişdir. O demişdir ki, “müstəqil Azərbaycanın onuncu ildönümü münasibətilə keçirilən bayram mərasimləri sırasında Azərbaycanın böyük oğlu, dahi sənətkar Rəşid Behbudovun xatirə gecəsinin gözəl, təntənəli şəraitdə keçirilməsi qədim tarixə malik Azərbaycan xalqının nə qədər zəngin mədəniyyətə malik olduğunu və dünya mədəniyyəti xəzinəsinə necə böyük şəxsiyyətlər verdiyini nümayiş etdirir.

Rəşid Behbudov öz təkraredilməz məlahətli səsi ilə, xarici görünüşü ilə, artistlik istedadı ilə böyük musiqiçi və gözəl müğənni idi”.

Rəşid Behbudov Tiflisdə doğulmuş, ifaçılıq fəaliyyətini bu çoxmillətli şəhərdə başlayıb qədim Azərbaycan şəhəri İrəvanda davam etdirmiş, 1946-cı ildə Bakıya köçərək yaradıcılığının zirvələrinə yüksəlmişdir:

“Rəşid Behbudov özünəməxsus ustalığı ilə həm müasir estrada mahnılarını çox gözəl ifa edirdi, həm də Azərbaycan musiqi folklorundan, Azərbaycan xalq musiqisindən gözəl mahnıları götürüb onları müasirləşdirirdi və müasir estrada səviyyəsinə qaldırırdı. Yəni deyə bilərəm ki, Rəşid Behbudov Azərbaycan xalq mahnıları ilə, musiqi folkloru ilə müasir estrada mahnılarının Azərbaycan xüsusiyyətlərini daşıyan sintezini yarada bilmişdir”.

Bütün böyük sənətkarlara məxsus olan bir mühüm cəhət – öz istedadını daim təkmilləşdirmək bu istedadın yalnız ona deyil, bütövlükdə xalqa mənsubluğunu dərk edərək qarşısında məsuliyyət daşımaq və yaradıcılıq texnikasını daim

zənginləşdirmək Rəşid Behbudovun fəaliyyətində son dərəcə parlaq bir şəkildə təzahür etmişdir:

“Rəşid Behbudov müğənni kimi, musiqiçi kimi çoxşaxəli bir insan idi. O, ilbəil öz üzərində işləyərək yaradıcılığını daim inkişaf etdirirdi, daim zənginləşdirirdi. Uzun illər onun musiqisinin pərəstişkarı olan bir şəxs kimi indi bu salonda oturub bütün o dövrləri xatırlayanda mən düşünürəm ki, Rəşid Behbudov sənəti hər mərhələdə nə qədər inkişaf edirdi, irəli gedirdi”.

Ona ən böyük şöhrəti, yəqin ki, “Arşın mal alan”dakı Əsgər bəy rolu qazandırmışdı:

“Rəşid Behbudovun həyatında, sənət fəaliyyətində ən görkəmli yer tutan dahi Üzeyir Hacıbəyovun “Arşın mal alan” operettasının ekrana köçürülməsində ifa etdiyi Əsgər roludur.

...Dahi bəstəkar Üzeyir Hacıbəyovun, dahi müğənni Rəşid Behbudovun və Azərbaycanın çox böyük rejissorlarından biri Rza Təhmasibin hələ o ağır dövrdə - 1944-cü ildə, müharibə qurtarmamışdı – “Arşın mal alan”ı ekranlaşdırması və təbiidir, təkcə səhnədən ekrana keçirməsi yox, yeni quruluşda verməsi böyük bir hadisə idi. Səhv etmirəmsə, 1945-ci ildə bu film artıq işıq üzü gördü. Qısa bir müddətdə təkcə Azərbaycanı yox, demək olar ki, keçmiş SSRİ-nin bütün şəhərlərini, bölgələrini, respublikalarını fəth etdi”.

Prezident öz nitqində böyük sənətkarın diksiyasını – tələffüz mədəniyyətini də yüksək qiymətləndirmişdi:

“Bir sənətkar kimi Rəşid Behbudovun xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, gözəl səsi ilə yanaşı, mahnının sözlərini də gözəl tələffüz etmək qabiliyyəti var idi. Bəzən mahnını oxuyurlar, sözlər bir-birinə toqquşur, qavramaq mümkün olmur. Amma Rəşid Rehbudov, ümumiyyətlə, bütün mahnıları ifa edərkən sözləri o qədər aydın, səlis, o qədər düzgün tələffüz edirdi ki, bu, onun sənətini daha da yüksəldirdi”.

Rəşid Behbudovun nitq-tələffüz həssaslığı özünü təkcə ana dilinə – Azərbaycan dilinə yox, bir sıra dillərə münasibətdə də göstərmişdi:

“Ancaq bununla bərabər, bir xüsusiyyəti də ondan ibarət idi ki, o, Azərbaycan dilini gözəl bilərək, eyni zamanda rus dilini də gözəl bilirdi. Ümumiyyətlə, onun başqa xalqların dillərində mahnı ifa etmək qabiliyyəti, demək olar ki, dünyada heç bir sənətkara nəsib olmamışdır”.

Prezident xatırlamışdı ki, “Arşın mal alan” rus dilinə tərcümədə (mahnıları rus dilində yenə Rəşid Behbudov ifa etmişdi) bütün Sovetlər Birliyində geniş rezonans doğurmuşdu:

“Arşın mal alan” filmi Azərbaycanda tarixi bir hadisə kimi meydana çıxdı. Bu, təkcə Azərbaycan çərçivəsində qalsaydı, təbiidir ki, indi biz bunun haqqında bu qədər danışa bilməzdik. Ancaq onu rus dilinə tərcümə etdilər. Ən əsas cəhət ondan ibarətdir ki, Rəşid rus dilində də özü oxuyurdu, onun səsi idi, onun mahnıları idi. Beləliklə, o, keçmiş Sovetlər İttifaqında bütün xalqlara tanış olan, xalqların bildiyi rus dilində hər yeri gəzdi.

Mənim xatirimdədir, o illər Leninqradda oxuyurdum. Orada “Arşın mal alan” filmi o qədər böyük müvəffəqiyyətlə gedirdi ki, insanlar o filmə bir daha, bir daha baxmaq istəyirdilər”.

Rəşidin səsi dünyanın hər yerindən, ən mötəbər salonlardan gəlirdi. Və Azərbaycan dili, Azərbaycan musiqisi, Azərbaycan mədəniyyəti onun böyük istedadı ilə dünyanı fəth edirdi:

“Rəşid Azərbaycan mədəniyyətini, Azərbaycan xalqını təkcə “Arşın mal alan” filmi ilə tanıtmayıbdır. Rəşid dünyanın bir çox ölkələrinə səyahət edib, böyük-böyük salonlarda konsertlər veribdir və Azərbaycan musiqisini, mahnılarını öz gözəl üslubu ilə, gözəl ifası ilə o ölkələrin insanlarının qəlbinə salıbdır.

..O vaxt hələ televiziya yox idi. Radio musiqini o qədər də geniş verə bilmirdi. Rəşid Behbudov, demək olar ki, bizim mədəniyyət xadimlərindən sovet vaxtı Türkiyəyə gedən ilk Azərbaycan elçisi, müğənnisi olubdur”.

Prezident xatırlamışdır ki, Rəşid Behbudov növbəti Türkiyə səfərindən qayıdanda bir neçə yoldaşlarla bilikdə onun evinə getmişlər... “Rəşid Behbudov maqnitafonu işə saldı, orada oxuduğu bir mahnını səsləndirdi... Hansı mahnı olduğunu xatırlaya bilmirəm, amma onun hər bəndi qurtarandan sonra o çox gözəl səsi ilə deyirdi: “İstanbul – Bakı, İstanbul – Azərbaycan, Türkiyə – Azərbaycan”.

Hansı ölkəyə gedirdisə mütləq səfərindən əvvəl oranın gözəl mahnılarından bir neçəsini o ölkənin dilində hazırlayırdı, gedib orada oxuyurdu və böyük hörmət qazanırdı”.

Başqa bir xatirə... Və müdrik bir kəlam:

“Mənim böyük qardaşım, rəhmətlik akademik Həsən Əliyevlə söhbətlərimdə onun dediyi sözlər yadımdan heç vaxt çıxmır. O deyirdi ki, biz yüz ildir dünyaya neft veririk, amma biz bununla özümüzü dünyaya tanıda bilmədik. Ancaq bir nəfər, bir insan – Rəşid Behbudov öz mahnıları ilə, yəni Azərbaycan mahnıları və musiqisi ilə Azərbaycanı bütün dünyaya tanıtdı. Çox düzgün deyilmiş sözlər idi”.

Azərbaycan Prezidenti böyük sənətkarın daha bir rolu – “Sevil” operasındakı Balaş haqqında da bəhs etməyə bilməzdi:

“Fikrət Əmirovun yazdığı “Sevil” operası çox böyük təsir bağışladı. Onu da demək istəyirəm ki, Üzeyir Hacıbəyovun yazdığı “Koroğlu” operasından sonra da Azərbaycanda opera janrında əsərlər yazılıbdır. Amma ondan sonra “Sevil” operası qədər çox dəyərli, yüksək musiqiyə, professional musiqiyə malik olan opera olmamışdır.

... Mənə belə gəlir ki, Üzeyir Hacıbəyov “Koroğlu” operasını yazarkən... böyük sənətkarımız Bülbülü nəzərdə tutubdur... Eləcə də Fikrət Əmirov “Sevil” operasını yazarkən... Əgər Rəşid Behbudov olmasaydı, bəlkə də o, “Sevil” operasını yaza bilməzdi, yəni yazardı, amma onu ictimaiyyətə, insanlara, cəmiyyətə o səviyyədə təqdim edə bilməzdi”.

Rəşid Behbudovun xatirə gecəsindəki nitqini Azərbaycan Prezidenti bu səmimi sözlərlə yekunlaşdırmışdı:

"Mən Rəşid Behbudovun yaradıcılığı haqqında bəzi fikirlərimi bildirdim. Amma xatirələrim də çoxdur. Mənim onunla şəxsi münasibətim vardı. Hələ Azərbaycanın rəhbəri olmazdan xeyli əvvəl onunla şəxsi münasibətim, dostluğum vardı. Bu dostluqda məni ona bağlayan onun gözəl sənəti idi. O isə nədənsə mənə də müəyyən qədər, hansı səbəblərə görəsə çox hörmət edən bir insan idi".

* * *

1995-ci ilin fevral ayının 5-də Azərbaycan Dövlət İncəsənət Muzeyində Arif Məlikovun müəllif gecəsi keçirilmiş, Azərbaycan Prezidenti həmin gecədəki çıxışını bu sözlərlə başlamışdı:

"Son illər respublikamızın, xalqımızın həyatında ağır dövrdür. Ancaq çətinlik içində keçən bu dövrdə də mədəniyyətimiz, incəsənətimiz yaşayır, inkişaf edir, incəsənətimizi yaradan istedadlı, görkəmli şəxsiyyətlər Azərbaycan mədəniyyətini dünyaya nümayiş etdirirlər".

Görkəmli sənətkar haqqında demişdir:

"Arif Məlikov Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin ən görkəmli xadimlərindən, sənətkarlarındandır. Onun yaradıcılıq yolunun çox hissəsi mənim gözümün qarşısında keçib. Mən Arif Məlikovun yazdığı əsərləri həmişə yüksək qiymətləndirmişəm və onun sənətə bağlılığını, yaradıcılığı ilə yaşadığını, öz əsərləri ilə Azərbaycan incəsənətini, musiqisini zənginləşdirdiyini həmişə hiss etmişəm".

Görkəmli bəstəkarın gecəsində tamaşaçılara təqdim etdiyi əsərlərə görə müəllifi təbrik edən Ulu Öndər əlavə etmişdir:

"Yüksək professional səviyyəli musiqi əsəri, sənət əsəri yazmaq, ortaya çıxarmaq, şübhəsiz ki, böyük istedad tələb edir.

Arif Məlikov belə bir fitri istedada malik insandır. Bu fitri istedad ilə yanaşı, öz sənətini sevməsi, sənətinə sadiq olması və fədakarcasına çalışması ona belə böyük əsərlər yaratmağa imkan verir".

Natiq öz çıxışında Arif Məlikovun mənsub olduğu milli musiqi məktəbi barədə demişdir:

"Azərbaycanın musiqisi, xüsusən professional musiqisi böyük tarixə malikdir. Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli, başqaları və bu məktəbin yetişdirməsi olan görkəmli sənətkar Arif Məlikov".

"Məhəbbət əfsanəsi" baleti, heç şübhəsiz, Arif Məlikov yaradıcılığının zirvəsi olmuşdur:

“Arifin yazdığı “Məhəbbət əfsanəsi” baleti bütün dünyanın professional opera və balet teatrlarında nümayiş etdirilir. Dünyanın hər yerini dolaşmış belə əsərlər azdır, nadir bir hadisədir”.

Prezident sonra Arif Məlikovun yaradıcılıq tərcümeyi-halının çox əlamətdar bir məqamını xatırlamışdır:

“Gərək ki, 1986-cı ildə böyük bir tədbir var idi. O tədbirin sonunda Böyük Teatrın yeni mövsümünün açılışı münasibətilə Arif Məlikovun “Məhəbbət əfsanəsi” baleti Yuri Qriqoroviçin quruluşunda tamaşaya qoyulmuşdu. O vaxtlar Sovetlər İttifaqının rəhbəri orada idi... Təsəvvür edin, mən nə qədər sevinirdim ki, Moskvada, Rusiyanın mərkəzində, zəngin tarixə malik olan Böyük Teatrın səhnəsində belə bir böyük tədbirdə, teatr mövsümünün açılışında Arif Məlikovun “Məhəbbət əfsanəsi” əsəri göstərilir. Mən orada həm sevinirdim, həm həzz alırdım, həm də fəxr edirdim”.

Çıxışda sənət aləminin “mətbəx”inə də baş vurulmuşdu:

“Mən incəsənət adamlarına, musiqiçilərə həmişə böyük diqqət yetirmişəm. Xatirimdədir, mən onlarla vaxtaşırı görüşüb danışarkən bir-biri ilə münasibətlərinin gərgin olduğunu hiss edirdim və bunları aradan götürməyə çalışırdım. Biri yanıma gələndə deyirdim ki, filankəs də gəlmişdi, səni çox tərifləyirdi. Bu birisi gələndə deyirdim ki, o da mənim yanıma gəlmişdi, səni daha çox tərifləyirdi. Bilirsiniz ki, istedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi deyillər, adi olsalar istedadlı ola bilməzlər... Biz dəfələrlə yığışırdıq, otururduq, söhbət edirdik”.

Prezident çıxışının sonunda demişdir:

“Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç şişirtmədən, tam qətiyyətlə deyirəm. Biz onu qorumalıyıq, ona qayğı göstərməliyik. Onun imkanları çoxdur. Arif bundan sonra da yaratmalıdır. Şübhəsiz ki, o da bu fikirlə, hisslərlə yaşayır. Bizim bugünkü görüşümüz, bu müəllif gecəsi, şübhəsiz ki, ona daha çox ilham verəcək və o, yeni əsərlər yaradacaqdır”.

Azərbaycan Prezidenti Tofiq Quliyevin 80 illiyinə həsr olunmuş yubiley gecəsində (19 noyabr 1997-ci il, Respublika sarayı) görkəmli bəstəkara müraciət edərək demişdir:

“Sən şərəfli bir ömür yaşamısan, böyük işlər görmüsən, xalqına sədaqətlə xidmət etmisən və xalqın üçün gözəl əsərlər yaratmısan. Ona görə də biz hamımız sənə minnətdarıq, təşəkkür edirik.

... Azərbaycan xalqı 60 ildir ki, sənin mahnılarının təsiri altında yaşayır. Sənin mahnıların bizim xalqımıza, təkcə bizim xalqımıza yox, bəşəriyyətə, dünyaya böyük töhfədir. Sənin mahnıların, musiqin bizim xalqımıza sevinc gətirir, ilham verir, hər bir insan üçün yaşamağa, yaratmağa güc verir”.

Heydər Əliyev 1980-ci ilin dekabr ayının 4-də Zeynəb Xanlarovaya SSRİ Xalq artisti fəxri adını təqdim edərkən demişdir:

“Zeynəb Xanlarova Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimidir. Zeynəb Xanlarova öz yaradıcılığının ilk dövründən parlaq istedad nümayiş etdirmişdir,

buna görə də respublikamızda böyük hörmət və layiqli şöhrət qazanmışdır. Xalqımız öz gözəl müğənnisi ilə haqlı olaraq fəxr edir".

Böyük sənətkarın istedadını vaxtında (və layiqincə!) qiymətləndirən respublika rəhbəri onun yaradıcılığının zənginliyi barədə bəhs etmişdir:

"Cəsarətlə demək olar ki, bizim dövrümüzdə Zeynəb Xanlarova öz gözəl səsi ilə, özünəməxsus istedadı, yüksək professional sənətkarlığı, ancaq onun özünə xas olan ifaçılıq tərzi ilə ifaçılıq sənətində, Azərbaycan musiqi mədəniyyətində yeni bir səhifə açmış, musiqi mədəniyyətimizi zənginləşdirmişdir. Ölməz bəstəkarımız Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operasında, M.Maqomayevin "Şah İsmayıl", Z.Hacıbəyovun "Aşıq Qərib" operalarında baş qadın rollarında çox gözəl çıxış etməsi ilə yanaşı, Zeynəb Xanlarova xalqımızın ən qədim və ən sevimli musiqi janrı olan muğam sahəsində, xalq mahnılarının ifasında da böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanın müasir bəstəkarlarının yeni əsərlərinin yayılmasında onun böyük xidmətləri vardır".

Zeynəb Xanlarova Azərbaycan musiqisinə yeniliklər gətirdi, onu geniş xalq kütlələrinin birlikdə dinləyə, zövq ala biləcəyi vasitəyə çevirdi:

"Zeynəb Xanlarovanın yaradıcılığının xüsusi cəhətlərindən biri də ondan ibarətdir ki, o, ifaçılıq sənətində novatordur. O həm özünəməxsus səsi ilə, həm də özünəməxsus ifaçılıq üslubu ilə, demək olar ki, yeni ifaçılıq sənəti yaratmışdır. Sevindirici cəhət həm də bundan ibarətdir ki, Zeynəb Xanlarovanın ifaçılıq məktəbinin bir çox davamçıları vardır".

Sənətkarın qazandığı İttifaq, eləcə də dünya şöhrəti, əlbəttə, onun mənsub olduğu xalq qarşısında tarixi xidməti idi:

"Azərbaycan musiqi mədəniyyəti qarşısında Zeynəb Xanlarovanın xidməti bir də ondan ibarətdir ki, qardaş sovet respublikalarında mahnılarımızı fəal təbliğ edir və həmin respublikalarda onun çıxışları həmişə böyük müvəffəqiyyətlə keçir. Başqa ölkələrdə, xüsusən Şərq ölkələrində çoxmillətli sovet mədəniyyətinin təbliğatçısı kimi də o, böyük fəaliyyət göstərir".

Respublika rəhbəri görkəmli sənətkarın öz sənətinə sədaqətini xüsusi qeyd etmişdir:

"Zeynəb Xanlarovanın yaradıcılıq xüsusiyyətlərindən biri də bundan ibarətdir ki, o öz sənətinə çox sadiqdir. O öz sənətini sevir, öz yaradıcılığını daim təkmilləşdirir. Məhz buna görə Zeynəb Xanlarova bizim respublikada ən sevimli müğənnilərdən biridir".

Azərbaycan Prezidenti 1997-ci ilin oktyabr ayının 17-də Respublika sarayında məşhur müğənni və bəstəkar Müslüm Maqomayevin yubiley gecəsindəki nitqində demişdir:

"Müslüm Maqomayev 35 ildir ki, öz sənəti, istedadı, gözəl səsi ilə Azərbaycan musiqisinin, mədəniyyətinin inkişaf etdirilməsində görkəmli xidmətlər göstərib,

Azərbaycan xalqının şan-şöhrətini bütün dünyaya yaymağa çalışıbdır və bu sahədə də çox gözəl nailiyyətlər əldə edibdir.

...Bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, mahnılarımız məhz belə fitri istedadlı şəxslər və onların fədakarlığı nəticəsində bu qədər yüksək zirvələrə qalxmışdır".

Prezident böyük sənətkarın hələ çox gənc olduğu illərə qayıdaraq xatırlamışdır ki, "o vaxt mən maestro Niyazi ilə söhbət edirdim. Şübhəsiz ki, o, Müslümü uşaq yaşlarından tanıyırdı... O zaman o mənə və mənimlə bir yerdə olanlara dedi ki, bəli, bu, Azərbaycan incəsənətində həqiqətən yeni, parlaq ulduzdur, həm də təkcə Azərbaycan incəsənətində yox.

...Onu fərqləndirən bir cəhət də istedadının çoxşaxəli olmasıdır. Onun gözəl səsi, əla ifa texnikası var. O gözəl oxuyur, musiqi alətlərində gözəl çalır, çoxlu gözəl mahnılar bəstələyib. Gözəl şəkil çəkməsinə, heykəltaraşlıq istedadına gəldikdə bu da məlumdur".

Azərbaycan Prezidenti 2002-ci ilin sentyabr ayının 6-da Prezident iqamətgahında Müslüm Maqomayevə "İstiqlal" ordeninin təqdim edilməsi mərasimində demişdir:

"Əziz Müslüm! Azərbaycanda keçirilən bu yubiley şənlikləri – onlar hələ davam edəcək – sənin Azərbaycan mədəniyyətinə, incəsənətinə, ümumbəşəri dünya mədəniyyətinə böyük töhfə verməyinlə bağlıdır. Sənin yaradıcılığın Azərbaycan mədəniyyəti və incəsənətinin ayrılmaz və çox mühüm hissəsi olmuşdur. Sən öz həyatın və yaradıcılıq fəaliyyətin ərzində mədəniyyətimizi, musiqi sənətimizi zənginləşdirmisən, özü də çox zənginləşdirmisən".

Müslüm Maqomayevin sənətinin hansı mənbələrdən gəlməsi də qeyd olunmuşdur:

"Azərbaycan mədəniyyətinin son 40 ildən artıq tarixini Müslüm Maqomayevsiz təsəvvür etmək mümkün deyildir. Doğrudur, bu tarix daha dərinlərə gedir, çünki bizim bugünkü Müslüm Maqomayevin babası görkəmli bəstəkar, musiqiçi idi və dahi Üzeyir Hacıbəyovla birlikdə onlar Azərbaycanda professional musiqinin, opera sənətinin baniləri olmuşlar. Müslüm babasının işini layiqincə davam etdirir".

Prezident öz çıxışında Müslüm Maqomayevin xanımı, görkəmli müğənni Tamara Sinyavskayanı da unutmamışdır:

"Biz Müslümün böyük yaradıcılıq yolundan, böyük xidmətlərindən, musiqi sahəsində görkəmli fəaliyyətindən, ifaçılıq sənətindən danışarkən mütləq Tamara haqqında da danışmalıyıq, çünki 30 ildir onlar birlikdədirlər, yaradıcılıqları artıq onların ailəsinin yaradıcılığıdır... Mən hələ onu demirəm ki, biz xalqımızın Tamara Sinyavskaya kimi belə bir gəlini olması ilə həmişə fəxr etmişik".

Əlbəttə, "Azərbaycan" mahnısı Müslüm Maqomayevin şah əsəridir:

"Müslüm çox mahnılar yaratmışdır, yəni o özünü bəstəkar kimi də gözəl tanıtmışdır. Ancaq onun ən görkəmli mahnısı Azərbaycana həsr etdiyi mahnıdır. Bu mahnı Azərbaycanın himni kimi səslənir. O həmin mahnını, musiqini 1970-ci

illərin ortalarında gözəl şairimiz Nəbi Xəzrinin sözlərinə bəstələmişdir. Amma ən başlıcası budur ki, Müslüm bu mahnını elə yaratmış, elə ifa etmişdir ki, onu heç kim belə ifa edə bilməz... Bu, müstəsna mahnıdır. Bu mahnı ayrıca bir görkəmli əsər kimi tarixə daxil ola bilər və yəqin ki, daxil olacaqdır".

Müslüm Maqomayevin istedadı, yaradıcılığı həmişə yüksək qiymətləndirilmişdir:

"Müslüm, demək olar ki, gənc yaşlarından mükafatlar alır. Azərbaycanın xalq artisti adını alanda onun 29 yaşı var idi. Bu, Azərbaycan tarixində ilk hadisə idi. Onda 1971-ci il idi. Elə həmin il o, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu. 2 ildən sonra, 1973-cü ildə ona SSRİ Xalq artisti adı verildi. O zaman onun 31 yaşı vardı. Sovet İttifaqında heç kim bu yaşda belə yüksək ada layiq görülməmişdi".

Azərbaycan Prezidenti Heydər Əliyev Müslüm Maqomayevi 55 yaşında "Şöhrət", 60 yaşında isə "İstiqlal" ordeni ilə təltif etmişdir.

Müslüm Maqomayev Azərbaycan Prezidentinə minnətdarlıq edərək demişdir:

"Son vaxtlar Azərbaycan jurnalistləri tez-tez sual verirlər ki, nə üçün mən Azərbaycanda az-az oluram, bununla yanaşı, öz vətəndaşlığımı dəyişmədiyimi də qeyd edirlər. Deməliyəm ki, bütün bayramlarda, ən yüksək tədbirlərdə Azərbaycanda olmaqdan çox şadam. Zənnimcə, heç vaxt vədimə xilaf çıxmamışam və həmişə gəlmişəm. İndi burada öz 60 illik yubileyimi qeyd etdiyimə görə xoşbəxtəm, özü də, Heydər Əliyeviç, yubileyimi Sizinlə qeyd etdiyimə və bu orden lentini boynuma şəxsən Siz saldığınıza görə ikiqat xoşbəxtəm".

Azərbaycan Prezidenti 2002-ci ilin dekabr ayının 20-də Respublika sarayında Fidan və Xuraman Qasımovaların yaradıcılığının 25 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində demişdir:

"Fidan xanım, Xuraman xanım indi Qərb klassik operalarında ən çətin, ən ağır partiyaları məharətlə ifa edirlər. Biz bunu opera teatrlarımızda görmüşük. Bu gün göstərilən kinolentlərində də gördük. Nəhayət, bunu canlı olaraq burada Fidan xanım və Xuraman xanım öz çıxışları ilə nümayiş etdirdilər.

Beləliklə, bizim zəngin mədəniyyətimizin ən dəyərli inciləri var. Bu incilər çox deyil və çox olsa onlar heç vaxt qiymətli olmaz. Bax onlardan ən dəyərliləri Fidan xanımdır, Xuraman xanımdır.

...Mən hamını bizim cəmiyyətdə belə adamlara xüsusi münasibət, qayğı göstərməyə, belə insanlara hörmət etməyə dəvət edirəm".

Fidan Qasımovanın yaradıcılığını qiymətləndirərkən Prezident görkəmli müğənninin Nigar rolunda göstərdiyi uğuru yada salmışdır:

"1937-ci ildə "Koroğlu" əsəri səhnəyə qoyulanda Nigar rolunu ifa edən Azərbaycan millətindən deyildi. Siz bunu bilirsiniz. Yəni bu sənət o qədər çətin və o qədər də böyük iradə tələb edən sənətdir ki, o vaxt bizim Azərbaycanda belə müğənnilər tapılmırdı. Ondan xeyli müddət sonra bizim böyük aktrisamız Firəngiz Əhmədova bu rolu oynadı. Daha sonra növbə Fidan xanıma çatdı. Görürsünüz, tarix

böyükdür, illər çoxdur. Amma ifaçılar bir, iki, üçdür, ona görə də belələri insanların ümumi sayına daxil ola bilməz".

Ulu Öndər çıxışının sonunda həm Fidan xanımın, həm də Xuraman xanımın istedadının miqyası barədə tarixi mülahizələr söyləmişdir:

"Fidan da, Xuraman da Avropanın ən mötəbər opera səhnələrində müvəffəqiyyətlə çıxış edə bilərlər. Çünki biz onlara da, özümüzünkülərə də baxırıq və müqayisə etmək imkanımız da var. Doğrudan da, təəssüf ki, biz vaxtilə bu işlə yaxşı məşğul ola bilməmişik. Ancaq indi məşğul olmaq lazımdır. Bunu deyərək mən, ümumiyyətlə, istedadı olan hər bir gəncə, hər bir insana xüsusi münasibət göstərilməsini istəyirəm. Çünki bu istedadlardan bizim gələcəyimizin mədəniyyət xadimləri yaranacaqdır və burada Fidan xanım və Xuraman xanım nümunədirlər".

Heydər Əliyev 1995-ci ilin 8 aprelində Üzeyir Hacıbəyov adına Musiqi Akademiyasında gənc musiqiçilərlə – beynəlxalq müsabiqələr laureatları və diplomantları ilə görüşərkən demişdi ki, "xalq bir çox xüsusiyyətlərilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir". Və əlavə etmişdir:

"XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçibdir. Xüsusən incəsənətimizin böyük bir sahəsi olan musiqidə professional musiqi yaranıbdır. Bu sahədə də, şübhəsiz ki, dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaranmışdır. Əsasını mərhum Üzeyir Hacıbəyovun qoyduğu böyük bir məktəb".

Prezident XX əsrin zirvəsindən Üzeyir Hacıbəyovun musiqi məktəbini yüksək dəyərləndirmişdir:

"İndi, XX əsrin axırlarında biz bu məktəbin nə qədər böyük yol keçdiyini, eyni zamanda xalqımız üçün nə qədər faydalı olduğunu, onun hörmətini, şərəfini nə qədər yüksəklərə qaldırdığını və xalqımızın ümumi mədəniyyətinə necə böyük təsir etdiyini görürük".

Əlbəttə, çətin iqtisadi şəraitdə musiqi sahəsində gənc istedadların meydana çıxması Ulu Öndəri məmnun etməyə bilməzdi:

"...Bu gün məni çox sevindirən odur ki, bizim bu böyük mədəniyyət yolu davam edir və gənc istedadlar meydana çıxır. Doğrudur, son illər xalqımız, respublikamız ağır şəraitdədir... Ancaq belə bir dövrdə də mədəniyyətimizin, incəsənətimizin durmadan inkişaf etməsi və bunun nəticəsi olaraq gənc istedadların meydana çıxması çox sevindirici haldır".

Və bu bir də ona görə sevindirici idi ki, söhbət professional musiqi ilə məşğul olub böyük nailiyyətlər qazanan gənclərdən gedirdi:

"Bizim musiqimiz – xalq musiqisi, folklor musiqisi çox rəngarəngdir, çox zəngindir. Elə hər bir kənddə yaşayan adam da atadan-babadan qalmış mahnıları

oxuyur. Biri yaxşı ifa edir, biri nisbətən zəif. Ancaq bu folklor musiqisi, xalq musiqisi daim yaşayır. Amma həm ifa üçün, həm də qavranmağa görə mürəkkəb olan professional musiqi nümunələrini yaratmaq, şübhəsiz ki, bundan çox fərqlidir və bu da bizim üçün çox qiymətlidir".

Prezident görkəmli musiqiçi Fərhad Bədəlbəylinin keçdiyi yaradıcılıq yolundan bəhs etmişdir:

"Mən Fərhad Bədəlbəyliyə baxıram. 25 il bundan öncə Fərhad Bədəlbəyli gənc bir pianoçu idi, gəlib konsertlərdə musiqi ifa edirdi. Şübhəsiz ki, fitri istedadı onu gətirib o dərəcəyə çatdırmışdı, ancaq o vaxt o, sizin kimi, gənc bir pianoçu idi. Onun yetişməsində rəhmətlik Niyazinin xidmətləri çoxdur. Mənim xatirimdədir, 70-ci ilin əvvəllərində ilk dəfə böyük simfonik konsertlərdə Niyazi Fərhadı təqdim etdi və gördük ki, Fərhad aybaay, ilbəil, hər yeni görüşdə inkişaf eləyir, daha da yüksəlir, öz ixtisasını artırır və nəhayət, böyük yola çıxdı".

Gənc musiqiçilərin gələcəyinə böyük ümidlər bəsləyən dövlət başçısı onlara məsləhət görmüşdür ki, yalnız indiyə qədərki uğurlarla kifayətlənməsinlər, daim çalışsınlar, irəli getsinlər, əsl yaradıcılıq yoluna çıxsınlar:

"Bu gün sizin həyatınızda yeni bir mərhələ başlanır. Adlar almısınız, qalib gəlmisiniz, məşhurlaşmısınız. İstərdim ki, bununla kifayətlənməyəsiniz. Öz üzərinizdə çox çalışasınız, işləyəsiniz. Mənə belə gəlir ki, sizin hər biriniz böyük yaradıcılıq yolu ilə gedəcəksiniz".

Prezidentin gənclərə bir məsləhəti də ondan ibarət olmuşdur ki, ictimai həyatdan, siyasətdən kənarda qalmasınlar. Və əslində, bu heç mümkün də deyil:

"Burada Fərhad dedi ki, biz incəsənət adamıyıq, siyasətə qarışmırıq. O qədər də düz demədi. O özü siyasətə qarışır, cürbəcür təşkilatlarda iştirak edir. Bəzilərində sədrdir, bəzilərində müavindir. Bəzilərində üzvdür. Demək istəyirəm ki, heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır".

1997-ci ilin yanvar ayının 19-da Azərbaycan Prezidenti Heydər Əliyev xəstəxanada müalicə olunan Bəxtiyar Vahabzadə ilə görüşərkən onların arasında belə bir söhbət getmişdir:

"Heydər Əliyev:... Bilirsiniz, bəzən mən çox görkəmli şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, müğənnilərimiz haqqında düşünəndə deyirdim ki, görəsən bu gedəndən sonra onu kim əvəz edəcək? Amma sonra fikirləşib gördüm ki, yer boş qalmır. Gedən gedir, amma yenisi də başqa ruhda yaranır. Bəlkə də, Bülbül kimisi olmayacaq, amma Bülbülün yerini verənlər olacaq.

Bəxtiyar Vahabzadə: Azər Zeynalov var. İlahi, o nə gözəl, şirin oxuyur!

Heydər Əliyev: Bəli, Azər Zeynalov. Mən Rəşid Behbudovu çox sevirdim. Rəşid Behbudov yaşlaşdıqca mən daim narahat olurdum ki, onun yerini kim tutacaq. İndi baxıram, Azər Zeynalov gözəl oxuyur".

* * *

Azərbaycan Prezidenti 1997-ci ilin 29 aprelində Prezident sarayında dünya şöhrətli musiqiçilər Mstislav Rostropoviç və zövcəsi Qalina Vişnevskaya ilə görüşmüş, onları salamladıqdan sonra demişdir:

"Paris Parisdir, Moskva Moskvadır, Bakı isə planetimizin görkəmli adamı olan Mstislav Rostropoviçin dünyaya gəldiyi torpaqdır. Doğma torpağa sitayiş etmək həmişə hər bir insanın müqəddəs borcudur. Sizin dəvəti qəbul edib bizə təşrif gətirməyiniz bir daha sübut edir ki, siz, həqiqətən, böyük adamsınız, keçmişdə nə varsa hamısını, öz mənşəyinizi, doğulduğunuz torpağı yüksək qiymətləndirirsiniz".

Prezident görkəmli sənətkarın Sovetlər Birliyi dövründə haqq-ədalət uğrunda mübarizəsini yada salmış, onun mərdanə hərəkətlərini, öz əqidəsindən dönməməsini xatırlamışdır:

"Biz dostumuz Mstislav Rostropoviçdən danışdıqda onun haqqında heç də təkcə görkəmli musiqiçi, incəsənət ustadı kimi danışmırıq. Söz yox ki, bunlar onun ləyaqətidir və onu bütün dünyada şöhrətləndirmişdir. Bununla bərabər, o, birlikdə yaşamış olduğumuz ölkədə – Sovet İttifaqında 70-ci illərdə mövcud olmuş ədalətsizliyə qarşı çıxış edərkən öz cəsarətli hərəkətləri, mövqeyi, prinsipiallığı ilə şöhrətlənmişdir. Ola bilsin ki, avtoritarizmə, totalitarizmə qarşı çıxışlarınızı, siz Sovet İttifaqını tərk etməyə məcbur olduğunuz dövrdə başqa ölkələrdə coşğun siyasi fəaliyyətinizi bəzi adamlar pisləyirdi, bəziləri isə buna mənfi bir hal kimi baxırdılar. Həyat isə sizin nə dərəcədə haqlı olduğunuzu göstərdi".

Mstislav Rostropoviç Azərbaycana dəvət olunduğu üçün dövlət başçısına təşəkkür edərək demişdir:

"Bu gün mən yaxın dostlarımın – Niyazinin, Qara Qarayevin məzarlarını ziyarət etdim. Biz Qara Qarayevlə Şostakoviçdən dərs almışıq. Bilirsinizmi, Bakı mənim üçün xüsusi bir şəhərdir. Bu gün çox gülərüzlə qarşılanmağım, xalqın böyük istedadından xəbər verən gözəl, yüksək professional incəsənətiniz məni o dərəcədə valeh etdi ki, Bakı ilə hələ atamın başladığı əlaqəni uzatmağı özümə borc bilirəm. Buna görə də xahiş edirəm mənim təklifimlə razılaşasınız. 2000-ci ilədək mənim hər bir günüm üçün konsert nəzərdə tutulmuşdur. Buna baxmayaraq, artıq 1998-ci ildə bəzi konsertlərimizdən azad olmağa çalışacağam və cənab Prezident, sizin icazənizlə həmin vaxtdan hər il on günlüyə Bakıya gəlib gənc Azərbaycan musiqiçilərinə ustalıq dərsi verəcəyəm. Bu mənim ünvanıma söylədiyiniz gözəl sözlərinizə cavab olacaqdır".

Prezident görkəmli sənətkarın Bakı, Azərbaycanla dərin köklərlə bağlılığını vurğulamış, onun da atası kimi Azərbaycan musiqisinə, gənc musiqiçilərin yetişməsinə öz töhfələrini verəcəyinə əminliyini bildirmişdir:

"Şərq ilə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda olan Azərbaycan xalqının öz milli, özgür mədəniyyətini qoruyub saxlaması, dünya sivilizasiyasına, professional musiqiyə, Qərb incəsənətinə qovuşması üçün çox iş görmüşlər. Sabah siz bizim

konservatoriyada olacaqsınız. Onun bünövrəsinin qoyulmasında atanızın da xidməti var. Cəmiyyətimiz, musiqiçilərimiz, gənclərimiz dediyiniz o təklifə ehtiyac duyurlar. Bunu ancaq arzulamaq olardı. Odur ki, sizin təşəbbüsünüzü böyük minnətdarlıqla qəbul edirəm".

Azərbaycan Prezidenti 1998-ci ilin iyun ayının 12-də görkəmli musiqiçi Mstislav Rostropoviçə "Şöhrət" ordeni təqdim olunması mərasimində nitq söyləmişdir. O demişdir:

"Onun yaradıcılıq fəaliyyəti, musiqi sənətinin, ümumən dünyada bütün mədəniyyətin inkişafına töhfəsi bir çox ölkələr, dövlətlər tərəfindən, dünyanın bir çox məşhur mədəniyyət, incəsənət, musiqi xadimləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Slava Rostropoviç dünyada belə yüksək ad və belə şöhrət qazanmış tək-tək insanlardan biridir. Yenə deyirəm, bu, ən əvvəl onun fitri, bənzərsiz istedadı və fədakarlığı, əməksevərliyi, öz peşəsinə, sənətinə, öz işinə sədaqəti ilə bağlıdır".

Dünyanın dəyişməsində, xalqların azadlığa çıxmasında, demokratiyanın bərqərar olmağa başlamasında, heç şübhəsiz, görkəmli ictimai-siyasi xadimin də rolu inkaredilməzdir:

"İndi dünya dəyişmişdir, dünya azadlıqsevər adamların görmək istədiyi kimi, Mstislav Rostropoviçin görmək istədiyi kimi olmuşdur.

...İndi biz Azərbaycanda milli azadlıq, dövlət müstəqilliyi əldə edərək bu azadlığın olmasını istəyənlərin hamısına öz ehtiramımızı böyük minnətdarlıq hissi ilə bildiririk. Onlardan biri, ən parlaq, ən görkəmli şəxsiyyət Mstislav Rostropoviç idi".

Azərbaycan Prezidenti görkəmli şəxsiyyətin öz vətəni ilə əlaqəsini heç zaman kəsmədiyini xüsusi olaraq vurğulamışdır:

"Mstislav Leopoldoviç Moskvada özünün coşğun fəaliyyəti illərində Azərbaycanla əlaqələrini heç vaxt kəsməmiş, Azərbaycanın incəsənət, musiqi xadimləri ilə yaradıcılıq və dostluq münasibətləri saxlamış, onlara kömək etmiş, dəstək vermişdir. Yəni o, – mən bunu xüsusi sevinc hissi ilə deyirəm, – doğulduğu, yaşadığı, valideynlərinin də yaşayıb-yaratdıqları torpağı heç zaman unutmamışdır".

Dünyada tanınan görkəmli ictimai-siyasi xadimin ölkəmizin problemləri ilə bilavasitə maraqlanması, qaçqın-köçkünlərlə görüşməsi və Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq əzmi, əlbəttə, son dərəcə vacib idi:

"Əziz Slava, bunu da ayrıca qeyd etmək istəyirəm ki, bu günlər siz Azərbaycanın həyatının çox ciddi problemlərinə – Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü ilə, Azərbaycan ərazisinin bir hissəsinin işğalı ilə, işğal olunmuş torpaqların sakinlərinin öz doğma yerlərindən didərgin salınması ilə bağlı problemlərə də böyük diqqət yetirdiniz və dünən gördüyünüz kimi, bu insanlar çox ağır şəraitdə çadırlarda və həyat üçün uyğunlaşdırılmamış digər müxtəlif yerlərdə yaşayırlar. Dünən bütün gününüzü buna həsr etməyinizi mən yüksək qiymətləndirirəm".

Prezident görkəmli həmyerlimizin xanımı, əqidə yoldaşı Qalina Vişnevskayaya da öz hörmət və ehtiramını bildirmişdir:

"Ölkəmizin əvvəllər malik olmadığı öz atributları, ordenləri var. "Şöhrət" ordeni də Azərbaycanın dövlət mükafatıdır. Yeri gəlmişkən, mənə xoşdur ki, bu ordenin adı ilə sizin adınız eynidir.

...Sizin gözəl ailəniz, Qalina Pavlovna Vişnevskaya kimi qəşəng xanımız var. Ərlə arvadın eyni bir sahədə çalışması, üstəlik, onların eyni baxışlara malik olması xoşbəxtlikdir. Görkəmli müğənni olan Qalina Pavlovna Vişnevskaya o çətin dövrdə, siz cəsarətli vətəndaş addımı atanda sizə vəfalı dost oldu. O həmişə sizinlə birlikdə idi. Bu gün də sizinlədir".

Azərbaycan Prezidenti 1999-cu ilin noyabr ayının 22-də Prezident sarayında Mstislav Rostropoviçlə növbəti görüşündə demişdir ki, "sizi Azərbaycana çox şey bağlayır. Amma sizinlə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə böyük fasilə olmuşdu... Lakin burada sizin yubileyinizi qeyd etmək üçün mənim dəvətimlə buraya gəldiyiniz vaxtdan bəri öz vətəninizlə, doğma torpağınızla münasibətlərinizdə yeni mərhələ başlandı. Şadam ki, bu mərhələ çox gözəl nəticələr verir və nəzərdə tutulmuş nə varsa hamısı həyata keçir, yerinə yetirilir.

İndi bizim insanlar müxtəlif televiziya kanalları ilə gah bir, gah da digər ölkədə sizin ifanızı görərkən deyirlər – bax, bizimkidir, bizimkidir!".

Prezident həmyerlimizin Bakıdakı ustad dərslərini dəyərləndirmişdir:

"Sizin ustad dərsləriniz çox görkəmli işdir. Ona görə də kim sizin şagirdiniz olmaq və sizdən mümkün olan hər şeyi öyrənmək şərəfinə nail olursa, bu onun üçün, şübhəsiz, böyük səadətdir. Sizinlə musiqidə təmasda olanlar üçün, – əlbəttə, istedadı varsa, siz isə istedadsız adamları yaxın buraxmırsınız, – gələcəyə yol açılır".

Heydər Əliyevlə Mstislav Rostropoviçin söhbətində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, qaçqın-köçkünlərin ağır vəziyyəti, Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizəsi kimi aktual məsələlərə xüsusi yer ayrılmış, prezident Azərbaycanın gələcəyi üçün görülən böyük işlər, strateji layihələr barədə məlumat vermişdir.

Azərbaycan Prezidenti 2000-ci ilin oktyabr ayının 7-də Prezident sarayında Mstislav Rostropoviçlə görüşüb söhbət edərkən demişdir:

"Şadam ki, sizin hər il Azərbaycana gəlməyiniz və burada ustad dərsləri keçmək barədə üzərinizə götürdüyünüz öhdəliklərin yerinə yetirilməsi möhkəm, sabit ənənə şəklini almışdır. Əlbəttə, siz öz konsertlərinizlə bakılıları və ümumiyyətlə, Azərbaycanda hamını həmişə sevindirirsiniz. Ona görə də hesab edirəm ki, bu dəfəki konsertiniz də Azərbaycanda hadisə olacaq, böyük hadisə olacaqdır".

Oktyabrın 9-da Respublika sarayındakı konsertdən sonra Prezident görkəmli musiqiçini təbrik edərək söyləmişdir:

"Mən salonda əyləşib dinləyirdim və düşünürdüm ki, bu hər hansı dəmirçinin zəhmətindən ağır zəhmətdir, hər hansı poladəridənin zəhmətindən ağır zəhmətdir,

hər hansı bənnanın zəhmətindən, ən çətin fiziki işdən ağır zəhmətdir. Mən görürəm, ancaq siz bütün bunları böyük coğqunluqla, çox şövqlə və qüvvə ilə edirsiniz. Özü də siz konserti necə başladınızsa o cür də tamamladınız. Mən cüzi də olsa zəifləmə hiss etmədim.

...Baxın, orkestr necə də dəyişmişdir. Biz ona nə qədər qayğı göstərsək də – əmək haqqını qaldırdıq, geyim tikdirdik, alətlər aldıq – bunlar hələ hər şey demək deyildir. Başlıcası odur ki, siz hər dəfə gəlişinizlə orkestrin səviyyəsini qaldırırsınız, qaldırırsınız...”

2002-ci ilin mart ayının 3-də Azərbaycan Prezidenti dövrümüzün görkəmli musiqiçisi Mstislav Rostropoviçə 75 illik yubileyi münasibətilə təbrik məktubu ünvanlamışdır. Həmin məktubda deyilir:

“Sənətinizə xas olan virtuoz ustalıq dünya musiqi mədəniyyəti tarixində bütöv bir mərhələni təşkil edir, müxtəlif xalqların və dövrlərin musiqisinin müasir ifaçıları qarşısında tamamilə yeni vəzifələr qoyur. Bənzərsiz musiqiçi və böyük humanist kimi, siz öz çoxşaxəli fəaliyyətinizlə bir çox ölkələrin mədəni və ictimai-siyasi həyatına böyük töhfələr verirsiniz. Qloballaşma dövründə mədəniyyətlərin və sivilizasiyaların son dərəcə aktual olan dialoqu sizin səyləriniz sayəsində konkret cizgilər kəsb edərək, həyatımızın real fenomeninə çevrilir. Son illərdə siz Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsində və musiqi sənətinin inkişafında böyük rol oynamısınız. Sizin Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestri ilə gərgin işiniz, Bakı Musiqi Akademiyasında apardığınız ustad dərsləri böyük əks-səda doğurmuş və əhəmiyyət kəsb etmişdir. Bütün bunlar Azərbaycan musiqiçilərinin böyüməkdə olan nəsillərinin tərbiyə edilməsində keyfiyyətcə yeni səviyyəyə nail olmağa kömək edir”.

Azərbaycan Prezidenti 2002-ci ilin mart ayının 3-də Prezident sarayında Mstislav Rostropoviç və xanımı Qalina Vişnevskaya ilə görüşüb söhbət etmişdir. O, görkəmli musiqiçini 75 illik yubileyi münasibətilə təbrik etdikdən sonra demişdir:

“Əziz Slava, şadam ki, siz özünüzün 75 illiyinizi beş il əvvəl olduğu kimi yenə də tam sağlam, böyük enerji və qüvvə ilə qarşılayırsınız... Əlbəttə, burada Qalina Pavlovnanın böyük xidməti var... O ağır illərdə, insan hüquqları uğrunda mübarizənizə görə Sovet İttifaqından əslində didərgin salındığınız illərdə məhz Qalina Pavlovnanın həyanlığı və dəstəyi, həmişə sizinlə birlikdə olması, sizə ürək-dirək verməsi, sizdə inam yaratması, təbii, sizi ruhlandırmış və bütün bunlar sizin bu sınaqdan çıxmağınızda böyük rol oynamışdır. Bilirsiniz ki, o illərdə mən Sovetlər İttifaqının rəhbərliyində idim və Rostropoviçlə Vişnevskayanın ziyankarlıq fəaliyyəti haqqında ən yüksək səviyyədə söhbət getdiyini dəfələrlə eşitmişdim. Onda deyirdilər ki, Rostropoviçin öz fəaliyyəti ilə belə coşğun məşğul olmasında Qalina Pavlovna Vişnevskaya böyük rol oynayır... Ən çox təqsirkar Qalina Vişnevskayadır”.

Ərlə arvadın çətin ictimai-siyasi mübarizə illərində bir-birinə dayaq durmasını özünəməxsus səmimi bir şəkildə təqdir edən Prezident Mstislav Rostropoviçin

beynəlxalq miqyasdakı xeyriyyə işlərini də qiymətləndirmiş, xüsusilə Azərbaycana olan münasibətinə görə onu təltif etmişdir:

“Sizin musiqi fəaliyyətinizi, ictimai fəaliyyətinizi bütün ölkələrdə qiymətləndirirlər. Lakin bunları ən çox Azərbaycanda dəyərləndirirlər. Bu günlər ərzində siz böyük iş gördünüz və bu çox xoşdur. Qlobal Vaksinasiya Fondunun nümayəndə heyəti ilə birlikdə buraya gəlməyiniz və bir milyon dollardan artıq vaksin gətirməyiniz respublikamız üçün mühüm hadisədir.

...Əzizim Slava, Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında, Azərbaycan musiqisinin inkişafında görkəmli xidmətlərinizə görə siz prezidentin fərmanı ilə Azərbaycanın ən yüksək ordeni – “İstiqlal” ordeni ilə təltif olunmusunuz”.

Mstislav Rostropoviç demişdir:

“...Mən çox şeyə görə öz valideynlərimə minnətdaram – aldığım təhsilə görə də və ümumiyyətlə, hər şeyə görə. Lakin məni həyata gətirmək üçün belə Torpağı seçdiyinə görə anama hədsiz minnətdaram. Bax buna görə ona xüsusilə minnətdaram.

Əlbəttə, bunu da deməliyəm ki, Azərbaycana, Bakıya olan məhəbbətim mənə atamdan keçmişdir. Buradan getdikdən sonra atam Moskvada yaşamışdır... Moskvada Azərbaycan incəsənəti dekadası keçiriləndə atam məni özü ilə “Moskva” mehmanxanasına apardı və dedi ki, səni görkəmli musiqiçi ilə tanış edəcəyəm. Atamın məni tanış etdiyi Üzeyir Hacıbəyovun siması ömür boyu yaddaşımda həkk olundu... Atam yalnız müharibə başladığı üçün Bakıya qayıtmadı”.

Görkəmli şəxsiyyət Azərbaycanda gedən inkişafı xüsusi olaraq qeyd etmişdir:

“Əziz Prezidentimizə vəd etdiyim kimi, 5 ildir ki mən hər il buraya gəlirəm və hər dəfə də burada baş vermiş böyük tərəqqinin şahidi oluram. Bunlar, hətta küçələrdə də nəzərə çarpır. Küçələr daha təmizdir, adamların yerişi də dəyişmişdir, hansı istiqamətdə, haraya getdiklərini dəqiq bilirlər. Birinci dəfə buraya gələndə məndə belə təsəvvür vardı ki, bilmirsən bəzi insanlar gəzişirlərmi, yoxsa haraya getdiklərini bilmirlərmi. İndi isə görürəm ki, hər şey öz yoluna düşür”.

Mstislav Rostropoviçə “İstiqlal” ordeninin təqdim edilməsi mərasimində çıxış edən Azərbaycan Prezidenti demişdir:

“Sizin dünyanın bir çox ölkələrindəki çıxışlarınız və insanlarla ünsiyyətiniz, deyərdim ki, musiqiçinin, ictimai xadimin, incəsənət xadiminin fəaliyyətinin nadir nümunəsidir. Sizin yaradıcılığınız, şəxsiyyətiniz əfsanəyə çevrilmişdir. Özü də bu, ilk növbədə, sizin qeyri-adi istedadınız sayəsində, sənətinizin zəngin məzmunu sayəsində, coşqun ictimai fəaliyyətiniz, xüsusən hüquq-ədalət uğrunda, həqiqət uğrunda, insan hüquqları uğrunda mübarizə məsələlərində fəaliyyətiniz sayəsində olmuşdur. Sizin həyatınız xoşbəxt həyatdır. Lakin o, belə böyük adamların həyatında olduğu kimi, heç də həmişə hamar və şirin olmamışdır.

...Ancaq siz cəsur insansınız və sizi fərqləndirən cəhət odur ki, siz bu məhrumiyyətlərə, bu məşəqqətlərə, bu qanunsuzluğa mərdliklə sinə gərərək və tab gətirərək sübut etdiniz ki, həqiqət sizin tərəfinizdədir”.

Prezident əlavə etmişdir ki, Mstislav Rostropoviç Azərbaycana hər gəlişi ilə öz tarixi vətəni ilə daha da doğmalaşır, ölkənin ictimai həyatında daha yaxından iştirak edir:

“Dünyada böyük dəyişikliklərin baş verdiyi, Vətənimiz Azərbaycanın müstəqil dövlət olduğu indiki vaxtda biz yenə də birlikdəyik. Çox xoşdur ki, siz o illərdə bir çox ölkələri gəzib-dolaşsanız da öz Vətəninizi unutmadınız. İmkan düşən kimi Azərbaycana gəldiniz və sıx əlaqələrimiz – istər qohumluq əlaqələrimiz, istər musiqi əlaqələrimiz, istərsə də ictimai fəaliyyət sahəsində əlaqələrimiz bərpa oldu.

...Qaçqınların çadır şəhərciklərinə şəxsən getdiyinizə, onların necə çox ağır şəraitdə yaşadıqlarını gördüyünüzə, Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasındakı münaqişənin necə məşəqqətli nəticələrə gətirib çıxardığının və Azərbaycan xalqının erməni təcavüzündən, bu münaqişədən necə böyük zərər çəkdiyinin şahidi olduğunuza görə mən sizə təşəkkür edirəm”.

Mstislav Rostropoviç demişdir:

“Azərbaycan zəngin ölkədir, öz faydalı qazıntıları ilə zəngindir, istedadları ilə zəngindir, ona görə də dünyada hökmranlıq etmək istəyən hər bir ölkə Azərbaycanı tabe etməyə çalışmışdır. Ona görə də həqiqətən güclü iradəyə, əsl siyasi dühaya malik olmaq lazım idi ki, çox da ağrılı nəticələr olmadan, vətəndaş müharibəsi baş vermədən Azərbaycanı müstəqil , gözəl və azad bir məmləkətə çevirmək mümkün olsun.

...Əziz Heydər Əliyeviç, sağ olun. Sağ olun ki, dünyaya göz açmaq səadətinin nəsib olduğu ölkəni Siz belə bir haqq-ədalət qalasına, bütün sahələrdə tərəqqi diyarına çevirmisiniz”.

* * *

Azərbaycan Prezidenti 2000-ci ilin noyabr ayının 12-də Respublika sarayında Rusiya estradasının ulduzu Alla Puqaçovanın iştirakı ilə konsertdən sonra onunla görüşüb söhbət etmişdir:

Heydər Əliyev:... Siz bu gün bizə çox böyük zövq verdiniz. Siz özünüz gördünüz, salondakılar sizin çıxışınızdan, sadəcə olaraq, vəcdə gəlmişdilər. Siz olduqca böyük zövq verdiniz. Mən belə bir çıxış xatırlamıram, bugünkü konsert kimi konsert xatırlamıram... Dünya ulduzu öz ad-sanını qoruyub saxlamalıdır.

...Qətiyyən dəyişməmisiniz, əvvəlkitək gözəlsiniz, əvvəlkitək gəncsiniz.

Alla Puqaçova: Gözəlləşmişəm, cavanlaşmışam... Əsl kişi bundan artıq daha nə deyə bilər...

Heydər Əliyev: Mən gördüyümü, duyduğumu deyirəm.

...Bir baxın, bu mahnılar necə də heyranlıq doğurur. Siz qazandığınız uğurlarla kifayətlənmədiniz və müasir mahnılarınızı da ifa etdiniz. Sizin ifa etdikləriniz bizim üçün əziz, çox qiymətli nə vardısa, onların davamıdır. Alla Borisovna səhnəyə

çıxandan keçmiş Sovetlər İttifaqında, dünyada böyük məhəbbət və böyük nüfuz, böyük şan-şöhrət qazanmışdır...”.

Azərbaycan Prezidenti 1997-ci ilin iyun ayının 5-də İosif Kabzonu Bakıda “Vida qastrolu”nda olarkən qəbul etmişdir. Prezident görkəmli müğənnini salamladıqdan sonra demişdir:

“Məndən soruşdunuz ki, sizin üçün nə oxuyum? Mənim istədiklərimin hamısını oxudunuz. Əlbəttə, o vaxtların, 60-70-ci illərin mahnıları gözəl idi... Məsələn, “Qara gözlər” mahnısı... Məsələn, salondan sizə dedilər ki, “Durnalar” mahnısını oxuyasınız. Nə qədər gözəl mahnıdır! Bu mahnının necə yaranması mənim xatirimdədir. Mərhum Frenkel onu Rəsul Həmzətovun sözlərinə bəstələmişdi...”.

İosif Kabzonun fitri istedadını, yüksək peşəkarlığını qeyd edən Prezident onunla özü arasında maraqlı (və son dərəcə səmimi!) bir müqayisə aparır:

“Bilirsiniz, bir dəfəyə, fasiləsiz olaraq bu qədər çox və çətin mahnıları gözəl səslə və parlaq şəkildə ifa etmək – bu sizə bəxş edilmiş Allah vergisidir. Üstəlik, siz yorulmaq bilmirsiniz. Bəlkə də, bunu deməyim o qədər də yerinə düşmür, ancaq mən də son dərəcə böyük həcmdə iş görməli oluram. Çox çıxış etmək, nitqlər söyləmək, xaricdən gələn müxtəlif nümayəndə heyətlərini qəbul edərkən çox danışmaq lazım gəlir... Amma bir var ki, işgüzar şəraitdə danışasan, bir də var oxuyasan, axı hər mahnının öz xüsusiyyəti, öz çalarları var”.

Və Prezident əmin olduğunu bildirmişdir ki, görkəmli müğənni öz sənəti ilə heç vaxt vidalaşmayacaq:

“Belə hesab edirsiniz ki, “Vida qastrolu”na çıxmısınız, amma mənə elə gəlir ki, bu vida qastrolu deyildir.

... Əlbəttə, sentyabrın 11-də biz sizin 60 illik yubileyinizi keçirəcəyik, amma bundan sonra siz dayana bilməyəcəksiniz. Belə potensialla, belə səslə, bu cür yorulmazlıqla, enerji ilə siz evdə oturub qəzet oxuya bilməzsiniz”.

Əlbəttə, xalqları musiqi qədər birləşdirən ikinci bir sənət təsəvvür etmək o qədər də asan deyil. Və bu işdə İosif Kabzon kimi sənətkarların rolu çox böyükdür:

“Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir şey, heç bir vasitə oynaya bilməz. Siz bunu çox əla edirsiniz... Bu, əlaqələrin, dostluğun möhkəmlənməsinə, qiymətli və əziz nə varsa, hamısını möhkəmləndirməyə xidmət edən böyük işdir”.

Məşhur pianoçu, həmyerlimiz Bella Davıdoviç 1998-ci ilin sentyabr ayının 10-da Respublika sarayında konsert vermiş, konsertdən sonra onunla görüşən Azərbaycan Prezidenti ifaçını təbrik edərək demişdir:

“Bilirsinizmi, bu gün mən sizi məmnunluqla dinlədim, konsert qurtardıqdan sonra isə siz cəmi bir neçə kəlmə dediniz, amma Bakı haqqında deyilən bu sözlər çox xoş idi.

...Burada musiqi ənənələri olmasaydı, belə istedadlar yetişməzdi. Burada musiqi mühiti, şəraiti, atmosferi, ziyalılıq atmosferi, belə yüksək intellekt atmosferi olubdur".

Prezidentə minnətdarlığını bildirən Bella Davıdoviç demişdir:

"Mənim valideynlərim əsl bakılı idilər. Mənim babam konsertmeyster olmuşdur. Mən fəxr edirəm ki, o hələ 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə Azərbaycanı uğurla təmsil etmiş, hətta bu ongünlükdə iştirakına görə ordenə layiq görülmüşdür".

Azərbaycan Prezidenti 1999-cu ilin iyul ayının 25-də Prezident sarayında məşhur İspaniya müğənnisi Xulio İqlesias ilə görüşmüş, onu salamladıqdan sonra demişdir:

"Allah sizə çox gözəl səs veribdir və çox gözəl istedad veribdir. Gözəl səsinizlə, gözəl istedadınızla siz, həqiqətən, dünyanın ən məşhur, ən sevimli, ən gözəl müğənnilərindən biri olmusunuz.

...Mən xüsusən onu qeyd etmək istəyirəm ki, siz ölkəmizə gələn kimi ilk növbədə Azərbaycanın ağır vəziyyətdə yaşayan insanları ilə, yəni Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində doğma yurdlarından zorla çıxarılıb, indi çadırlarda yaşayan insanlarla görüşə getdiniz".

Prezident məşhur müğənninin yaradıcı zəhmətinə böyük dəyər vermiş, hər bir yüksək sənətkarlıq aktının arxasında nə qədər əmək, enerji sərfi dayandığını qeyd etmişdir:

"Mən şəxsən, ümumiyyətlə, incəsənət aləminin insanları ilə, musiqi, teatr sənətkarları ilə həmişə çox maraqlanmışam və onların çoxunun həyatı ilə tanışam. Yaxşı bilirəm ki, səhnədə öz sənətini axşam bir, iki, üç saat nümayiş etdirən sənətkar, demək olar ki, bir gecədə on günlük iş görür. İnsanların çoxu teatra, konsertə gəlir, müğənnini dinləyir, zövq alır. Elə bilir ki, asan bir şeydir: gəldi, səhnəyə çıxdı, oxudu və bununla da iş qurtardı. Ancaq şəxsən mən bilirəm, - bir dəfə səhnəyə çıxmaq üçün ən böyük artist, ən böyük müğənni, ən böyük sənətkar nə qədər hazırlaşır, nə qədər gərgin saatlar keçirir və öz sənətini nümayiş etdirir".

Görkəmli sənətkar demişdir:

"Siyasətçi olmayıb müğənni olmağım heç də o demək deyil ki, mən insanlar barədə düşünmürəm. Əlbəttə ki, mən qaçqınların düşdüyü vəziyyəti, onların əzab-əziyyətlərini, onların günbəgün yaşadığı çətinlikləri dərindən duyuram. Ümidimi itirmirəm ki, onlar çox tezliklə evlərinə qayıdacaqlar... Hara gedirəmsə gedim, bu barədə hamıya deyəcəyəm. Çünki bu ölkədə oldum, bu ölkəni sevdim, bu ölkənin xalqını bəyəndim".

Sonra müğənni ilə Prezident arasında belə bir söhbət getmişdir:

"Xulio İqlesias: Cənab Prezident, Sizə, bu ölkəyə, bu ölkənin qonaqpərvərliyinə minnətdaram. Sizin gözəl, hər şeyi görə biləcək gözləriniz vardır.

Heydər Əiyev: Siz bunu dünən də mənə dərhal dediniz. Mən özüm heç o qədər də təsəvvür edə bilmirəm ki, mənim siz dediyiniz kimi gözlərim vardır. Gözlərim itidir, ancaq gözəlliyini deyə bilmərəm.

Xulio İqlesias: Cənab Prezident, bilirsinizmi, əgər prezidentin gözləri gözəl olmasa, onun üçün çox çətin olar. İnsanlar həmişə insanı gözündən oxuyurlar".

Azərbaycan Prezidenti 1998-ci ilin 12 dekabrında Respublika sarayında Özbəkistanın məşhur "Yalla" ansamblının konsertində olmuş, yaradıcı heyətlə görüşüb onları təbrik edərək demişdir:

"Görürsünüz ki, Azərbaycanda tamaşaçılar sizi çox yüksək qiymətləndirir, sevir və gözəl başa düşürlər. Belə münasibət təsadüfi deyil. Əvvəla, siz həmişə qiymətləndirilən yüksək sənəti bu gün yenə də təqdim etdiniz. İkincisi, sizin mahnılarınızda və musiqinizdə milli, özbəklərə xas xüsusiyyətlər, eyni zamanda ümumbəşəri xüsusiyyətlər var. Siz o illərdə də məhz bununla böyük müvəffəqiyyət qazanmışdınız ki, öz milli musiqinizi, milli mahnılarınızı ümumbəşəri musiqi və mahnılarla birləşdirməyə, onları dünyaya məharətlə təqdim etməyə müvəffəq olmusunuz. Siz yüksək dərəcəli ustalarsınız".

Prezident ustad sənətkarlara təşəkkürünü bildirmişdir:

"Azərbaycan Prezidentinin seçkiləri ərəfəsində Bakıya gəlib İdman sarayında bu hadisəyə həsr olunmuş konsertdə çıxış etdiyinizə görə təşəkkür edirəm. Mən bunu çox yüksək qiymətləndirirəm.

...Özbəkistanla Azərbaycanı çox şeylər bağlayır, tarixi köklərimiz birdir, dilimiz, musiqimiz, dinimiz, adətlərimiz, bütün ənənələrimiz də birdir".

Ansamblın yaradıcısı və bədii rəhbəri Fərrux Zakirov Azərbaycan Prezidentinə minnətdarlıq edərək demişdi ki, Sizin konsertə gəlməyiniz "təkcə bizim ansambl üçün deyil, özbək mədəniyyəti, millətimiz üçün də böyük şərəfdir, mədəniyyətimizə, millətimizə hörmətdir. Əgər seçkiqabağı kampaniyada öz iştirakımızla Sizin parlaq qələbənizə az-çox töhfə vermişiksə, biz xoşbəxtik".

# II FƏSİL

## TƏSVİRİ SƏNƏT

Ulu Öndər çox gənc yaşlarından təsviri sənətin müxtəlif növləri, janrları ilə maraqlanmış, hətta həyatını onlardan birinə – memarlığa həsr etmək qərarına gəlmişdi.

1993-cü ildə "Sobesednik"in suallarına verdiyi cavablarda deyir ki, uşaqlıqda "şeir yazırdım, şəkil çəkirdim. Rəssam olmaq arzusunda idim, lakin sonra fikrimdən daşındım və memarlıq fakültəsinə daxil oldum. Müharibə başlandı, dərslər kəsildi. Halbuki mən tikmək istəyirdim. Özü də gözəl binalar tikmək istəyirdim".

Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk illərdən xüsusi diqqət yetirdiyi incəsənət sahələrindən biri də təsviri sənət olmuşdur. O, Azərbaycan rəssamlarının VII qurultayındakı nitqində demişdir:

"Zaqafqaziya respublikalarının bu yaxınlarda Moskvada nümayiş etdirilmiş təsviri sənət sərgisi rəssamlarımızın ustalığının və ideya-siyasi yetkinliyinin artdığını, yaradılan əsərlərin məzmunlu və bədii cəhətdən dolğun olması üçün onların məsuliyyətinin yüksəldiyini göstərdi.

...Azərbaycan təsviri sənətinin inkişafında böyük müvəffəqiyyətlər qazanılmışdır. Lakin bu müvəffəqiyyətlər rəssamları arxayınlaşdırmamalı, onların yüksək məsuliyyət hissini, öz yaradıcılığına tələbkarlıqla yanaşmaq hissini kütləşdirməməlidir. Bizdə dayaz məzmunlu, sönük formalı əsərlər hələ də az deyildir".

Respublika rəhbəri təsviri sənətdə, xüsusilə arxitekturada peşəkarlıqla yanaşı, milliliyin tərəfdarı idi. Və bunu ən yüksək ideoloji tribunalardan tələb edirdi. Məsələn, 1979-cu ilin 7 dekabrında Azərbaycan KP MK-dakı qəbulda demişdi:

"Nail olmaq lazımdır ki, tikilən hər binanın özünün fərqləndirici arxitektura görkəmi olsun, xüsusən şəhərlərin mərkəzi küçələrində və meydanlarında tikinti zamanı birtipli layihələrdən istiifadə olunması minimuma endirilsin. Bu zaman milli arxitektura formalarından geniş istifadə edilməli, onlar müasir üsullarla bacarıqla əlaqələndirilməlidir. Milli və beynəlxalq xüsusiyyətlərin üzvi sintezinə nail olmaq lazımdır. Məhz belə bir işin nəticəsində yeni formalar və vasitələr yaranması mümkün

olacaqdır. Tikilən binaların eksteryerlərində və interyerlərində naxışlardan istifadə olunmalıdır. Naxışlar Azərbaycan milli arxitekturasının səciyyəvi elementidir".

Və əlavə etmişdir:

"Təəssüf ki, bizdə naxışvurma ustaları, daş və ağac üzərində naxış açanlar yoxdur. Biz Azərbaycanın bu qədim sənətini dirçəltməliyik. Həmin sahədə kadrlar hazırlanması üçün xüsusi məktəblər yaradılmalıdır. Arxitektorların, rəssamların, heykəltəraşların yaradıcı əməkdaşlığı daimi və səmərəli xarakter daşımalıdır".

Bu sözlər o illərdə deyilirdi ki, bütün Sovetlər Birliyi miqyasında eynitipli küçələr, panel evlər – "xruşşovka"lar geniş yayılmışdı. Və SSRİ-nin hansı şəhərinə getsən bu cür küçələr, evlərdən ibarət yeni yaşayış massivlərini – mikrorayonlarını görmək mümkün idi ki, onlar sovet dövrünün "arxitektura abidələri" kimi bugünə qədər qalmaqdadır.

Azərbaycan rəssamlarının IX qurultayı başa çatdıqdan sonra Azərbaycan KP MK-da keçirilən görüşdəki nitqində Heydər Əliyev respublikanın təsviri sənət xadimlərini təbrik edəndən sonra demişdir:

"Sizin qurultayınızın işi də, onun müvəffəqiyyətlə başa çatması da bizə belə bir fikir söyləmək üçün əsas verir ki, İttifaqınızda yaxşı, işgüzar əhval-ruhiyyə, sağlam şərait yaranmışdır.

...Əlbəttə, məruzənin məzmunu və xarakteri barəsində, bəzi çıxışlar barəsində tənqidi mülahizələr də söyləmək olar. Bütün bunlar, yəqin onunla əlaqədardır ki, biz işlərin vəziyyətinin daha ətraflı təhlil edilməsini isdərdik, istərdik ki, sizin ittifaqınızın bütün işi cəmiyyətimizin həyatının təkcə müasir tələblərinə deyil, həm də müəyyən dərəcədə gələcəyin tələblərinə tamamilə uyğun gəlsin".

Respublika rəhbəri rəssamların qurultayını təhlil edərək bir sıra əlamətdar məqamlar üzərində dayanmışdır:

"Sevindirici cəhət odur ki, işgüzarlıq, maraq daha çox idi, vüsətli problemlərə daha çox diqqət yetirilmişdir, eyni zamanda xırda, əhəmiyyətsiz məsələlər, şəxsi qarşılıqlı münasibətlərlə, xoşa gəlmək və ya gəlməməklə, bir-birini prinsipsiz müdafiə ilə əlaqədar hər hansı təzahürlər az olmuşdur. Bu mənada rəssamların indiki qurultayı əvvəlki qurultaylardan, hətta axırıncı qurultaydan xeyli fərqlənir. Biz bunu böyük nailiyyət sayırıq".

Rəssamlar İttifaqının yeni seçilmiş rəhbərliyinə müraciətən demişdir: "Təbiidir ki, siz öz üzərinizə böyük məsuliyyət götürmüsünüz. Siz təkcə özünüz üçün deyil, həm də respublika Rəssamlar İttifaqının müqəddəratı üçün, təsviri sənət sahəsində çalışan bütün ziyalılarımızın işi üçün, Azərbaycanda bədii yaradıcılığın gələcək inkişafı üçün cavabdehsiniz".

Azərbaycanın hər sahədə böyük nailiyyət qazanacağına əmin olan respublika rəhbəri öz nitqində qeyd etmişdir ki, "bəlkə də, çoxəsrlik yolumuzda mənəvi həyatın bu sahəsində bizə ədəbiyyatda olduğundan az şey qalmışdır. Hər halda bizə gəlib

çatan sərvət zəngindir və məhz onun vasitəsilə bir çox hallarda xalqımızın tarixini, öz torpağımızın tarixini öyrənirik".

Rəssamlara deyilən bu sözlər isə, heç şübhəsiz, tarixi sözlərdir. Və onun təsiri deyildiyi dövrlə məhdudlaşmayıb bütün gələcək zamanlar üçün keçərlidir:

"Sizi xalqın, onun tarixinin salnaməçiləri adlandırarkən mən diqqətinizi xalqın indiki və gələcək nəsilləri qarşısında daşıdığınız çox böyük məsuliyyətə cəlb etmək istəyirəm. Əgər hər birinizdə yaratdığınız əsərlərin tarix üçün mühafizə olunmasından ötrü, onların həqiqətən respublikamızın inkişafında şahidi olduğunuz və təsvir etdiyiniz dövrü həqiqətən əks etdirməsindən ötrü öz yaradıcılıq və mənəvi potensialınızdan, öz imkanlarınızdan mümkün qədər daha dolğun istifadə etmək arzusu olsa, siz xalq qarşısında öz borcunuzu yerinə yetirərsiniz, öz yaradıcılığınıza, həqiqətən, dövlət mövqeyindən yanaşmış olarsınız".

Respublika rəhbəri rəssamları dövrün təsviri sənət üslubu üçün səciyyəvi olan sıradan rəsmlərin fövqünə qalxıb həqiqi sənət əsərləri yaratmağa dəvət etmişdir:

"Bizdə çoxlu, müxtəlif təsviri sənət əsərləri yaradılmışdır. Lakin açığını demək lazımdır ki, görkəmli, həqiqətən yadda qalan tablolar hələlik azdır. Bəlkə də, onların çox olmasına ümid bəsləmək çətindir, lakin bu barədə düşünməyə, bunu arzulamağa haqqımız vardır".

Göründüyü kimi, rəhbər sənətkarlara sosialist düşüncə tərzində hökm eləmir, onların qarşısına hansısa sərt proqram tələbləri qoymur, sənətin, yaradıcılığın inkişafına, qüvvələrin səfərbərliyə alınmasına çağırır. Başlıcası isə, bəyan edir ki, Azərbaycan dövləti Azərbaycanda təsviri sənətin daha da irəli getməsində maraqlıdır, bunun naminə hər bir sənətkarla əməkdaşlıq etməyə hazırdır.

Natiq mövzu müasirliyi məsələsinə də toxunmuş, bu məsələni özünəməxsus analitik bir səviyyədə şərh etmişdir:

"Biz müasirlik haqqında danışdıqda bu sözün geniş mənada anlaşılmasını nəzərdə tuturuq. Müasirlik Azərbaycan rəssamlarının əsərlərində öz dolğun əksini tapırmı? Mənə elə gəlir ki, yox. Halbuki bizim çox zəngin tariximiz... tələb edir ki, o, dərindən, yaradıcılıqda dərk edilsin, təsviri sənətdə öz əksini tapsın.

...Müasirlik bizim zəmanəmizdir, bizim yaşadığımız çətin, qəhrəmanlıqla zəngin, lakin gözəl zəmanədir. Onu rəssamlıq əsərlərində bütün dolğunluğu və rəngarəngliyi ilə təcəssüm etdirmək sizin borcunuzdur, sizin vəzifənizdir".

Respublika rəhbəri hökm vermir, xalqını, millətini sevən bir lider olaraq rəssama məsləhət bilir ki, sabah tarix səviyyəsinə yüksələcək müasirliyin əsl salnaməçiləri olsunlar:

"Axı, rəssamları xalqın salnaməçiləri adlandırarkən biz nəzərdə tuturuq ki, sizin hər birinizin yaratdığı əsərlərdə dövrümüzün, inkişafımızın irimiqyaslı bədii mənzərəsi həm bugünkü nəsil üçün, həm də gələcək nəsil üçün çox böyük dəyəri olan bir mənzərə mozaikada olduğu kimi canlanmalıdır".

Heydər Əliyev öz nitqində iki mühüm məsələyə də toxunmuşdur ki, onlardan biri Azərbaycanın coğrafiyası, ikincisi isə tarixi ilə bağlıdır. Birinci məsələ ilə bağlı demişdir:

“Təəssüf ki, bizdə zəngin təbiətimizi, onun təkrarsız, özünəməxsus gözəlliyini vəsf edən əsərlər olduqca azdır, mənzərə rəngkarlığı zəif inkişaf edir... Axı, Azərbaycanın təbiəti, bizim səmanın, dağların və düzənlərin, bizim dənizin əlvan boyaları təsviri sənət ustaları üçün tükənməz ilham mənbəyidir. Bütün bunlar tablolarda əks olunmalıdır. Bizə elə gəlir ki, təbiətin bəxş etdiyi bu rənglərin və boyaların zənginliyini, əzəmətini, bütün çalarlarını rəssamlarımız indiyədək hələ duyub mənalandırmamışlar. Elə buna görə də bir çox mənzərə əsərləri sönük və cansıxıcıdır”.

İkinci məsələyə gəldikdə isə respublika rəhbəri Azərbaycanın tarixinin qədim, rəngkarlığının isə yeni olduğunu xatırladaraq demişdir:

“Azərbaycan rəssamlarının bu sahədə yaradıcılıq fəaliyyəti üçün geniş meydan vardır, tarixi mövzular olduqca çoxdur. Bu mövzular hələ heç vaxt heç kəs tərəfindən rəngkarlıqda öz əksini tapmamışdır. Buna görə də rəngkarlıq xalqımızın milli istiqlaliyyət uğrunda, mürtəce qüvvələrə qarşı, yadelli qəsbkarlara qarşı, öz sosial qurtuluşu uğrunda apardığı mübarizəni və nəhayət, xalqımızın inqilabi fəaliyyət mərhələsini fundamental, parlaq əsərlərdə bütün dolğunluğu ilə əks etdirmək üçün son dərəcə çox iş görməlidirlər”.

Yüksək incəsənət həssaslığı, təsviri sənət zövqü və hazırlığı olan Heydər Əliyev o illər üçün çox aktual bir fikir də söyləmişdi:

“Əlbəttə, hər bir rəssamın yaradıcılığa öz münasibəti, öz fərdi xüsusiyyəti vardır, biz bunu başa düşür və qiymətləndiririk. Hər hansı yeniliyi özümüz üçün hərtərəfli aydınlaşdırmadan ayrı-ayrı modernist cərəyanların təsiri altına düşməyi və öz yaradıcılıq dəst-xəttinizi, öz fərdi xüsusiyyətinizi şikəst etməyi sizlərə məsləhət görmürəm”.

Bu sözlər tarixi sözlər idi. Doğrudan da, 70-ci illərdə, 80-ci illərin əvvəllərində Azərbaycan incəsənətinə, xüsusilə rəssamlığına Qərbdən müxtəlif cərəyanların süni təsiri özünü göstərirdi. Qərbin özü üçün haradasa eksperiment səciyyəsi daşıyan bu cərəyanlaşmaya aludəçilik Azərbaycan rəssamlığının təbii inkişafına, həqiqi yaradıcılıq axtarışlarına mane olurdu. Ona görə də respublika rəhbəri məsləhət görürdü ki, “incəsənətdə realizmə sadiq qalın, əsl həyatı daha parlaq, daha düzgün əks etdirin, hər işdə həqiqət carçısı olun. Onda sizin yaradıcılığınızda əyintilər olmaz, gerçəklik təhrif edilməz”.

Onun başqa bir məsləhəti də rəngkarlığı rəngdən – rəng çalarlılığından məhrum etməmək olmuşdur:

“Hər bir sənət əsəri... tamaşaçılarda özünün təkcə daxili fəlsəfəsi, məzmunu, mövzunun, qayənin dərindən açılması ilə deyil, həm də rəng çalarları ilə, boyaların zəngin palitrası ilə sevinc, fərəh hissi doğurmalıdır. Təəssüf ki, bəzi sənətkarlarımızın

əsərləri öz koloriti etibarı ilə darıxdırıcı, yeknəsəq və sönükdür. Təbiidir ki, mən yalnız öz şəxsi təəssüratlarımı söyləyirəm, lakin bir çox adamlar, təsviri sənət pərəstişkarları bu təəssüratlara şərikdir".

Respublika rəhbərinin rəssamlığın inkişafı üçün təklif etdiyi texnologiyalardan biri də miniatür sənətinin "müasir zəmində" yaşadılması, zənginləşdirilməsi olmuşdur:

"Məlumdur ki, orta əsrlər Azərbaycan miniatür sənətinin məkan perspektivi yox idi, bu sənət ənginlik təsəvvürü deyil, müstəvi təsəvvürü yaradırdı. Əgər rəssamlar bu gün də hər işdə keçmiş sənətkarların texnikasına riayət etsələr, bu, tamaşaçılar tərəfindən, çətin ki, təqdir olunsun. Deməli, bu məktəbi əsas götürmək, onu yaradıcılıq mənasında inkişaf etdirmək, zənginləşdirmək, insanın bugünkü qavrayışını, rəngkarlığı necə duyduğunu, məkan perspektivini nəzərə almaqla keçmiş ilə bugünün üzvi sintezini yaratmaq lazımdır. Belə olarsa, bizdə əsl müasir miniatür məktəbi yaranar və siz, bəlkə də, öz yaradıcılığınızda hələ 500 il bundan əvvəl məşhur miniatür ustası Sultan Məhəmmədin çatdığı səviyyəni ötüb keçərsiniz".

Və burada da əsas məqsəd xalqın tarixi ənənələrini dirçəltmək, incəsənətin məhz milli köklər, qaynaqlar üzərində irəli getməsini təmin etmək olmuşdur:

"Zənnimcə, rəssamlarımız, sizin yaradıcılıq ittifaqı, nəhayət, bizim rəngkarlıq sənətində belə xüsusi istiqamət yaratsaydılar, faydalı olardı. Bu, respublika üçün, Azərbaycan xalqının incəsənəti üçün fərqləndirici cəhət, milli xüsusiyyət olardı, həm ölkəmizdə, həm də xaricdə diqqəti özünə cəlb edərdi".

Heydər Əliyev nitqində göstərir ki, Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif kimi klassiklərin əsərlərinin motivləri əsasında rəsmlərin yaradılması sənətkarlarımız üçün elə bir fəaliyyət meydanıdır ki, ondan qaçmaq olmaz. "Bir dəfə mən Nizami muzeyində dünya ədəbiyyatı korifeyinin əsərləri mövzusunda illüstrasiyalar çəkilmiş bir neçə xalça gördüm. Hələ müharibədən əvvəl toxunmuş süjetli xalçalar güclü təsir bağışlayır... Biz hazırda bu istiqamətdə təkcə xalçaçılıq vasitəsilə deyil, həm də rəngkarlıq, qrafika və s. vasitəsilə daha yaxşı və daha çox iş görə bilərik".

Tətbiqi sənət sahələrinə gəldikdə respublika rəhbəri xalçaçılıq üzərində ayrıca dayanmışdır:

"Bizim tətbiqi sənətimiz, xüsusən xalçaçılıq sənəti daha da inkişaf etdirilməlidir. Xalqın dühası ilə yaranmış qədim əfsanələrin, həm də bizim böyük mütəfəkkirlərimizin, keçmiş şairlərin əsərlərinin motivləri və müasir həyat əsasında tematik xalçalar yaradılmasına xüsusi diqqət yetirilməlidir. Azərbaycan xalçaçılıq sənətinin yüksək bədii səviyyədə və sənətkarlıqla yaradılmış bu nümunələri əsl sənət əsərlərinə çevrilirlər".

Rəsm əsərlərinin hər bir vətəndaş, hər bir insan üçün əlçatan olmasını xalqın mədəni-mənəvi zənginləşməsində mühüm şərtlərdən biri sayan Heydər Əliyev bundan ötrü genişmiqyaslı tədbirlərin görüldüyünü söyləməklə yanaşı, rəssamların köməyinə ehtiyac olduğunu bildirmişdir:

“Biz respublikanın bütün rayonlarında diyarşünaslıq muzeyləri yaratmağı qərara almışıq. Bu muzeylərin ekspozisiyaları sizin köməyinizlə zənginləşməlidir. Gələcəkdə hər bir rayonda rəsm qalereyası, sərgi salonu açmaq planlaşdırılır. Rəssamlarımız, sizin yaradıcılıq ittifaqı bu işi indidən həyata keçirməlidirlər”.

Respublika rəhbəri nitqinin sonunda demişdir:

“Sənətkarın bir çox ünsürlərdən ibarət olan mənəvi potensialı mühüm məsələdir. Əlbəttə, onun yaradıcılıq qabiliyyəti, sənətkarlığı başlıca cəhətdir. Lakin bununla yanaşı, mənəvi potensialı – insanın dünyagörüşü, ümumi erudisiyası, mədəniyyəti, onun ideya-siyasi hazırlığı, əxlaqi keyfiyyətləri müəyyən edir. Bütün bu ünsürlər, bütün bu keyfiyyətlər olduqda, tam ahəngdarlıq yaratdıqda biz zəngin daxili aləmə, zəngin mənəvi potensiala malik sənətkar haqqında danışa bilərik. Əlbəttə, belə bir sənətkar tarixdə qala biləcək əsərlər yaratmağa qadirdir”.

2002-ci ilin iyun ayının 18-də Azərbaycan Prezidenti Naxçıvanda görkəmli rəssam Bəhruz Kəngərlinin muzeyinin açılışında demişdir ki, “Əzim Əzimzadəni böyük şəxsiyyət kimi həmişə təbliğ edirik və bundan sonra da təbliğ edəcəyik. Amma onun əsərləri, əsasən, qrafika əsərləridir və daha çox “Molla Nəsrəddin” jurnalı ilə əməkdaşlığı, orada yaratdığı karikaturaları və bir çox başqa əsərləri ilə tanınır. Amma Bəhruz Kəngərli, birincisi, Tbilisidə professional rəssamlıq təhsili alıbdır. İkincisi də, iş təhsil almaqda deyil, bu, Bəhruz Kəngərlinin özünün fitri istedadı idi.

...Bəhruz Kəngərlini üzə çıxaran, təbliğ edən yox idi. İndi mən deyə bilmərəm nə üçün. Bəlkə o vaxt hesab edirdilər ki, o, devrilmiş sinfin, yəni bolşeviklər tərəfindən devrilmiş sinfin nümayəndəsidir. Ona görəmi, ya nəyə görəmi, mən buna cavab verə bilmərəm, ancaq onu bilirəm ki, Bəhruz Kəngərli haqqında gənc vaxtımda eşitmişdim”.

Böyük sənətkarın həmişə diqqətdən kənarda qaldığını, onun yaradıcılığının layiq olduğu bir şəkildə Azərbaycan təsviri sənəti tarixində əks olunmadığını deyən Prezident son zamanlarda görülən işləri yüksək qiymətləndirmişdir:

“İndi, nəhayət, biz Bəhruz Kəngərlini üzə çıxardıq. Yəni üzə çıxardıq sözü dəqiq deyil, o onsuz da yaratdığı əsərlərə görə bizim mədəniyyətimizdə, incəsənətimizdə öz yerini tutmuşdur. Amma onun əsərlərini elə “dərin quyu”ya salmışdılar ki, insanlar onu o qədər də yaxşı tanımırdılar”.

Bəhruz Kəngərli yaradıcılığının dəyəri, bir tərəfdən, onun rəngkar kimi yüksək sənətkarlığındadırsa, digər tərəfdən, ideya-məzmununda, xalqın həyatının gerçəkliklərini olduğu kimi təsvir etməsindədir:

“Deyə bilmərəm nə qədərdir, amma indi təkcə Naxçıvanda yox, ümumən Azərbaycanda da Bəhruz Kəngərlini yaxşı tanıyanlar o qədər də çox deyildir. Amma onun əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, istifadə etdiyi rənglərə görə. İkincisi, onun yaratdığı obrazlara görə – mən insan obrazlarını deyirəm, xüsusən o ağır dövrün, 1918, 1919, 1920-ci illərin çətin dövründə bizim xalqımızın ağır vəziyyətdə olmasını, az da olsa, öz əsərlərində əks etdiribdir”.

Bəhruz Kəngərlinin yaradıcılığının istər sənətşünaslıq, istərsə də sosial-kulturoloji baxımdan araşdırılması mühüm vəzifə olaraq tədqiqatçıların nəzərinə çatdırılmışdır:

“Hesab edirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda bizim sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha professional səviyyədə təqdim etməli, əsərlər yazmalıdırlar. Həm Bəhruz Kəngərlini Azərbaycan xalqının görkəmli və yüksək mədəniyyətə malik olan nümayəndəsi kimi təbliğ etsinlər, həm də böyük rəssam kimi təbliğ etsinlər.

...Bizim millətimizin zəngin tarixini nə qədər çox araşdırıb, aşağı laylardan çıxarıb təbliğ edə bilsək, Azərbaycan xalqının nə qədər böyük tarixə malik olduğunu göstərə bilərik və inanıram ki, biz sizinlə birlikdə bunu edəcəyik”.

Böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85 illiyi münasibətilə təntənəli yubiley gecəsindəki (17 dekabr 1994-cü il) nitqində Ümummilli Lider demişdir:

“Azərbaycan xalqı zəngin mədəniyyət və incəsənət tarixinə malikdir. Xalqımız əsrlər boyu dünya sivilizasiyasına və mədəniyyətinə böyük töhfələr vermişdir. Mədəniyyətimizin böyük bir sahəsi rəssamlıq sənətidir və bu sahədə də Azərbaycan xalqının dünya mədəniyyətində öz yeri var. Şərq aləmində keçmiş dövrlərdə – orta əsrlərdə, qədim zamanlarda rəssamlıq sənəti miniatür üslubunda idi. Azərbaycanın böyük sənətkarı Sultan Məhəmməd beş yüz il bundan öncə böyük miniatür rəssamlığı məktəbi yaratmış və o məktəb davam edərək bütün Şərq aləminə öz təsirini göstərmişdir”.

Natiq bu zəngin ənənənin XX əsrdə də davam etdiyini fəxrlə qeyd edərək göstərir ki, həmin əsrdə yetişmiş böyük simalar arasında “Səttar Bəhlulzadənin xüsusi yeri var. O nəinki Azərbaycan, həm də bütün dünya mədəniyyəti üçün, dünya rəssamlıq sənəti üçün görkəmli bir simadır”.

Cəsarətlə demək olar ki, Heydər Əliyev bu çıxışında Səttar Bəhlulzadənin həm şəxsiyyəti, həm yaradıcılığı, həm də məktəbi haqqında heç kəsə müyəssər olmayacaq (ancaq hər kəsin mövqeyini ifadə edəcək) qədər geniş təsəvvür yaradır:

“Səttar Bəhlulzadənin yaradıcılığına bələd olan adamlar, onu tədqiq edənlər və tanıyanlar bilirlər ki, o həm böyük sənətkar idi, həm də çox məhsuldar işləyən adam idi. Bir sıra başqalarından fərqli olaraq daim işləyirdi, çoxlu əsər yaradırdı və bu əsərləri də dostlarına və tanışlarına, ayrı-ayrı təşkilatlara təmənnasız bağışlayırdı”.

Ümummilli Lider həmin çıxışında göstərmişdir ki, “Səttar Bəhlulzadə Azərbaycanda bu janrın, bu üslubun və öz rəssamlıq məktəbinin banisidir. O, çox böyük, dəyərli və qiymətli əsərlər yaratmışdır. Səttar Bəhlulzadə Azərbaycan deməkdir. Onun əsərləri Azərbaycanı təsvir edir, Azərbaycanı göstərir, əks etdirir. Bu, rəssamın öz torpağına, öz vətəninə və xalqına nə qədər bağlı olduğunu göstərir”.

Azərbaycan müasir mədəniyyətinin, o cümlədən də rəssamlığın inkişaf mərhələlərini dərindən bilən Heydər Əliyev həmin çıxışında yada salmışdır ki, “o

vaxtlar – 50-ci və 60-cı illərdə, yəni Səttar Bəhlulzadənin ilk əsərləri yaranan zaman bəziləri onu anlamırdılar, bəziləri qəbul etmirdilər... Ancaq zaman keçdi və Səttar Bəhlulzadə çox inadla öz yaradıcılıq üslubu, öz məktəbini davam etdirdi və yeni bir rəssamın yaranmasını nəinki Azərbaycana, həm də bütün dünyaya nümayiş etdirdi".

Səttar Bəhlulzadənin şəxsiyyətinə, yaradıcılığına böyük hörmətini, ehtiramını ifadə edən Ümummilli Lider sonda demişdir:

"...XX əsrdə Azərbaycan rəssamlıq məktəbi, Azərbaycan rəssamları dünya miqyasında görkəmli yer tutmuşlar. Bunu bütün dünya rəssamlarının işləri ilə tanış olan bir adam kimi, onlarla müqayisə edərək tam əsasla deyə bilərəm. Biz özümüz ətrafımızda olan inciləri qiymətləndirə bilmirik. Ancaq bu həqiqətdir ki, XX əsrdə, xüsusən 30-cu illərdən sonra Azərbaycanda gözəl, böyük, çoxsahəli və çoxşaxəli rəssamlıq məktəbi yaranıb, böyük rəssamlar yetirəcəkdir".

1982-ci ilin may ayının 15-də Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev Xalq rəssamı Mikayıl Abdullayevə anadan olmasının 60 illiyi münasibəti ilə "Xalqlar Dostluğu" ordenini təqdim edərkən demişdir:

"Mikayıl Abdullayev yorulmaq bilməyən sənətkardır, öz şərəfli peşəsinə son dərəcə sədaqətlidir. Onun istedadı özünü hələ V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunda təhsil aldığı illərdə göstərmişdir. O, sonrakı dövrdə də ustalığını yorulmadan təkmilləşdirir, yaradıcılıq diapazonunu genişləndirir, Azərbaycan rəssamlıq məktəbinin inkişafına layiqincə xidmət göstərir".

Görkəmli rəssamın "Axsam" (1947), "Mingəçevir işıqları" (1948), "Səadət quranlar" (1951), "Rəfiqələr" (1953), "Sevinc" (1956), "Tarlada" (1960), "Qarabağlı qız" (1963), "Abşeronda" (1964), "Astarada çay yığımı" (1967) və s. tabloları, Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya, İspaniya və s. rəsm silsilələri, eləcə də "Üzeyir Hacıbəyov" (1947), "Dədə Qorqud" (1959), "Rəsul Rza" (1960), "Mirzə Fətəli Axundov" (1962), "Molla Pənah Vaqif" (1968), "İmadəddin Nəsimi" (1973) və s. portretləri ona böyük şöhrət gətirmişdir. Maraqlıdır ki, Mikayıl Abdullayev dahi şair-mütəfəkkir Səməd Vurğunun obrazını müxtəlif illərdə (1944, 1959, 1975 və s.) bir neçə dəfə yaratmışdır.

Respublika rəhbəri görkəmli rəssamın yaradıcılığının çoxcəhətliliyini xüsusi olaraq qeyd etmişdir:

"Öz xarakteri etibarı ilə rəngkarların işi çoxcəhətlidir, onlar boyaların çox zəngin palitrasından istifadə edirlər. Əgər sənətkar bu zəngin palitradan böyük zövqlə, səmərəli istifadə edirsə həmişə parlaq nəticələr qazanır. Mikayıl Abdullayevin yaradıcılığı isə o qədər çoxcəhətlidir ki, hər yeni əsərində öz nəcib duyğularını və arzularını kətan üzərində ifadə etmək üçün sanki yeni-yeni boyalar tapır".

Əsərlərinin mövzu, ideya-məzmun tərəfinə gəldikdə rəssamın bu sahədəki axtarışları da çoxistiqamətlidir. Respublika rəhbəri öz nitqində həmin məqama da diqqət yetirmişdir:

“Mikayıl Abdullayev... əmək qəhrəmanlarının portretlərinin böyük bir qalereyasının müəllifidir, onları sevdikləri işlə məşğul olduqları vəziyyətdə təsvir edir. Rəngkar qəhrəman neftçilərin, kənd əməkçilərinin hünərinə müraciət edir, həmişə həyatın qaynağındadır.

...Qadın obrazlarının yaradılmasına rəssam çoxlu qüvvə sərf etmiş, həmin obrazlarda əməkçi qadınlarımızın təbii gözəlliyini, zəhmətsevərliyini və qəhrəmanlığını ifadə etmişdir... Nəsiminin Mikayıl Abdullayev tərəfindən yaradılmış portreti böyük şairimizin obrazını əks etdirən digər rəssamlarımızın əsərləri üçün əsas olmuşdur”.

Əlbəttə, görkəmli rəssamın yaradıcı fəaliyyətinin coğrafiyası Azərbaycanın hüdudlarından çox-çox kənarlara çıxmışdır:

“Xarici ölkələrə səfərlərin təsiri altında Mikayıl Abdullayev həmin ölkələrin təbiətindən, həyatından, adamlarından bəhs edən gözəl əsərlər yaratmışdır. Əlamətdar haldır ki, Hindistana həsr etdiyi əsərlər silsiləsinə görə o, Cəvahirləl Nehru mükafatına layiq görülmüşdür. Rəssamın əsərləri ölkəmizin ən yaxşı muzeylərində və xaricdə nümayiş etdirilir və saxlanılır”.

Respublika rəhbəri rəssamın ictimai-siyasi həyatda da fəal iştirakını yüksək dəyərləndirmişdir.

Azərbaycan Prezidenti 2002-ci ilin oktyabr ayının 9-da Azərbaycan Dövlət İncəsənət Muzeyində əslən azərbaycanlı olan İran rəssamı Vədud Müəzzinin “Savalandan əsən nəsim” adlı fərdi boyakarlıq sərgisinin açılışında iştirak etmiş, rəsm əsərlərini seyr eləmiş, “Şah İsmayıl Xətai” portretinə baxarkən demişdir:

“İndiyə qədər bizim gördüyümüz müxtəlif şəkillərdə Xətainin siması başqa cürdür. Ancaq mənim üçün əsl Xətai budur. Çünki burada müdrik, çox ağıllı bir insan görünür. Bilirsiniz, bəzən çox adamlar Xətainin şəklini qılıncla, başında çalma papaqla çəkirlər. Düzdür, bunlar olub, amma böyük bir insan, şair bax bu şəkildə tam göstərilir”.

Sonra Prezident “Heydər Əliyev” portreti barədə fikrini bildirmişdir:

“Bu isə mənim portretim olduğuna görə onun haqqında söz deməyim mənim xasiyyətimə uyğun gəlmir. Ancaq bir rəssam əsəri kimi bu portret çox gözəldir.

...Mənim portretimi çəkən rəssamlar var. Onların hər birinin çəkdiyi əsəri yüksək qiymətləndirirəm və bəziləri də bu muzeydədir. Amma bu cür əsəri ilk dəfə görürəm. Sən bunları burada nə cür vermisən, elə bil ki hər şey canlıdır”.

* * *

Ulu Öndərin Azərbaycanda memarlığın, heykəltəraşlığın inkişafına istər sovet dövründə, istərsə də müstəqillik illərində göstərdiyi təsir bu sənət sahələrinin tarixində son dərəcə böyük əhəmiyyətə malikdir. O həm qədim memarlıq abidələrinin

bərpası, öyrənilməsi, təbliğinə, həm də yeni heykəltəraşlıq, memarlıq əsərlərinin yaranmasına böyük diqqət yetirir, dövlət səviyyəsində şərait yaradırdı.

1999-cu ilin oktyabr ayının 14-də Naxçıvanda Möminə Xatun türbəsini ziyarət zamanı Azərbaycan Prezidenti çıxış edərək demişdir ki. "yadımdadır, mən burada yaşayan zaman, gənc vaxtımda, məktəbdə oxuyanda gəlib bunun ətrafında gəzirdim.

...Əlbəttə, bu abidənin qiyməti yoxdur. Məsələn, çox vaxt, elə bu gün də bunu gözəl memarlıq abidəsi kimi təbliğ edirlər. Bu, təbiidir, doğrudan da, belədir. Dağılanlar dağılıb. Amma qalanlar içərisində Möminə Xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da, böyük memarlıq məktəbi olduğunu göstərir... Əcəmi Naxçıvani və onun yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etmir, Şərq aləminin böyük bir hissəsində onun memarlıq üslubu, memarlıq məktəbi davam edib, böyük əsərlər yaradıbdır.

...Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da gostərir".

Azərbaycan Prezidenti 1998-ci ilin mart ayının 21-də Novruz bayramı münasibətilə Şirvanşahlar sarayının həyətində ziyalılar, ədəbiyyat və incəsənət xadimləri ilə görüşüb söhbət etmişdir. Sarayın direktoru Sevda Dadaşova bərpaçı memar, professor Niyazi Rzayevi Prezidentə təqdim etdikdən sonra Prezident onun təkliflərini dinləmiş və demişdir:

"Şirvanşahlar sarayı Azərbaycan xalqının iftixar etdiyi tarixi-memarlıq abidəsidir. Bu həm bizim memarlığımızın ən yüksək səviyyədə olduğunu göstərir, həm də dövlətçiliyimizin tarixini əks etdirən bir abidədir, kompleskdir və şübhəsiz ki, dünyada da məşhurdur. Ancaq etiraf etmək lazımdır ki, biz bu sarayın həm təbliğinə, həm də onun bərpasına indiyə qədər fikir verməmişik. Doğrudur, onun adı memarlıq albomlarında, kataloqlarında vardır. Mən xatırlayıram ki, institutda memarlıq fakultəsində oxuyarkən biz bunu xüsusilə öyrənirdik. Mən gəlib burada günlərlə, həftələrlə bu abidəni öyrənmişəm, bundan imtahan vermişəm. Divanxananın portalı ən yüksək memarlıq incisidir. Bunu çoxları bilir. Ona görə də biz bu kompleksi bərpa edib göstərməliyik ki, bizim tariximiz, 500 il bundan əvvəl olan dövlətçiliyimiz, dövlətimiz və bizə qalmış irs budur".

Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında 17 fevral 2003-cü il tarixli Prezident sərəncamında göstərilir ki, "Bakının ən qədim, vaxtilə bütövlükdə qala divarları ilə əhatə olunmuş hissəsi İçərişəhərdir. Orada bu günə qədər qorunub saxlanmış müdafiə, dini ibadət, ictimai və məişət xarakterli bir sıra tikililərin və qurğuların mühəndis-memarlıq həllinin kamilliyi xalqımızın mədəniyyət tarixində mühüm yer tutan mədəniyyət məktəblərinin yüksək peşəkarlıq səviyyəsindən xəbər verir. Öz adlarını İçərişəhərin daş kitabələri üzərində həkk etmiş qədim Azərbaycan memarları və sənətkarlarının

zəkası və zəhməti ilə açıq səma altında yaradılmış bu “muzey-şəhər” hər bir azərbaycanlının qəlbində sonsuz qürur hissi doğurur. İçərişəhər Azərbaycan xalqının milli sərvəti, milli iftixarıdır”.

Sərəncamda İçərişəhərin bütöv bir arxitektura kompleksi olduğu, xalqın həyat tərzini, dünyagörüşünü, mənəvi aləmini bilavasitə əks etdirdiyi göstərilir:

“Onun ərazisində yerləşən Qız qalası, qala divarları, Şirvanşahlar sarayı kompleksi, məscidlər, karvansara, zorxana, hamam, bazar meydanı və sair obyektlər Azərbaycan memarlıq sənətinin keçdiyi ayrı-ayrı mərhələləri özündə əyani şəkildə təcəssüm etdirən misilsiz abidələrdir. İçərişəhərin ilk baxışda xaotik tikililəri təsiri bağışlayan binalarında daxili bir ahəngdarlıq hökm sürür. Burada meydan, məhəllə, bina və küçələrin quruluşu ərazinin relyefi, təbiəti və iqliminin, Azərbaycan xalqının milli mentalitetinin xüsusiyyətlərini nəzərə almaqla planlaşdırılıb”.

İçərişəhər Azərbaycan tarixini əks etdirən zəngin bir arxeoloji xəzinədir ki, burada aparılan araşdırmalar zaman-zaman yeni tapıntılarla müşayiət olunur:

“İçərişəhərin ərazisində mütəmadi olaraq aparılan qazıntı işləri nəticəsində əldə olunmuş arxeoloji materialların zənginliyi əməli surətdə nümayiş etdirir ki, İçərişəhər Azərbaycan xalqının tarixinin, o cümlədən onun milli dövlətçilik tarixinin bir çox açılmamış səhifələri haqqında, zəngin mənəvi və maddi sərvətlər xəzinəsi barədə dəyərli, mötəbər məlumatlar verən və tədqiqinə hələ də ehtiyac duyulan tükənməz mənbədir”.

Xüsusilə XX əsrin ortalarından başlayaraq İçərişəhərin bərpası, qorunub saxlanılması, beynəlxalq miqyasda tanıdılması sahəsində xeyli işlər görülmüşdür:

“1952-1957-ci illərdə İçərişəhərin qala divarları bərpa edilmişdir. O, 1977-ci ildə Azərbaycanın tarix-memarlıq qoruğuna çevrilmiş, 1985-ci ildə isə onun ərazisi Dövlət Tarix Memarlıq Qoruğu elan edilmişdir. 2000-ci il dekabrın 2-də YUNESKO-nun “Dünya İrs Siyahısı”na daxil edilmiş İçərişəhər təkcə Azərbaycanın deyil, bütövlükdə dünya şəhərsalma sənətinin nadir nümunələrindəndir”.

Lakin bu nadir nümunəyə münasibətdə müxtəlif illərdə cinayət həddinə çatan hərəkətlər də edilmişdir:

“Təəssüf hissi ilə qeyd olunmalıdır ki, İçərişəhərin dövlət əhəmiyyətli qoruq kimi qorunub saxlanması işində bir sıra səhvlərə, hətta qanunsuzluq hallarına yol verilmişdir. Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş rəhbərliyi vəzifə səlahiyyətlərini aşaraq İçərişəhər ərazisində bəzi qanunsuz tikintilərin aparılmasına imkan yaratmışdır. Bu isə qoruğun ümumi mənzərəsinə xələl gətirmiş, oradakı bir neçə memarlıq abidəsinin dağıdılmasına səbəb olmuş, bəziləri üçün təhlükə yaratmışdır”.

Azərbaycan Prezidentinin sərəncamı ilə İçərişəhərin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasını təmin etmək məqsədi ilə bir sıra təxirəsalınmaz tədbirlərin görülməsi qərara alınmışdır.

1995-ci ilin iyun ayının 10-da Prezident Sarayında Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı Heydər Əliyevin çıxışı, bir tərəfdən, Azərbaycan

memarlığının keçdiyi inkişaf yolları, özünəməxsusluqları, digər tərəfdən, Ulu Öndərin memarlıq görüşləri barədə özündə kifayət qədər müfəssəl məlumat ehtiva etməkdədir. Həmin çıxışda deyilir ki, "1981-ci ildə biz Hüseyn Cavidin cənazəsini Sibirdən gətirərkən geniş müzakirələr oldu və nəhayət, bu müzakirələr belə nəticə verdi ki, o, Naxçıvanda – anadan olduğu yerdə dəfn olunsun. Biz belə də etdik. Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa tapşırılması haqqında qəbul etdiyimiz qərarın əsas səbəblərindən biri də o idi ki, onun qəbri adi bir qəbir olmasın, böyük bir məqbərə olsun... Ancaq təəssüf ki, sonrakı illərdə məqbərə də tikilməyib, hətta qəbrin üstü də götürülməyibdir".

Naxçıvanda yaşadığı illərdə bu məsələ ilə maraqlandığını, lakin mövcud şəraitdə bir iş görməyin qeyri-mümkünlüyünü deyən Prezident əlavə edir ki, indi qarşıda həm məqbərə ucaltmaq, həm də böyük şairin çoxdan gözlənilən ev-muzeyini təşkil etmək lazımdır:

"Mən keçmiş təcrübədən bilirəm ki, hakimiyyətdə olan şəxslər, orqanlar bir məsələni həll etmək istəsələr onu edə bilərlər. Vaxtilə, 1976-cı ildə biz böyük şairimiz Səməd Vurğunun 70 illik yubileyinə hazırlaşanda onun ev-muzeyini bir neçə ay müddətində təşkil etdik və bu muzey indi də fəaliyyət göstərir. Ondan əvvəl, 1975-ci ildə böyük bəstəkarımız Üzeyir Hacıbəyovun ev-muzeyini yaratdıq. Sonra Cəfər Cabbarlının 80 illik yubileyi ərəfəsində onun həm böyük abidəsini, heykəlini qoyduq, həm də ev-muzeyini yaratdıq. Böyük sənətkarımız, müğənnimiz Bülbülün də ev-muzeyini yaratdıq".

70-ci illərdə görülən işlər barədə ətraflı məlumat verdikdən sonra Prezident nəzərdə tutulmuş bəzi planların yarımçıq qaldığını, başa çatdırılmadığını bildirmişdir:

"1981-ci ildə qərar qəbul etmişdik ki, Bakıda Hüseyn Cavidin abidəsi qoyulsun. Heykəltəraş Ömər Eldarov bu işə başlamışdı və o vaxt onun emalatxanasında eskizlərlə tanış olmuşdum... Nəhayət heykəlin yeri müəyyən olunub və uzun müddətdən sonra abidə də qoyulub. Ancaq mən Ömər Eldarovla görüşdüm, danışdım. Mənə deyilənə görə həmin abidə kompleksi hələ tamamlanmayıb".

Öz iş prinsipinə uyğun olaraq dövlət başçısı, Hüseyn Cavidin məqbərəsinin hazırlanması üçün bütün lazımi, iştirakı vacib sənətkarların toplanmasını ona görə zəruri saymışdır ki, geniş fikir mübadiləsi aparılsın:

"Mən bu gün buraya heykəltəraşları, memarları, rəssamları da dəvət etmişəm ki, bu layihələrə hamımız birlikdə baxaq. Ancaq məqbərənin bu ilin oktyabr ayınadək yaranması təmin olunmalıdır. Fikrim qətidir, mən bu barədə sərəncam verəcəyəm və bunun üçün lazım olan vəsaiti dövlətdən ayıracağam".

Ulu Öndər xatırlamışdır ki, böyük sənətkarların məqbərəsinin yaradılması sahəsində artıq kifayət qədər zəngin təcrübə mövcuddur. Və Hüseyn Cavidin məqbərəsi inşa olunarkən bu təcrübədən istifadə etmək lazım gələcəkdir:

"Nizami Gəncəvinin qəbri üzərində vaxtilə bir məqbərə düzəldilmişdi. Dahi şairin 850 illik yubileyi münasibətilə həmin məqbərə yenidən quruldu.

...Biz Şuşada Molla Pənah Vaqifin qəbri üzərində gözəl bir məqbərə yaratdıq. Çox cəsarətlə deyirəm ki, bu məqbərə Molla Pənah Vaqifə layiq idi, gözəl idi. Biz o vaxt gedib onun açılışını böyük bir təntənə ilə keçirdik. Orada respublika ictimaiyyətinin nümayəndələri, ədəbiyyat, incəsənət, mədəniyyət xadimləri iştirak edirdilər. Təəssüf ki, indi Şuşa işğal olunubdur. Ancaq mən əminəm ki, Şuşa işğaldan azad olunacaq və Molla Pənah Vaqifin məqbərəsi də öz xalqına qayıdacaq. Ümumiyyətlə, Şuşada olan tarixi abidələrimizin hamısı özümüzə qayıdacaq".

Çıxışda çox mühüm bir məsələyə də toxunulmuşdur ki, bu da Naxçıvanın orta əsrlər məqbərə yaradılması ənənəsidir ki, Prezidentin qəti inamına görə, yeni məqbərə də memarlığın müasir tələblərinə cavab verməklə yanaşı, həmin ənənəyə sadiq qalmalıdır:

"Əgər keçmişi götürsək, Naxçıvanda çox böyük bir tarixi məqbərə vardır – dahi memar Əcəmi Naxçıvaninin əsəri. O, 800 ildir yaşayır. Bu, Möminə Xatun məqbərəsidir. Bilirsiniz ki, onun altı qəbirdir. Naxçıvanda belə bir mötəşəm məqbərəni bizim əcdadlarımız yaradıblar. Bu, Azərbaycan memarlıq tarixində, sənətində ən görkəmli yerlərdən birini tutur. Bəs indiki nəsillər nə üçün belə abidələr yaratmasın?"

Göründüyü kimi, Heydər Əliyev yaradılmasına rəhbərlik etdiyi, demək olar ki, bütün memarlıq əsərləri üzərində illərlə peşəkarcasına düşünmüş, onların hər birinə Azərbaycan memarlığı tarixinin yeni hadisəsi olmaqla yanaşı, bu zəngin tarixin davamı, ayrılmaz bir tərkib hissəsi kimi baxmışdır:

"...Hüseyn Cavidin cənazəsi Sibirdən gətiriləndə mən məhz bu fikrin tərəfdarı oldum ki, onun qəbri Naxçıvanda olsun, bir tərəfdə Əcəmi Naxçıvaninin yaratdığı Möminə Xatun məqbərəsi, o biri tərəfdə isə XX əsrdə bizim nəslin yaratdığı Hüseyn Cavid məqbərəsi olsun. Bax mən o vaxt həmin qərarın qəbul olunmasına bu məqsədlə imza atmışam və o fikirlə yaşayıram. Ona görə də istəyirəm ki, indi bizim üçün çətin olsa da, belə bir möhtəşəm məqbərə yaradaq. Bu həm böyük memarlıq abidəsi, həm də Hüseyn Cavidin xatirəsinə layiq məqbərə olsun".

Prezident məsləhət görmüşdür ki, məqbərənin layihələri ayrıca bir salonda iki-üç gün nümayiş etdirilsin. Və hər kəs onları rahat bir şəkildə müqayisə edib qərar qəbul etmək imkanı əldə eləsin.

Sonra məsləhət bilmişdir ki, "nəhənglikdən uzaq olmaq, oradakı yeri mütləq nəzərə almaq lazımdır. Elə olmalıdır ki, məqbərə nə çox böyük, nə də çox kiçik olmasın... İnsan girib orada ziyarət edə bilsin, qəbrin yanında dursun, düşünsün. Məqbərənin o tərəfdən, bu tərəfdən açıq olmasının tərəfdarı deyiləm... Məsələn, Möminə Xatun məqbərəsi tam qapalıdır, ancaq haradansa yuxarıdan bir balaca işıq düşür. Belə də olmalıdır. Bayaq Molla Pənah Vaqifin məqbərəsini ona görə yada saldım ki, o həm qapalı idi, həm də hər yerdən içəri işıq düşürdü. Elə etmək lazımdır ki, bu məqbərənin içində sakit bir mühit olsun".

Hüeyn Cavidin yaradıcılığına, şəxsiyyətinə dərindən bələd olan Ulu Öndər dahi sənətkarın məqbərəsini də onun "əhvali-ruhiyyə"sinə müvafiq bir şəkildə yaradılmasını təklif etmişdir:

"Mən belə fikirdəyəm ki, bu məqbərəni xaricdən görəndə də gərək fikir cəmlənsin və onun içərisində olanda da fikir dağılmasın.

...Şübhəsiz ki, biz bu layihələrdə müasirliyi nəzərə almalıyıq. Həm də burada Azərbaycanın milli memarlıq ənənələri nəzərə alınmalı və orada bunun nişanələri olmalıdır".

Sonra Ümummilli Lider Prezident sarayını nəzərdə tutaraq deyir ki, "bax bu binanı tikəndə də belə oldu. Binanın layihəsinin müəllifləri, xüsusən Tahir Abdullayev tez-tez mənim yanıma gəlirdi. Mən dəfələrlə ona demişdim ki, bu binanın tamamilə milli xarici görkəmi olmalıdır. İndi bu binada gördüyünüz milli elementlər barədə biz o vaxt dəfələrlə fikir mübadiləsi aparmışıq. O zaman mən onu məcbur elədim ki, binanın heç olmasa iki mərtəbəsinin pəncərələri milli üslubda olsun. Hər halda hesab edirəm ki, bu bina yaxşıdır, xarici görünüşü gözəldir".

İqamətgah binası tikilərkən milli ornamentlərlə bağlı məsələnin necə həll olunduğu barədə danışan Prezident layihənin müəllifi Rasim Əliyevlə birlikdə görkəmli memar Mikayıl Hüseynovu da dəvət etdiyini xatırlayır. Və əlavə edir:

"Bir dəfə rəhmətlik Mikayıl Hüseynova dedim ki (mən arxitektura fakültəsində oxuyarkən o mənim müəllimim olmuşdur), vaxtilə sizin kitablarda milli ornamentlər var idi. Gətirin baxaq... Mən kitabdakı həmin ornamentləri onlara göstərdim və xahiş etdim ki, bax bunları divara salın... Şirvanşahlar sarayı kompleksində ornamentlərin hamısı daşın üzərində yonulub və çox gözəldir. İqamətgahın divarları mərmərdən olduğu üçün bu, çox çətin idi. Lakin onlar bu işi gördülər".

Azərbaycan memarlığına məxsus olan bir əlamət – nəzəriyyə ilə praktika arasındakı ziddiyyət də qeyd edilmişdir:

"Demək istəyirəm ki, memarlarımızda mühafizəkarlıq var. Bir tərəfdən, Azərbaycanın milli ornamentlərini təbliğ edirlər, digər tərəfdən isə, bunu öz işlərində tətbiq edəndə nədənsə çətinlik çəkirlər".

Sovet dövründə Azərbaycan Respublikasının rəhbəri, özünün də qeyd etdiyi kimi, bütün yeni tikililərin memarlıq estetikasına diqqət yetirmiş, elə bir layihə olmamışdır ki, onun nəzarətindən kənarda qalsın:

"...Mənim mədəniyyətə münasibətim məlumdur. Bu, sadəcə söz deyil. Mən mədəniyyətə öz münasibətimi əməlimlə, işimlə həmişə bildirmişəm. Vaxtilə memarlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalarda, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam... Layihələrə memarlarla birlikdə baxıb öz mülahizələrimi bildirmişəm. Hətta zavod tikiləndə, məsələn, Bakı kondisionerlər zavodu tikiləndə də mən onun memarlıq cəhətdən gözəl olmasına çalışmışam".

Azərbaycanda görülən bu işlər Sovetlər Birliyi miqyasında da diqqəti çəkmiş, rezonans vermiş, respublika rəhbərinin Azərbaycan təsviri sənəti tarixinə bələdliyi, bir sıra qədim sənət sahələrini dirçəltmək barədəki təşəbbüsləri böyük maraq doğurmuşdur:

"1981-ci ildə SSRİ Rəssamlıq Akademiyasının Azərbaycanda keçirilmiş tarixi sessiyası yadıma düşdü. Ordakı çıxışımı xatırlayıram. Bu çıxış çox geniş yayılmışdı. Hətta bundan sonra Moskvaya səfər edərkən SSRİ Memarlar İttifaqının sədri məndən çox xahiş etdi və mən orada da çıxış etdim. O zaman mən Azərbaycan miniatür rəssamlıq sənətinin çox dəyərli olduğunu və onun inkişaf etdirilməsi məsələlərini ortaya atdım. Doğrudan da, belədir. Əgər keçmişi götürsək, rəngkarlıq Azərbaycanda XX əsrdə yaranıb. Ancaq Azərbaycan rəssamlıq məktəbi çox zəngin, böyük bir məktəbdir və o da miniatür rəsmlər məktəbi, Sultan Məhəmməd məktəbidir".

Göstərilən təşəbbüs öz bəhrəsini vermiş, Azərbaycanda miniatür sənətinin həm öyrənilməsi, həm də onun yaradıcı şəkildə müasir tələblər baxımından inkişaf etdirilməsinə ciddi cəhdlər göstərilmişdir:

"Sultan Məhəmmədin 500 illiyinin qeyd edilməsi haqqında qərar var. Vaxtilə onun haqqında Azərbaycanda Kərim Kərimovun monoqrafiyası nəşr olunub. Ona görə də miniatür məktəbinin Azərbaycanda yenidən inkişaf etməsi məni sevindirir. Arzu edirəm ki, bu daha da inkişaf etsin".

Azərbaycan Prezidenti 2002-ci ilin oktyabr ayının 23-də Hüseyn Cavidin 120 illik yubileyinin keçirilməsi barəsində sərəncam vermiş, həmin ayın 24-də isə görkəmli şairin ev-muzeyinin açılışında iştirak etmiş, eksponatlara baxmış, şairin qızı Turan Cavidlə söhbət eləmişdir. Açılış mərasimindəki nitqində demişdir:

"Mən bu gün uzun bir fasilədən sonra bu binaya ayaq qoydum. Keçmişdə, 1970, 1980-ci illərdə mən Azərbaycanda işləyəndə bu binaya çox gəlmişəm, çünki onda burada Azərbaycanın Ali Soveti yerləşirdi. Gəlib burada iclaslarda iştirak edirdim və hər dəfə bu salonda Azərbaycanın görkəmli şəxsiyyətlərinə, mədəniyyət, elm nümayəndələrinə yüksək dövlət mükafatları təqdim edirdim... Biz sonra Azərbaycanın Ali Soveti üçün yeni bina tikdik. İndi həmin o binada müstəqil Azərbaycanın Milli Məclisi yerləşir".

Ali Sovetin əvvəlki binası barədə bəhs edərkən dövlət başçısı demişdir:

"Bu bina haqqında çox söz-söhbət gedirdi ki, onu kimə verək... Bu, tarixi binadır və indiyə qədər çox yaxşı qalıbdır. Azərbaycanın tarixi memarlıq abidələrindən biridir. Ancaq mən belə fikirləşirdim ki, biz belə binaları yalnız elm, mədəniyyət sahəsində istifadə etməliyik".

Prezident binanın Əlyazmalar Fonduna verilməsi barədə tamamilə düzgün qərar çıxarılması haqqında danışandan sonra bildirmişdir ki, "indi Əlyazmalar Fondu artıq elmi-tədqiqat institutuna çevrilmişdir. Burada, dediyim kimi, Azərbaycanın tarixini əks etdirən çox nadir, çox qiymətli kitablar var. Onların da çoxu Azərbaycanın tarixi abidələridir. Burada indi kollektiv işləyir, elmi tədqiqatlar aparır".

Ulu Öndər vaxtilə bu binada yaşamış dahi şair-mütəfəkkirin ev-muzeyinə yer ayrılmasını da münasib bilmiş, muzey uğurla fəaliyyətə başlamış, Hüseyn Cavidin yaradıcılığını təbliğ edən bir müəssisəyə çevrilmişdir:

“Bu binada vaxtilə böyük şairimiz, dramaturq, filosof Hüseyn Cavid yaşamışdır. Hüseyn Cavidin yaşadığı otaqlarda onun ev-muzeyinin yaradılması məsələsi ortaya çıxdı. Bu məsələ uzun illər gündəlikdə idi. Ancaq təəssüflər olsun ki, həll edilmirdi. Bunu da həll etdik. İndi bu binada Hüseyn Cavidin ev-muzeyi yaradılıbdır... 1920-ci ildən həbs olunana qədər o, ailəsi ilə bu binada yaşayıbdır.

...Muzey çox maraqlıdır, olduqca maraqlıdır. Güman edirəm ki, Hüseyn Cavid yaradıcılığı ilə, onun həyatı ilə maraqlanan insanlar bu muzeydə maraqlı eksponatlar görə bilərlər”.

* * *

1997-ci ilin 15 aprelində akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunmuş tədbirdə çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev demişdir ki, “ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə düşündüyümü demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl, həqiqətən, böyük, gözəl bir əsərdir. Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Mən Ömər Eldarovu illərdir ki, yaxından tanıyıram. Onun əsərlərinin, demək olar ki, hamısı ilə tanışam”.

Heydər Əliyevlə Ömər Eldarovun münasibətində orta əsrlərin “hökmdar-sənətkar” əməkdaşlığının, dostluğunun müasir dövrə qədər gələn çox parlaq bir əks-sədası var:

“Hələ on, iyirmi il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycan mədəniyyətinin, incəsənətinin ən görkəmli simalarından biri hesab etmişəm. İndiyədək onun heykəltəraşlıq sahəsindəki xidmətləri bu fikri ardıcıl olaraq təsdiq edibdir və mən bu fikri bir daha deyirəm. Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir”.

Ulu Öndər həmişə olduğu kimi bu dəfə də söhbəti tarixdən başlamağa ehtiyac duymuşdu:

“Məlumdur ki, bizim xalqımızın keçmiş tarixində, mədəniyyət tarixində heykəltəraşlıq olmamışdır. Bu bizim dini, mənəvi ənənələrimizlə bağlı olmuşdur. Azərbaycanda heykəltəraşlıq məktəbi, demək olar ki, XX əsrdə yaranmış və bu əsrdə çox böyük sürətlə inkişaf etmişdir. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikasının ərazisində, ölkəmizin muzeylərində, şəhərlərində, o cümlədən, xüsusən Bakıda meydanlarda, bağçalarda, parklarda dəyərli heykəltəraşlıq əsərləri qoyulmuşdur. Bunlar bizim mədəniyyətimizə, memarlığımıza, incəsənətimizə böyük yenilik gətirmişdir”.

Dövlət başçısı Azərbaycanın böyük heykəltəraşlarının adlarını çəkməklə bildirmişdir ki, Ömər Eldarov heykəltəraşlıq sənətinin zirvəsinə heç də təsadüfən yüksəlməmişdir:

"Fuad Əbdürrəhmanov gözəl əsərlər yaradıbdır. Cəfər Qaryağdı, Tokay Məmmədov və başqaları da həmçinin... Bu görkəmli Azərbaycan heykəltəraşları içərisində Ömər Eldarov xüsusi yer tutur – həm yaratdığı əsərlərin bədiiliyinə, yüksək təsirliliyinə, gözəlliyinə görə, eyni zamanda öz sənəti sahəsində çox məhsuldar işinə görə.

...Azərbaycanın görkəmli mədəniyyət, incəsənət xadimlərinin, ədəbiyyatımızın görkəmli simalarının, ictimai xadimlərin heykəllərinin əksəriyyətini yaradan Ömər Eldarovdur".

Ulu Öndər ailədə Zərifə xanımın xatirəsinin nə qədər əziz olduğundan, onun məzarı üzərində abidə qoymaq istəklərindən danışdıqdan sonra qeyd edir ki, belə bir əsər yaratmaq üçün azərbaycanlı heykəltəraş Ömər Eldarov seçildi və söhbətlər, məsləhətləşmələr, yaradıcılıq axtarışları başladı ki, nəhayət, bu gün təqdim olunan abidə meydana gəldi... "Görürsünüz, bu, adi bir əsər deyil. Bu əsərdə məni valeh edən, – bu sözü tam həqiqətlə deyirəm – sevindirən və məndə böyük hissiyyatlar doğuran odur ki, bu əsərdə böyük fəlsəfə, məna vardır. Ən birincisi odur ki, Zərifə xanımın daxili mənəviyyatını, onun simasını, daxili və zahiri simasını Ömər Eldarov əks etdirə bilibdir. Eyni zamanda o, gözəl bir heykəltəraş kimi heykəltəraşlıq sənətinin, məktəbinin, – nəinki Azərbaycan heykəltəraşlıq məktəbinin, dünya heykəltəraşlıq məktəbinin elementlərini, yaxud onların müəyyən cəhətlərini – bu əsərində həyata keçirə, tətbiq edə bilibdir".

Ulu Öndərin çıxışından məlum olur ki, hadisələrin cərəyanı əvvəl nəzərdə tutulduğu kimi getmədiyinə görə planlar dəyişir. Və heykəl səkkiz il Ömər Eldarovun emalatxanasında qalır. Zərifə xanımın cənazəsi 1994-cü ildə Moskvadan Bakıya gətirildikdən sonra onun qəbri üzərinə həmin heykəl əsasında tuncdan hazırlanmış abidə qoyulur... "Bu əsər isə yenə də Ömər Eldarovun emalatxanasında qaldı. Nəhayət, bu yaxın vaxtlarda mənə xəbər verdilər ki, Ömər Eldarov deyir, onu daha bu qədər saxlamaq olmaz, onu göstərmək, nümayiş etdirmək istəyirəm, çünki bu mənim əsərimdir".

Və görkəmli heykəltaraş xahiş edir ki, həmin əsərin mükəmməl çıxması üçün yüksək keyfiyyətli ağ mərmər gətirilsin... Azərbaycan Prezidenti öz çıxışında xatırlayır ki, belə bir xahişi bir vaxtlar – 1981-ci ildə böyük dramaturq Cəfər Cabbarlının abidəsinin yaradıcısı Mirələsgər Mirqasımov da etmiş, çox böyük bütöv qranit parçası istəmişdi...

"Bu dəfə mənim imkanlarım 1980-1981-ci illərdə olduğundan çox idi... Beş blok mərmər buraya gətirildi. Sonra bunu da biləndə çox məmnun oldum. Çünki mənim buraya göndərdiyim ağ mərmərlərin bir bloku Zərifə xanımın indi gördüyümüz heykəlinin yaranması üçün istifadə olunubsa, o birilərindən Ömər Eldarov bizim

hamımız üçün, xüsusən mənim üçün çox əziz olan insanların – Fikrət Əmirovun, Niyazinin gözəl heykəllərini yaradıbdır. O biriləri bilmirəm harada istifadə eləmisən, özün bilərsən. Amma Niyazi ilə Fikrət Əmirovun heykəllərini mən bilirəm.

Ömər Eldarov: Müslüm Maqomayevin abidəsi.

Heydər Əliyev: Müslüm Maqomayevin heykəli. Tamamilə doğrudur. Vaxtilə bizdən qabaq Fəxri Xiyabanda onun qəbrinin üstündə gipsdən heykəl qoymuşdular, yadınızdadırmı? O da uçub dağılırdı. Biz Müslüm Maqomayevin 100 illik yubileyini qeyd edəndə mən dedim ki, heykəli dəyişmək lazımdır və dəyişdik. Filarmoniyanın qarşısında da büstü qoyuldu. Çox gözəl büstdür.

Beləliklə, mən bu işlərimlə o vaxt Ömər Eldarovun da yeni-yeni əsərlər yaratmasına kömək etdim. Eyni zamanda onlardan biri də Zərifə xanımın heykəlinin yaranmasına sərf olunubdur".

Vaxtilə memar, heykəltəraş olmaq istəmiş Ulu Öndərin müasiri (və müasirimiz!) olan dahi heykəltəraş Ömər Eldarovla yaradıcılıq "dialoq"ları Azərbaycan incəsənətini, mədəniyyətini son dərəcədə zənginləşdirmişdir:

"Ömər Eldarov bilir, bəzi başqaları da bilir, mən keçmişdə memarlıq fakültəsində təhsil almışdım. O illərdə, gənc yaşlarında mən ayrı-ayrı memarlıq əsərlərinin, həmçinin antik yunan heykəllərinin, yaxud da Romada, İtaliyada yaranmış heykəllərin fraqmentlərinin şəkillərini görmüşəm. O vaxt bizim müəllimlərimiz, – vaxtilə mənim heykləltəraş, memar müəllimlərim də olub, – bu albomlar əsasında bizə dərs verirdilər, bunlar hamısı mənim xatirimdədir. Ona görə də mən Ömər Eldarova dedim ki, belə təcrübələr var. Belə bir albom yarat, bu sənin əsərini tam nümayiş etdirəcəkdir".

Dahi sənətkar Ömər Eldarov dahi dövlət xadimi Heydər Əliyev haqqında danışarkən bu söhbətə qulaq asan ən təsadüfi adam da anlayır ki, Sənətkarın Dövlət Xadiminə böyük ehtiramı var. Və həmin hörmət, ehtiramın qarşılığı da var:

"Ömərin bir xüsusiyyəti də ondan ibarətdir ki, özü həm yaradır, həm də fəhləlik işini görür. O həm böyük heykəltəraşdır, həm də çox zəhmətkeş bir fəhlədir. Çox, həddindən artıq nadir bir insandır. Çünki bəzən böyük rəssamlar, heykəltəraşlar əsərin ümumi konsepsiyasını, kompozisiyasını verirlər, sonra onların köməkçiləri bu işi başa çatdırırlar. Amma bu adam bilavasitə özü işləyir... Ona görə yox ki, sən bunu etmisən, bu mənim əziz adamımdır. Mən səni 20-30 ildir tanıyıram, o illərdə də sənin əsərlərin haqqında bu sözləri demişəm".

Azərbaycan musiqisi kimi təsviri sənətinin də inkişafında Ulu Öndərin bir xidməti də onda idi ki, sənətkarı həmişə uca tutur, onu yaşayıb yaratmağa həvəsləndirir, ilhamlandırırdı.

# III FƏSİL

## TEATR, KİNO, TELEVİZİYA

Ulu Öndər Azərbaycan teatrının, eləcə də kinosunun və televiziyasının inkişafına həmişə xüsusi diqqətlə yanaşmış, bu sahələrin xalqın, cəmiyyətin get-gedə artan tələblərinə cavab verməsi üçün istər dövlət siyasəti səviyyəsində, istərsə də şəxsi təşəbbüsü ilə hər cür tədbirlər görmüşdür.

1974-cü ilin may ayının 31-də Azərbaycan Dram Teatrının 100 illiyinə həsr olunmuş mərasimdəki nitqini bu sözlərlə başlamışdır:

“Yüz il bundan əvvəl ictimai və dini köləliyin zülmət səltənətində Azərbaycan dram sənətinin ilk qığılcımı parladı. Mirzə Fətəli Axundovun “Lənkəran xanının vəziri” pyesinin tamaşası ilə Azərbaycan teatrının təməli qoyuldu.

...Azərbaycan dram teatrı böyük və şanlı yol keçmişdir. O, Azərbaycanda mütərəqqi ictimai fikrin təşəkkül və inkişafında fəal iştirak etmiş, öz xalqının mənəvi xəzinəsini zənginləşdirmiş, ... həmişə qabaqcıl lider mövqelərində durmuş və indi də qabaqcıl ideya mövqelərində durmaqdadır”.

Azərbaycan dram teartının 100 illik yubileyinin respublikamızın həyatında təkcə böyük mədəni deyil, eyni zamanda siyasi əhəmiyyət kəsb etdiyini söyləyən respublika rəhbəri əlavə eləmişdir ki, “teatrımız yeni dünya quruculuğunda bilavasitə iştirak etməyə başlayanadək bir çox illər boyu enişli-yoxuşlu yollarla getmiş, ağır sınaqlara məruz qalmış, xalqa zidd mürtəce qüvvələrə qarşı şiddətli ideoloji mübarizə aparmalı olmuşdu. Görkəmli mədəniyyət xadimləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov ilk dərin şırım açaraq Azərbaycan teatr sənətinin toxumunu səpmiş, onun cücərtilərini... dövrün şiddətli qasırğalarından hifz edib qorumuşdular”.

Xalqla əlaqəsini tamamilə itirmiş hakimiyyətə qarşı mübarizənin ilk dərslərini verən “Lənkəran xanının vəziri” tamaşası Azərbaycan teatrının düzgün ideya-metodoloji istiqamət almasında mühüm rol oynadı:

“Azərbaycan teatrı lap əvvəldən realist teatr kimi təşəkkül tapmış, öz banilərinin arzuladıqları kimi, “həyat məktəbi”, “əxlaqı saflaşdırmaq vasitəsi”

olmuşdu. Azərbaycan teatrı öz tamaşalarının ideya-mündəricəsi və aydın məqsədilə zəhmətkeşlərin sinfi mənlik şüurunu oyadırdı. O vaxt, zalımların hökm sürdüyü, dini fanatizmin tüğyan etdiyi, mollaların "müqəddəs ata" sayıldıqları illərdə həyatını teatrla bağlamaq mərdlik, cəsarət və fədakarlıq istəyirdi".

Əlbəttə, teatrla dramaturgiya bilavasitə və çox zəngin ideya-estetik münasibətlərlə bağlıdır. Dövrün mənəvi-əxlqi, intellektual-ideoloji mənzərəsinin səhnəyə təsirli bir şəkildə gəlişi dram əsərindən başlayır:

"N.Vəzirovun "Müsibəti-Fəxrəddin", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", N.Nərimanovun "Nadanlıq" pyeslərinin qəhrəmanları öz qəlblərinin ən gözəl, ən nəcib hiss və duyğularını doğma yurda, başı bəlalar çəkmiş xalqa həsr etmişdilər. Qəhrəmanların faciəli vəziyyəti pyeslərin adlarından da görünür. Belə ağır bir şəraitdə dramaturgiyanın qəhrəmanları öz müqəddəs arzularına çatmayaraq həlak olurdular. Lakin onlar həlak olduqda da tamaşaçıya yüksək ideallar aşılayır, xalqı mənəvi cəhətdən yüksəltmək kimi böyük bir işə xidmət etməyi ona öyrədirdilər".

Azərbaycanda teatra marağın diqqəti cəlb edən göstəricilərindən biri də o idi ki, "keçən əsrin axırlarında Bakıda olduğu kimi, Naxçıvanda, Şuşada, Gəncədə, Şamaxıda, Şəkidə, habelə Tiflisdə, İrəvanda, Təbrizdə və Aşqabadda da Azərbaycan dilində tamaşalar qoyulurdu". Və eyni zamanda teatrın ideya-estetik, poetexnoloji diferensiasiyası güclənirdi:

"Dram teatrının nəcib təsiri altında Azərbaycanda səhnə sənətinin yeni növləri yaranıb inkişaf etməyə başladı. 1908-ci ildə Bakıda ilk milli operanın –Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının tamaşası ilə musiqili teatr, indi məşhur olan M.F.Axundov adına Opera və Balet Teatrı meydana gəldi. Çox keçmədən musiqili komediyalar, vodevillər yaradılmağa başladı".

Cəlil Məmmədquluzadənin "Ölülər" pyesinin 1916-cı ildə tamaşaya qoyulması ilə yaranmış sosial-mənəvi rezonansı xatırladan natiq buna bənzər başqa bir mədəni-ictimai hadisədən – "Sevil" in doğurduğu "çadra inqilabı"ndan da bəhs etmişdir. Və bununla göstərmək istəmişdir ki, Azərbaycan teatrı bir-birindən kəskin şəkildə fərqlənən dövrlərdə həmişə demokratik düşüncə, mənəvi-ruhi azadlığı tərənnüm etmək mövqeyində dayanmaqla mütərəqqi ideyalar tərəfdarı olmuşdur.

Əlbəttə, Mirzə Fətəlidən sonra Cəfər Cabbarlı teatr tariximizin ən görkəmli siması idi:

"Cəfər Cabbarlının yaradıcılığı dramaturgiya ədəbiyyatımızın daha da inkişaf etdirilməsinə çox böyük təsir göstərmişdir... Bizim həyatımız Cəfər Cabbarlı üçün zəngin mövzu mənbəyi idi, o, bu həyatdan təkcə yeni ideyalar, süjetlər, konfliktlər deyil, həm də təsvir vasitələri əxz edirdi".

Respublika rəhbəri "Vaqif" dramının doğurduğu möhtəşəm əks-sədanı yada saldıqdan sonra Hüseyn Cavidin tarixi əsərlərinin teatrın sənətkarlıq imkanlarını yüksəltdiyini qeyd etmişdir. Və əlavə eləmişdir ki, "respublika teatrları tamaşalarının əksəriyyəti müasirlərimizə, həyatımızın ciddi, aktual ictimai və etik problemlərinə

həsr olunmuşdur. Müasirlərimizin qaynar həyatını əks etdirən tamaşaların xüsusi cazibə qüvvəsi vardır. Bunlar qoyulmuş problemlərin müasirliyi, aktuallığı ilə tamaşaçı kütlələrini həyəcanlandırır. “Sən yanmasan”, “Sən nə üçün yaşayırsan”, “Ömür elə qısadır ki”, “Unuda bilmirəm”, “Qəribə oğlan”, “Kəndçi qızı”, “Göz həkimi”, “İkinci səs” tamaşalarında və digər tamaşalarda qəhrəmanların sözlərinə və hərəkətlərinə tamaşa salonunun dərin maraq göstərməsi bunu sübut edir”.

Respublika rəhbərinin söylədiyi kimi, Azərbaycan teatrının yüksəlişi yalnız milli dramaturgiyaya əsaslanması ilə bitməmişdir:

“Otello” və “Hamlet”, “Maqbet” və “Kral Lir”, “Romeo və Cülyetta” və “Qış nağılı”, “On ikinci gecə” və “Fırtına”, “Şıltaq qızın yumşalması” və “İki veronalı” – Azərbaycan teatrının zəngin repertuarı belədir. Bu repertuar bədii kamilliyi, böyük dramaturqun mürəkkəb obrazlarının daxili aləminə dərindən nüfuz edilməsi, onun şah əsərlərinin fəlsəfi məzmununun parlaq şəkildə açılması ilə fərqlənir”.

Natiq teatrın inkişafına xidmət etmiş böyük sənətkarların adlarını fəxrlə çəkmişdir:

“Azərbaycan teatrının ən yaxşı tamaşaları rejissorlardan İsmayıl Hidayətzadənin, Aleksandr Tuqanovun, Sergey Mayorovun, Rza Təhmasibin, Mehdi Məmmədovun, Məhərrəm Haşımovun, Tofiq Kazımovun, Ələsgər Şərifovun, Əliheydər Ələkbərovun, rəssamlardan Nüsrət Fətullayevin, İsmayıl Axundovun, Bədurə Əfqanlının adları, bəstəkarlardan Asəf Zeynallının, Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun, Səid Rüstəmovun, Tofiq Quliyevin yaradıcılığı ilə bağlıdır.

Azərbaycan səhnəsinin görkəmli ustalarından Abbas Mirzə Şərifzadənin, Sidqi Ruhullanın, Mirzağa Əliyevin, Yeva Olenskayanın, Kazım Ziyanın, Ülvi Rəcəbin, Mərziyə Davudovanın, Fatma Qədirinin, Ələsgər Ələkbərovun, Mustafa Mərdanovun müxtəlif tamaşalarda yaratdıqları canlı və dərin obrazlar M.Əzizbəyov adına teatrın salnaməsinə həmişəlik daxil olmuşlar”.

Əlamətdar haldır ki, nitqdə tamaşanın hazırlanmasının “mətbəx”inə qədər varılmışdır:

“Hər tamaşanın yaradılması bir çoxlarının – dramaturqun, rejissorun, aktyorların, dekoratorların, işıq ustalarının və başqalarının böyük və gərgin əməyidir. Səhnə əsərlərinin yaradılmasında həm baş, həm də epizodik rolların ifaçıları, həm səhnə fəhlələri, həm də biletyoxlayanlar iştirak edirlər”.

Respublika rəhbəri bütün bu uğurları ilə yanaşı, Azərbaycan teatrının bəzi problemlərinə də toxunmuşdur:

“Təəssüflə qeyd etmək lazımdır ki, tamaşa salonları heç də həmişə adamla dolu olmursa, bunun səbəbini həm bəzi pyeslərin və tamaşaların keyfiyyətində, həm də əsərlərin səhnə təcəssümünün forma və üsullarının daha rəngarəng olmasına imkan verən müasir texniki vasitələrə mühafizəkar münasibətdə axtarmaq lazımdır. Onu da etiraf etmək lazımdır ki, teatr sənətinin təbliği işi bizdə zəif təşkil edilmişdir”.

Nitqin sonunda teatrı qidalandıran dramaturgiyanın ideya-estetik çatışmazlıqlarından, xüsusilə həyatın canlı proseslərinə, müasir insanın mənəvi aləminə heç də həmişə dərindən nüfuz edə bilməməsindən bəhs olunmuşdur.

Azərbaycan KP MK-nın 17 iyul 1979-cu il tarixli plenumundakı məruzəsində birinci katib Heydər Əliyev teatrın yaradıcılıq problemlərinə müəyyən yer ayırmışdır:

"Respublikada mənfi hallara qarşı aparılan prinsipial mübarizəni əks etdirən pyeslərin teatrlarımızın səhnəsində tamaşaya qoyulmasını müsbət fakt kimi qeyd etmək lazımdır. Bu, fərəhli haldır, çünki belə pyeslər incəsənəti həyata yaxınlaşdırır. Lakin ümumən maraqlı bu əsərlərin bəzilərində xeyrin əksinə olaraq şər qüvvə müsbət qəhrəmanın mövqeyinə nisbətən son dərəcə geniş və bədii cəhətdən daha inandırıcı verilmişdir, həm də müsbət qəhrəmanın mövqeyi heç də həmişə fəal olmur".

Həmin məruzədə kino sahəsindəki qüsurlar da göstərilmişdir:

"Dövlət Kinematoqrafiya Komitəsinin fəaliyyətində nöqsanlar vardır. Kino-filmlərin səviyyəsi aşağı olduğuna görə, kino şəbəkəsi inkişafdan qaldığına görə, zəhmətkeşlərə kino xidmətinin pis təşkilinə görə biz Dövlət Komitəsinin rəhbərliyini dəfələrlə tənqid etmişik. Respublikamız kinoya gələn tamaşaçıların sayına görə xeyli müddətdir ki, ölkədə axırıncı yeri tutur".

Respublika rəhbəri 1980-ci ilin dekabr ayının 4-də Səməd Vurğun adına Dövlət Rus Dram Teatrının veteranı, Xalq artisti Sergey Yakuşevə təltif olunduğu "Xalqlar Dostluğu" ordenini təqdim edərkən demişdir:

"Azərbaycan teatr sənətinin inkişafında, Səməd Vurğun adına teatrın səmərəli fəaliyyət göstərməsində S.İ.Yakuşevin böyük xidmətləri vardır.

... Bu aktyorun özünəməxsus sənətkarlıq xüsusiyyəti ondan ibarətdir ki, özünün hər bir işində, hər bir rolunda yüksək sənətkarlıq nümayiş etdirir, yaratdığı personajların xarakterini dərindən açıb göstərir, bununla da əsərlərin tamaşaçılara ideyaca, bədii və estetik cəhətdən yüksək təsir göstərməsini təmin edir".

1981-ci ilin aprel ayının 11-də isə S.Vurğun adına teatrın 60 illiyinə həsr edilmiş təntənəli gecə keçirilmiş, həmin gecədəki nitqində Heydər Əliyev teatrın kollektivini böyük yaradıcılıq uğurları münasibətilə təbrik etmişdir.

Azərbaycan öz dövlət müstəqilliyinə nail olduqdan sonra teatr, kino, televiziya sahələrinin yenidən qurulması, inkişafı sahəsində daha böyük işlərə imza atılmışdır.

Prezident 1995-ci ilin 8 iyulunda Respublika sarayında Xalq artisti Amaliya Pənahovanın 50 illik yubileyi gecəsində çıxış edərkən sözünü son dərəcə müdrik kəlamlarla başlamışdır:

"Sizinlə görüşməyimə çox şadam. Bugünkü tədbir çox gözəl idi. Biz mədəniyyətimizi heç vaxt unutmamışıq və unutmayacağıq. Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır. Xalq, ictimaiyyət, eləcə də dövlət sənət adamlarına mədəniyyətimizdə tutduqları yerə görə qiymət verir. Mən istəyirəm ki, mədəniyyətimizdə birlik olsun və bu da xalqımızı birləşdirsin".

Teatrın özünəməxsus xüsusiyyətləri barədə danışan dövlət başçısı demişdir:

"Bir var ki, insan hər hansı bir əsəri özü oxusun, bir də var ki, onu canlı olaraq səhnədə görsün. Ona görə də teatrın həyatımızda rolu böyükdür. Mən həmişə teatrı sevmişəm, ondan çox faydalanmışam. Həyatımızın ağır dövrlərində də mən həmişə teatrımıza hörmət və ehtiramımı saxlamışam, heç vaxt ondan ayrılmamışam".

Prezident teatra, teatr xadimlərinin yaradıcılıq işinə son dərəcə yüksək qiymət vermişdir:

"Bizim teatr xadimlərimiz, səhnə ustalarımız böyük işlər görürlər. Mən əvvəllər də sizinlə görüşəndə bunları demişəm. Ancaq bu sözlər bu gün daha aktualdır. Teatr xadimlərimiz, ümumiyyətlə, orada işləyən hər bir adam böyük fədakarlıq edir. Fikrimizcə, müharibə dövründə də cəbhədə olan adamların birini üç nəfər hesab etdikləri və onlara üç qat artıq məvacib verdikləri kimi, teatrda da belədir. Çünki teatrda işləmək asan məsələ deyildir. Mən bunu yaxşı bilirəm".

Qeyd olunmuşdur ki, teatr xadimləri, aktyorları eyni zamanda iki həyat yaşamağa – həm səhnədə, həm də səhnə arxasında olmağa məcburdurlar ki, bu da onlardan istedadla yanaşı, böyük zəhmət tələb edir:

"Bayaq biz salonda oturduğumuz zaman üç saat elə bil bir dəqiqə kimi keçdi. Ancaq mən təsəvvür edirəm ki, - yəqin bunu bütün tamaşaçılar da bilir – hər bir teatr işçisi öz rolunu oynayarkən nə qədər həyəcan keçirir, enerji sərf edir, öz daxili imkanlarını toplayır. Bunlar səhnəyə çıxan aktyorun, rəqqasın, müğəninin hər birinə aiddir. Ona görə də mən bir daha deyirəm: Teatr və incəsənət sahəsində çalışanlar fədakar insanlardır... Onların həyatının səhnə arxasında necə olmasını çoxları bilmir, heç təsəvvürlərinə də gətirmir. Mən bunları bilirəm".

Sənət adamları arasında tez-tez yerli-yersiz münaqişələrin, intriqaların olduğunu yaxşı bilən dövlət başçısı demişdir:

"Bu gün Amaliya xanımın yubileyidir. Bir müddətdən sonra başqa bir incəsənət xadimimizin yubiley olacaqdır. Birləşmək lazımdır. Sıx olun, bir-birinizə kömək edin, arxa olun. Birləşmək lazımdır. Əl-ələ verib birlikdə işləməliyik. Mən bunu istəyirəm".

* * *

1995-ci ilin dekabr ayının 15-də Azərbaycan kinematoqrafçılarının VIII qurultayı keçirilir. Dekabrın 16-da Prezident yeni seçilmiş idarə heyəti ilə görüşdə çıxış edərkən əvvəlcə kinematoqrafçıların düşdükləri çətin vəziyyətdən bəhs etmiş, sonra isə demişdir:

"Birinci onu demək istəyirəm ki, bizim kinonun tarixi və əldə etdiyi nailiyyətlər milli sərvətimizdir, mədəni sərvətimizdir və bunu qorumalıyıq. Bilirəm ki, gələn il Azərbaycan kinosunun 80 illiyi, dünya kinosunun da 100 illiyi tamam olur. Ona görə də Azərbaycan kinosunun 80 illik yubileyini keçirmək üçün lazımi tədbirlər görəcəyik... Güman edirəm ki, bu tədbirlər ətrafında biz ictimaiyyətdə, respublikamızın

vətəndaşlarında kinoya olan marağı, diqqəti daha da artıra biləcəyik və şübhəsiz ki, kinoya qayğını da artıra biləcəyik".

Prezident sözünə davam edərək demişdir:

"İkinci, Azərbaycan kinosunun 80 illik tarixi xalqımızın salnaməsidir. Çünki biz tariximizlə həmişə fəxr etmişik və eyni zamanda tariximizi qorumalıyıq. Əgər Azərbaycan xalqı – Şərqdə yaşayan və keçmişdə bu sahədə Qərb ölkələrindən geridə qalmış bir xalq, millət 80 il bundan öncə kino sənətini bu müddətdə yaşadıb inkişaf etdiribsə, bu, xalqın mədəniyyətinin nə qədər zəngin olduğunu göstərir".

Dövlət başçısı kinonun cəmiyyətdəki tarixi rolundan bəhs etmiş, onun teatrdan daha kütləvi olduğunu söyləmişdir:

"İndi burada Tofiq Tağızadə kimi yaşlı nəslə mənsub olan adam var, mən də o cümlədən, ancaq gənclər də var, – o vaxtlar kinodan savayı bir şey yox idi, nə televiziya var idi, nə də radio o qədər təsir göstərirdi. Bizə ən çox təsir göstərən teatr idi, lakin bu da o qədər kütləvi deyildi. Əgər teatr Bakıda, başqa şəhərlərdə var idisə, teatra xüsusi getmək lazım idisə, kino belə idi ki, onu yayırdılar, aparıb kənddə də göstərirdilər".

Ölkənin iqtisadi çətinliklərlə üzləşməsinə rəğmən, kino xadimlərinin öz işlərini davam etdirməsini, hətta müəyyən nailiyyətlər qazanmasını Prezident təqdir etmişdir:

"Siz elə bir sahədə işləmisiniz və işləyirsiniz ki, doğrudan da, xalqımıza xeyir gətirmisiniz. Həyatınız nə qədər çətin olsa da, – ümumiyyətlə, hamımızın həyatı çətindir, – fəxr etməlisiniz ki, belə bir sahənin fədakar adamlarısınız və bu ağır dövrdə də sənətinizdən uzaqlaşmamısınız, onu unutmamısınız və davam etdirirsiniz".

Azərbaycan mədəniyyətinin, incəsənətinin bir sıra sahələrinin kino ilə bağlı olduğunu, məhz kino vasitəsilə bütün dünyaya yayıldığını göstərən dövlət başçısı demişdir:

"Elə "Arşın mal alan" filmini götürək. Böyük Üzeyir Hacıbəyovun yaratdığı "Arşın mal alan" əsəri dahi bir əsərdir, mədəniyyətimizdə çox görkəmli yer tutmuş əsərdir. Ancaq o film çəkilməsə idi, dünya "Arşın mal alan"ı da o qədər tanıya bilməzdi. Üzeyir Hacıbəyovu da, Rəşid Behbudovu da o qədər tanıya bilməzdi".

Azərbaycan kinosunun qazandığı uğurlardan bəhs edəndən sonra natiq çox mühüm bir mövzunun işıqlandırılmasına müvəffəq olunmadığına görə təəssüfünü bildirmişdir:

"Sonrakı dövrdə yaranmış və tariximizi əks etdirən filmlər, məsələn, "Nəsimi", yaxud da "Babək", "Dədə Qorqud", "Nizami" filmləri gözəl filmlərdir... Məsələn, mən dəfələrlə söhbət aparmışdım ki, İkinci dünya müharibəsi dövründə Azərbaycan neftçilərinin fəaliyyətini kinoda göstərək. Təəssüflər olsun ki, biz bunu edə bilmədik.

...Xatirimdədir, o zaman Qafqazın şimalı artıq faşist ordusu tərəfindən zəbt olunmuşdu, dəmir yolu işləmirdi. Xəzər dənizi, yaxud Orta Asiya vasitəsilə nə qədər çətinliklə cəbhəyə neft göndərilirdi. Bunu Azərbaycan xalqı, Azərbaycan edibdir. Bu

bizim tarixi nailiyyətimizdir. Ona görə də mən çalışırdım ki, bunu kinoda əks etdirək, lakin edə bilmədik".

Heydər Əliyev əfsanəvi partizan Mehdi Hüseynzadə haqqında çəkilmiş filmin tarixçəsi, xüsusilə DTK-da çalışdığı illərdə gələcəkdə həmin filmin çəkilməsini qaçılmaz edən materialların necə toplanması, Mehdi Hüseynzadənin unudulmaq təhlükəsi altında qalan qəhrəmanlığının necə üzə çıxarılması barədə məlumat verdikdən sonra demişdir:

"Film çəkiləndən sonra böyük çətinliklə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Bu ad veriləndən sonra da axırı mənə qismət oldu ki, Mehdi Hüseynzadənin xatirəsinə böyük abidə yaratdıq. Xatirimdədir, gərək ki, 1973-cü ildə onu təntənə ilə açdıq".

Ulu Öndər "İstintaq" filmi barədə geniş bəhs etmişdir:

"Biz 1969-cu ildən etibarən, 70-ci illərdə korrupsiya ilə, rüşvətxorluqla, cürbəcür mənfi hallarla mübarizəni Azərbaycanda başladıq... Bunun da nəticəsi olaraq, məsələn, "İstintaq" filmi yarandı. Filmin nə qədər çətinliklərlə yarandığını bilirsiniz, ona mane olanlar vardı. Mən filmin yaranmasına nəinki kömək, himayədarlıq etdim. Çünki o, 1969-cu ildən respublikanın rəhbəri kimi, siyasi xadim kimi apardığım siyasi işin, xəttin kinoda əksi idi... Çünki o vaxtlar Moskvada Daxili İşlər Nazirliyinin başında, – indi açıq danışmaq lazımdır, – rüşvətxorlar, Şelokov və başqaları oturmuşdular.

...Ancaq o film göstəriləndən sonra həm Moskvadan, həm də başqa respublikalardan mənə xeyli telefon zəngləri oldu ki, siz nə qədər cəsarətli adamlarsınız, nə qədər böyük işlər görürsünüz... Nə qədər cəsarətli adamsınız ki, siz öz içərinizdə olan mənfi halları, çürüklüyü və sairəni göstərirsiniz. Dedim ki, biz nəinki göstəririk, həm də bununla mübarizə aparırıq. Amma biz bu mübarizəni çoxdan aparırıq, film isə 1978-ci ildə çəkildi".

"Bir cənub şəhərində" filmi barədə də söhbət getmişdir:

"O filmə də mane olurdular. Yenə də həmin Şelokovun onun qarşısını Moskvada nə üçün aldığını sizə deyim. Yadınızdadırsa, filmdə bir epizod var ki, milisionerə bir manat pul veriblər. Şelokov demişdi ki, nə təhər ola bilər, milisioner bir manat pul alır? Belə şey olmaz. Filmi buraxmadı. Biz filmi buraxdırdıq və hesab edirəm ki, o bizim kinematoqrafiyanın həyatında çox böyük hadisə oldu".

Sonra isə Prezident "Şəhərin yay günləri", eləcə də "Ölülər"in kino təcəssümündən danışmışdır:

"O vaxt Anarın "Şəhərin yay günləri" pyesi də mənim çox xoşuma gəlmişdi. Dedim ki, bir kino çəkilsin, amma o vaxt çəkmədiniz, məndən sonra çəkildi... Lakin mən filmə baxmamışam. Tofiq Tağızadə dedi ki, biz istirahət günü çay içə-içə onun çəkdiyi kinoya baxaq.

... "Ölülər", Cəlil Məmmdquluzadə mövzusuna gəlirəm.

...İndiyə qədər bu əsəri təbliğ edə, dünyaya tanıtdıra bilməmişik. Düzdür, xatirimdədir, bu əsəri Tofiq Kazımov tamaşaya qoydu, onu da tənqid elədilər ki,

əsəri bir az o tərəfə, bu tərəfə əyibdir. Sizin filminiz nə cürdür – bilmirəm, amma qulağıma çatır ki, Tofiq Tağızadə də əsəri bir balaca o tərəfə, bu tərəfə əyib, bunu da bilmirəm. Amma ona mütləq baxacam. Çünki hesab edirəm ki, bizim və bizdən sonra gələnlərin də borcudur ki, "Ölülər" əsərini dünyaya tanıdaq".

Dövlət başçısı çıxışını proqram səciyyəli mülahizələrlə bitirmişdir:

"Kinonu, kinematoqrafiyanı, kino sənətimizi yaşatmaq lazımdır. Şübhəsiz ki, bizim kino sənətinin on illərlə yaranmış böyük bir kollektivinin dağılmasına imkan vermək olmaz. Bilirəm, burada çıxış edib dedilər ki, yaşamaq çətindir, bəziləri gedib özlərinə başqa iş axtarırlar. Bunları başa düşürəm və heç kəsi qınamaq da mümkün deyildir.

...Bir də deyirəm, belə ağır vəziyyətdə qurultay keçirib, yeni bir tərkib seçib, yeni orqanlar yaratmağın özü onu göstərir ki, siz kinonu yaşatmaq istəyirsiniz. Siz də çalışın yaşadın, biz də çalışacağıq yaşadaq".

* * *

Bakıda Respublika sarayında dünya kinosunun 100 illiyi münasibətilə "Festivallar festivalı"nın açılışına həsr olunmuş təntənəli gecədə (2 may 1998-ci il) çıxış edənlər Azərbaycan kinosunun 1916-cı ildə yox, daha əvvəllər – 1898-ci ildə meydana gəldiyini söylədikdə Azərbaycan Prezidenti bunu maraqla qarşılayaraq demişdir:

"Bu, o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi, o, Azərbaycanda da peyda olunmuşdur. Axı az-az ölkə tapılar ki, Avropada kino banilərinin kino yaratdıqları həmin vaxtdan bu ölkələrdə kino həqiqətən mövcud olmağa başlasın".

Prezident televiziya ilə rəqabətdə kinonun arxa plana keçəcəyini təxmin etmədiyini söyləmişdir:

"Belə bir qanunauyğun hal baş verir – televiziya kinonu müəyyən dərəcədə sıxışdırır. Amma adamlar televiziyadan, necə deyərlər, doyurlar və bir daha kino salonuna qayıtmaq, kinoya qayıtmaq, böyük ekrana qayıtmaq arzusu baş qaldırır. Mən belə düşünürəm ki, bu da baş verəcəkdir".

Böyük tarixi şəxsiyyətləri xalqa tanıtmaqda kinonun əvəzsiz rolu qeyd olunmuşdur:

"Biz görkəmli adamların yubileylərini qeyd edirdik, onların haqqında kitablar, romanlar, tarixi oçerklər yazılırdı, kinofilmlər çəkilirdi. Yaxşı ənənə idi. Bax onda biz ilk dəfə olaraq Bakıda Nəsimiyə gözəl bir abidə ucaltdıq, onun adını əbədiləşdirdik, – bizdə Nəsiminin adına rayon var... Film yaratdıq. Həsən Seyidbəyli bu filmin yaradılmasını öz üzərinə götürdü. Xatirimdədir, ssenari çox mürəkkəb, çox çətin idi. Çünki tarixi təhlil etmək, aydınlaşdırmaq lazım idi.

...Mən hesab edirəm ki, tarixi baxımdan bu film Azərbaycan kino sənətinin, əslində, ilk belə çox fundamental filmi idi".

Söhbət gəlib Nəsimi rolunun təkrarsız ifası üzərinə çıxmışdır:

"Xatirimdədir, onda mən Həsən Seyidbəyli ilə görüşdüm, söhbət etdim və soruşdum ki, bəs Nəsimi rolunu kim ifa edəcək? O dedi ki, bilirsinizmi, mən bir yaxşı, perspektivli cavan tapmışam. Soruşdum ki, o haradadır? Dedi ki, o, Teatr İnstitutunda oxuyur.

...O, Nəsimi rolunu həqiqətən gözəl ifa etdi, çox gözəl ifa etdi".

Sonda ölkə başçısı bilavasitə kino sənəti ilə əlaqədar görmüş olduğu işlər barədə bəhs etmişdir:

"Mən Moskvada Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən Kinematoqrafiya Komitəsinə kuratorluq edirdim. Yermaş yanıma tez-tez gələr, biz bir çox məsələləri həll edərdik.

...Mən kinematoqrafiyanın ən böyük xadimləri ilə çoxlu görüşlər keçirdim və hər şeyi – sənəd, qərar layihəsi hazırladıq. Yermaşa dedim ki, siz bizim kinematoqrafiyanın ən görkəmli adamlarını yanınıza çağırın, mən də gələcəyəm. Bu, 84-cü il idi. Biz bir neçə saat söhbət etdik... O dövr üçün çox sanballı sənəd, Sovetlər İttifaqı Kinematoqrafiyasının inkişaf proqramını yaratdıq.

...Gördüyünüz kimi, mən kinematoqrafiya ilə bilavasitə bağlıyam".

Azərbaycan Prezidenti Azərbaycan Dövlət Opera və Balet Teatrında Xalq artisti Leyla Vəkilovaya həsr edilmiş tamaşaya baxdıqdan sonra görkəmli balerina, eləcə də balet iştirakçıları – incəsənət ustaları ilə görüşmüşdür. O demişdir:

"Mən belə başa düşdüm ki, bugünkü tamaşa Leyla xanımın yubileyinə həsr olunub. Hesab edirəm ki, siz ona layiq hədiyyə hazırlamısınız... Şadam ki, baletimiz, Azərbaycan baleti yaşayır, mövcuddur, heç bir çətinliyə baxmayaraq, bu gün də yaxşı vəziyyətdədir.

Leyla xanımla görüşəndə düşünürsən ki, o, Azərbaycanda müasir baletin yaradılmasına nə qədər zəhmət çəkmiş və qüvvə sərf etmişdir! Bizdə klassik balet onun çox böyük əməyinin nəticəsidir. Bu işə siz neçə il – əlli ilmi həsr etmisiniz?

Leyla Vəkilova: Ömrümün 53 ilini bu işə sərf etmişəm, cənab Prezident.

Heydər Əliyev: Bu illər heç də sadəcə 53 il deyildir. Mən təsəvvür edirəm, lakin siz özünüz daha yaxşı bilirsiniz ki, özünü balet sənətinə həsr etmək heç də asan deyildir.

...Əlbəttə, baletlə hər kəs məşğul ola bilməz. Bundan ötrü xüsusi bacarıq və istedad gərəkdir. Lakin bundan başqa böyük arzu da lazımdır ki, sənətin belə çətin, belə ağır növü ilə məşğul olasan – bundan ötrü necə ürək gərəkdir!

...Müasir şəraitdə mümkün olan bütün tədbirləri görəcəyəm ki, baletimiz getdikcə yüksəlsin, Opera və Balet Teatrımız bugünkü kimi yaşasın, var olsun, bizdə yeni-yeni balet ustaları, yeni-yeni incəsənət ustaları yaransın".

Azərbaycan Prezidenti Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Səməd Vurğunun "Fərhad və Şirin" pyesinin yeni quruluşda tamaşasına (7 iyun 1997-ci il) baxmış, sonra isə yaradıcı kollektivlə görüşdə demişdir:

"Səməd Vurğunun dahi şair, dramaturq, yazıçı, filosof, alim olduğunu cəmiyyətimiz bir daha dərk edir. O, həqiqətən, çox dəyərli irs qoyubdur.

...Mən milli teatrın kollektivini bu yaradıcılıq müvəffəqiyyəti münasibətilə bir daha ürəkdən təbrik edir və ona gələcəkdə daha böyük uğurlar arzulayıram".

Dövlət başçısı əsərə peşəkar bir teatrşünas səviyyəsindən geniş ideya-estetik şərh vermişdir:

"Fərhad və Şirin" öz məzmunu, mənası, mənəvi dəyərləri ilə həddindən artıq təsiredicidir, ibrətamizdir və bu əsərin məzmunu, mənası, süjeti daim aktualdır. Bu əsər insan münasibətlərində pak, saf sevgi-məhəbbətin nə qədər güclü, nə qədər ülvi olmasını, eyni zamanda xəyanətin, satqınlığın nə qədər nifrət və ikrah hissləri doğurduğunu parlaq şəkildə göstərir.

...Əsəri kitabdan oxuyan hər kəs bu təsirin altında olacaqdır. Amma siz – rejissorlar, tərtibatçılar, aktyorlar, tamaşanı hazırlayan bütün kollektiv isə onu dərk etmək üçün, anlamaq üçün, məzmununu, mənasını başa düşmək üçün çox böyük məharət, sənətkarlıq nümunəsi göstərmisiniz".

Teatra xüsusi münasibəti barədə danışan Prezident demişdir:

"Bilirsiniz ki, mən Azərbaycan Milli Teatrını həmişə sevmişəm, onun pərəstişkarı olmuşam və indi də pərəstişkarıyam.

Son dəfə bu salonda gərək ki, 1984-cü ildə olmuşam – onda Moskvada işləyirdim, Bakıya gəlmişdim, – o vaxt "İblis" əsərini göstərirdiniz.

...Çox şadam ki, uzun fasilədən sonra teatrla, sizinlə görüşüm məhz bu əsərlə başladı".

Fərhad rolunun ifaçısı Mikayıl Mirzənin, Xosrov rolunun ifaçısı Həsən Məmmədovun, Şirin rolunun ifaçısı Məleykə Əsədovanın sənətkarlığı yüksək qiymətləndirilmişdir:

"Teatr ona görə yaşayır ki, vaxtilə Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirzağa Əliyev, Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Adil İsgəndərov, Rza Əfqanlı, Fatma Qədiri, Hökümə Qurbanova, onlardan sonra gələnlər var idi. İndi orta nəsil – Mikayıl Mirzə, Həsən Məmmədov və başqalarıdır. Amma gərək bu sıra pozulmasın, fasilə olmasın, birinin dalınca o birisi gəlməlidir. Bu, mütləq lazımdır. Çünki yaşlı nəsil həm gənclərə təcrübə verir, həm də sənətimiz davam edir".

Prezident teatrın zəngin ənənələrindən bəhs etmiş, bu ənənələrin davam və inkişaf etdirilməsini məsləhət görmüşdür:

"Xatirimdədir, 1973-cü ildə bu teatrın 100 illik yubileyini böyük təntənə ilə keçirdik. Xatirinizdədirsə, rəhmətlik Mehdi Məmmədov, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlıya böyük adlar verildi.

...Teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var və bu teatr bu gün də, gələcəkdə də yaşamalıdır. Respublikada gedən proseslərə görə son illər teatrın həyatında bir qədər çətinliklər olubsa, bunlar keçib gedəcəkdir".

Sonda teartın cəmiyyətin mənəvi-əxlaqi tərbiyəsinə təsiri qeyd olunmuşdur:

"Mən istərdim ki, məhəbbət, sevgi həmişə olsun, xəyanət, satqınlıq heç vaxt olmasın. Siz də bunu istərdiniz. Ancaq bu nə sizdən, nə də məndən asılı deyildir. Ona görə də bu, çox aktual bir əsərdir və bu əsərin indi səhnəyə gəlməsinin cəmiyyətimiz üçün, müstəqil Azərbaycan dövləti üçün və bizim insanların tərbiyəsi, kamilləşməsi, təkmilləşməsi üçün çox böyük əhəmiyyəti var".

Azərbaycan Prezidenti Azərbaycan Milli Dram Teatrında Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya?!" pyesinin tamaşasına baxdıqdan (7 noyabr 1997-ci il) sonra yaradıcı heyətlə görüşmüş, həmin görüşdə demişdir:

"Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir.

...Bu əsərdən doğan məna ondan ibarətdir ki, gərək hər bir insan nə olur-olsun, paklıq, mənəvi saflıq, mənəvi təmizlik uğrunda mübarizə aparsın, insana xas olan mənfi keyfiyyətlərdən insanları xilas etməyə axıra qədər çalışsın".

Prezident "Hara gedir bu dünya"nı Mirzə Cəlilin "Ölülər"i ilə müqayisə etmişdir:

"Mən indi bu tamaşaya baxanda Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri yadıma düşür...

Mən bu tamaşanı izlədikcə fikirləşirəm, vəzifə nədən ibarətdir – bunu qəbul etmək, onunla razı olmaq, yaxud da mübarizə aparmaq lazımdır: Əsərin də ana xətti ondan ibarətdir ki, əsas qəhrəman Laçın bu mübarizəni aparır və öz fikrində, əxlaqında axıra qədər qalır. Deməli, insanları bu nümunədə tərbiyə etmək lazımdır".

Cəmiyyətdəki mənfi cəhətləri bir az "şişirtdiyinə" görə müəllif – Bəxtiyar Vahabzadə yüngülvari tənqid olunmuşdur:

"Mən Bəxtiyar müəllimə bildirmək istəyirəm – bu əsərdə bəzən bir az ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır. Cəmiyyət, insan ümidlə yaşamalıdır, insan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz, bəlkə də, buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar".

Prezident aktyorları gözəl oyun nümayiş etdirdiklərinə görə təbrik etdikdən sonra demişdir:

"Bu əsər adi tamaşaçı üçün çox çətin qavranılan bir əsərdir. Amma həm rejissorun, həm sizin hamınızın birlikdə ifaçılıq sənətiniz insanı, doğrudan da, gərginlikdə saxlayır. Mən iki saatdan artıq davam edən bu tamaşanı çox diqqətlə, gərgin vəziyyətdə dinləyirdim. Sizin bu artistlik, ifaçılıq məharətiniz əsərin bu qədər canlı görünməsinə kömək etdi".

Azərbaycan Prezidenti 1998-ci ilin avqust ayının 27-də Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi haqqında fərman imzalamışdır. Fərman bu sözlərlə başlanır:

"Azərbaycan teatr sənətinin qədim və zəngin tarixi vardır. Əmək fəaliyyətilə bağlı oyunlar və rəqslər, mövsüm bayramları, aşıq sənəti, meydan mərasimləri, "Qaravəlli" tipli müxtəlif tamaşa növləri xalq teatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Xalq teatrının repertuarını

təşkil edən əxlaqi və tərbiyəvi əhəmiyyətə malik əsərlərlə yanaşı, dini tamaşalar da teatr sənətinin formalaşmasında özünəməxsus rol oynamışdır".

Fərmanda Azərbaycan teatrının təməl daşlarının necə qoyulması xatırladılır:

"Böyük maarifçi Həsən bəy Zərdabinin və görkəmli yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə 1873-cü ildə Bakıda Mirzə Fətəli Axundovun "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının tamaşaya qoyulması Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində dünyəvi peşəkar teatrın təməlini qoydu.

Teatrın böyük əhəmiyyətini dərk edən Azərbaycan ziyalıları Bakıda, Qubada, Şəkidə, Şuşada, Naxçıvanda, həmçinin Tiflisdə və İrəvanda teatr tamaşaları təşkil edirdilər".

Azərbaycan teatrının tarixi, həqiqətən, zəngin olmuş, bir sıra görkəmli yaradıcı şəxsiyyətlərin istedadı, yorulmaz fəaliyyəti ilə bir mərhələdən digər mərhələyə adlamışdır:

"Azərbaycanın görkəmli ziyalıları Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov və başqaları dövrün mühüm hadisələrinin real bədii təsvirini verən pyesləri ilə teatr repertuarını zənginləşdirdilər... Azərbaycanlı gənclər dünya klassiklərinin əsərlərini tərcümə edərək tamaşaya qoymaqla... milli dəyərlərə söykənən yeni tipli teatrın yaradılması işinə xidmət edirdilər.

Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Sidqi Ruhulla, Ülvi Rəcəb və başqalarının səyləri nəticəsində Azərbaycanda milli peşəkar aktyorlar məktəbi formalaşdı".

Sovet ideologiyasının məlum təzyiqləri də Azərbaycan teatrını milli əsaslardan məhrum edə bilməmişdir:

"Sovet hakimiyyəti illərində Azərbaycan teatrı yad ideoloji təsirlərə məruz qalsa da, öz milli varlığını qoruyub saxlaya bilmiş və respublikanın mədəni həyatında fəal rol oynamışdır.

...30-cu illərdə Üzeyir Hacıbəyovun "Koroğlu" və Müslüm Maqomayevin "Nərgiz" operalarının səhnəyə qoyulması Azərbaycan opera sənətində yeni mərhələnin başlanğıcını bildirdi... Bu tipli operaların yaranması Bülbül və Şövkət Məmmədova kimi böyük sənətkarların öz nadir istedadlarını nümayiş etdirmək imkanlarını artırdı".

Teatrın inkişafında balet sənətinin meydana çıxmasının əhəmiyyəti xüsusi olaraq qeyd edilmişdir:

"1940-cı ildə ilk milli Azərbaycan baleti – Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baleti tamaşaya qoyuldu. 1952-ci ildə isə Qara Qarayevin məşhur "Yeddi gözəl" baletinin səhnəyə qoyulması respublikanın mədəni həyatında əlamətdar hadisəyə çevrildi.

...İlk Azərbaycan balerinası Qəmər Almaszadənin həm baletmeyster, həm də pedaqoq kimi Azərbaycan baletinin formalaşmasında və milli xoreoqrafiya kadrlarının hazırlanmasında böyük əməyi olmuşdur. Klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs

yaradıcılığı xüsusiyyətlərini birləşdirən Azərbaycan balet məktəbi böyük uğurlar qazandı”.

Əlbəttə, Azərbaycan xalqının dövlət müstəqilliyinə nail olmasında teatrın da özünəməxsus xidmətləri olmuşdur:

“Milli mədəniyyətimizin inkişafında, vətənpərvərlik hisslərinin aşılanmasında, yüksək əxlaqi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan teatrı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir. O öz fəaliyyəti ilə xalqın milli sərvətinə çevrilmişdir...

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə milli teatrımızın inkişafı üçün geniş perspektivlər açılmışdır. Teatrlar müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir”.

1998-ci ilin oktyabr ayının 9-da Azərbaycan Dövlət Musiqili Komediya Teatrının yeni binasının açılışında iştirak edən Azərbaycan Prezidenti öz nitqində “mən nə üçün Azərbaycan teatrına və onun tarixinə bu qədər çox böyük əhəmiyyət verirəm?” sualını cavablandıraraq söyləmişdir ki, “çünki teatr Azərbaycanda mədəniyyətin, xalqımızın milli ruhunun, milli dirçəlişinin inkişafında, ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynamışdır. Azərbaycanda teatr dərin köklərə malikdir və insanlar teatrı sevirlər”.

Görkəmli mesenat Hacı Zeynəlabdin Tağıyevin tikdirdiyi teatr barədə bəhs edilmişdir:

“Burada – bu gün biz toplaşdığımız yerdə əsrin əvvəlində Hacı Zeynəlabdin Tağıyev təşəbbüs göstərərək teatr binası tikdirmişdir.

... Mən Tağıyev teatrının binasına ilk dəfə uşaqkən, 1937-ci ildə gəlmişəm. Ondan sonrakı illərdə də mən gəlib burada bir çox tamaşalara baxmışam. Azərbaycanın böyük sənətkarları bu binada öz yaradıcılıqlarını, teatr sənətini inkişaf etdiriblər, xalqımıza xidmət göstəriblər”.

Tağıyev teatrına müstəqillik illərində yeni həyat verilməsi Azərbaycanda ümumən mədəniyyətə münasibətin çoxsaylı təzahürlərindən biri idi:

“Bu bina həqiqətən çox gözəldir. Bir daha qeyd edirəm, biz Hacı Zeynəlabdin Tağıyevə rəhmət oxumalıyıq. Ancaq yaranan bu bina, şübhəsiz ki, əvvəlkindən qat-qat fərqlənir. Burada deyildiyi kimi, bu bina öz avadanlığı, texnikası, texnologiyası ilə müasir tələblərə cavab verir. Güman edirəm ki, bu özü müstəqil Azərbaycan dövlətinin, hətta bu çətin dövrdə mədəniyyətə, teatra nə qədər böyük qayğı göstərdiyini nümayiş etdirir”.

Çünki mədəniyyət tarixin hansı ictimai-iqtisadi formasiyası, ukladı olursa-olsun cəmiyyətin səviyyəsini göstərən əsas əlamətdir:

“Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcəyik, xalqımızın mədəniyyətini daha da yüksəklərə qaldıracağıq”.

Azərbaycan Prezidenti 1998-ci ilin noyabr ayının 15-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Fikrət Əmirovun "Sevil" operasının yeni quruluşda ilk tamaşasına baxdıqdan sonra yaradıcı kollektivlə görüşüb söhbət edərkən demişdir:

"Bu tamaşanın yeni quruluşda hazırlanması çox əlamətdar hadisədir. "Sevil" operası Azərbaycan Opera və Balet Teatrının səhnəsində çoxdan göstərilmir. Bu, çox dəyərli bir sənət əsəridir. Azərbaycanın musiqi və opera sənətinə böyük töhfədir.

... 45 il öncə "Sevil" operası yarananda da mən onun ilk tamaşasında olmuşam. Rəhmətlik Fikrət Əmirovla mənim şəxsi münasibətlərim və dostluğum var idi... 50-ci illərin əvvəllərində bu operanın yaranması ictimaiyyətə artıq məlum idi. Ona görə də operasevərlər bu əsəri səbirsizliklə gözləyirdilər".

Cəfər Cabbarlının "Sevil" pyesinin vaxtilə Azərbaycan cəmiyyətinin həyatına, xüsusən qadın azadlığına nə qədər təsir göstərmiş olduğunu yada salan Prezident əlavə etmişdir:

"Deyirdilər ki, o vaxt qadınlar Bakıda indi bizim bərpa etdiyimiz Hacı Zeynəlabdin Tağıyevin teatrına çadra altında gəlirdilər. Bunu siz də tamaşada göstərdiniz. Əsər o qədər təsirli idi ki, tamaşaya baxan qadınlar heç nədən – atasından, qardaşından, ərindən çəkinmədən zaldan çadralarını atıb çıxırdılar".

Tamaşanın uğuru, sənətkarlıq səviyyəsi, ifaçıların peşəkarlığı xüsusi qeyd olunmuşdur:

"Opera müasirləşibdir. Bunun özü də böyük işdir. Dekorasiyalar da çox gözəldir.

... Əsərin əsasını təşkil edən, şübhəsiz ki, musiqidir. Orkestr çox gözəl çaldı. Dirijor da yaxşı idarə edirdi. Amma bunların hamısını səhnədə göstərən, söz yox ki, siz ifaçılarsınız. Xuraman Qasımova, həmişə olduğu kimi, bu gün də bizi yenə də heyrətə gətirdi, çox sevindirdi.

... Azər Zeynalov da Balaş rolunu çox gözəl ifa etdi".

"Sevil" operasının Fikrət Əmirov yaradıcılığındakı, ümumən Azərbaycan opera sənətindəki yeri barədə mötəbər fikir söylənilmişdir:

"Sevil" operası Azərbaycan opera sənətinin ən parlaq əsərlərindən biridir. Müqayisə etmək istəmirəm, mən sənətşünas, musiqişünas deyiləm və bu vəzifəni də öz üzərimə götürmək istəmirəm. Ancaq hesab edirəm ki, Fikrət Əmirov "Sevil" operası ilə yaradıcılığının ən yüksək zirvəsinə qalxmışdır".

Prezident böyük bəstəkar haqqındakı xatirələrini danışmış, bütün səmimiyyəti ilə onun son dərəcə mükəmməl obrazını təqdim etmişdi:

"Əgər 1953-cü ildən Fikrət Əmirovla yaxın əlaqədə idimsə, tamaşasında (*söhbət "Sevil" operasından gedir – N.C.*) iştirak edib onu təbrik etmişdimsə, bu da bizim əlaqələrimizi göstərir. O vaxt da mən ona çox mənəvi dayaq olurdum. Hətta bəzi fikirlərini, dərdlərini mənə danışırdı. Amma respublikaya rəhbərlik etməyə başladıqdan sonra, bilirsiniz ki, mən həmişə mədəniyyətə böyük qayğı göstərmişəm. Məhz bu qayğının nəticəsi idi ki, o, sonra "Nizami" simfoniyasını, "Min

bir gecə" baletini yaratdı. Onun böyük istedadı, potensialı vardı. Ancaq bu potensialı reallaşdırmaq üçün ona kömək etmək lazım idi. Biz o vaxtlar ona bu köməyi, yardımı etdik. O, doğrudan da, Azərbaycanın incəsənətində, mədəniyyətində, musiqisində böyük iz qoyub getmişdir".

Azərbaycan Prezidenti 1998-ci ilin dekabr ayının 4-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasının yeni quruluşda ilk tamaşasına baxdıqdan sonra yaradıcı kollektivin üzvləri ilə görüşmüş, onları təbrik edərək demişdir:

"Məşədi İbad" tamaşasını çox gözəl göstərdiniz. Düzdür, biz bunun hamısını görmüşük. Məsələn, mən bu tamaşanı Azərbaycan teatrında 40-45 il bundan öncə də görmüşəm. Sonra bunu bizim böyük rejissorumuz Hüseyn Seyidzadə filmə çəkdi. O çox gözəl filmdir.

... Siz bu əsərə yenidən səhnə həyatı verdiniz... Quruluşçu rejissor Cənnət xanımı təbrik edirəm ki, belə gözəl quruluş yaradıbdır... Gərək Hacıbabanın, Afaq xanımın adlarını çəkəm. Bağışlasınlar, başqalarının adlarını bilmirəm. Hamınız rolları çox gözəl ifa edirdiniz".

Əlbəttə, Üzeyir Hacıbəyovun çoxşaxəli yaradıcılığında dramaturgiyası öz orijinallığı ilə yanaşı, ideya-estetik kamilliyi ilə xüsusi yer tutur:

"Mən bu gün sizin hazırladığınız tamaşaya baxarkən bir daha hiss etdim ki, Üzeyir Hacıbəyov nə qədər dahi bir insan imiş. İndi bu əsər, - buna operetta da, musiqili komediya da desəniz, - amma bu əsərin əsasını təşkil edən bunun dramaturgiyasıdır... Yəni biz Üzeyir Hacıbəyova, adətən, deyirik ki, bəstəkardır, musiqi yazandır. Şübhəsiz ki, Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti də böyük olubdur. Ancaq Üzeyir Hacıbəyov bu əsərləri birinci növbədə dramaturq kimi yaradıbdır".

Məşədi İbadın məşhur monoloqunu xatırlatdıqdan sonra Prezident demişdir:

"Bu sözlər adi sözlər deyildi. Üzeyir Hacıbəyov o vaxt deyib, bəli, Bakı qoçusu da var, Şamaxı lotusu da var, Gəncə qumarbazı da var, Qarabağın pambıq bəyi də var. Əgər bunu bir az da uzatsaydı, başqalarını da deyə bilərdi. Yəni o dövrün xüsusiyyətlərini, cəmiyyətin tərkibini göstəribdir".

Üzeyir Hacıbəyovun həyat həqiqətinə sədaqəti, bu həqiqətləri təbii tarixi konteksti ilə (və zədələmədən!) oxucuya, tamaşaçıya çatdırmaq məharəti qeyd olunmuşdur:

"Mən şəxsən belə bir qənaətə gəlirəm ki, bu əsər dahi bir əsərdir. Bu heç də gülmək üçün yazılmayıbdır, bəlkə də, bəzilərinin ağlaması üçün yazılıbdır. Bu, zamanın reallığıdır, faciəsidir. Bu, əsərdəki hər bir epizodda görünür. Demək, kasıb Rüstəm bəydən pulnan qız almaq olarmış. Bu, doğrudan da, o dövrün həqiqətidir. Yaxud indi də bəzi jurnalistlər deyirlər ki, "pul ver, gedim məqalə yazım". Bəzən hesab edirlər ki, bu, demokratiyanın, mətbuat azadlığının nəticəsidir. Demək, bu, yüz il bundan öncə də olubdur".

Prezident tamaşada təsvir olunan cəmiyyətin digər üzvləri haqqında da öz mülahizələrini söyləmiş, əsərdə işlənən "dünya xarab olub" ifadəsinin fəlsəfəsini izah etmişdir:

"Tamaşada tost söylənilən səhnədə deyir ki, dünya get-gedə xarab olur. Üstündən yüz il keçibdir, indi də deyirlər ki, dünya get-gedə xarab olur. Amma dünya xarab olmur. Boş söz danışan adamlar iş görmək əvəzinə orada danışıq aparır, burada söz gəzdirir və deyir ki, dünya xarab olur. Dünya xarab olmur. İndi görün XX əsrdə dünya nə qədər inkişaf edibdir!... Əsrin əvvəlinə, Üzeyir Hacıbəyov bu əsəri yaratdığı dövrə baxın, XX əsrin sonuna baxın. Görün dünya nə qədər inkişaf edibdir, o cümlədən Azərbaycan nə qədər inkişaf edibdir. Amma bu gün də yüz il bundan əvvəlki kimi, adamlar çayxanada oturub deyirlər ki, dünya, hər şey xarab olur".

* * *

Azərbaycan Prezidenti azərbaycanlı kinorejissor Vaqif Mustafayev və gürcü kinooperator Lomer Axvelidiani ilə söhbətində (27 sentyabr 1999-cu il, Prezident sarayı) həm öz tərcümeyi-halının, ictimai-siyasi fəaliyyətinin, həm də sənədli kino yaradıcığının bir sıra məqamlarına toxunmuşdur:

"Fürsətdən istifadə edərək, tariximizin müəyyən mərhələlərini olduğu kimi, necə deyərlər, sənədlər əsasında canlandırmaq üçün çəkdiyi böyük zəhmətə görə gözəl kinorejissorumuz Vaqif Mustafayevə təşəkkürümü bildirmək istəyirəm. Axı kimdən və nədən bəhs etməsindən asılı olmayaraq tarixi səpkili sənədli filmlər çox böyük əhəmiyyətə malikdir".

Söhbətdə sənədli filmin müasir dövrdə böyük maraq kəsb etdiyi barədə bəhs olunmuşdur:

"Sənədli kino xüsusi əhəmiyyətə malikdir. Əlbəttə, adamlar bədii filmə baxarkən gördüklərinə inanır və bunu gerçəklik hesab edirlər. Təbiidir ki, bu, əksər hallarda gerçəkliyin təqlidi deyil, əks olunmasıdır.

...Əlbəttə, bədii, peşəkarlıq səviyyəsi layiqincə olduqda sənədli kino xüsusi dəyər kəsb edir. Ona görə də indi, məsələn, XX yüzillik ərzində bizdə neft sənayesinin necə inkişaf etdiyini göstərəndə, əsrin əvvəllərinə aid hər hansı sənədli kadrları göstərəndə, bunlar hətta bir an, hətta bir saniyə, bir dəqiqə çəksə də, bizə görün necə təəssürat bağışlayır!"

Prezident "Əsrin müqaviləsi" televiziya filmini təqdir etməklə yanaşı, Neft Daşlarının kəşfinə həsr olunmuş köhnə ağ-qara kadrların onda necə hisslər oyatdığını söyləmişdir:

"Dünən axşam mən "Əsrin müqaviləsi"nin imzalanmasının beşinci ildönümünə həsr edilmiş televiziya filminə baxdım. Onu Azərbaycan televiziyası çəkmişdir. Söz düşmüşkən, çox yaxşı filmdir, xoşuma gəldi. Bunun necə olduğuna baxmaq mənə çox maraqlı idi, hərçənd bütün bunlar gözlərim qarşısında baş vermişdir. Amma

Azərbaycan neftçilərinin Neft Daşlarını necə kəşf etdikləri barədə, 1949-cu ildə, – yəqin, biz tezliklə bu tarixi də qeyd edəcəyik, – dənizin ortasında dünyada ilk dəfə neft fontan vurduqda onların necə sevindikləri burada 50 il əvvəl çəkilmiş və bəlkə də, çox gözəl olmayan qara-ağ təsvirli kadrlar göstərildikdə, olduqca sevindim, xüsusi hisslər keçirdim, halbuki həmin kadrları keçmişdə dəfələrlə görmüşdüm”.

Azərbaycanda 70-ci illərdəki iqtisadi yüksəlişin sənədli kadrlarda əks olunması barədə danışılmışdır:

“Mənim burada işlədiyim 70-ci illər dövrünə aid, neft mədənlərinə, neft sənayesi ilə bağlı zavodlara getməyim haqqında bəzi sənədli kadrlar da göstərirdilər. Bunlara baxmaq mənim üçün də maraqlı idi. Hərçənd, təkrar edirəm, mən çox şeyləri xatırlayıram. Amma bunların mənim xatirimdə olması bir şeydir, əyani surətdə göstərmək isə başqa şeydir.

Ona görə də sənədli kino böyük işdir və bu işlə məşğul olan sənətkarlar böyük iş görürlər.

Siz Roman Karmenin Neft Daşları haqqında çəkdiyi “Xəzəri fəth edənlər” adlı məşhur kinofilmini xatırlayırsınızmı? Necə gözəl film idi! Karmen sənədli filmin böyük ustadı idi”.

Ulu Öndərin ictimai-siyasi fəaliyyəti barədə Vaqif Mustafayevlə Lomer Axvelidianinin çəkdikləri filmlərdə, əlbəttə, yalnız dahi Liderin deyil, ümumən Azərbaycan xalqının həyatı, taleyi haqqında söhbət gedir ki, sənədli film bunun ifadəsi üçün ən münasib janrdır:

“Sənədli kinodan danışarkən demək istəyirəm ki, sizin filminizə baxmaq, əlbəttə, mənə xoş idi. Ona görə yox ki mənim keçmiş həyatım və fəaliyyətim barədə sənədli kadrlar nümayiş etdirilir. Yalnız ona görə ki təkcə mənim üçün yox, ən çox da mənim üçün yox, məhz xalqım üçün həqiqətən çox mühüm olan elə faktlar var ki, onları nə sözlə, nə məqalə ilə, nə də kitabla sənədli kinokadrlardakı kimi çatdıra bilməzsən”.

Prezident filmin tarixi əhəmiyyətini qeyd etmiş, burada haqqında bəhs olunmuş hadisələrin gələcək nəsillər üçün böyük maraq kəsb edəcəyini söyləmişdi:

“Bilirsiniz, orada (*Ümummilli Lider haqqında Vaqif Mustafayev ilə Lomer Axvelidianinin çəkdiyi filmdə - N.C.*) ... maraqlı cəhətlər, həqiqətən, çoxdur. Özü də təkcə mənim üçün yox, xalqımız üçün də, indiki və gələcək nəsillər üçün də. Qoy onlar bilsinlər ki, nə vaxt və nələr olubdur. Çünki insan yaddaşı çox qısadır. İnsan keçmişi çox tez unudur. Məsələn, bu filmin kadrları o vaxtları, sizin dediyiniz kimi, çox yaxşı əks etdirir. Bununla belə, açığını deyəcəm, mən bugünkü işlə məşğul olarkən o vaxtlar nələr baş verdiyi barədə heç vaxt düşünməmişəm. Bu, mənim özümə də maraqlıdır, çox şeyləri yada saldı. Axı mən də insanam və heç də hər şeyi xatırlamıram. Ona görə də bu, mənim üçün çox maraqlı idi”.

Çox təəssüf ki, Heydər Əliyevdən sonra Azərbaycana “rəhbərlik edən” şəxslər Ulu Öndərin 70-ci, 80-ci illərdə gördüyü, millətin tərəqqisinə xidmət etmiş inqilabi

işləri gözdən salmaq, unutdurmaq qəsdi ilə həmin illərdə çəkilmiş rəsmi kadrları da məhv eləməkdən çəkinməmişlər:

“Təəssüf ki, bizdə belə dövrlər də olub, 1987-ci ildə mən Moskvada bütün vəzifələrdən istefaya getdikdən sonra və bir neçə il hücumlara məruz qaldığım vaxt, mənə məlum olduğuna görə, burada bəzi sənədli kadrlar məhv edilmişdir. Halbuki maraqlı şeylər çox idi, hər halda 14 il respublikaya rəhbərlik etmişdim, burada qaynar, çox fəal həyat olmuş, istər beynəlxalq, istər ümumittifaq, istərsə də Azərbaycan xarakterli çox hadisələr baş vermişdi, iqtisadiyyatın, mədəniyyətin bütün sahələrində əməli işlər görülürdü və sair. Çox işlər olmuşdur. Deyirlər ki, heç də bütün kadrlar saxlanılmayıb, bəzi bədxah insanlar onları məhv ediblər”.

Görüşün sonunda söhbət Vaqif Mustafayevin “Hər şey yaxşılığa doğru” filmindən düşmüş, müəllif söyləmişdir:

“Mən bu film barədə təkcə bir kəlmə deyəcəyəm. Oberhauzendə keçirilən nüfuzlu festivalda bu film birdən-birə dörd mükafat qazanmışdır. Demək istəyirəm ki, əvvəllər Qarabağa dair filmi yaxına belə buraxmırdılar, qalsın ki, ona dörd mükafat versinlər. Cənab Prezident, bu da Sizin xidmətinizdir ki, Qarabağa dair filmlərimizi artıq buraxırlar. Halbuki belə filmləri qəbul etmirdilər... Artıq bizi dinləyirlər, bizim filmlərə baxırlar”.

Azərbaycan Prezidenti 1999-cu ilin oktyabr ayının 8-də Bakıda açılmış “Qərb-Şərq” kinofestivalının iştirakçıları ilə Prezident sarayında görüşərkən çıxış edib demişdir:

“Əvvəla, sizə yəqin maraqlıdır ki, Azərbaycanda incəsənətə, mədəniyyətə, kinoya, teatra, musiqiyə maraq getdikcə artıq, ölkəmizin mədəniyyət xadimləri həm cəmiyyətin, həm də dövlətin qayğı və diqrəti ilə əhatə olunmuşdur, əlbəttə ki, mümkün dərəcədə”.

Prezident öz xatirələrini söyləmişdir:

“Mən o kinoteatrı (*söhbət “Azərbaycan” kinoteatrından gedir – N.C.*) xatırlayıram. Gənclik illərində biz kinonu sevirdik, o vaxtlar kinoteatrlar axşamlar adamların getdiyi başlıca yer idi. Xatirimdədir, orada, foyedə həmişə estrada orkestri çalırdı, biz gəlib musiqini dinləyirdik, sonra da salona daxil olub filmə baxırdıq. Doğrudur, bəzən bilet tapmaq çətin olurdu. Yadımdadır, mən dəfələrlə növbədə dayansam da bilet ala bilməmişdim, bəzən əldən alırdım. Odur ki, bu kinoteatr, eləcə də Bakıdakı bir çox kinoteatrlar mənə çox yaxşı məlumdur. Mənim gəncliyim Bakıda keçmişdir”.

Prezident görüşdə iştirak edən türkmən kinorejissoru Hocaqulu Narlıyevi dinlədikdən sonra demişdir:

“Sizi dinləmək mənə xoş idi, çünki Türkmənistan yaxın qonşumuzdur, biz dostuq, ümumi tarixə, ümumi keçmişə, ümumi köklərə malikik. Türkmənistanın uğurları bizi həmişə sevindirmişdir. Siz bilirsiniz ki, gözəl Azərbaycan və türkmən rejissoru Əjdər İbrahimov azərbaycanlıdır, amma Türkmənistanda doğulub boya-başa çatmış, öz fəaliyyətini orada başlamış, sonra Moskvada “Mosfilm”də işləmişdir. Yeri gəlmişkən

o mənim yaxın dostum idi... O vəfat edəndə mən göstəriş verdim, biz onu buraya gətirdik və Bakıda Fəxri xiyabanda dəfn etdik.

...Bir fikir verin, o həm türkməndir, həm də azərbaycanlı, sovet kinematoqrafı üçün də çox şey etmişdir".

* * *

Azərbaycan Prezidenti 1997-ci ilin sentyabr ayının 20-də Milli dram Teatrında professor İhsan Doğramacı ilə birlikdə İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasına baxmış, sonra isə teatrın yaradıcı kollektivi ilə görüşdə demişdir:

"İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir".

Bu cür əsərlərin məhz Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsi olduğu göstərilmişdir:

"Bu gün mənim əziz dostum İhsan Doğramacıya danışırdım, – qonaqlardan biri soruşdu ki, keçmiş zamanlarda da belə bir pyesi tamaşaya qoymaq olardımı? Dedim, ola bilməzdi. Çünki o vaxtlar bunun əksinə olan mövzuda tamaşalar göstərilirdi. Təəssüflər olsun. Bu heç kimin günahı deyil – nə sizin, nə bizim, nə mənim, nə onun. Ümumiyyətlə, yaşadığımız dövrün, o dövlətin və quruluşun yaratdığı vəziyyət idi. Ancaq həqiqət ondan ibarətdir ki, 1964-cü ildə, siz bilirsiniz, Azərbaycanın Rusiyaya könüllü surətdə qatılmasının 150 illik yubileyi təntənəli qeyd olundu".

Prezident xatırlatmışdır ki, vaxtilə Azərbaycan ziyalıları Azərbaycanın Rusiyaya könüllü şəkildə deyil, zorla birləşdirildiyini aşkara çıxarmışdılar:

"Mən bunu bir dəfə demişəm. Bir neçə il ondan sonra, 1968-ci ildə bizim böyük alimimiz, zəhmətkeş akademik Ziya Bünyadov bir balaca cəhd göstərdi və demək istədi ki, biz o vaxt Rusiyanın tərkibinə könüllü daxil olmamışıq – bu, könüllü olmayıb, yəni özümüz müraciət etməmişik. Ona nəsə etmək istədilər, o tərəf-bu tərəfə çəkdilər, cəzalandırmaq istədilər. Mən ona kömək etdim. Çox böyük alim olduğuna, özü də İkinci Dünya müharibəsinin qəhrəmanı olduğuna görə bəzi xeyirxah adamların, o cümlədən mənim yardımımla – o vaxt mən burada DTK-ya rəhbərlik edirdim, – imkan vermədim ki, ona nəsə etsinlər".

Dövlət başçısı bildirmişdir ki, bütün hallarda xalq öz tarixinin həqiqətlərini bilməli və vətənpərvərlik hisslərinin oyadılması da həmin həqiqətlərə əsaslanmalıdır:

"Heç kəsi günahlandırmaq lazım deyil. Amma eyni zamanda bütün vasitələrlə, o cümlədən mədəniyyət, ədəbiyyat, teatr vasitəsilə indi həqiqəti xalqa bildirmək lazımdır.

...Ancaq bu əsərin ikinci tərəfi də var. Bir var ki, bizim tariximizi aydınlaşdırır, amma ikinci tərəfi bundan da əhəmiyyətlidir. Xalqımızda vətənpərvərlik yaradır, müstəqillik, milli azadlıq hissiyyatlarını beyinlərə həkk etdirir".

Azərbaycan xanlıqları arasındakı münaqişələr də tarixin həqiqətidir. Və həmin münaqişələr ölkənin əsarət altına düşməsinin, eyni zamanda uzun illər əsarət altında qalmasının əsas səbəbidir:

"Bu bir həqiqətdir ki, xanlar o vaxtlar bir-biri ilə çəkişməsəydilər, ədavət aparmasaydılar, bəli, iddiada olmasaydılar, biri o birisinə hörmət edib hamısı birləşsəydilər buna (*söhbət müstəqillikdən gedir – N.C.*) nail ola bilərdilər. Düzdür, İbrahim xan bundan çox şikayətlənir ki, mən xanlıqları birləşdirmək istəyirəm, amma birləşmirlər. Əsərin bir yerində o deyir ki, xanlar qorxurlar ki, mən şah olacam. Bu da həqiqətdir. Çünki İbrahim xan da istəyirdi şah olsun, Kəlbəli xan, Cavad xan, Quba xanı Fətəli xan da. Şəki xanı da şah olmaq istəyirdi. Bəli, hər biri istəyirdi şah olsun. Ancaq bunlar bir yerdə olsaydılar, yığışıb hamısı desəydilər ki, gəlin bir nəfəri şah seçək və ona da itaət edək, əlbəttə ki, bu faciələrdən, bəlkə də, xilas olmaq mümkün olardı. Amma bunlar olub keçib".

Azərbaycanın müstəqilliyinin ilk illərində ölkədə baş vermiş özbaşınalığın, siyasi çəkişmələrin də bu tarixin birbaşa "varis"i olduğunu qeyd edən Prezident əlavə eləmişdir ki, "bu gün çox böyük təəssüratlar altındayam. Hesab edirəm ki, bizim mədəni həyatımızda çox əlamətdar bir hadisədir. Bu əsəri geniş təbliğ etmək lazımdır. Bizim gəncləri bu tamaşaya mütləq gətirmək lazımdır – universitetlərdən, məktəblərdən gəlsinlər, baxsınlar".

1997-ci ilin sentyabr ayının 21-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Azərbaycan Prezidenti professor İhsan Doğramacı ilə Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili tamaşasını yeni quruluşda seyr etdikdən sonra yaradıcı kollektivlə görüşüb söhbət edərkən demişdir:

"Mən salonda əyləşib tamaşaya baxdıqca düşünürdüm... Bu əsər 1911-ci ildə yazılıbdır, o vaxtdan indiyədək daim Azərbaycan teatr səhnəsində göstərilibdir, sonra isə film çəkilibdir. Bu əsər həm teatr tamaşası kimi, həm də kinofilm kimi təkcə respublikamızı yox, bütün dünyanı gəzibdir. Siz bu əsəri... çox məharətlə yenidən tamaşaya qoymusunuz.

...Əsgər rolunu mərhum Rəşid Behbudovun yolu ilə gedən gənc müğənnimiz Azər Zeynalov gözəl ifa edir. Gülçöhrə rolunu ifa edən – teatrın solisti Zemfira İsmayılovanı birinci dəfədir ki, görürəm. Soltan bəy rolunun ifaçısı olan Yaşar Nuriyevi hamımız tanıyırıq. Asya, Vəli, Süleyman obrazlarını gənc aktyorlar çox gözəl ifa etdilər".

Azərbaycan Prezidenti 2002-ci ilin dekabr ayının 7-də Azərbaycan Akademik Milli Dram Teatrında Şekspirin "Hamlet" faciəsinin yeni quruluşda ilk tamaşasına baxmış, fasilə zamanı ədəbiyyat, incəsənət adamları ilə söhbətdə demişdir:

"Otuzuncu illərdə "Hamlet" bizim sevimli pyeslərimizdən biri idi... Mən Hamleti Abbas Mirzə Şərifzadənin ifasında görmüşəm... Dünyada ola bilər, yüzə qədər

quruluşda "Hamlet" tamaşası olsun. Hər rejissor, hər aktyor onu özünün bildiyi kimi göstərir. Amma bunun əsası Şekspirin yaradıcılığıdır, onun fəlsəfəsidir... Mən çox məmnunam ki, siz bu əsəri səhnəyə qoymusunuz. Əgər siz gələcəkdə də belə əsərləri unutmasanız, yaxşı olar. Çünki hansısa günə aid olan əsərlər gəldi-gedər əsərlərdir. Mən demirəm ki, siz onlardan imtina edəsiniz. Hər günün tələbini də ödəmək lazımdır. Ancaq teatr teatrdır. Bilirsiniz, teatr gərək öz yüksək statusunu həmişə saxlasın".

Fuad Poladovun Hamlet rolunu böyük məharətlə ifa etdiyi xüsusi qeyd olunmuşdur:

"Mən hesab edirəm ki, bu gün Fuad Poladov Azərbaycan teatrında Hamlet rolunu çox məharətlə ifa etdi... Güman edirəm ki, gələcəkdə də klassik əsərlərdə belə rolları ifa etməkdə davam edəcəksən. Bu çox faydalıdır, cəmiyyət üçün faydalıdır. Hər bir rolu ifa etməyin çətinliyi var. Amma belə rolu ifa etmək təbiidir ki, aktyordan böyük istedad, məharət, bilik tələb edir. Çünki ifa etdiyin surətin daxili aləmini dərk edə bilməsən, əsərin fəlsəfəsini duya bilməsən, əlbəttə ki, bu rolu oynamaq mümkün deyildir. Bunların hamısını biz bu gün gördük".

Prezident digər rolların ifası barədə də öz təqdiredici mülahizələrini söyləməklə yanaşı, xarici pyeslərin Azərbaycanda tamaşaya qoyulması zamanı çox gərəkli olan bir fikir də irəli sürmüşdür:

"Bu pyes belədir ki, burada bir rol (*söhbət Hamlet rolundan gedir – N.C.*) hamısından fərqlənir. Ona görə də başqa rolu Fuadın ifası ilə müqayisə etmək mümkün deyildir. Ancaq mən çox məmnunam ki, məsələn, Kraliça rolunun ifaçısı da çox gözəl çıxış edirdi... Ofeliya rolunun ifaçısı da çox gözəl çıxış edirdi. Bu qadın rollarını xüsusi qeyd edirəm. Bilirsiniz bu rollar bizim Azərbaycan həyatının xüsusiyyətinə uyğun rollar deyildir. Çünki bu rolların hamısı Danimarkanın, İngiltərənin o dövrdəki həyatı ilə bağlıdır. Bunları məhz o cür göstərmək, yəni həmin surətləri "azərbaycanlaşdırmamaq" əsas şərtdir. Əgər kimsə Şekspiri istəsə azərbaycanlaşdırsın, bu, əlbəttə ki, mənfi nəticə verəcəkdir".

Azərbaycan Prezidenti 2000-ci ilin may ayının 7-də Azərbaycan Akademik Milli Dram Teatrında Cəfər Cabbarlının anadan olmasının 100 illiyi münasibətilə "Aydın"ın yeni quruluşda tamaşasına baxdıqdan sonra yaradıcı heyətlə görüşərkən demişdir:

"Bu gün sizin tərəfinizdən xalqımıza, vətəndaşlarımıza təqdim olunan bu tamaşa bizim üçün iki cəhətdən əhəmiyyətlidir. Birincisi, bu tamaşa bizim böyük dramaturqumuz, yazıçımız, böyük mütəfəkkirimiz Cəfər Cabbarlının 100 illik yubileyinə həsr olunmuşdur. İkincisi də, bu gözəl teatrın və ümumiyyətlə, Azərbaycanda dünyəvi teatrın yaranmasının 125 illiyinə həsr olunubdur".

Prezident "Aydın" tamaşasının tarixi barədə söhbət açmışdır:

"Aydın" tamaşasını mən keçmiş zamanlarda da görmüşəm. Bizim böyük sənət ustalarımız Ələsgər Ələkbərovun – gərək ki o, Fatma Qədri ilə birlikdə oynayırdı – onların ifasında görmüşəm.

...Ümumiyyətlə, Cəfər Cabbarlının bu pyesi Azərbaycanın bütün teatrsevərləri, sənətsevərləri üçün həmişə qiymətli, əziz olmuşdur".

Ölkə başçısının dəfələrlə göstərdiyi kimi, Cəfər Cabbarlı yaradıcılığı Azərbaycan ictimai fikrinin görkəmli hadisəsidir:

"Cəfər Cabbarlı mədəniyyətimizin, ədəbiyyatımızın böyük, dahi insanlarından biridir. Təsadüfi deyil ki, – mənim xatirimdədir – biz onun 80 illik yubileyini çox təntənəli keçirdik. Azərbaycanda, Bakının ən gözəl guşələrindən birində Cəfər Cabbarlının heykəlini ucaltdıq".

Rejissorun, eləcə də aktyorların yeni nəslinin "Aydın" tamaşasındakı uğurları qeyd olunmuşdur:

"Mikayıl Mirzə, gərək ki, ilk dəfədir rejissorluq işinə başlayıbdır... Əgər bu yolla gedəcəksənsə, mən sənə bu yolda da uğurlar arzulayıram. Baxmayaraq ki, sən bizim dram teatrının, demək olar ki, ən yüksək səviyyədə duran aktyorusan , ümumiyyətlə, bizim mədəniyyətimizin ən yüksək sənətkarlarından birisən.

...Gültəkin rolunu Məleykə xanım çox gözəl, məharətlə ifa etdi. Deyə bilərəm ki, onun ifası heç Fatma Qədrinin də ifasından geri qalmır. Nurəddin Mehdixanlı Aydın rolunu çox gözəl ifa etdi. Burada da yenə müqayisə üçün Ələsgər Ələkbərovu deyə bilərəm. Çünki Ələsgər Ələkbərov mənim hafizəmdə, deyə bilərəm ki, gördüyüm bütün aktyorlardan – mən hətta Abbas Mirzə Şərifzadəni də görmüşəm – onların hamısından mənim üçün yüksəkdir. Doğrudur, qoy Həsən Turabov inciməsin, bu rolu o da oynayıbdır, onu da bilirəm. Ancaq hər dövrün öz hökmü var".

Azərbaycan Prezidenti 2000-ci ilin iyun ayının 25-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Elçinin "Ah, Paris.. Paris..." komediyasına tamaşa etdikdən sonra yaradıcı heyətlə görüşdəki söhbətində demişdir:

"Burada, bu pyesdə söhbət 1991-ci ildən gedir.

...1988, 1989, 1990-cı illərdə xalqın meydanlara toplaşması, küçələrə çıxması – bunlar Azərbaycanın tarixində çox müsbət səhifələr kimi yaşayacaqdır... İndi bizim içərimizdə bəzi adamlar var, hesab edirlər ki, onlar xalqı qaldırıblar, xalqı meydana çıxarıblar, onlar guya sovet hakimiyyətinə qarşı mübarizə aparıblar, onlar Azərbaycanın müstəqilliyinə nail olublar. İndi tarix artıq göstərir ki, bunlar nəinki yanlış fikirlərdir, hətta cəfəngiyyatdır".

Və əlavə etmişdir:

"Azərbaycanda millətin, xalqın küçələrə çıxmasına, meydanlara toplaşmasına əsas səbəb o vaxt – Ermənistan Azərbaycana təcavüz etdiyi zaman, artıq təcavüz müharibəyə çevrildiyi bir zaman, Sovetlər İttifaqı mövcud olduğu bir zaman və Sovetlət İttifaqının çox güclü dövləti, güclü hüquq-mühafizə orqanları, güclü ordusu olduğu bir zaman Sovetlər İttifaqı rəhbərliyinin – indi kimsə, hansı personajsa Qorbaçovun da adını çəkdi ki, onun başında hansısa ləkə var, ona görə dünya dağıldı – onların ədalətsizliyi, Azərbaycan xalqına qarşı ədalətsizliyi idi".

Prezident tamaşadakı müəllif qayəsi barədə öz fikrini bildirərək demişdir:

“Mən bu gün belə anladım ki, Elçinin məqsədi ondan ibarət olubdur ki, ölkənin bu ağır vaxtında, çətin vaxtında xalqın hamısının birləşib millət haqqında, torpaq haqqında düşünməsinin əvəzinə, bəziləri yenə də mal-dövlət dalınca gedir və bu, mənəvi əxlaqsızlıqdır. Yəni əsərdə mənəviyyat məsələsinə toxunulur.

...İnsanı yüksəldən, insanı insan edən, adamı adam edən və insanı vətəndaş edən onun mənəviyyatıdır”.

Azərbaycan Prezidenti “Ah, Paris... Paris...” ilə “Ölülər” arasında, həqiqətən son dərəcə maraqlı müqayisə aparmışdır:

“Mən bu əsərə baxanda bir az həmin o mövzu yadıma düşür ki, indi görün, Azərbaycan belə ağır, çətin vəziyyətdədir – Ermənistan hücum edibdir, ölkə dağılır, iqtisadiyyat dağılır, insanların həyatı dağılır – Şeyx Nəsrullah kimi Parisdən bura bir milyonçu gəlib, hamı, ət kombinatının müdiri də istəyir Parisə getsin, o partokrat da... O vaxt bizim xalqımız, bir tərəfdən, həqiqətən öz mənliyini göstəribdir, amma ikinci bir tərəfdən də, nə qədər mənəviyyatsızlıq olubdur, nə qədər qüsurlar olubdur...”

Azərbaycan Prezidentinin nəzərində televiziya, kino, xüsusilə teatr ona görə yüksək mövqedə dayanır ki, həmin sənət sahələrinin hər biri daim inkişafda, tərəqqidə olan həyatın müxtəlif səhnələrinin birbaşa təcəssümünü nümayiş etdirir.

* * *

Azərbaycan dilinin, ədəbiyyatının və incəsənətinin tarixi naliyyətlərinin xalq arasında geniş təbliği, milli dəyərə çevirlməsi, həmçinin genetik köklər üzərində yeni, müasir Azərbaycan mədəniyyətinin möhtəşəm əsərlərinin yaradılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin xidmətləri yalnız keçmişdə qalmır, gələcəyin strateji “yol xəritəsi” olaraq da xalqın milli mədəni tərəqqisinin əsaslarını müəyyən edir.

Nizami Cəfərov

# HEYDƏR ƏLİYEV:
## dil, ədəbiyyat və incəsənət

Bakı - BDU - 2023

9 789952 546804

Çapa imzalanıb: 05.12.2023
Format: 70x100 16/1. Təbaşirli kağız.
Həcmi: 20 ç.v. Tiraj: (I z.) 300 nüsxə.

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
Bakı şəh., ak. Z. Xəlilov küç. 33
Tel: (+99412) 538 87 39 / 538 50 16
bdumetbee@gmail.com
www.bsu.edu.az